**SEYYİD ƏLİ ƏKBƏR OCAQNEJAD**

# AŞURA DƏRSLƏRİ

**Redaktor:** Seyid Əliəsgər Behbudlu

# ƏHLI-BEYT

## HƏZRƏT PEYĞƏMBƏRİN(S) ƏHLİ-BEYTİ VƏ İMAM HÜSEYN(Ə)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ لِلهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رَسُولُ اللهِ اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ اللهِ وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداءِ اللهِ اِلى يَوْمِ لِقاءِ اللهِ

Əbu Hüreyrə Ümmi Sələmədən belə rəvayət nəql edərək deyir:

– Bir dəstə insan əyləşib Peyğəmbər(s) və Əhli-beyti(ə) barədə söhbət edərkən, bir dəstə mələk də gəlib onların ətrafında əyləşər. Söhbət edib qurtarandan sonra hərə öz evinə dağılışır. Mələklər də öz yerlərinə (ərşə) qayıdarlar. Ərşdə olan mələklər onlardan soruşar: “Sizdən necə də gözəl ətir iyi gəlir. Haradan gəlirsiz belə?” Onlar cavab verirlər: Yerdə Peyğəmbərin(s) ümmətindən bir neçə nəfər yığışıb onun və Əhli-beytinin(ə) barəsində söhbət edirdilər. Biz də onların kənarında əyləşdiyimizə görə Allah bizi də belə ətirli etmişdir. Bizdən gələn həmin gözəl iy onların ətirlərinin iyidir. Ərşdə olan mələklər onlara deyərlər, bizi də aparın, gedib həmin şəxsləri ziyarət edək və onların ətirli iyləri ilə özümüzü müəttər edək. Həmin mələklər deyər: Onlar dağılışıb öz evlərinə getdilər. Onlar deyərlər, elə isə bizi də aparın gedib onların əyləşdiyi yerləri ziyarət edək. Həmin mələklər

onları yer üzünə gətirər və oranı ziyarət edib ətirlənəndən sonra yenidən ərşə qayıdarlar.

Bu rəvayəti şair nəzmə çəkərək deyir:

Bequ Hüseyn, ke busəd Mələk dəhane tora,
Mələk dəhane to busəd, fələk zəbane tora.
Məkan begir bekonci, bequ Hüseyno benaz,
Ke Cəbrəil ziyarət konəd məkane tora.

– Hüseynin adını zikr et ki, mələklər ağzından öpsun. Mələk ağzından, fələk dilindən öpsün. Bir küncdə əyləş, Hüseyni çağır və sevin, Cəbrayıl sənin əyləşdiyin yeri ziyarət etsin.

Bir rəvayəti də Cabir ibn Abdulla Ənsaridən nəzərinizə yetirirəm. O, bu hədisi Həzrət Fatimeyi Zəhradan(s.ə) nəql edir.

Cabir ibn Abdulla Ənsari Peyğəmbərin(s) səhabələrindən biri idi. O, İmam Baqirin(ə) zamanına qədər yaşamışdır. İmam Hüseyn(ə) şəhid olandan sonra birinci şəxs idi ki, Kərbəlada Fəratın suyu ilə qüsl edib, şagirdi Ətiyyə ilə İmam Hüseynin(ə) mübarək qəbrini ziyarət etmişdi. İmam Hüseyn(ə) şəhid olandan sonra o Həzrətin ilk zəvvarı Cabir olmuşdu. Onun atası Abdulla idi. Abdulla Peyğəmbərin(s) məhzərində, döyüşlərin birində şəhid oldu. O, şəhid olandan sonra onun ruhu şəhidlərin ruhuna qovuşub cənnətdəki məqamına nail oldu. Abdulla orada Allahdan bir arzu dilədi. Dedi: İlahi, məni dünyaya qaytar, gedim Peyğəmbərin(s) məhzərində bir də şəhid olum. Istəyirəm bir daha şəhadət feyzinə nail olum. Allah-təala ona xitab edərək bildirdi ki, əgər bir insan dünyasını dəyişərsə, onu bir daha dünyaya qaytarmaram. Məndən başqa bir şey dilə. Cabir dedi: İlahi, onda mənim buradakı məqamımı və naz-nemətin mənə aid olduğunu ailəmə və mənim barəmdə narahat

olanlara çatdır. Qoy onlar bilsinlər ki, mən burada hansı cah-cəlalın içindəyəm.

Allah-təala bu ayəni Peyğəmbərə nazil etdi:

وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا

بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ

– Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir.[1]

Cabir həmin Abdullanın oğlu idi. Özü Peyğəmbərin(s) ən yaxın səhabələrindən idi. O, Həzrət Əlini(ə) Xanım Zəhranı(s.ə), İmam Həsəni(ə), İmam Hüseyni(ə), İmam Səccadı(ə) və nəhayət, İmam Baqiri(ə) ziyarət etmişdi. Həmçinin Peyğəmbər(s) ona buyurmuşdu ki, ey Cabir, mənim salamımı İmam Baqirə(ə) yetirərsən. Çünki Peyğəmbər(s) bilirdi ki, onun ömrü uzun olacaq. Allah-təala Cabirə o qədər ömür vermişdi ki, o, İmam Baqiri(ə) ziyarət etmək şərəfinə nail olmuşdu.

Cabir Xanım Fatimeyi Zəhradan(s.ə) belə bir hədis nəql edərək deyir:

– Xanım Zəhra(s.ə) mənə belə buyurdu: "Bir gün atam bizə gəldi. Evə daxil oldu və mənə salam verdi. Mən də salamın cavabını verdim. Sonra atam buyurdu: Qızım mən bədənimdə elə bil zəiflik hiss edirəm. Mən dedim: Ata buyur əyləş, mən sənə qulluq göstərim. Atam buyurdu: Qızım mənim yəmən parçasından olan əbamı gətir. Mən onun əbasını gətirdim. Sonra atam buyurdu: Qızım o əbanı çək mənim üstümə. Mən əbanı atamın üstünə çəkdim. Onun üzündən on dörd gecəlik ay kimi nur saçırdı. Bir azca keçmişdi ki, oğlum Həsən içəri daxil oldu. Evə daxil

[1] Ali-Imran, 169

olan kimi mənə salam verdi. Mən də onun salamının cavabını alaraq dedim, ey mənim gözlərimin işığı, salam olsun sənə. Sonra dedi ki, anacan, evimizdən necə də gözəl ətir iyi gəlir. Elə bil babam Peyğəmbərin(s) ətrini duyuram. Dedim, bəli, baban Peyğəmbər(s) bizdədir, əbanın altında. O, əbaya tərəf gəlib dedi: Salam olsun sənə, baba. Ya Rəsulallah, mənə də əbanın altına daxil olmağa icazə verirsənmi? Peyğəmbər(s) buyurdu: Əleykəssalam oğlum və ey qiyamət günündə Kövsər hovuzunun sahibi, sənə icazə verirəm. Sonra o, əbanın altına daxil oldu. Bir az keçmişdi ki, oğlum Hüseyn də evə daxil oldu. Mənə salam verdi, mən də salamının cavabını verdikdən sonra, o da mənə dedi: Anacan, evimizdən necə də gözəl ətir iyi gəlir. Elə bil babam Peyğəmbərin(s) ətrinin iyidir. Dedim, düzdür, baban Peyğəmbər(s) bizdədir, qardaşın Həsənlə əbanın altında əyləşiblər. O da əbaya tərəf gəlib dedi: Salam olsun sənə, baba. Ya Rəsulallah, mənə də əbanın altına daxil olmağa icazə varmı? Peyğəmbər(s) buyurdu: Əleykəssalam oğlum və ey qiyamət günündə şəfaət eləyən. Peyğəmbər(s) ona da əbanın altına daxil olmağa icazə verdi. İmam Hüseyn(ə) də əbanın altına daxil oldu. Xanım Zəhra(s.ə) buyurur: Elə bu zaman Əbülhəsən Əli ibn Əbu Talib evə daxil olub mənə salam verərək buyurdu: Salam olsun sənə ey Peyğəmbərin qızı. Mən də onun cavabında dedim: Əleykəs-salam ey Əbülhəsən, ey Əmirəlmöminin. Sonra o da həmin sözü deyərək buyurdu: Evimizdən necə də gözəl ətir iyi gəlir. Elə bil qardaşım, əmim oğlu Peyğəmbərin(s) ətrinin iyidir. Dedim ki, düzdür, Peyğəmbər və oğlanların əbanın altındadırlar. O da  əbaya tərəf gəlib dedi: Salam olsun sənə ya Rəsulallah, mənə də icazə verirsənmi daxil olum əbanın altına? Peyğəmbər(s) buyurdu: Əleykəssalam

ey mənim qardaşım, mənim vəsim, mənim xəlifəm və ey mənim bayrağımın sahibi. Icazə verirəm sənə. Həzrət Əli(ə) də əbanın altına daxil oldu.

Xanım Fatimeyi Zəhra(s.ə) buyurur: Sonra mən də əbanın yanına gəlib atama salam verib dedim: Ya Rəsulallah, mənə də əbanın altına daxil olmağa icazə verirsənmi? Peyğəmbər(s) buyurdu: Əleykəssalam qızım, ey mənim ürəyimin parası, sənə də icazə verirəm. Mən də əbanın altına daxil olandan sonra, atam sol əli ilə əbanın bir tərəfindən tutub sağ əlini göyə sarı qaldıraraq Allaha belə münacat etdi: "İlahi, bunlar mənim əhli-beytim, mənim xüsusi adamlarım və mənim ən yaxın adamlarımdır. Bunların əti mənim ətimdən, qanları mənim qanımdandır. Bunların narahatlığı mənim narahatlığımdır. Bunları hər nə qəmləndirirsə, məni də qəmləndirir. Bunlarla müharibəyə qalxanlar mənimlə müharibə etmişlər. Bunlarla sülh edənlər mənimlə sülh etmiş olarlar. Kim bunlarla düşmənçilik edirsə, mənimlə düşmənçilik etmişdir. Bunları sevənlər məni sevmiş olarlar. Bunlar məndəndir və mən də onlardanam. İlahi, Öz salamını, rəhmətini, bərəkətini, rizvan və məğfirətini mənə və bunlara nazil et. Onlardan bütün çirkinlikləri uzaq et və onları tərtəmiz, pak-pakizə qərar ver".

Allah-təala Peyğəmbərin(s) cavabında buyurdu:"Ey mənim mələklərim, ey göylərin sakinləri! Bütün bu göyləri, geniş yeri, nurlu ayı, işıqlı günəşi, aləmdə olan kürələri, coşqun dənizləri və fələkləri əbanın altında olan bu beş kimsənin məhəbbətinə xatir yaratmışam".

Cəbrayıl Əmin dedi: İlahi, bu beş kimsə kimdir belə? Allah-təala buyurdu: "Onlar Peyğəmbərin Əhli-beyti və risalətin mənbəyi, mərkəzi və mədənidirlər. Onlar

Fatimə(s.ə), atası Peyğəmbər(s), həyat yoldaşı Əli(ə) və onun iki oğludur.”

Burada bir incəliyi nəzərinizə çatdırıram. Allah-təala bütün mələklərə Əhli-beyti Xanım Fatimeyi Zəhra(s.ə) vasitəsilə tanıtdırır. Əvvəl onun adını çəkərək Əhli-beytin kimlər olduğunu bəyan edir. Adətən, biz bir şəxsi tanımaq üçün hansısa başqa bir şəxsdən onun kimliyini soruşduqda, həmin şəxs baxıb görür ki, biz onun hansı dostunu və ya qohumunu yaxşı tanıyırıqsa, onun adını çəkir. Məsələn, bir məclisdə əyləşərkən tanımadığımız bir şəxs içəri daxil olduqda, yanımızda əyləşənlərdən onun kim olduğunu soruşarkən, tanıdığımız bir insanın atası, qohumu və ya dostu olduğunu deyirlər. Deməli, biz həmin şəxsi kiminsə yaxını olduğuna görə tanıyırıq.

Bu hədisdə də Allah-təala Əhli-beyti mələklərə Xanım Fatimeyi Zəhra(s.ə) vasitəsilə tanıtdırır. Çünki bütün göy əhli, mələklər Xanım Zəhranı(s.ə) çox gözəl tanıyırdılar. Harda və necə tanımaqları ayrı bir mövzudur ki, inşallah, qismət olsa, onun üçün müəyyən bir vaxt ayırıb bu barədə söhbət edərik.

Həzrət Cəbrayıl dedi: İlahi, mənə də icazə verirsənmi, mən də gedib onlara qoşulum? Allah-təala buyurdu: “İcazə verdim”. Cəbrayıl da yerə nazil olub əbanın kənarında dayandı və Həzrət Peyğəmbərə(s) salam verərək dedi: Salam olsun sənə ya Rəsulallah. Allahın da sənə salamı var. Allah-təala mənim vasitəmlə sənə xüsusi bir hörmət və ehtiram nazil etmişdir. Ya Rəsulallah, Allah belə buyurdu: “And olsun izzət və cəlalıma, bütün bu göyləri, geniş yeri, nurlu ayı, işıqlı günəşi, aləmdə olan kürələri, coşqun dənizləri və fələkləri siz beş nəfərin məhəbbətinə xatir yaratmışam”. Həzrət Cəbrayıl bu sözlərdən sonra dedi: Ya Rəsulallah, mənə də əbanın

altına daxil olmağa izn verirsənmi? Həzrət Peyğəmbər(s) buyurdu: “Salam olsun sənə ey Allah vəhyinin Əmini, sənə icazə verirəm."

Xanım Fatimeyi Zəhra(s.ə) Cabirə buyurdu: "Ey Cabir, Cəbrayıl da əbanın altına daxil olduqdan sonra atama dedi: Allah-təala sizə vəhy göndərib və buyurur:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

“Həqiqətən, Allah siz Əhli-beytdən bütün çirkinliyi yox etmək və sizi tərtəmiz, pak-pakizə etmək istər.”[1]

Həzrət Əli(ə) orada Həzrət Peyğəmbərdən(s) soruşdu: “Ya Rəsulallah,bu əbanın altında cəm olmağımızın şərafət və fəziləti barədə bizi xəbərdar et”. Həzrət Peyğəmbər(s) buyurdu: “Məni peyğəmbərliyə təyin edən Allaha and olsun ki, hər kəs bir yerdə toplaşıb biz Əhli-beyt barədə söhbət etsə, Allah öz rəhmətini onlara nazil edər, mələkləri onların yanına göndərər ki, ora yığışanlar barədə, onlar söhbətlərini qurtarıb ayrılana qədər Allahdan onlara rəhmət və məğfirət diləsinlər”.

Həzrət Əli(ə) dedi: “Ya Rəsulallah, deməli Allah-təala biz Əhli-beytə və bizi sevənlərə çox böyük şərafət və xoşbəxtlik nəsib etmişdir”. Həzrət Peyğəmbər(s) buyurdu: “Ya Əli(ə), and olsun o Allaha ki, məni peyğəmbərliyə məbus edib, hər kəs cəm olub bizim haqqımızda və bizim kəlamlarımızdan sohbət etsə və əgər qəm-qüssələri olsa, Allah onların qəmini aradan aparar. Əgər onlardan hansı birinin çətinliyi olarsa, Allah-təala həmin şəxsin çətinliyini həll edər və onların hacət və istəklərini yerinə yetirər”. Həzrət Əli(ə) dedi: “Ya Rəsulallah, Allah-təala bizə necə də böyük səadət bəxş etmişdir. Həmçinin bizim

[1] Əhzab, 33.

şiələrimizə də bu səadəti nəsib edərək dünya və axirət xoşbəxtlərindən qərar verib."

Beləliklə, məhərrəm ayında və başqa günlərdə İmam Hüseynin(ə) əza məclisində əyləşib söhbətlər aparılırsa, Əhli-beyt yad edilirsə, deməli Həzrət Peyğəmbərin(s) buyurduğu həmin kəlamdır ki, Allah-təala bu məclisə və məclisdə əyləşənlərə izzət və şərafət inayət edər. Allah-təala həmin insanlara öz rəhmət və məğfirətini nazil edər və onların dualarını qəbul edib, hər nə hacət və istəkləri varsa, inayət edər.

Allah-təala dünya və axirətdə bizləri Peyğəmbər(s) və Əhli-beytdən(ə) ayrı salmasın. İnşallah.

## HƏZRƏT PEYĞƏMBƏRİN(S) BUYURDUĞU *«HÜSEYN MƏNDƏNDİR VƏ MƏN DƏ HÜSEYNDƏNƏM»* HƏDİSİNİN ŞƏRHİ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ اللهِ وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداءِ اللهِ اِلى يَوْمِ لِقاءِ اللهِ

قال رسول الله (ص): حُسينٌ مِنِّى وَ أَنَا مِن حُسَينٍ اَحَبَّ اللهُ مَن اَحَبَّ حُسَيناً

İmam Hüseyn(ə) Kərbəla hadisəsində və aşura günü bütün bəşəriyyətə və müsəlmanlara müəyyən dərslər

öyrədir. O həzrətin öyrətdiyi dərsləri əziz möminlərin nəzərinə çatdırıram. Bu bəhsimizə başlamazdan öncə İslam Peyğəmbərinin(s) İmam Hüseyn(ə) barədə buyurduğu hədislərdən birini qeyd edib, şərhini nəzərinizə çatdırmaq istəyirəm. İslam dünyasında firqəsindən asılı olmayaraq İmam Hüseyn(ə) barədə yazılan hər hansı bir kitabda Həzrət Peyğəmbərin(s) buyurduğu bu hədisə rast gəlirik. Həmin hədis iki hissədən ibarətdir. Istərdim ki, hədisin hər iki hissəsini lazım olduğu qədər izah edək. Bu kəlam elə də qaranlıq bir kəlam və mətləb deyil. Lakin tam aydınlaşdırmaq üçün azacıq izaha ehtiyac duyulur. Bu hədisə çox yerlərdə rast gəlmək olar. Xüsusən məhərrəm ayında məscidlərdə, Hüseyniyyələrdə və İmam Hüseyn (ə) barədə yazılan kitablarda bunu müşahidə edirik. Həzrət Peyğəmbər(s) buyurur: "Hüseyn məndəndir və mən də Hüseyndənəm. Hüseyni sevəni Allah da sevir". Bu, Həzrət Peyğəmbərin(s) İmam Hüseyn(ə) haqda buyurduğu kəlamlardan biridir. Həzrət Peyğəmbər(s) bu hədisi həm İmam Həsən(ə), həm Həzrət Əli(ə), həm də Xanım Zəhra(s.ə) barədə buyurmuşdur. Lakin bu hədis ən çox İmam Hüseyn(ə) barədə deyilmiş və təkrar-təkrar nəql olunmuşdur.

## Hüseyn məndəndir

Bu hədisin birinci hissəsi hamıya aydındır. Həzrət bu hədisin birinci hissəsində belə buyurur: “Hüseyn məndəndir”. Bu mətləbin aydınlığı belədir ki, İmam Hüseyn(ə) Peyğəmbərin(s) sülbündəndir və onun nəvəsidir. Yəni Peyğəmbərin(s) əmisi oğlu Əli(ə) Həzrətin qızı Xanım Fatimeyi Zəhra(s.ə) ilə ailə qurmuş və onlar dörd övlad dünyaya bəxş etmişlər. Bu övladların

ikisi oğlan, ikisi isə qız olmuşdur. Həsən böyük övlad, ikinci övlad Hüseyn, üçüncü övlad Zeynəb və dördüncüsü isə Ümmi Gülsüm olmuşdur. Beşinci övladın adı Möhsin idi ki, dünyaya gəlmədən ana bətnində şəhid oldu. Deməli, aydın məsələdir ki, hər kəsin nəvəsi həmin şəxsin özündən hesab olunur. Belə olduqda İmam Hüseyn(ə) Peyğəmbərin(s) nəvəsi olduğu üçün Həzrət(s) buyurur ki, Hüseyn məndəndir.

Bu məsələnin ikinci mənasını bizə Qurani-Kərim bəyan edir. “Ali-Imran” surəsinin 61-ci ayəsində Allah-təala İmam Hüseyni(ə) Peyğəmbərə(s) oğul olaraq təqdim edir. Quranın sözü bütün insanlara, xüsusilə müsəlmanlara höccətdir. Bu ayənin nazil olmasının səbəbi belədir.

Nəcran xristianlarından ibarət olan bir heyət Həzrət Peyğəmbərin(s) yanına gəlib Həzrətlə(s) Isa Peyğəmbər(ə) haqqında mübahisə etmək istədilər. Nəcran xristianlarının heyəti üç nəfərdən ibarət idi. Onlardan biri Əbdülməsih ləqəbi ilə tanınmış Aqib heyətin rəhbəri, elm və fikir sahibi idi. Ikincisi onların yığıncaqlarının rəhbəri Eyhəm, üçüncüsü isə Əbu Hatəm ibn Əlqəmə idi ki, o da onların dini rəhbəri və müəllimi hesab olunurdu. Onlar iddia edirdilər ki, insan atasız dünyaya gələ bilməz. Buna görə də Həzrət İsa(ə) ya Allahdır, ya da Allahın oğludur. Həzrət Peyğəmbər(s) buyurdu: “Adəmi(ə) atasız-anasız torpaqdaq yaradan Allahın Isanı da atasız yaratmağa qüdrəti var. Allah-təala “Ali-Imran” surəsinin 59-cu ayəsini nazil etdi:

إِنَّ مَثَلَ عِيسَى عِندَ اللّهِ كَمَثَلِ آدَمَ خَلَقَهُ مِن تُرَابٍ ثِمَّ قَالَ لَهُ كُن فَيَكُونُ

-Allah yanında Isanın məsəli də Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra “ol” dedi, o da oldu.

Həzrət Peyğəmbər(s) bu ayəni də onlar üçün oxudu, lakin onlar Həzrət Peyğəmbərin(s) sözlərini qəbul etmədilər. Həzrət Peyğəmbər(s) də onların sözlərini qəbul etmədi. Sonda iş mübahilə etməyə yetişdi. Mübahilənin mənasını bütün təfsir alimləri kitablarında yazmışlar. Xüsusilə Əhli-sünnə alimlərindən olan Zəməxşəri "əl-Kəşşaf" təfsir kitabında yazır: "Mübahilə o əmələ deyilir ki, iki nəfər və ya iki dəstə bir-birinin sözlərini qəbul etməyib, bir arada razılığa gəlmədikdə, bir-birinə nifrin edib lənətləyərək Allahdan biri digərinə əzab istəyərlər. Belə bir əməlin nəticəsində Allah haqqa qəzavət edib, nahaqq olan tərəfə əzab nazil edər. Hansı tərəfin nifrini tərəf-müqabili barədə həyata keçsəydi, o da qalib hesab olunardı. Buna görə də onlar Həzrət Peyğəmbərin(s) və Həzrət(s) də onların sözlərini qəbul etmədiyi üçün bu mübahilə məsələsi qarşıya çıxdı. Elə oradaca Allah-təala bu ayəni nazil etdi:

فَمَنْ حَآجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَاءكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْاْ نَدْعُ أَبْنَاءنَا وَأَبْنَاءكُمْ وَنِسَاءنَا وَنِسَاءكُمْ وَأَنفُسَنَا وأَنفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَل لَّعْنَةُ اللّهِ عَلَى الْكَاذِبِينَ

"(Ya Peyğəmbər!) Sənə risalət gəldikdən sonra səninlə mübahisə edənlərə de: Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) yalvarıb yalançılara Allahın lənət etməsini diləyək!"

Qeyd etmək lazımdır ki, mübahilə məsələsində ailə və uşaqları bu işə qatmazdılar. Lakin Həzrət Peyğəmbər(s) bu ayəni Nəcran xristianlarına oxudu. Onlar da razılaşdılar. Lakin sabaha qədər Peyğəmbərdən(s) vaxt istədilər. Gedib

öz böyükləri ilə Peyğəmbərlə(s) olan bu hadisə barədə məsləhətləşdilər. Onların böyükləri ağıllı adam idi. O dedi: Sabah görsəniz ki, Peyğəmbər(s) hay-küylə camaatı başına yığıb gətiribsə, onunla mübahilə etməyə dəyər. Yox, əgər Peyğəmbər(s) öz dediyi kimi ailəsi və sevdiyi insanlarla gələrsə, onda onunla mübahilə etməyin. Təyin olunan vaxt hamı gözləyirdi ki, Həzrət Peyğəmbər(s) meydana kimlərlə birgə gələcək? Çünki Allah-təala ayədə o Həzrətə oğlanlarını, qadınlarını və özlərini gətirməyi əmr etmişdir. Gördülər ki, Həzrət Peyğəmbər(s) İmam Həsən və İmam Hüseynin(ə) əlindən tutub, onların arxasınca da Həzrət Fatimə(s.ə) və Imam Əli(ə) meydana tərəf gəlirlər.

Nəcran xristianlarının böyüyü bu mənzərəni gördükdə üzünü xristianlara tutub dedi: "Ey xristianlar! Mən elə nurlu simalar görürəm ki, Allah istəsə onların vasitəsilə dağı yerindən qoparar. Onlarla mübahilə etməyin, yoxsa həlak olarsınız və qiyamət gününə qədər yer üzündə bir nəfər də olsun xristian qalmaz. Buna görə də Həzrət Peyğəmbərə(s) dedilər: Biz qərarlaşdıq ki, səninlə mübahilə etməyək. Sən öz dinində qal, biz də öz dinimizdə. Sonra onlar cizyə vermək şərtilə Peyğəmbərlə(s) bir neçə şərt əsasında müqavilə bağladılar.

Əsas söhbətimiz burdadır ki, nə üçün Peyğəmbər(s) mübahiləyə öz ailəsini, xüsusilə bu dörd nəfəri gətirmişdi? Heç bir firqənin kitabında yazılmayıb ki, Peyğəmbər(s) bu dörd nəfərdən savayı kimisə ora gətirmişdi. Bütün firqələr yekdilliklə qəbul edirlər ki, Peyğəmbər(s) həmin dörd nəfəri mübahilə etmək üçün oraya gətirmişdi. Peyğəmbərin(s) bu dörd nəfəri özü ilə gətirməkdə birinci məqsədi budur ki, Allah-təala o Həzrətə ürək-dirək verirdi. Yəni Peyğəmbərin(s) öz yolunda və hədəfində heç

bir şübhəsi yox idi. Hər bir insanın öz tutduğu yola imanı olarsa və heç bir şübhəsi olmazsa, fərq etməz ki, belə bir mübahilədə özü olmuş olsun və ya sevdiyi insanlarla birgə olmuş olsun. Çünki Peyğəmbər(s) bilirdi ki, yolu haqq yolu və istəyi də Allahın istəyidir.

İkinci səbəb budur ki, Allah-təala bütün insanlara - müsəlmanlara, hətta nəcran xristianlarına, o dövrdə və qiyamətə qədər dünyaya gəlib gedən insanlara bildirmək istəyirdi ki, yer kürəsində Peyğəmbərin(s) hamıdan ən çox sevdiyi insanlar həmin dörd nəfərdir. Allah-təala bu ayəni nazil etməklə Peyğəmbər(s) Xanım Fatiməni ayədə buyurulan (qadınlarımızı), Həzrət Əlini (özümüzü), Həsən və Hüseyni (oğlanlarımızı) buyurmaqla bütün aləmə elan etdi. Yəni ayədə özümüzü gətirək deyildikdə, Peyğəmbər(s) Həzrət Əlini(ə) gətirmişdi. Əli(ə) Həzrət Peyğəmbərə(s) özü kimi hesab olunur. Həmçinin İmam Həsən və İmam Hüseyni öğul deyə mübahiləyə gətirmişdi. Bu ayədən açıq-aşkar belə bir nəticə alırıq ki, Allah-təala Həsən və Hüseyni Peyğəmbərə oğul hesab edir. Təfsir alimləri bu məsələni qəbul etmişlər. Bu məsələ haqda yazıb,onu qəbul edən Əhli-sünnə alimlərinin bir neçəsinin yazdığı əsərlərin adlarını və onların sənədini nəzərinizə çatdırıram:

Müslim. Səhih kitabının 7-ci cildi, səh.120 –də;

Əhməd ibn Hənbəl. Müsnəd kitabının 1-ci cildi, səh.185-də;

Təbəri. Təfsir kitabının 3-cü cildi, səh.192-də;

Hakim Həskani. Müstədrək kitabının 3-cü cildi, səh.150-də (Heydərabad çapı);

Vahid Nişapuri. Əsbabün-nüzul kitabı, səh. 174-də, (Misir çapı);

Fəxri Razi. Təfsir kitabının 8-ci cildi, səh.85-də, (Misir çapı);

Qazi Beyzavi. Təfsir kitabının 2-ci cildi, səh.22-də, (Misir çapı);

Təntavi. Əl-cəvahir təfsirinin 2-ci cildi, səh.120-də, (Misir çapı);

Zəməxşəri, Kəşşaf təfsir kitabının 1-ci cildi, səh.193-də;

Əllamə Qürtəbi, Əl-came təfsir kitabının 3-cü cildi, səh.104-də.

Təxminən altmış Əhli-sünnə mənbəsində bu məsələ haqda yazılmışdır və Quranda da İmam Həsən və İmam Hüseyni Allah-təala Peyğəmbərə(s) oğul hesab edir. Hətta "Ğayətül-məram" kitabında "Səhihi-Müslim"dən nəql edərək belə yazırlar: "Bir gün Müaviyə Səd ibn Əbi Vəqqasa dedi: Çoxdandır ki, səndən Əli haqda bir söz eşitmirəm. Nəyə görə Əlini söymürsən və onun haqqında pis sözlər danışmırsan? Səd ibn Əbi Vəqqas dedi: Müaviyə, Peyğəmbərdən Əli barədə üç mətləb eşitmişəm. Bu sözlərdən sonra heç vaxt Əlinin barəsində pis sözlər danışmayacağam. Həmin mətləblərdən biri də bu idi ki, mübahilə ayəsi nazil olarkən Peyğəmbər(s) Zəhranı, Əlini, Həsəni və Hüseyni(ə) özü ilə mübahiləyə gətirərək buyurdu: "İlahi, bunlar mənim Əhli-beytimdir". Mən bu sözləri Peyğəmbərin öz mübarək dilindən eşitdim. Buna görə də o vaxtdan bəri mən onlar haqqında nalayiq sözlər danışmıram".

Zəməxşəri "Əl-kəşşaf" kitabında yazır: "Peyğəmbərin Əhli-beyti haqda nazil olan bu ayə ən güclü ayədir ki, Allah-təala onu nazil etmişdir. Əhli-beytin hansı fəzilətə malik olmasına bu ayə kifayət edər".

Deməli, Allah-təala Həsən və Hüseyni Peyğəmbərə(s) oğul hesab etdiyi üçün  Həzrətin(s) də ixtiyarı vardır ki, onları oğul deyə çağırsın. Odur ki, Peyğəmbər(s) Hüseyn(ə) barədə «Hüseyn məndəndir» buyurardı.

Bir mətləbi də əlavə edərək nəzərinizə çatdırıram. İmam Hüseyn(ə) dünyaya gələndən sonra Xanım Zəhra(s.ə) xəstələnmişdi. Xəstəlik nəticəsində uşağa verməyə südü olmadı. Həzrət Peyğəmbər(s) göstəriş verdi ki, Hüseynə süd vermək üçün bir dayə tapsınlar. Çox axtardılar, lakin dayə tapa bilmədilər. Əgər bir iki nəfər qadın tapılırdısa da, İmam Hüseyn(ə) həmin qadınların südünü yemirdi. Axırda gördülər ki, uşaq əldən getmək üzrədir Həzrət Peyğəmbər(s) Xanım Zəhranın(s.ə) otağına daxil olub İmam Hüseyni(ə) istədi. Uşağı gətirib Peyğəmbərin(s) qucağına qoydular. Həzrət Peyğəmbər(s) ibham (çeçələ) barmağını uşağın ağzına saldı. Uşaq Peyğəmbərin(s) barmağını əmməklə qida aldı. Yazırlar ki, hər dəfə uşaq Peyğəmbərin(s) parmağından qidalanıb doyduqdan sonra üç gün yeməyə ehtiyacı olmurdu. Beləliklə, Hüseynin əti Peyğəmbərin(s) ətindən, qanı Peyğəmbərin(s) qanından və sümüyü Peyğəmbərin(s) sümüyündən qidalanaraq qüvvələnib boya-başa çatdı. Səbəblərdən biri də budur ki, Peyğəmbər(s) onun barəsində «Hüseyn məndəndir»- deyə buyururdu.

Deməli, bir neçə səbəbə görə İmam Hüseyn(ə) Peyğəmbərdən(s) hesab olunur. Birincisi, İmam Hüseyn(ə) Peyğəmbərin(s) nəvəsidir. İkincisi, “Mübahilə” ayəsində Allah-təala onu Peyğəmbərə(s) oğul hesab edir. Üçüncüsü isə Peyğəmbərdən(s) qida alaraq Həzrətin qucağında böyüyüb boya-başa çatmışdı. Bu haqda kitablarda istənilən qədər dəlil və sübut tapmaq mümkündür. Firqəsindən asılı olmayaraq çox kitablarda

İmam Hüseynin(ə) fəziləti haqda yazılmışdır. Nümunə üçün Həzrətin(ə) fəzilətlərindən bir neçəsini nəzərinizə yetirirəm:

-Əsbə ibn Nəbatə deyir: Bir gün Həzrət Əlinin(ə) görüşünə getmişdim. Həsən və Hüseyn də Həzrətin(ə) yanında idilər. Gördüm ki, Əli(ə) çox diqqətlə bu uşaqlara baxır. Soruşdum: Ya Əmirəlmöminin, Allah saxlasın bu uşaqları. Bunlara belə diqqətlə baxmağının səbəbi nədir? Həzrət Əli(ə) buyurdu: Bu uşaqlar barədə bir hədis yadıma düşdü. O hədisə görə bu uşaqların camalına tamaşa edirəm. Dedim: Ya Əmirəlmöminin, əgər sirr deyilsə, həmin hədisi mənə danışa bilərsinizmi? Həzrət Əli(ə) buyurdu: Bir gün öz bostanımda işləyirdim. Havanın çox isti olduğundan yorulub günorta evə gəldim. Xanım Zəhradan yemək istədim. O da mənim üçün yemək hazırlamağa başladı. Mən də namaz qılmağa başladım. Namazı qurtararkən Həsənlə Hüseyn evə daxil oldular. Evə daxil olarkən anaları onlardan bu vaxta qədər harada olduqlarını və evə nə üçün gec gəldiklərini soruşdu. Həsən(ə) belə dedi: Bizi Peyğəmbər və Cəbrayıl indiyə qədər saxlamışdılar. Biz səhər tezdən Peyğəmbərin məhzərinə getdik. Babamız Cəbrayılla əyləşib söhbət edirdilər. Məni Peyğəmbər qucağında əyləşdirmişdi, Hüseyni də Cəbrayıl. Onlar ikisi bir-birinin yanında əyləşmişdilər. Mən Peyğəmbərin ətəyindən Cəbrayılın ətəyinə atılırdım. Hüseyn də Cəbrayılın ətəyindən Peyğəmbərin ətəyinə atılırdı. Bu vaxta qədər biz beləcə oynayırdıq. Azan vaxtı oldu və bizi yerə qoydular. Cəbrayıl öz yerinə qayıtdı və Peyğəmbər də namaza başladı. O, namaz qılmağa başlayarkən biz də qaça-qaça evə qayıtdıq. Həzrət Əli(ə) buyurur: Mən bunu eşidəndən sonra Əsr namazını Peyğəmbərlə(s) birgə qılmaq üçün

Həzrətin(s) yanına getdim. Həzrətə(s) dedim: Ya Rəsulallah, bu gün Həsən və Hüseyn evə gəlib belə bir söhbət danışdılar. Həzrət Peyğəmbər(s) buyurdu: Mənim oğlanlarım sənə doğru xəbər veriblər. Sübhdən günortaya qədər Cəbrayıl ilə mən bu uşaqlarla oynamışıq. Həzrət Əli(ə) buyurur: Mən Peyğəmbərdən(s) soruşdum: Ya Rəsulallah, uşaqlar Cəbrayılı hansı surətdə görürdülər? Həzrət Peyğəmbər (s)buyurdu: Mənim yanıma hansı surətdə gəlirdisə, uşaqlar da onu elə həmin surətdə görürdülər.

Bu hədisdə Həzrət Peyğəmbər(s) və Əli(ə) İmam Hüseyni(ə) belə tanıtdırırlar. Yəni Hüseyn(ə) o kəsdir ki, uşaqlığında Həzrət Cəbrayıl onunla oynayırdı. İmam Hüseynin(ə) Cəbrayılla ünsiyyətdə olması bir dəfə baş verməyib, bu barədə kitablardakı hədislərlə maraqlansaq, belə hadisələrin dəfələrlə olduğunun şahidi olarıq. Hədislərdə vardır ki, Xanım Zəhra(s.ə) buyurur: Bir gün Həsənlə Hüseyn güləşərkən gördüm ki, Peyğəmbər(s) Həsəni təşviq edir və onun tərəfini saxlayır. Peyğəmbərə(s) dedim: Ya Rəsulallah, Hüseyn kiçik uşaqdır və Həsən ondan böyükdür. Hüseyn kiçik olduğu üçün onu daha çox təşviq etmək lazımdır. Həzrət Peyğəmbər(s) buyurdu: Qızım, narahat olma. Mən Həsəni təşviq edirəm, Cəbrayıl da Hüseyn, Hüseyn deyərək onu təşviq edib alqışlayır.

İmam Rza(ə) buyurur: “Allah-təala mələkləri Adəmə səcdə etməklə və onu cənnətdə məskunlaşdırmaqla kəramət bəxş etdi. Belə bir kəramətin sahibi olduqdan sonra Həzrət Adəm öz-özünə fikirləşdi ki, görəsən Allah-təala məndən fəzilətli bir bəşər yaradıbmı? Allahdan belə bir nida gəldi: Ey Adəm, başını yuxarı qaldır və ərşimə bax. Adəm başını qaldırıb Allahın ərşinə baxdıqda orada

bu kəlmələrin yazıldığını gördü. Allahdan başqa bir məbud yoxdur, Məhəmməd Onun rəsuludur. Əbu Talibin oğlu Əli möminlərin əmiridir. Onun zövcəsi Fatimə aləmlərin bütün qadınlarının xanımıdır. Həsən və Hüseyn cənnət cavanlarının ağalarıdır. Adəm bu kəlmələri oxuduqdan sonra soruşdu: İlahi, bunlar kimlərdir belə? Allah-təala buyurdu: Onlar sənin zürriyyətindəndir. Onlar həm səndən, həm də bütün yaratdıqlarımın hamısından fəzilətli və şərafətlidirlər. Əgər onlar olmasaydılar, səni yaratmazdım. Əgər onlar olmasaydı, cənnət və cəhənnəmi, yeri və göyü də yaratmazdım. Ey Adəm, onlara həsəd və paxıllıq gözü ilə baxma. (Ey Adəm, sən şərif bir məxluqsan. Sən mələklərin səcdəgahısan. Sən bütün insanların babasısan. Sən Behişt əhlisən. Bütün bu şərafətlər sənindir). Amma sən adlarını sənə göstərdiyim kimsələrlə ölçüyəgəlməz miqyasdasan. Əgər birdən onlara qarşı həsəd aparıb paxıllıq etsən, səni cənnətimdən çıxararam”.

Bu kimi hədislər bir çox kitablarda Peyğəmbərin(s) dilindən nəql olunmuşdur. “Kənzül-Ümmal” Əhli-sünnənin ən güclü kitablarından biridir. Bu kitabın12-ci cildində belə hədislər ardıcıl şəkildə qeyd olunmuşdur. Həzrət Əli(ə), Fatimeyi Zəhra(s.ə), Həsən və Hüseyn(ə) barədə Peyğəmbərdən(s) bir çox hədislər yazılmışdır.

Həzrət Peyğəmbər(s) buyurur: “Mənim yanıma bir mələk nazil oldu ki, indiyə qədər mənə belə bir mələk nazil olmamışdı. Həmin mələk Allahdan izn alıb mənə salam və salavat göndərib bəşarət verərək belə dedi: Fatimə cənnət qadınlarının xanımı, Həsən və Hüseyn də cənnət cavanlarının ağalarıdır”.

Başqa bir hədisdə Həzrət(s) buyurur: “Hər kim məni, bu iki uşağı (Həsənlə Hüseyni), bu uşaqların atası Əlini(ə)

və onların anası Fatiməni(s.ə) sevərsə, qiyamət günü mənimlə bir dərəcədə olacaqdır”.

Digər bir hədisdə Həzrət Peyğəmbər(s) buyurur: “Həqiqətən, mənim Əhli-beytim Nuhun gəmisi kimidir. Hər kim bu gəmiyə minsə, nicat tapar və hər kim bu gəmiyə minməkdən üz çevirsə, həlak olar”.

Quranın buyurduğuna əsasən hər kim Nuhun gəmisinə mindisə, nicat tapanlardan oldu. Hər kim minmədisə, həlak olub aradan getdi. Hətta Nuhun öz oğlu belə saleh övlad olmadığı üçün gəmiyə minməkdən imtina etdi və həlak olanlardan oldu. O, həlak olduğunu gördükdə boğula- boğula atasına dedi: Ata, Allah sənə öz ailənlə gəmiyə minməyi demədimi? Mən sənin öğlunam və sənin ailəndən sayılmıram?

Nuh(ə) peyğəmbər Allaha dedi:

وَنَادَى نُوحٌ رَّبَّهُ فَقَالَ رَبِّ إِنَّ ابُنِي مِنْ أَهْلِي وَإِنَّ وَعْدَكَ الْحَقُّ وَأَنتَ أَحْكَمُ الْحَاكِمِينَ. قَالَ يَا نُوحُ إِنَّهُ لَيْسَ مِنْ أَهْلِكَ إِنَّهُ عَمَلٌ غَيْرُ صَالِحٍ

–Ey Rəbbim, oğlum mənim ailəmdəndir. Və həqiqətən Sənin *(mənim ailəmin nicatı barədəki)* vədin haqdır və Sən hakimlərin ən yaxşısısan. *(Allah)* buyurdu: Ey Nuh, o sənin ailəndən deyil *(o küfr və itaətsizlik nəticəsində qohumluq tellərini qırıb, çünki)* o *(başdan-başa)* nalayiq (qeyri-saleh) əməllər içindədir!

Həzrət Peyğəmbər(s) öz Əhli-beytini(ə) Nuhun gəmisinə bənzədərək buyurur ki, hər kim bu gəmiyə minərsə, nicat tapacaq, üz çevirənlər isə həlakətə yetişəcək.

Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) belə buyurdu: “Cənnətə ilk daxil olacaq şəxs mən, sən, Fatimə, Həsən və Hüseyndir” . Həzrət Əli(ə) dedi: Ya Rəsulallah, bəs bizi

sevənlər necə? Həzrət Peyğəmbər(s) buyurdu: Onlar da sizdən sonra cənnətə daxil olacaqlar".

Bu qəbil hədislərə kitablarda saysız-hesabsız qədər rast gəlmək olar. Lakin təəccüblüsü burasındadır ki, əgər İmam Həsən və İmam Hüseyn(ə) Peyğəmbərin(s) gözünün işığıdırlarsa, əgər Həsənlə Hüseyn(ə) Peyğəmbərdəndirsə(s), əgər Əlinin, Fatimənin, Həsən və Hüseynin fəzilət və şərafəti barədə bu qədər hədis qeyd olunubsa, Kərbəla çölündə necə toplaşıb Hüseyni vəhşicəsinə qətlə yetirdilər? İslam dünyasında az da olsa Hüseynin bu cür öldürülməsinə necə razılıq verə bilirlər? İslam dünyasında özünü müsəlman hesab edən bir insan Hüseynin qətlinə necə razı ola bilər? Əgər Peyğəmbər(s) Həsən və Hüseyni öz qucağında böyüdüb onlar barədə gözümün işığı, qəlbimin meyvəsi deyirdisə, necə minlərlə insanın başını xarab edib yoldan çıxararaq, onları Hüseynin əleyhinə qaldırıb onu qətlə yetirirlər? Bunlar bütün müsəlmanları şübhə altında qoyur. Bütün müsəlmanlar bunu başa düşməlidirlər. Bilməlidirlər ki, necə ola bilər Peyğəmbərin(s) balasını bu cür qətlə yetirdilər. Peyğəmbərin(ə) vəfatından əlli il keçməmiş bu hadisəni törətdilər. O vaxt Peyğəmbəri(s) görənlər hələ də sağ idi. Səhabələrin bir çoxu diri idilər. Hətta səhabələrdən beş nəfər Kərbəlada şəhid omuşdu. Halbuki Hüseyni öldürənlərin çoxu Peyğəmbərin(s) onun dodaqlarından və boğazından öpdüyünün şahidi olmuşdular. Necə ola bilər ki, bu hadisəni görənlər Hüseynə xarici adı qoyub onu qətlə yetirdilər?

Həzrət Peyğəmbər(s) dəfələrlə İmam Hüseynin(ə) boğazından, dodaqlarından, hətta dişlərindən və ürəyindən öpüb ağlayardı. Soruşardılar: "Ya Rəsulallah, nəyə görə bu uşağın boğazından, dodaqlarından öpüb ağlayırsan?

Həzrət(s) buyurardı: Mən oxların, qılıncın və xeyzəranın yerindən öpürəm. Bir vaxt gələcək ki, Hüseynin ürəyini oxlayıb boğazını kəsəcəklər və çubuqla dişlərinə, dodaqlarına vuracaqlar”.

## Mən də Hüseyndənəm

Yuxarıda Həzrət Peyğəmbərin(s) İmam Hüseyn(ə) barədə buyurduğu və iki hissədən ibarət olan bir hədisi əziz möminlərin nəzərinə çatdırdım və bu hədisin birinci hissəsi barədə söhbət etdim. Bu hədisin ikinci hissəsi belədir ki, Həzrət Peyğəmbər(s) buyurur: “Mən də Hüseyndənəm”.

Hədisin bu hissəsini tarixdə baş vermiş bir sıra hadisələrlə və bəzi hədislərlə açıqlayıb əziz möminlərin nəzərinə çatdırmaq istəyirəm. Bu hədis ümumiyyətlə İslam aləmində və bütün firqələrin içndə qəbul olunmuş bir hədisdir. Peyğəmbər(s) bu hədisi dəfələrlə buyurmuş və müsəlmanlar da eşitmişlər. Hədisin birinci yarısı barədə ayə və hədislərə istinad edilərək açıqlandı və bəyan edildi. Bu hissəni başa düşüb dərk etməyin heç bir çətinliyi yoxdur. Ən azından hər bir insana məlumdür ki, hər kəsin nəvəsi onun balası hesab olunur. İnsan öz nəvəsinə deyə bilər ki, ey mənim övladım, sən məndənsən. Həzrət Peyğəmbər(s) kimi möhtəşəm bir insan İmam Hüseyn(s) barədə buyurur: “Hüseyn məndəndir və mən də Hüseyndənəm”.

Bu hədisin İkinci hissəsinin birinci hissədən bir az daha artıq açıqlamaya və izaha ehtiyacı var. İndi baxaq görək Peyğəmbər(s) hansı mənada Hüseyndən(ə) hesab olunur? İmam Sadiqin(ə) bu barədə buyurduğu bir hədis həmin məsələni bizim üçün açıqlayıb aydınlaşdırır.

Həzrət(s) belə buyurur: “İslam Peyğəmbərin(s) vasitəsilə yarandı və Hüseynin(ə) köməyi ilə qorunub saxlanıldı”.

Başqa dinlər də peyğəmbərlərin vasitəsilə yaranıb. Məsələn, İsa Peyğəmbər(ə) məsih dinini gətirdi və ona İncil nazil oldu. Musa Peyğəmbər(ə) Tovrat kitabını gətirib dini camaata çatdırmışdır. Həmçinin İslam Peyğəmbərinin(s) köməyi ilə İslam dini qurulub yarandı. Allah-təala İslamı və Quranı bu şərafətli insan vasitəsilə bizə çatdırdı. Lakin Hüseyn(ə) vasitəsilə qorunub saxlanıldı. Kitab gətirmək bir əməl, həmin kitabı qoruyub saxlamaq ondan daha mühüm əməldir. Doğrudur ki, İslam Peyğəmbər(s) vasitəsilə yarandı, amma Hüseynin(ə) köməyi ilə diri qaldı. İslamın qalmasının səbəbkarı İmam Hüseyndir(ə). Əgər Hüseyn(ə), onun aşurası, Kərbəlası, xütbələri və ənsarı olmasaydı, yaxud Həzrətin(ə) bu yolda qanı tökülməsəydi, Bəni-Üməyyə İslamın kökünü yer üzündən kəsəcəkdi. Əlbəttə, kimsə deyə bilər ki, hələ Hüseyn bu işi görməsin, baxaq görək İslam qalır, ya yox? Belə şeyləri imtahan edib yoxlamaq olmaz. Əgər bu işin nəticəsini yoxlamaq istəsək, sonda İslam aradan gedər. Əgər onun nəticəsini kimsə bilmək istəyirsə, o zaman Avropa alimlərinin kitablarına müraciət etməklə başa düşərlər ki, Hüseyn(ə) bu işi görməsəydi, İslamın aqibəti necə olardı. Bu məsələni izah etmək üçün bir misal çəkirəm. Bir uşaq damdan başı üstə yerə gəlir. Bir nəfər tez qaçıb uşağı göydə tutur və yerə düşməsinə imkan vermir. Sonradan deyir ki, əgər uşağı tutmasaydım, başı yerə dəyərək parçalanıb öləcəkdi. Yanında dayanan bir şəxs isə deyir: Sən onu tutmayaydın, baxıb görərdik ki, ölür, ya yox? Belə şeylərlə nə zarafat etmək olar, nə də bu kimi şeyləri imtahan edib yoxlayarlar. Mərhum Ayətulla Şirazi Avropa alimlərinin biri ilə uzun-uzadı söhbətlər

etmişdir. Həmin söhbətlərdən biri də budur ki, avropalı alim ona belə deyir: Biz qeyri-müsəlmanların borcudur ki, Müaviyənin büstünü qızıldan düzəldib bütün meydanlarımızda və ölkələrimizin böyük şəhərlərində yerləşdirək. Ayətulla Şirazi deyir: Onun bu sözünü eşitdikdə öz-özümə təəccübləndim ki, Avropa hara, Müaviyə hara? Ondan soruşdum: Nə əcəb sizdən? Müaviyə ilə sizin nə əlaqəniz var belə? Müaviyə sizə hansı xidməti göstərmişdir ki, onu bu cür təşviq edib tərəfini saxlayırsınız? Həmin alim dedi: Əgər o vaxt Müaviyə olmasaydı, İslam o qədər inkişaf edəcəkdi ki, indiki zamanda yer kürəsində yaşayan bütün insanlar İslamı qəbul edib, müsəlman olacaqdılar.

Müaviyə elə bir insan idi ki, İslamı İslamdan ayırdı. Biri var ki, bir nəfər İslamı yox etmək istəyir. Belə bir iş sona yetməyəcək. Çünki tarix boyu bu işə əl atanlar nəticədə məğlubiyyətlə üzləşiblər. Lenin və Stalin kimi hökmdarlar bu işə cəhd etdilər. Lakin onların bu cəhdləri boşa çıxdı. Çünki onlar demək istəyirdilər ki, İslam yoxdur. Onlar İslamın olmasını ümumiyyətlə istəmirdilər. Hər kim İslamın adını çəkirdisə, dilini kəsirdilər. Belə bir ideolodiyanın hətta silah hesabına belə yaşaması çox çəkməz. Ən çox yaşasa, yetmiş ildən artıq yaşaya bilməyəcək. Sonra İslamın qarşısını almaq üçün daha hansı böyük qüvvə meydana atıla bilər? Hər halda bu işi görmək fikrində olanlar və bu işə cəhd göstərənlər sonda naümid qalacaqlar. Amma Müaviyə başqa varianta əl atdı. O demədi ki, İslam yox olsun. Çünki bilirdi ki, bu iş mümkün deyil. Buna görə də İslamı İslamdan ayırdı. Bunun üçün kifayət qədər vaxt lazımdır ki, Müaviyənin İslamı  İslamdan necə ayırdığını açıqlayaq . Qısası budur ki, Müaviyə İslamı təhrif etdi. O, müsəlmanları bədbəxt

etdi. Müaviyə müsəlmanların içərisində İslamın adını saxlayıb, onun bütün prinsiplərini aradan apardı. Buna görə də o zamandan təxminən min üç yüz səksən il keçdikdən sonra Avropa alimləri başa düşüblər ki, əgər o vaxt Müaviyə olmasaydı, İslam bütün dünyada inkişaf edəcəkdi.

Əgər İmam Hüseyn(ə) Bəni-Üməyyənin bu məkrli siyasəti qarşısında dayanmasaydı və bu yolda qanı tökülməsəydi, indiyə qədər İslamdan heç bir əsər-əlamət qalmayacaqdı. Odur ki, İmam Sadiq(ə) buyurur: "İslam Peyğəmbərin(s) vasitəsilə yarandı və Hüseynin(ə) vasitəsilə qorunub saxlanıldı".

Buna görə də Həzrət Peyğəmbər(s) Hüseyn(ə) barədə buyurur: "Mən də Hüseyndənəm". Çünki Hüseyn Peyğəmbərin dinini saxladı. Həzrət Peyğəmbər(s) özü də gətirdiyi dinə tabe idi. Dinin hər bir hökmünə ilk öncə o Həzrətin özü əməl edirdi. Allahın göndərdiyi İslam dinini birinci özü qəbul etdi. Peyğəmbərin(s) insanlardan ən böyük fərqlərindən biri budur ki, gətirdiyi qanunlara ilk növbədə özü əməl edirdi. Bəzən dünyada qanun yazanlar və insanlar üçün qanun təyin edənlərin özləri öz qayda-qanunlarına əməl etmirlər. Amma Peyğəmbər(s) belə deyildi. Həzrət(s) gətirdiyi qanunlara hamıdan əvvəl və hamıdan gözəl özü riayət edirdi. Hətta müstəhəb, məkruh və ən xırda hökmlərə belə əvvəlcə özü əməl edirdi. Bir qadın uşağını Peyğəmbərin(s) yanına gətirərək dedi: Ya Rəsulallah, bu uşaq çox xurma yeyir. Bu qədər xurma yemək ona ziyandır. Xahiş edirəm, ona deyəsiniz ki, xurma yeməsin. Həzrət Peyğəmbər(s) buyurdu: "Sabah gətirərsən, deyərəm". Qadın çıxıb getdi və səhərisi gün uşağı Peyğəmbərin(s) yanına gətirdi. Həzrət Peyğəmbər(s) uşağa buyurdu: "Xurma yemə". Qadın təəccüblə soruşdu:

Ya Rəsulallah, bu bir kəlmə sözü dünən də deyə bilərdiniz. Həzrət(s) buyurdu: “Düzdür, amma dünən mən özüm xurma yediyim üçün  uşağa desəydim ki, xurma yeməsin, bu sözümün təsiri olmayacaqdı. Çünki həmin gün mən özüm də xurma yemişdim”.

Həzrət Peyğəmbər(s) İslamın ən kiçik məsələlərinə belə əməl edirdi. Həra mağarasında Allaha ən gözəl surətdə ibadət edirdi. Əgər gecə namazı başqalarına müstəhəb idisə, Allah bu namazı Peyğəmbərə(s) vacib etmişdi. Əgər müsəlmanlara gecə namazının on bir rükətinin hamısını sübh namazına yaxın qılmaq müstəhəbdirsə, Peyğəmbərə(s) səhərə qədər bu namazı iki rükət, iki rükət qılmaq vacib edilmişdi. Gecə yarı olandan sonra yuxudan durub iki rükətini qılıb yatar, yenidən ayılıb iki rükətini qılardı. Səhərə qədər Peyğəmbər(s) bu cür ibadətlə məşğul idi. Bir sözlə desək, İslam Peyğəmbərinin(s) İslam dininə hamıdan çox imanı var idi və bu dinə hamıdan çox özü əməl edirdi. Çünki Peyğəmbər(s) camaata Cəbrayılın nazil olmasını və hansı ayəni və vəhyi gətirdiyini xəbər verirdi. Camaat Cəbrayılın gətirdiyi xəbərləri Peyğəmbərin(s) dilindən eşidirdilər. Amma Həzrət Peyğəmbər(s) bu xəbərləri birbaşa Cəbrayılın özündən alır və onu görürdü. Hətta Peyğəmbər(s) gecələr az da olsa yatarkən sadəcə gözləri yuxulayırdı, amma ürəyi heç vaxt yatmırdı. Həzrət Peyğəmbərin(s) İslama hamıdan əvvəl və hamıdan çox imanı var idi. İmam Hüseyn(ə) Peyğəmbərin(s) tabe olduğu bu dini və bu İslamı  saxladı. Buna görə də Peyğəmbər(s) dəfələrlə buyurardı: “Hüseyn məndəndir və mən də Hüseyndənəm. Çünki o, mənim gətirdiyim İslamı saxlayır”.

Hikmət sahibləri və fəlsəfə alimləri deyirlər: Hər bir şeyin iki səbəbi vardır. Həmin şeyin birinci səbəbi yaranması, ikinci səbəbi isə yarandıqdan sonra qorunub saxlanılmasıdır.

İslamın yaranmasının səbəbi Peyğəmbər(s), qorunub saxlanmasının səbəbi isə İmam Hüseyndir(ə). Böyük sünnə alimlərindən olan Şeyx Abdulla Əla yazdığı kitabda belə deyir: "İslamın taleyini iki hicrət dəyişdirdi. Onlardan birincisi Peyğəmbərin(s) Məkkədən Mədinəyə olan hicrətidir, ikincisi isə Hüseynin(ə) Mədinədən Məkkəyə etdiyi hicrətdir".

Məkkədən Mədinəyə hicrətdə məqsəd İslamın bünövrəsini qoymaq idi. Məkkədə bu işi görmək mümkün deyildi. Çünki Məkkədə müsəlmanları döyüb incidir və İslamın təməlini qurmağa imkan vermirdilər. Məkkədə Şeybi Əbi Talib deyilən iki dağın arasında bir yer var idi. Müsəlmanları Məkkədə o qədər incitmişdilər ki, nəhayət, orada məskunlaşıb üç il həmin məkanda yaşadılar. Müsəlmanlar orada böhranlı vəziyyətdə yaşayırdılar. Orada nə su var idi, nə yaşıllıq var idi, nə də yeməyə bir şey tapılırdı. Elə günlər olurdu ki, bir xurma yeməklə günlərini başa vururdular. Elə günlər olurdu ki, bir xurmanı iki nəfər bölüb yarısını biri, o biri yarısını da digəri yeyirdi. Bəzi vaxtlar heç onu da tapmırdılar ki, yesinlər. Gedib ətrafı axtarıb qoyun dərisi tapıb gətirər, onu yandırıb nəsə qatmaqla özləri üçün qida hazırlayırdılar. Müsəlmanlar üç il belə acınacaqlı günlər yaşadılar. Belə böhranlı və acınacaqlı bir vəziyyətdə Peyğəmbər(s) İslamı saxladı və Mədinəyə hicrət etdi.

İslam tarixində ikinci hicrət isə İmam Hüseynin(ə) Mədinədən Məkkəyə etdiyi hicrətdir. Şeyx Abdulla Əla

deyir ki, Peyğəmbərin(s) bina edib qurduğu İslamı Hüseynin(s) məlum hicrəti hifz edib saxladı.

İslam dininin hədəfi və məqsədi var. İslamın hədəfini həm Həzrət Peyğəmbərin(s) özü camaata çatdırırdı, həm də başqa ölkələrə göndərdiyi nümayəndələr bu hədəfi təbliğ edirdilər. Həzrət Peyğəmbər(s) bir çox ölkələrə nümayəndə göndərərək onları İslama dəvət edirdi. Bir ölkənin padşahı Peyğəmbərin(s) nümayəndəsindən soruşdu:“Sizin və Peyğəmbərinizin(s) insanları İslama dəvət etməkdə məqsədiniz nədir?”

Həmin nümayəndə Peyğəmbərin(s) buyurduğu kəlmələri dedi: Bizim məqsədimiz bütün bəndələri insanlara deyil, yalnız Allaha səcdə etməyə dəvət etməkdir. Allah insanı yalnız Allah qarşısında səcdə etmək üçün yaradıb. Bizim məqsədimiz insanlara dünyanı gördükləri kimi kiçik sanmamağı anlatmaqdır. Həyat elə bu deyil ki, insan dünyaya gəlib, bir müddət yaşasın və axırda da torpaq olub getsin. Həyat bu dünyada yaşayıb ölməklə bitmir.

Belə bir həyat insan üçün çox azdır. Bir körpüyə baxmaqla bütün dünyanın  bu körpüdən ibarət olduğunu hesab etmək lazım deyil. Ataların bir misalı var. Bir stəkan su yerə dağıldı və qarışğa suda boğuldu. Boğularkən dedi ki, dünyanı sel apardı. Ona deyirlər: Sel səni aparıb, dünyanı yox. Sən bir stəkan suyun içində boğulmaqla elə bilirsən ki, bütün dünyanı sel aparır. Insan dünyaya belə baxmamalıdır ki, 60-70 il bu dünyada yaşayıb axırda torpaq olacaq. Xeyr, bu bir körpüdür ki, insanı çayın bu tayından o biri tayına aparır. Korpünün üstündə dayanmaqla belə düşünmək lazım deyil ki, bütün dünya bu körpüdən ibarətdir.

İslamın məqsədi insanları yalnız və yalnız Allaha ibadətə və yalnız Onun qarşısında səcdə etməyə dəvət etməkdir. Allahdan başqasına səcdə etmək olmaz. Şair bu barədə belə yazır:

*Adəm əz bi bəsəri bəndəgiye adəm kərd,*
*Mən nədidəm ke, səgi pişe səgi sər xəm kərd.*

– İnsanlar əgər bir-birlərinə səcdə edirlərsə (yaltaqlar quldurlara səcdə edirlərsə) bəsirətsizlikdən və nadanlıqdan səcdə edirlər. Tarixdə mən indiyə qədər görmədim ki, bir it başqa bir itin qarşısında səcdə etmiş olsun.

İslamın məqsədi insanları bütpərəstlikdən, Allahdan başqasına səcdə etməkdən çəkindirib, yalnız Allaha səcdə etməyə çağırmaqdır. Bütün insanlara başa salır ki, bu dünya əbədi dünyaya çatmaq üçün bir körpüdür.

Bəni-Üməyyə belə bir nəsil idi ki, bir-birindən pozğun və nanəcib idilər. Müaviyə vəzifə başına keçib insanları dünyanın quluna çevirdi. Bəni-Üməyyə, xüsusilə Müaviyə İslamı öz mehvərindən və yolundan çıxarmışdı. İmam Hüseyn(ə) gəlib İslamı öz yoluna qoyaraq bu məsələni həll etdi. İmam Hüseynin(ə) məqsədi bu deyildi ki, insanların bir-bir əlindən tutub onları günahdan çəkindirsin. Peyğəmbərin(s) zamanında da insanlar günah edirdilər. Peyğəmbər(s) ona görə gəlməmişdi ki, camaatın heç biri günah etməsin. Peyğəmbərin(s) məqsədi bu deyildi. Peyğəmbər(s) əsasən insanlara hidayət və haqq yolu göstərmək üçün gəlmişdi. Bu yolu getmək isə hər bir insanın öz ixtiyarında və boynundadır. İmam Hüseynin(ə) məqsədi isə Bəni-Üməyyənin mehvərindən və yolundan çıxardığı İslamı bərpa etmək idi. İslamı yolundan çıxarmaq nə deməkdir? Bu sualın cavabı bir cümlə ilə tamamlanır. İmam Hüseyn(ə) camaatı başa saldı ki, pozğun bir adam ədalət adı altında adil bir insanın yerində

əyləşə bilməz. İmam Hüseyn(ə) bu məsələni bütün aləmə başa saldı ki, Yezid pozğun bir adamdır. Onun İslam adı altında Peyğəmbərin(s) xəlifəsi olmağa ləyaqəti çatmır. Yezid hakimiyyətə keçdiyi ilk gündən hamıya bu məsələni başa saldı.

Hicrətin altmışıncı ilinin rəcəb ayının 15-də Müaviyə öldü. Yezid onun yerində əyləşdi. Artıq onun üçün camaatdan beyət almışdılar. Müaviyənin ölüm xəbəri yayılmazdan öncə Yezid həmin gecə Mədinənin valisi Vəlid ibn Ütbəyə məktub göndərdi ki, Hüseyn ibn Əlidən onun üçün beyət alsın. Çünki Yezid bilirdi ki, əgər Hüseyndən(ə) beyət almasa, onun bu xilafət məsələsi baş tutmayacaq. Buna görə də gecəylə Mədinə valisinə bu məktubu göndərdi. Vəlid Mərvanı yanına çağırıb məsləhətləşdikdən sonra İmam Hüseyni(ə) dəvət etdi. İmam Hüseyn(ə) bütün məsələlərdən agah idi. Bilirdi ki, Müaviyə cəhənnəmə vasil olub və Yezidə beyət almaq üçün onu dəvət edirlər. İmam Hüseyn(ə) bir neçə nəfər yaxın adamları ilə valinin yanına getdi. Vəlid məsələni İmam Hüseynə(ə) olduğu kimi danışdı. İmam Hüseyn(ə) elə oradaca buyurdu:

اَيُّها الأَمِير اِنَّ البيْعَةَ لا تَكُونُ سِرًّا

وَلكِنَّ اِذا دَعَوْتَ النّاس غَدًا فَادْعُنا مَعَهُم

–Ey əmir, adamdan gecənin bir aləmində gizlicə beyət almazlar. Sabah səhər camaatı bizimlə birgə dəvət edib sözünü deyərsən.

Əgər sabah camaat qarşısında Vəlid ondan beyət almaq istəsəydi, İmam Hüseyn(ə) bilirdi ki, hansı işləri görəcək. Lakin Mərvan Vəlidin İmam Hüseynlə(ə) razılığa gələcəyini görüb, him-cimlə onu başa saldı ki, bu işi sabaha saxlamaq olmaz.

Sonra İmam Hüseyn(ə) buyurdu:

اَيُّهَاالأَمِير اِنّا اَهْلُ بَيْتِ النُّبُوَّة وَ مَعْدِنُ الرِّسالَة وَ مُخْتَلَفِ الْمَلآئِكَ بِنا فَتَحَ الله وَ بِنا خَتَمَ الله

وَيَزِيدُ رَجُلٌ شارِبُ الْخَمر وَ قاتِلُ النَّفسِ مُحْتَرَمَ مُعلِنٌ بالْفِسق لَيْسَ لَهُ هذهِ الْمَنْزَلَة وَ مِثْلِى لا يُبايِعُ مِثْلَه وَلكِن نُصْبِح وَ تُصْبِحُون وَ نَنْظُرُ وَ تَنْظُرُون اَيُّنا اَحَقُّ بْالْخِلافَة وَالْبَيعَة

–Ey əmir, biz Peyğəmbərin(s) Əhli-beytiyik və risalətin mədəniyik. Allahın mələkləri bizim evimizə get-gəl ediblər. (Peyğəmbərə(s) ayələr nazil olarkən Cəbrayıl bizim evimizə gəlib gedirdi.) Allah öz dinini bizimlə başlamış və bizimlə də tamamlayacaq. Yezid isə şərab içən, adam öldürən, qan tökən və cinayətkar bir insan idi. O, açıq-aşkar günah işlər görən pozğun adamdır. Onun İslama hökmdarlıq etməyə ləyaqəti yoxdur. Mənim kimi insanlar onun kimi insanlara heç vaxt beyət etməz.

İmam Hüseyn(ə) əgər «mən ona beyət etməyəcəyəm» desəydi, məsələnin əhatə dairəsi kiçiləcəkdi. O zaman bu iki insanın qarşı-qarşıya durması hesab olunacaqdı. Yəni məsələ İmam Hüseynlə(ə) Yezid arasında olan xüsusi bir söhbət kimi başa düşüləcəkdi. Bu məsələ İslam məsələsi ilə bağlı olduğundan İmam Hüseyn(ə) buyurdu: “Mənim kimi insanlar onun kimi insanlara heç vaxt beyət etməz”. Bu o deməkdir ki, heç vaxt İmam Hüseyn(ə) kimi pak insanlar Yezid kimi pozğun bir insana əl uzatmaz. Həzrət(ə) bu sözü tarixə yazdı.

Sonra İmam Hüseyn(ə) buyurdu: “Siz də qərar verin, biz də, siz də baxın, biz də baxaq görək, hansımızın xilafətdə olmağımıza daha çox haqqımız var. Fikirləşin, görün həqiqətdə kim-kimə beyət etməli və kim- kimə

iman gətirməlidir”. Içəridə səs-küyün ucaldığını gördükdə İmam Hüseynlə(ə) birgə gəlib qapı arxasında dayanan əli qılınclılardan bir neçəsi içəri daxil oldu. Vəlid və adamları heç bir söz deyə bilmədilər.

Səhərisi gün Həzrət(ə) Mərvanla rastlaşdı. Mərvan yaxınlaşıb İmama(ə) dedi: Mənim sizə bir təklifim var, əgər qəbul etsəniz, sizin məsləhətinizdir. Əgər beyət etsəniz, sizin özünüz, dininiz və dünyanız üçün xeyirli olar.

İmam Hüseyn(ə) Mərvanın cavabında buyurdu:

اِنّا لِلّهِ وَ اِنّا اِلَيْهِ راجِعُون, وَعَلَى الإِسْلامِ اَسَّلام اِذا بُلِيَتُ الأُمَّة بِراعٍ مِثلَ يَزِيد وَلَقَد سَمِعتُ جَدِّى رَسُوُل الله(ص) يَقُولُ: اَلْخِلافَةُ مُحَرَّمَةٌ عَلى آلِ اَبِى سفيان, فَإِذا رَأَيْتُم مُعاوِيَة عَلى مِنْبَرِى فَأَبْقَرُوا بَطْنه وَقد رآهَ اَهْلِ الْمَدِينَة عَلى مَنْبَر فَلَم يَبْقَرُوا فَابْتِلاهُم الله بِيَزِيد الفاسِق

– Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq. Əgər Yezid kimi bir çoban ümmətə başçılıq edəcəksə, o zaman İslamın işi bitmişdir. Allahın Rəsulundan(s) eşitdim ki, buyurdu: “Xilafət Əbu Süfyan ailəsinə haramdır. Müaviyəni mənim minbərimdə gördükdə qarnını yırtıb onu aşağı salın”. Amma Mədinə əhli onu Peyğəmbərin(s) minbərində görüb etiraz etmədiklərinə görə Allah bu camaata pozğun Yezidi uyğun gördü.

İmam Hüseyn(ə) bütün aləmə başa saldı ki, İslam ümmətinin başında və Peyğəmbərin(s) yerində İslam adı altında Yezid kimi fasid, pozğun, yırtıcı və adam öldürən bir şəxs otura bilməz. Mən qoymayacağam ki, o, Peyğəmbərin(s) yerində otursun. İmam Hüseynin(ə) Yezidin şəxsi hakimiyyəti ilə işi yox idi. O Həzrət bütün

bu hərəkətləri ilə vacibi məruf və haramı münkər etdi. Bütün bu hadisələr yalnız həmin söhbətlə bağlı idi. O Həzrət bunu  istədi və istəyinə də nail oldu. İmam Hüseyn(ə) istəyirdi ki, vacib məruf və haram da münkər kimi tanınsın. Hamı bilir ki, vacib elə vacibdir və haram da haramdır. Məsələn, namaz qılmaq vacib, yalan danışmaq isə haramdır. Həmçinin əmr be məruf (insanları mərufa dəvət etmək) və nəhy əz münkər (insanları münkərdən çəkindirmək) də vacib əməllərdəndir. Amma bəzən vacib məruf deyildir. Əgər İslam insanları mərufa dəvət etməyi əmr edirsə, bu o demək deyil ki, onları vacibə dəvət etməliyik. Ümumiyyətlə, insanları mərufa dəvət etmək əmr olunur. Həmçinin deyilmir ki, camaatı haramdan çəkindirin. Camaatı münkərdən çəkindirmək əmr olunur. Məruf bəyənilmiş əməllərə, münkər isə çirkin və hamının acığı gələn işlərə deyilir. Bəzən elə vaciblər olur ki, hamının o əməldən xoşu gəlmir. Bəzən də elə haramlar vardır ki, hamının o əməldən acığı gəlmir. Müaviyə elə bir iş gördü ki, vacib əməllər camaat arasında mərufluğunu və haram da münkərliyini itirdi. Xəlifə içki içib mehrabda dayanıb namaz qıldıqdan sonra hansı münkərdən danışmaq olar? Müaviyə haramı münkərlikdən ayırmışdı. İmam Hüseyn(ə) öz hərəkatı ilə bildirdi ki, mən vacibi məruf və haramı da münkər edəcəyəm. Kim bu işləri görürsə, mənim onunla işim yoxdur. Amma haramın haram olduğunu hamı bilməlidir. Mən Yezidi İslam adı altında xəlifə olmağa qoymayacağam. İmam Hüseyn(ə) camaatı başa saldı ki, Yezid xüsusi hakimiyyət istəyirsə istəsin. Amma İslamın xəlifəsi olması mümkün deyil. Çünki insan taxtda əyləşməklə ədalətli ola bilməz. Insanın yerdə fasiq, taxta çıxdıqdan sonra ədalətli olması mümkün deyil. Pozğun insanın haqqı yoxdur ki, İslam adına hakim

olsun. Qeyri İslam adı ilə dünyada nə çox fasiqlər vardır ki, hakimlik edirlər və heç kəsin onlarla heç bir işi yoxdur. Əgər söhbət haram etməkdən gedirsə, Peyğəmbər(s) zamanında da xeyli insan haram işlər görürdü. Peyğəmbər(s) onların qarşısını ala bilmədi. Çünki haram elə bir şeydir ki, insan onu öz iradəsi ilə tərk etməlidir. Vacib elə bir şeydir ki, insan onu da öz iradəsi ilə yerinə yetirməlidir. Bunlar insanın öz ixtiyarındadır. Insanın iradəsi Allahın iradəsi ilə onun əməli arasında bir vasitədir. Əgər insan iradə etsə, deməli Allahın da iradəsi yerinə yetmişdir. Bu, Allahın şəriətlə bağlı iradəsidir ki, insanların ixtiyarına vermişdir. Allah hamıdan namaz qılmağı istəyir, amma çoxu qılmır. Insanların ixtiyarı öz əllərində olduğu üçün pis işlər də görə bilərlər. Amma İmam Hüseyn(ə) bütün aləmə sübut etdi ki, pozğun bir insan öz- özlüyündə pozğundur. Belə bir insanın heç bir vaxt İslam hakimiyyətində əyləşməyə ləyaqəti yoxdur. İmam Hüseyn(ə) bu məsələləri insanlara başa saldı. Tarixdə bu məsələlər barədə bir çox nümunələr vardır ki, onlardan birini nəzərinizə çatdırıram.

İmam Hüseyn(ə) Mədinədən hərəkət edib Məkkəyə yetişdi. Abdulla ibn Ömər də Məkkədə idi. Həm ömrə ziyarəti, həm də öz şəxsi işləri üçün ora gəlmişdi. O, İmam Hüseynin(ə) Yezidə beyət etmədiyindən və Məkkəyə gəldiyindən xəbər tutduqda öz işlərini sahmana salıb, Həzrətin(ə) hüzuruna gəldi. Salamlaşandan sonra dedi: Mənim sizə bir təklifim var. Həzrət(s) buyurdu: Eşidirəm. Abdulla dedi: Ya Əba Əbdillah, eşitdim ki, Yezid Vəlidin vasitəsilə səndən beyət istəyib. Sən də ona beyət etməmisən. Mədinədən hicrət edib Məkkəyə gəlmisən. Bilirsən ki, camaatın çoxu Yezidə beyət edib. Bilirsən ki, hazırda vəzifə, pul, mal- dövlət Yezidin

əlindədir. Belə olduqda camaat pula görə də olsa ona tərəf gedəcəkdir. Ikincisi də budur ki, əgər sən ona beyət etməsən, həm səni öldürəcəklər, həm də sənin tərəfdarlarını. Çünki mən Peyğəmbərdən(s) eşitmişəm ki, Hüseyn(ə) şəhid olacaq. Hər kim ona kömək etməsə, zəlil olacaq. Mənim təklifim budur ki, sən Yezidin beyətini qəbul etməklə həm özünün, həm də bir dəstə insanın qanının tökülməsinə imkan vermə. İmam Hüseyn(ə) Abdulla ibn Ömərin hansı yuvanın quşu olduğunu və fitnəkar bir adam olduğunu çox gözəl bilirdi. Buna görə də ona belə buyurdu: Ya əba Əbdürrəhman, bilmirsənmi dünya o qədər alçaqdır ki, həmin dünyada Zəkəriyyanın oğlu Yəhyanın başını kəsib teştin içinə qoyaraq zinakar bir adamın qarşısına qoydular?

Sonra Həzrət(s) buyurdu: Bilmirsənmi Bəni-Israil hər gün fəcrdən gün çıxana qədər yetmiş peyğəmbərin başını kəsdikdən sonra bazarda alış-verişlərilə məşğul olurdular? Allah onlara möhlət verdi və sonda Öz əzabını onlara nazil etdi.

İmam Hüseyn(ə) bu iki hadisəni ona danışdıqdan sonra buyurdu: Ya əba Əbdürrəhman, Allahdan qorx. (Peyğəmbərdən(s) eşitmisən ki, hər kim mənə kömək etməsə, zəlil olacaq). Elə isə gəl mənə kömək et ki, zəlil olmayasan.

Abdulla ibn Ömər ağlayıb dedi: Mən dəfələrlə görmüşəm ki, Peyğəmbər(s) sənin ürəyindən öpüb. Icazə ver, mən də Peyğəmbər(s) öpən yerdən öpüm. İmam Hüseyn(ə) etiraz etmədi və köynəyini yuxarı qaldırdı. Abdulla ibn Ömər üç dəfə İmam Hüseynin(s) ürəyinin üstündən öpüb ağladı. Sonra İmam Hüseynlə(ə) vidalaşıb getdi.

## Abdulla ibn Ömər kimdir?

Osman dünyadan gedəndən sonra camaat beyət etmək üçün Həzrət Əlinin(ə) evinə axışırdı. Altı-yeddi nəfərdən başqa hamı Həzrət Əliyə beyət etdi. Abdulla ibn Ömər beyət etməyənlərin içərisində idi. Malik Əştər dedi: Ya Əli, onun sənin qılıncından xəbəri yoxdur. Izn ver ona azacıq təzyiq edim ki, o da beyət etsin. Həzrət Əli(ə) buyurdu: “Lazım deyil. Onu azad burax, öz istədiyini etsin. Istəyir beyət etsin, istəmir etməsin”. Abdulla ibn Ömərə dedilər ki, gəl, sən də Əliyə beyət et. O, yalandan dedi: Istəyirəm hamıdan sonra, ən axırda Əliyə beyət edim. Bir müddətdən sonra Həzrət Əliyə(ə) xəbər gətirdilər ki, Abdulla Məkkədə başına bir neçə nəfəri toplayıb sənin hakimiyyətinin əleyhinə fəaliyyət göstərir. Həzrət Əli(ə) bir neçə nəfəri Məkkəyə göndərib bu məsələni həll etdi. Abdulla ibn Ömər elə bir insan idi ki, Həzrət Əli(ə) barəsində belə işlər görürdü. İmam Hüseynin(ə) sinəsini öpəndən sonra çıxıb Yezidə məktub yazaraq ona beyət etdiyini etiraf etdi. Abdulla elə bir adam idi ki, Hüseynin sinəsindən öpmüşdü və Peyğəmbərdən eşitmişdi ki, Hüseynə kömək etməyən zəlil olacaq. Yezidə beyət edəndən bir müddət keçməmiş camaat onun əleyhinə qalxdı. Mədinənin valisini şəhərdən qovdular. Osman ibn Məhəmməd o zaman Mədinəyə Yezid tərəfindən vali təyin olunmuşdu. Abdulla ibn Ömər gəlib Yezidin tərəfini saxlayaraq, qohum-əqrəbasını yığıb belə dedi: Camaat, mən Peyğəmbərdən(s) eşitdim ki, belə buyurdu: Hər kim birinə söz verib əhd-peyman bağladıqdan sonra öz sözünün üstündə dayanmasa və əhd-peymanını sındırsa, Allah qiyamət günü həmin şəxsi rüsvay edəcək.

Abdulla bu hədisi camaat üçün oxuyandan sonra dedi: Siz Yezidə beyət etmisiniz. Əgər bu gün öz beyətinizi sındırsanız, qiyamət günü Allah sizi rüsvay edəcək.

Yeziddən sonra Əbdülməlik ibn Mərvan hakim oldu. İbn Zübeyr Məkkədə onun əleyhinə fəaliyyətə başladı. Əbdülməlik ibn Mərvan Həccacı Məkkəyə göndərib göstəriş verdi ki, gedib məsələni həll etsin. Həccac Məkkəyə gəldi. Abdulla ibn Ömər onun gəlişindən xəbər tutub, gecə ilə onun yanına gəlib dedi: Həccac əlini uzat, sənə beyət etməklə öz beyətimi Mərvana bildirim. Həccac yeyib-içib uzanmışdı. Yerindən qalxmadan dedi:  Səhər gəlib beyət edərdin, nə əcəb gecənin bu vaxtı gəlmisən? Abdulla ibn Ömər dedi: Peyğəmbərdən(s) eşitmişəm ki, hər kim öz əsrinin imamını tanımadan ölsə, elə bil cahiliyyət aləmində dünyadan getmişdir. Qorxdum ki, gecə yatıb səhər durmaram. Istəmirəm ki,cahillər kimi dünyadan gedim. Buna görə də mən gecəylə beyət etmək üçün sənin yanına gəldim. Həccac ayağını yorğanın altından çıxarıb dedi: Əlimi yorğanın altından çıxara bilmərəm, gəl ayağıma beyət et. Abdulla ibn Ömər gəlib Həccacın ayağına beyət etdi.

Abdulla ibn Ömərin bu hərəkəti İmam Hüseynə(ə) danışdığı Peyğəmbərin(s) hədisinin nəticəsi idi. O, İmam Hüseynə(ə) demişdi: Ya Əba Əbdillah, Peyğəmbərdən(s) eşitmişəm ki, Hüseyn() şəhid olacaq. Hər kim ona kömək etməsə zəlil olacaq.

Bir insan ki, Əlinin(ə) əllərinə beyət etməsə, Allah həmin şəxsi elə zəlil edər ki, Həccacın ayağını öpüb ona beyət edər.

Odur ki, İmam Hüseyn(ə) bunları başa saldı ki, sizi İslam adı altında hakim olmağa qoymayacağam. Onlar İslam adı altında hakim olmaq istəyirdilər. Bütün bu

məsələlər elə bunun üstündə idi. Bu, iki ərəbin məsələsi deyildi. İmam Hüseyn(ə) bütün müsəlmanlara başa saldı ki, Yezid İslam hakimi deyil. O, fasiq bir hakimdir. Əgər İslam adı altında hakimlik etsə, mən buna imkan verməyəcəyəm. O Həzrət(ə) bu hərəkəti ilə bütün tarixlərdə insanlara başa saldı ki, İslam ayrı şeydir, Bəni-Üməyyə ayrı şeydir. Bu hərəkəti ilə İslamı Bəni-Üməyyədən və Yeziddən ayıra bildi. Tarix bu məsələni qəzavət edir. Bu gün bütün dünyanın alimləri İmam Hüseyn(ə) barədə yazdıqları kitablarda vurğulayırlar ki, Hüseyn(ə) məğlub oldu, amma məhkum olmadı. Onu öldürdülər, amma məntiqini söndürə bilmədilər. Onun bu məntiqinə heç bir məntiq çata bilmədi. Bununla da İslamı qoruyub saxladı. Buna görə də Həzrət Peyğəmbər(s) buyurur: “Hüseyn məndəndir və mən də Hüseyndənəm. Onun məktəbi mənim məktəbimdir. Mənim məktəbimi Hüseyn qoruyub saxlamışdır”.

## İmam Hüseynin(ə) məqamı

Bəhsimizin müqəddiməsində Həzrət Peyğəmbərin(s) Əhli-beyti(ə) barədə və Həzrətin(s) İmam Hüseyn(ə) haqqında buyurduğu məşhur bir hədisi nəzərinizə çatdırdım. Bu hədisdə Həzrət Peyğəmbər(s) buyurur ki, Hüseyn məndəndir və mən də Hüseyndənəm. Firqəsindən asılı olmayaraq bütün İslam dünyası bu hədisi qəbul edib təsdiqləyir. Bu iki hissəli hədisin hər iki mənası barədə artıq söhbət etdik. İmam Hüseyn(ə) Peyğəmbərin(s) nəvəsi, əti ətindən, qanı qanından olduğu üçün Həzrət(s) buyurur: “Hüseyn məndəndir”. Çünki İmam Hüseyn(ə) barədə bu kəlamlar Həzrət Peyğəmbərin(s) öz mübarək dilindən bəyan olunmuşdur. Həzrət Peyğəmbər(s)

buyurur: “Hüseynin əti ətimdən, qanı mənim qanımdan, ruhu mənim ruhumdan və nuru nurumdandır”. Həmçinin hədisin ikinci hissəsində Peyğəmbər(s) buyurur: “Mən də Hüseyndənəm. Çünki Peyğəmbər gətirən dini, kitabı qoruyub saxlayaraq öz qanı ilə imzalayıb, bu işi öz öhdəsinə götürmüşdür”. Allah-təala Quranda Öz dininin və kitabının qorunub hifz olması haqqında belə buyurur:

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

–Həqiqətən bu zikri *(Quranı)* Biz nazil etdik və şübhəsiz, onu (qiyamətə qədər də) Biz Özümüz qoruyarıq.

Peyğəmbər(s) və məsumların hədis və kəlamlarından belə qənaətə gəlirik ki, İmam Hüseynin(ə) şəhaməti, şücaəti, mücahidliyi, fədakarlığı və şəhadəti İslamı təzmin etdi. Allah-təala İmam Hüseynin(ə) vasitəsilə İslamı qoruyub saxlayır. Alimlərdən biri öz kitabında bu barədə belə yazır: “Əgər Isa Məsihin(ə) də Hüseyni olsaydı, o da Incili qoruyub təhriflərdən saxlaya bilərdi. Əgər Musa Kəlimullahın Hüseyni olsaydı, o da öz Tövratını saxlaya bilərdi. Lakin Allah-təala iradə edərək İslam Peyğəmbərinə(s) Quranı nazil edir və onu təhrifdən qoruyub saxlamaq üçün Hüseyni(ə) də yaradır”. Həmçinin Hüseynə(ə) Peyğəmbər(s) vasitəsilə buyurur:

فَإِنَّ اللّهَ تَعالى أَرادَ أَنْ يَراكَ قَتِيلاً وَقَدْ شآءَ أَنْ يَراهُنَّ سَباياً

–Həqiqətən Allah-təala səni qətil edilmiş halda (qanına boyanmış) görmək və ailəni də əsir görmək istəyir.

İslamı İmam Hüseynin(ə) qanı və Xanım Zeynəbin(s.ə) dili və məntiqi qoruyub saxladı. Yəni İslamı İmam Hüseynin(ə) qanı saxladı və o Həzrətin qanını da bacısı Zeynəbin(s.ə) xütbələri, şəhaməti və cəsarəti qoruyub saxladı. Buna görə də deyirlər ki, bir bacı ilə bir

qardaş səbəb oldular ki, İslam bu günə qədər yaşasın. Əgər bu bacı-qardaş olmasaydı, Müaviyə İslamdan əsər-əlamət qoymayacaqdı. Çünki Müaviyə elə bir insandır ki, onun ailəsi tamamilə şər və nanəcib insanlardan ibarət idi. Onun atası Əbu Süfyan həmin insandır ki, Peyğəmbərlə(s) düşmənçilik edirdi və hətta döyüşlərin birində vurub Həzrətin(s) dişini sındırmışdı. Müaviyənin anası o qadındır ki, Həmzə şəhid olandan sonra onun ciyərini çıxarıb çeynəyərək kənara atmışdı. Müaviyənin özü iki imamla (Imam Əli(ə) və İmam Həsənlə(ə)) müharibə aparmışdır. Müaviyənin oğlu Yəzid üç il hakimiyyətdə oldu və hər bir ili də dəhşətli cinayətlərlə yadda qaldı. Hakimiyyətinin birinci ilində Kərbəla hadisəsini törətdi. İkinci il Mədinədə «Hərrə» hadisəsini törətməklə yüzlərlə Quran hafizini və qarelərini qətlə yetirdi. Hakimiyyətinin üçüncü ilində isə Kəbəni dağıdaraq orada adam öldürərək qan tökdü.

Bəni-Üməyyə belə bir ailədir. Bu ailə başdan-başa cinayətkar, fasiq, fasid bir ailədir. Həkim Sənai tanınmış bir şairdir. O, bu ailənin cinayətlərini qələmə alaraq yazır:

*Dastane pesəre Hind məgər nəşenidi?*
*Ke əz u və se kəse u be Peyğəmbər çe rəsid?*
*Pedəre u do dəndane Peyğəmbər beşekəst,*
*Madəre u cegəre əmme Peyğəmbər beməkid.*
*U be nahəqq həqe damade Peyğəmbər begereft,*
*Pesəre u səre fərzənde Peyğəmbər beborid.*

Şair Üməyyə ailəsinin cinayətlərini beləcə açıqlamışdır: Atası Əbu Süfyan Peyğəmbərin(s) dişini sındırmış, anası Hind Peyğəmbərin(s) əmisi Həmzənin ciyərini parçalamış, Müaviyənin özü Imam Əli(ə) və İmam Həsənlə(ə) müharibə aparmış, həmçinin oğlu Yezid

də Peyğəmbərin(s) balası İmam Hüseynin(ə) başını kəsmişdir.

Buna görə də əgər Kərbəla hadisəsi, İmam Hüseynin(ə) hərəkatı, Xanım Zeynəbin xütbələri, şəhaməti və cəsarəti olmasaydı, İslamdan heç bir əsər-əlamət qalmayacaqdı. Bu söhbətimiz ötən bəhslərdə etdiyimiz bəhsin qısa məzmunu idi. Lakin bu bəhsdə iki mətləbi nəzərinizə çatdırıram. Həmin mətləblərdən biri budur ki, bu cəhətə görə İmam Hüseynin(ə) məqamı fəzilətlidir. Əgər İslam Peyğəmbəri(s), Həzrət Əli(ə) İmam Hüseyni(ə) əzizləyirdilərsə, hətta İslamdan əvvəlki peyğəmbərlər belə onun adını dillərinə gətirib ehtiram edirdilərsə, bütün bunlar İmam Hüseynin(ə) öz qanı ilə İslamı zəmanətə götürüb qoruyub saxladığına görədir. Peyğəmbər(s) təkcə nəvəsi olduğuna görə İmam Hüseyni(s) sevmirdi. Məlum məsələdir ki, hamı nəvəsini sevir. Amma Peyğəmbər(s) nəvə-babalıq məsələsindən əlavə, İmam Hüseyni(ə) başqa imtiyazlarına görə də sevirdi. Həzrət Peyğəmbər(s) və Imam Əli(ə) İmam Hüseynin(ə) fəzilətləri barədə danışırsa, bu, ata-bala və ya baba-nəvə məsələsi deyil. Bütün bunlar İmam Hüseynin(ə) vücudunun İslamı qoruyub saxladığına görədir.

İmam Hüseyn(ə) kiçik yaşlarında olarkən Peyğəmbər(s) onun sinəsindən, boğazından öpərdi. Hədislərdə vardır ki, oğlu İbrahimi Hüseynə qurban verdi. Hədisin məzmunu belədir: Həzrət Peyğəmbər(s) sağ dizinin üstündə Hüseyni, sol dizində isə oğlu İbrahimi əyləşdirmişdi. Həzrət Cəbrayıl nazil olub salam verdikdən sonra dedi: Ya Rəsulallah Allah bu iki uşaqdan birini səndən almaq istəyir. Hansını verə bilərsən. Həzrət Peyğəmbər(s) Cəbrayılın salamının cavabını aldıqdan

sonra hər iki uşağın üzündən öpüb buyurdu: Oğlum İbrahimi Hüseynə fəda edirəm. Bu hadisədən sonra İbrahim dünyasını dəyişdi. Peyğəmbər(s) uşağı aparıb Bəqi qəbiristanlığında dəfn etdi. Sonradan Peyğəmbər(s) nə vaxt Hüseyni(ə) görürdüsə, bağrına basıb sinəsindən, boğazından, bəzən dişlərindən və dodaqlarından öpüb buyurardı: “Qurban olum bu uşağa ki, oğlum İbrahimi də buna fəda etdim”.

Həzrət Əlinin(ə) əzəməti hamıya bəllidir. İslam dünyasında ikinci əzəmətli şəxsiyyətdir. Peyğəmbərdən(s) sonra ən mükəmməl insan Həzrət Əlidir(ə). Dost-düşmən hamı yekdilliklə  Həzrəti(ə) nümunəvi insan kimi tanıyır. Hətta ondan əvvəl özlərini xəlifə edənlər belə onun elmini və fəzilətini danmayıblar. Heç bir insan Həzrət Əli(ə) barədə eybli və nöqsanlı bir söz danışmayıb. Çünki Həzrət Əlidən(ə) həyatı boyu bir nöqsan və çatışmazlıq görünmədi. Həzrət Peyğəmbər(s) məsciddə əyləşmişdi. Əli(ə) Peyğəmbərin(s) yanına gəlib salam verdikdən sonra dedi: Ya Rəsulallah, xahiş edirəm ki, Allahdan mənim üçün məğfirət diləyib mənə dua edəsən. Çox istərdim ki, mənim barəmdə etdiyiniz duaları özüm də eşidim. Həzrət Peyğəmbər(s) ayağa qalxıb namaz qılmağa başladı. Iki rükət namaz qıldı. Namaz qurtarandan sonra səcdəyə gedərək dedi: İlahi, Səni and verirəm Əlinin haqqına, Əlini bağışla. Həzrət Əli(ə) dedi: Ya Rəsulallah, Allaha nəyə görə mənim haqqıma and verdin? Həzrət Peyğəmbər(s) buyurdu: Mən yerə-göyə və ərşə baxdım. Allahın yanında səndən əzəmətli bir şəxs tapa bilmədim ki, ona and verim.

İmam Əlinin(ə) belə fəzilətləri vardır.  Həzrətin(ə) qızı xanım Zeynəb buyurur: “Hər vaxt atam Hüseyni(ə) çağırarkən ayağa qalxar, səsini azaldar və başını aşağı

salaraq belə deyərdi: “Gəl yanıma, ya Əba Əbdillah”. Həzrət Əli(ə) özü nə qədər böyük bir şəxsiyyət olsa da Hüseyni(ə) bu cür hörmətlə səsləyib çağırardı. Belə bir hörmət və münasibət ata-bala münasibəti deyildi. İmam Hüseynin(ə) xüsusi imtiyaz və hörmətinə görə idi. Həzrət Əli(ə) İmam Hüseyn(ə) barədə belə buyurur: “Ata-anam Hüseynə qurban. O Hüseynə ki, Kufə şəhərinin arxa tərəflərində (Kərbəlada) şəhid olacaq. And olsun Allaha, elə bil gözlərimlə indidən görürəm ki, hətta çöllərin vəhşi heyvanları belə Hüseynin(ə) bədəninin, qətligahının və qəbrinin kənarında ağlayaraq matəm içindədirlər. Gecədən səhərə qədər oturub ona əza saxlayırlar”.

Qəbilələrin birindən olan bir nəfər deyir: Məhərrəm ayının on birinci günü bir neçə nəfərlə Kərbəladan keçirdik. Baxıb gördük ki, hər yerdə cənazə var. Nə qədər insanı qətlə yetirmişdilər. Birdən Neystan tərəfdən bir şirin gəldiyini gördük. Tez gizləndik ki, heyvan bizə hücum etməsin. Şir meydana sarı gəldi. Öz-özümüzə fikirləşdik ki, yəqin bu ac heyvan yerdə qalan cənazələri yemək üçün gəlib. Birdən baxıb gördük ki, meydanın ortasında ayaqlarını yerə vuraraq, yerdən torpağı götürüb başına səpir və nərə çəkir. Sonra gəlib bir cənazənin kənarında dayandı. Hacıların Kəbə evinin başına təvaf etdiyi kimi, cənazənin ətrafına dolanırdı. Bütün heyvanlar da gəlib onun dövrəsinə yığışaraq, matəm edirdilər.

Tarixdə bu kimi hadisələr çoxdur. Ola bilsin ki, bəzisini çoxaldıb azaltsınlar. Amma Həzrət Əlinin(ə) buyurduğu kəlamlara heç bir şübhə yoxdur və ola da bilməz.

Übeyy ibn Kəəb deyir: “İmam Hüseyn(ə) məscidə daxil oldu. Peyğəmbər(s) onu görcək buyurdu: Mərhəba sənə ya Əba Əbdillah. Ay göylərin və yerlərin zinəti.

Kəəb deyir: Öz-özümə təəccüb etdim ki, Peyğəmbərdən(s) başqa kiməsə göylərin zinəti demək olarmı? Peyğəmbərdən(s) soruşdum: Ya Rəsulallah, səndən başqa kimsəyə göylərin zinəti demək olarmı? Həzrət(s) buyurdu: Hüseynin göylərdə böyüklüyü və əzəməti yerdən daha çoxdur. Allahın ərşində Hüseynin adına yazılan cümlələrdən sizə xəbər verimmi? Dedilər bəli, ya Rəsulallah. Həzrət(s) buyurdu: Hüseyn hidayət çırağı, nicat gəmisi, ən gözəl insan, Imam, izzət, bərəkət, elm və zəxirədir. Allah onun sülbündə pak, təmiz və mübarək bir nütfə qərar verib. Allah Hüseynə elə bir dua öyrətmişdir ki, hər kim o duanı oxusa, Allah həmin şəxsə bu mənfəətləri bəxş edəcək. Hər kim bu duanı oxusa, Allah həmin şəxsi Hüseynlə məşhur edər, İmam Hüseyni ona şəfaətçi qərar verər. Allah həmin şəxsin qəm-qüssəsini aradan aparar, borclarını əda edər, işlərini asanlaşdırar, yolunu açıq edər, həmin şəxsi düşməninə qalib edər, eyblərini örtər və həyasını qoruyar, sinəsi və qəlbini genişləndirər, dünyadan gedərkən la ilahə illəllah deyə dünyadan gedər.

Soruşdular: Ya Rəsulallah, o dua hansı duadır? Həzrət(s) buyurdu: Namazı qılıb qurtarandan sonra əyləşdiyin yerdə bu duanı oxu:

اَللّهمَّ اِنِّى اَسْئَلُكَ بِكَلِماتِكَ وَ مَعاقِدِ عَرشِكَ وَ سُكّانِ سَماواتِكَ وَ اَنْبِيائِكَ وَ رُسُولِكَ اَنْ تَسْتَجِبَ لِى فَقَد رَحِقَنِى مِن اَمْرِ اُسرى. فَأَسْئَلُكَ اَنْ تُصَلِ عَلى مُحَمَّدٍ وَ آلِ مُحَمَّد. وَ اَنْ تَجْعَلَ لِى مِن اَمْرِ يُسْرى

-Allahummə inni əsəlukə bikəlimatikə və məaqidi ərşik. Və sükkani səmavatikə və ənbiyaikə və rusulik. Ən təstəcibə li fəqəd rəhiqəni min əmri usra. Fə əsəlukə ən

tusəlli əla Muhəmədin və ali Muhəmməd. Və ən təcələ li min əmri yusra.

Allahın İmam Hüseynə(ə) belə bir fəziləti bəxş etməsi, ərşdə bu cür sözlərin yazılması və Peyğəmbərin(s) onun haqqında buyurduqları İmam Hüseynin(ə) əzəmətinə görədir. Peyğəmbərin(s) onun haqqında buyurduğu bu kəlamlar və Həzrətin(s) xüsusi inayəti ata-bala və baba-nəvə olmasına görə deyildir.

Qeyd etdiyimiz hədis çox böyük bir hədisdir. Elə bu hədisdə Peyğəmbər(s) on ikinci imama qədər bir-bir adlarını çəkərək, hər birinin barəsində xüsusi dua buyurur. Qeyd etdiyimiz dua İmam Hüseyn(ə) barədə olan duadır.

Bu bəhsimizdə ikinci mətləb budur ki, İmam Hüseynə(ə) ağlamaq bidət yox, sünnətdir. Bəziləri elə düşünə bilərlər ki, İmam Hüseyn(ə) üçün ağlamaq bidətdir. Burada bidət barədə ətraflı söhbət açsaq, əsas mövzudan kənara çıxacağıq. Buna görə də bir kəlmə ilə bidət bəhsini qeyd etməklə söhbətimizə davam edirik. Sünnətlə bidətin fərqi nədir? Peyğəmbərin(s) gördüyü hər hansı bir işi öyrənib ona əməl etməyə sünnət deyilir. Bidət isə ona deyilir ki, İslamda olmayan bir əməl İslama əlavə edilsin. Indi baxaq görək Peyğəmbər(s) öz zamanında Hüseynə(ə) ağlayıb, ya ağlamayıb? Əgər Peyğəmbər(s) Hüseynə(ə) ağlayıb, onun Kərbəlada şəhid olacağını bizə xəbər verməklə onun üçün ağlamağı müsəlmanlara buyurubsa, bu sünnətdir. Yox, əgər Peyğəmbər(s) bu barədə heç bir iş görməyib və bizə heç bir tapşırıq verməyibsə, sonradan bu məsələni bəzi adamlar və bəzi firqələr ortaya çıxarıbsa, deməli bu iş bidətdir. Əgər bidət olarsa haram, sünnət olarsa bu işi bütün müsəlmanlar görməlidir. Bu məsələni hədislərə baxmaqla tam

aydınlaşdırmaq mümkündür. Qeyd edəcəyim bu hədislərin bəzisini bütün firqələrin kitablarından, bəzisini isə öz kitablarımızda nəzərinizə çatdırıram. Əgər biz Peyğəmbərin(s) İmam Hüseyn(ə) haqqında «Hüseyn məndəndir və mən də Hüseyndənəm» buyurursa, deməli o əzəmətdə Peyğəmbərin(s) sözü bizim üçün höccətdir. Əgər Peyğəmbərin(s) və Imam Əlinin(ə) sözü bizim üçün höccətdirsə, deməli Əhli-beytdən(ə) və məsum imamlardan bizə buyurulan sözlərin hamısı bizim üçün höccətdir.

İbn Abbas deyir: "Bir gün Mədinə məscidində sübh namazını qılıb qutardıqdan sonra Peyğəmbər(s) bizim üçün moizə edirdi. Həzrət Peyğəmbər(s) bizə cənnət barədə söhbət edir və biz də həvəslə onun sözlərinə qulaq asırdıq. Elə bu zaman Həsən və Hüseyn əl-ələ tutub məscidə daxil oldular. Gəlib Peyğəmbərin(s) yanında dayanaraq bizə dedilər: Kim bizim kimidir? Allah bizim babamızı göylərin və yerin şərəflisi qərar verib. Atamız məşriqdən məğribə qədər hamıdan üstündür. Anamız bütün aləmlərin qadınlarının xanımıdır. Nənəmiz (Xədicə) möminlərin anasıdır. Biz də cənnət cavanlarının ağalarıyıq. İbn Abbas deyir: Onlar bu sözləri deyəndən sonra biz daha şad olub sevinərək bu (bu şəxsiyyətlərin vilayətlərinin ürəyimizdə olması) münasibətlə bir-birimizi təbrik etdik. Biz bir-birimizi təbrik edərkən birdən gördük ki, Peyğəmbər(s) çox narahat halda ağlayır. Öz-özümüzə təəccüb etdik ki, belə sevincli bir halda Peyğəmbər(s) nə üçün ağlayır? Soruşduq: Ya Rəsulallah, sənə nə oldu belə? Nə üçün ağlayırsan? Həzrət Peyğəmbər(s) üzünü uşaqlara tutub buyurdu: Mənim balalarım, məndən sonra sizə üz verəcək müsibətlər gözlərimi ağladır. Buna görə də Allahdan özüm üçün səbr diləyirəm. Həzrət Peyğəmbər(s)

bu sözlərdən sonra daha da şiddətlə ağlamağa başladı. Biz də Peyğəmbərə(s) qoşulub ağlamağa başladıq".

Qeyd etmək lazımdır ki, Mədinə məscidində sübh namazından sonra Peyğəmbər(s) İmam Hüseynin(ə) rövzəsini oxudu, səhabələr də ağladılar. Rövzə təkcə o demək deyil ki, kimsə avazla oxuyub camaatı ağlatsın. Sadəcə qəmli hadisəni danışıb ağlamaq və ağlatmaq da rövzədir.

Sonra Peyğəmbər(ə) hər iki uşağı çağırıb Həsəni sağ, Hüseyni isə sol dizinin üstündə əyləşdirərək buyurdu: "Atam atanıza qurban, anam da ananıza. Bu sözləri buyurduqdan sonra, Həsənin ağzından öpüb uzun-uzadı onun ağzını iylədi. Sonra Hüseynin boğazından öpərək onun da boğazını uzun-uzadı iylədi. Sonra yenə də ağladı. Biz də Peyğəmbərə(s) qoşulub ağladıq. Elə bu vaxt İmam Hüseyn(ə) Peyğəmbərin(s) dizinin üstündən düşüb evə getdi. Bir az keçməmiş Xanım Zəhra(s.ə) ilə birgə Peyğəmbərin(s) məhzərinə gəldi. Həzrət Zəhra(s.ə) evdə nə baş verdiyini belə buyurur: Gördüm ki,Hüseyn ağlaya-ağlaya evə daxil oldu. Ondan nə üçün ağladığını soruşduqda belə dedi: Qardaşımla cəddimiz Peyğəmbərin(s) yanına getmişdik. Peyğəmbər(s) Həsənin ağzından və mənim boğazımdan öpüb ağladı. Mənim ağzımdan öpmədi. Anacan, mənim ağzımda nəsə vardır ki, babam ağzımdan öpmədi? Anacan, mənim ağzımı iylə, bəlkə pis qoxu gəldiyi üçün Peyğəmbər(s) ağzımdan öpmədi. Dedim: Xeyr, mənim balam. Allaha and olsun ki, onun ürəyində zərrə qədər də olsun sənə qarşı pis bir şey yoxdur. Yenə Hüseyn ağlamağa başladı və dedi: Bəs nə üçün babam mənim ağzımdan öpmədi. Xanım Zəhra buyurdu: Mənim balam, Allaha and olsun, dəfələrlə eşitmişəm ki, Peyğəmbər(s) buyurmuşdur: «Hüseyn

məndəndir və mən də Hüseyndənəm. Hüseyni incidən məni incitmişdir». Xanım Zəhra Hüseyni sakitləşdirmək üçün bu hadisəni ona danışdı: Oğlum, bir gün səninlə qardaşın Həsən güləşirdiniz. Mən gördüm ki, ceddim Peyğəmbər(s) Həsəni təşviq edir. Atama dedim: Ata can, Hüseyn kiçik uşaqdır, onu nə üçün təşviq edib tərif etmirsən? Peyğəmbər(s) buyurdu: Qızım, mən Həsəni təşviq edirəmsə, Cəbrayıl da Hüseyni təşviq edərək Hüseyn, Hüseyn deyir. Xanım Zəhra başqa bir hadisəni onu danışaraq buyurdu: Mənim balam, sən kiçik ikən ağlayırdın. Atam Həzrət Peyğəmbər(s) otağıma daxil olub buyurdu: Qızım, Hüseyni ağlamağa qoyma. Bilmirsənmi ki, Hüseyn ağlayanda mən də ağlayıram? Bilmirsənmi ki, Hüseyn ağlayarkən göyün mələkləri də ağlayır? Indi isə tut əlimdən, gedək baban Peyğəmbərdən(s) bunun səbəbini soruşaq. İbn Abbas deyir: Gördük ki, Xanım Zəhra Hüseynin əlindən tutub Peyğəmbərin(s) məhzərinə gəldilər. Həzrət Peyğəmbər(s) Xanım Zəhranın Hüseynin əlindən tutaraq ona sarı gəldiyini gördükdə bərkdən ağlamağa başladı. Xanım Zəhra(s.ə) gəlib atasına salam verdikdən sonra dedi: Ey mənim ağam, elə bil Hüseynin xətrinə toxunmusan. Hüseyn narahat halda mənim yanıma gəlib ağlayır. Ya Rəsulallah, sən buyurmadınmı ki, Hüseyn mənim sinəmin gülüdür? Ya Rəsulallah, sən buyurmadınmı ki, Hüseyn göylərin və yerin zinətidir? Həzrət Peyğəmbər(s) buyurdu: Əlbəttə, mən demişəm bu sözləri. Xanım Zəhra dedi: Bəs nə üçün onu qardaşı Həsən kimi öpmədin? Buna görə də Hüseyn ağlayaraq mənə şikayət edir. Peyğəmbər(s) buyurdu: Qızım, bunun bir sirri var. Sənə desəm, qorxuram halın pozular. Bu sirri sənə açsam, qorxuram qəlbin sınar və kədərlənərsən. Xanım Zəhra(s.ə) atasına and verdi ki, bu sirri onun üçün açsın.

Peyğəmbər(s) bu sirri açıqlayaraq buyurdu: Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq. Fatimə, qardaşım Cəbrayıl Allah tərəfindən nazil olub mənə bu xəbəri gətirdi: Həsəni zəhərləyib öldürəcəklər. Buna görə də mən onun zəhər dəyən ağzından öpdüm. Hüseynin boğazının Şimrin qılıncı ilə kəsiləcəyinə görə onun boğazından öpdüm".

Bu hədisi İbn Abbas nəql edir. İbn Abbas Peyğəmbərin(s) səhabəsi idi. Firqəsindən asılı olmayaraq hamı onun sözlərini qəbul edir. İbn Abbasın bu sözləri müqəddəs insanlar vasitəsilə bizlərə çatdırılır. Biz görürük ki, Peyğəmbər(s) özü Hüseynə(ə) ağlayır. Deməli, Peyğəmbərin(s) ağlaması sünnət hesab olunur. Əgər biz Hüseynə(ə) ağlayırıqsa, deməli, Peyğəmbərin(s) sünnəsinə əməl edib ağlayırıq. Əgər Peyğəmbər(s) Hüseynin(ə) öldürülməsi münasibətilə bizə şadyanalıq etməyi buyursaydı, biz də onu edəcəydik. Bu barədə bizə buyurulanlara əməl etmək hər bir müsəlmanın borcudur. Peyğəmbər(s) Hüseyn(ə) barədə bizə hər nə buyurursa, biz də o cür əməl etməliyik. İmam Hüseynə(ə) ağlamağı biz özümüzdən çıxarmamışıq. Məgər ağlamaqla biz bu dünyada hansısa mənfəət əldə etmiş oluruq? Məgər ağlamaqla ciblərimiz pulla dolurmu ki, desinlər, filankəs öz cibinə görə ağlayır? Qətiyyən belə deyil. Peyğəmbər(s) həm özü Hüseynə(ə) ağlayır, həm də bizə ağlamağı göstəriş verir.

İmam Baqir(ə) buyurur: "Bir gün İmam Hüseyn(ə) evə daxil olarkən Həzrət Peyğəmbər(s) Imam Əliyə(ə) buyurdu: O uşağı tut gətir mənim yanıma və başını yuxarı qaldır. Həzrət Əli(ə) İmam Hüseyni tutub başını yuxarı qaldırıb Peyğəmbərə(s) tərəf yaxınlaşdırdı. Peyğəmbər(s) Hüseynin boğazından öpüb ağladı. İmam Hüseyn(ə) özü

Peyğəmbərin(s) ağladığını görüb soruşdu: Babacan, nəyə görə ağlayırsan? Peyğəmbər(s) buyurdu: Qılıncın yerindən öpdüyüm üçün ağlayıram. İmam Hüseyn(ə) soruşdu: Baba, biz şəhid olacağıq? Peyğəmbər(s) buyurdu: Bəli, həm sən, həm atan, həm də qardaşın Həsən şəhid olacaqsınız. İmam Hüseyn(ə) soruşdu: Qəbirlərimiz harada olacaq? Peyğəmbər(s) buyurdu: Bir-birinizdən uzaqda. İmam Hüseyn(ə) soruşdu: Bəs bizi kim ziyarət edəcək? Peyğəmbər(s) buyurdu: Mənim ümmətimin içində bir dəstə sədaqətli insan hər bir şəraitdə və həmişə sizin qəbrinizi ziyarət edəcəklər".

Ümmi Sələmə deyir: "Bir gün mənim evimdə Peyğəmbər(s) Hüseyni qucağında tutub ağlayırdı. Soruşdum: Ya Rəsulallah, nə üçün ağlayırsan? Həzrət(s) buyurdu: Cəbrayıl bu uşağın şəhid olacağını mənə xəbər verdiyi üçün ağlayıram. Sonra Peyğəmbər(s) mənə bir az torpaq verərək buyurdu: Bu torpaq Kərbəla torpağıdır. Nə vaxt gördün ki, bu, çevrilib qana döndü, bil ki, Hüseyni şəhid ediblər".

Bu hədis Ümmi Sələmədən bütün kitablarımızda nəql olunmuşdur. Bu kimi hədislər məsum imamlarımızdan dəfələrlə nəql olunmuş və bir çox kitablarda yazılmışdır. İmam Həsən(ə) barədə yazırlar ki, otuz dəfə Hüseynin(ə) boğazından opmüşdü. Həmçinin buyurmuşdu ki, qardaş, düzdür, mən də şəhid olacağam, amma heç bir gün sənin gününə çatmayacaq ya Əba Əbdillah. Həmçinin Həzrət Əli(ə) Siffeyn müharibəsinə gedərkən Kərbəladan keçdikdə orada əyləşib ağlamışdır. Bütün bunlar İmam Hüseynə(ə) ağlamaq barədə olan hədislərdir ki, kitablarımızda nəql olunub. İmam Hüseyn(ə) şəhid olandan sonra da bacısı Zeynəb bizə ağlamağı öyrədir:

*Gecələri sübhəcən növhəxanlıq eliyən,*

*Hüseynin əvvəl olan növhəxanı Zeynəbdir.*
*Çuxur yerin türbətin götürüb çəkən gözünə,*
*Tanıtdıran hamıya Kərbəlanı Zeynəbdir.*

Məlum məsələdir ki, bir bacının qardaşını öldürərkən bacı nalə çəkib ağlayar. Xanım Zeynəb anası Zəhranı, atası Əlini və babası Peyğəmbəri Hüseynə ağlayan görmüşdür. Əgər bu iş bidət olsaydı, Xanım Zeynəb nə üçün ağlayırdı? Əgər Hüseynə ağlamaq bidət olsaydı, bəs Həzrət Əli və Xanım Zəhra nə üçün ağlayırdı? İmam Sadiq(ə) buyurur: "Hüseynə əza saxlayıb qəm-qüssəli olan kəsin nəfəslərinə zikr savabı yazılar". Başqa bir hədisdə İmam Sadiq(ə) atası İmam Baqirdən(ə) belə nəql edir: "Atam dünyadan gedərkən mənə belə vəsiyyət etdi: Oğlum, mənim malımdan bir miqdar ayır, hacılar minada olarkən bir mərsiyə oxuyan tap və əza məclisi təşkil et. Qoy minada İmam Hüseynə əza məclisləri qurub ağlasınlar".

Beləliklə İmam Hüseynə(ə) əza saxlayıb ağlamaq Peyğəmbərin(s) sünnətidir və bütün müsəlmanlar bu sünnəyə əməl etməlidirlər. İslamın bütün firqələrində İmam Hüseynə(ə) ağlayıb əza saxlayırlar. Bu, düşmən sözləridir ki, Hüseynə(ə) ağlamaq bidətdir. Bu gün Hüseynin(ə) matəm və əzasından özlərinə təhlükə hiss edən bir dəstə camaatın ağzına bidət sözünü atır. Nadan insanlar da bu sözlərin mənasını bilmədən danışırlar. Xeyr, belə deyildir. Hamı bilməlidir ki, İmam Hüseynə(ə) ağlamaq Peyğəmbərin(s) sünnəsidir və biz də bu sünnəyə əməl edirik. Həmçinin bütün müsəlmanları da məhərrəm günlərində, aşura günü qara geyinib Hüseynə(ə) əza saxlamağa dəvət edirik. Biz bu əməli sünnət bilib, çox gözəl şəkildə əməl də edirik. Allah-təala bizi Peyğəmbərin(s) sünnəsindən ayrı salmasın.

# BİRİNCİ DƏRS

## ALLAH YOLUNDA FƏDAKARLIQ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

أعوذ باالله من الشيطان الرجيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. قُلْ إِن كَانَ آبَاؤُكُمْ وَأَبْنَآؤُكُمْ وَإِخْوَانُكُمْ وَأَزْوَاجُكُمْ وَعَشِيرَتُكُمْ وَأَمْوَالٌ اقْتَرَفْتُمُوهَا وَتِجَارَةٌ تَخْشَوْنَ كَسَادَهَا وَمَسَاكِنُ تَرْضَوْنَهَا أَحَبَّ إِلَيْكُم مِّنَ اللّهِ وَرَسُولِهِ وَجِهَادٍ فِي سَبِيلِهِ فَتَرَبَّصُواْ حَتَّى يَأْتِيَ اللّهُ بِأَمْرِهِ

(Ya Peyğəmbər!) De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, övrətləriniz (həyat yoldaşlarınız), qəbiləniz (qohumlarınız), qazandığınız mallar, kasad olmasından qorxduğunuz ticarət, xoşunuza gələn məskənlər sizə Allahdan, Onun Peyğəmbərindən və Allah yolunda cihad etməkdən (çalışmaqdan) daha əzizdirsə, Allahın əmri (əzabı) gəlincəyə qədər gözləyin."[1]

Bu ayənin nazil olma səbəbi belədir: Həzrət Peyğəmbər(s) Həcc səfərinə yola düşdü və Məkkəyə daxil oldu. Həzrət Əli(ə) orada Peyğəmbərin(s) icazəsilə ayağa qalxıb bütün müsəlmanlara elan etdi ki, bundan sonra heç

---

[1] Tövbə, 23

bir müşrikin Məscidül-hərama daxil olmağa ixtiyarı yoxdur. Allah-təala heç bir müşrikə ora daxil olmağa icazə vermir. Həzrət Əli(ə) bu elanı camaata çatdırdıqdan sonra müsəlmanlar azacıq narahat oldular. Onların narahatlığına səbəb bu idi ki, əgər müşriklər ora gəlməsələr, karvanların qarşısı alınacaq, həmçinin karvanlar da Məkkə şəhərinə gəlməsələr, orada gəl-get azalaraq onların ticarət və bazarları zəifləyəcək. Buna görə də Qüreyşin və digər müsəlmanların səsi ucaldı. Öz-özlərinə dedilər ki, bundan sonra bizim ticarətimiz əlimizdən çıxacaq, ailəmizin işi çətinləşəcək və evlərimiz xaraba qalacaq.[1] Möminlərin içərisində belə bir fikir yarananda Allah-təala bu ayəni Həzrət Peyğəmbərə(s) nazil etdi.

"(Ya Peyğəmbər!) De: “Əgər atalarınız, oğullarınız, qardaşlarınız, övrətləriniz (həyat yoldaşlarınız), qəbiləniz (qohumlarınız), qazandığınız mallar, kasad olmasından qorxduğunuz ticarət, xoşunuza gələn məskənlər sizə Allahdan, Onun Peyğəmbərindən və Allah yolunda cihad etməkdən (çalışmaqdan) daha əzizdirsə, Allahın əmri (əzabı) gəlincəyə qədər gözləyin."

Allah-təala bu ayədə möminlərə başa saldı ki, bunların hamısı yaxşıdır, lakin iman bazarı ilə onlar iki yolun ortasında qalmış olsalar, o zaman gərək üstünlüyü Allaha və Peyğəmbərə(s) versinlər. Burada Allah möminlərin imanını imtahana çəkdi. Imanı çox olanlar o birilərdən fərqləndi. Həmçinin imanı zəif olanlar da öz zəifliyini aşkar etdilər.

Burada bir mətləbi əziz möminlərin nəzərinə çatdırıram. O da budur ki, insan elə düşünməməlidir ki, öz

[1] Onlar evlərini Məkkəyə gələn ticarətçilərə kirayə verərək onlardan pul alırdılar.

malını, ailəsini, qohum-əqrəbasını və s. nəzərdə tutmasın. Onların hamısı insan üçün möhtərəm və əzizdir. Insanın ata-anası, qohumları, ailəsi və s. mühümdür. Onlarla əlaqə saxlamaq və onlara hörmət etmək çox mühüm məsələlərdəndir. Həmçinin zəhmət çəkib halal qazanc əldə etmək insan üçün təkid olunmuş əməllərdəndir. Amma əgər insan iki yolun ayrıcında qalarsa, bir tərəfdə bunlar, digər tərəfdə isə Allah olarsa, o zaman gərək bunların məhəbbəti insanı Allah yolundan saxlamasın. Quranda bu barədə bir çox ayələr vardır ki, nümunə üçün “Loğman” surəsinin 15-ci ayəsini misal çəkmək olar:

وَإِن جَاهَدَاكَ عَلى أَن تُشْرِكَ بِي مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ فَلَا تُطِعْهُمَا وَصَاحِبْهُمَا فِي الدُّنْيَا مَعْرُوفًا

-Əgər onlar *(ata-anan)* cəhd etsələr ki, Mənə şərik qoşasan, əsla onlara itaət etmə. Dünyada onlarla yaxşı davran.

Bu mubarək ayə bizə bildirir ki, əgər valideyn insanı şirkə tərəf çəkərsə, onlara itaət olunmamalıdır. Lakin onların müşrik olmasına baxmayaraq, onlarla yaxşı rəftar etməyi Allah-təala insana vacib etmişdir.

İndi ki insan üçün hamıdan mühüm olan valideyn insanı şirkə, günaha tərəf çəkirsə və onlara bu məsələdə itaət etməmək vacib olursa, aydın məsələdir ki, başqaları da həmçinin insanı günaha və şirkə tərəf çəkərsə, o zaman vacibdir ki, insan onların bu təklif və dəvətinə yox, Allahın sözünə əməl etsin. Əgər insanı şirkə, günaha dəvət etmirlərsə, onlarla yaxşı davranıb xoş münasibətdə olmaq çox yaxşıdır. Yəni insan təbii şəraitdə qohum-əqrəbasına yaxşı münasibət bəsləsin. Insan üçün öz ata-anası, ailəsi, mal-dövləti, mülkü mühümdür və onlara qarşı münasibəti çox səmimi olmalıdır. Amma elə bir vəziyyət yaranarsa ki,

ya Allahı, ya da onları seçmək məcburiyyəti qarşısında qalsalar, onların məhəbbəti gərək insanı Allah yolundan saxlamasın.

Qeyd etdiyimiz mübarək ayənin tərcüməsi və qısa izahından sonra keçək İmam Hüseynin(ə) Kərbəla hadisəsinə. İmam Hüseyn(ə) Kərbəlada həmin qeyd etdiyimiz "Tövbə" surəsinin 23-cü ayəsini əməli surətdə bütün insanlara nümayiş etdirdi. Kərbəla bir sərgidir və bu sərgini təşkil edən Allah-təaladır. Bəzən ölkələrarası sərgilər qurulur və hər bir ölkə öz məhsulunu və ya hansısa mədəniyyət əsərini orada nümayiş etdirir. Lakin Allah-təalanın Kərbəlada təşkil etdiyi bu sərginin mövzusu insaniyyət və eşq sərgisi idi. Allah-təala bu sərgini təşkil etməklə bütün insanları dəvət edir ki, hamı gəlib bu sərgiyə baxsın və onun barəsində oxuyaraq müəyyən qənaətlərə gələrək nəticə əldə etsinlər. Allah-təala bu sərgidə verdiyi birinci dərsi - Peyğəmbərinə(s) nazil etdiyi həmin ayəni İmam Hüseyn(ə) vasitəsilə əməli surətdə bütün insanlara nümayiş etdirərək öyrədir. İmam Hüseyn(ə) öz əməli ilə bütün insanlara başa saldı ki, lazım gəldikdə insan Allah yolunda hər şeyindən keçməlidir.

O Həzrət(ə) Məkkədən Kufəyə sarı hərəkət etmək istəyirdi. Çünki Kufədən İmama(ə) külli miqdarda məktub gəlmişdi. Kufə camaatı İmam Hüseyni(ə) Kufəyə dəvət etmişdilər. Onlar istəyirdilər ki, Həzrətin(ə) rəhbərliyi altında orada İslam cəmiyyəti təşkil etsinlər. Həzrət(ə) həmin məktubların hamısını özü ilə götürmüşdü. İmam Hüseynin(ə) qardaşı Məhəmməd Hənəfiyyə Həzrətin(ə) Məkkədən çıxdığını eşitdikdə özünü qardaşına yetirdi. Çünki o, bütün bu vəziyyəti siyasi baxmdan təhlil etmişdi. Demək olmaz ki, düz təhlil etməmişdi. Onun sözlərində siyasi baxımdan məntiq var idi. O, öz

uzaqgörənliyini və vəziyyəti İmama(ə) danışdı və dedi: “Qardaş, eşitdim ki, Məkkədən çıxıb Kufəyə hərəkət etmək istəyirsən? Imam buyurdu: Bəli. Məhəmməd dedi: Bilmirsənmi ki, Kufə əhli vəfasızdır və onlara etibar etmək olmaz? Görmədinmi, onlar atan Əli(ə) ilə necə rəftar etdilər? Mənim səndən xahişim budur ki, bu səfərdən imtina edəsən. Əgər istəyirsənsə Məkkədə qal. Çünki Məkkə əmin-aman bir yerdir. Yox, əgər Məkkədə qalmaq istəmirsənsə, Yəmənə get. Orada Peyğəmbəri(s) sevənlər və vəfalı insanlar çoxdur. Ora getsən, sənə hörmət edərlər və sənin üçün istədiyin şəraiti hazırlayarlar. İmam Hüseyn(ə) buyurdu: Bu barədə fikirləşərəm. Məhəmməd Imamdan(ə) ayrılıb getdi. Bir neçə saatdan sonra xəbər tutdu ki, İmam(ə) Məkkədən hərəkət etməyə başlayır. Özünü İmama(ə) yetirib dedi: Ey Allahın höccəti, axı mən sənə dedim ki, Kufəyə getmə. İmam(ə) buyurdu: Yuxuda cəddim Peyğəmbəri(s) gördüm. O, mənə buyurdu:

يَا حُسَيْنُ أُخْرُجْ  فَإِنَّ اللّهَ تَعالى أَرادَ أَنْ يَراكَ قَتِيلاً

-Ya Hüseyn! Çıx, həqiqətən Allah səni qətl olunmuş (qanına boyanmış) görmək istəyir.

Məhəmməd dedi: Əgər Allah sənin şəhid olmağını görmək istəyirsə, bəs onda ailəni, qızlarını və körpə uşaqlarını nəyə görə aparırsan?

وَقَدْ شآءَ أَنْ يَراهُنَّ سَباياً

İmam(ə) buyurdu: Çünki Allah onları da əsir görmək istəyir.

İmam Hüseyn(ə) ona məntiqi, siyasi və dini cavablar da verə bilərdi. Lakin Kufəyə yola düşməyi qətiləşdirdiyi üçün onunla bundan artıq söhbət etmədi. Yalnız yuxusunu ona danışmaqla kifayətlənib hərəkət etdi.

Həzrət İmam Hüseyn(ə) bu hərəkəti, öz ailəsini, uşaqlarını aparması ilə bütün aləmə sübut etdi ki, əgər insan Allah yolunda hərəkət etmək istəyirsə, belə etməli və Allah yolunda hər şeyindən keçməyi bacarmalıdır. Həzrət(ə) yolda bu barədə bəzi insanlarla söhbət etmişdi. Həmin adamlar həm İmamı(ə) tanıyırdılar, həm də Imam onları tanıyırdı. Lakin onlar Həzrətin(ə) sözlərini qəbul etmədilər. Çünki onlar artıq dünyanın şirinliyinə aldanmışdılar.

## İnsanlar mərifət və əməldə üç qismdirlər

Qeyd etmək lazımdır ki, insanlar mərifət və əməldə üç qismə ayrılırlar. Bir qism insanlar var ki, onların nə mərifətləri, nə də əməlləri var. Belə insanlar heyvan kimi yalnız öz qarınlarını və şəhvətlərini təmin etməklə məşğuldurlar. Bunlar dünyada kimi lazımdı tərifləyər və istədikləri adamı da tənqid və təhqir edərlər. Belə adamların fikri-zikri yalnız dünyadır. Onların nə mərifətlə, nə də əməllə işləri yoxdur.

İkinci qism insanların həm mərifətləri var, həm də əməlləri düzgündür. Onlar həm getdikləri yolu tanıyırlar, həm də o yolu düzgün gedirlər.

Üçüncü qism insanlar isə onlardır ki, yolu tanıyırlar, haqqı bilirlər, lakin maneələr onların gözlərini tutur. Onlar haqq-həqiqətin harada olduğunu yaxşı bilirlər. Həqiqət yolunu çox yaxşı tanıyırlar. Lakin bu haqq-həqiqətə və bu yola girməyin çətinlikləri olduğunu görüb geri çəkilirlər.

Üçüncü qismdən olan insanların bəzilərinin adını nəzərinizə çatdırıram. Həmin şəxslərdən biri Ömər ibn Səd idi. Məhərrəm ayının doqquzuncu gecəsi İmam Hüseyn(ə) onunla söhbət etdi. Ömər ibn Səd İmam

Hüseyni(ə) çox gözəl tanıyırdı. Kimin oğlu, kimin nəvəsi, Allahın yer üzündə höccəti və hədəfinin nə olduğunu hamıdan yaxşı bilirdi.

İmam(ə) ona buyurdu: "Ömər Səd, yaxşı olar ki, Bəni-Üməyyədən uzaqlaşasan. Məsləhət görürəm ki, Peyğəmbərin(s) Əhli-beytini(ə) müdafiə edəsən." Ömər ibn Səd dedi: “Ey Peyğəmbər(s) balası, mən bilirəm ki, sən haqqsan. Amma qorxuram ki, sənə qoşulsam, uşaqlarımı öldürərlər. Qorxuram ki, sənə qoşulsam, Kufədəki evlərimi uçurdub viran edərlər. Bir də qorxuram ki, sənə qoşulsam, mənim xurma bağlarımı yandırarlar. Buna görə də  sənə qoşula bilmərəm”.

Ömər ibn Səd İmam Hüseyni(ə), haqq-həqiqəti və düzgün yolu yaxşı tanıyırdı. Lakin arvad-uşağı, mal-dövlət, ev-eşik, bağlar və s. Allahın dinini müdafiə etməkdə  ona mane oldu. O, yolun üstündəki maneələri aşa bilmədi.

Həmin şəxslərdən biri də Übeydulla ibn Hürr Cüəfi idi. Mənzillərin birində İmam Hüseyn(ə) onunla rastlaşdı. Həzrət(ə) ona buyurdu: "Mən bilirəm ki, sən çox günahkar bir adamsan. Siffeyndə Əli ibn Əbu Talibə qarşı müharibə etmisən. Müaviyənin adamı olmusan. Sən çox böyük cinayətlər törətmisən. Istəyirsən ki, bütün bu günahların bağışlansın? Mən səni elə bir tövbəyə dəvət edirəm ki, bütün günahların yuyulub təmizlənər." Cüəfi dedi: “Ağa, mən hamıdan gözəl bilirəm ki, hər kim gəlib sənə qoşulsa və kömək etsə, izzət və səadətə çatacaq. Amma belə fikirləşirəm ki, mən gəlib sənə qoşulsam da, qoşulmasam da, onsuz da səni öldürəcəklər. Buna görə də sənə qoşulmağımın heç bir faydası olmayacaq. Lakin mənim gözəl və bərk qaçan bir atım var. Əgər istəyirsənsə, onu sənə bağışlayım. Bundan əlavə gözəl və möhkəm bir qılıncım var ki, hər kəsə bir zərbə endirsən, ikinci zərbəyə

ehtiyac yoxdur. Onu da sənə verirəm”. Həzrət(ə) ona baxıb buyurdu: "Ey Hürrün oğlu, elə bilirsən sənin atına və qılıncına ehtiyacım var? Mən səni hidayət etmək istəyirəm. Istəyirəm ki, sən Peyğəmbərin(s) Əhli-beytinə kömək edəsən. Əgər özün gəlmək istəmirsənsə, sənin atın və qılıncın mənə lazım deyil."

İmam Hüseyn(ə) aşura günü camaata xütbə oxuyaraq moizə edirdi. Həzrət(ə) ikinci xütbəni oxuduqdan sonra Ömər ibn Sədi çağırdı və onunla bir daha söhbət etdi. Ömər ibn Səd atı ilə gəlib Imama (ə) yaxınlaşdı. Onlar o qədər yaxın dayanıb söhbət edirdilər ki, hətta atlarının boyunları bir-birinə dəyirdi. Həzrət(ə) höccəti tamamlamaq üçün Ömər ibn Sədə buyurdu: "Sən elə bilirsən ki, məni öldürməklə İbn Ziyad sənə Rey və Corcan mülkünü verəcək? And olsun Allaha, bunların heç biri sənə qismət olmayacaq. Sən nə bacarırsansa, Allah yolunda elə. Bunu bil ki, sənin üzün nə bu dünyada güləcək, nə də axirətdə."

Ömər ibn  Səd yenə də ona verilən vədlərdən keçə bilmədi. Çünki ona pul, mal-dövlət və mülk vədəsi verərək ürəyini ələ almışdılar. Bu vədlər onu çaşdırıb haqqa tərəf gəlməkdən uzaqlaşdırmışdı.

Beləliklə İmam Hüseyn(ə) Kərbəlada bütün insanlara öyrətdi ki, əgər Allah yolunda malından, canından, bir sözlə, hər şeyindən keçmək lazım olarsa, gərək keçsin.

تَرَكْتُ الْخَلْقَ تُرًّا فِى هَواكا          وَ اَيْتَمْتُ الْعَيال لِكَى اَراكا

وَلَو قَطَّعْتَنِى فِى الْحُبِّ عِرْبا          وَما حَنَّ الْفُؤاد اِلى سِواكا

– İlahi, mən Sənin yolunda hər bir şeyimdən, hətta əhli-əyalım və uşaqlarımdan belə keçirəm. Əgər mənim bədənimi tikə-tikə doğrasalar belə, qəlbimdə Sənin (Sənin Peyğəmbərinin və dininin) eşqindən savayı heç nə yoxdur.

Həzrət İmam Hüseyn(ə) uşaqları döyüş meydanına yola salarkən onlarla danışır və əllərini göyə açıb Allahla münacat edəndən sonra yola salırdı. Hətta düşmən Həzrətin(ə) altıaylıq körpəsini əllərinin üstündə oxlayarkən, uşağın qanını ovcuna doldurub göyə səpdi və Allahla belə münacat etdi. Bu mənzərəni görmək mənim üçün çox asandır. Çünki bütün bunlar mənim Məşuqumun gözləri qarşısında baş verir.

Nəhayət, İmam Hüseyn(ə) axırda özü döyüş meydanına doğru hərəkət etdi. Hərəkət edərkən bacısı Zeynəbin(s.ə) onu səslədiyini eşitdi. Həzrət(ə) geri dönüb bacısının yanına gəldi və atdan düşüb bacısına buyurdu:

*Sinəni qəmlər oxuna baz elə,*
*Hişməte nasutiyə sən naz elə,*
*Aləme lahutiyə pərvaz elə,*
*Fatimə tək eşqdə ecaz elə,*
*Əhmədе Muxtari sərəfraz elə,*
*Səy elə, ol silsilə cunbane-eşq.*

*Ruzi əzəl mətrəh olanda bəla,*
*Çatdı bəla ilə bizə Kərbəla,*
*Mən bu biyabanda ollam fəna,*
*Ta nəfəsin var, sənə var ibtila,*
*Eşq giriftarinə yoxdur dəva,*
*Dərdidür tənha bacı, dərmane-eşq.*

*Eşqimizin var əbədi dövləti,*
*Həqq özü vermiş bizə bu neməti,*
*Neyləyirəm cano səru itrəti,*
*Bəsdi mənə dilbərimin vəsləti,*
*Xəncəro-şəmşir ilə var ləzzəti,*
*Yar baxa, doğrana qurbane-eşq.*

İmam(ə) xanım Zeynəbə(s.ə) o qədər moizə və nəsihət etdi ki, o, sakitləşdi və dağ kimi möhkəm oldu. İmam Hüseyn(ə) şəhid olandan sonra bütün şəraiti lazımınca qurub təşkil etdi və hər yerdə bu hadisəni olduğu kimi camaata çatdıraraq qardaşının qanını yerdə qoymadı.

# İKİNCİ DƏRS

## TÖVBƏ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

Kərbəla hadisəsinin insanlara öyrətdiyi dərslərdən biri budur ki, insan hər hansı bir yolun yolçusu olsa, hətta böyük günahların sahibi belə olmuş olarsa, bir an düşünüb fikirləşməklə, haqq yolu tapıb tövbə etməklə əbədi səadətə qovuşa bilər. Bu dərsi bizlərə Kərbəla öyrədir.

Bu dərsin müqəddiməsini Qurani-Kərimin “Hicr” surəsinin 28-43-cü ayələri ilə başlayırıq. Bu ayələrdə şeytanla Allahın müzakirəsi bəyan olunmuşdur. Qurani-Kərimdə bir neçə yerdə bu barədə geniş söhbətlər olmuşdur ki, həmin yerlərdən biri də aşağıdakı ayələrdən ibarətdir:

وَإِذْ قَالَ رَبُّكَ لِلْمَلاَئِكَةِ إِنِّي خَالِقٌ بَشَرًا مِّن صَلْصَالٍ مِّنْ حَمَإٍ مَّسْنُونٍ ٢٨.فَإِذَا سَوَّيْتُهُ وَنَفَخْتُ فِيهِ مِن رُّوحِي فَقَعُواْ لَهُ سَاجِدِينَ ٢٩.فَسَجَدَ الْمَلآئِكَةُ كُلُّهُمْ أَجْمَعُونَ ٣٠ .إِلاَّ إِبْلِيسَ أَبَى أَن يَكُونَ مَعَ السَّاجِدِينَ ٣١.قَالَ يَا إِبْلِيسُ مَا لَكَ أَلاَّ تَكُونَ مَعَ السَّاجِدِينَ ٣٢.قَالَ لَمْ أَكُن لِّأَسْجُدَ لِبَشَرٍ خَلَقْتَهُ مِن صَلْصَالٍ مِّنْ حَمَإٍ مَّسْنُونٍ ٣٣.قَالَ فَاخْرُجْ مِنْهَا فَإِنَّكَ رَجِيمٌ ٣٤.وَإِنَّ عَلَيْكَ

اللَّعْنَةَ إِلَى يَوْمِ الدِّينِ ٣٥.قَالَ رَبِّ فَأَنظِرْنِي إِلَى يَوْمِ يُبْعَثُونَ ٣٦.قَالَ فَإِنَّكَ مِنَ
الْمُنظَرِينَ ٣٧.إِلَى يَومِ الْوَقْتِ الْمَعْلُومِ ٣٨.قَالَ رَبِّ بِمَآ أَغْوَيْتَنِي لأُزَيِّنَنَّ لَهُمْ فِي
الأَرْضِ وَلأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ ٣٩.إِلاَّ عِبَادَكَ مِنْهُمُ الْمُخْلَصِينَ ٤٠.قَالَ هَذَا
صِرَاطٌ عَلَيَّ مُسْتَقِيمٌ ٤١.إِنَّ عِبَادِي لَيْسَ لَكَ عَلَيْهِمْ سُلْطَانٌ إِلاَّ مَنِ اتَّبَعَكَ
مِنَ الْغَاوِينَ ٤٢.وَإِنَّ جَهَنَّمَ لَمَوْعِدُهُمْ أَجْمَعِينَ.٤٣

- Və *(yada sal)* o zaman ki, Rəbbin mələklərə dedi: «Şübhəsiz, Mən qoxumuş palçıqdan alınmış quru gildən bəşər yaradacağam».

«Elə ki, onu düzəltdim və ona Öz ruhumdan *(mübarək və Özümə layiq ruhdan)* üfürdüm, hamılıqla ona *(təzim üçün)* səcdə halında üzü üstə düşün!»

Beləliklə, mələklərin hamısı *(onun qarşısında)* səcdə etdilər.

İblis isə səcdə edənlərlə birgə olmaqdan boyun qaçırtdı.

Allah buyurdu: «Ey iblis, sənə nə olub ki, səcdə edənlərlə birgə deyilsən?»

Dedi: «Mən əsla Sənin qoxumuş palçıqdan alınmış quru gildən yaratdığın bəşərə səcdə edən deyiləm!»

Allah buyurdu: «Elə isə buradan *(Cənnətdəki uca məqamdan, Allah dərgahından və ali mələklərin sırasından)* çıx ki, həqiqətən sən *(hər bir rəhmət və kəramətdən)* qovulmuşsan».

«Və şübhəsiz, *(İlahi vəzifələrin yerinə yetirilməsi müddəti olan indidən)* cəza gününədək sənə lənət olacaqdır *(və ondan sonra da əbədi cəza zamanıdır).*»

Dedi: «Ey Rəbbim, elə isə mənə onların *(Adəm övladlarının)* dirildiləcəkləri günə kimi möhlət ver».

Allah buyurdu: «Sən möhlət verilənlərdənsən».

«*(Lakin Qiyamətədək deyil,)* məlum vaxtın gününədək *(bəşər cəmiyyətinin hamısının düzələcəyi və ya bəşər nəslinin Israfilin surunun birinci dəfə üfürülməsi ilə kəsiləcəyi günədək)*».

Dedi: «Ey Rəbbim, məni *(Öz dərgahından uzaqlaşdırmaqla)* azğınlığa atdığına görə, mən də yer üzündə *(bütün pis işləri)* onlar *(insanlar)* üçün zinətləndirəcək və onların hamısını azdıracağam».

«Sənin *(rəhmətini şamil etməklə)* onların arasından seçdiyin bəndələrin istisna olmaqla».

*(İblis onların az bir qismindən başqa hamısını ixtiyari hidayətdən çıxarıb məcburi şəkildə azdıracağını iddia etdi.)* Allah buyurdu: «Bu, *(onları ixtiyari hidayət və zəlalət yolunda qoymaq),* Mənim öhdəmdə olan düz yoldur *(və hər bir qüdrətdən xaricdir)*».

«Və şübhəsiz, sənin Mənim bəndələrim üzərində heç bir hökmün yoxdur, *(onlar yol seçməkdə həmişə ixtiyara malikdirlər)*, tamamilə sənə tabe olan azğınlardan başqa»!

«Və onların hamısının vədə yeri mütləq cəhənnəmdir».

Bu ayələr Allahla şeytan arasında olan söhbətlərdir ki, Allah-təala bu məsələni Qurani-Kərimdə bir neçə yerdə bizlər üçün bəyan etmişdir. Şeytan and içmişdir ki, Allahın bəndələrini azdırıb Allah yolundan uzaqlaşdırsın. Burada Quranın ayələrinə istinad edərək iki mühüm mətləbi əziz möminlərin nəzərinə çatdırıram.

Birinci mətləb budur ki, insan təsəvvür etməməlidir ki, yolunu bir dəfəyə, birdən-birə azıb, haqq-həqiqətdən uzaq düşür. Xeyr, bu belə deyildir. Şeytan yaxşı bilir ki, Allahın yaratdığı fitrəti pak olan, təmiz olan bu insan birdən-birə fasiq olub yolunu azmaz. Ona görə şeytan insanı yavaş-yavaş, qədəm-qədəm aldadaraq haqq-həqiqət və düz

yoldan uzaqlaşdırıb fasiq edir. Əvvəl məkruh əməllərlə, sonra kiçik günahlarla, sonra böyük günahları eləməkdə insanı cürətləndirib yoldan azdıraraq tamamilə Allahdan uzaqlaşdırır. Buna misal olaraq “Bəqərə” surəsinin 208-ci ayəsini nəzərinizə çatdırıram:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ ادْخُلُواْ فِي السِّلْمِ كَآفَّةً وَلاَ تَتَّبِعُواْ خُطُوَاتِ الشَّيْطَانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ

- Ey iman gətirənlər, hamılıqla *(Allaha)* təslim və itaətə daxil olun və şeytanın addımlarına tabe olmayın ki, həqiqətən, o, sizin aşkar düşməninizdir.

Bu ayədə (خُطُوَاتِ) "Xütuvat" kəlməsi işlənmişdir. Bu sözün mənası qədəm və addım deməkdir. Bu ayədən açıq-aydın başa düşülür ki, şeytan insanı birdən-birə yox, addım-addım aldadaraq yoldan çıxarır. Ona görə də Allah-təala başa salır ki, insan şeytanın qədəmlərinin qoyduğu yerə qədəm qoymamalıdır. Çünki şeytan insanın açıq-aşkar düşmənidir.

İkinci mühüm mətləb budur ki, əgər bir insan şeytanın yolu ilə gedirsə və hər cür azğınlığa düşübsə, ən böyük günahlar işlədibsə, uzun illər boyu günahlar nəticəsində yolunu azıbsa, bununla belə, yenə də Allahın dərgahından məyus olmamalıdır. Bu, çox mühüm məsələdir. Insan deməməlidir ki, mən artıq fasiq olub yolumu azmışam, 50 il, yaxud 80 il namaz qılmamışam, haqq yoldan uzaqlaşmışam, bundan sonra qayıtmağımın mənə heç bir xeyri olmayacaq. Xeyr, bu, səhv düşüncədir. Insan günahından və yaşından asılı olmayaraq, Allahın dərgahına üz tutub tövbə edərsə, Allah-təala onun tövbəsini qəbul edib günahlarını bağışlayar. Çünki insanın

günahı nə qədər böyük olursa-olsun, Allahın rəhmətindən böyük ola bilməz.

Bəzi duaları oxuyarkən müşahidə edirik ki, həmin dualarda buyururlar: "İlahi, Sənin rəhmət və məğfirətin mənim günahlarımdan böyükdür". Allah-təala Qurani-Kərimdə yolunu azmış, günahkar bəndələrinə belə buyurur:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

( Ey Mənim rəsulum) De: «Ey Mənim *(günah vasitəsi ilə)* özlərinə zülm etməkdə həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin. Şübhəsiz, Allah *(tövbə ilə)* bütün günahları bağışlayır. Çünki bağışlayan və mehriban Odur![1]

Bu ayədən açıq-aşkar məlum olur ki, Allah-təala Öz bəndələrinin ona tərəf qayıtmasını, etdiyi günahlara görə yalvarıb bağışlanmasını diləməsini tövsiyə edir. Insanın günahı nə qədər böyük olsa da belə, Allaha yalvarıb özünü bağışlada bilər. Allahın rəhməti çox genişdir, hər kəs Onun dərgahına üz tutub tövbə edərsə, Allah onu bağışlayar.

قالَ الصّادِقُ(ع):اِذا كانَ يومَ القِيامَة نَشَر اللهُ تَبارَكَ وَ تَعالى رَحْمَتَه حَتّى يَطْمَعَ اِبلِيس فِي رَحْمَتِه تَعالى

İmam Sadiq(ə) buyurur: ”Qiyamət günü Allah-təala öz rəhmətini nazil etdiyi zaman Onun rəhməti o qədər geniş və böyük olacaq ki, hətta iblis belə Allahın rəhmətinə tamah salacaq”.

[1] Zumər,53

Ayə və hədislərdən aydın olur ki, insan iki əmrin qarşısında dayanıb. Həmin əmrlərdən biri Allahın, digəri isə şeytanın əmridir. Allah-təala əmr edir ki, insan namaz qılmalıdır, yaxşı işlər görməlidir, haram əməllərdən uzaq olmalıdır və s. Şeytan isə əmr edir ki, namaz qılma, yaxşı işlər görmə, haram əməllərə əl at və s. Insan bu iki əmrin ortasında dayanıb. Bir tərəfdən Allah-təala Quranda insanı başa salır ki, şeytan sizi yavaş- yavaş, qədəm-qədəm aldadır və insanın açıq-aydın düşmənidir. Bir tərəfdən də insana xitab edir ki, Allahın rəhmətindən məyus olmasın.

## Kərbəla - tövbə məktəbi

Kərbəlanın insanlara öyrətdiyi dərslərdən biri elə bu barədədir. Kərbəla hadisəsi bizə öyrədir ki, insan bir anın içində düşünüb haqq-həqiqət yolunu tapa bilər, keçmişindən tövbə etməklə özünü əbədi səadətə qoşa bilər. Allah-təala bu istedadı insanda yaratmaqla belə bir imkanı onun ixtiyarına qoymuşdur. Buna nümunə olaraq Hürrün tövbə etməsini misal çəkmək olar. Belə deyildir ki, Kərbəlada yalnız təkcə Hürr tövbə edib Allah yoluna qayıtmışdır. Kərbəlada çox adam tövbə edib qayıtmışdır. İmam Hüseynin(ə) moizə və xütbələrinin təsirindən çox insan etdiyi hərəkətlərə görə peşman olmuş və haqq-həqiqət yolunu tapıb tövbə etmişdir. İmam Hüseynin(ə) sözləri, xütbələri ox kimi insanların qəlbinə sancılıb, öz təsirini göstərirdi. Həzrət(ə) hər dəfə xütbə oxuyarkən düşmən qoşunundan neçə nəfər etdiyi hərəkətə görə peşman olurdu. Hətta döyüş meydanında Həzrət(ə) düşmənə moizə edərkən Şimr gördü ki, İmam Hüseyn(ə) belə davam edərsə döyüşçülər əllərindəki silahları atıb İmama(ə) qarşı döyüşməyəcəklər. Buna görə də orada səs-

küy qaldırırdı ki, camaat İmamın(ə) sözlərini eşitməsin. İmamın(ə) hər bir kəlməsi insanların qəlbinə təsir edirdi. Hətta İmam Hüseyn(ə) psixoloji cəhətdən elə hərəkətlər edirdi ki, bu hərəkətlər insanların ruhuna təsir göstərirdi. Həzrət(ə) altıaylıq körpəsini döyüş meydanına gətirməklə camaata başa salırdı ki, əgər sizin mənimlə müharibəniz varsa, bəs bu körpə uşağın günahı nədir? Neçə gündür bu uşaq susuzluqdan yanır. Mənimlə döyüşürsünüzsə, bəs bu uşağın susuz qalması nəyə görədir? İmam Hüseyn(ə) bilirdi ki, onlar uşağa su verməyəcəklər. Su əslində uşağın anasına lazımdır ki, suyun vasitəsilə uşaq da öz anasının südünü əmsin. Əli Əsğər 5 ay 17 günlük uşaq idi. On yeddi gün idi ki, anadan olmuşdu. Həzrət(ə) Mədinədən hərəkət etmişdi və müxtəlif məntəqələri keçərək 5 aya Kərbəlaya yetişmişdilər:

*Etdim sual bu sözü loğmani əqldən,*
*On yeddi gündə cəngə məgər südəmər gedər?*
*Verdi cavab görsə ki, Quran xətərdədi,*
*Bəli, Rübabın oğlu da döşdən küsər gedər.*

İmam Hüseyn(ə) körpəni əllərinin üstünə alıb qoşunun qarşısına çıxdı və onlara buyurdu ki, mənimlə döyüşürsünüzsə, bəs bu körpənin günahı nədir? Həzrət(ə) bu sözləri deyəndən sonra Hərmələ(l.ə) üç şaxəli oxu atdı. Ox Əli Əsğərin boğazına sancıldı. Bəzi kitablarda yazırlar ki, Həzrət(ə) uşağı o halda əllərinin ustundə saxlamışdı ki, bütün camaat görsün. Bəziləri isə yazırlar ki, Həzrət(ə) uşağı qumun üstünə qoydu. Deyirlər, balığı sudan çıxarıb yerə atarkən necə çapalayırsa, o körpə də qanına bələnmiş halda isti qumun üstündə çapalayıb xırıldayırdı. Bu hadisəni görən düşmən qoşunundan bir neçə nəfər qılınclarını yerə atıb Yezidə lənət oxuyaraq döyüş

meydanını tərk etdilər. Həzrət İmam Hüseyn(ə) nə iş görəcəyini hamıdan çox gözəl bilirdi. Hər bir hərəkəti ilə camaata moizə və nəsihət edirdi.

İmam Hüseyn(ə) Məkkədən çıxıb Kərbəlaya tərəf yollanır. Məkkə ilə Kərbəla arasında bir çox məntəqə var idi. Hər bir məntəqənin də öz adı var idi. Həzrət(ə) öz dəstəsi ilə hər məntəqədə dayanıb gecələyir, hansı məntəqə yaxın idisə, günorta çatıb bir az dincəldikdən sonra yenə də yollarına davam edirdilər. Bətni-Əqəbə adlı bir yerdə dincəldikdən sonra hərəkət etməyə hazırlaşdılar. Həzrət(ə) buyurdu ki, bacardığınız qədər özünüzlə çox su götürün. İmamın(ə) karvanı bütün qabları su ilə doldurandan sonra Şəraf adlı məntəqəyə yola düşdülər. Şərafa çatar- çatmaz İmamın(ə) səhabələri gördülər ki, elə bil uzaqdan xurmalıq görünür. Bir-birinə dedilər ki, biz buradan keçəndə heç xurmalıq görməmişdik. Bu məsələni Həzrətə (ə) dedilər ki, ey Peyğəmbər balası, biz uzaqdan xurmalıq görürük. Həzrət(ə) buyurdu ki, bəli, mən də görürəm. Elə ki, Şərafa yetişdilər, gördülər ki, bu, xurmalıq deyil. Hürr min nəfər silahlı dəstə ilə orada Həzrətin(ə) karvanını gözləyir.

## Hürr kim idi?

Hürr böyük bir qəbilədən olub, adlı-sanlı bir insan idi. Çox güclü dəstə başçılarından biri idi. Onun adı Hürr ibn Yəzid ibn Nəciyeyi Riyahi idi. O, Riyah qəbiləsindən olduğu üçün ona Hürri Riyahi deyirdilər.

Übeydulla İbn Ziyad Kufənin valisi idi. O, İbn Nümeyri Kufəyə və Kufə ətrafında olan ərazilərə təhlükəsizlik işləri üzrə nümayəndə təyin etmişdi. İbn Nümeyr İbn Ziyadla birgə məsləhətləşərək min nəfərdən ibarət olan bir qoşunu Hürrün ixtiyarına verərək, İmam Hüseynin(ə) qarşısını

almağı ona tapşırmışdılar. Çünki onlar eşitmişdilər ki, İmam Hüseynin(ə) karvanı Məkkədən çıxıb Kufəyə doğru hərəkət edir və bir neçə günə gəlib çatacaq. Buna görə də Hürrə tapşırıq vermişdilər ki, İmamın(ə) qarşısını alıb məqsədinə çatmağa qoymasın.

Hürr öz qoşunu ilə gəlib həmin yerdə İmamın(ə) karvanını gözləyirdi. İmamın(ə) karvanı ora yetişəndə gördülər ki, Hürr də öz qoşunu ilə orada dayanıb. İmamın(ə) karvanı orada miniklərindən düşüb, yüklərini boşaldıb çadırlarını qurdular. Hürr də öz qoşununa göstəriş verdi ki, cərgəyə düzlənsinlər. Havanın həddindən artıq isti olmasına görə Həzrət(ə) gördü ki, Hürrün adamları da, atları da çox susuzdurlar. Bir neçə nəfərə buyurdu ki, özləri ilə gətirdikləri sulardan həm onların özlərinə versinlər, həm də heyvanlarını suvarsınlar. Onlar da gətirdikləri sulardan Hürrün adamlarına və heyvanlarına verdilər. Amma heç kəs bir söz danışmırdı. Nə İmam Hüseyn(ə), nə də Hürr bir kəlmə də olsun söhbət etmirdi. Onlar suyu içib qurtarandan sonra zöhr namazının vaxtı oldu. İmam Həccac ibn Məsruqa azan vermək üçün işarə etdi. Həccac azanı deyib qurtarandan sonra Həzrət(ə) namaz qılmaq üçün ayağa qalxdı. Namaza başlamazdan öncə üzünü Hürrə və onun qoşununa tutaraq Peyğəmbər və Əhli-beytinə salam-salavatdan sonra buyurdu:

- Camaat! Mən istəyirəm sizinlə höccəti tamamlayım. Elə başa düşməyin ki, mən özbaşıma bura gəlmişəm. Sizin yazdığınız məktublar və göndərdiyiniz qasidlərin sözlərinə əsasən bura gəlmişəm. Siz özünüz mənə yazmışdınız ki, bizim Kufədə rəhbərimiz yoxdur, bəlkə sənin vasitənlə Allah bizi hidayət edər və bizə vəhdət, birlik bəxş edər. Əgər yenə də həmin fikirdəsinizsə, mən gəlmişəm. Mən sizə inanıb, etibar edim və siz də verdiyiniz vədlərə vəfalı

olun. Yox, əgər fikrinizdən daşınmısınızsa, o zaman mən də gəldiyim yerə qayıdım.

Həzrət(ə) sözlərini qurtarandan sonra Həccaca buyurdu ki, iqaməni desin. Həccac iqaməni oxuyanda Həzrət(ə) üzünü Hürrə tutaraq buyurdu: Biz namaz qılmaq istəyirik, əgər sən də namaz qılmaq istəyirsənsə, öz qoşununla qıl. Hürr dedi: Mən sənə iqtida edəcəyəm. Heç vaxt ola bilməz ki, sən camaat namazı qılasan, mən də gedib özüm üçün camaat namazı təşkil edim. Həm mən, həm də hamımız birlikdə namazda sənə iqtida edəcəyik. Hürr burada İmam Hüseynə(ə) qarşı öz ədəbini göstərdi. Camaat namazı qılınıb qurtardıqdan sonra hərəsi öz yerinə çəkildi. İmam(ə) və onunla gələnlər öz çadırlarına çəkilib bir az istirahət edəndən sonra Həzrət(ə) göstəriş verdi ki, qalxın, əsr namazını da qılaq, sonra öz yolumuza davam edək. Hamı qalxıb namaza hazırlaşdı. Həzrət(ə) müəzzinə azan verməyi göstəriş verdi. Sonra hamı birlikdə Həzrətin (ə) imamətilə əsr namazına başladılar. Namaz qurtaran kimi Həzrət(ə) ayağa qalxıb üzünü camaata tutaraq, yenə də salam-salavatdan sonra kiçik bir xütbə oxudu:

- Camaat! Əgər siz təqvalı olsanız, əgər siz Allahın əmrini yerinə yetirsəniz, haqq və haqq əhlini tanısanız, bu, Allahın razılığına səbəb olar. Biz Məhəmmədin(s) Əhli-beytiyik. Bəni- Üməyyə zülm və cinayət əhlidir. Siz bunları bilirsiniz. Əgər siz bunları qəbul eləmirsinizsə, bizim haqqımızı danırsınızsa, məktublarda mənə yazdığınız fikirlərdən daşınmısınızsa, fikriniz dəyişibsə, eybi yoxdur, mən sizdən ayrılıb gəldiyim yerə qayıdaram.

İmamın(ə) bu xütbəsindən sonra Hürr irəli gəlib dedi:“Mənim məktublardan xəbərim yoxdur və özüm də sənə məktub yazmamışam”. Həzrət(ə) göstəriş verdi ki, çantanı gətirsinlər. Həzrət(ə) çantanı açıb məktubları yerə

boşaltdı. Hürr baxıb gördü ki, məktubların sayı min, iki min deyil, həddindən artıq çoxdur. Hürr məktublara baxandan sonra Həzrətə(ə) dedi: “Hər halda mən sənə məktub yazmamışam. Mənə əmr olunub ki, səni Übeydulla İbn Ziyadın yanına aparım”. İmam Hüseyn(ə) Hürrə buyurdu: “Ölüm sənə bu fikirdən yaxşıdır”.

Sonra Həzrət(ə) öz karvanına hərəkət etməyi göstəriş verdi. Elə bu vaxt Hürr öz qoşunu ilə gəlib yolun ağzında dayanaraq İmamın(ə) yolunu kəsdi və dedi: “Mən qoymayacağam ki, hərəkət edəsiniz”. İmam Hüseyn(ə) buyurdu:

ثَكَلَتكَ اُمّكَ ما تُرِيد

- Anan sənin matəmində otursun, nə istəyirsən?

Hürr burada da Həzrətə(ə) qarşı ədəbli olub dedi: Əgər səndən başqa bu sözü kimsə mənə desəydi, mütləq onun cavabını qaytarardım. Amma bu sözü indi mənə elə bir insan deyir ki, Fatimeyi-Zəhranın balasıdır. Buna görə də o xanımın adını ehtiram və hörmətdən başqa heç cür dilə gətirmək olmaz. Həzrət(ə) buyurdu: “Bəs sən nə istəyirsən?” Hürr dedi: Mən səni İbn Ziyadın yanına aparacağam. Həzrət(ə) buyurdu:“Mən səninlə getməyəcəyəm”.

Orada söz-söhbət uzandı və axırda Hürr dedi: Səninlə müharibə etməyə mənim icazəm yoxdur. Amma mənə tapşırılıb ki, səndən ayrılmayım. Indi ki, mənimlə getmirsən və sən getdiyin yerə də mən qoymuram gedəsən. Elə isə bu iki yerdən başqa hansı tərəfə gedirsən get. Şəraf elə bir yer idi ki, oradan bir yol Kufəyə, bir yol isə Mədinəyə gedirdi. Hürr istəyirdi ki, İmamı(ə) Kufəyə aparsın. Həzrət(ə) buna razı olmadı. Həmçinin İmamın(ə) bir yolu da Mədinəyə olduğu üçün Hürr onu ora da

getməyə qoymadı. Həzrət(ə) karvanı səhralığa tərəf yönəltdi. Karvan Kərbəlaya yetişdi. Hürr və qoşunu da İmamın(ə) karvanından ayrılmadı. Elə oradaca bir atlı İmamın(ə) qarşısından keçib Hürrə bir məktub verdi. Hürr məktubu açıb oxuyandan sonra İmamın(ə) məhzərinə gəlib, məktubu verərək dedi: İbn Ziyad mənə məktub göndərib, siz də məktubu oxuya bilərsiniz. Həzrət(ə) məktuba baxıb gördü ki, İbn Ziyad orada belə yazıb: ”Yolların hamısını Hüseynin üzünə bağla və onu yaşıllıq olmayan susuz bir yerə apar. Bu işi görəndən sonra tez mənə məlumat göndər”.

Həzrət(ə) Hürrə buyurdu: “Bu yaxınlarda kəndlər var, sən bizə mane olma, imkan ver biz o kəndlərin birinə gedək”. Hürr dedi: Bu məktuba əsasən mənim buna ixtiyarım yoxdur. Buradan başqa heç yerə qoymaram gedəsən.

Züheyr İmamın(ə) məhzərinə gəlib dedi: Ağa, əvvəl-axır bizim işimiz bunlarla müharibə ilə nəticələnəcək. Icazə ver, bunlarla döyüşə başlayaq. Bunların sayı az olduğundan bizim üçün asan olar. Sonraya qalsa bunlara köməkçi qoşunlar gələcək və işimiz ağırlaşacaq. Həzrət(ə) buyurdu: “Heç vaxt mən birinci müharibəyə başlamaram”.

Elə oradaca çadırları qurub məskunlaşdılar. Hürr vəziyyəti məktubda yazıb İbn Ziyada göndərdi. Lakin məktubun axırında yenə də öz ədəbini göstərərək istefa yazdı. Bu Hürrün üçüncü müsbət əməli idi. Yazmışdı ki, İbn Ziyad, bu məsələni həll edəcəksənsə tez həll et. Əgər sənin bu işlərinin axırı Hüseyn ibn Əli(ə) ilə müharibə ilə nəticələnəcəksə, o zaman mən bu döyüşdə iştirak etməyəcəyəm və əvvəlcədən bu işdən istefa verirəm. Mən heç vaxt razı olmaram ki, əllərim Zəhranın(s.ə) balasının qanına boyansın.

## İmamın(ə) xütbəsi və Hürrün tövbəsi

Yuxarıda qeyd olundu ki, insanlar iki əmrin ortasında qərar tutmuşlar. Allah-təala Qurani-Kərimdə bu barədə buyurur:

وَهَدَيْنَاهُ النَّجْدَيْنِ

- Və ona (insana) iki yolu *(maddi və mənəvi cəhətdən xeyir və şər yolunu)* göstərmədikmi?![1]

İnsanlar həmişə belədir. Bir tərəfdən Allah-təala insana yaxşı işləri görməyi əmr edir, digər tərəfdən isə şeytan pis işləri görməyi əmr edir. Buna görə də həmişə mümkündür ki, insan yolunu azıb haqq-həqiqətdən uzaqlaşsın. Həmçinin Allah-təala bizi başa salır ki, insan yolunu birdən- birə azmır. Şeytan dünyanın bəzəklərini insanın gözündə daha da zinətləndirərək onu yavaş-yavaş, qədəm-qədəm aldadaraq yoldan uzaqlaşdırır və axırda insan imansız olaraq dünyadan gedir. Başqa bir ayədə də Allah insanı başa salır ki, insanın günahı hər nə qədər böyük olsa belə, bilməlidir ki, Allahın rəhməti insanın günahından daha çox, daha böyükdür. Həmçinin qeyd olundu ki, Kərbəla hadisəsində İmam Hüseyni(ə) sevənlər bu dərsi əməli surətdə bütün insanlara başa salır və öyrədirlər. Kərbəlada bu əməlin banisi Hürr ibn Yəzid ibn Riyahidir. O, İbn Ziyad və Ibn Nümeyr tərəfindən təyin olunmuş qoşun başçısı idi. O, Kərbəla, Kufə, Mədinəyə gedən yolun ağzında dayanıb Həzrət İmam Hüseynin(ə) qarşısını kəsdi və Həzrəti(ə) Kərbəlaya yönəltdi. Hürr bu hərəkəti ilə çox böyük bir günaha mürtəkib oldu. Lakin buna baxmayaraq, onun beynində və ürəyində bir fikir yarandı. Aşura günu

[1] Bələd,10

Həzrət İmam Hüseynin(ə) iki gözəl, tutarlı xütbəsindən sonra Hürr bu sözlərin təsiri altına düşdü. O, İmamın(ə) bu xütbələrini eşitdikdən sonra öz-özünə qərar qəbul edib, yolunu müəyyənləşdirərək, tövbə halında İmamın(ə) məhzərinə gəldi.

## Aşura günü İmam Hüseynin(ə) oxuduğu xütbə

Çöx gözəl olardı ki, İmam Hüseynin(ə) aşura günü oxuduğu həmin xütbələri nəzərinizə çatdırım. O xütbələrin birini bu bəhsimiz münasibətilə, o birini isə gələn dərslərdə nəzərinizə çatdıraram.

Aşura günü sübh çağı azan verildi. İmam Hüseynin(ə) imaməti ilə sübh namazı bərqərar oldu. Bu dəfə Həzrətin(ə) arxasında durub iqtida edənlərin sayı çox az idi. Çünki Hürrün dəstəsi İmamdan ayrılmışdı, həmçinin aşura gecəsi bir neçə nəfər də İmamın dəstəsindən ayrılıb getmişdilər. Onlar bilirdilər ki, sabah ölümlə üz-üzə dayanacaqlar. Buna görə də İmamın(ə) karvanından ayrılıb geri qayıtdılar. Həmçinin Həzrət(ə) aşura gecəsi göstəriş verdi ki, bütün çıraqları söndürsünlər. Getmək istəyən varsa qoy çıxıb getsin və utanmasınlar. Bir neçə nəfər də orada İmamı(ə) tərk edib geri qayıtdı. Artıq gedənlər getmiş, qalanlar qalmışdı. Həzrət(ə) onunla qalanlara sabah axşam hansı məqamda və cənnətdəki yerlərini göstərdi. O gecəni hamı Allaha ibadət, dua və namazla başa vurdular. Beləliklə, sübh çağı çox az bir dəstə sübh namazını İmam Hüseynin(ə) imamətilə qıldı. Namaz qurtarandan sonra İmam(ə) orada bir xütbə oxudu. Sonra yavaş-yavaş hazırlıq işlərini gördülər. İmam(ə) düşmən qoşununa nəzər saldı. Onlar da döyüşə hazırlaşırdılar. Sıraları möhkəmlədib hüsuma başlamaq üçün tədarük görürdülər. Həzrət(ə)

düşmən qoşununa baxdıqdan sonra öz qoşununa da nəzər salıb, əllərini göyə qaldıraraq Allaha belə dua etdi:

اَللّهُمّ أَنْتَ ثِقتِي فِي كُلِّ كَرْبٍ وَرَجاءِي فِي كُلِّ شِدَّةٍ وَ أَنْتَ لِي فِي كُلِّ اَمْرٍ نَزَلَ بِى ثقةٌ وَ عُدَّةٌ كَمْ مِّنْ هَمٍّ يَضْعُفُ فِيهِ الفُؤاد وَ تَقِلُّ فِيهِ الحِيلَة وَيَخْذُلُ فِيهِ الصَّدِيق وَ يَشْمِتُ فِيهِ العَدُوّ أَنْزَلْتُهُ بِكَ وَ شَكَوتُهُ اِلَيك رَغْبَةً مِنّي اِلَيك عَمَّن سِواك فَكَشَفْتَهُ وَ فَرَّجْتَهُ فَأَنْتَ وَلِي كُلِّ نِعْمَةٍ وَ مُنْتَهى كُلِّ رَغْبَة

- İlahi, bütün çətin anlarımın hamısında, qəmli-qüssəli vaxtlarımın hamısında mənim söykənəcəyim və pənahım Sən olmusan. İlahi, həmişə mənim bütün çətin vaxtlarımda əlimin silahı və ümidim Sən olmusan. Insanların ürəklərinin zəiflədiyi hallarda, insanların əlacı hər yerdən üzüldüyü zamanlarda, dostlar insanı tək qoyub qaçdığı anlarda və düşmənlər insanı şəmatət etdiyi anlarda öz şikayətimi Sənə etmişəm Həmişə Sənə sığınıb öz münacatımı Səninlə etmişəm. Səndən başqasına heç vaxt ümidimi bağlamamışam. Sən də həmişə mənə mərhəmət edib işlərimə fərəc vermisən. Qəmlərimi ürəyimdən götürüb qəlbimi şad etmisən. Çətinliklərdən məni Sən qurtarmısan. İlahi, Sən mənim bütün nemətlərimin ağasısan. Mənim ən yüksək eşqim Sənsən.

Həzrət İmam Hüseyn(ə) Allahla belə bir münacat etdikdən sonra üzünü düşmən qoşununa tutub Bismillahdan, Peyğəmbər və ali- peyğəmbərə salam-salavat göndərdikdən sonra belə bir xütbə oxudu:

- Camaat! Dinləyin məni! Tələsməyin! (hücuma keçməyə, müharibəyə başlamağa, qarət etməyə, adam öldürməyə tələsməyin). Gözləyin boynumda olan haqqı yerinə yetirim, sizə moizə və nəsihət verim. Bura gəlməkdə məqsədimi sizə açıqlayım. Bilin ki, mən bura nəyə görə

gəlmişəm. Əgər mənim sözlərimi, mənim məntiqimi qəbul edib, dediklərimi təsdiq edərsinizsə və mənimlə aranızda insafla qəzavət edərsinizsə, o zaman siz səadətə çatarsız. Əgər bu sözlərimi qəbul etsəniz, daha məni və mənimlə bura gələnləri oldürməyə sizin heç bir sübutunuz və dəliliniz olmaz. Yox, əgər mənim deyəcəyim sözləri, məntiqimi qəbul etməyəcəksinizsə və mənimlə aranızda insafla qəzavət etməyəcəksinizsə, o zaman bütün yardımçılarınızı və öz tərəfdarlarınızın hamısını çağırın ki, höccət tamam olsun. Sonra deməyin ki, biz bilmirdik və bizi başa salan olmamışdı. Sonra deməyin ki, biz bilmirdik, Hüseyn kimdir və bura nəyə görə gəlmişdi. Mən bütün məsələni sizə açıq-aydın başa salıram. Əgər başa düşsəniz çox yaxşı, əgər anlamazsınızsa əlinizdən nə gəlir onu da edərsiz. Bizə kitab göndərən Allah, Özü bizim aramızda hakim və nazirdir.

İmamın(ə) sözləri bura yetişəndə çadırlardan ağlaşma səsi ucaldı. Həzrət(ə) xütbəsini saxlayıb, qardaşı Əbülfəzlə və oğlu Əli Əkbərə qadınları sakitləşdirmək barədə göstəriş verərək buyurdu ki, qadınları başa salın, indi ağlamasınlar. Ağlamalı günlər hələ qabaqdadır və indi ağlamağın vaxtı deyil. Qadınlar sakitləşəndən sonra İmam(ə) xütbəni oxumağa davam edərək buyurdu:

- Ey Allahın bəndələri, Allahdan qorxun! Bilin ki, Allah sizin bütün əməllərinizi görür. Dünyadan çəkinin, dünya sizi aldatmasın. Əgər dünya kiməsə qalsaydı və kimsə dünyada həmişə qalası olsaydı, o zaman peyğəmbərlər bu dünyada qalmağa və yaşamağa hamıdan daha çox layıiq idilər. Bilin heç vaxt belə olmayacaq ki, siz həmişə dünyada qalacaqsınız və ya dünya həmişəlik sizə qalacaq. Heç vaxt belə olmayacaq. Dünya necə gəlibsə, elə o cür də keçib gedəcək.

Bu barədə Həzrət Əlinin(ə) bir kəlamını nəzərinizə çatdırmağı istəyirəm. Həzrət Əli(ə) Süleyman Peyğəmbər barədə belə buyurur: “Süleyman Peyğəmbər bir gün göstəriş verdi ki, bütün qoşunlar gəlib mənim qarşımdan keçsinlər. Bütün insanlar, heyvanlar, cinlər və s. onun əmrilə gəlib sarayın qarşısından keçdilər. Süleyman sarayda öz çəliyinə söykənib onlara tamaşa edirdi. Birdən bir nəfər cavan oğlanın otağa daxil olduğunu gördü. Süleyman ona dedi: Sənə kim icazə verib ki, bu otağa daxil olmusan? Cavan oğlan dedi: Mənə ev yiyəsi icazə verib. Süleyman  təəccübləndi. Əgər ev yiyəsi mənəmsə, mən sənə icazə verməmişəm. Bir də soruşdu: Sənə kim icazə verib ki, bu evə daxil olmusan? Cavan oğlan yenə həmin cavabı dedi: Mənə ev yiyəsi icazə verib. Süleyman üçüncü dəfə soruşanda bildi ki, həmin oğlan cənab Əzrayıldı. Ondan soruşdu. Bu dəfə gəlməkdə məqsədin nədir? Əzrayıl dedi: Bu dəfə səni aparmağa gəlmişəm. Üç dəfə nəfəs almağa imkanın var. Süleyman dedi: İcazə verirsən əyləşim yerdə? Əzrayıl dedi: Xeyr. Əzrayıl Süleymanı elə həmin halda - çəliyə söykəndiyi halda canını aldı. Bu hadisənin üstündən on saat keçdi. Camaat gördü ki Süleyman elə olduğu kimi, yəni əsaya söykənmiş halda dayanıb. Şayiələr başlandı. Bəziləri Süleymanın Allah, bəziləri onun cadugər olmasını iddia etdilər. Insan bu qədər belə bir halda dayana bilməz və s. kimi cürbəcür sözlər yarandı. Bir sıra mömin insanlar dedilər ki, belə sözləri danışmağa və şayiələr düzəltməyə ehtiyac yoxdur. Azacıq səbr edin, bir azdan hər şey aydınlaşar. Süleyman on saat həmin halda qaldıqdan sonra Allah-təala bir qarışqanı məmur etdi ki, gedib Süleymanın əsasının altını ovsun. Qarışqa gəldi və əsanın altını ovdu,  Süleyman yerə yıxıldı.

Həzrət Əli(ə) bu hadisəni danışdıqdan sonra belə buyurur:

فَلَوْ اَنَّ  اَحَداً يَجِدُ اِلى البقاء سُلَّماً لَكانَ ذالِكَ سُليمان ابن داود

- Əgər bu dünyada qalmağa yol olsaydı, hamıdan yaxşı Süleyman ibn Davud  dünyada qalardı.

*Yetən vaxtda ərvahe hökme xuruc,*

*Dayanmaz qabaqda müşəyyəd buruc.*

Odur ki, Həzrət İmam Hüseyn(ə) meydandakı düşmənləri başa salırdı ki, elə düşünməyin düzəltdiyiniz bu cərgələrlə, əllərinizdə qılıncları, nizələri tutmaqla həmişə belə qalacaqsınız. Bilin və agah olun, siz bu gün beləsiniz, sabah bu cür olmayacaq.

Sonra Həzrət(ə) belə buyurur: "Bilin ki, Allah dünyanı fani yaradıb. Bu dünyada nə qədər təzəliklər varsa, hamısı köhnələcək. Bu dünyanın bütün nemətləri bir gün zay olub aradan gedəcək. Bu dünyanın şadlıqlarının hamısı çevrilib qəm-qüssəyə dönəcək. Dünya kiçik bir ev və müvəqqəti bir yerdir. Elə başa düşməyin ki, həmişə burada qalacaqsınız. Bu kiçik dünyada əbədi dünya üçün hazırlıq işləri görün. Təqva qazanın. Çünki orada təqvadan başqa heç bir şey sizin dərdinizə dəyməyəcək. Qiyamət günündə dərdinizə dəyən ən gözəl şey təqvadır."

Hamı Həzrətin(ə) fəsahət və bəlağətli sözlərinə diqqətlə qulaq asırdı. Həzrət (ə) yenə buyurdu:

- Camaat! Allah-təala dünyanı fani olaraq yaradıb. Bu dünya ötüb keçəridir. Bilin ki, dünyanın əhli də dəyişəcək. (Bir zamanlar fironlar var idi, Harunlar, Əbu Süfyanlar var idi. Həmçinin bir zaman İbrahim Peyğəmbər, Musa Peyğəmbər var idi, indi isə başqaları var. Hamısı gəlib getdiyi kimi, biz də gedəcəyik.) Amma bunu da bilin ki, dünya hər kəsi aldadarsa, həmin şəxs yox olub aradan

gedəcək. Bədbəxt o adamdır ki, dünyanın kələk və hiylələrinə ürək bağlayıb, dünyaya aldanıb. Həmçinin sizi də bu gün aldatmaq istəyir. Dünyanın bu hiyləsinə aldanmayın. Bilin ki, hər kim dünyaya bel bağlayıb və ya ona ümid bəsləyibsə, dünya onun bütün arzularını ürəyində qoyaraq, ümidlərini puça çıxarıb. Mən görürəm ki, indi siz elə bir məsələnin üstündə müttəfiq olub birləşmisiniz ki, gördüyünüz bu iş Allahın qəzəbinə səbəb olub. Allah sizdən öz kərəmini əsirgəyib və sizdən üz çevirib. Bilin ki, Allah öz qəzəbini sizə nazil edib. Bizim Allahımız necə də gözəldir. lakin siz necə də pis bəndələrsiz. Siz Allaha itaət etdiyinizi iqrar edirsiz və «Onun peyğəmbəri Məhəmmədə(s) iman gətirmişik» dediyiniz halda, Onun Əhli-beytinin və balalarının üstünə hücum çəkirsiniz. Siz onları öldürmək istəyirsiz. Siz Peyğəmbərə(s) necə iman gətirmisiniz ki, onun balalarını öldürürsünüz? Şeytan sizin ürəyinizə hakim kəsilib və sizi yolunuzdan azdıraraq bura gətirib çıxardıb. Allahı sizin fikrinizdən çıxarıb. Ar olsun sizə də, sizin istəklərinizə də! Hamımız Allah tərəfindən gəlmişik və Ona sarı da qayıdacağıq. İlahi, bunlar elə insanlardır ki, iman gətirəndən sonra küfrə yaxınlaşıblər. Allahın rəhməti uzaq olsun bu insanlardan. (Bunlar dildə deyirlər ki, biz müsəlmanıq, İslamdan danışırlar, amma şeytan bunların hamısı üçün tələ quraraq, Peyğəmbərin itrət və Əhli-beytini öldürməkdən  ötrü Kərbəla çölünə gətirib. Camaat, əgər sizi yoldan çıxarıblarsa, sizə bizim haqqımızda başqa sözlər deyiblərsə, biz Əhli-beyti sizə xarici kimi tanıtdırıblarsa,  bilin ki, bunların hamısı yalandır".)

Həzrət(ə) bu sözlərlə düşmənlərə xitab etdi və onların hamısı da bura qədər Imamın sözünü dinlədilər. Həzrət(ə) bu sözləri xitab edəndən sonra azacıq dayandı. Sonra yenə

bir neçə cümlə ilə xitab etdi. İmam Hüseyn(ə) camaata bu sözləri deməyi özünə vacib bilirdi. İmam(ə) bura qədər oxuduğu xütbədə düşmənə moizə və nəsihət edirdi. Həzrət(ə) bu sözlərdən sonra iki mühüm mətləbi də onlar üçün açıqlayaraq buyurdu:

- Camaat! Mənim əsil-nəsəbimə baxın. Görün siz kiminlə üz-üzə dayanmısız? Bilirsiniz mən kiməm? Öz-özünüzdən soruşun. Bir-birinizdən soruşun. Məni öldürmək sizə belə vacib olub? Mənə hörmətsizlik etmək sizə vacibmi olub? Mən sizin Peyğəmbərinizin(s) qızının oğlu deyiləmmi? Peyğəmbərinizin(s) vəsisinin oğlu deyiləmmi? Peyğəmbərinizin(s) əmisi oğlu Əlinin oğlu deyiləmmi? Peyğəmbərə (s) ilk iman gətirən və Peyğəmbərə (s) nazil olan ayələrin hamısına iman gətirən kişinin oğlu deyiləmmi? Seyyidüş-şühəda Həmzə mənim atam Əlinin əmisi deyilmi? Cəfər Təyyar mənim əmim deyildimi? Peyğəmbər (s) qardaşım Həsən və mənim barəmdə buyurmadımı ki, Həsən və Hüseyn cənnət cavanlarının ağasıdır? Mənim dediklərimin həqiqət olduğunu təsdiq edirsinizsə, daha nə sözünüz var? Əgər mənim sözlərimi qəbul etmirsinizsə, sizin içərinizdəki yaşlı insanlardan soruşun. Peyğəmbərin(s) səhabələrindən soruşun. Siz onlardan soruşsanız, həqiqəti sizə deyərlər. Cabir ibn Abdulla Ənsaridən soruşun. Əba Səid Əl-Xidridən soruşun. Səhl ibn Sədi Saiddən soruşun. Bunlar hələ sağdırlar, gedin mənim barəmdə onlardan soruşun. Zeyd ibn Ərqəmdən soruşun. Ənəs ibn Malikdən soruşun. Bunlar Peyğəmbərin(s) səhabələridir. Onlardan xəbər alsanız, sizə deyərlər ki, mənim və qardaşım barədə buyurduğum sözləri Peyğəmbərin(s) özündən eşidiblər. Əgər bu sözü məndən

qəbul etsəniz və ya səhabələrdən soruşub həqiqəti öyrənib qəbul etsəniz, bu, sizə kifayət edər.[1]"

İmamın(ə) sözü bura yetişəndə düşmən qoşununun rəhbərləri gördülər ki, əgər Həzrət(ə) belə davam etsə, qoşunda bir nəfər də olsun adam qalmayacaq və hamı dağılışıb gedəcək. Buna görə də Şimr özü danışmağa başladı və göstəriş verdi ki, hay-küy salsınlar, İmamın(ə) sözlərini eşidən olmasın. Dedi: Onun bu danışıqlarına fikir verməyin. Boş-boş sözdür danışır. Nə danışdığını heç özü də bilmir. Həbib ibn Məzahir bu sözləri eşidib qəzəbləndi və Şimrə dedi: Boş-boş sözləri sən danışırsan, ey...

İmam Hüseyn(ə) onların hay-küyünə məhəl qoymadı və yenidən onlara xitab edərək buyurdu:

- Əgər Peyğəmbərin(s) mən və qardaşım Həsən(ə) barəsində buyurduqlarını qəbul etmirsinizsə və bu sözlərə şəkk-şübhə edirsinizsə, mənim Peyğəmbərinizin(s) qızının oğlu olduğuma da şəkk edirsiz? And olsun Allaha, məşriqdən məğribədək axtarsanız, məndən savayı Peyğəmbərin(s) qızının oğlu yoxdur. (Peyğəmbərinizin(s) qızının oğlanlarından təkcə mən qalmışam.) Məni nəyə görə öldürürsünüz? Bəlkə mən sizlərdən kimisə öldürmüşəm? Bəlkə bura yığışıb məndən onun intiqamını almaq istəyirsiniz? (Əgər belə bir iş varsa, deyin. Bu qədər

---

[1] Həzrətin(ə) öz qoşununda Peyğəmbərin(s) bir neçə səhabəsi iştirak edirdi və Kərbəlada şəhid olmuşdular. Ənəs ibn Hərs Kahili, Həbib ibn Məzahir, Müslim ibn Ovsəcə, Hani ibn Ürvə Muradi, (Onu ibn Ziyad Kufədə şəhid eləmişdi), Abdulla ibn Umeyri. (O, Imam Hüseynlə(ə) həmyaşıd olduğundan Peyğəmbəri(s) uşaq vaxtında görmüşdü).
Əlbəttə, Yezid və onun tərəfdarları nə səhabəyə ehtiram göstərirdilər, nə də sözlərini qəbul edirdilər. Onlara hansı yerdə ki, mənfəət var idi, səhabəni əziz tutardılar, hansı yerdə ki, mənfəət yox idi, səhabənin sözlərinə məhəl qoymazdılar.

camaatın bura yığışmaqda məqsədi nədir? Kim sizin beyinlərinizi puç sözlərlə doldurub?)"

Həzrətin(ə) sözləri bu yerə çatdıqdan sonra üzünü yenə də düşmən qoşununa tutub onların bir neçəsinin adını çəkərək buyurur: "Ey Şəbəs ibn Rəbii! Ey Həccar ibn Əbcər! Ey Qeys ibn Əşəs! Ey Yəzib ibn Haris! Siz mənə məktub yazmamışdınız ki, meyvələr artıq yetişib, ağaclar göyərib, burda hər şey hazırdır və hazırlanmış qoşun sənin yolunu gözləyir ki, sən bizə rəhbərlik edəsən? Bu məktubları siz yazıb imzalamamışdınızmı? And olsun Allaha, mən heç vaxt sizə zillət əlini uzatmayacağam. Heç vaxt zillət altında qalmayacağam. Həmçinin məni heç bir vaxt İbn Ziyadın yanına diri apara bilməyəcəksiniz."

İbn Ziyad yazmışdı ki, Hüseyni(ə) əlləri bağlı onun sarayına gətirsinlər. Ona görə də deyirdi:

*Elə mail deyiləm, doğrana, qanə boyana,*
*Mailəm qolları bağlı qabağımda dayana,*
*Məclisimdə ona tohin eləyim, qəlbi yana*
*Xar ola, Kufədəki şiələrindən utana.*

İmam Hüseyn(ə) onun cavabında belə buyurur:

*Damənim gərdi məzəllət behiç ünvan görməz,*
*Nuşidarudi dəme neyzəvü xəncərdə öləm,*
*Düşmərəm zində ələ, mən gərək əllərdə öləm,*
*Nocəvan oğlum Əli Əkbər ölən yerdə öləm.*

Həzrət(ə) orada düşmənlərə buyurdu: “And olsun Allaha, mən heç vaxt sizə zillət əli uzatmayacağam və sizin qabağınızdan qorxaq qullar kimi qaçmayacağam”. Sonra Həzrət(ə) bu ayəni oxudu:

إِنِّي عُذْتُ بِرَبِّي وَرَبِّكُمْ أَن تَرْجُمُونِ

Və əlbəttə, mən sizin məni qovmağınızdan, nalayiq sözlər deməyinizdən, daşlamağınızdan və ya öldürməyinizdən özümün və sizin Rəbbinizə pənah apardım.

Bu ayəni Musa Peyğəmbər Firon barədə demişdi. Allah-təala Quranda bunu misal çəkir.[1]

## Hürrün tövbəsi və şəhadəti

Həzrətin(ə) sözləri düşmən qoşununda bir çox adama təsir etmişdi. Hətta qılınclarını yerə atıb gedənlər də oldu və İmamın(ə) qoşununa qoşulanlar da oldu. Həzrət(ə) sözünü bitirəndən sonra Ömər Səd İmamın(ə) çadırlarına birinci oxu atdı və üzünü camaata tutub dedi: Əmirin yanında şahid olarsınız ki, Hüseynin çadırlarına birinci oxu mən atmışam. Hücum başlandı. Hürr Ömər Sədin yanına gəlib dedi: Sən bunlarla belə başlamısan və işi bu cür də qurtarmaq istəyirsən? Ömər Səd dedi: Elə də olacaq. Mən bunlarla elə bir savaş aparacağam ki, heç bir bədənin üstündə baş qalmayacaq. Bunların hamısını tikə-tikə doğrayacağam. Hürr bu sözləri eşitdikdən sonra başını aşağı salıb getdi. Seçim qarşısında qaldığından fikrə qərq olmuşdu. Bir az fikirləşdikdən sonra öz yolunu müəyyənləşdirdi. Mühacir ibn Ovs deyir, mən Hürrə baxırdım. Hiss etdim ki, Omər Səddən ayrılandan sonra İmamın(ə) qoşununa tərəf hərəkət edir. Elə təəccüblü bir halda idi ki, Hürrü heç vaxt belə görməmişdim. Elə şücaətli, qüvvətli bir adamın dizlərinin belə titrək halda olduğunu heç vaxt görməmişdim. Öz-özümə təəccübləndim və Hürrün yanına gedib soruşdum: Niyə belə qəribə haldasan? Əgər bizdən soruşsaydılar ki, ərəbin içində ən

---

[1] Rəd, 20

qüdrətli adam kimdir? Mən səni göstərib deyərdim ki, Hürr ibn Yəzid ibn Riyahi. Nə olub sənə? Niyə bu günə qalmısan? Hürr ona baxıb dedi: Mühacir, bilirsən niyə bu haldayam? Mühacir soruşdu: Niyə? Hürr dedi: Mən özümü cənnətlə cəhənnəmin arasında görürəm. Amma bil ki, and olsun Allaha, cəhənnəmə tərəf getməyəcəyəm. Artıq öz yolumu müəyyənləşdirmişəm. Ondan sonra Hürr öz qalxanını çevirib tərsinə bağladı.[1] Əllərinin ikisini də göyə qaldırdı. Başını aşağı salıb torpağa Baxa-baxa, xəcalət çəkə-çəkə İmamın(ə) çadırlarına tərəf yollandı. İmam Hüseynə(ə) yaxınlaşanda düşüb torpağı öpdü. Bəzi kitablarda yazırlar ki, Həzrətin(ə) ayaqlarını öpdü. Həzrət(ə) ona baxıb buyurdu: Başını yuxarı qaldır.[2] Hurr dedi: Ağa, mən həmin adamam ki, birinci dəfə yolu sənin üzünə bağlamışdım. Bu işin və bütün bu çətinliklərin yaranmasına mən səbəb olmuşam. Indi isə belə bir halda sənin məhzərinə gəlmişəm. Ağa, mən doğrudan da bilmirdim ki, bunlar işi bu yerə gətirib çıxaracaqlar. Indi gəlmişəm səndən üzr istəyim və Allaha tövbə edim. Ey Peyğəmbər balası, mənim tövbəm qəbul olarmı? Həzrət (ə) buyurdu: Bəli, Allah sənin tövbəni qəbul edər və səni bağışlayar. Hürr dedi: Ağa, elə isə mənə izn ver, dayanmadan döyüş meydanına gedim. İmam(ə) ona icazə verdi. O, Imamdan(ə) izn alandan sonra Züheyrlə birgə meydana daxil oldu. Hürr meydana daxil olanda bin neçə

---

[1] Onun bu əməli o deməkdir ki, mən döyüşmürəm. Təslim oluram.

[2] Bu mənada ki, görüm kimsən? Imam bilirdi ki, o Hürrdür. Lakin özünü elə göstərirdi ki, onun kim olduğunu tanımır.

rəcəz[1] oxuyaraq üzünü düşmənə tutub dedi: Heç utanmırsınız, Fəratın suyu çöllərə axıb gedir, amma Hüseynin(ə) balaca balaları üç gündür əl-ətəş deyib susuzluqdan yanırlar. Bu sözləri deyib döyüşə başladı. Tarixdə yazırlar ki, o, düşmən ordusundan qırx nəfərə qədərini öldürdü. Sonra atdan düşüb bir neçə nəfəri də piyada cəhənnəmə vasil etdi, nəhayət, onu yaraladılar. Hürrü çadırlara tərəf gətirdilər. Döyüşdə hər kim şəhid olurdusa və ya yaralanırdısa, onu dərhal çadırlara gətirirdilər. Bir neçə nəfəri gətirmək mümkün olmadı. Onlardan biri də Həzrət Əbülfəzl idi. O həzrətin bədənini o qədər doğramışdılar ki, İmam Hüseyn(ə) onu çadırlara tərəf apara bilmədi.

*Kərbəlada Zeynəb deyir bunu,*
*Bir mühüm cəng ittifaq düşüb.*
*Oğlumun olub qolları qələm,*
*Sağ qolu solundan qabaq düşüb.*
*Bilmirəm, onun illəti nədür,*
*Qəbri qardaşından uzaq düşüb.*

Hürrü yaralı halda çadırlara gətirib, şəhidlərin yanına uzatdılar, o, öz vüsalına çatdı. Onun vüsalı bu idi ki, İmam Hüseyn(ə) onun başı üzərinə gəldi və buyurdu: "Peyğəmbərlərin şəhid olduğu kimi şəhid oldu. Sonra əyləşib mübarək əlini Hürrün camalına sürtərək, üzündə olan toz-torpağı təmizləyə-təmizləyə buyurdu: Sən Hürrsən(azadsan) necə ki, anan səni belə adlandırmışdı. Sən həm bu dünyada azadsan, həm də axirətdə azad insansan".

---

[1] Rəcəz- döyüş meydanında oxunan şerə deyilir. Ərəblərdə adət idi ki, meydana daxil olduqda rəcəz oxuyardılar.

Hürr peşman olub İmamın(ə) məhzərinə gələndə oğlu da onun yanında idi. Onun adı Əli idi. O, öz oğluna baxıb dedi: Oğul, mən öz yolumu müəyyən etmişəm və gedirəm. Sənin fikrin nədir? Oğlu dedi: Ata, sənin razılığın mənim razılığımdır. Səin dediyin bu sözlər Allahın razılığıdır. Mən də istəyirəm ki, səninlə birgə gedib İmamı(ə) ziyarət edim. Hürrün qardaşı və nökəri də onlara qoşuldu. Hürr şəhid olandan sonra oğlu da şəhid oldu. Həmçinin qardaşı və nökəri də şəhadətə yetişdilər. Beləliklə, Hürr öz məqsədinə çatdı və səadətə qovuşdu.

Hürr İmamın(ə) məhzərinə gəlib tövbə etdikdən sonra iki xatirəni o Həzrətə(ə) nəql edərək belə dedi: Ağa, məni Kufədən sənin yolunu bağlamaq üçün göndərəndə yolda arxadan bir səs eşitdim: "Ey Hürr, aqibətin xeyir olsun!" Öz-özümə düşündüm ki, əgər mən Hüseynin(ə) yolunu bağlamağa gedirəmsə, aqibətim necə xeyirli ola bilər? Sonra fikirləşdim, yəqin şeytanın səsidir ki, mənə aqibətin xeyirli olsun deyir. Məni bu işi görmək üçün daha da təşviq etmək istəyir.

Həzrət(ə) buyurdu: “Ey Hürr, bu, sənə cənnətin müjdəsidir. Həmd olsun Allaha ki, səni müvəffəq etdi. Səni səsləyən kəs Xızır peyğəmbər idi”. Sonra Həzrət(ə) buyurdu: “Mən də sənə behiştin müjdəsini verirəm”. Hürr dedi: Ağa, Kufədən yolu bağlamağa çıxanda yolda gecələrin birində yuxuda atamı gördüm. Mənə dedi: Oğlum, bu axır günlərdə nə işlər görürsən sən? Ona dedim, mənə əmr veriblər ki, Hüseynin(ə) yolunu kəsim. Mənə dedi: “Sənin Hüseynlə(ə) nə işin var? Yolu birinci bağlamağa getdiyin kimi, gözlənir ki, Hüseynin(ə) qabağında elə birinci də sən şəhid olacaqsan”.

Bununla belə, Hürr haqq yolu tapıb səadətə çatdı. Hansı işlər səbəb oldu ki, Hürr xoşbəxtlər cərgəsinə qoşuldu?

Hürrün daxilində bir neçə müsbət xüsusiyyət var idi ki, həmin əməllər onun aqibətinin xeyirli olmasına səbəb oldu. Həmin xüsusiyyətlərdən biri bu idi. O, Imamla(ə) danışanda həmişə ədəblə danışardı. Əgər hər bir insanda ədəb olarsa, kafir və ya mömin olmasından asılı olmayaraq, ədəbli olmağı öz xeyrini həmin şəxsə bağışlayar. Ədəbsiz insan isə axırda bədbəxt olar.
Hürr Həzrətin(ə) yolunu bağladığı vaxt namaz qılarkən öz ədəbini göstərdi. Elə ki, namaz vaxtı oldu və azan deyiləndən sonra Həzrət(ə) üzünü Hürrə tutaraq buyurdu: "Biz namaz qılmaq istəyirik, əgər sən də namaz qılmaq istəyirsənsə öz qoşununla qıl". Hürr dedi: "Mən sənə iqtida edəcəyəm. Heç vaxt ola bilməz ki, sən camaat namazı qılasan, mən də gedib özüm üçün camaat namazı təşkil edim. Həm mən, həm də hamımız birlikdə namazda sənə iqtida edəcəyik". Hürr burada İmam Hüseynə(ə) qarşı öz ədəbini göstərdi. Hürr ikinci ədəbini də elə həmin yerdə Imamla(ə) söhbət edərkən göstərdi. Həzrət(ə) öz karvanına hərəkət etməyi göstəriş verdi. Elə bu vaxt Hürr öz qoşunu ilə gəlib yolun ağzında dayandı və İmamın(ə) yolunu kəsib dedi: "Mən qoymayacağam ki, hərəkət edəsiniz". İmam Hüseyn(ə) buyurdu:

ثَكَلَتكَ اُمُّك ما تُرِيد

- Anan sənin matəmində otursun, nə istəyirsən?

Hürr burada da Həzrətə(ə) qarşı ədəbli olub dedi: Əgər səndən başqa bu sözü kimsə mənə desəydi, mütləq onun cavabını qaytarardım. Amma bu sözü indi mənə elə bir insan deyir ki, Fatimeyi-Zəhranın balasıdır. Buna görə də o xanımın adını ehtiram və hörmətdən başqa heç cür dilə gətirmək olmaz. Hürrün üçüncü müsbət xüsusiyyəti bu idi ki, vilayətə nisbətdə öz məhəbbətini izhar etdi. Ziyaddan

Hürrə məktub gəldiyi zaman isə bütün yolları İmam Hüseynin(ə) üzünə bağlamaq əmrini oxuyub, İbn Ziyada belə cavab yazdı: əgər sənin bu işlərinin axırı Hüseyn ibn Əli(ə) ilə müharibə ilə nəticələnəcəksə, o zaman mən bu döyüşdə iştirak etməyəcəyəm və əvvəlcədən bu işdən istefa verirəm. Onun dördüncü müsbət xüsusiyyəti bu oldu ki, tövbə etməyə gələndə İmamın(ə) qarşısında başını aşağı salıb əllərini qaldırdı və hamının gözü qabağında Həzrətin(ə) ayaqlarına düşərək təvazökarlıq etdi. Hürrün beşinci xüsusiyyəti də zahidliyi idi. Yəni Hürr tövbə etməyə gələndə nə mal- dövlət, nə vəzifə, nə övlad və s. kimi şeylər onun qarşısını kəsə bilmədi. Hər şeyini qurban verməyi bacardı və dünyaya bağlı olmadığını göstərdi.

Beləliklə, Kərbəla bizə əməli surətdə öyrədir ki, insanın günahı hər nə qədər böyük olmuş olsa da belə əgər həmin insanda ədəb, ehtiram olarsa aqibəti xeyirlə qurtarar və Allah həmin şəxsin tövbəsini qəbul edər.

Hürr yeganə şəhid idi ki, Kərbəlada başı kəsilmədi. Çünki, o, böyük bir qəbilədən olduğu üçün özləri Hürrü dəfn etdilər və imkan vermədilər ki, başı kəsilsin. Ondan başqa şəhidlərin hamısının başını kəsərək nizələrə taxıb Kufəyə aparmışdılar. Hürr şəhid olandan sonra onun başına dəyən zərbə yerindən qan axırdı. İmam Hüseyn(ə) əmmaməsindən bir parça kəsib onun başına bağlamışdı.

Bəzi tarixlərdə yazırlar ki, bu hadisədən illər keçəndən sonra Şah Ismayıl belə bir hadisənin olduğunu eşitmişdi. Buna görə də bir gün Hürrün qəbrini açmağı göstəriş verib dedi: Mən istəyirəm bunu gözümlə görüm. Qəbri açdılar, Şah Ismayıl gördü ki, həqiqətən də Hürrün başında Imamın bağladığı dəsmal var. Hürrün başından həmin dəsmalı açıb təbərrük kimi özündə saxlamaq niyyətinə gəldi. Dəsmalı açan kimi qan axmağa başladı. Başa düşdü ki, bunu açmaq

olmaz. Dəsmalın yarısını kəsib özündə saxladı və yarısını yenidən Hürrün başına sarıdı. Onun başından axan qan dayandı. Şah Ismayılın göstərişi ilə Hürrün qəbrinin üçtündə ziyarətgah düzəltdilər. Sonralar vəsiyyətində yazmışdı ki, həmin bu parçanı öləndə onun kəfəninin arasına qoysunlar. Şah Ismayıl dünyadan gedəndən sonra onun dediyi kimi etdilər.

Hürr bir an fikirləşməklə haqq-həqiqət yolunu tapıb izzətə çatdı. Indiki zamanın özündə böyük şəxsiyyətlər, alimlər, ayətullahların hamısı Hürrün qəbrini ziyarət edib, təvazökarlıqla ona salam verirlər.

Allah-təala Kərbəla şəhidlərinin, o cümlədən Hürrün ziyarətini hamımıza nəsib etsin. Inşallah.

# ÜÇÜNCÜ DƏRS

## MOİZƏNİN TƏSİRİ VƏ HARAM YEMƏKDƏN UZAQLAŞMAQ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِلِ وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

أعوذ باالله من الشيطان الرجيم بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

Ey insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət *(başdan-başa öyüd-nəsihət olan bir kitab)*, sinələrdə olan *(xarab əqidələr və rəzil sifətlər)* üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir.[1]

Allah-təala bu mübarək ayədə Qurani-Kərimi insanlar üçün moizə olaraq göndərməsini, həmçinin insanların qəlblərinin və dərdlərinin şəfasının bu kitabda olduğunu bəyan edir. Ümumiyyətlə, Quranın bir neçə adı vardır ki, onlardan biri də Moizə adlanır. Bu ayə insanlara başa salır ki, bütün dərdlərin dərmanı da məhz elə Qurandır. Burada bir incəliyi əziz möminlərin nəzərinə çatdırıram. O da bundan ibarətdir ki, insanlar bir baxımdan üç dəstəyə

---

[1] Yunis, 57

bölünür. Birinci dəstə insanlar alimlər, təhsil və bilik sahibləridir. İkinci dəstə ümumi camaatdır. Üçüncü dəstə isə müxaliflərdir. Üçüncü dəstədən olan insanlar münafiqlər, kafirlər və s. kimi insanlardan ibarətdir.

Allah-təala öz Peyğəmbərinə(s) bu üç dəstə insanla danışmağı və Allah yoluna dəvət etməyi tövsiyə edir:

ادْعُ إِلِى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَن ضَلَّ عَن سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ

*(İnsanları)* Rəbbinin yoluna hikmətli məntiq, qane edən dəlillər və gözəl, oyadıcı və ibrətamiz nəsihətlə dəvət et və onlarla *(müxaliflərlə)* ən gözəl tərzdə mübahisə et. *(Sənin vəzifən budur. Onlara gəldikdə isə)* əlbəttə, sənin Rəbbin Özü Onun yolundan azanları daha yaxşı bilir və doğru yolda olanları daha yaxşı tanıyır.[1]

Allah-təala bu mübarək ayədə Peyğəmbərə(s) həmin üç dəstə insanın hər biri ilə öz dillərində danışmağı tövsiyə edir. Çünki onların hərəsinin öz düşüncəsi, öz təfəkkür tərzi və özünəməxsus səviyyələri vardır. Bu mübarək ayə həmin üç qism insanların hər biri ilə danışıb söhbət etməyi və onları Allah yoluna necə dəvət etməyi bəyan edir.

Bu ayə alimlərlə danışanda hikmətlə danışmağı buyurur. Hikmətlə danış,-deyərkən qeyd olunmur ki, yaxşı hikmətlə danışın. Çünki hikmətin pisi və ya yaxşısı olmur. Hikmət öz-özlüyündə gözəl və yaxşı olduğundan, onun mənfi cəhəti yoxdur. Bunun üçün suyu misal çəkmək olar. Əgər harda su varsa, deməli ora yaşdır. Ola bilməz ki, su olsun, amma yaş olmasın. Deməli, hikmət harda varsa

[1] Nəhl, 125

gözəldir. Odur ki, alimlərlə danışarkən hikmətlə danışmağı tövsiyə edir.

İkinci qism insanlarla, yəni ümumi camaatla danışarkən gözəl moizə ilə danışmaq lazımdır. Gözəl moizə o deməkdir ki, nəsihət edən insan öz dediklərinə əməl etmiş olsun. Əgər öyüd-nəsihət verən insan özü öz dediyi sözlərə əməl edərsə, bu, gözəl moizədir. Hədislərdə vardır ki, camaatı öz əməlinizlə yaxşı yola dəvət edin. Dildə çox danışmaqla iş düzəlmir, gərək insanın əməli gözəl olsun ki, kənardan onun gözəl əməlinə və rəftarına baxmaqla başqalarında təsir qoymuş olsun. Əgər insanın dediyi sözləri və verdiyi öyüd-nəsihəti öz əməli ilə də təsdiqlənərsə, deməli gözəl moizə etmiş olar. Buna görə də adi insanlarla danışarkən gözəl moizə etmək lazımdır.

Allah-təala üçüncü qism insanlarla, yəni müxaliflərlə danışarkən ən gözəl tərzdə danışmağı tövsiyə edir. Ikinci qism insanlara gözəl moizə, bu insanlara isə ən gözəl tərzdə moizə olunmalıdır. Bunun üçün bir misalı nəzərinizə çatdırıram. Məsələn, bir stəkan suyun içinə bir qaşıq şəkər tozu töküb qarışdırdıqda, su nisbətən şirin olur. Amma həmin su şor və ya acı olarsa, onun şirin olması üçün gərək ona iki-üç qaşıq şəkər tozu əlavə edəsən. Elə buna görə də camaatı gözəl moizə etməklə kifayətlənmək olar. Lakin müxalif (münafiq, müşrik, kafir və s.) insanları isə ən gözəl tərzdə moizə etmək lazımdır. Bunun mənası odur ki, onlarla danışarkən həm gərək məntiq, dəlil, sübut və höccətlə elmi surətdə, həm də əməli şəkildə moizə etmək lazımdır.

Buna görə də alimlə danışarkən o insanın məntiqinə, ümumi camaatla danışarkən insanın əməlinə baxırlar. Lakin müxaliflərlə (münafiq, kafir, müşriklərlə) danışarkən insana həm məntiq, həm də əməl lazımdır.

Mənim müəllimlərimdən biri bir gün bizə belə bir sohbət etmişdi. O deyirdi ki, mən öz ustadıma dedim. Kitabda oxumuşam ki, bir gün Həzrət Əli(ə) Abuzərə buyurdu: Ey Abuzər, mənə moizə et.

Bu söz mənə çox qəribə gəldi. Qəribəliyi bunda idi ki, Əli(ə) kimi alim, hikmət sahibi olən bir şəxsiyyət Abuzərə deyir mənə moizə et. Əgər Salman Farsiyə desəydi, bir o qədər təəccüblənməzdim. Çünki o, Abuzərdən elmli və hikmətli insan idi. Görəsən bunun səbəbi nədir belə Həzrət Əli(ə) Abuzərə ona moizə etməyi buyurur?

Ustadım mənə belə cavab verdi: Bütün bədən üzvlərinin hərəsinin özünəməxsus zikri və ibadəti vardır. Məsələn, dilin ibadəti haqqı danışmaqdır. Əgər dil haqq söz danışırsa, deməli o, ibadət edir. Gözün ibadəti halal baxışlardır. Əgər halal baxırsa, deməli ibadət edir. Həmçinin qulağın da ibadət etməsi halal və haqq sözləri eşitməkdir. Həzrət Əli(ə) özü alim və hikmət sahibi idi. Belə ki, özü buyururdu ki, mən göyün yollarını yerin yollarından yaxşı tanıyıram. Həmçinin buyurardı ki, əgər Allah göyün bütün pərdələrini kənara çəksə, mənim imanım və elmimə zərrə qədər də olsun təsir qoymaz. Çünki hamısını bilirdi. Həmçinin özü də həmişə haqq söz danışardı. Həm haqqı bilirdi, həm də haqqı deyirdi. Lakin istəyirdi ki, qulağı da haqq sözlər eşitsin və ibadət etsin. Qulağın ibadəti haqqı eşitməkdir.

Odur ki, Allah-təala Quranda insanları bir-birini haqqa tövsiyə etməyi bəyan etmişdir. Bütün insanların bir-birilərini haqqa dəvət edib moizə etməyə ixtiyarı və haqları var. Buna görə də moizə elə bir şeydir ki, haqqın özüdür və ibadət etmək üçün bu haqqı bütün qulaqlar eşitməlidir. Hamı bir-birini moizə etməli və bir-birini eşitməlidir. Əgər kiçik özündən yaşca böyüyə moizə

edirsə, böyük deməməlidir ki, sən uşaqsan, mən səndən böyüyəm və hər şeyi bilirəm. Onu dinləməli və qulaq asmalıdır. Bəlkə o uşağın sözləri onun dərdinə dəydi. Əgər bir insan alim və ziyalıdırsa, öz elm və ziyası ilə qürurlanmamalıdır. Çünki ola bilər ki, bir nəfər ona elə bir nəsihət verər ki, onun dərdinə dəymiş olar. Buna görə də hamı moizə deməklə yanaşı, sözü də dinləməyi bacarmalıdır.

İnsanlar bir-birinə nəsihət etməli, yaxşı işləri bir-birinə xatırlatmalıdır. Allah-təala Peyğəmbərinə(s) insanlara moizə etməyi, nəsihət etməyi, tez-tez xatırlatmağı tövsiyə edir. Həmçinin bütün insanlar bir-birilərinə xatırlatmalı və moizə etməlidir. Əgər bilmirsə öyrətmək öz yerində, bilirsə tez-tez yadına salmalı və xatırlatmalıdır. Çünki ola bilsin yadından çıxıb. Əgər azan verilirsə, ona demə ki, niyə namaza durmursan? Bəlkə əlindən tutub ona kömək edəsən ki, namazını qılsın. Bəlkə onun bir problemi və ya narahatçılığı var. Əgər bir nəfər orucluq vaxtı oruc tutmursa, onu başa salmaq, oruc tutmaq üçün nəsihət etmək lazımdır. Peyğəmbər(s) zamanında, həmçinin ondan uzun illər sonra belə möminlər bir-birindən xahiş edərdilər ki, ona moizə etsinlər. Bizim zamanda da bəzi möminlər böyük alimlərin yanına gedib həm onları ziyarət edərlər, həm də xahiş edərlər ki, bir neçə kəlmə onlara moizə etsinlər.

Hədislərdə vardır ki, bir gün Ömər Həzrət Əliyə(ə) dedi: “Ya Əbul-həsən mənə moizə et. Həzrət Əli(ə) buyurdu: Öz yəqinini şəkkə çevirmə. Çatdığın, yiyələndiyin elmi cəhalətə çevirmə. (öz elminə əməldə cahil insanlar kimi əməl etmə). Həmçinin bir şeyi bilmirsənsə, özünü bilənlər kimi göstərmə”.

Harun ər-Rəşid bir gün İmam Museyi Kazimə(ə) məktub yazaraq xahiş etdi ki, mənə moizə və nəsihət et. İmam(ə) bu cümləni yazıb ona göndərdi: “Bağışlayan və mehriban Allahın adı ilə. Gözünlə gördüyün hər bir şey sənin üçün moizə və nəsihətdir”.

Allah-təala insanlar üçün hər bir şeydə moizə qərar vermişdir. Insan öz atasına, babasına baxıb düşünərsə, bu onun üçün moizədir. Yerə, göyə, dağa-daşa, hər şeyə baxıb azacıq düşünmək insan üçün moizədir.

Odur ki, Allah-təala buyurur: “Insan üçün ən gözəl moizə və nəsihət Qurandır”.

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

- Ey insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət *(başdan-başa öyüd-nəsihət olan bir kitab)*, sinələrdə olan *(xarab əqidələr və rəzil sifətlər)* üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir.[1]

Həzrət Əli(ə) buyurur: “Quran sizdən əvvəlkilər barədə xəbər verir və (hazırda) sizin aranızda hökm edir (nə edəcəyinizi bəyan edir), həmçinin sizdən sonra baş verəcək hadisələri xəbər verir. (Insanların başına nələr gələcəyi, ölməyi, yenidən dirilməsi, qiyamət, sual-cavab, cənnət , cəhənnəm və s. barədə xəbər verir.)

**Ölümü xatırlamaq ən gözəl moizələrdəndir**

İnsanlar üçün Qurandan sonra ən gözəl moizələrdən biri ölümdür. Insan hər an ölümü yad edib xatırlayarsa, bu

[1] Yunis, 57

onun üçün ən gözəl moizələrdəndir. Həzrət Peyğəmbər(s) buyurur:

كَفى بِالْمَوتِ وَاعِظاً

- Ölümü xatırlamaq (görmək) moizə üçün kifayətdir.

Odur ki, hədislərdə tövsiyə olunmuşdur ki, dünyasını dəyişmiş insanın dəfnində iştirak etmək müstəhəb əməllərdən biridir. Meyiti kəfənə bükərkən baxmaq, dəfnində iştirak etmək insan üçün böyük moizədir. Bu işlər insanı fikirləşdirir və haqq-həqiqətin nə olduğunu başa salır. Buna əsasən də ölüm insan üçün çox böyük moizədir. Allah-təala Isa Peyğəmbərə(ə) moizə edərək buyurur:

يَا عِيسى وَ اِذا ضَحِكَ البَطّالُون فَقُم عَلى قُبُورِالأَمْوات وَنَادِهُم بِالصَّوتِ الرَّفِيع لَعَلَّكَ تَأْخُذ مَوعِظَتَكَ مِنْهُم

-Ya Isa, elə ki gördün camaat əyləşib batil-batil sözlər danışıb gülürlər, sən onlarla oturma. Dur, get qəbiristanlığa və ölüləri uca səslə səslə. Bəlkə onlardan moizə və nəsihət götürəsən.

Həzrət Əli(ə) qəbiristanlıq əhli ilə söhbət edərdi və onlardan cavab da alardı. Günlərin birində Həzrət Əli(ə) səhabələrlə qəbiristanlığın yanından keçərkən orada dayanıb mömin və möminələri səsləyərək buyurdu:

قِيلَ: نادى اَمِيرُالْمُؤمِنِين اَهْلَ الْقُبُور مِنَ الْمُؤْمِنِين وْالْمُؤمِنات, فَقالَ اَلسَّلامُ عَلَيْكُم وَ رَحْمَةُ اللهِ وَبَرَكاتُهُ

فَسَمِعْنا صَوتاً يَقُول: وَعَلَيْكُم السَّلام وَرَحْمَةُ اللهِ وَبَرَكاتُهُ يا اَمِيرَالْمُؤمِنِين

فَقالَ: نُخْبِرُكُم اَخْبارَنا اَمْ تُخْبِرُونا اَخْبارَكُم؟ قَالُوا: اَخْبِرنا بِاَخْبارِكُم يَا اَمِيرَالْمُؤمِنِين فَقالَ: اَزْوَاجُكُم قَد تَزَوَّجُوا وَاَمْوالُكُم قَسَّمَها وُرّاثُكُم وَحُشِرَ فِي الْيَتامى اَوْلادُكُم وَالْمَنازِلُ الَّتِي شَيَّدْتُم و بَنَيْتُم سَكَنَها اَعْدائُكُم. فَما اَخْبارُكُم؟ فَأَجابَ مُجِيبٌ: قَد تَخَرَّقَتِ الاَكْفان وَانْتَشَرَتِ الشُّعُورِوَتَقَطَّعَتِ الْجُلُود وَ سَالَتِ الاَحْداقُ عَلَى الْخُدُود وَتَنازَلَتِ الْمَناخِر وَالاَفْواه بِالقِيح وَالصَّدِيد وَ ما قَدَّمْناهُ وَجَدْناهُ وَما اَنْفَقْناهُ رَبِحناه وَما خَلَّفْناهُ خَسَرناهُ وَ نَحْنُ مُرْتَهِنُونَ بِالاَعْمال نَرجُوا مِنَ الله الغُفران بِالكَرم

- Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuhu. Orada dayananlar ölülərin Həzrətə(ə) cavab səsini eşitdilər. Qəbiristanlıqdan səs gəldi: Və əleykuməssalam və rəhmətullahi və bərəkatuhu, ya Əmirəlmöminin. Sonra Həzrət(ə) buyurdu: Mən burada olan xəbərləri sizə deyim, yoxsa siz orada olanları bizə xəbər verirsiniz? Dedilər: Ya Əmirəlmöminin, orada olan xəbərləri sən bizə söylə. Həzrət(ə) buyurdu: Sizdən sonra həyat yoldaşlarınız ərə getdilər. Yığdığınız mal-dövlətinizi vərəsələriniz öz aralarında bölüb dağıtdılar. Övladlarınız sahibsiz qalıb yetimlərə qoşuldular. Özünüz üçün tikdiyiniz evlərinizdə indi düşmənləriniz yaşayır. Buradan sizə çatacaq xəbərlər bunlardır. Deyin görüm, sizlərdə nə xəbər var? Səs gəldi: (Ya Əli, bizi bura qoyub gedəndən sonra) kəfənlərimiz bədənlərimizdə çürüdü. Başımızın, bədənimizin tüklərinin hamısı töküldü. Dərimiz parça-parça olub dağıldı. Gözlərimiz üzümüzdən axıb yerə töküldü. Başımızın içindəkilər, beynimiz su olub ağız-burunlarımızdan axıb töküldü. Özümüzdən qabaq göndərdiklərimizin hamısını burada gördük. (Etdiyimiz ibadət və yaxşı əməllərimizin

hamısını bizim üçün buraya saxlayıblar.)[1] Etdiyimiz yaxşılıqları və infaqları burada gördük və mənfəətini apardıq. Hansı (yaxşı) işlər ki, etməmişdik, burada peşman olduq. Indi biz burada öz əməlimizdən asılı qalmışıq. Burada Allahın rəhmətindən, mərhəmətindən və məğfirətindən savayı, heç bir şeyə ümidimiz yoxdur.[2]

Buna əsasən ölüm başa düşən insanlar üçün böyük moizədir.

## Təcrübə

Insan üçün moizə olan amillərdən biri də təcrübədir. Başqalarının təcrübəsi insan üçün moizədir. Bu barədə Həzrət Əli(ə) buyurur:

قال على (ع): كَفى بِالتَّجارُبِ مُؤَدِّباً

- Insanın ədəbləndirilməsi və tənbehi üçün təcrübə kifayət edər.[3]

## Ruzigar

Hətta insanlar əyyama, ruzigara, dəhrə dünyanın gediş gəlişinə nəzər saldıqda bunların hamısı insan üçün moizədir.

قَالَ مُوسى بن جَعْفَر(ع): خُذ مَوْعِظَتَكَ مِنَ الدَّهْرِ وَ اَهْلِهِ

---

[1] Bu məsələyə dair Allah-təala Qurani-Kərimdə belə buyurur: عَلِمَتْ نَفْسٌ مَّا قَدَّمَتْ وَأَخَّرَتْ

- Hər bir kəs öncədən göndərdiyi və ya təxirə saldığı şeyi biləcəkdir (dünyada etdiyi hər bir xeyir və şəri və özündən sonra qoyub getdiyi hər bir xeyir və şər adəti biləcəkdir). Infitar, 5

[2] Mühasibətün-nəfs, səh.67

[3] Mizan,10, səh.541

Bu barədə Həzrət Imam Museyi Kazim(ə) buyurur:“Ruzigar və dəhrdən öz moizəni al”.[1]

İnsan qədim binaların, sarayların və s. yerlərin qarşısından keçərkən bir azca dayanıb düşünərsə, bu, onun üçün moizə və nəsihətdir. Həmin binalarda, evlərdə kimlərin yaşayıb dünyadan getdiyini, kmlərin gəlib getdiyini düşünərsə, bu, insan üçün moizədir.

Bu bəhsimizin nəticəsini Həzrət Əlinin(ə) oğlu İmam Həsənə(ə) bu barədə etdiyi vəsiyyətlə yekunlaşdırıb, Kərbəla hadisəsinin bu haqda insanlara öyrətdiyi dərsi nəzərinizə çatdırıram.

Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) belə buyurur: “Oğlum...öz qəlbini moizə ilə diri saxla...”

Həzrətin(ə) bu kəlamından başa düşürük ki, moizə və nəsihət həmişə insanın qəlbini diri saxlayar.

## Haram yemək moizənin təsirini itirir

Kərbəla hadisəsinin bizə öyrətdiyi dərslərdən biri budur ki, hər hansı bir insanın boğazından haram keçərsə, o şəxsə moizənin təsiri olmayacaq.

İmam Hüseyn(ə) aşura günü gəlib düşmən qoşunu ilə üz üzə dayandı və ikinci xütbəni onlara oxudu. Həzrət(ə) birinci xütbəni oxuyarkən düşmən qoşunu Şimrin göstərişi ilə orada səs-küy qaldırdılar ki, İmamın(ə) səsi qoşunun qulağına çatmasın. Bilirdilər ki, əgər İmam(ə) söhbətə davam edərsə, ora yığışanların hamısı fikrindən daşınacaq. Çünki Həzrətin(ə) gözəl sözləri, iti çıxışları yavaş-yavaş onlara təsir göstərirdi. Buna görə də səs-küy salmağa

[1] Mizan,10

başladılar. Bir az keçəndən sonra Həzrət(ə) ikinci xütbəni onlara belə buyurdu:

وَيْلَكُم مَا عَلَيْكُم اَن تَنْصِتُون اِلَيَّ فَتَسْمَعُوا قَوْلِى وَ اِنَّمَا اَدْعُكُم اِلَى سَبِيلِ الرَّشاد فَمَن اَطاعَنِى كَانَ مِنَ الْمُرْشَدِين وَمَنْ عَصانِى كَانَ مِنَ الْمُهْلَكِين وَ كُلُّكُم عَاصٍ لِأَمْرِى غيرُ مُسْتَمِعٍ لِقَولِى قَد اِنْخَزَلَت عَطِيّاتُكُم مِنَ الْحَرام وَ مُلِعَت بُطُونُكُم مِنَ الحَرام فَطَبَع الله عَلى قُلُوبِكُم

- Vay olsun sizlərə! Sizə nə olub belə, sözlərimi eşitmək istəmirsiniz?! Mən sizi həqiqət, nuraniyyət, rəşadət yoluna dəvət edirəm. Hər kim mənim sözümü eşidib itaət edərsə, hidayət olar və hər kim qulaq asmaq istəmirsə və itaət etmirsə, özünü həlakətə atmış olur. Sizin heç biriniz mənə itaət etməyəcəksiniz və mənim sözümü eşitməyəcəksiniz. Çünki sizə haram mallardan olan hədiyyələr verilib və qarınlarınız haram yeməklərlə dolub. Allah sizin qəlblərinizi möhürləyib. Buna görə də heç vaxt siz mənim sözümü (moizəmi) eşitməyəcəksiniz.[1]

Odur ki, haram yeyən insana heç vaxt moizə təsir etmir. Bir insan moizənin onda təsir bağışlamasını istəyirsə, mütləq şəkildə qarnını haramlardan təmizləməli və heç vaxt imkan verməməlidir ki, boğazından haram keçsin.

قالَ رَسُول الله (ص): مَن اَكَلَ لُقْمَةً حِرامٍ لَم تُقْبَل لَه صَلوةُ اَرْبَعِينَ لَيْلَة وَلَمْ تُسْتَجَب لَهُ دَعْوَة اَربَعِن صَباحاً. وَكُلُّ لَحْمٍ يُنْبِتهُ الْحَرام فَالنّار اَولى بِه وَاِنَّ اللُّقْمَةَ الْواحِدَةَ تُنْبِتُ اللَّحْم

---

[1] Imam Hüseynin(ə) Mədinədən Kərbəlayadək xütbələri, səh.222

Bu barədə Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim bir tikə haram yemək yeyərsə, qırx gün onun namazı qəbul olunmaz. Həmçinin qırx gün Allah həmin şəxsin dualarını qəbul etməz. Hər bir tikə haram yeməklə bədənin əti artdıqca, o bədən cəhənnəmdə yanmağa məhkumdur. Bir tikə də olsa belə haram yemək insanın bədəninin ətinə təsir göstərir."[1]

Buna görə də insan yeməyində çox diqqətli olmalıdır ki, hansısa haram onun boğazından keçməsin. İmam Sadiq(ə) bir gün qulluqçularından birinə pul verib yemək üçün yumurta almağı tapşırdı. Qulluqçu getdi və bir az keçəndən sonra əlində beş ədəd yumurta içəri daxil oldu. Həmin yumurtaları bişirdilər. İmam(ə) yumurtanı yeyəndən sonra həmin qulluqçu pulu çıxarıb İmama(ə) verdi. Həzrət(ə) soruşdu: Sən bu pulla yumurta almadınmı? Qulluqçu dedi: Ağa, mən getdim bazara və yumurta alıb qayıdanda gördüm ki, bir neçə nəfər yumurta döyüşdürürlər. Mən də onlara qoşuldum və onlardan beş yumurta uddum. Sonra aldığım həmin yumurtaları qaytarıb pulunu götürdüm. Evə gətirdiyim yumurtalar isə həmin udduğum yumurtalardır. İmam(ə) çölə çıxıb barmağını boğazına saldı və yediklərinin hamısını qaytarıb yerə tökdü. Sonra gəlib həmin qulluqçuya belə işlər görməməsini başa saldı.

Əbul Əsvəd Duəli Həzrət Əlinin(ə) ən yaxın səhabələrindən biri idi. Bir gün Müaviyə onun evinə bal göndərdi. Nökərlər balı gətirəndə Əbul Əsvəd evdə yox idi. Lakin onun yeddi yaşlı qızı qapını açdı. Nökərlər balı ona verib getdilər. Qız baldan azacıq yedi. Əbul Əsvəd

[1] Asarus-sadiqin, 5-ci cild, səh.111

evə gəldikdə qız onu qarşılayıb, Müaviyənin onlara bal göndərdiyini bildirdi. Əbul Əsvəd qızına dedi: “Qızım olmaya o baldan yemisən? Məbada o baldan yeyəsən. Çünki o, bal deyil. O, elə bir zəhərdir ki, hər kim Müaviyənin göndərdiyi baldan yesə, Əlinin(ə) məhəbbəti onun qəlbindən çıxacaq. Çünki o, haram pullardan bal göndərib bizə”. Qız bunu eşitcək tez çölə qaçdı və barmağını boğazına salıb yediyi balı qaytardı. Sonra gəlib belə bir şeir yazdı:

- Ey Hindin oğlu Müaviyə! Sən mənə bal göndərməklə Əlinin(ə) məhəbbətini qəlbimdən çıxarmaq istəyirsən? Pənah Allaha! Əli(ə) möminlərin əmiridir və heç vaxt onun məhəbbətini mənim qəlbimdən çıxara bilməzsən.

İmam Hüseyn(ə) Kərbəlada aşura günü bütün insanları başa saldı ki, əgər insan haram yeyərsə, moizə ona təsir göstərməz və dinin, Əlinin(ə), Əhli-beytin(ə) məhəbbəti onun qəlbində qalmaz. Odur ki, insan halal ruzi qazanmalı, malını təmizləməli, özünü haramdan qorumalıdır.

Allah-təala bizləri dünya və axirətdə Əhli-beytdən(ə) ayrı salmasın.

# DÖRDÜNCÜ DƏRS

## NAMAZIN ƏHƏMİYYƏTİ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

أَعُوذُ باالله مِنَ الشّيطانِ الرَّجِيم بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. اتْلُ مَا أُوحِيَ إِلَيْكَ مِنَ الْكِتَابِ وَأَقِمِ الصَّلَاةَ إِنَّ الصَّلَاةَ تَنْهَى عَنِ الْفَحْشَاء وَالْمُنكَرِ

- Kərbəla hadisəsi insanlara müəyyən dərslər öyrədir. O cümlədən Kərbəla hadisəsi bizlərə namaz barədə xüsusi bir dərs öyrədir.

Qurani-Kərimdə təxminən 67 dəfə namaz barədə söhbət açılmışdır. Həmin ayələrdən biri də "Ənkəbut" surəsinin 45-ci ayəsidir. Allah-təala bu ayədə belə buyurur: "Bu kitabdan sənə vəhy olunanı oxu və namaz qıl. Çünki namaz *(insanı)* pis işlərdən *və* çirkin əməllərdən çəkindirir".[1]

Namaz barədə Peyğəmbər(s) və imamlardan bir çox hədis və rəvayətlər nəql olunmuşdur. O hədislərdən bir neçəsini əziz möminlərin nəzərinə çatdırıram:

---

[1] Ənkəbut,45

قَالَ الصَّادِقُ(ع): مَنْ اَحَبَّ اَن يَعْلَم أَقُبِلَت صَلاتُهُ اَمْ لَمْ تُقْبَل؟ فَلْيَنْظُر هَل مَنَعَت صَلاتُهُ عَنِ الْفَحْشاءِ وَالْمُنْكَر؟ فَبِقَدْرِ مَا مَنَعَتْهُ قُبِلَت مِنْهُ

- İmam Sadiq(ə) buyurur: “Kim bilmək istəyir ki, namazı qəbul olub, ya olmayıb? Baxsın ki, qıldığı namaz onu çirkin işlərdən və pis əməllərdən çəkindirirmi? Nə qədər insanı çirkin işlərdən və pis əməllərdən saxlayırsa, o qədər də qəbul olar.»

Bir cavan oğlan Peyğəmbərin(s) arxasında iqtida edib namaz qılırdı. Camaat həmin oğlanı tanıyırdı. Bir gün bir neçə nəfər gəlib Peyğəmbərə(s) onun barəsində belə dedilər: Ya Rəsulallah, həmin o cavan oğlan kənarda pis işlər görür. Həzrət Peyğəmbər(s) buyurdu: “Onun qıldığı namaz bir gün onu pis işlərdən saxlayar”.

Buna əsasən də insan özünü həmişə namaza hazırlamalı və diqqətli olmalıdır. Əgər insan namaza əhəmiyyət verib, onu qayda-qanunlarına riayət edərək qılarsa, həmin qıldığı namaz onu pis işlərdən çəkindirər.

Burada üç əsas mətləbi əziz möminlərin nəzərinə çatdırıram:

**1. Namaz qılmaq hər bir müsəlmana vacibdir**

Birinci mətləb budur ki, hər bir müsəlmana namaz qılmaq vacibdir. Namaz elə bir əməldir ki, heç vax insanın boynundan götürülmür. Məsələn, oruc tutmaq vacibdir, lakin əgər xəstəlik üzündən tuta bilmirsə, həmin şəxsə oruc vacib deyil. Yaxud Həccə getməyə imkan yoxdursa, getməməyinin heç bir günahı yoxdur. Xüms nə qədər ki, insanın boynuna gəlməyib, həmin şəxsə vacib deyil. Həmçinin firuiddinin başqa məsələlərini misal çəkmək olar. Lakin namaz belə deyil. Məkanından, imkanından, vəziyyətindən asılı olmayaraq, namaz həmişə insanın

boynunda vacib olaraq qalır. Əgər insan namaz qılmırsa, günah iş görür. Buna görə də namaz barədə heç bir istisna qəbul olunmur. Əgər insan xəstədirsə və ayağa dura bilmirsə, oturan yerdə, oturub qıla bilmirsə, uzanan yerdə qılmalıdır. Hər bir halda və vəziyyətdə namaz qılınmalıdır. Əgər insan suda boğulursa, namazın vaxtı çatıbsa, orada da belə işarə ilə namaz qılınmalıdır. Və yaxud dəstəmaz almaq üçün su yoxdursa, təyəmmüm edib namaz qılınmalıdır. Beləliklə, insan hansı halda olmasından asılı olmayaraq, şəriətin buyurduğu kimi namazını qılmalı və heç vaxt tərk etməməlidir. Çünki namazın qılınmaması barədə istisna hal yoxdur.

Allah-təala “İbrahim” surəsinin 39-40-cı ayələrində İbrahim Peyğəmbərin Allaha söylədiyi kəlmələri belə bəyan edir:

الْحَمْدُ لِلّهِ الَّذِي وَهَبَ لِي عَلَى الْكِبَرِ إِسْمَاعِيلَ وَإِسْحَقَ إِنَّ رَبِّي لَسَمِيعُ الدُّعَاء. رَبِّ اجْعَلْنِي مُقِيمَ الصَّلاَةِ وَمِن ذُرِّيَّتِي رَبَّنَا وَتَقَبَّلْ دُعَاء

«Həmd və şükr olsun qocalıq çağımda mənə Ismayılı və Ishaqı əta edən Allaha! Həqiqətən mənim Rəbbim duanı eşidən və qəbul edəndir.»

«Ey Rəbbim, məni namaz qılanlardan et, həmçinin övladlarımı (zürriyyətlərimi) *(də namaz qılan et)*! Ey Rəbbimiz, duamı qəbul et!»

Başqa bir ayədə namaz barədə Allah-təala belə buyurur:

وَاذْكُرْ فِي الْكِتَابِ إِسْمَاعِيلَ إِنَّهُ كَانَ صَادِقَ الْوَعْدِ وَكَانَ رَسُولًا نَّبِيًّا. وَكَانَ يَأْمُرُ أَهْلَهُ بِالصَّلَاةِ وَالزَّكَاةِ وَكَانَ عِندَ رَبِّهِ مَرْضِيًّا

- Və bu kitabda Ismayılı xatırla. O, vədlərində doğruçu və *(Allahın)* elçisi *və xalqa* xəbər gətirən idi.

O, öz əhlinə (ailəsinə) həmişə namaz *(qılmağı)* və zəkatı *(zəkat verməyi)* buyurardı və Rəbbinin yanında bəyənilən idi.[1]

Məaz ibn Cəməl deyir: "Həzrət Peyğəmbər(s) məni Yəmən əyalətinə göndərərkən bir neçə kəlmə tapşırıq verərək moizə etdi. Həmin moizələrdən biri də belə idi. Həzrət(s) buyurdu: Ya Məaz, istər kiçik hökmlərində, istərsə də böyük hökmlərdə İslam barədə diqqətli ol. Amma namaz barədə xüsusi səy göstər və diqqətli ol. Çünki İslamı qəbul etdikdən sonra namaz dinin əsasıdır".

İmam Sadiq(ə) buyurur: "Hər bir şeyin üzü olduğu kimi, sizin dininizin üzü də namazdır. (Çünki hər bir müsəlman namazı ilə tanınır.)

Kitablarda və tarixdə oxuyub müşahidə aparanda görürük ki, bütün peyğəmbərlər dünyadan gedərkən namazı tövsiyə etmişlər.

Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü əməllərin hesab kitabına başlayarkən ilk növbədə namazdan başlanacaq. Əgər namaz qəbul olarsa, başqa məsələlər haqda sorğu-suala keçəcəklər. Əgər qıldığın namaz qəbul olmazsa, daha başqa əməllərə də nəzər etməyəcəklər".

Bu ayə və hədislərdən açıq-aydın görünür ki, namaz insan üçün çox böyük əhəmiyyət kəsb edir. Digər xeyir işlər və əməllər də namazla bağlıdır.

**2. Namazı vaxtlı-vaxtında qılmaq**

İkinci mətləb bundan ibarətdir ki, insan namazı vaxtında qılsın. Məsələn, sübh azanı verilirsə, gün çıxana

---

[1] Məryəm, 54-55

qədər vaxtı var. Bu vaxt ərzində namazı qılmaq olar. Gün çıxandan sonra isə namaz qəzaya gedir. Lakin çox yaxşı olar ki, insan azan deyilən kimi namazını qılsın. Insan harada olmasından asılı olmayaraq, namazı vaxtında qılsa çox şərafətlidir. Əgər insan təyyarədə uçursa, azan vaxtı çatan kimi özünəməxsus şəraitdə namaz qılsın. Əgər maşınla səyahətə və ya başqa bir yerə gedirsə, çox yaxşıdır ki, maşını saxlayab düşüb namazını qılıb sonradan yoluna davam etsin. İnsan səfərə çıxarkən özü ilə yolda ona lazım olacaq miqdarda azuqə, yemək, su və s. götürürsə, yaxşı olar ki, maşına namaz qılmaq üçün canamaz, möhür və dəstəmaz almaq üçün su da qoysun.

İnsana imkan daxilində namazı vaxtında qılması daha şərafətlidir.

Allah-təala "Maun" surəsinin 4-5-ci ayələrində belə buyurur:

فَوَيْلٌ لِّلْمُصَلِّينَ الَّذِينَ هُمْ عَن صَلَاتِهِمْ سَاهُونَ

- Vay olsun namaz qılanların halına. O namaz qılanların halına ki, öz namazlarında səhlənkardırlar.

Həzrət Əli(ə) bu ayənin təfsirində belə buyurur: "Allah məhzərində namazdan sevimli əməl yoxdur. (Bütün əməllərdən gözəl və məhbub əməl namazdır). Heç bir şey sizi namazı vaxtlı-vaxtında qılmaqdan ayırmasın". Həzrət(ə) buyurur: Allah-təala bəzi namaz qılanları məzəmmət edir. Sonra bu ayəni oxudu. O namaz qılanların halına ki, öz namazlarında səhlənkardırlar. (Namazı qeyri-ciddi sayarlar.)

Namazı vaxtında qılmayıb sonraya saxlayanlar öz namazlarında qəflətə yol verirlər. Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim namazı vaxtında qılsa, mən ona üç şey üçün zamin dayanaram: 1. Ölən zaman rahat can verər; 2.

Dünyada qəm-qüssələrdən azad olar; 3. Cəhənnəm odundan nicat tapar".

Əlbəttə, namazı vaxtlı-vaxtında qılmaq çox mühüm məsələlərdəndir. Həyatda insanın qarşısına elə problemlər çıxa bilər ki, namazı vaxtında qıla bilməz. Lakin insan üçün hünər lazımdır ki, həmin problemləri adlayıb namazı vaxtında qılsın. Hətta müstəhəbdir ki, namazlar 5 vaxt qılınsın. Əlverişli şəraitdə imkanı çatan şəxsin 5 vaxtda namaz qılması çox yaxşı və müstəhəbdir. Əgər bir insanın imkanı yoxdursa və ya şərait ona yol vermirsə, zöhrü qılıb qurtarandan sonra əsri, həmçinin şam namazını və işa namazını qıla bilər. Bəzən şaxtalı havalarda, yaxud müəyyən işlərlə əlaqədar olaraq namazı gündə 5 dəfə qılmaq çox çətin olur. Buna görə də zöhrdən sonra əsri, şamdan sonra isə işanı qılmaq mümkündür. Belə hallar həm Peyğəmbərdə(s), həm də imamlarımızda görünmüşdür.

Peyğəmbərin(s) həyat yoldaşı Ayişə bu barədə belə deyir: "Bir gün Peyğəmbər(s) gəldi və zöhr namazını qılıb qurtarandan sonra əsr namazını qıldı".

Qeyd etdiyimiz ayə və hədislərdən məlum olur ki, namazı vaxtlı-vaxtında qılmaq mühüm məsələlərdəndir.

**3. Camaat namazı**

Namaz barədə olan üçüncü mətləb namazın camaatla qılınması barəsindədir. Əgər gündəlik vacib namazların camaatla qılınması mümkündürsə, insan nə üçün bu namazları tək qılmalıdır? Allah-təala namazı camaatla qılan şəxsə çox böyük savablar bəxş edər. Bu barədə də bir çox hədis və rəvayətlər vardır ki, bir neçəsini nəzərinizə çatdırıram.

Həzrət Peyğəmbər(s) buyurur: “Bir şəxs camaatla namaz qılarsa, qıldığı namaz qırx il evdə tək qıldığı namazlardan xeyirli və üstündür”.

Bir nəfər soruşdu: Ya Rəsulallah, insan bir günün namazını camaatla qılsa, ona bu qədər savab verilər?

Peyğəmbər(s) buyurdu: “Bir namaz. (Yəni bir namaz, məsələn, zöhr namazı camaatla birgə qılınarsa, Allah-təala həmin şəxsə 40 il evdə tək namaz qılanın savabından daha çox savab yazar.)

Əgər Peyğəmbər(s) yoxdursa, məsum imamlar yoxdursa, o zaman alim və ədalətli insanların arxasında dayanıb camaat namazı qılınmalıdır.

Hədislərdə vardır ki, hər kim alimin arxasında dayanıb ona iqtida edərək camaat namazı qılarsa, elə bil Peyğəmbərin(s) arxasında dayanıb namaz qılmışdır. Çox yaxşı olar ki, insan namazdan öncə özünü hazırlasın. Məsələn, namazdan qabaq dəstəmaz alıb, təmiz paltarlar geyərək özünə ətir vursun. Namaz qılarkən diqqətlə namaz qılsın, sözlərə fikir versin, qiraətini düzəltsin və s. kimi namazda lazım olan əməlləri yerinə yetirsin.

İmam Səccad(ə) gecə yarısı durub əmmaməsini açıb yenidən sarıdı və geyinib ətirləndi. Xanım Zeynəb(s.ə) dedi: “Ağa, belə hazırlaşmaqda məqsədin nədir? Hara gedirsən belə?” İmam(ə) buyurdu: “Ibadət etmək üçün Allahın evinə gedirəm”.

Yaxşı olar ki, insan namazı aram-aram qılsın. Namazı qurtaran kimi dərhal durub getməsin. Yaxşı olar ki, namaz qurtarandan sonra dua eləsin. Həmçinin müstəhəbdir ki, Xanım Zəhranın(s.ə) zikrini desin. Hədislərdə vardır ki, hər kim namazdan sonra dua etməsə, elə bil duaları əldən buraxmışdır. Həmçinin namaz qılanın paltarı və qıldığı yer onun özünə məxsus olmalıdır. Yaxşı olar ki, insan

namazın şəri məsələləri ilə maraqlanıb, bacardığı qədər diqqətli olsun.

Biz Quran ayələrindən və məsumların hədislərindən istifadə edərək namaz barədə bu üç mətləbi aydınlaşdırdıq. İmam Hüseyn(ə) Kərbəla hadisəsində həmin bu üç mətləbi bir dərs olaraq bütün müsəlmanlara əməli surətdə öyrədir. Həm namazın insan üçün əhəmiyyətli olmasını, həm namazın vaxtında qılınmasını, həm də camaatla qılınmasını əməldə bizə göstərir.

Tasua günü Ömər Səd hücuma keçmək istəyirdi. Buna görə də qoşununun içində çaxnaşma müşahidə olunurdu. Toz-torpaq göyə qalxmışdı. İmam Hüseyn(ə) çadırın kənarında əyləşib qılınca söykənmişdi. Xanım Zeynəb(s.ə) gəlib İmama(ə) vəziyyət barədə xəbər verdi. Həzrət(ə) buyurdu: Əbülfəzli çağır yanıma. Həzrət Əbülfəzl ağanın məhzərinə gəldi. İmam(ə) buyurdu: Atını min, get onlardan soruş, nə etmək fikrindədirlər. Həzrət Əbülfəzl gedib onlarla söhbət edəndən sonra İmamın(ə) yanına qayıtdı və dedi: Ağa, onlar deyirlər ki, sən ya beyət etməlisən, ya da döyüşü başlayırıq. İmam(ə) ona buyurdu: Get, onlara de ki, sabaha qədər bizə möhlət versinlər. Biz istəyirik bu gecə doyunca Allahımıza ibadət edib Onunla münacat edək. Allah bilir ki, mən namazı nə qədər çox sevirəm. Mən bu möhləti yalnız və yalnız namaz qılmağa, Quran oxumağa, istiğfar etməyə görə alıram. Həzrət Əbülfəzl getdi və onlardan möhlət aldı. Onlar sabah sübhə qədər möhlət verdilər.

Belə bir halda, belə bir mövqedə Həzrət İmam Hüseyn(ə) namaz qılmağa görə möhlət alır. Bu hal namazın insan üçün nə qədər əhəmiyyətli olduğunu bariz şəkildə göstərir.

Aşura gecəsi Həzrət(ə) göstəriş verdi ki, bütün işıqları söndürsünlər. Həmçinin bildirdi ki, kim getmək istəyirsə çıxıb getsin. Işıqları ona görə söndürtdü ki, gedənlər utanmasınlar. Elə ki gedənlər getdilər, Həzrət(ə) onunla qalanlara öz məqamlarını göstərdi. Hamı öz məqamını görəndən sonra, səhərə qədər eşqlə və məhəbbətlə Allaha ibadət etdilər.

Tarixdə yazırlar ki, o gecə hamı öz çadırlarında elə münacat edirdilər ki, onların Allahla münacat səsləri arıların vızıltılı səsi kimi göylərə ucalırdı. Onların hamısı bilirdi ki, öz imamlarını müdafiə edirlər və sabah Allah yolunda şəhid olub, öz peyğəmbərlərini ziyarət edəcəklər.

Aşura günü döyüş başlandı və onlardan bir dəstəsi günortaya qədər şəhid oldu. Elə ki, günorta oldu, İmamın(ə) qoşunu ilə düşmən qoşunu arasında qızğın müharibə gedirdi. İmam(ə) özü də döyüşürdü. Səhabələrdən biri olan Sümamə gəlib İmama(ə) dedi: Ağa, namazın vaxtıdır. İmam Hüseyn(ə) ona buyurdu:

ذَكَرْتَ الصَّلاة جَعَلَكَ الله مِنَ الْمُصَلِّينَ الذَاكَرين نَعَم هذا اَوَّل وَقت الصَّلاة

- Sümamə, namazı yad etdin. Allah səni namaz qılanlarla məşhur etsin. Bəli, namazın vaxtıdır.

İmam(ə) göstəriş verdi onlara desinlər ki, bir neçə dəqiqə əl saxlasınlar, biz namazımızı qılaq. Həsin Ömər Sədin qoşununda idi. O, İmamın(ə) bu sözünü eşidib dedi: Onun qıldığı namaz qəbul deyil.

Həbib ibn Məzahir onun bu sözlərindən qəzəbləndi və gəlib ona dedi: Sən elə hesab edirsən ki, Peyğəmbərin(s) balasının qıldığı namaz qıbul deyil və sənin namazın qəbuldur, ey ulaq? Həbib ibn Məzahir bu sözləri deyəndən sonra onu elə oradaca şəhid etdilər.

İmam Hüseyn(ə) Ömər Sədə buyurdu: “Ey Sədin oğlu, İslamın şəriətini də unutmusan? Əl saxlamırsan ki, namazımızı qılaq?” Ömər Səd cavab vermədi. Həzrət(ə) buyurdu: “Şeytan onlara qələbə çalıb”. Sonra Həzrət(ə) Səd ibn Abdullaya, Züheyrə və bir neçə nəfərə göstəriş verdi ki, onlar qabaqda dayansınlar və biz arxada camaat namazı qılaq.

İmam(ə) namaz qılarkən səhabələrdən bir neçəsi onun kənarında sipər kimi dayanmışdılar. Düşmənin atdığı oxlar onların sinələrinə sancılırdı. Lakin onlar öz imamlarını qoruyurdu.

Tarixin bu hadisəsindən məlum olur ki, Kərbəlada şəhid olanlar namaz qurbanlarıdır.

*Fədayəm ol həqiqi eşqbazə*
*Kifayət qıldı qanı dəstəmazə*
*Yıxılmış halda qəsd etdi namazə*
*Qoyub alnın sücudi biniyazə*
*Təlapuş eylədi qanla türabi.*

Həzrət İmam Hüseyn(ə) bu əməli ilə orada bütün müsəlmanlara öz peyğamını çatdırdı ki, namazı belə qılmaq lazımdır və namaz bu qədər insan üçün mühüm və əhəmiyyətlidir.

Hətta döyüşə gedən zaman bacısı Xanım Zeynəblə(s.ə) xudahafizləşəndə buyurdu: “Bacı, mənə dua etməyini xahiş edirəm”.

Xanım Zeynəb(s.ə) barədə yazırlar ki, əsirləri Kərbəladan Kufəyə, Kufədən Şama aparanda və bütün bu hadisələr zamanı hətta bir gecə də olsa belə gecə namazını əldən vermədi. Bütün gecələri Allahla razi-niyaz edib, namaz qılır və ibadət edirdi. Qardaşları, balaları şəhid olmuş, özü, qardaşı balaları və öhdəsində olan uşaqlar və

qadınların qarət olub əsir düşdüyü bir halda dağ ürəkli, şücaətli bu qadın həmin gecə də  namazını tərk etmədi. Yazırlar ki, həmin gecə çox taqətsiz olduğu üçün oturduğu yerdə namazını qıldı.

Odur ki, Kərbəla bütün müsəlmanlara, möminlərə bu dərsi öyrədir ki, namaz insan üçün çox əhəmiyyətlidir və hansı halda olmasından asılı olmayaraq, namaza qarşı diqqətli olmaq lazımdır.

Allah-təala bizi həqiqi namaz qılanlardan, namazda diqqətli olanlardan qərar versin. Inşallah.

# BEŞINCI DƏRS

## İSLAMDA AİLƏ VƏ FİKIR HƏMRƏYLİYİ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

أعوذ باالله من الشيطان الرجيم. بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَى وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

- Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında (ən kəramətliniz) ən hörmətli olanınız (təqvalılarınızdır) Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir).

Allah-təala bu mübarək ayədə insanlara mühüm bir məsələni bəyan etmişdir. Həmin bu mətləbi həm Peyğəmbərin(s) əməllərində müşahidə edirik, həm də bu məsələni İmam Hüseyn(ə) Kərbəlada əməli surətdə bütün insanlara öyrədir. Yəni Allah-təala ayəni nazil edir, Həzrət Peyğəmbər(s) əməldə bu ayəni həyata keçirir və Peyğəmbərin (s)canişinləri, şəxsən Həzrət Əli(ə), İmam Həsən(ə), İmam Hüseyn(ə) və bütün imamlarımız həmin ayələri əməli surətdə bütün insanlara  çatdırırlar.

Yuxarıda qeyd etdiyimiz ayəni daha aydın başa düşmək üçün bir müqəddiməni əziz möminlərin nəzərinə çatdırıram.

İnsanın fitrətində müxtəlif istəklər vardır. Bu istəklər Allahın insanın daxilində yaratdığı qeyri-iradi istəklərdir. Insanın daxilində olan bu istəklərdən biri budur ki, insan həmişə xalq arasında hörmətinin çox olmasını istəyir. Heç kəs istəmir ki, camaat onu alçaq bir şəxs kimi tanısın. Insanın daxilində belə bir tələb, istək və şüur vardır. Buna görə də insan həmişə istəyir ki, dünyada nə qədər qiymətli və dəyərli əməllər varsa, tapıb onlara riayət etməklə insanlar arasında qiymət tapsın. Lakin burada bir incəlik vardır ki, insanların düşüncələri müxtəlif olduğu üçün onların fikirlərindəki dəyər və qiymətlər də müxtəlifdir. Insanların zahiri qiyafələri müxtəlif olduğu kimi ruh, təfəkkür və düşüncələri də müxtəlif olur. Buna görə də qiymət və dəyərlər də bir-birindən fərqlənir. Bəzən insan buna nail olmaq üçün yolunu azır və əsas məsələdən uzaqlaşır. Bir sıra məcazi və qondarma dəyərləri gətirib həqiqi dəyərlər əvəzinə özündə təcəssüm etdirir və bu hərəkətlə özünün qiymətli və şərafətli olmasını göstərir. Belə bir hal insanın öz zəifliyindən irəli gəlir. Məsələn, bəzi insanlar özlərini tanıtdırarkən ata-babasını nümunə gətirərək atasının, babasının qohum-əqrəbasının kim olduğunu dilə gətirir. Bu cür insanlarla söhbət etdikdə o, öz ata-babasının vəzifəli, mal-dövlətli və ya alim olması barədə fəxrlə söhbət edir. Elə başa düşür ki, əgər ata-babasının və ya əsil-nəcabətinin fəzilətlərindən danışarsa, bu onun üçün də fəzilət hesab olunur. Lakin özünə nəzər saldıqda görür ki, bunun heç bir dəyəri, qiyməti yoxdur. Bu qondarma dəyərdir ki, həqiqi dəyərlərin yerində qərar tutmaqla özünü şərafətli hesab edən insanların fikridir.

Bəzi insanlar öz mal-dövlətini, imkanını, tikdirdiyi binaları və s. dilə gətirməklə fəxr edir. Elə hesab edir ki, əgər bu kimi şeylərdən danışarsa, hamı ona əzəmətli gözlə baxacaq.

Tarixə nəzər saldıqda şahidi olmuşuq ki, bir sıra insanlar vardır ki, öz dərilərinin ağ, qara və ya qırmızı olması ilə fəxr edirlər. Bəzi ölkələrdə hələ də insanın rəngi üstündə mübarizə gedir. Məsələn, qara dərili insanları yuxarı vəzifələrdə işləməyə qoymurlar. Çünki elə düşünürlər ki, onun dərisi qaradır və ağdərili insanlar onlardan üstündür.

Bəzən də elə insanlar vardır ki, dilinin müxtəlifliyi (dilinin ərəb, fars, ingilis və s. olması) ilə fəxr edirlər. Elə başa düşürlər ki, dillərinin ərəb və ya türk dili olması onlar üçün fəxr və şərafət hesab olunur. Əgər bir insan Ərəbistanda anadan olub, ərəb dilində danışırsa, bu o demək deyil ki, o başqa dildən olan insanlardan üstündür. Yuxarıda qeyd olunan məsələlərin hamısı insanların düşüncələrinin müxtəlif olmasından irəli gələn səbəblərdir. Hər kəsin fikrində hansı xüsusiyyət yaxşıdırsa, onunla da fəxr etməyə başlayır.

Bunların hamısı boş və insanın başını qarışdıran söhbətlərdir ki, bir çox insanlar belə bir xəstəliyə düçar olmuşlar.

Allah-təala Quranda belə fikir və dəyərlərə mənfi münasibət göstərir. Quranın nəzərində şərafət, fəzilət, üstünlük və dəyər odur ki, insan bunları özü qazansın və qazandığı bu əməlləri də Allah bəyənsin. Dərinin ağ və ya qara olmasını insan özü əldə etməmişdir. Bunu insan özü kəsb etməmişdir ki, onunla da fəxr etsin. Ağdərili insan dərisinin ağlığı ilə fəxr edirsə və əgər Allah onu qaradərili yaratsaydı, onda necə fəxr edəcəkdi? Və yaxud qaradərili

insan öz dərisinin qaralığı ilə fəxr edirsə və əgər Allah onu da ağ və ya qırmızı dərili yaratsaydı, necə fəxr edəcəkdi? Ərəbistanda yaşayan insan dilinin ərəb dili olması ilə fəxr edirsə və  əgər Allah onu başqa ölkələrdə və başqa dildə yaratsaydı, onda nə ilə fəxr edəcəkdi? Həmçinin Ingiltərədə yaşayan insan dilinin ingilis dili olması ilə fəxr edirsə və əgər Allah onu başqa ölkələrdə və başqa dildə yaratsaydı, onda nə ilə fəxr edəcəkdi?

Buna görə də ata-baba, mal-dövlət, dil və rənglə fəxr etmək insana şərafət, izzət vermir.

Həzrət Məhəmməd(s) peyğəmbərliyə çatan zaman öz peyğəmbərliyini bütün insanlara elan etdi. Iman gətirənlərin hamısı Peyğəmbərin(s) ətrafına toplaşdı. Onların içində müxtəlif millətlərdən, müxtəlif rəngli insanlardan və müxtəlif dildən olanlar var idi. Həzrət Peyğəmbər(s) onların hamısına eyni gözlə baxırdı. Peyğəmbər(s) başqa ölkələrdə yaşayıb iman gətirənləri öz yaxın adamlarından heç fərqləndirmirdi. Rəngindən, dilindən və milliyyətindən asılı olmayaraq, kim iman gətirirdisə, Həzrət Peyğəmbər(s) onlara eyni səviyyədə nəzər salırdı. Dilindən, rəngindən və s. asılı olmayaraq əgər bir insanın fəziləti, şərafəti və imanı çox idisə, Həzrət Peyğəmbər(s) həmin şəxsə daha çox üstünlük verirdi.

Məkkəni fəth edəndən sonra Həzrət Peyğəmbər(s) Bilal Həbəşiyə azan vermək üçün Kəbənin üstünə çıxmaq barədə göstəriş verdi. Bilal qaradərili bir zənci idi. Onan dilində pəltəklik var idi. O, «ş» hərfini tələffüz edə bilmirdi, əvəzində «s» hərfini deyirdi. O, Kəbənin üstünə çıxıb azan verərkən sonra bəzi müxalif insanlar pıçıldamağa başladılar. Yanındakılara bildirirdilər ki, ağdərili adamlar qala-qala, səsi gözəl insanlar ola-ola Peyğəmbər(s) bunu nə üçün azan verməyə  çıxardıb? Bu

işə müxalif olanlardan biri Əttab ibn Əsid idi. Onun imanı zəif idi. O, bunu görəndə öz-özünə pıçıldamağa başladı və dedi: “ş” hərfini düzgün tələffüz edənlər burada ola-ola Peyğəmbər(s) nəyə görə pəltək zəncini azan vermək üçün Kəbə evinin üstünə çıxarıb? Yaxşı oldu ki, ata-babam öldü, amma bu günü görmədi”.

Etiraz edənlərdən biri də Haris ibn Hüşam idi. O da bu hadisəni görəndə hörmətsizlik edərək belə dedi: “Bu qara qarğadan savayı bir adam yox idi ki, Peyğəmbər(s) onu Kəbənin üstünə çıxarsın? O, bu sözü ətrafında olanlara eşitdirdi.

Bunlar iman gətirənlərin arasında idilər. Lakin imanları çox zəif, düşüncələri dar olan insanlar idilər. Allah-təala orada həmin bu ayəni nazil etdi:

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَى وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ

- Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında (ən kəramətliniz) ən hörmətli olanınız (təqvalılarınızdır) Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir).

Bu ayə bütün insanlara açıq-aydın başa salır ki, Allah yanında şərafət, fəzilət, dəyər və qiymət təqvadır. Hər kimin nə qədər təqvası varsa, Allah yanında da bir o qədər dəyər və qiyməti vardır. Əgər bir insanın təqvası yoxdursa, deməli Allah yanında heç bir dəyər və qiyməti də yoxdur. Buna görə də Allah yanında insanın şərafətli, fəzilətli, dəyərli və qiymətli olmasında əsas meyar onun təqvalı olmasıdır.

Həcc zamanında Həzrət Peyğəmbər(s) Minada camaata xitab edərək buyurdu:

أَيُّهَا النَّاسُ اَلا اِنّ رَبَّكُم واحِد وَ اِنَّ آباكُمْ وَاحِد لا فَضْلَ لِعَرَبِيٍّ على عَجَمِيٍّ وَلا لِعَجَمِيٍّ عَلى عَرَبِيٍّ وَلا لِأَ سْوَدٍ عَلى أَحْمَر وَلا لِأَحْمَر عَلى أَسْوَد اِلاّ بِالتَّقْوى

اَلا هَلْ بَلَّغْتُ؟ قالو: نَعَم قال: لِيَبْلُغَ الشّاهِدُ الْغائِبَة

- Camaat! Diqqət edin! Həqiqətən sizin Allahınız birdir. Və sizin atanız da birdir. (Adəmdir.) Heç bir ərəbin (əcəmə) qeyri-ərəbə və heç bir əcəmin (qeyri-ərəbin) də ərəbə heç bir üstünlüyü yoxdur. Və qaradərili insanların qırmızıdərili və qırmızıdərili insanların da qaradərili insanlardan heç bir üstünlüyü yoxdur. Yalnız təqvadan başqa.

Diqqət edin! Mənim bu sözlərim sizə çatdımı? Dedilər: Bəli, ya Rəsulallah. Sonra Həzrət(s) buyurdu: Elə isə bu sözlərimi burada olanlar burada olmayanlara çatdırsın!

Başqa bir hədisdə Həzrət Peyğəmbər(s) buyurur:

اِنَّ اللهَ لا يَنظُرُ اِلى اَحْسابِكُم وَلا اِلى اَنْسابِكُم وَلا اِلى اَجْسادِكُم وَلا اِلى اَمْوالِكُم وَلكِن يَنْظُرُ اِلى قُلُوبِكُم فَمَن كانَ لَه قَلْبٌ صالِح تَحَنَّنَ اللهُ عَلَيه وَ اِنَّما اَنْتُم بَنُو آدَم أَحَبُّكُم اِليهِ اَتْقاكُم

- Allah-təala sizin həsəbinizə, nəsəbinizə, bədəninizə və mal- dövlətinizə baxmır. Bəlkə Allah sizin qəlblərinizə nəzər edir. Hər kimin qəlbi salehdirsə (imanı çoxdursa, nuraniyyəti və təqvası varsa) Allah həmin şəxsə mərhəmət göstərər. Sizin hamınız adəmin övladlarısınız. Allah yanında ən sevimliniz təqvalı olanlarınızdır.

Burada bir mətləbi əziz möminlərin nəzərinə çatdırıram. Allah-təala Qurani-Kərimdə dörd qrup insana xüsusi şərafət və kəramət nəsib etmişdir:

1. Birinci qrup insanlar alimlərdir. Yəni Allah yanında şərafətə malik olan insanlar elm, bilik əldə edib öz elmlərinə əməl edən şəxslərdir. Quranda alimin mənası belə açıqlanır ki, onlar öz elmlərinə əməl edənlərdir. Əməlsiz alimlərdən söz açılarkən isə onları alim hesab etmir. Buradan məlum olur ki, öz biliyinə əməl etməyən insan alim hesab olunmur. Quranda bilənlər yox, əməl edən alimlər alim hesab olunur. Buna misal olaraq öz dövrümüzün inkişafını misal çəkmək olar. Hazırda texnologiya elə inkişaf etmişdir ki, milyonlarla kitabı kompüterin beyninə yükləyirlər. Ondan sonra istənilən mövzuda və istənilən şəkildə hər hansı məlumatı bir düyməni basmaqla həmin kompüter insana məlumat verir. Belə məlumatlı olmaq o demək deyil ki, kompüter alimdir. Kiçik bir qutunun içində milyonlarla cild kitabların olması həmin qutunun alim olmasına dəlalət etmir.

Buna görə də hər məlumatı bilən insan yox, bilib öz biliyinə əməl edən şəxsə alim deyilir. Allah-təala Qurani-Kərimdə öz elminə əməl edən alimlər barədə belə buyurur:

هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ

...Məgər bilənlərlə bilməyənlər bərabərdirmi?... [1]

2. İkinci qrup şərafətli insanlar mücahidlərdir ki, Allah-təala onlar barədə belə buyurur:

وَفَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ

---

[1] Zümər, 9

Allah mücahidlərə evlərində oturanlardan daha böyük mükafatla imtiyaz vermişdir.[1]

3. Üçüncü qrup təqvalı insanlardır ki, Allah-təala onlar barədə buyurur:

إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ

- Həqiqətən Allah yanında (ən kəramətliniz) ən hörmətli olanınız (təqvalılarınızdır) Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir).[2]

4. Dördüncü dəstə isə imanda hamıdan öndə gedən insanlardır. Bu insanlar barədə Allah-təala buyurur:

وَالسَّابِقُونَ السَّابِقُونَ أُوْلَئِكَ الْمُقَرَّبُونَ

(İmanda) öncül (təqvada) qabaqcıllar! Onlar (Allahın dərgahına) yaxın olanlardır.[3]

Qeyd olunan bu dörd qism insanların Allah yanında xüsusi şərafət və kəramətləri vardır. Əlbəttə, qeyd etmək lazımdır ki, cəmiyyətdə hüquqi baxımdan bunların hüquqları bərabərdir. Məsələn, əgər bir nəfər başqasını vurub öldürərsə, öldürülənin adamları onun qisasını tələb edirlər. Əgər öldürən alimdirsə və ölən cahil, yaxud öldürən mücahiddirsə və ölən qeyri-mücahid, öldürən sabiqdirsə (imanda öndə olan) və ölən lahiq (imanda geri düşən) olarsa, cəmiyyətdə hüquqi baxımdan bunlar arasında fərq yoxdur. Əgər qisas tələb olunursa, bu hökm icra olunmalıdır. Lakin bu insanların Allah yanında xüsusi

---

[1] Nisa, 96

[2] Hücürat, 13

[3] Vaqiə,10-11

şərafətləri var. Həmin insanların Allah yanında şərafətləri olduğu üçün camaat arasında da onlara hörmət olunmalıdır. Çünki həm Allah, həm də Peyğəmbər(s) bu dörd qrup insana  hörmət etməyi və  onlara qarşı ədəb göstərməyi tövsiyə etmişdir.

Buna misal olaraq Bədr müharibəsində döyüşən mücahidləri nümunə üçün qeyd edirəm. İslamın birinci müharibəsi Bədr döyüşü olmuşdur. Bədrdə Peyğəmbərlə(s) iştirak edən mücahidlərə «Bədriyyun» deyilir. Onlar mücahid insanlar olduğu üçün Allah və Peyğəmbər(s) yanında xüsusi fəzilətləri vardır.

Bədr döyüşündən neçə il ötəndən sonra, cümə günü Peyğəmbər(s) Mədinə məscidində süffədə (səkidə) əyləşmişdi. Bir də gördülər ki, bir neçə nəfər məscidə daxil oldu. Onlar həmin Bədr döyüşündə Peyğəmbərlə(s) çiyin-çiyinə döyüşən mücahidlər idi. Gəlib Peyğəmbərə(s) salam verdilər. Peyğəmbər(s) də onların salamını aldı. Lakin məscid dolu olduğundan onlar əyləşə bilmədilər. Həzrət Peyğəmbər(s) qabaqda əyləşənlərin bir neçəsinə buyurdu ki, durub öz yerlərini onlara versinlər. Qabaqda əyləşənlər durdular və həmin mücahidlər onların yerində əyləşdilər.

Bu hadisənin öz yerlərini onlara verənlərin ürəklərinə azacıq toxunduğunu görən münafiqlər öz hiylələrinə əl atdılar. Söz yaydılar ki, biz neçə saat qabaqcadan gəlib yer tutmuşuq, həmişə Peyğəmbərin(s) yanında olmuşuq. Indi də bir neçə nəfər gec gəldi və bizim yerimizi onlara verdilər. Bu cür sözlər danışarkən Allah-təala Peyğəmbərə(s) bu ayəni nazil etdi:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا قِيلَ لَكُمْ تَفَسَّحُوا فِي الْمَجَالِسِ فَافْسَحُوا يَفْسَحِ اللَّهُ لَكُمْ وَإِذَا قِيلَ انشُزُوا فَانشُزُوا

- Ey iman gətirənlər, sizə: «Məclislərdə yer verin!» deyildiyi zaman yer verin ki, Allah da sizə *(yer, ruzi, qəlb və behiştdə)* vüsət versin. *«(Yer vermək və fəzilət əhlini irəli çəkmək üçün)* qalxın!» – deyildiyi zaman qalxın ki, Allah da sizdən iman gətirənlərin və elm verilmiş kəslərin *(dünyada və axirətdə)* dərəcələrini yüksəltsin. Allah etdiklərinizdən xəbərdardır.[1]

Bu ayə nazil olmaqla münafiqlərin ağzını yumdu.

Bir daha qeyd etmək lazımdır ki, cəmiyyətdə bunlar hüquq baxımından bərabərdirlər. Lakin Allah və Peyğəmbər(s) istəyir ki, qeyd olunan bu dörd qism insanlara xüsusi hörmət bəsləsinlər.

## İSLAMDA AİLƏ

Burada bir incəliyi əziz möminlərin nəzərinə çatdırıram. Həmin mətləb bundan ibarətdir ki, İslamda ailə barəsində olan ən əsas məsələ insanların imanı və fikridir. Məsələn, bir ailədə bir ata və anadan 5 övlad dünyaya gəlir. Həmin övladların 3-ü Allaha iman gətirir, 2-i isə iman gətirmir. İslam baxımından iman gətirənlər bir-birinə ailə hesab olunur. Namaz qılarkən salam verdikdə belə deyilir: Salam olsun bizə və Allahın saleh bəndələrinə. Bununla yer kürəsində nə qədər Allaha iman gətirən saleh bəndələr varsa, həmin bu salam onların hamısına şamil olur. Əgər bir insan iman gətirməyibsə və saleh insan deyilsə, namazda qeyd olunan bu salam onlara aid deyildir. Fərq etməz insanın öz evində olan övladı da olsa belə, əgər imanlı və saleh deyilsə, həmin bu salam ona şamil olunmur.

[1] Mücadilə,11

Bu məsələyə dair Allah-təala Quranda “Hud” surəsinin 45-46-cı ayələrində Nuh Peyğəmbərin(ə) hadisəsini qeyd edərkən həmin bu mətləbi açıq-aşkar bəyan etmişdir. Nuh Peyğəmbər(ə) uzun illər peyğəmbərlik edib öz qövmünü Allaha tərəf dəvət etmişdi. Onun bu dəvətini sox az insan qəbul etdi. Quranın buyurduğuna əsasən 950 il təbliğ etmişdi. Bu müddət ərzində cəmi 80 nəfər ona iman gətirdi. Qalanları isə öz küfründə qalıb Nuhu(ə) məsxərəyə qoyurdular. Nuh(ə) onların əlindən cana doymuşdu. Axırda Allaha bu tayfadan şikayət etdi. Allah-təala ona gəmi düzəltməyi əmr etdi. Nuh Peyğəmbər(ə) gəmi düzəltməyə başladı. Iman gətirməyənlər bunu gördükdə bir daha onu məsxərəyə qoyub, ələ salaraq deyirdilər: Deyəsən peyğəmbərlikdən bir şey alınmadı, indi də gəmi düzəldirsən və dülgərlik edirsən? Nuh(ə) öz işini yaxşı bilirdi və onların cavabında heç bir söz demirdi. Gəmi hazır olandan sonra Allah-təala buyurdu: “Sən və sənin ailən gəmiyə minin”. Nuh(ə) iman gətirənləri çağırıb gəmiyə mindilər. Şiddətli yağış yağdı, quyular qaynadı, su dağların başına qədər qalxdı və gəmi hərəkət etməyə başladı. Gəminin içərisində olanlardan başqa hamı suda qərq olub boğuldu. Suda boğulanların biri də Nuhun(ə) öz oğlu idi. O, boğula- boğula atasına dedi: “Ata, Allah sənə öz ailənlə gəmiyə minməyi demədimi? Mən sənin oğlunam, sənin ailəndən sayılmıram?”

Nuh Peyğəmbər(ə) Allaha dedi:

وَنَادَى نُوحٌ رَّبَّهُ فَقَالَ رَبِّ إِنَّ ابُنِي مِنْ أَهْلِي وَإِنَّ وَعْدَكَ الْحَقُّ وَأَنتَ أَحْكَمُ الْحَاكِمِينَ

قَالَ يَا نُوحُ إِنَّهُ لَيْسَ مِنْ أَهْلِكَ إِنَّهُ عَمَلٌ غَيْرُ صَالِحٍ فَلاَ تَسْأَلْنِ مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ إِنِّي أَعِظُكَ أَن تَكُونَ مِنَ الْجَاهِلِينَ

- Nuh öz Rəbbini çağırıb dedi: «Ey Rəbbim, oğlum mənim ailəmdəndir. Və həqiqətən Sənin *(mənim ailəmin nicatı barədəki)* vədin haqdır və Sən hakimlərin ən yaxşısısan.

*(Allah)* buyurdu: «Ey Nuh, o, sənin ailəndən deyil *(o, küfr və itaətsizlik nəticəsində qohumluq tellərini qırıb, çünki)* o *(başdan-başa)* nalayiq (qeyri-saleh) əməldədir! Buna görə də Məndən bilmədiyin şeyi istəmə. Nadanlardan olmayasan deyə Mən sənə öyüd verirəm.»

Bu ayədən açıq-aydın məlum olur ki, İslamda ailə iman və saleh əməllər əsasında qurulur və hesablanır.

İslam Peyğəmbərinin(s) həyatına nəzər salanda görürük ki, Həzrət(s) bu məsələni əməlində bizə göstərmişdir. Onun Əli(ə), Miqdad, Salman, Abuzər, Bilal Həbəşi və s. səhabələrinin hər birinin müxtəlif ölkələrdən - biri ağdərili, biri qaradərili, biri əcəm və biri ərəb olmasına baxmayaraq, həmişə Peyğəmbərin(s) arxasında dayanıb ona iqtida edərək, bir cərgədə dayanıb namaz qılar və həmişə bir yerdə olardılar.

## KƏRBƏLA VƏ AİLƏ

Kərbəla hadisəsinin bütün insanlara öyrətdiyi dərslərdən biri həmin bu məsələdən ibarətdir ki, İslam ailəni iman əsasında qərar verir.

Kərbəlada İmam Hüseynin(ə) ətrafında olan insanların sayını bəzi tarix kitablarında 72, bəzi kitablarda 78, bəzi kitablarda da 78-dən bir az çox olduğunu qeyd etmişlər. Hər halda bu dəstənin içində 17 nəfər Bəni-Haşimdən idi.

Onlar İmamın(ə) oğlanları, qardaşları, qardaşı oğlanları, bacılarının oğlanları, bir sözlə desək, öz qohum-əqrəbasından ibarət idi. Yerdə qalanlar isə İmam Hüseynin(ə) ailəsi idi. Onların müxtəlif yerlərdən gəlib İmama(ə) qoşulmasına baxmayaraq, onlar Həzrətə(ə) ailə hesab olunurdu. Bu 72 və ya 78 nəfər döyüş meydanında şəhid olduqca İmam Hüseyn(ə) onların başlarının üstünə gedərdi. Tarix kitablarında yazırlar ki, İmam(ə) təxminən 10 nəfərin başı üzərinə gəlib əyləşərək, mərsiyə oxumuş və onlarla danışmışdı. Həmin şəxslərin adlarını əziz möminlərin nəzərinə çatdırıram:

1. Həzrət Əli Əkbər. İmam Hüseynin(ə) böyük oğlu idi. Onun 25 yaşı var idi. Ailəli idi və 2 uşağı var idi. Həmçinin İmamın(ə) məhzərində dərs oxuyub fəqahət (fiqh elminin yüksək) dərəcəsinə çatmışdı. Ona Bəni-Haşimin fəqihi deyirdilər. Kərbəlada onu yaralayıb yerə yıxanda İmam Hüseyn(ə) onun başının üzərinə gəldi. Əyilib üzünü Əli Əkbərin üzünə qoyaraq, ağlaya-ağlaya bu sözləri buyurdu:

قَتلَ اللهِ قَوماً قَتَلُوكَ... عَلى الدُّنْيا بَعْدَكَ العَفا

- Allah səni öldürənləri öldürsün. ...Səndən sonra kül olsun dünyanın başına.

Qeyd etmək lazımdır ki, şəhidlər qəhrəmanlıq göstərib öz arzularına çatdılar. Onların bu qəhrəmanlığını ağlamaqla yad etmək lazımdır. Çünki bunu bizlərə Həzrət Peyğəmbər(s), Həzrət Əli(ə) tövsiyə etmişdir. Hətta İmam Hüseynin(ə) özü bu barədə belə buyurmuşdur:

اَنَا قَتِيلُ الأَبَرَ لا يَذكُرُنِى مُؤمِن اِلاّ بكى

- Mən gözlərdən axan yaşlar üçün öldürülmüşəm. Hər mömin məni ağlamaqla yad etməlidir.

İmam Hüseyn(ə) üçün sonrakı imamlar da əza saxlayıb ağlamış, həmçinin bizlərə də Həzrəti(ə) ağlamaqla yad etməyi tapşırmışlar. İmam Sadiq(ə) Minada rövzə oxuyanları, məddahları çağırıb onlara İmam Hüseynin(ə) rövzəsini oxumağı göstəriş verər, məclis qurtardıqdan sonra üstündə olan pulların hamısını çıxarıb onlara verərdi.

Buna görə də biz öz başımıza deyilik ki, şəhidlər üçün ürəyimiz istədiyimiz kimi məclis təşkil edib şənlik keçirək. İmam Hüseynin(ə) və şəhidlərin xatirəsini öz bildiyimiz kimi deyil, Peyğəmbər(s) və imamların göstərdiyi şəkildə təşkil etməli və onlara əza saxlanılmalıdır.

2. Həzrət Əbülfəzl(ə). İmam Hüseynin(ə) qardaşı idi. O, şəhid olarkən İmam Hüseyn(ə) onun başı üzərinə gəldi, əyləşib əlini belinə qoyub buyurdu: "Indi hiss edirəm ki, belim qırıldı. Indi hiss etdim ki, çarəm kəsildi".

3. Həzrət Qasim. İmam Həsənin(ə) oğlu idi. O da Imamdan izn istəyib meydana daxil oldu. Onu da vurub atdan yerə saldılar. Son anlarında bir neçə dəfə əmisini səslədi. İmam Hüseyn(ə) onun başı üzərində hazır oldu və bu kəlmələri buyurdu: "Mənə çox ağırdır ki, sən məni səsləyəsən, sənə cavab verməyim. Oğul, Səni öldürənlər Allahın rəhmətindən uzaq olsunlar".

4. Abdulla ibn Həsən. O, İmam Həsənin(ə) kiçik oğlu idi. Şəhid olarkən son anlarında İmam Hüseyn(ə) onun başı üzərinə gəlib onu iki əli ilə götürüb bağrına basaraq belə buyurdu: "Qardaşımın balası, gördüyün bu müsibət və çətinliklərə səbr et və bunları özünə xeyir bil. Çünki az bir zaman keçdikdən sonra Allah səni ata-babalarına qovuşduracaq".

5. Abdulla ibn Hüseyn. Əli Əsğər kimi tanıdığımız İmam Hüseynin(ə) kiçik oğlu idi. Körpə altıaylıq uşaq idi. İmam Hüseyn(ə) onu götürüb əlləri üstə yuxarı qaldırdı və düşmən qoşununa göstərib buyurdu: "Camaat, heç olmasa bu uşağa su verin. Imamın bu sözlərinə Hərmələnin oxu savab verdi. Ox uşağın bir qulağından o biri qulağına kimi boğazını üzdü. Imam uşağı əlləri ustündə saxlayıb Allahla belə münacat etdi: "Bu mənzərəni görüb səbr etmək mənim üçün çox asandır. Çünki bütün bunların hamısı mənim Allahımın gözü qarşısında olur".

İmam Hüseynin(ə) şəhid olarkən başları üzərində hazır olduğu bu 5 nəfər Bəni-Haşimdən idilər. Bir neçə nəfər də müxtəlif insanlar idilər ki, son anlarında İmam(ə) onların da başları üzərində hazır oldu və onlarla söhbət etdi.

6. Müslim ibn Ovsəcə. O, Həzrət Peyğəmbərin(s) səhabələrindən biri idi. Müslim Peyğəmbərin(s) zamanında Həzrəti(ə) görmüş və Ona sadiq bir insan olmuşdu. O, İmam Hüseynə(ə) kömək etmək üçün öz ailəsi ilə birlikdə gəlmişdi. Şəhid olarkən son anlarında İmam Hüseyn(ə) Həbib ibn Məzahirlə birgə onun başı üzərinə gəldilər. İmam(ə) ona buyurdu: "Allah sənə rəhmət eləsin, ey Müslim". Sonra Həzrət(ə) bu ayəni onun başı üzərində tilavət etdi:

فَمِنْهُم مَّن قَضَى نَحْبَهُ وَمِنْهُم مَّن يَنتَظِرُ وَمَا بَدَّلُوا تَبْدِيلًا

Onlardan bəzisi öz nəzrlərinə əməl etdilər *(şəhid oldular)*, bəzisi isə *(şəhid olmağı)* gözləməkdədirlər. Onlar *(öz əhdlərində)* heç bir dəyişiklik etmədilər.

Müslim ibn Ovsəcə gözlərini açdı, üzünü Həbib ibn Məzahirə tutub əli ilə İmam Hüseynə(ə) işarə edərək belə xitab etdi: Imamımızdan muğayat olmağı sənə vəsiyyət edirəm. Nə qədər ki, sağsan gərək qoymayasan Imama bir

şey olsun. Gərək sən şəhid olana qədər Imamı qoruyasan. Bu sözləri deyəndən sonra şəhadətə qovuşdu.

7. Həbib ibn Məzahir. O da Peyğəmbərin(s) səhabələrindən biri idi. Kərbəlada çox şücaət və qəhrəmanlıq göstərdi. Yaşlı insan olduğuna baxmayaraq, döyüş meydanında qaşlarını dəsmalla bağlamışdı ki, düşmən qoşunu onun qoca olduğunu bilməsin. Son anlarında İmam Hüseyn(ə) onun başı üzərinə gəldi və ona belə buyurdu: "Həbib, qiyamət günü Allah məhkəməsində mənə yardım göstərənlərin hamısını hesab edəcəyəm".

8. Hürr ibn Yəzid Riyahi. O, şəhid olarkən son anlarında İmam Hüseyn(ə) onun başı üzərinə gəlib mübarək əli ilə onun üzündən toz- torpağı, qanı silə-silə bu kəlmələri buyurdu: "Sən (Hürrsən) azad insansan, necə ki, anan səni Hürr deyə çağırardı. Sən həm bu dünyada azadsan, həm də axirətdə azadsan".

9. Züheyr ibn Qeyn. O, başqa bir qəbilədən idi. Kərbəlada şəhid olarkən son anlarında İmam Hüseyn(ə) onun başı üzərinə gəldi və bu kəlmələri buyurdu: "Allah səni rəhmətindən uzaq eləməsin, ey Züheyr. Allah sənin qatilinə lənət eləsin".

10. Con. Qaradərili zənci idi. O, Abuzər Qəffarinin nökəri idi. Abuzər onu Peyğəmbər(s) ailəsinə bağışlamışdı. İmam Həsənin(ə) xidmətçisi olmuşdu. İmam Həsən(ə) şəhid olandan sonra, İmam Hüseynin qulluğunda idi. Ona dəfələrlə demişdilər ki, sən azadsan, gedə bilərsən. O, deyirdi ki, mən Allahla əhd eləmişəm ki, ölənə qədər Peyğəmbərin(s) Əhli-beytinin(ə) qulluğunda dayanacağam. Kərbəlada İmam Hüseynin(ə) məhzərinə gəlib döyüşə getmək üçün izn istədi. İmam Hüseyn(ə) buyurdu: "Ey Con, mən beyətimi səndən götürürəm və səni azad edirəm. Get ailənin yanına və bu döyüşdə iştirak

etmə. Con İmamın(ə) ayaqlarına düşüb, Həzrətin(ə) ayaqlarını öpdü və dedi: Ağa, bilirsən ki, mənim rəngim qaradır. Əsil-nəsəbim bəlli deyil. Bədənimdən də pis qoxu gəlir. Allah məni belə yaradıb və bu, mənim özümdən asılı deyil. Ağa, sən mənim boynuma bir minnət qoy və icazə ver mən də gedim döyüşüm. Qoy mənim bu qara qanım Kərbəlada sizin qanınıza qarışsın. Bəlkə Allah mənim bədənimi ağardar, bədənimdən gələn bu iyi götürər və mənim əsil-nəsəbim buna xatir şərafət tapar. İmam(ə) gördu ki, Con getmək istəmir. Ona icazə verdi. Con döyüş meydanına daxil oldu və bacardığı qədər mübarizə etdi. Nəhayət, onu da şəhid etdilər. İmam Hüseyn(ə) onun başı üzərinə gəlib əyləşdi və belə bir dua etdi:

اَللّهُمَّ بَيِّض وَجْهَهُ وَ طَيِّبْ رِيحَهُ وَحْشُرْهُ مَعَ الْأَبْرار وَ عَرِّفْ بَيْنَهُ وَبَيْنَ مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ

- İlahi, bunun üzünü ağ və bədəninin iyini xoşətirli et. Bunu ən tanınmış və yaxşı insanlarla məşhur et və Məhəmməd(s) və onun Əhli-beyti ilə tanış edib onlardan ayrı salma. İmam Hüseynin(ə) duası elə oradaca qəbula yetdi.

İmam Baqir(ə) buyurur: “Kərbəla hadisəsindən neçə gün sonra şəhidləri toz-torpağın, nizə və oxların altından tapıb çıxartdılar. Conun cənazəsini tapanda gördülər ki, hələ də onun bədənindən ətir iyi göyə ucalır”.

Adlarını sadaladığımız bu 10 nəfər müxtəlif qəbilələrdən olan insanlar idi. İmam Hüseyn(ə) onlara heç bir fərq qoymadı və bir ailə kimi, oğlu Əli Əkbərin və qardaşı Əbülfəzlin başı üzərinə getdiyi kimi, Conun və başqalarının da başı üzərinə gedib, onlarla söhbət edərək dua edirdi.

İmam Hüseyn(ə) şəhidlərin başı üzərinə çox vaxt atla gedirdi. Çünki vaxt çox az idi. Kərbəla hadisəsi cəmi bir neçə saat çəkmişdi. Günortadan sonra bütün işlər tamamlanmışdı. İmam Hüseyn(ə) atdan yerə yıxılandan sonra bir neçə saat heç kəs ona yaxın gedib başını bədənindən ayırmağa cəsarət edə bilmirdi. Buna görə də axşama yaxına qədər çəkdi.

Vaxt az olduğu üçün Həzrət(ə) şəhidlərin başı üzərinə atla gedirdi. Lakin yeddi nəfərin başı üzərinə piyada getdi. Həmin şəhidlər bunlardır:

1. Müslim ibn Ovsəcə. Imam onun başı üzərinə Həbib ibn Məzahirlə getdi.
2. Hürr ibn Yəzid Riyahi.
3. Con (Abuzərin qulamı).
4. Qardaşı Həzrət Əbülfəzl.
5. Oğlu Əli Əkbər.
6. Qasim qardaşı oğlu.
7. Əsləm (azərbaycanlı).

İmam Hüseyn(ə) üçün fərqi yox idi, istər öz oğlu Əli Əkbər olsun, istərsə də Əsləm, onların başı üzərinə gedib vidalaşırdı.

Əsləm barədə belə yazırlar:

وَخَرَجَ غُلامٌ تُرْكِيٌّ كانَ لِلحُسَين(ع) اِسْمُهُ اَسْلَم وَ كانَ قارِئًا لِلْقُران فَجَعَل يُقاتل حَتّى قَتَل جَماعَةً ثُمَّ سَقَت صَرِيعًا فَجاءَ اِليهِ الْحُسين(ع) فَبَكى. فَفَتَحَ عَيْنَيْهِ فَرَأَى الْحُسين فَتَبَسَّمَ ثُمَّ صارَ اِلى رَبِّه

- Bir nəfər Əsləm adlı türk İmam Hüseynin(ə) məhzərinə gəldi. Quran oxuyanlardan idi. İmamın(ə) icazəsi ilə döyüş meydanına daxil oldu, bir dəstəni öldürdü və onu atdan yerə saldılar. İmam Hüseyn(ə) onun

başı üzərinə gəldi və ağladı. Əsləm gözlərini açdı, İmam Hüseyni(ə) görüb təbəssüm etdi və Allahına qovuşdu.

İmam Hüseyn(ə) 3 nəfər şəhidin başı üzərində ağlamışdı. Onlardan biri oğlu Əli Əkbər(ə), biri qardaşı Əbülfəzl(ə), biri də Əsləm idi.

Mərhum Molla Məhəmməd Füzuli "Hədiqətüs-süəda" kitabında Əsləmin adını Müslüm kimi yazıb. Bütün tarixlərin hamısı Əsləm yazdığı üçün çox ehtimal ki, həmin kitab çap olunarkən səhvə yol verilmişdir. Füzuli Əsləm barədə belə yazır: "Əsləm Kərbəlaya öz oğlu ilə gəldi, həm özü, həm də oğlu şəhid oldu. Şəhid olarkən İmam Hüseyn(ə) onun da başı üzərinə Həbib ibn Məzahirlə gəldi və ona belə xitab etdi: Mənim salamımı behişt əhlinə yetirərsən. Əsləm orada gözlərini açdı və təbəssüm etdi". Füzuli onun təbəssümünü belə qələmə alır:

*Ey xoş ol saət ki, can sərfe rəhe canan ola,*
*Göstərib aşiq vəfa məşuquna qurban ola.*

Füzuli yazır: "Sonra Əsləm üzünü Həbib ibn Məzahirə tutdu. Həbib ona baxıb dedi: Bilirəm ki, səndən sonra mən də şəhid olacağam. Əgər səndən sonra şəhid olmasaydım, deyərdim ki, mənə vəsiyyət elə. Əsləm ona dedi: Mən sənə vəsiyyət edirəm ki, Imam Zamandan(ə) muğayat ol. Bil ki, ona xidmət etməyin həm sənin dünyanın xeyrinədi, həm də axirətinin xeyrinə. Bu sözləri deyəndən sonra o, şəhid oldu. Oğlu da onunla birgə döyüş meydanında şəhadətə qovuşdu".

Bu bəhsin nəticəsində açıq-aydın məlum olur ki, İslam dini iman gətirənləri bir ailə hesab edir. Həmçinin İmam Hüseyn(ə) İslamın bu qayda-qanununu əməli surətdə Kərbəlada bizə nümayiş etdirmişdir. Əsləm dünyanın bir tərəfindən, Con dünyanın o biri tərəfindən olmasına

baxmayaraq, həmçinin birinin dərisinin ağ və ya qara, dillərinin müxtəlifliyindən və qohumluğundan asılı olmayaraq, Həzrət İmam Hüseyn(ə) onlara bərabər gözlə baxdı. Qardaşı Əbülfəzlin, oğlu Əli Əkbərin başı üzərinə getdiyi kimi, Əsləmin və Conun başı üzərinə gedib onlarla söhbət etdi, ağladı və onlara dua etdi. İmam Hüseyn(ə) bu əməli ilə bütün dünyaya sübut etdi ki, Allaha iman gətirənlər, saleh əməli olanlar İslamda bir ailə hesab olunur.

Allah-təala bizi bu dünyada İmam Hüseynin(ə) ziyarətindən və axirətdə şəfaətindən ayrı salmasın! Amin

# ALTINCI DƏRS

## NƏFSLƏ MÜBARIZƏ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

أعوذ باالله من الشيطان الرجيم بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. فَإِذَا جَاءتِ الطَّامَّةُ الْكُبْرَى. يَوْمَ يَتَذَكَّرُ الْإِنسَانُ مَا سَعَى. بُرِّزَتِ الْجَحِيمُ لِمَن يَرَى. فَأَمَّا مَن طَغَى. وَآثَرَ الْحَيَاةَ الدُّنْيَا. فَإِنَّ الْجَحِيمَ هِيَ الْمَأْوَى. وَأَمَّا مَنْ خَافَ مَقَامَ رَبِّهِ وَنَهَى النَّفْسَ عَنِ الْهَوَى. فَإِنَّ الْجَنَّةَ هِيَ الْمَأْوَى

- Kərbəla hadisəsi və İmam Hüseynin(ə) qurduğu bu məktəb bütün insanlara nümunə və xüsusi dərslər öyrədir. Kərbəla hadisəsi sadəcə olacaq bir hadisə yox, böyük bir məktəbdir. Bu məktəbdə Həzrət İmam Hüseynin(ə) bizə öyrətdiyi dərslərdən biri nəfslə mübarizədir.

Yuxarıda qeyd etdiyimiz ayələrdə Allah-təala böyük bir məsələni bizə belə bəyan edir:

O çox böyük hadisə *(hamının gözlədiyi qiyamət)* yetişdikdə,

O gün insan səy ilə etdiyi işləri *(dünyada gördüyü bütün işlərin hamısını)* yadına salacaqdır.

Cəhənnəm hər bir görənə *(kor surətdə həşr olunmayana)* aşkar olacaqdır.

Amma kim *(dünyada)* tüğyan etmişsə və dünya həyatını *(axirətdən)* üstün tutmuşsa, şübhəsiz, onun yeri cəhənnəmdir!

Amma kim öz Rəbbinin məqamından, Onun hüzurunda durmaqdan qorxub və nəfsini həvayi − həvəsdən saxlamışsa, şübhəsiz, onun yeri cənnətdir.[1]

Axırıncı ayədə «Rəbbinin məqamı» kəlməsini İmam Sadiq(ə) belə bəyan edir:

قالَ الصّادِقُ(ع): مَن عَلِمَ اَنَّ اللهَ يَراهُ, وَ يَسْمَعُ مَا يَقُول, وَ يَعْلَم مَا يَعْلَمُهَ مِنْ خَيْرٍ اَو شَرٍّ فَيَحْجُزُهُ ذالِكَ عَنِ القَبِيحِ مِن الأَعْمال فَذلِكَ الّذى خَافَ مَقَامَ رَبِّهِ وَنَهَى النَّفْسَ عَنِ الْهَوَى

- Hər kim Allahın onu gördüyünü bilərsə, hər kim Allahın onun nə danışdığını, eşitdiyini bilərsə və hər kim ürəyindən və fikrindən xeyir və şər işlərin keçdiyindən Allahın xəbərdar olduğunu bilərsə, bu həmin şəxsi pis əməllərdən (günahlardan) çəkindirər. Bu həmin kəsdir ki, Rəbbinin məqamından qorxub həvayi-nəfsini saxlamışdır.

Burada məlum olur ki, hər kim başa düşüb bilsə ki, Allah onu görür, bütün danışıqlarını eşidir və hətta ürəyindən keçənlərin hamısını bilir, bu insanı günahlardan çəkindirib saxlayar. Adi bir misal çəkməklə bu məsələni daha aydınlaşdırmaq olar. Məsələn, kiçik bir uşaq hansısa qəbahətli bir iş görərkən böyüklərin onu gördüyünü hiss etdikdə, həmin işdən çəkinir və o işi görmür. Hədislərdə buyurulur ki, bir kəs xəlvətdə günah edərsə, ya Allahı kor hesab edir, ya da Onun gördüyünə etinasızlıq edir. Bunların hər ikisi pisdir.

---

[1] Naziat, 35-41

Buna əsasən hər kim Allahın onun hər bir işindən xəbərdar olduğunu və ürəyindən keçənləri bildiyini başa düşərsə, o zaman nəfsini həvayi- həvəsdən saxlamış olar.

Başqa bir ayədə Allah-təala belə buyurur:

أَفَرَأَيْتَ مَنِ اتَّخَذَ إِلَهَهُ هَوَاهُ وَأَضَلَّهُ اللَّهُ عَلَى عِلْمٍ وَخَتَمَ عَلَى سَمْعِهِ وَقَلْبِهِ وَجَعَلَ عَلَى بَصَرِهِ غِشَاوَةً فَمَن يَهْدِيهِ مِن بَعْدِ اللَّهِ أَفَلَا تَذَكَّرُونَ

Nəfsini özünə tanrı edən və Allahın (onu hələ yaratmamış gələcəkdə kafir olacağını bildiyi üçün) yoldan çıxartdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü? Allahdan başqa kim onu doğru yola sala bilər. Məgər düşünüb ibrət almırsınızmı?[1]

Bu ayə barədə bəziləri elə fikirləşməsinlər ki, Allah-təala insanları zəlalətə və bədbəxtliyə çəkib onları yoldan çıxarır. Allah-təala özlərini zəlalətə atıb öz nəfslərinin qulu olduğunu və özləri üçün heç bir hidayət çırağı qoymadığı insanları gördükdə onları daha azğınlığa çəkir.

Sual oluna bilər ki, Allah-təala belə insanları hansı yollarla azğınlığa çəkir?

Cavab belədir ki, əgər bir insan həvayi-nəfsini özünə məbud edərsə və özü üçün heç bir hidayət yolu qoymazsa, o zaman Allah-təala həmin şəxsdən seçim qüvvəsini alar. Insan bu qüvvə vasitəsilə yaxşını pisdən, halalı haramdan, haqqı batildən, pakı napakdan seçə bilir. Əgər bir insandan seçim qüvvəsi alınarsa, onda o, öz vəzifəsinin nədən ibarət olduğunu anlamaz və belə olduqda artıq nəfsi onu hansı səmtə yönəltsə, o tərəfə də gedəcək. Çünki belə insanda artıq seçim qüvvəsi yoxdur. Bu, Allahın göndərdiyi ən

[1] Casiyə, 23

böyük bəlalardan biridir ki, həvayi- nəfslərini özünə məbud edən insanlara nazil edir. Allah-təala belə insanların azğınlığını bu yolla artırır.

Buna əsasən də əgər bir insandan seçim qüvvəsi alınarsa, artıq belə şəxs öz vəsifəsinin nədən ibarət olduğunu və Allahın ondan nə istədiyini başa düşməyəcək.

Həvayi-nəfsini özlərinə məbud edən şəxslər özlərini heyvan səviyyəsinə, bəlkə də ondan da alçaq bir səviyyəyə gətirib çıxarırlar ki, Allah-təala Quranda onlar barədə belə buyurur:

أَرَأَيْتَ مَنِ اتَّخَذَ إِلَهَهُ هَوَاهُ أَفَأَنتَ تَكُونُ عَلَيْهِ وَكِيلًا. أَمْ تَحْسَبُ أَنَّ أَكْثَرَهُمْ يَسْمَعُونَ أَوْ يَعْقِلُونَ إِنْ هُمْ إِلَّا كَالْأَنْعَامِ بَلْ هُمْ أَضَلُّ سَبِيلًا

Nəfsini öz tanrısı etmiş kəsi gördünmü? Yoxsa sən onun *(doğru yola gəlməsi və ya axirət əzabından qorunması)* işlərini düzəldəcəksən?! “Yoxsa elə güman edirsən ki, onların əksəriyyəti (sən deyən sözü) eşidəcək və ya (ağıllı-başlı) fikirləşəcək? Onlar heyvan kimidirlər, bəlkə ondan daha çox zəlalət yolundadırlar. (Heyvan heyvanlığı ilə öz mənfəətini bilib ona zərər gətirən bir işi görməz. Bunlar isə nə xeyirlərini, nə də zərərlərini anlayar).[1]

Bu ayələrdən açıq-aydın məlum olur ki, insan nəfsani istəklərinə itaət edərsə, özünü heç bir həqiqətə bağlamayıb ürəyi hər nə istəyir onu edərsə və ağlına gələni edərsə, nəfsi onu çəkib yavaş-yavaş bədbəxtlik dərəcəsinə yuvarladar. Ondan sonra artıq onun üçün çıxış yolu tapılmaz.

[1] Fürqan, 33-34

## İnsanin ziddiyyətli cəhətləri

İslam baxımından insanın iki xüsusiyyəti və cəhəti vardır. Insanın birinci xüsusiyyəti "insani" xüsusiyyət adlanır. İslam fəlsəfəsində  və Quranda insanın bu xüsusiyyətinə mələksima cəhət deyilir. Insanın bu xüsusiyyəti ağıl və imandır. Insanda olan bu sifət onu mənəviyyata  dəvət edir.

İnsanın ikinci xüsusiyyəti isə "heyvani" xüsusiyyət adlanır. İslam fəlsəfəsində insanın "heyvani" xüsusiyyətinə "nasuti" cəhət də deyilir. Insanda olan bu heyvani xüsusiyyət şəhvət və nəfsani qüvvələrdən ibarət olub, insanı heyvaniyyət aləminə tərəf yönəldir.

İslam Peyğəmbəri(s) buyurur: "Mən merac gecəsi yarı hissəsi yaşıl yarpaqlardan, yarı hissəsi isə od-alovdan ibarət olan bir mələk gördüm ki, nə yarpaqlar Alova, nə də alov yarpaqlara sirayət etmirdi."

Hikmət sahibləri və böyük alimlər buyururlar ki, Peyğəmbərin(s) bu ifadəsi insanın daxilində olan həmin ziddiyyətli cəhətlərə aiddir.

Əflatun deyir: "Insan iki ziddiyyətli şeydən yaranıb formalaşmışdır. Insan mürəkkəb bir vücuddur və o, iki ziddiyyətli cəhətdən ibarətdir."

Buna görə də insanın daxilində bir-birinə zidd olan iki qüvvə həmişə mübarizə aparır. Və insan üçün müəyyən olan təkamül də məhz bu ziddiyyətin daxilindədir. Yəni əgər insan bu mübarizədə qalib gələrsə, deməli, kamillik mərhələsinə qədəm qoymuş olur. Peyğəmbər(s) və imamlardan insanın daxili mübarizəsi barədə bir çox hədis və rəvayətlər nəql olunmuşdur.

Həzrət Peyğəmbər(s) buyurur: "Insan gecələr yatmaq istərkən axırıncı dəqiqələr ona iki əmr gəlir: Biri sağ

qulağına, o biri isə sol qulağına. Bu çağırışların birində "Bu gecəni xeyirlə bitir" -deyilir. O biri çağırış isə gecəni şərlə (günahla) başa vurmağa dəvət edir. Insan həmin gecəni (Allaha zikr etməklə) xeyirlə bitirsə, sübh yuxudan duran kimi yenidən ona həmin çağırış dəvət olunaraq: "Sübhü xeyirlə başla" –deyilər. Əgər insan gecəni xeyirlə bitirib, sübhü də xeyirlə başlayarsa, öləndə də aqibəti xeyirlə qurtaracaq. Lakin insan gecəni günahla bitirib, səhəri də günahla başlayarsa, dünyadan gedəndə də imansız gedəcək."

Qeyd olunan bütün bu hədis və hikmətli sözlərin məqsədi bir nöqtədədir. Yəni insanın daxilində iki amil vardır ki, biri insanı xeyirə, yaxşı işlərə tərəf, digəri isə şər işlərə tərəf çəkir. Və bu hal insan daxilində və insan həyatında daim mübarizə yaradır. Məsələn, sübh azanı verilərkən insana bir tərəfdən ağıl, iman durub namaz qılmağa dəvət edir. Digər tərəfdən də nəfs insanı yatmağa dəvət edir. Bu barədə çox misallar çəkmək olar. Çünki insanın həyatında qarşısına çıxan bir çox şeylərdə ona iki çağırış gəlir. Məsələn, insanın qarşısına haram çıxdıqda nəfs həmin işi görməyə, iman isə həmin işdən çəkinməyə dəvət edir. Və yaxud insana yalandan şahid dayanmaq üçün müəyyən məbləğdə pul təklif olunduqda, nəfs bu işə razı olmağa, iman isə bu işə əl qoymamağa dəvət edir. Beləliklə, əgər insan imanın sözünə qulaq asıb, nəfsin istəyini rədd edərsə, həmin şəxsdə iman güclənər və iman artdıqca daha böyük imtahanlarla üzləşər.

İmam Rza(ə) buyurur: "Bir şəxs məndən soruşdu: Dünya və axirətin xeyri nə zaman bir yerdə cəmlənər? Dedim: Əgər dünya və axirətin xeyrini bir yerdə görmək istəyirsənsə, nəfsinlə müxalif ol."

Mərhum Ayətulla Təbatəbayidən soruşdular ki, ağa, insanın cənnətə getməsi üçünariflər müəyyən mənzillər

yazmışlar.[1] Sizin bu haqda fikriniz necədir? Ayətulla Təbatəbayi buyurdu: "Əgər bir insan cənnətə getmək istəyirsə, iki addıma cənnətə getmək mümkündür. Addımının birini nəfsinin üstünə qoymaqla, o biri addımla cənnətə daxil ola bilər.

Əgər insan nəfsini ayaqlamağı bacararsa, deməli həmin insanın imanı güclüdür."

## Kərbəla nəfslə mübarizə dərsini öyrədir

Yuxarıda qeyd etdiyimiz hədis və rəvayətlərdən məlum olur ki, insan nəfsi ilə müxalif olmalı və daxilində olan bu mübarizədə səy göstərməlidir ki, məğlub olmasın. Həmçinin Quran ayələrindən, hədislərdən və alimlərin sözlərindən nəfslə mübarizə etməyin mühüm məsələ olduğunu bildik. Kərbəla hadisəsinə nəzər saldıqda görürük ki, İmam Hüseynin(ə) qurduğu bu məktəb nəfslə mübarizəni əməli surətdə bizə öyrədir. Kərbəlada şəhid olanların hamısı öz nəfslərini ayaqlarının altına qoymuş və şəhadətə çatmışdılar. İmam Hüseynin(ə) dəstəsində olan həmin bu şərafətli insanların bir neçəsini nümunə üçün əziz möminlərin nəzərinə çatdırıram.

## Əmr ibn Qərəzə Ənsari

Əmr ibn Qərəzə o şəxsdir ki, Kərbəlada İmamın(ə) hüzurunda əli sinəsində dayanıb, Həzrətin(ə) hər bir əmrinə tabe olduğunu və bütün göstərişlərinin hamısına

---

[1] Ariflər bu barədə müxtəlif kitablar, həmçinin hər kitabda müxtəlif mənzillər qeyd etmişlər. Irfan meydanına daxil olduqdan sonra bu mənzilləri adlamaq və keçmək lazım olduğunu bəyan etmişlər. Xacə Abdulla Ənsari bu barədə "Yüz mənzil" adlı bir kitab yazmışdır. Hər kim irfan aləmində bu mənzilləri keçərsə, kamillik zirvəzinə çatmış olar.

can-başla əməl etməyə hazır olduğunu bildirirdi. Onun qardaşı Ömər Sədin qoşununda idi. Düşmən qoşunu tərəfdən Əmr ibn Qərəzəyə bir çox vədlər və xəbərlər gəlməsinə baxmayaraq, o, azacıq da olsa belə bu sözlərə və vədlərə məhəl qoymadı. Hətta qardaşının məhəbbəti belə onu haqq yoldan döndərə bilmədi. O, bütün bunların hamısından keçdi və nəfsinə qalib gəldi.

İmam Hüseyn(ə) axırıncı gecə göstəriş verdi ki, bütün çıraqları söndürsünlər. Çıraqlar sönəndən sonra İmam(ə) onunla gələnlərə buyurdu: “Sabah burada qalanların hamısı şəhid olacaq. Sabah hamını qanına qəltan edəcəklər. Kim getmək istəyirsə, indidən getsin”. İmamın(ə) bu sözlərindən sonra bəziləri çıxıb getdi. Qalanlar isə öz sədaqətlərini İmama(ə) bildirərək, Həzrətdən(ə) ayrılmadılar. Həzrət(ə) imamət möcüzəsi ilə qalanlara şəhid olandan sonrakı məqamlarını göstərərək buyurdu: “Bu gecəni buradasınız, sabah gecə olduğunuz məkanınıza baxın”.

## Məhəmməd ibn Bişr Həzrəmi

Məhəmməd İmamın(ə) ənsarlarından və aşura günü Həzrətin(ə) məhzərində şəhid olanlardan biri idi. Hazırlıq işləri görüldüyü bir halda bir nəfər Məhəmməd ibn Bişrə xəbər gətirdi ki, sənin oğlunu Reydə əsir tutublar. Deyir ki, gəlib mənim üçün bir çarə qılsın.

İmam Hüseyn(ə) Bişrə belə buyurdu: “Mən beyətimi səndən geri götürürəm. Istəyirsənsə get, oğlunun müşkülünü həll et”.

Bişr dedi: Ağa, mən heç vaxt səni burada tək qoyub getmərəm. Mənim özüm də sənə qurban olum, oğlum da.

İmam Hüseynin(ə) ona icazə verməsinə və beyətini ondan götürməsinə baxmayaraq, o, həm öz canından, həm malından, həm də oğlundan keçməyi bacardı.

## Nafe ibn Hilal

Tarix kitablarında onun haqqında belə yazılmışdır ki, Nafe ibn Hilal cavan bir oğlan idi. O, Kərbəlaya öz nişanlısı ilə gəlmişdi. Aşura günü meydana getmək üçün hazırlıq işləri görürdü. Nişanlısının ürəyi həyəcana gəldi, dözməyib onun ətəyindən yapışıb ağladı. Həzrət(ə) bu məsələdən agah oldu və Nafeni çağırıb buyurdu: "Nafe, gəl və nişanlının ürəyinin şad olmasını meydana getməkdən üstün tut." Nafe dedi: Ey Peyğəmbər balası(ə), əgər mən öz nişanlımın şadlığını üstün tutub, səni burada tək qoysam, bəs qiyamət günündə Peyğəmbərə(s) nə cavab verərəm? Əgər mən sənə bu gün kömək etməsəm, Xanım Zəhranın(s.ə) üzünə necə baxaram?

Sonra Nafe Imamdan(ə) icazə alıb meydana daxil oldu. Bir neçə nəfərlə birgə ata minib çadırlara su gətirmək üçün Fərat çayına girdilər. Fəratın sahilinə keşikçilər qoyulmuşdu ki, heç kəs su apara bilməsin. Keşikçilərdən biri Nafe ibn Hilala dedi: Mən sənə su içməyə icazə verirəm. Amma aparmağa icazə verməyəcəyəm. Nafe dedi, əgər apara bilsəm aparacağam. Əgər apara bilməsəm, heç vaxt Imamın özü və balaları orada susuz qaldıqları halda bu sudan içmərəm. Beləliklə, o, öz nəfsi ilə mübarizə aparıb həm nəfsinə qalib gəldi, həm də İmamın(ə) məhzərində şəhadətə yetişdi.

## Abdulla ibn Müslüm

Abdulla Müslümün oğlu idi. Həzrət Müslüm özü Kufədə şəhid olmuşdu. Onun oğlu Kərbəlada İmamın(ə) dəstəsində idi. Həzrət İmam Hüseyn(ə) ona buyurdu: “Atan Müslümün şəhadəti sizin ailəniz üçün bəs edər. Yaxşısı budur sən döyüşə getməyəsən.” Abdulla dedi: Ağa, atam şəhid olubsa, özü üçün şəhid olub. Mən heç vaxt dünyanı axirətimə üstün tutmaram. Heç vaxt səni atıb getmərəm.

## Vəhəb ibn Abdulla

Vəhəb həmin şəxsdir ki, Kərbəlaya İmama(ə) kömək etməyə həm anası, həm də həyat yoldaşı ilə gəlmişdi. Özü də təzəcə ailə qurmuşdu. Aşura günü elə ki, İmamın(ə) səhabələri bir-bir şəhid olurdu, anası ona tez-tez deyirdi ki, dur, sən də get meydana. Vəhəb İmamın(ə) əmrini gözləyirdi. Nə vaxt Həzrətin(ə) ona icazə verəcəyini gözləyirdi. Anası ona dedi: Oğlum, dur get, Zəhranın balasına komək et. Vəhəb qalxıb döyüşə hazır vəziyyətdə Ağanın hüzuruna gəldi və meydana girmək üçün izn istədi. İmam(ə) ona icazə verdikdən sonra meydana daxil oldu. Xeyli döyüşəndən sonra anasını görmək üçün qayıtdı. Bilmək istəyirdi ki, anası ondan razı qalıbmı. Anasının yanına gəlib dedi: Anacan, məndən razı qaldınmı? Anası dedi: Oğlum, nə qədər ki, Hüseynin(ə) məhzərində sənin qanının töküldüyünü görməmişəm, razı qalmayacağam. Vəhəb axırıncı dəfə anası və həyat yoldaşı ilə vidalaşarkən yoldaşını ağlamaq tutdu. Anası özünü irəli atıb dedi: Oğlum, məbada yoldaşının ağlamağı sənə təsir etmiş olsun. Tez get İmamın(ə) məhzərinə. Vəhəb döyüş meydanına daxil oldu və döyüşməyə başladı. Onun

əllərinin ikisini də kəsdilər. Anası çadırdan çıxıb bu halı gördükdə, çadırın dirəklərindən birini çıxarıb meydana girdi və oğlunun qatilinə sarı hücum etdi. İmam Hüseyn(ə) özünü ona yetirdi və ona dua edib geri qaytardı. Vəhəbin həyat yoldaşı dözməyib çadırdan çıxdı və özünü onun cənazəsinə yetirdi. Üzünü Vəhəbin üzünə qoydu və dua etdi. Elə bu zaman Şimr öz qulamına o qadını öldürmək barədə göstəriş verdi. Nizə ilə həmin qadını şəhadətə yetirdilər. Kərbəlada bir qadın şəhid olmuşdur ki, o da Vəhəbin həyat yoldaşı idi. Kərbəlada qadınlardan bir nəfər şəhid olmuş, iki qadın isə meydanda düşmənə hücum etmişdi. Həmin qadınlardan biri Vəhəbin anası, digəri isə Əmr ibn Cünadənin anası olmuşdur. Əmrin anası orada böyük qəhrəmanlıq göstərdi. O, çadırdan  çıxıb oğluna tamaşa edirdi. Düşmən onun oğlunu şəhid edib başını kəsəndən sonra anasına sarı atdı. Əmrin anası oğlunun başını götürüb meydana sarı hücum etdi və əlindəki başı oğlunun qatilinin başına vurub onu öldürdü. İmam Hüseyn(ə) özünü  yetirib ona da dua edərək geri qaytardı.

Ümumiyyətlə, Kərbəlada İmamın(ə) məhzərində olanların hamısı böyüklü-kiçikli həvayi-nəfslərinə qalib gələn insanlar idi. Onlar hər bir şeylərindən keçməyi bacardılar.

## Həzrət Xanım Zeynəb(s.ə)

Həzrət Zeynəbin(s.ə) iki oğlu var idi. Xanım oğlanlarının ikisini də meydana göndərdi. Orada şəhid olanları çadırların yanına gətirəndən sonra həmin şəhidin anası, bacısı və ya həyat yoldaşı orada olmuş olsaydı, çıxıb şəhid üçün ağlayıb, göz yaşı axıdırdılar. Elə ki İmam Hüseyn(ə) Həzrət Zeynəbin(s.ə) oğlanlarının cənazəsini

çadırların yanına gətirdilər, xanım çölə çıxmadı. Bir neçə qadın Həzrət Zeynəbin(s.ə) çadırına daxil olub dedilər: “Xanım, çadıra qurbanlarını gətiriblər. Necə ki, bizim şəhidləri gətirəndə sən çıxıb oxşayıb ağlayırdın, indi də çıx və biz sənin oğlanlarını oxşayıb, ağlayaq.”

*Buyurdu xaneyi səbri bilin, yıxan deyiləm,*
*Min oğlum ölsə də, mən xeymədən çıxan deyiləm.*

Orada olan xanımlardan biri belə deyir: Gördüm xanım Zeynəb(s.ə) xeymədə tək əyləşib, Allahla razi-niyaz edərək belə deyir:

*İlahi, nisbəti lütfünə naçiz idi, neynim olanım,*
*Sən riza ol, vəli mən çöldə oğulsuz dolanım.*

## Həzrət Əbülfəzl(ə)

Həzrət Əbülfəzl Fərat çayına daxil oldu. Suyu ovcuna doldurub dodaqlarına sarı yaxınlaşdırıb dedi: “Hüseynin(ə) özü və balaları susuz qalldıqları halda mən bu sudan heç vaxt içmərəm. Əllərini açıb suyu boşaltdı.”

Həmçinin Həzrətə düşmən tərəfindən amannamə gəlmişdi. Həzrət Əbülfəzl həmin amannamənin cavabında belə buyurdu:

*Ey piri müzəvvir itiribsən özüvü,*
*Mərifət yoxdu, tutub pərdeyi qəflət gözüvü,*
*Deyiləm müştəri bu sözlərə, qurtar sözüvü.*
*Uməvilər ola bilməz hədəfi aliyədə,*
*Sənə də lənət, amannamə yazan valiyə də.*

Adlarını sadaladığımız Kərbəla qəhrəmanları öz həvayi-nəfslərini sındırıb həqiqəti müdafiə etdilər. Bunlar elə kəslər idilər ki, bütün nəfsani istəklərini ayaqlarının altına atıb, kiçik məhəbbətlərin hamısını Allaha qurban verdilər.

## Həzrət İmam Hüseyn(ə)

Kərbəla məktəbinin banisi və rəhbəri şəxsən İmam Hüseynin(ə) özü idi. Həzrət(ə) Allah yolunda hər nəyi vardısa, hamısını qurban verdi. Heç bir şey onu Allah sevgisindən ayıra bilmədi. Övladlarını, qardaşını, hətta altıaylıq körpəsini belə Allahın razılığına qurban verməyi əsirgəmədi. İmam Hüseyn(ə) üçün bunlar çox asan idi. Çünki bunların hamısı Allahın razılığı üçün idi:

*Güldən də gözəl güllərimin rəngi saralsın,*
*Yatsınlar tikanlıqda gülüstan əvəzində.*
*Əkbər başı münşəqq olur- olsun, nə sözüm var,*
*Dilsiz balam əmsin oxu püstan əvəzində.*
*Kaş yüz on dörd ola oğlum mənim Allah,*
*Qurban verim hər sureyi Quran əvəzində.*

Buna görə də Allah İmam Hüseynə(ə) hər nə versə, yenə də azdır. Çünki o Həzrət(ə) Allah yolunda hər şeyindən keçmişdi.

Bu bəhsimizin sonunda bir haşiyəni qeyd etmək və bir neçə suala cavab verməyi lazım bilirəm. Kərbəla şəhidlərinin fəzilət və şərafətləri haqda çox danışmaq olar. Onlar Allah yolunda hər şeylərini qurban verdilər. Onlar qəhrəmanlıq göstərib Allah yolunda şəhid oldular. Aydın məsələdir ki, hər il onların ildönümü qeyd olunmalıdır. Lakin bəzi insanlar bu şəhidlərin ildönümünü ağlamaqla deyil, şadlıq keçirməklə qeyd etməyi vurğulayırlar. Bu fikir çox düşüncəsiz fikirdən başqa bir şey deyildir. Təsəvvür edin ki, aşura günü İmam Hüseyni(ə) şəhid ediblər. Onun boğazını qan tutdu və sözünü dünyaya çatdırmağa imkan vermədilər. Uşaqlarını öldürdülər, altıaylıq körpəsini oxladılar, qardaşını doğradılar, hətta körpə qızlarının qulağından sırğaları dartıb qopararaq

zülmlə çıxartdılar. Belə bir zülmü görüb şadlanmalıyıqmı? Belə bir haqsızlığı şənliklə qeyd etməliyikmi? İmam Hüseynin(ə) hədəfi olduğu üçün bu yola qədəm qoymuşdu. Onu hədəfinə çatmağa imkan vermədilər. Həzrəti(ə) öldürdüklərinə və hədəfinə çatmadığına görə şadlıq mərasimi qurmalıyıqmı? Belə bir şeyin olması, mümkünlüyü ağlasığmazdır.

Başqa bir tərəfdən bu hadisəyə nəzər saldıqda görürük ki, İmam Hüseyni(ə), övladlarını, qardaşını və səhabələrini qanına qəltan edəndən sonra başlarını nizələrə taxıb şəhərbəşəhər gəzdirərək Şama apardılar. Həzrətin(ə) bacısı Xanım Zeynəb(s.ə) elə həmin gecədən əza saxladı. Həzrət Zeynəb Yezidin sarayında İmam Hüseynin(ə) əza məclisini qurdu. Yezid Xanım Zeynəbi(s.ə) gördükdə dedi: Mən istəmirdim belə olsun. Allah İbn Ziyada lənət eləsin ki, bütün bu işləri o gördü. Xanım Zeynəb(s.ə) orada pərdənin arxasından dedi: Qardaşım Hüseynin başını qızıl teştin içində sənin qarşına gətirdilər. Əlindəki çubuğu onun başına vururdun. Bu işi də İbn Ziyad edirdi? Yezid dedi: Mən sizi azad edirəm. Istədiyiniz yerə gedə bilərsiniz. Xanım Zeynəb(s.ə) buyurdu: Amma mən səni azad etməyəcəyəm. Mənim səndən tələbim var. Birincisi budur ki, bu Şam şəhərində öz evini mənim ixtiyarımda qoyacaqsan və mən də buranı qara bəzəyib Hüseynə əza saxlayacağam. Ikinci tələbim budur ki, Hüseynin(ə) əynindən anam Zəhranın toxuduğu köynəyi kim çıxarıb qarət edibsə, onu tapıb mənə qaytaracaqsan. Üçüncü tələbim isə budur ki, mən qurduğum bu məclisdə iştirak etmək istəyənlərə mane olmayacaqsan. Yezidin bu şərtlərlə razılaşmaqdan başqa çarəsi qalmadı.

Xanım Zeynəb(s.ə) sarayı qara bəzədi və Hüseynə(ə) əza məclisi qurdu. Özü qapının ağzında dayandı. Camaat

əlləri sinələrində «Allah zalımlara lənət etsin» deyə-deyə Yezidin sarayına İmam Hüseyn(ə) məclisinə axışırdı. Söz bundadır ki, şəhidin öz bacısı orada matəm saxladığı bir halda biz necə bu işi şadyanalıqla qeyd etməliyik?

Bəlkə kiminsə fikrinə gələ bilər ki, həmin ili yas məclisi quraq, sonrakı illəri isə şadyanalıq edə bilərik? Cavab belədir ki, əgər bu məsələ şadlıqdırsa, elə əvvəl ildən şadlıq keçirilməli, matəmdirsə elə əvvəldən matəm olmalıdır.

Düşmən İmam Hüseyni(ə) şəhid etdikdən sonra şadlıq edib, aşura gününü bayram kimi elan etdilər. Həmçinin aşura gününü Allaha şükür etməyi və o günü oruc tutmağı qərara aldılar. Əgər biz də həmin günü şadlıq edib bu məqsədlə oruc tutsaq, düşmənlə bizim aramızda heç bir fərq olmayacaq. Əgər bu məsələ düşmən dediyi kimi qeyd olunarsa, bəs o zaman şəhidin hədəfi aradan gedər. Çünki İmam Hüseyn(ə) özü buyurmuşdu: Mənim kimi insan Yezid kimi insana beyət etməz. Əgər belədirsə, hansı Hüseynsevər insan bu mərasimi Yezidin keçirdiyi mərasim kimi qeyd edə bilər.

Bu məsələyə aid bir məqamı da qeyd etmək lazımdır ki, şəhadət dinin hökm və əməllərindən biridir. Şəhadət məsələsi sırf dinlə bağlı olan məsələdir. Buna görə də dinin öz rəhbəri bu barədə hər nə qərar verirsə, deməli, elə də olmalıdır. Ola bilməz ki, hər yerindən duran gəlib dinin hökmlərinə müdaxilə etsin və öz istədiyi kimi əncam versin. Məsələn, əgər sübh namazı iki rükətdirsə, heç kəsin ixtiyarı yoxdur onu azaldıb- çoxaltsın. Məsələn, bir şəxs gündəlik namazların 19 rükət qılınmasını, digəri isə 15 rükət qılınmasını müzakirə edir. Yəni hərə öz bildiyi kimi namaz barədə fikir irəli sürür. Belə olduqda daha namazdan əsər-əlamət qalmaz. Əgər dinin hökmləri

barədə hərə öz bildiyini edərsə, din salamat qalmaz. Dində bir hökm olar, hamı da yekdilliklə ona əməl edər. Burada din rəhbərlərinin İmam Hüseynin(ə) şəhadəti barədə olan sözlərini əziz möminlərin nəzərinə çatdırıram.

İmam Sadiq(ə) Zürarəyə belə buyurdu:

يا زُرارَة إِنَّ السَّماءَ بَكَتْ عَلى الحُسين اَرْبَعِينَ صَباحاً

-Ey Zürarə, Həqiqətən göylər Hüseynə qırx gün ağlayar.

Əgər göylər İmam Hüseynə(ə) ağlayırsa, nəyə görə biz şadlıq etməliyik?

İmam Rza(ə) buyurur:

مَنْ كانَ يَومُ عاشُورا يَوْمُ مُصِيبَتِه وَ حُزْنِهِ وَ بُكائِه جَعَلَ الله عَزَّ وَ جَلَّ يَوم القِيامَةِ يَوم فَرَحِهِ وَ سُرُورِهِ

-Hər kəs aşura gününü özünə qəm, müsibət, hüzn və ağlamaq günü qərar verərsə, Allah-təala qiyamət gününü onun üçün sevinc və fərəh günü qərar verər.

Digər bir hədisdə İmam Sadiq(ə) belə buyurur:

فَعَلَى مِثْلِ الْحُسَين فَلْيَبْكِ الباكُون فَإِن البُكاءَ عَلَيهِ يَحُطُّ الذُّنُوب العِظام

-Bütün ağlayanlar həqiqətdə Hüseynə(ə) ağlamalıdırlar. Həqiqətən Hüseynə ağlamaq böyük günahları belə təmizləyər.

İmam Hüseyn(ə) özü bu haqda belə buyurmuşdur:

قال الحسين(ع): اَنا قَتِيلُ العَبَرَ لا يذكرنى مُؤْمِنٌ اِلّا بَكى

-İmam Hüseynin(ə) özü bu barədə belə buyurur: "Mən gözlərdən axan yaşlar üçün öldürülürəm. Hər mömin məni ağlamaqla yad etməlidir."

Beləliklə, bizə aydın olur ki, İmam Hüseynin(ə) matəmi ağlayıb əza saxlamaqla keçirilməlidir. Çünki dinin

rəhbərləri və şəxsən şəhadət sahibinin özü bu məsələni bizə bəyan etmişdir.

Allah-təala bizi dünya və axirətdə İmam Hüseyndən(ə) ayrı salmasın!

# YEDDİNCİ DƏRS

## ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏR

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ لِلهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

İmam Hüseyn(ə) Kərbəlada və rəhbərlik etdiyi hərəkatında bütün insanlara öyrətdiyi dərslərdən biri əmr be məruf və nəhy əz münkər idi. Həzrət(ə) əmr be məruf və nəhy əz münkər sözünün həqiqi mənasını əməli surətdə öyrədir. Əsas söhbətimizə giriş olaraq bir müqəddiməni əziz möminlərin diqqətinə yetirməyi lazım bilirəm.

Xilqətdə, yaranışda, bu aləmdə canlılar iki qismə bölünür. Bir qism canlılar vardır ki, onlar fərdi şəkildə həyat tərzi sürüb yaşaya bilirlər. Ikinci qism canlılar isə fərdi yaşamaq imkanına malik deyillər. Həmin bu canlılar mütləq ictimai şəkildə yaşamaqla, öz həyatlarını sürüb və yaşayışlarını davam etdirirlər. Burada bir sual qarşıya çıxır. Insan bu iki qism canlının hansındandır? Hamıya məlumdur ki, insan o qism canlılardandır ki, yalnız ictimai şəkildə yaşayıb həyat sürə bilər. Əgər insanı ictimadan, cəmiyyətdən ayırsalar, onun həyatının davamı məhv olub aradan gedər. Nə üçün belədir? Bu barədə alimlərin müxtəlif nəzəriyyə və fikirləri kitablarda yazılıb qeyd olunmuşdur. Onlardan bir neçəsini qısa şəkildə nəzərinizə çatdırıram.

Birinci nəzəriyyə belədir ki, bəzi alimlər deyirlər ki, insanın ictimai şəkildə yaşaması onun fitrətindədir. Bu xasiyyət insanda özündən asılı olmayaraq qeyri-iradi bir xüsusiyyətdir. Bu alimlər «insan» sözünü ünsiyyətlə əlaqələndirirlər. Onlar demişlər ki, əgər insanı ünsiyyətdən ayırsalar, insan həlak olar. Əlavə olaraq buyurmuşlar ki,

اَلإِنْسانُ مَدَنِيٌّ بِالطَّبع

**İnsan fitrətən ictimai (mədəni) məxluqdur**

İkinci nəzəriyyə budur ki, bir sıra alimlərin nəzərinə görə insan mütləq ictimai və cəm şəkildə yaşamalıdır. Çünki insanda «istixdam» fitridir. İstixdam ona deyilir ki, insanın hər mövcuddan istifadə etməsi onun fitrətində və zatındadır. Nümunə üçün bir ağacı misal çəkmək olar. İnsan bir ağacın meyvəsindən, kökündən, qabığından, yarpağından, qol- budağından və s. hissələrindən istifadə edir.

Başqa bir nümunə üçün heyvanı misal çəkmək olar. İnsan bir heyvanın ətindən, südündən, dərisindən, yunundan, hətta bağırsağından və s. istifadə etməklə öz yaşayışını təmin edir. İnsan ağacın hər bir hissəsindən və ya heyvanın bir çox hissəsindən istifadə edir, eləcə də insanın fitrətində var ki, başqa insanlardan da özünəməxsus şəkildə istifadə etsin. Belə bir xüsusiyyət insanın fitri və qeyri-iradi xüsusiyyətidir. Bir insan başqa bir insandan istifadə etmək istəyirsə, təbiidir ki, həmin digər insan da bundan istifadə etmək istəyir. Buna görə də insan ictimai şəkildə yaşamaq məcburiyyətindədir. Beləliklə, insan öz daxilində olan təbiətini və «istixdam» tələb olunan ehtiyaclarını ödəyə bilər.

Bu barədə üçüncü nəzəriyyə odur ki, insan kamala çatmaq istəyir. Bunun üçün bütün imkanlardan istifadə

etməyə çalışır. Insan bütün imkanlardan təklikdə istifadə edib öz istəyinə nail ola bilməz. Həmçinin insanın cismi və fikri də məhdud olduğu üçün fərdi şəkildə bütün imkanlardan istifadə etməsi və kamala çatması mümkün deyil. Lakin insanlar ictimai şəkildə yaşayıb, əl-ələ verərək hərə bir iş görməklə bütün imkanlardan istifadə edə bilər və qarşılarına qoyulan məqsədə, təkamül və kamilliyə çatarlar.

Qeyd etdiyimiz bu nəzəriyyələr barədə alimlər üç dəstəyə bölünərək hərə bir nəzəriyyə vermişdir ki, bu üç fikir və nəzəriyyənin hər biri düzgün və məntiqəuyğun fikir və nəzəriyyədir. Insan həm ictimai bir varlıqdır, həm onun fitrətində istixdam vardır, həm də kamala çatmaq istəyir.

Burada ikinci bir mətləbi qeyd etməliyik ki, bəşər yaxşı yaşaması, öz həyatından mükəmməl şəkildə istifadə etməsi və daxilində olan intellektual qüvvəsindən yaxşı bəhrələnmək üçün həmişə elm və bilik axtarışında olub. Lakin insanın axtarışında olduğu bu elm iki növdür. Biri budur ki, onları yalnız bilmək üçün öyrənirlər. Yəni bu elmi öyrənib bilmək yaxşıdır, lakin həmin bu elm insanın taleyində heç bir rol oynamır. Məsələn, bir şəxs otuz və ya əlli şairin adını bilir. Başqa bir nəfər xarici yazıçıların adlarını yaxşı bilir. Bu kimi şeyləri bilmək yaxşıdır, lakin bunun insanın taleyində heç bir rolu yoxdur. Başqa bir misal çəkək. İmam Hüseyn(ə) meydana girib döyüşəndən sonra onu yaralayıb atdan saldılar və şəhid etdilər. Həzrətin(ə) mindiyi at isə çadırlara tərəf qayıtdı. At çadırın kənarında ağlayıb-ağlayıb başını yerə vurub öldü. Ərəblərdə hər bir atın öz adı var idi. Bəzi rəvayətə görə həmin atın adı Zül-cənah, bəzi rəvayətə əsasən də Uqab olmuşdur. İnsanın bu və ya bu kimi şeyləri bilməsi

yaxşıdır, amma insanın taleyində bunu bilib-bilməməyin heç bir xeyri, yaxud ziyanı yoxdur. Yəni bu kimi şeyləri bilmək və ya bilməməyin insanın taleyində heç bir əhəmiyyəti yoxdur. Məsələn, İmamın(ə) atının adını biləni cənnətə, yaxud bilməyəni cəhənnəmə aparmazlar.

Bu cür elmləri öyrənmək bilmək üçün yaxşıdır, amma belə elmləri bilib-bilməmək insan taleyi üçün əhəmiyyət kəsb etmir. Lakin bəzi elmlər vardır ki, onları öyrənib bilmək insanın taleyində böyük rol oynayır. Bu elmlər insanın həm fərdi, həm də ictimai inkişafında çox böyük təsirə malikdir. Buna görə də fəlsəfə alimləri hikməti iki qismə bölmüşlər.

## Nəzəri və əməli hikmət

Nəzəri hikmət ona deyilir ki, insan onu bilmək üçün öyrənir.

Əməli hikmət isə odur ki, insan onu əməl etməyə, inkişafa, tərəqqiyə, yaxşı yaşamağa və izzətə çatmağa görə öyrənməlidir. Əgər insan bu elmi bilərsə, səadətə çatacaq, bilməsə çatmayacaq.

Yunan alimləri əməli hikməti üç hissəyə bölmüşlər:

1. Təhzibi nəfs (əxlaqı təmizləmək);
2. Tədbiri mənzil (ailədə islahatlar aparmaq);
3. Siyasəti mudun. (Cəmiyyətin inkişafı)

1. Təhzibi nəfs ona deyilir ki, insan özünü təmizləməli, özündə olan pis xislətləri özündən uzaqlaşdırmalı və çirkin (yalan, zülm, qeyrətsizlik və s. kimi) əməllərdən çəkinməlidir.

Yeri gəlmişkən, qeyd etməliyəm ki, təkcə İslam aləmində deyil, dünyanın bütün digər yerlərində yaşayan insanlar da bilirlər ki, yalan danışmaq qəbahətli və pis

əməldir. Hamı bunu yaxşı bilir. O cümlədən qeyrətsizlik elə bir əməldir ki, hamı onun çirkin və pis iş olduğunu yaxşı bilir. Avropada bir alim və Şərqdə də digər bir alim bu məsələnin əleyhinə kitab yazmışlar. Həmin kitabda insanın öz yaxınları ilə ailə qurması barədə söhbətlər açmışlar. Fəlsəfə alimləri, hətta qeyri- müsəlman alimlər belə öz kitablarında onların bu çirkin fikirlərinə qarşı çıxdılar və onları rüsvay edərək bildirdilər ki, necə ola bilər insan öz anası və ya bacısı ilə evlənsin? Həmçinin bu məsələnin qəbahətli və çox çirkin əməl olduğunu dünya səviyyəsində müzakirə də etdilər. Buna görə də təkcə müsəlmanlar arasında deyil, başqa dinlərdən olan insanlar arasında da bu əməlin çirkin bir əməl olduğunu bilirlər.

Odur ki, təhzibi nəfs insanın səadətə çatmasında mühüm rol oynayır. Insan gərək yaxşı xislətləri özündə cəmləşdirsin və pis xüsusiyyətləri özündən uzaqlaşdırmalıdır. Əgər bir insan bağışlamağı bacarırsa, xeyir işlər görməyi, səxavətli olmağı və bu kimi bəyənilən əməlləri yerinə yetirməyi bacarırsa, müsəlman olmasa da belə onda olan bu xislətlər çox gözəldir.

2. Yunan alimlərinin insanın taleyində və səadətə çatmasında qeyd etdikləri ikinci amil tədbiri mənzildən ibarətdir. Tədbiri mənzil ona deyilir ki, insan ailəsini, ata, ana, həyat yoldaşı və övladlarının səadətə çatması üçün çalışmalıdır. Yəni ailə kiçik cəmiyyət hesab olunduğu üçün insan bu cəmiyyətin islahı və xoşbəxt olması üçün tədbir görməli və əlindən gələni əsirgəməməlidir. Buna görə də həmin kiçik cəmiyyət bir ailədən ibarət olduğu üçün nurani və pak cəmiyyət olmalıdır.

3. İnsanların səadətə çatması üçün üçüncü amil siyasəti mudundan ibarətdir. Siyasəti mudun ona deyilir ki, kiçik cəmiyyətlər yığışıb böyük cəmiyyətə çevrilərsə, böyuk

icma və cəmiyyət alınar. Buna aydınlıq gətirmək üçün bir binanı misal çəkmək olar. Bina tikərkən əgər həmin binanın daşı, sementi və ya orada istifadə olunan dəmir keyfiyyətsiz olarsa, həmin bina dözümsüz və davamsız olacaq. Çünki həmin bina xarab və keyfiyyətsiz materiallarla ərsəyə gəlmişdir. Beləliklə, böyük cəmiyyətlər kiçik ailələrdən təşkil olunur. Məsələn, bir kənddə beş yüz aiilə yaşayırsa, həmin ailələr pak, təmiz ailələrdirsə, deməli həmin kənd pak kənd olacaq. Əgər bir rayon yüz kənddən təşkil tapırsa, həmin kəndlər təmiz və pak olsalar, deməli həmin rayon da pak və təmiz rayon olacaq. Həmçinin bir ölkədə səksən rayon olarsa və həmin rayonlar pak və təmiz olarsa, nəticədə həmin ölkə pak və təmiz ölkə olacaq.

Beləliklə, insan özünü və ailəsini pis xislətlərdən təmizləyib islah edərsə, həmin ailələr cəmləşib insan üçün faydalı olan böyuk bir icma təşkil edər və səadətə çatar.

Əflatun bu barədə geniş söhbətlər açmışdır. Onun bu barədə olan bir cümləsini nəzərinizə çatdırıram. O, belə demişdir: "Bu üç mərhələ (təhzibi nəfs, tədbiri mənzil və siyasəti mudun) insaniyyətin ən mükəmməl bir proqramıdır."

## Quranın bu üç mərhələyə münasibəti

Burada əziz möminlərin nəzərinə üçüncü mətləbi çatdırıram. Həmin mətləb bundan ibarətdir ki, Quran qeyd olunan üç nəzəriyyəyə necə baxır? Qurani-Kərimdə və hədislərdə bu üç mətləb gözəl surətdə açıqlanıb bəyan olunmuşdur. Həmçinin bu üç mərhələni Quran bizdən tələb edir. Bu barədə olan ayələrlə tanış olaq.

**1. Təhzibi nəfs**

"Maidə" surəsinin 105-ci ayəsində Allah-təala bu barədə belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ عَلَيْكُمْ أَنفُسَكُمْ لاَ يَضُرُّكُم مَّن ضَلَّ إِذَا اهْتَدَيْتُمْ إِلَى اللّهِ مَرْجِعُكُمْ جَمِيعًا فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ

-Ey iman gətirənlər, özünüzü gözləyin! Əgər siz özünüz doğru yolda olsanız, yolunu azmış kəs*(in zəlaləti)* sizə heç bir zərər yetirə bilməz *(hərçənd ki, onu da doğru yola dəvət etməlisiniz)*. Hamınızın qayıdışı Allaha tərəfdir. Beləliklə, O, sizi etdiklərinizdən xəbərdar edəcəkdir.

Bu ayə bizlərə bildirir ki, insan özünü çirkin işlərdən təmizləməli və hidayət olunmalıdır. Əgər bir insan özünü, nəfsini təmizləyərsə və hidayət olunarsa, başqalarının azğınlığı onu yolundan döndərə bilməz. Buna görə də insanın qarşısında duran ümdə məsələlərdən birincisi nəfsini islah etməsidir. Əgər bir insan özünü islah etməsə, başqalarını heç vaxt islah edə bilməyəcək.

قال علي عليه السلام: مَنْ نَصَبَ نَفْسَهُ لِلنّاسِ اِماماً فَعَلَيهِ اَن يَبْدَأَ بِتَعْلِيمِ نَفْسِهِ قَبْل تَعلِيمِ غَيرِه وَلْيَكُن تَأْدِيبُهُ بِسِيرَتِهِ قَبْلَ تَأْدِيبُهُ بِلِسانِه

-Həzrət Əli(ə) bu barədə belə buyurur: "Hər kəs başqasına öyüd-nəsihət verib, tərbiyə etmək istəyirsə, başqalarından əvvəl özünü tərbiyə etməlidir. Dildə camaata nəsihət etməzdən öncə öz əməli ilə nümunə göstərməlidir.

Əgər bir insan camaatı yaxşı işlər görməyə dəvət edərsə, gərək dediklərinə birinci özü əməl etmiş olsun. Həmçinin bir işin qəbahətli olmasını camaata nəsihət edirsə, ilk növbədə özü həmin işlərdən çəkinmiş olsun. Bir şəxs camaata namazın vacibliyindən və əhəmiyyətindən

danışırsa, ilk növbədə özü namaz qılan və namaza əhəmiyyət verənlərdən olmalıdır.

Bir nəfər deyir: Bir gün İmam Həsən Əskərinin(ə) məhzərinə getmişdim. Qapını açıb içəri daxil olduqda gördüm ki, Həzrət(ə) əlində qələm-kağız nəsə yazmaqla məşğuldur. Elə bu andaca azan deyildi. Həzrət(ə) qələm-kağızı əlindən yerə qoyub, namaza hazırlaşdı və namazını qılıb qurtardıqdan sonra yenə öz işini görməyə davam etdi.

Mən bu hadisəni gördükdə başa düşdüm ki, namaz vaxtı olarkən insanın əlində hər nə qədər vacib əməl olmuş olsa belə, durub namazını qılmalı, qurtardıqdan sonra öz işinə davam etməlidir.

Həzrət(ə) əgər sonradan dili ilə namazın mühüm olmasını və vaxtında qılınmasını desə də belə, həmin söz insana öz təsirini göstərər. Çünki əməldə özü bu işə hamıdan daha çox riayət edirdi.

Sonra Həzrət Əli(ə) belə buyurur:

مُعَلِّم نَفْسِه وَ مُؤَدِبُها أَحَقُّ بِالْإِجْلال مَنْ مُعَلِّمِ النّاس وَ مُؤَدِّبِهِم

-Öz nəfsinə müəllimlik edib özünü tərbiyə edən şəxs, camaata müəllimlik və nəsihət edən şəxsdən daha çox hörmətlidir.

Digər hədislərdə Həzrət Əli(ə) belə buyurur:

كَيْفَ يُصْلِح غَيْرُهُ مَنْ لا يُصْلِحْ نَفْسَه؟

Özünü islah edə bilməyən şəxs başqalarını necə islah edə bilər?

كَيْفَ يَهْدِى غَيْرَهُ مَنْ يُضِلُّ نَفْسَهُ؟

Öz nəfsini azdıran (zəlalətdə olan) kəs başqalarını necə hidayət edə bilər?

كَيْفَ يَنْصَحُ غَيْرَهُ مَن يَغُشُّ نَفْسَهُ؟

Öz-özünə xəyanət edən kəs başqalarına necə öyüd-nəsihət verə bilər?

كَيْفَ يَعْدِلُ فِى غَيْرِهِ مَنْ يَظْلِمُ نَفْسَهُ؟

Öz-özünə zülm etmiş şəxs başqasına qarşı necə ədalətli ola bilər?

Sonra Həzrət (ə) belə buyurur:

لا تَطْلُبَنَّ طاعَةَ غَيرِكَ وَ طاعَةُ نَفْسِكَ عَلَيْكَ مُمْتَنِعَةٌ

Öz-özünə tabe olmadığın halda başqalarının sənə tabe olmasını gözləmə.

Yəni əgər insan özü ilə bacarmırsa, özünə tabe ola bilmirsə, başqalarının ona tabe olmasının və itaət etməsinin intizarında olmasın. Əgər bir insanın ixtiyarı öz əlində deyilsə, başqalarının ixtiyarını necə əlində saxlaya bilər?

Qeyd olunan ayə və hədislərdən belə nəticə alırıq ki, İslam baxımından nəfsin islahı insanın həyatı üçün mühüm rol oynayır. Əgər bir insan Allahın buyurduqlarını yerinə yetirərsə, həmçinin Allahın çəkindirdiyi əməllərdən çəkinərsə, bir sözlə, öz nəfsini sındırarsa, o zaman həmin şəxsin əməlləri başqalarında da təsir qoymuş olar.

**2. Tədbiri mənzil (Ailədə islahat)**

Bu haqda Allah-təala Qurani-Kərimin “Təhrim” surəsinin 6-cı ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا قُوا أَنفُسَكُمْ وَأَهْلِيكُمْ نَارًا وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ عَلَيْهَا مَلَائِكَةٌ غِلَاظٌ شِدَادٌ لَا يَعْصُونَ اللَّهَ مَا أَمَرَهُمْ وَيَفْعَلُونَ مَا يُؤْمَرُونَ

-Ey iman gətirənlər, özünüzü və ailənizi yanacağı insanlardan və daşlardan ibarət olan oddan qoruyun; onun

*(o odun)* başında Allahın onlara verdiyi əmrdən boyun qaçırmayan, əmr olunanı yerinə yetirən, *(danışıqda, əxlaqda və əzab verməkdə)* sərt *(daş qəlbli)* və *(cüssədə və iradədə)* qüvvətli mələklər durmuşlar.

Bu mübarək ayədə Allah-təala ailədə islahatlar aparmağı və ailənin tərbiyəsi ilə məşğul olmağı bu cür səmimiyyətlə bizə bəyan edir.

Bu ayə nazil olduqdan sonra Həzrət Peyğəmbərdən(s) soruşdular: Ya Rəsulallah, biz öz ailəmizi oddan necə saxlayaq?

Həzrət Peyğəmbər(s) buyurdu:

تَأْمُرُهُمْ بِمَا أَمَرَاللّٰهُ وَ تَنْهَاهُمْ عَمَّا نَهَاهُمُ اللّٰهُ إِن أَطاعُوكَ كُنْتَ قَد وَقِيتَهُمْ وَ إِنْ عَصوكَ فَكُنْتَ قَدْ قَضَيْتَ ما عَلَيْكَ

-Sən Allahın əmr etdiyi şeyləri onlara çatdırıb başa sal və Allahın çəkindirdiyi şeylərdən onları çəkindir. Əgər onlar sənin sözlərinə əməl etsələr, sən onları cəhənnəm odundan qorumuş olarsan. Yox, əgər əməl etməsələr, onda sən boynunda olan vəzifəni yerinə yetirmiş olarsan.

Başqa bir hədisdə Həzrət(s) belə buyurur:

أَلا كُلُّكُمْ راعٍ وَ كُلُّكُمْ مَسْئُولٌ عَن رَعِيَّتِه, فَالأَمِير عَلى النَّاسِ راعٍ وَ هُوَ مَسْئُولٌ عَنْ رَعِيَّتِه, وَالرَّجُلُ راعٌ عَلى اَهلِ بَيْتِهِ وَ هُوَ مَسْئُولٌ عَنْهُم فَالْمَرْئَة رَاعِيَةٌ عَلى اَهْلِ بَيْتِ بَعْلِها وَ وُلْدِهِ وَهِى مَسْئُولَةٌ عَنْهُمْ...

-Diqqət edin! Sizin hamınız çobansınız (məsulsunuz) və hamınız əlinizin altında və ixtiyarınızda olanların məsulu və cavabdehisiniz. Və rəhbərlik etdiyiniz insanlar üçün məsuliyyət daşıyırsınız. Hər bir kişi öz ailəsinin məsulu və cavabdehidir. Həmçinin hər bir qadın da öz ərinin və övladlarının barəsində məsuliyyət daşıyır.

Həzrət Əli(ə) buyurur:

عَلِّمُوا اَنْفُسَكُم وَ اَهْلِيكُم الخَيْرَ وَ أَدِّبُهُم

-Xeyir işləri həm özünüzə, həm də ailənizə öyrədin. Və onların tərbiyəsi ilə məşğul olun.

**3.Siyasəti mudun (Cəmiyyətin inkişafı)**

Bu barədə Allah-təala “Hicr” surəsinin 94-95-ci ayələrində Peyğəmbərə(s) xitab edərək belə buyurur:

فَاصْدَعْ بِمَا تُؤْمَرُ وَأَعْرِضْ عَنِ الْمُشْرِكِينَ إِنَّا كَفَيْنَاكَ الْمُسْتَهْزِئِينَ

-Buna görə də sənə əmr olunanı aşkar şəkildə bəyan et və müşriklərdən üz çevir. Həqiqətən Biz istehza edənlərin şərini səndən uzaqlaşdırdıq.

Yuxarıda qeyd etdiyimiz ayələrdən məlum olur ki, İslam bu məsələləri qəbul edir. Hər bir insan icmada yaşamalı və cəmiyyətdə yaşayan hər bir insan öz ailəsini düzəltməyə çalışmalıdır. Çalışmaqda məqsəd budur ki, insan əvvəl özünü, sonra da ailəsini islah etməklə öz cəmiyyətini düzəltməlidir. Bu prosesləri keçən insan nuraniyyət tapıb, həmin gözəl, təmiz və islah olunmuş cəmiyyətdə inkişaf edərək izzətə və səadətə nail olar.

## Əmr be məruf və nəhy əz münkər, yaxud milli nəzarət İslam və ictimai məsuliyyət

Mömin kişilərə və mömin qadınlara vacibdir ki, bir-birini yaxşı işlər görməyə dəvət edib, pis işlərdən çəkindirsinlər. Yuxarıda bu məsələyə dair bir müqəddiməni əziz möminlərin nəzərinə çatdırdım. Həmin müqəddimənin xülasəsi belə idi ki, insan ictimai məxluq olduğu və cəmiyyətdə yaşamaq məcburiyyətində qaldığı üçün öz cəmiyyətini islah edib təmizləməlidir. Həmin cəmiyyətdə tərəqqi tapması və mənəvi inkişaf üçün zəmin

hazırlamalıdır. Bu məsələ haqda dünyanın bütün alimləri, xüsusilə yunan filosofları bir sıra nəzəriyyələr irəli sürmüşlər. Həmçinin bildirmişlər ki, hər bir cəmiyyətdə insan öz nəfsini, ailəsini və cəmiyyətini təmizləməlidir. Bu məsələ İslam dinində də çox aydın şəkildə bəyan olunmuşdur. Quran ayələrinə və hədislərə əsasən qeyd olundu ki, əgər insan özünü, ailəsini və yaşadığı cəmiyyəti islah edib təmizləməsə, heç vaxt kamilliyə, yüksək məqamlara və mənəviyyata çata bilməyəcək. Insan səadətə çatmaq üçün ilk mərhələdə özünü, sonra ailəsini, daha sonra isə yaşadığı cəmiyyəti mütləq islah edib təmizləməlidir.

Cəmiyyəti islah etmək insanlar üçün çox vacib bir məsələdir. Bu işi görmək insanların öz əllərindədir. Yəni insan həm özünü, həm kiçik cəmiyyəti (ailəsini), həm də böyük cəmiyyəti (yaşadığı mühiti) islah etmək iqtidarındadır. Əgər bir insan bu işləri görmək istəyərsə, deməli, onu görə bilər. Bu işi görərsə bəhrəsini, görməzsə ziyanını görəcək. Qurani- Kərim bu məsələ haqda belə buyurur:

لَهُ مُعَقِّبَاتٌ مِّن بَيْنِ يَدَيْهِ وَمِنْ خَلْفِهِ يَحْفَظُونَهُ مِنْ أَمْرِ اللّهِ إِنَّ اللّهَ لاَ يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّى يُغَيِّرُواْ مَا بِأَنْفُسِهِمْ

-İnsan üçün onun önündə və arxasında *(mələklərdən olan)* nəzarətçilər vardır ki, Allahın əmri ilə daim onu qoruyurlar. Həqiqətən Allah heç bir dəstə üçün *(mövcud)* olanı *(nemət və firavanlığı, yaxud bəla və çətinliyi)* onlar özlərində olanı *(iman və küfrü, yaxud itaət və fasiqliyi)* dəyişdirməyincə dəyişdirmir.

Bu ayə bizə bildirir ki, insanlar öz inkişaflarına və tərəqqilərinə etinasız olsalar, Allah onların vəziyyətlərini dəyişməyəcək. Əgər insanlar tərəqqi yolunda, mənəviyyat

uğrunda çalışıb səy göstərərlərsə, o zaman Allah- təala onların vəziyyətini dəyişib yaxşılaşdırar. Yəni cəmiyyətin tərəqqisi insanın öz ixtiyarından və iradəsindən asılıdır. Ayədə qeyd olunan (مُعَقِّبَاتٌ) kəlməsinin mənası təqibçilər və nəzarətçilər mənasındadır. Iki mələk insanın bütün əməllərinə nəzarət edib onları qoruyur. Allah-təala bunu insana bildirdikdən sonra buyurur: “Əgər insanlar çalışıb öz vəziyyətlərini dəyişməsələr, Allah da onların vəziyyətlərini dəyişməz. Bu barədə İmam Sadiq(ə) buyurur:

مَا مِن عَبْدٍ اِلاّ وَ مَعَهُ مَلَكان يَحْفَظانِه فَإِذا جَاءَ الأَمْر مِن عِنْدِ الله خَلَّيا بَيْنَهُ وَ بَيْنَ اَمْرِالله

-Allah tərəfindən iki mələk insanı qorumaq üçün təyin olunmuşdur. Əgər insan üçün Allah tərəfindən əmr gələrsə (əcəli yetişərsə), o zaman mələklər çəkilib kənarda durarlar. Yox əgər insanın əcəli çatmayıbsa, bütün hadisələrdə həmin mələklər insanı qoruyurlar.

Başqa bir Ayədə Allah-təala belə buyurur:

كَدَأْبِ آلِ فِرْعَوْنَ وَالَّذِينَ مِن قَبْلِهِمْ كَفَرُواْ بِآيَاتِ اللّهِ فَأَخَذَهُمُ اللّهُ بِذُنُوبِهِمْ إِنَّ اللّهَ قَوِيٌّ شَدِيدُ الْعِقَابِ. ذَلِكَ بِأَنَّ اللّهَ لَمْ يَكُ مُغَيِّرًا نِّعْمَةً أَنْعَمَهَا عَلَى قَوْمٍ حَتَّى يُغَيِّرُواْ مَا بِأَنفُسِهِمْ وَأَنَّ اللّهَ سَمِيعٌ عَلِيمٌ

*(Bu müşriklərin hərəkətləri)* Firon ailəsinin və onlardan qabaqkıların rəftarı kimidir ki: onlar Allahın ayə və nişanələrinə kafir oldular, Allah da onları günahlarına görə cəzalandırdı. Həqiqətən Allah çox qüvvətli və şiddətli cəza verəndir.

*(Müşriklər üçün olan)* bu *(əzablar)*, ona görədir ki: Allah *(Öz ənənəvi qanunlarına əsasən)* bir qövmə verdiyi

neməti onlar özlərində olanı *(saleh halları)* dəyişməyincə, dəyişdirmir *(onlardan almır). (Məkkə əhalisinin rifah halı İslamdan sonra pisliyə və çətinliyə doğru dəyişdi, çünki onlar öz adi hallarını Peyğəmbərlə mübarizə və inad etmək istiqamətində dəyişdirdilər.)* Şübhəsiz, Allah eşidən və biləndir.[1]

Bu ayələr o ayələrdən sonra buyurulan ayələrdir ki, müşriklər barədə nazil olmuşdur. Onlar Bədr döyüşündə bir-birilərinin canına vəsvəsə salıb dedilər ki, bizim qüvvətimiz, imkanımız, silahımız vardır. Biz müsəlmanlarla müharibə edib onları məğlub edəcəyik. Onlar gəlib müsəlmanlarla qarşı-qarşıya dayanıb müharibə etdilər və məğlub oldular. Məğlub olduqdan sonra dağılaraq biabır oldular və bir- birilərindən acıqları gəldi. Bu hadisədən sonra Allah həmin qeyd olunan ayələri nazil etdi.

Bu barədə İmam Sadiq (ə) buyurur:

ما أَنْعَمَ اللهُ عَلَى عَبْد نِعْمَةً فَسَلَبَها اِيَّاهُ حَتّى يُذْنِبَ ذَنْباً يَسْتَحِقّ بِذالِكَ السَّلْب

-Allah bir bəndəsinə nemət əta etdikdə, heç vaxt onu geri almaz. Lakin insan elə bir iş görərək özünü elə bir dərəcəyə çatdırır ki, ona verilən nemət etdiyi həmin günaha görə əlindən alınır.

Digər bir hədis də vardır ki, Allah-təala bir qövmə peyğəmbər göndərmişdi. Həmin peyğəmbərin vasitəsilə o qövmə xəbər göndərdi: Allah sizə verdiyi nemətləri və firavanlığı sizdən almayacaq. Əgər siz Allahın itaətində dayansanız, Allah da sizi öz istədiyiniz və xoşunuza gələn

[1] Ənfal, 52-53

vəziyyətə aparıb çıxarar. Yox əgər siz Allahın əmrlərindən boyun qaçırıb, Ona itaət etməsəniz, o zaman Allah sizi aparıb ürəyiniz istəmədiyi vəziyyətə salacaq.

Bu ayələr və hədislər onu bildirir ki, insanların taleləri öz əməllərindən asılıdır. Əgər imanla hərəkət etsə, sonda imanla, imansız hərəkət edərsə, sonda imansızlıqla nəticələnəcək. Odur ki, tarix boyu belə hadisələrin şahidi olmuşuq və hazırda da belədir. Əgər tarixi səhifələsək görərik ki, belə hadisələr çox müşahidə olunmuşdur.

Uxdun Nəsr İslamdan illər öncə yaşamış bütpərəst bir şah idi. Tarixdə yazırlar ki, o, eni 3, hündürlüyü 30 metr olan qızıldan bir büt düzəldib öz sarayının qarşısına qoymuşdu. Hamıya da o bütə səcdə etməyə əmr verirdi. Camaat da dəstə-dəstə gəlib o bütün qarşısında səcdə edirdilər. Həmin bütə səcdə etmək üçün bir dəstə insanı da gətirdilər. Onlar soruşdu: bizi bura nəyə görə gətirmisiniz? Dedilər ki, Uxdun Nəsrin düzəltdiyi bu bütə səcdə etməlisiniz. Onların bir neçəsi həmin bütə səcdə etdilər, lakin üç nəfər bu işdən imtina etdi. Onlardan birinin adı Hina, ikincisinin adı  Minaim, üçüncüsünün adı isə Əzriya idi. Bu üç nəfər imanlarında güclü və allahpərəst insanlar idi. Onlar dedilər: Biz Allahdan başqa heç kəsə səcdə etməyəcəyik. Bu xəbəri Uxdun Nəsrə çatdırdılar. Nəsr onları çağırtdırdı və dedi: Nəyə görə siz bu bütə səcdə etmirsiniz? Onlar dedilər: Sən çox böyük səhvə yol vermisən. Bütə səcdə etmək ən böyük günahlardan və xətalardandır. Sən bizə deməməlisən ki, bütə səcdə et. Əksinə, biz sənə deməliyik ki, Allaha səcdə et. Uxdun Nəsr qəzəblənib onları tonqalda  yandırmaqla hədələdi. Onlar dedilər: Ondan başqa sənin gücün nəyə çatır? Bizi tonqala atdıqdan sonra nə edəcəksən? Nəsr dedi: Sizi yandırıb külünüzü göyə sovuraram. Onlar dedilər: Allahın

məhəbbəti insanların qəlbində oddur. Allaha bağlanan eşq insanı yandırmalıdır. Əgər bizi oda atıb yandıracaqsansa, onda bu işi tez gör. Uxdun Nəsr onların belə qüdrət və böyük ürəklə danışmalarından təəccübə gəldi. Əmr etdi ki, tonqal qalasınlar. Tonqal hazır olan kimi Uxdun Nəsrin əmrilə onları tonqalın içinə atdılar. Onlar bismillah deyərək tonqalın içinə daxil oldular. Tonqal Allahın əmri ilə onları yandırmadı. Əgər yansaydılar da belə onların sözləri, şücaətləri Uxdun Nəsrə təsir göstərmişdi. Onların yanmaması ona daha böyük təsir etdi və taxtdan yerə düşüb alnını torpağa qoyaraq yeganə olan Allaha səcdə etdi və iman gətirdi.

Odur ki, əgər insanın ürəyində iman olarsa və o, imanı ürəyində qoruyub saxlaya bilsə, həmçinin bədən üzvlərini ürəyində olan iman idarə edərsə və eşqində sədaqətli olarsa, o zaman hər şey düzələr və insan səadətə, yüksək məqama nail ola bilər.

## Quran və əmr be məruf və nəhy əz münkər

Qeyd olundu ki, yunan alimləri bir cəmiyyətin sağlam və islah olması üçün üç amili sadalamışlar. Bura qədər onların danışmağa sözləri var idi. Lakin hansı vasitə ilə cəmiyyəti islah edib sağlam saxlamaq olar? Bunun səbəbini soruşduqda onlar qanundan danışırlar. Qanun isə heç vaxt bu problemin həllinə cavab verə bilmir. Çünki qanunu icra etmək çox mühüm məsələlərdəndir. İslamın bu barədə bir hökmü var. O da bundan ibarətdir ki, insan bir cəmiyyətdə yaşayırsa və həmin yaşadığı cəmiyyəti yalnız və yalnız əmr be məruf və nəhy əz münkər vasitəsilə saf, sağlam saxlaya bilər. Çünki əmr be məruf və nəhy əz münkərin bir adına da milli nəzarət deyilir.

Əgər bir cəmiyyətdə milli nəzarət olarsa, həmin cəmiyyət sağlam olar, olmasa, həmin cəmiyyət sağlam qalmayacaq. Qurani-Kərimdə və hədislərdə əmr be məruf və nəhy əz münkər çox mühüm yer tutmuşdur. Nümunə üçün bir neçə ayəni nəzərinizə çatdırıram:

وَالْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنكَرِ وَيُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَيُطِيعُونَ اللّهَ وَرَسُولَهُ أُوْلَئِكَ سَيَرْحَمُهُمُ اللّهُ إِنَّ اللّهَ عَزِيزٌ حَكِيمٌ

-Mömin kişilər və mömin qadınlar bir-birilərinin dost, yardımçı və başçılarıdır. *(Bir-birilərinə ağıl və şəriət baxımından)* yaxşı iş görməyi əmr edir və pis *(sayılan)* işdən çəkindiririrlər, namaz qılır, zəkat verir və Allah və Onun Peyğəmbərinə itaət edirlər. Allahın tezliklə Öz rəhmətinə şamil edəcəyi kəslər onlardır. Həqiqətən Allah yenilməz qüdrət sahibi və *(yaradılış, qanunvericilik və cəzalandırmaqda)* hikmətlidir.[1]

Allah-təala bu ayədə bir neçə əməlin vacibliyini bütün möminlərə bəyan edərək buyurur ki, möminlərin hamısı, kişili-qadınlı bir-birilərini yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirməlidir. Yəni bu ayədə mömin olmağın birinci şərti əmr be məruf və nəhy əz münkər etməkdir. Sonra namaz qılmaq və zəkat vermək tövsiyə olunur. Ayədən məlum olur ki, namazdan və zəkatdan öncə cəmiyyətdə möminlər bir-birilərini yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirməlidir. Buna görə də əmr be məruf və nəhy əz münkər mühüm məsələdir.

İmam Baqir(ə) buyurur:

[1] Tövbə,71

فَرِيضَةٌ عَظِيمَةٌ بِهَا تُقامُ الْفَرائِض

-Əmr be məruf və nəhy əz münkər böyük vacib əməllərdəndir. Çünki digər vacib əməllər bunun əsasında bərpa olur.

كُنتُمْ خَيْرَ أُمَّةٍ أُخْرِجَتْ لِلنَّاسِ تَأْمُرُونَ بِالْمَعْرُوفِ وَتَنْهَوْنَ عَنِ الْمُنكَرِ وَتُؤْمِنُونَ بِاللّهِ...

Siz *(müsəlmanlar), (Allah tərəfindən dünyanın)* insanlar*(ın)*a zahir olmuş ən yaxşı ümmətsiniz, bəyənilən işə əmr edir və çirkin işdən çəkindirirsiniz və Allaha iman gətirirsiniz.[1]

Bu ayəyə diqqətlə nəzər salsaq görərik ki, insanlar arasında əmr be məruf və nəhy əz münkər edənlər ən gözəl ümmət sayılırlar. Ayədə buyurulmur ki, namaz qıldığınıza, oruc tutduğunuza, həccə getdiyinizə və s. əməlləri etdiyinizə görə yaxşı ümmətsiniz. Hətta bəzi dinlərə və həmçinin səmadan göndərilən dinlərə etiqadı olmayan insanlar belə həcc mərasimini qeyd edirlər. Onlar bu ziyarəti özünəməxsus şəkildə yerinə yetirirlər. Həmçinin bu insanların özünəməxsus səcdələri və ibadətləri vardır. Odur ki, Allah-təala bu mübarək ayədə yalnız yaxşı işlərə dəvət edib pis işlərdən çəkindirdiyinə görə müsəlmanları yaxşı ümmət kimi qələmə verir. Çünki əmr be məruf və nəhy əz münkər etmək yalnız İslamda vardır. İslamdan başqa heç bir ayində bu əməl yoxdur. Buna görə də müsəlmanlar əmr be məruf və nəhy əz münkər etdiklərinə görə ən yaxşı ümmət hesab olunur.

Başqa bir ayədə Allah-təala buyurur:

---

[1] Ali-Imran,110

وَلْتَكُن مِّنكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنكَرِ وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ

-Gərək sizdən *(aranızda) (insanları)* xeyir işə dəvət edən, yaxşı işə buyuran və pisliklərdən çəkindirən bir dəstə olsun. Məhz onlardır nicat tapanlar! [1]

Bu ayədə də nicat tapan və xoşbəxt olan kəslər, yaxşı işlərə dəvət edib pis işlərdən çəkindirənlərin olduğunu bəyan edir.

"Əsr" surəsində Allah-təala belə buyurur:

وَالْعَصْرِ. إِنَّ الْإِنسَانَ لَفِي خُسْرٍ. إِلَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَتَوَاصَوْا بِالْحَقِّ وَتَوَاصَوْا بِالصَّبْرِ

-And olsun əsrə ki, insan (ömrünü bihudə işlərə sərf etməklə, dünyanı axirətdən üstün tutmaqla) ziyan içindədir. Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa! (Beləlәri cənnətə nail olub əbədi səadətə qovuşanlardır!)

Bu ayədə dörd mətləb vardır ki, Allah-təala and içəndən sonra insanların ziyan içində olduğunu bəyan edir. Lakin iman gətirənlər, saleh işlər görənlər, haqqa dəvət edən və səbrə tövsiyə edən kəslərdən başqa. Yəni bu dörd əməl sahiblərindən başqa bütün insanların ziyan içində olmasını and içərək bəyan edir.

Allah-təala Loğmana hikmət inayət etmişdi. O, həmişə hikmətli sözlər danışar, oğluna moizə edərdi. Allah-təala onun adına "Loğman" surəsini nazil etmişdi ki, həmin

---

[1] Ali-Imran,104

surədə oğlunun simasında bütün insanlara müəyyən sözləri çatdırır:

يَا بُنَيَّ أَقِمِ الصَّلَاةَ وَأْمُرْ بِالْمَعْرُوفِ وَانْهَ عَنِ الْمُنكَرِ وَاصْبِرْ عَلَى مَا أَصَابَكَ إِنَّ ذَلِكَ مِنْ عَزْمِ الْأُمُورِ

-Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr et, pis işlərdən çəkindir. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu, vacib əməllərdəndir![1]

Loğmanın oğluna bu vəsiyyətində namaz qılmağı və yaxşı işlər görməyi əmr etməsinin, pis işlərdən çəkindirməsinin mühüm məsələ olduğu buyurulur. Həmçinin bu yolda bütün çətinliklərə dözməyi sifariş edir. Allah-təala bu ayədə Loğmanın dili ilə bütün insanlara əmr be məruf və nəhy əz münkər etməyin vacib olduğunu buyurur. Həmçinin Loğman çox gözəl və çox hikmətli sözlər danışdığına görə onun bu sözlərini Allah Quranın ayələri sırasına daxil etmişdi. Həmçinin oğluna etdiyi moizələri bütün insanlara bəyan edir. Deməli, bütün bəşəriyyət Loğmanın oğlu kimi hesab olunur və bu moizə və nəsihətlər bütün insanlara şamildir. Loğmanın bu sözləri o qədər qiymətli və hikmətli sözlərdir ki, Allah-təala bu kəlmələri Quranın ayələri kimi insanlara çatdırır. Həmçinin bu sözlər Quran ayələri olduğu üçün heç kəs bu kəlmələrin hətta bir hərfinə belə dəstəmazsız əl vura bilməz.

Bu ayələrdən açıq-aydın belə bir nəticə alırıq ki, əmr be məruf və nəhy əz münkər çox mühüm məsələlərdəndir.

قَال رَسُول اللهُ(ص): مَنْ أَمَرَ بِاالْمَعْرُوفِ وَنَهى عَنِ الْمُنْكَرِ فَهُوَ خَلِيفَةُ اللهِ فِي الْأَرْضِ وَ خَلِيفَةُ الرَّسُولِهِ

---

[1] Loğman ,17

Həzrət Peyğəmbər(s) buyurur: “Əmr be məruf və nəhy əz münkər edən şəxslər yer üzündə Allahın və Onun Rəsulunun xəlifələridir.”[2]

Allah-təala Quranda yer üzündəki xəlifəsi haqda müxtəlif ayələrdə söhbət açmışdır. O cümlədən “Sad” surəsinin 26-cı ayəsində Davud peyğəmbərə belə buyurur:

-Ey Davud! Biz səni yer üzündə *(Öz)* xəlifə*(miz)* etdik.

İslam Peyğəmbəri(s) Quranda bəyan olunan xəlifə sözünün mənasını belə izah edərək buyurur: "Allahın yer üzündə olan xəlifəsi insanları yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirən kəslərdir." Peyğəmbərin(s) bu kəlamından məlum olur ki, Allahın yer üzündə olan xəlifəsi yaxşı işlər görməyə dəvət edən və pis işlərdən çəkindirən şəxslərdir. Təkcə namaz qılmaq, oruc tutmaqla insan Allahın xəlifəsi ola bilməz. Insan var ki, namaz qılır, amma qılmayanlara da bir söz demir. Xəlifə odur ki, özü namaz qılır, həm də başqalarını namaza dəvət edir. Xəlifə odur ki, özü haram işlər görmür və başqalarını da haram işlərdən çəkindirir.

عَنْ اَبِى جَعْفَرٍ(ع): اَلْأَمْرَ بِالْمَعْرُوفِ وَالنَّهْىُ عَنِ الْمُنْكَرِ خُلْقَانِ مِنْ خُلْقِ اللهِ عَزَّوَجَلَّ فَمَنْ نَصرَهُمَا أَعَزَّهُ اللهُ وَ مَنْ خَذَلَهُمَا خَذَلَهُ اللهُ

İmam Baqir(ə) buyurur: “Əmr be məruf və nəhy əz münkər Allahın xislətlərindəndir. Hər kəs bu iki əməli uca tutarsa, Allah da onu ucaldar. Hər kəs onları alçaldarsa, Allah da o şəxsi alçaldar.”[1]

Bu hədisdən də məlum olur ki, Allahın xislətlərini özlərində təcəssüm etdirən və o xislətləri özlərində daşıyan şəxslər yer üzündə Onun xəlifələridir. Əmr be

[2] Mizanul-hikmə,6-cı cild, səh.255

[1] Mizanul-hikmə,6-cı cild, səh.256

məruf və nəhy əz münkər də Allahın xislətlərindəndir. Bu xislətə malik olan şəxslər Allahın və Peyğəmbərin(s) yer üzündə xəlifəsi hesab olunur.

Əmr be məruf və nəhy əz münkərin insanlara təkid və tövsiyə olunmasının əsas səbəblərindən biri də budur ki, əgər bir cəmiyyətdə bu əməl tərk olunsa, deməli şəriət tərk olunmuşdur.

Ümumiyyətlə, insan elə düşünməməlidir ki, camaatı yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirməklə insana ziyan gələ bilər.

قَالَ عَلِيٌّ(ع): إِنَّ الْأَمْرَ بِالْمَعْرُوفِ وَالنَّهْيَ عَنِ الْمُنْكَرِ لا يُقَرِّبَانِ مِنْ أَجَلٍ وَ لا يُنَقِّصانِ مِنْ رِزْقٍ وَ لكِنْ يُضَاعِفَانِ الثَّواب وَ يُعَظِّما الْأَجْرَ...

Həzrət Əli(ə) buyurur: "Əmr be məruf və nəhy əz münkər etmək bir an da olsa belə insanın ömrünü və ruzisini azaltmaz. Əksinə, bu əməl savabı və mükafatı çoxaldar."

Ümumiyyətlə, heç kəs fikirləşməməlidir ki, əgər əmr be məruf və nəhy əz münkər etsə, onun ömrü və ruzisi azalar, yaxud bundan ona zərər gələ bilər.

Harun ər-Rəşidin zamanında Əsməi adlı bir alim yaşayırdı. Onun əsl adı Əbdülməlik idi, lakin Əsməi adı ilə şöhrət tapmışdı. O, həm tarixçi, həm ədəbiyyatçı, həm də şair idi. Zəmanənin professorlarından hesab olunurdu. O deyir: Bir gün mən Mədinə məscidindən çıxarkən dəvənin üstündə bir ərəbin gəldiyini gördüm. Onunla salamlaşıb hal-əhval tutduq. Həmin ərəb məndən soruşdu: Haradan gəlirsən? Ona dedim: Elə bir yerdən gəlirəm ki, orada Allahın ayələri tilavət olunur. Ərəb dedi: Həmin ayələrdən mənə oxuya bilərsən? Mən ona "əz-Zariyat" surəsinin 22-ci ayəsini oxudum:

وَفِي السَّمَاءِ رِزْقُكُمْ وَمَا تُوعَدُونَ

-Sizin ruziniz və sizə vəd edilən şey göydədir.

Mən bu ayəni oxuyandan sonra o, təəccüblə dedi: Allah bizim ruzilərimizin hamısını təyin edib? Bu sözü deyəndən sonra dəvəsindən düşdü və dəvəni kəsib ətini camaata payladıqdan sonra çıxıb getdi. Mən bu işə mat-məəttəl qaldım.

Əsməi deyir: Bu hadisənin üstündən bir müddət keçəndən sonra Harun ər-Rəşidlə birgə Məkkə ziyarətinə getmişdik. Kəbənin ətrafına təvaf edərkən gördüm ki, bir ərəb məni sakit səslə çağırır. Səs gələn tərəfə baxanda həmin ərəbin məni çağırdığını gördüm. O, mənə salam verdikdən sonra dedi: Əsməi, məni tanıdınmı? Dedim: əlbəttə, tanıdım. Sən həmin ərəbsən ki, məndən Quran ayəsi oxumağı xahiş etmişdin. Ərəb dedi: Bəli, mən həmin adamam. Olarmı o ayədən savayı mənə başqa bir ayə də oxuyasan? Mən həmin ayədən sonra gələn ayəni oxudum.

فَوَرَبِّ السَّمَاءِ وَالْأَرْضِ إِنَّهُ لَحَقٌّ مِّثْلَ مَا أَنَّكُمْ تَنطِقُونَ

-Beləliklə, and olsun göyün və yerin Rəbbinə ki, bu, *(sizin ruzinizin göydə olması)* sizin danışdığınız *(zaman danışmağınızı bildiyiniz)* kimi bir həqiqətdir.

Bu ayəni oxuyandan sonra ərəb təəccüblə dedi: Sübhanallah! Görəsən, Onun bu sözlərinə kim inanmayıb ki, Allah belə and içir?

Buna görə də əgər insanların ruziləri Allah tərəfindən təyin olunursa, əmr be məruf və nəhy əz münkər etmək insanın ruzisini azaldıb çoxaltmaz. Cəmiyyəti sağlam saxlamaq üçün mütləq bu əməl həmin cəmiyyətdə tətbiq olunmalıdır. Əgər bir cəmiyyətdə əmr be məruf və nəhy əz münkər olmasa, həmin cəmiyyət heç vaxt səadətə çatmayacaq. Həmçinin bu əməlin cəmiyyətdə tərk

olunması böyük təhlükələrlə nəticələnəcək. Bu barədə Həzrət Peyğəmbər(s) belə buyurur:

قَال رَسُولُ اللهِ(ص): اِذا لَمْ يَأْمُرُوا بِمَعْرُوفٍ وَ لَمْ يَنْهَوا عَنْ مُنْكَرٍ وَ لَمْ يَتَّبِعُوا الْأَخْيَارُ مِنْ أَهْلِ بَيْتِي, سَلَّطَ اللهُ عَلَيْهِم شِرَارَهُمْ فَيَدْعُوا عِنْدَ ذَالِكَ خِيَارَهُمْ فَلا يُسْتَجَابُ لَهُمْ

-Əgər (bir cəmiyyətdə) insanlar bir-birilərini yaxşı işlərə dəvət etməyib, pis işlərdən çəkindirməsələr və mənim Əhli-beytimə itaət etməsələr, Allah ən pis və şər insanları onlara hakim edər. Belə olduqda o cəmiyyətin möminləri dua etsələr də belə, Allah onların dualarını qəbul etməyəcək.

Allah-təala bu əməlin vacibliyini və əhəmiyyətini bütün insanlara təkidlə əmr etmişdir. Hətta bu əmələ görə insanın bütün günahları bağışlana bilər və o, səadətə çatar.

Musa Peyğəmbərin(ə) dövründə bir abid yaşayırdı. Onun işi yalnız Allaha ibadət etmək idi. Çox vaxtını Allaha zikr edər və namaz qılardı. Şeytan öz tərəfdarlarını başına yığıb həmin abidi yoldan çıxarmaq qərarına gəlir. Yığışıb onu yoldan çıxarmaq üçün məsləhət edirlər. Şeytanlardan biri deyir: Mən onu yoldan çıxarmağı boynuma götürürəm. Şeytanların böyüyü ondan soruşdu: Sən onu hansı yolla azdıra bilərsən? O dedi: Mən onun qəlbinə girib içki içməyə vadar edərəm. Böyük şeytan dedi: Yox, bununla alınmayacaq. Hər şeytan bir hiylə ilə onu azdırmağı təklif edir. Lakin onların bu planları tutarsız olduğundan böyük şeytan qəbul etmədi. Onlardan biri dedi: Bu məsələni mənim öhdəmə qoyun. Mən bu işi bacararam. Soruşdular: Hansı yolla bu işi görəcəksən? Həmin şeytan dedi: Mən onu öz yolu ilə azdıracağam. Ibadət yolu ilə onu yolundan çıxaracağam. Onun bu

təklifini bəyəndilər və bu işi ona həvalə etdilər. Həmin şeytan bir abid cildinə girib həmin abidin qapısına gəldi. Qapını döydü. Abid qapını açıb onu evə dəvət etdi. Şeytan içəri girən kimi hal-əhval tutandan sonra başladı ibadət etməyə. Abid hərdən istirahət edirdi. Lakin qonaq ibadətdən heç ayrılmırdı. Abid hərdən su içirdi, amma qonaq heç su da içməyib, öz ibadətilə məşğul olurdu. Qonaq o qədər ibadət etdi ki, abid təəccüblənib dedi: Qardaş, sən yaman çox ibadət edirsən. Hərdən bir az istirahət et, hərdən bir az su iç, hərdən bir tikə çörək ye. Şeytan dedi: Axı sən bilmirsən, mən nəyə görə bu qədər ibadət edirəm. Abid soruşdu: axı sən nə etmisən? Şeytan dedi: Mən elə bir günah etmişəm ki, hər dəfə həmin günah yadıma düşəndə boğazım quruyur və iştaham kəsilir. Həmin günah yadıma düşəndə heç su içmək belə könlümdən keçmir. Həmin günah yadıma düşəndə gözümdən yuxu qaçır, yata bilminəm. Ona görə də yalnız Allaha ibadət etmək istəyirəm. Əgər sən də mənim kimi ibadət etmək istəsən, gərək elə bir günah edəsən ki, həmişə o günah yadına düşsün və ibadətdən ayrılmayasan. Şeytan abidi tərəddüd içərisində qoyub onu inandıra bildi. Abid dedi: Indi mən hansı günahı edim ki, sənin kimi ibadət etməyə nail olum? Şeytan dedi: Filan küçədə bir pozğun qadın var. Onun yanına gedib, onunla bircə dəfə zina et. Sonra tövbə edib ibadətinlə məşğul ol. Tövbə edəndən sonra həmin günah tez-tez yadına düşəcək və mənim kimi ibadət edəcəksən. Abid yola düşüb həmin qadını axtarmağa başladı. Nəhayət, qadının evini tapıb qapını döydü. Qadın qapını açanda qarşısında nurani bir insanın dayandığını görüb soruşdu: Sənə kim lazımdır? Abid dedi: Mən filan iş üçün gəlmişəm. Qadın dedi: Axı sən görkəmindən elə bir adama oxşamırsan. Gəl bu işi

görmə. Sənin nuraniliyinə bu iş yaraşmaz. Abid başına gələnləri ona danışdı və dedi: Mən də istəyirəm ki, günah edəndən sonra tövbə edim və daha çox ibadətlə məşğul olum. Mən bu işi ibadət eşqinə görə edirəm. Qadın hər şeyi başa düşdü və dedi: Səni aldadıblar. Düzdür ki, mən özüm günahkaram, amma bil ki, günah etməmək günahdan sonra tövbə etməkdən çox asandır. Sən bu günahı edəndən sonra bəlkə Allah sənin tövbəni qəbul etməsə, o zaman nə edəcəksən? Qadın onu başa salıb geri qaytardı. Abid də səhvini başa düşüb öz ibadəti ilə məşğul olmağa başladı. Bu hadisədən bir müddət sonra həmin qadın dünyasını dəyişdi. Hamı onun fasiq insan olduğunu bilirdi. Ona görə də heç kim onun dəfnində iştirak etmədi. Üç gündən sonra Allah-təala Musa Peyğəmbərə(ə) vəhy göndərərək buyurdu: Ya Musa, filan yerdə bir qadın dünyadan gedib. Get göstəriş ver, ona qüsl versinlər. Özün onun namazını qıl və dəfn et. Musa Peyğəmbər(ə) həmin ünvana gəldi və camaatı dəfndə iştirak etməyə çağırdı. Camaat təəccüblə dedi: Ya Musa, bu pozğun bir qadın idi, sənin kimi bir Peyğəmbərin bu qadını dəfn etməsi çox təəccüblüdür. Musa Peyğəmbər(ə) buyurdu: Mənə bu qadını dəfn etməyi Allah əmr edib. Həmçinin Allah onu bağışladığını və cənnətə daxil etdiyini xəbər verməyi mənə əmr edib.” Dedilər: Ya Musa, nəyə görə Allah onu bağışlayıb? Musa buyurdu:” O qadın bir bəndəni pis işdən çəkindirdiyi üçün Allah bu əməlin nəticəsində onun bütün günahlarını bağışladı.”

Bütün bu ayə, hədis və rəvayətlərdən açıq şəkildə məlum olur ki, əmr be məruf və nəhy əz münkər əməli ən mühüm məsələlərdəndir. Bir cəmiyyətin sağlam və nurani olması üçün bu əməlin tətbiqi vacibdir.

## “La ilahə illəllah” kəlməsi əmr be məruf və nəhy əz münkərlə qorunur

Yuxarıda qeyd olundu ki, imanın şərti əmr be məruf və nəhy əz münkərdir. Hətta «La ilahə illəllah» kəlməsi müsəlmanın ilk kəlməsidir. «La ilahə illəllah»ı qoruyub yaşatmaq üçün əmr be məruf və nəhy əz münkər əsas şərtlərdən biridir. Həzrət Peyğəmbər(s) bu haqda belə buyurur:

قَال رَسُولُ اللهِ(ص): لا تَزال "لا اِله اِلاّ الله" تَنْفَعُ مَنْ قالَها, وَ تَرُدُّ عَنْهُمْ الْعَذاب وَ النِقْمَة مَا لَمَ يَسْتَخِفُّوا بِحَقِّهَا قَالوا: يا رَسُولَ الله, وَما الْإِسْتِخْفاف بِحَقِّها؟ قَال: يَظْهَرُ الْعَمَلُ بِمَعاصِیَ الله فَلا يُنْكَر وَلا يُغَيَّر

-Hər kəs “La ilahə illəllah” kəlməsini dilinə gətirərsə, bu kəlmə həmin şəxsə mənfəətini göstərər, əzabı və bəlanı ondan uzaqlaşdırar. Bir şərtlə ki, “la ilahə illəllah” kəlməsi təhqir olunmaya və yüngül sayılmaya.

Soruşdular: Ya Rəsulallah, “la ilahə illəllah” kəlməsi necə təhqir olunub, yüngül sayıla bilər?

Həzrət (s) buyurdu: “Insanlar cəmiyyətdə günah etdikləri zaman onları bu işlərdən çəkindirmədikdə bu kəlmə təhqir olunub, yüngül sayılar.”

Bu hədisdən başa düşürük ki, hər hansı bir cəmiyyətdə günah işlər görüldükdə, onları bu qəbahətli işlərdən çəkindirən olmasa, demək “La ilahə illəllah” kəlməsi təhqir olunmuşdur. Əgər təhqir olarsa, o zaman bu mübarək kəlmə həmin cəmiyyətə nə xeyir verər, nə də əzabı onlardan uzaqlaşdırar. “La ilahə illəllah” kəlməsinin cəmiyyətə o zaman mənfəəti olar və əzabı onlardan uzaqlaşdırar ki, həmin cəmiyyətdə yaxşı işlərə dəvət olunsun və pis işlərdən bir-birini çəkindirsinlər.

## Əmr be məruf və nəhy əz münkərin şərtləri

Bura qədər əmr be məruf və nəhy əz münkər etməyin mühüm və vacib əməllərdən olmasını qeyd etdik. Həmçinin bildik ki, bir cəmiyyətin sağlam və nurani inkişaf etməsi üçün bu əməl bütün əməllərdən önəmli xarakterə malikdir. Indi isə bu əməlin şərtləri ilə tanış olaq. Bu əməli edən şəxs dörd şərtə riayət etməlidir. Yəni əmr be məruf və nəhy əz münkərin dörd şərti vardır ki, əgər bu şərtlərdən birinə riayət olunmasa, o zaman əmr be məruf və nəhy əz münkər öz yerini tutmamış olacaq. Yaxşı işlərə dəvət, pis işlərdən çəkindirməyin dörd şərti vardır.

Birinci şərt budur ki, camaatı yaxşı işlərə dəvət edən şəxs öncə həmin işi tanımalı, həmçinin pis işlərdən çəkindirən şəxs öncə həmin pis əməli tanımalıdır. Yəni bir mömin başqa bir mömini düz yola dəvət edirsə, əvvəlcə özü düz yolu tanımalı, sonra isə dəvət etməlidir. Bu əmr be məruf və nəhy əz münkərin birinci şərtidir.

Əlbəttə, qeyd etmək lazımdır ki, bu əməl şəriət hökmü olduğundan insanın boynunda vacib olan əməllərdəndir. Buna görə də hər bir müsəlman bu əməli etdikdə əvvəl onun şərtlərini bilməli, sonra tətbiq etməlidir. Bu əməlin incəlikləri və xırdalıqları vardır ki, şəriət kitablarında və risalələrdə qeyd olunmuşdur.

İkinci şərt bundan ibarətdir ki, əmr be məruf və nəhy əz münkər etdiyin şəxs etdiyi günahda israrlı olsun. Yəni bir şəxs bir dəfə günah edibsə və özü də həmin etdiyi günahı başa düşüb peşman olubsa, daha ona əmr be məruf və nəhy əz münkər etməyin lüzumu yoxdur. Çünki özü bu əməlin pis olduğunu başa düşmüş və peşman olmuşdur.

Əmr be məruf və nəhy əz münkər günahda israr, təkrar edən şəxslərə tətbiq olunmalıdır.

Üçüncü şərt belədir ki, insan əmr be məruf və nəhy əz münkər etməklə həmin şəxsə təsir edəcəyini ehtimal etmiş olsun. Yəni bu işi görməklə günahkara və ya onun yanında olanlara təsir edəcəyini ehtimal edərsə, o zaman əmr be məruf və nəhy əz münkər insana vacib olur. Əgər təsiri olmayacağına yəqinlik hasil edilərsə, o zaman əmr be məruf və nəhy əz münkər etmək vacib deyil.

Dördüncü şərt isə budur ki, əmr be məruf və nəhy əz münkər etməklə insanın canına, malına və abrına ziyan gəlməməlidir. Əgər bir insan yəqin bilsə və ya güman etsə ki, bu yerdə əmr be məruf və nəhy əz münkər etməklə malına, canına, abrına, imanına və s. ziyan dəyəcək, o zaman bu əməl vacib deyil. Lakin burada bir incəlik vardır ki, bu işi görərkən insana dəyən ziyanı hesablamalıdır. Məsələn, əmr be məruf və nəhy əz münkər etdikdə insana dəyəcək ziyanı müqayisə etməlidir. Məsələn, 4-5 nəfər yığışıb bir möminin evinə oğurluğa getmək qərarına gəlirlər. Bir şəxs bu işdən xəbər tutur və həmin şəxsləri bu işdən çəkindirməklə ona yüz manat ziyan dəyəcəyini bilir. Lakin həmin möminin isə yüz min manatı təhlükədədir. Bu zaman insan gərək yüz manatlıq qazancından əl çəkməklə həmin möminin yüz min manatını qorusun və oğruları bu işdən çəkindirsin. Bu elə bir məsələdir ki, hər bir insan bu əməlini həyata keçirərkən ziyanın çoxluğunu və ya azlığını özü müqayisə edə bilər. Əgər bir şəxsin canı təhlükədədirsə, insan onun canını bu təhlükədən qurtarmaq üçün əmr be məruf və nəhy əz münkər etməklə ona min manat ziyan gələcəksə, o zaman bu iki işi öz imanının tərəzisi ilə ölçüb bir nəticəyə gəlməlidir. Əsas

mövzumuzdan uzaqlaşmamaq üçün bu məsələnin xırdalığına getmirəm.

Buna görə də hər bir əmr be məruf və nəhy əz münkər edən şəxs bu şərtlərə mütləq riayət etməlidir.

## Əmr be məruf və nəhy əz münkərin mərhələləri

İnsanları yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirməyin müəyyən mərhələləri vardır. Insan əmr be məruf və nəhy əz münkər edərkən bu işi mərhələlərlə həyata keçirməlidir.

Bu əməlin birinci mərhələsi budur ki, insan pis iş görən şəxsin əməlinə qarşı öz etiraz və nifrətini bildirməlidir. Belə etdikdə ola bilər ki, həmin günahkar ona qarşı kiminsə nifrət bəslədiyini hiss etməklə bu işdən çəkinər. Əgər günahkar etiraz və nifrəti büruzə verməklə etdiyi günahdan əl götürərsə, ikinci mərhələyə ehtiyac olmaz. Məsələn, içki içən bir şəxs birinin qızını almaq üçün elçi göndərir. Həmin şəxs içkiyə və içki içənə öz nifrətini bildirmək üçün onlara razılıq verməməlidir. Bu əməli etməklə qoy başa düşsün ki, ona içki içdiyinə görə qız vermədilər. Bəlkə bu hərəkətindən utanıb içkini tərgidər. Əgər o, bununla öz əməlinin qəbahətini başa düşərsə, daha əmr be məruf və nəhy əz münkərin ikinci mərhələsinə keçməyə ehtiyac olmaz. Məsələn, günahkar bir insan xəstələnərkən onun yanına getməməklə onu etdiyi pis işlərdən çəkindirmək olar. Onun yanına getməməklə bəlkə həmin şəxs, həmçinin onun kimi başqa günahkarlar etdikləri günahdan peşman olmalarını başa düşərlər. Yəni başa düşərlər ki, etdikləri günaha görə hətta xəstələndikdə belə onların yanına gələn olmadı. O

cümlədən günahkar insanın dəfn mərasimində iştirak etməməklə, əmr be məruf və nəhy əz münkər olunmalıdır. Bu işi görməklə başqaları da başa düşər ki, o, günah etdiyinə görə onun dəfnində iştirak etməyiblər. Hətta, məsələn, içki içən şəxsə əmanət tapşırılmamalıdır. Qoy o, bilsin ki, içki içdiyinə görə heç kəs onu əmin adam hesab etmir. Bəlkə bunun vasitəsilə etdiyi günahın qəbahətini başa düşdü. Bu kimi hərəkətlərlə günahkar insanı günahdan çəkindirmək lazımdır. Əgər o, bununla həmin günahı tərgidərsə, o zaman ikinci mərhələyə keçməyə ehtiyac yoxdur.

Hətta insan günahkar şəxslə əlaqəsini kəsməklə və get-gəli azaltmaqla onu pis işdən çəkindirməlidir. Əlbəttə, qeyd etmək lazımdır ki, bəzən elə günah edən insanlar olur ki, onlarla əlaqəni möhkəmləndirməklə onları pis işdən çəkindirmək olar. Bəzi insanlar da var ki, onlarla əlaqəni kəsməklə etdikləri əməlinin pis olmasını və onu tərgitməsini başa salmaq olar. Bu seçimi insan ozü etməlidir. Əgər bir günahkar şəxslə əlaqəni kəsməklə onu hidayət etmək olarsa, əlaqəni kəsin, əgər əlaqəni genişləndirməklə başa düşərsə, əlaqəni genişləndirin. Buna əməl etməyi insan öz ağlı ilə hiss edib başa düşməlidir.

İkinci mərhələ budur ki, əgər yuxarıda qeyd olunan əməllərlə günahkar öz günahından əl çəkməzsə, o zaman onu başa salmaq lazımdır. Həmin günahkarı bir neçə yolla başa salmaq olar. Biri budur ki, ona işarə etməklə etdiyi günahın pis olduğu başa salınmalıdır. Məsələn, namaz qılmayan yaxın bir şəxsə ad günündə və ya hansısa münasibətlə əlaqədar hədiyyə apararkən, hədiyyənin arasına bir canamaz qoyub verməklə onu yola gətirmək olar. O, hədiyyəni açıb baxarkən, onun arasında canamazı

görməklə başa düşər ki, namaz qılmaq vacibdir. Əgər bir günahkar işarə ilə günahından əl çəkməzsə, onu şirin dillə başa salıb, günahdan çəkindirmək lazımdır. Allah-təala peyğəmbərləri göndərərkən camaatı şirin dillə başa salmağı əmr etmişdir. Allah-təala Musaya (ə) və qardaşı Haruna belə buyurur:

اذْهَبَا إِلَى فِرْعَوْنَ إِنَّهُ طَغَى  فَقُولَا لَهُ قَوْلًا لَّيِّنًا لَّعَلَّهُ يَتَذَكَّرُ أَوْ يَخْشَى

-Fironun yanına yollanın. O, həqiqətən, azğınlaşıb həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə öyüd-nəsihət qəbul etsin, yaxud Allahdan qorxsun.[1]

Əgər bir günahkarı şirin danışıqla günahından döndərmək mümkün deyilsə, rəsmi şəkildə və ciddi demək lazımdır. Əgər bunun təsiri olmasa və insan başa düşsə ki, əsəbi halda dediyi söz təsir edəcək, o zaman əsəbiləşmək lazımdır. Həmçinin hədə-qorxu gəlməklə günahkarı etdiyi əməldən çəkindirmək lazım gələrsə, gərək hədə-qorxu gəlməklə onu günahdan çəkindirəsən. Məsələn, bir narkoman etdiyi əməllərlə özünün, ailəsinin və ata-anasının evini yıxır. Ona hədə-qorxu gəlməklə bu işdən çəkindirmək mümkün olarsa, o zaman hədə-qorxu gəlməlisən. Əgər başqa adamın vasitəsilə ona təsir etmək mümkündürsə, o zaman başqa birisini bu işə cəlb etməlisən. Hətta bir günahkarı zalım adamın vasitəsilə çəkindirmək mümkündürsə, yəni zalım bir şəxsin ona göz ağartması və ya qorxutması ilə bu işin baş tutacağını bilirsənsə, o zaman həmin zalım adamın qapısına getməlisən. Bu məsələnin belə təkidlə buyurulmasının səbəbi budur ki, əgər icmada günah olarsa, bütün cəmiyyət cəhənnəmə tərəf yönələr. Həzrət Peyğəmbər(s) bu barədə

---

[1] Taha, 43- 44

buyurur: “Əgər bir şəxs gizlicə günah edirsə, bu günah bütün insanlara ziyan verməz, yalnız günahkarın özünə ziyan verər. Amma bir şəxs günahı aşkar şəkildə edərsə və onu bu işdən çəkindirməsələr, o zaman onun etdiyi günah bütün cəmiyyətə ziyan verəcək.”

Əmr be məruf və nəhy əz münkərin üçüncü mərhələsi fiziki təsir göstərməklə yerinə yetirilməlidir. Yəni birinci və ikinci mərhələ ilə günah edən insanı günahdan çəkindirmək mümkün deyilsə, o zaman fiziki hərəkətlərlə onu başa salmaq lazımdır. Məsələn, adamlar bir yerdə içki içmək, yaxud zina etmək istəyirlər. Əgər sənin də ora getməyinlə onlar bu işdən əl çəkəcəklərsə, o zaman ora getməlisən. Həmçinin, məsələn, bir içki içən insanın əlindən araq şüşəsini almaqla onu bu işdən çəkindirmək mümkün olarsa, gərək bu işi görəsən. Hətta səni özünə yaxın bilən bir günahkarı azacıq kötəkləməklə başa salmaq mümkün olarsa, bu işi də görmək vacibdir. Lakin kötəkləmək üçün Imam Zamanın(ə.c) özündən, özü olmasa, müctəhiddən icazə alınmalıdır. Çünki camaatın yiyəsi və sahibi vardır. Hər yerindən duran şəxsin kimisə kötəkləməyə və ya incitməyə ixtiyarı yoxdur. Bu işdə qanunsuzluğa yol vermək olmaz. Bu işə görə fəqihdən icazə alınmalıdır.

Ümumiyyətlə, əmr be məruf və nəhy əz münkərin xırdalıqları və incəlikləri vardır ki, hər bir müsəlman bunları öyrənib bilməlidir. Həm şərtlərinə əməl etməli, həm də mərhələlərindən tam incəliyi ilə xəbərdar olmalıdır.

Əmr be məruf və nəhy əz münkər cəmiyyətdə ən mühüm yer tutan məsələlərdəndir. Bu əməl insanların kamala çatması üçün cəmiyyətdə mühüm rol oynayır. Həm Quranda, həm də hədislərdə bu əməlin insanlar

arasında vacib və önəmli əməl olması təkidlə bəyan edilmişdir. Kərbəlada İmam Hüseynin(ə) xütbələri və hərəkətləri bu əməlin vacibliyini və mühüm olmasını bizə bir dərs olaraq bəyan edir.

## İmam Hüseyn(ə) və əmr be məruf, nəhy əz münkər

İmam Hüseyn(ə) Minada xütbə oxuyarkən bu ayəni tilavət etdi:

وَالْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنكَرِ

-Mömin kişilər və mömin qadınlar bir-birilərinin dost, yardımçı və başçılarıdırlar. *(Bir-birilərinə)* yaxşı iş görməyi əmr edir və pis *(sayılan)* işdən çəkindirirlər.

Həzrət(ə) bu ayəni oxuduqdan sonra belə buyurdu:

فَبَدَأَ الله بِالأَ مْرِ بِالْمَعْرُوف وَالنَّهيِ عَنِ الْمُنْكَر فَرِيضَةً مِنْهُ لِعِلْمِهِ بِأَنَّها اِذا اُدِّيَت وَ اُقِيمَت اِسْتِقامَتِ الْفَرائِض كُلُّها

-Allah-təalanın əmr be məruf və nəhy əz münkəri başqa vacib əməllərdən əvvəl buyurmasının səbəbi budur ki, bütün vacib əməllərin hamısı əmr be məruf və nəhy əz münkərin vasitəsilə möhkəmlənir.

İmam Hüseyn(ə) başqa bir hədisdə əmr be məruf və nəhy əz münkər barədə buyurur:

لا يَحِلُّ لِعِينٍ مُؤْمِنَةٍ تَرَى الله يُعْصَى فَطَرْفُ حَتّى يُغَيِّرُه

-Allaha imanı olan gözlər Allaha günah edildiyini görərsə, onların vəziyyətini dəyişməli və günahdan çəkindirməlidir. Yox, əgər bu işi bacarmasa, həmin yerdə olmamalıdır. (Yəni mömininin gözü günahı görməməlidir.

Günah olacaq  yerdədirsə, həmin günahın qarşısını almalıdır, əgər bacarmırsa, oranı tərk etməlidir.)

Həzrətin(ə) bu hədisindən bizə aydın olur ki, həqiqi mömin günah edilən bir yerdə olarsa, həmin camaatı günahdan çəkindirməlidir.  Ümumiyyətlə, cəmiyyətdə insanlar bir-birini günahlardan çəkindirib, yaxşı işlərə dəvət etsələr, həmin cəmiyyət səadətə nail olacaq. Çünki hər hansı bir cəmiyyətdə günah işlər görülərsə və həmin insanları günahdan çəkindirən olmasa, o cəmiyyət uçuruma doğru gedib həlak olacaq.

Əmr be məruf və nəhy əz münkər o qədər mühüm məsələdir ki, İmam Hüseyn (ə) öz hərəkatı, qanının tökülməsi bahasına da olmuş olsa, bu işi gördü və bütün insanlara başa saldı ki, əgər bu əməl bir cəmiyyətdə tərk olunarsa, insanlar həlakətə uğrayar.

İmam Hüseyn(ə) hərəkət etməzdən öncə babası Peyğəmbərin(s) qəbrinin ziyarətinə getmişdi. Ikinci gecə Mədinədən çıxmazdan öncə  Peyğəmbərin(s) qəbrinin üstünə gedib, babasını ziyarət edərkən Allahla belə münacat etdi:

اَللّهُمَّ اِنَّ هذا قَبرُ نَبِيِّكَ مُحَمَّد(ص) وَ اَنَا ابْنُ بِنْتِ نَبِيِّك وَ قَد حَضَرَنِى مِنَ الأَمر ما قَد عَلِمْتَ. اَللّهُمَّ اِنِّى اُحِبُّ الْمَعرُوف وَ اُنْكِرُ الْمُنْكَر وَ اَسْئَلُكَ يا ذَاالْجَلالِ وَالإِكْرام بِحَقِّ الْقَبْر وَمَن فِيهِ اِلاّ اخْتَرْتَ لِى مَا هُو لَكَ رِضىً وَ لِرَسُولِكَ رِضىً

-İlahi, bu Sənin Peyğəmbərin Məhəmmədin(s) qəbridir. Və mən də Peyğəmbərinin(s) qızının oğluyam. Mənim qarşıma bir çətinlik çıxıb və Sən də bunu bilirsən. İlahi, mən mərufu sevirəm. (Sənin razı olduğun işləri sevirəm.) Və münkərdən acığım gəlir. (Sənin acığın

gəldiyi işlərdən mənim də acığım gəlir.) Ey cəlal və kərəm sahibi, sənə bu qəbrə və bu qəbrdə yatan insana and verirəm, Sənin və Peyğəmbərinin(s) razı olduğu işləri mənim barəmdə inayət et.

Həzrət İmam Hüseyn(ə) öz hərəkatının məqsədini bir neçə vasitə ilə insanlara çatdırdı. Həmin vasitələrdən biri də yazdığı məktublar idi.

İmam(ə) həmin məktublardan birini Məhəmməd ibn Hənəfiyyəyə yazmışdı. Həzrət(ə) qardaşı Məhəmmədə vəsiyyət və sifarişini, həmçinin öz qiyamının hədəfini belə yazmışdı:

-Bu, Hüseyn ibn Əlinin Ibn Hənəfiyyə adı ilə tanınmış qardaşı Məhəmmədə vəsiyyətidir...

İmam Hüseyn(ə) həmin vəsiyyətnamədə Allaha həmd-səna edib, Peyğəmbər(s) və Əhli-beytinə salam-salavatdan sonra belə yazmışdı:

اِنِّى لَمْ اَخْرُج اَشِراً وَ لا بَطِرًا وَ لا مُفْسِدًا وَ لا ظالِماً وَ اِنَّما خَرَجْتُ لِطَلَبِ الإِصْلاح فِى اُمَّةِ جَدِّى. اُرِيدُ اَنْ آمُرَ بِالْمَعْرُوف وَ اَنْهى عَنِ الْمُنْكُر وَ اَسِيرَ بِسِيرَةِ جَدِّى وَ اَبِى

-Mən nə gəzib dolanmaq üçün Mədinədən yola düşürəm, nə də yer üzündə zülm edib fəsad törətmək üçün. Mənim bu səfərim ancaq cəddimin ümməti arasında islahat aparmaq üçündür. Mən əmr be məruf və nəhy əz münkər, cəddim və atamın dinini saxlamaq üçün çıxıram.

Həzrət İmam Hüseyn(ə) bu qiyamının məqsədini açıq şəkildə insanlara çatdırdı və bildirdi ki, həm cəddinin ümmətini islah etmək üçün, həm də əmr be məruf və nəhy əz münkər prinsipini həyata keçirmək üçün hərəkət edir.

Burada sual oluna bilər ki, əmr be məruf və nəhy əz münkər etməyin şərtlərindən biri budur ki, bu əməli

edərkən insanın canına, malına, ailəsinə ziyan gəlməməlidir. Belə olduqda bəs nə üçün İmam Hüseyn(ə) bu işi gördü, öz əhli-əyalını özü ilə Kərbəlaya apardı? Halbuki İmamın(ə) özünü və səhabələrini öldürərək başlarını kəsib nizələrə taxdılar. Əhli-əyalını əsir apardılar. Olan-qalanını qarət etdilər. Əsirləri apararkən qamçı, şallaqla vura-vura təhqir etdilər. Belə olduqda İmamın(ə) əmr be məruf və nəhy əz münkər etməsi nə dərəcədə düzgün idi?

Cavab belədir ki, İmam Hüseyn(ə) bütün bunların hamısını tərəziyə qoyub ölçdü: Ya Peyğəmbərin(s) gətirdiyi din, seyyidiş-şühəda Həmzənin qanı, İslam yolunda şəhid olanların qanı hədərə gedib, Bəni- Üməyyə insanlara hakim kəsilib, İslamın kökünü kəsməlidir, ya da mənim başım nizələrə vurulmaqla, əhli-əyalım əsir düşməklə, olan- qalanım qarət olmaqla İslam yaşamalıdır. Həzrət(ə) bunları müqayisə etdikdən sonra buyurdu:

إِنْ كانَ دِينُ مُحَمَّدٍ لا يَسْتَقِيمُ إِلاّ بِقَتْلِى يَاصُيُوفُ خُذُونِى

-Əgər cəddim Məhəmmədin dini mənim ölməyimlə diri qalacaqsa, elə isə ey qılınclar, doğrayın məni!

Məhəmməd Hənəfiyyə İmam Hüseynin(ə) Məkkədən çıxdığını eşitdikdə özünü qardaşına yetirib dedi: Qardaş, eşitdim ki, Məkkədən çıxmaq istəyirsən?

İmam(ə) buyurdu: Bəli.

Məhəmməd dedi: Bilmirsənmi Kufə əhli vəfasızdır və onlara etibar etmək olmaz? Görmədinmi onlar atan Əli(ə) ilə necə rəftar etdilər?

İmam(ə) buyurdu: Sənin bu barədə təklifin nədir?

Məhəmməd dedi: Mənim birinci təklifim budur ki, Məkkədə qalıb istirahət edəsən. İkinci təklifim isə budur ki, əgər Məkkədə qalmaq istəmirsənsə, onda Yəmənə get.

Çünki Yəməndə Peyğəmbəri(s) sevənlər və vəfalı insanlar çoxdur. Ora getsən, sənə hörmət edərlər və sənin üçün istədiyin şəraiti hazırlayarlar.

İmam Hüseyn(ə) bildi ki, Məhəmmədin söz tutumu azdır və onu başa düşməyəcək. Ona görə də buyurdu: Bu barədə fikirləşərəm.

Məhəmməd İmamdan(ə) ayrılıb getdi. Bir neçə saatdan sonra xəbər tutdu ki, İmam(ə) Məkkədən hərəkət etməyə başlayır. Özünü Imama (ə) yetirib dedi: Ey Allahın höccəti, axı mən sənə dedim ki, Kufəyə getmə.

İmam(ə) buyurdu: Yuxuda cəddim Peyğəmbəri(s) gördüm. O, mənə buyurdu:

يَا حُسَيْنُ أُخْرُجْ فَإِنَّ اللهَ تَعالى أَرادَ أَنْ يَراكَ قَتِيلاً

-Ya Hüseyn! Çıx, həqiqətən Allah səni qətil (qanına boyanmış) görmək istəyir.

Məhəmməd dedi: Əgər Allah sənin şəhid olmağını görmək istəyirsə, bəs onda ailəni, qızlarını və körpə uşaqları nəyə görə aparırsan?

وَقَدْ شآءَ أَنْ يَراهُنَّ سَباياً

İmam(ə) buyurdu: Çünki Allah onları da əsir görmək istəyir.

İmam Hüseyn(ə) bildirdi ki, mənim bugünkü vəzifəm şəhid olmaq və ailəmin isə vəzifəsi əsir olmaqdır. Çünki Allah-təala ondan bunu istəyirdi. Buna görə də İmam Hüseyn(ə) bu məsələni başa düşdü və öhdəsinə düşən vəzifəsinə əməl etdi.

Allah-təala öz dinini həmişə diri saxlayacağını vədə vermişdir. Sual oluna bilər ki, Allah hansı vasitələrlə dinini diri saxlayır? İmam Hüseyn(ə) Allahın bu iradəsinin bariz nümunəsidir. İmam Hüseyn(ə) Allahın iradəsini öz canı, qanı bahasına diri saxladı. Həzrət Peyğəmbər(s)

Məkkədən Mədinəyə, İmam Hüseyn(ə) isə Mədinədən Kərbəlaya hicrət etməklə İslamı diri saxladılar. Həzrət Peyğəmbər(s) İmam Hüseyn(ə) barədə belə buyurmuşdur: "Hüseyn məndəndir, mən də Hüseyndənəm."

İmam Hüseyn(ə) həm özü əmr be məruf və nəhy əz münkər etdi, həm də ondan sonra Həzrətin(s) Əhli-beyti(ə) və sadiq insanlar bu əməli həyata keçirdilər. İmam Hüseynin(ə) qətli barədə İbn Ziyada xəbər verdilər. Əsirləri Kufəyə gətirəndən sonra İbn Ziyad minbərə çıxıb camaata dedi: Həmd olsun Allaha ki, haqqı və haqq əhlini qalib etdi. Yezidə və onun partiyasına bu işdə kömək olaraq yalanı şiələri ilə birlikdə öldürdü. İbn Ziyad bu sözləri deyəndən sonra orada əyləşənlərin arasından qoca, ağsaqqal bir kişi ayağa qalxdı. Onun adı Abdulla ibn Əfif idi. O, Həzrət Peyğəmbərin(s) yaxın səhabələrindən biri idi. Onun hər iki gözü də görmürdü. Gözünün birini Cəməldə, o birini isə Siffeyn döyüşündə itirmişdi. Abdulla ayağa qalxıb dedi: İbn Ziyad, yalançı sən özünsən, sənin atandır və səni bura göndərəndir. Nə danışdığını bilirsənmi? Allah sənə lənət eləsin. İbn Ziyad qəzəblənib soruşdu: Bu kişi kimdir? Dedilər: Abdulla ibn Əfif. Abdulla dedi: Ey Allahın düşməni, sən Peyğəmbərin(s) pak övladlarını öldürürsən və elə güman edirsən ki, sən müsəlmansan? İbn Ziyad onu tutmağı əmr etdi. Abdulla Əzəd qəbiləsindən olduğu üçün məclisdə əyləşən həmin qəbilədən olan böyüklər imkan vermədilər ki, İbn Ziyad bu işi görsün. Gəlib Abdullanı dövrəyə aldılar. İbn Ziyad gördü ki, onu tutsa, çaxnaşma düşə bilər. Abdullanı evə apardılar. İbn Ziyad gecə fərman verdi ki, onu tutub saraya gətirsinlər. Abdullanı saraya gətirdikdən sonra boynunu vuraraq şəhadətə yetirdilər.

Əsirləri Şama apardılar. Şam şəhərinə girərkən bir qoca kişi əsirlərə yaxınlaşıb dedi: Allaha şükür olsun ki, sizi öldürüb, Yezidi qalib etdi. İmam Səccad(ə) ona buyurdu: Sən Quran oxuyursanmı? Qoca dedi: Bəli.İmam Səccad(ə) buyurdu: Bu ayəni oxumusanmı?

قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى

De: Mən sizdən bunun (peyğəmbərliyimin) müqabilində heç bir şey istəmirəm. Lakin mənə yaxşılıq etmək istəyirsinizsə, yaxınlarıma (Əhli-beytimə) da məhəbbət bəsləyin.

Qoca dedi: Bəli. İmam Səccad(ə) buyurdu: «Yaxınlarımın haqqını əda edin» ayəsini oxumusanmı? Qoca dedi: Bəli. İmam Səccad(ə) buyurdu: Allaha and olsun ki, Quranda buyurulan Peyğəmbərin(s) həmin yaxınları bizik. İmam Səccad(ə) buyurdu: Bu ayəni oxumusanmı?

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

-Həqiqətən, Allah siz Əhli-beytdən bütün çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər.

Qoca dedi: Bəli. İmam Səccad(ə) buyurdu: And olsun Allaha, Əhli- beyt bizik. Qoca təəccüblənib soruşdu: Sizi Allaha and verirəm, siz Peyğəmbərin(s) balalarısınız? İmam(ə) buyurdu: Allaha and olsun ki, biz Peyğəmbərin(s) itrəti və Əhli-beytiyik. Qocanın gözləri yaşla doldu və üzü üstə İmamın(ə) ayaqlarına düşüb ağlamağa başladı. Imamdan(ə) üzr istəyib dedi: Sizin qatillərinizə və sizə zülm edənlərə nifrət edirəm.

Bu mənzərə camaata təsir etdi. Yəzid gördü ki, belə getsə bütün işlər korlanacaq. Həmin kişini öldürmək barədə göstəriş verdi. Qocanı tutub öldürdülər.

Beləliklə, İmam Hüseyn(ə) və onun səhabələri əmr be məruf və nəhy əz münkər prinsipini həm özləri həyata keçirdilər, həm də əməli surətdə bütün müsəlmanlara öyrətdilər. İmam Hüseyn(ə) şəhid olandan sonra əsirlər və uzaqda olan Hüseynsevər insanlar bu əməli yerinə yetirməklə İslamın və cəmiyyətin uçuruma doğru yuvarlanmasına mane oldular.

# SƏKKİZİNCİ DƏRS

## KƏRBƏLADA QADINLARIN ÖYRƏTDİYİ DƏRSLƏR

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِلِ وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

-Kərbəlada İmam Hüseynin(ə) yaradıb qurduğu bu məktəb bütün insanlara nümunəvi örnəklər və müəyyən dərslər öyrədir. Bu dərslər hər bir insanın insaniyyətə və kamilliyə çatmasında mühüm rol oynayır. O cümlədən aşura günü Kərbəlada iştirak edən qadınlar bütün dünya qadınlarına dərslər öyrədir. Bu mövzuya başlamazdan öncə bir müqəddiməni diqqətinizə çatdırıram.

Müqəddimə belədir ki, qadınların İslamdan əvvəl və sonrakı vəziyyəti ilə tanış olduqdan sonra Kərbəla mövzusuna qayıdıb İmam Hüseynin(ə) qadınları ora aparmasının mahiyyəti ilə bağlı ətraflı söhbət açacağıq. Yəni İmam Hüseynin(ə) şəhid olacağını bildiyi halda, həyat yoldaşını, bacılarını, qızlarını, həmçinin altıaylıq körpəsini Kərbəlaya aparmaqda məqsədi nə idi? Həmçinin həmin qadınlar Kərbəlada İmamın(ə) məqsədini doğrulda bildilərmi? Bu söhbətə başlamazdan öncə qadınların İslamdan əvvəlki və sonrakı vəziyyəti ilə tanış olaq.

## Qadınların İslamdan öncəki vəziyyətləri

İslamdan öncə qadınların vəziyyəti sabit deyildi. Yəni Adəm yaranandan İslam dini zühur edənə qədər bəzi dövrlərdə qadınların vəziyyəti yaxşılaşır, bəzən də onların vəziyyəti çox pis olurdu. Bu müddət ərzində qadınların vəziyyətinin yaxşı olması çox az müşahidə olunurdu. Amma əksər zamanlarda ən pis vəziyyətdə yaşayanlar məhz qadınlar olmuşlar. Müxtəlif ölkələrə və zamanlara nəzər saldıqda görürük ki, onların həyatları da müxtəlif olmuşdur. Həmin ölkələrin bəzisində, o cümlədən Yunanıstan, İtaliya, İran, Ərəbistan, Hindistan və Afrika ölkələrində qadınların vəziyyəti çox acınacaqlı idi.

Yunanıstanda qadınların vəziyyəti belə idi ki, əgər bir kişi arvad almaq istəsəydi, pul verib qadını bazardan alardı. Orada elçilik, razılıq kimi məsələlər yox idi. Qadını bir əşya kimi bazardan alardılar. Həmçinin kişilərin qadını almaqda məqsədləri əsasən övladın olması ilə bağlı idi. Kişilər çox vaxt ailə qurmaqdan imtina edərdilər. Bu işə rəğbət bəsləmirdilər. Hər kiçik bir bəhanə tapdıqda, xüsusilə, öz istəklərinə nail olmadıqda qadını evdən qovardılar. Orada qadınların heç birinin hər hansı bir müqavilə bağlamağa haqqı yox idi. Əri öldükdən sonra heç bir qadının öz ərindən miras götürməsinə haqqı çatmırdı. Qadınların cəmiyyətdə öz rəylərini bildirmələrinə ixtiyar verilmirdi. Qadınların təlim- tərbiyə ilə məşğul olmağa qətiyyən icazələri yox idi. Hər hansı bir mülkiyyətə və ya sərvətə malik omağa ixtiyarları yox idi. Həmçinin qadının məhkəməyə gedib kimdənsə şikayət etməyə ixtiyarı çatmırdı.

Hindistanda da vəziyyət azacıq fərqli olaraq təxminən belə idi. Məsələn, qadını bazardan almasa da belə, onun

sahibinə pul verərək özünə arvad edirdilər. Ümumiyyətlə, evlənməyi özlərinə ayıb hesab edirdilər. Bəzən əgər hansı qızla evlənmək istəsəydilər, onu götürüb qaçırardılar. Orada qadın qaçırmağı pulla almaqdan özləri üçün şərəf hesab edirdilər. Özləri də belə təsəlli verərdilər ki, əgər kimsə onları qaçırarsa, deməli qədir-qiymətlərini biləcək və qayğılarına da qalmış olacaqlar. Hətta kişilər öz qadınlarını başqalarına sata bilirdilər. Qadınlar öz ərlərini başlarının ağası, bəzən də öz allahları hesab edirdilər. Camaat arasına çıxanda öz ərlərinə hörmət mənasında onlardan bir neçə addım arxada gəlirdilər. Süfrədə yemək yeyərkən bir yerdə əyləşib yeməzdilər. Qadının ixtiyarı yox idi ki, əri ilə oturub yemək yesin. Əvvəlcə kişi oturub yeyər, doyandan sonra qabağından qalanı arvadı yeyərdi.

Afrikanın bəzi yerlərində qadınların vəziyyəti çox dəhşətli və acınacaqlı idi. Belə ki, onların qadınlara qarşı bəzi çirkin əməllərindən danışmağa insan xəcalət çəkir. Orada qadınlarla heyvan kimi rəftar edərdilər. Əgər qadın xəstələnərdisə, onun sağalması üçün heç bir iş görməzdilər. Toy və başqa mərasimlərdə heyvan az olsaydı və ət qıtlığı olsaydı, qadının ətindən istifadə edib yeyərdilər. Əqidələri belə idi ki, Allah qadını kişi üçün yaradıb. Nə qədər ki, qız ərə getməyib, atasının ixtiyarında, ərə getdikdən sonra mütləq şəkildə ərinin ixtiyarında olmalı və kişi də ondan hər necə bacarırsa istifadə edə bilər. Beləliklə, həm qadını sata bilir, həm kiməsə bağışlaya bilir, hətta birinə borc kimi verirdilər. Hər növ cəza ilə cəzalandırırdılar və ən ağır işləri qadınlara gördürərdilər.

Müxtəlif ölkələrdə biri-digərindən azacıq fərqli olaraq, qadınlarla belə rəftar olunurdu. İslam dini gəlməzdən və Peyğəmbər(s) zühur etməzdən öncə ərəblərin içində də

qadınlara qarşı münasibət heç də ürəkaçan deyildi. O zamanlar hər kəsin qızı dünyaya gələrdisə, həmin şəxs özünü əskik və üzü kölgəli hesab edərdi. Heç kəs övladının qız olmasını istəmirdi. Əgər birinin qadını dünyaya qız uşağı gətirsəydi, uşağı diri-diri torpağa basdırar və ya başını kəsərdilər. Bəzi qəbilələr qız uşağı dünyaya gəldikdə, onu suda boğardılar. Bəzi qəbilələr var idi ki, hamiləliyin son vaxtlarında qadını çölə aparar, qız dünyaya gətirsəydi, uşağı öldürüb qadını evə qaytarardılar. Bəzi qəbilələr isə üç dəfə qız dünyaya gətirən qadının həm özünü, həm də uşağını diri-diri torpağa basdırardılar.

Qurani-Kərimdə bir neçə yerdə həmin insanların bu çirkin əməllərinə işarə olunmuşdur. “Təkvir” surəsinin 8-9-cu ayələrində belə buyurulur:

وَإِذَا الْمَوْؤُودَةُ سُئِلَتْ  بِأَيِّ ذَنبٍ قُتِلَتْ

-Diri ikən torpağa basdırılmış hər bir adam *(cahiliyyət dövründə diri-diri basdırılmış qızlar)* barəsində soruşulacağı zaman hansı günaha görə öldürülürdülər?

Başqa bir ayədə belə buyurulur:

وَإِذَا بُشِّرَ أَحَدُهُمْ بِالأُنثَى ظَلَّ وَجْهُهُ مُسْوَدًّا وَهُوَ كَظِيمٌ. يَتَوَارَى مِنَ الْقَوْمِ مِن سُوءِ مَا بُشِّرَ بِهِ أَيُمْسِكُهُ عَلَى هُونٍ أَمْ يَدُسُّهُ فِي التُّرَابِ أَلاَ سَاء مَا يَحْكُمُونَ

-Onların birinə qız*(ının olması)* müjdəsi verilən zaman, qəzəb onu boğduğu halda *(acıq və hiddətin çoxluğundan)* üzü qaralar.

O, verilmiş müjdənin pisliyindən öz qəbiləsindən qaçıb gizlənər *(və bilməz ki,)* görəsən onu xəcalətlə saxlasın, ya *(diri-diri)* torpaq altında gizlətsin? Bilin, pis hökm çıxarırlar![1]

[1] Nəhl, 58-59

Qeyd olunan ayələr də həmçinin İslamdan öncə qadınların vəziyyəti, həmçinin dünyaya yenicə gəlmiş qızların diri-diri basdırılması barədə xəbər verir. Belə bir vəziyyətdə İslam nazil oldu  və Peyğəmbər(s) zühur etdi. Həzrət(s) öz hərəkəti ilə camaata başa saldı ki, qız və ya oğlan olmasından asılı olmayaraq övlad müqəddəsdir.

Qız uşağı dünyaya gəldikdə özünü üzü kölgəli hiss etdikləri və ya  xəcalətdən qaçıb gizləndikləri bir zaman Peyğəmbər(s) gəldi və bu qəbahətli adət-ənənənin kökünü kəsdi. Hər hansı məclisdə əyləşərkən Xanım Fatimə(s.ə) kiçik uşaq olmasına baxmayaraq, içəri daxil olduqda, Peyğəmbər(s) ayağa qalxıb onun əllərindən öpüb yerində əyləşdirər və özü də onun yanında əyləşərdi.

İslam dini zühur edəndən sonra cinsiyyətindən asılı olmayaraq, həm kişilərə, həm də qadınlara şərafət bəxş etdi. Qurani-Kərimdə Allah-təala insanlara xitab edərkən ümumi şəkildə xitab edir. Insan dedikdə fərq etməz istər kişi olsun, istər qadın, bu xitablar hər ikisinə şamildir.

Allah-təala bir ayədə insanlara belə xitab edir:

-Ey insan, şübhəsiz, sən öz Rəbbin*(in camal və cəlalını, savab və cəzasını görməy)*ə doğru böyük bir səylə *(yaradılışla və təbii yol ilə)* çalışıb çapalayırsan. Beləliklə, sən Ona qovuşacaqsan.[1]

Digər ayədə Allah-təala belə xitab edir:

يَا أَيُّهَا الْإِنسَانُ مَا غَرَّكَ بِرَبِّكَ الْكَرِيمِ

-Ey insan, səni kərim olan Rəbbinə qarşı məğrur edən nədir?![2]

---

[1] İnşiqaq, 6

[2] İnfitar, 6

Bu ayələrdə Allah insanla danışır və ona xitab edir. Bu xitablar təkcə kişiyə və ya təkcə qadına aid deyil. Bu ayələrdə olan xitablar cinsiyyətindən asılı olmayaraq bütün insanlara şamildir.

Bu ayədə həmçinin bütün insanlara xitab olunur:

إِنَّا عَرَضْنَا الْأَمَانَةَ عَلَى السَّمَاوَاتِ وَالْأَرْضِ وَالْجِبَالِ فَأَبَيْنَ أَن يَحْمِلْنَهَا وَأَشْفَقْنَ مِنْهَا وَحَمَلَهَا الْإِنسَانُ

-Biz əmanəti[1] göylərə, yerə və dağlara təklif etdik *(onların bunu götürmək qabiliyyətlərini ölçdük)*, onlar onu *(öz öhdələrinə)* götürməkdən boyun qaçırdılar və qorxdular *(onlarda belə bir şeylə vəsflənmək səlahiyyəti olmadı və hallarının dili ilə qorxu izhar etdilər)* və insan onu boynuna götürdü...

Hədislərdə vardır ki, əgər Allah-təala Quranı heyvanlara nazil etsəydi, onun məsuliyyətinin ağırlığından bir kök heyvan tapılmazdı ki, kəsib ətindən istifadə edilsin.

لَوْ أَنزَلْنَا هَذَا الْقُرْآنَ عَلَى جَبَلٍ لَّرَأَيْتَهُ خَاشِعًا مُّتَصَدِّعًا مِّنْ خَشْيَةِ اللَّهِ وَتِلْكَ الْأَمْثَالُ نَضْرِبُهَا لِلنَّاسِ لَعَلَّهُمْ يَتَفَكَّرُونَ

-Əgər Biz bu Quranı bir dağa nazil etsəydik, mütləq onun Allah qorxusundan zəlil olub kiçildiyini və parçalandığını görərdin. Və bu məsəlləri insanlar üçün çəkirik ki, bəlkə fikirləşələr.[2]

Allah-təala bu ayələri misal çəkir və bütün insanlara xitab edir. Digər ayədə Allah-təala belə buyurur:

---

[1] Əmanət sözünün bir sıra mənaları var ki, onlardan biri Quran, biri Həzrət Əlinin(ə) vilayəti, biri Allaha səcdə etmək və s. mənaları vardır.

[2] Həşr, 21

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَى وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ

-Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir).

Bu ayədə Allah-təala cinsiyyətindən asılı olmayaraq təqvası çox olan şəxsin Allah yanında kəramətli insan olduğunu bəyan edir. Əgər bir kişinin təqvası çox olarsa, Allah yanında onun hörməti çoxdur. Yaxud bir qadının təqvası kişinin təqvasından çoxdursa, deməli onun Allah yanında şərafəti və kəraməti çoxdur.

Beləliklə, məlum olur ki, insanın kəramət sahibi olmasında qadınla kişi fərq etmir. Kişi də, qadın da hər ikisi qeyd olunan kəramətə malik ola bilər. Bu barədə başqa ayələrdə Allah-təala belə bəyan edir:

وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ

-Həqiqətən Biz Adəm övladlarına kəramət və şərafət bəxş etdik.[1]

Başqa bir ayədə Allah-təala həm müsəlman kişilərlə, həm də müsəlman qadınlarla adlarını çəkə-çəkə söhbət edir və onlara müjdə verərək buyurur:

إِنَّ الْمُسْلِمِينَ وَالْمُسْلِمَاتِ وَالْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ وَالْقَانِتِينَ وَالْقَانِتَاتِ وَالصَّادِقِينَ وَالصَّادِقَاتِ وَالصَّابِرِينَ وَالصَّابِرَاتِ وَالْخَاشِعِينَ وَالْخَاشِعَاتِ

[1] İsra,70

وَالْمُتَصَدِّقِينَ وَالْمُتَصَدِّقَاتِ وَالصَّائِمِينَ وَالصَّائِمَاتِ وَالْحَافِظِينَ فُرُوجَهُمْ وَالْحَافِظَاتِ وَالذَّاكِرِينَ اللَّهَ كَثِيرًا وَالذَّاكِرَاتِ أَعَدَّ اللَّهُ لَهُم مَّغْفِرَةً وَأَجْرًا عَظِيمًا

-Şübhəsiz, Allah müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, itaətkar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbirli, dözümlü kişilər və qadınlar, qəlbən təvazökar kişilər və qadınlar, sədəqə verən kişilər və qadınlar, oruc tutan kişilər və qadınlar, şəhvətlərini qoruyan kişilər və qadınlar, Allaha çox zikr edən kişilər və qadınların hamısı üçün məğfirət *(bağışlanmaq)* və böyük bir mükafat hazırlamışdır![1]

Allah-təala bu ayədə kişi və qadın arasında heç bir ayrı-seçkilik etmir. Istər qadın olsun, istər kişi hər kəsdə sadalanan xüsusiyyətlər olarsa, Allah onlara böyük mükafat inayət edəcək. Əgər istər kişidə və ya qadında mənfi xüsusiyyətlər olarsa, mükafat bərabər olduğu kimi, cəzada da bərabərdirlər. Bu haqda da Allah-təala Qurani-Kərimdə belə buyurur:

لِيُعَذِّبَ اللَّهُ الْمُنَافِقِينَ وَالْمُنَافِقَاتِ وَالْمُشْرِكِينَ وَالْمُشْرِكَاتِ وَيَتُوبَ اللَّهُ عَلَى الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا

-Allah münafiq kişilərə və münafiq qadınlara, müşrik kişilərə və müşrik qadınlara əzab versin. Həmçinin Allah (əmanətin təqdim olunmasının və xilqətin əsl məqsədinə müvafiq hərəkət edən) mömin kişilərə və mömin qadınlara nəzər yetirsin və onların tövbələrini qəbul etsin. Allah həmişə bağışlayan və rəhm edəndir.[2]

---

[1] Əhzab, 35
[2] Əhzab,73

Bu ayədə də həmçinin Allah qadınla kişi arasında heç bir fərq qoymur. Bəzən qadın elə bir iş görür ki, onun gördüyü bu işə görə Allah peyğəmbərini cənnətlə müjdələmək üçün həmin qadının evinə göndərir.

İmam Sadiq(ə) buyurur: “Davud Peyğəmbərin(ə) dövründə Xəlavə adında bir qadın yaşayırdı. Allah-təala Davuda(ə) həmin qadının evinə gedib, onu cənnətlə müjdələməyi əmr edir. Davud(ə) axtarıb həmin qadının evini tapır və qapını döyür. Qapını bir qadın onun üzünə açıb soruşur: Sizə nə lazımdır? Davud Peyğəmbər(ə) buyurur: Mənə Xəlavə lazımdır? Qadın deyir: Xəlavə mənəm, eşidirəm sizi? Mən Allahın peyğəmbəriyəm. Allah səni cənnətlə müjdələyib və bu xəbəri sənə çatdırmağı mənə əmr etmişdir. Qadın deyir: Bəlkə ünvanı səhv salmısan? Bəlkə Xəlavə adında başqa bir qadının evinə getməkdənsə, bura gəlmisən? Davud Peyğəmbər(ə) buyurur: Xeyr, göstərilən ünvan elə buradır. Peyğəmbərlər heç vaxt səhv etməzlər. Xəlavə deyir: Nə üçün məhz mənə bu xəbəri gətirmisən? Davud Peyğəmbər(ə) buyurur: Sən etdiyin əməlləri bir-bir say, mən deyərəm ki, hansına görə Allah səni cənnətlə müjdələyib. Xəlavə deyir, mənim xüsusi əməlim yoxdur ki, o əməli etməklə belə bir müjdəyə sahib olum. Mən həmişə Allahın qanunlarının qarşısında baş əyib, əmrlərinə tabe olmuşam. Həmişə səbr etmişəm. Mənə hər nə qədər bəla göndəribsə, həmin bəlaların qarşısında Allaha şükr etmişəm. Hətta dua edərkən Allaha deməmişəm ki, həmin bəlaları mənə nazil etmə. Öz-özümə demişəm ki, əgər Allah bu bəlaların mənim barəmdə olmasına razıdırsa, mən də razıyam. Davud Peyğəmbər(ə) buyurdu: Elə buna görə də Allah sənə bu məqamı inayət edib.”

Bəzən qadın elə məqama yüksələ bilir ki, çox kişilər həmin məqama nail ola bilmirlər. Hətta qadın Allaha itaət və ibadəti sayəsində çox böyük məqama sahib olur. Qum şəhərində 28 yaşlı bir xanımın məzarı var. O, Imam Museyi Kazımın(ə) qızı Fatimeyi Məsumə xanımdır. Onun şərəfinə və adına böyük bir mərbərə tikilmişdir. Ayətullahül-üzma Bürucerdi kimi müasir müctəhidlərin ustadı, 70 il din yolunda çalışıb dərs oxumuş və müctəhidlərə dərs demiş, əzəmətli və görkəmli bir şəxsiyyət 28 yaşlı Xanımın məzarının kənarında əyilib ağlayaraq belə deyərdi: "Ya Fatimə, cənnətdə mənə şəfaətçi ol."

Buna görə də bəzən qadın öz əməli ilə Allah yanında elə şərafət qazana bilir ki, böyük şəxsiyyətlər onun qarşısında baş əyir və qiyamət günü şəfaətçi olmağı onlardan iltimas edirlər.

Beləliklə, Allah yanında qadın və ya kişi prinsipi yoxdur. Yəni əgər bir şəxs qadın və ya kişi olmasından asılı olmayaraq təqvalıdırsa, deməli Allah yanında kəramət sahibidir. Yox, əgər təqvası yoxdursa, nalayiq hərəkətləri çoxdursa, Allahın yanında qədir-qiyməti də yoxdur.

## Qadınlar da kişilər kimi mükəlləfdir

Burada bir mətləbi əziz möminlərin nəzərinə çatdırmaq istərdim ki, qadınlar da kişilər kimi öz vəzifələrini yerinə yetirməlidir. Həmçinin qadınlar da kişilər kimi etdikləri hər bir əmələ cavabdehdirlər. Bu barədə Allah-təala Qurani- Kərimdə belə buyurur:

فَاسْتَجَابَ لَهُمْ رَبُّهُمْ أَنِّي لاَ أُضِيعُ عَمَلَ عَامِلٍ مِّنكُم مِّن ذَكَرٍ أَوْ أُنثَى بَعْضُكُم مِّن بَعْضٍ فَالَّذِينَ هَاجَرُواْ وَأُخْرِجُواْ مِن دِيَارِهِمْ وَأُوذُواْ فِي سَبِيلِي وَقَاتَلُواْ وَقُتِلُواْ لأُكَفِّرَنَّ عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلأُدْخِلَنَّهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ ثَوَابًا مِّن عِندِ اللّهِ وَاللّهُ عِندَهُ حُسْنُ الثَّوَابِ

-Beləliklə, Rəbbi onların dualarını qəbul etdi ki: «Həqiqətən Mən sizlərdən heç bir əməl sahibinin - istər kişi olsun, istər qadın, hamınız bir-birinizdənsiniz və bir-birinizlə bağlısınız - əməlini zay etməyəcəyəm. Odur ki, hicrət edən, öz evlərindən qovulan, Mənim yolumda əzab-əziyyət görən, döyüşən və öldürülən kəslərin pisliklərini mütləq təmizləyəcək və onları *(evlərinin və ağaclarının)* altından çaylar axan cənnətlərə daxil edəcəyəm. *(Bu,)* Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat yalnız Allahın yanındadır.»[1]

Bu ayədən qabaqkı ayələrdə duaların cavabında Allah-təala həmin dualara bu cavabı vermişdir. Həmçinin bu ayədə Allah-təala cinsiyyətindən asılı olmayaraq hər bir insanın etdiyi əməlinin əvəzini verəcəyini bəyan edir. Bu kimi ayələr Qurani-Kərimdə tez-tez rastımıza çıxır. Allah-təala insanlara müxtəlif formalarda xitablar edir. Məsələn, həmin ayələrdən biri belə başlanır: “Ey iman gətirənlər. Allah  bu xitabı həddi-büluğa çatmış möminlərə xitab edir”. Deməli Quranın xitabları yalnız həddi-büluğa çatanlara şamil olunur.

Mərhum Əllamə Hilli həmin şəxslərdəndir ki, həddi-büluğa çatmazdan əvvəl müctəhidlik dərəcəsinə çatmışdı. O, dahi bir şəxsiyyət idi. Bir gün o, böyük alimləri öz

---

[1] Ali-Imran,195

evinə dəvət etdi və ziyafət verdi. Ondan bu ziyafəti nəyə görə təşkil etməsinin səbəbini soruşduqda belə cavab verdi: “Bu gün mən həddi-büluğa çatmışam. Bu gündən Quranda hər nə qədər «Ey iman gətirənlər» xitabı söylənirsə, mən də onlara qoşulmuşam. Mən dünənə qədər uşaq idim, amma bu gün artıq böyümüşəm. Bu gündən Allah mənimlə danışır və mənə xitab edir. Bunu özümə böyük fəxr hesab etdiyim üçün bu ziyafəti təşkil etmişəm.”

Qeyd etməliyəm ki, həddi-büluğa çatan şəxslərin bir neçə əlamətləri olur. Onlardan biri də yaş həddinin yetişməsidir. Hədislərə və müctəhidlərin fitvasına əsasən oğlan uşağı 15, qız uşağı isə 9 yaşını keçdikdən sonra həddi-büluğa yetişir.[1] Belə olduqda məlum olur ki, onda qızın qədir-qiyməti oğlanın qədir-qiymətini üstələyir. Çünki qız oğlandan tez həddi-büluğa çataraq məqam sahibi ola bilir. Sual oluna bilər ki, nə üçün qızlar oğlanlara nisbətən daha tez həddi-büluğa çatırlar? Bu suala alimlər öz kitablarında cavab vermiş və bu barədə nəzəriyyələr yazmışlar. Onların hamısı iki dəlil və sübutun üstündə cəmləşir.

Birinci dəlil budur ki, qadınların xilqəti belədir ki, söz və moizə onlara bəzən tez təsir edir. Qadınların xilqəti bir cürdür ki, bəzi məsələlərlə əlaqədar olaraq daha tez qərar qəbul edib, həmin işi tez əncam verirlər. Buna görə də onların yaşları az da olmuş olsa belə, bu məqama tez çata bilirlər. Peyğəmbər(s) zamanında kişilərin çox olmasına baxmayaraq, Xədicə(s.ə) yeganə qadın idi ki, Peyğəmbərin(s) nidasına ləbbeyk dedi və malının hamısını

[1] Əlbəttə, bu hicri qəməri tarixi ilə hesablanmalıdır.

Həzrətin(s) ixtiyarına qoydu. Öz zamanında ilk iman gətirən və mal-dövlətinin hamısını Allah yolunda fəda edən qadın Xanım Xədicə(s.ə) olmuşdur. “Nisa” surəsinin 95-ci ayəsinə əsasən Xanım Xədicə(s.ə) öz dövrünün bir çox kişilərindən üstün sayılırdı.

فَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ عَلَى الْقَاعِدِينَ دَرَجَةً وَكُلاًّ وَعَدَ اللّهُ الْحُسْنَى وَفَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا

-Allah mal və canları ilə cihad edənləri *(evdə)* oturanlardan *(yüksək)* bir dərəcə ilə üstün etmişdir və Allah onların hər birinə *(iman və əməli müqabilində)* yaxşı bir mükafat vəd etmişdir. Allah cihad edənlərə *(evdə)* oturanlardan daha böyük mükafatla üstünlük əta etmişdir.

Qadınlar çox işlərdə tez qərar qəbul edib hərəkət etdiyi üçün, onlarda olan bu xüsusiyyət səbəb olur ki, Allah onları tez bu dərəcəyə yetirir.

İkinci dəlil və mətləb budur ki, aləmdə olan böyük şəxsiyyətlərin hamısı qadınların qucağında tərbiyə olunurlar. Peyğəmbər(s) Əbu Qubeys dağından merac etdi. Amma mənəvi dərəcələrə və yüksək məqamlara çatan insanlar öz analarının qucağından mənəvi meraclar etmişlər. Bəzən şahidi oluruq ki, bir qadının bir kəlmə sözü və ya kiçik bir hərəkəti insanın taleyini tamamilə dəyişir.

İmam Hüseyn(ə) aşura günü sohbətində bu məsələyə işarə edərək buyurdu: “Bütün bu şəhaməti, bu şücaəti və bu izzəti anam Fatimədən(s.ə) öyrənmişəm.”

Musa Peyğəmbər(ə) dünyaya gələn zaman Firon göstəriş verdi ki, dünyaya təzə gələn oğlan uşaqlarının hamısını öldürsünlər. Çünki münəccimlə ona xəbər vermişdilər ki, tezliklə bir oğlan uşağı dünyaya gələcək və sənin taxtına sahib olacaq. Bu səbəbdən də dünyaya gələn

oğlan uşaqlarının öldürülməsinə əmr verdi. Hətta həkim qadınlara da tapşırmışdı ki, harda oğlan uşağı dünyaya gələrsə, dərhal xəbər versinlər. Əgər xəbər verməzlərsə, onları da olümlə hədələmişdi. Daha o başa düşmürdü ki, əgər Allah bir işi görmək istəsə, həmin iş mütləq olmalıdır. Musa(ə) dünyaya gələrkən tanış bir mamaça çağırdılar. Musa(ə) dünyaya gələndə alnından bir nur göyə ucalırdı. Həmin qadın Musaya(ə) baxdı və qəlbi onun məhəbbəti ilə doldu. Ona görə də o qadın dedi ki, əgər məni öldürsələr də, heç kəsə bu uşağın dünyaya gəlməsini deməyəm. Allah Musanın(ə) anasının qəlbinə vəhy etdi ki, bir sandıq düzəldib Musanı(ə) onun içinə qoyub çaya buraxsınlar. Onlar gedib bir dülgər çağırdılar. Dülgər sandıq düzəltdi və Musanı(ə) onun içinə qoyub çaya buraxdılar. Fironun çay kənarında bir sarayı var idi. O, sarayın eyvanında yoldaşı Asiya ilə oturub tamaşa edirdi. Birdən gördülər ki, çayda bir sandıq üzür. Əmr verdi ki, o sandığı tutub gətirsinlər. Nökərlər sandığı gətirəndə Firon baxıb gördü ki, onun içində bir oğlan uşağı var. Qəzəblənib tez onu öldürməyi əmr etdi. Fironun yoldaşı Asiya bir kəlmə sözlə Musanın inqilabını diri saxladı. O, Firona dedi: “Sən yaşı bir və bir ildən aşağı olan uşaqları öldürməyi əmr etmişdin. Axı bu uşağın yaşı  elə bil bir ildən çoxdur. Əgər sən bu uşağı öldürsən, camaat səni qınayar. Bu da sənin üçün yaxşı olmaz. Həm də bu uşağı özümüzə  götürək, gözümüz işıqlansın.” Firon Asiyanın sözləri ilə razılaşıb uşağı qəbul etdi. Uşağı saraya apardılar və ona süd vermək üçün dayələr tutdular. Lakin Musa(ə) heç bir dayənin südünü yemədi.

Musanın(ə) anası qızını həmin sandığın ardınca düşüb izləməyi tapşırmışdı. Bütün bunları müşahidə edən qız bir bəhanə ilə Fironun sarayına daxil oldu və bütün baş

verənlərin şahidi oldu. Lakin özünü heç bir şeydən xəbəri yox imiş kimi göstərdi. Bütün bunları gördükdən sonra öz anasını nəzərdə tutaraq belə bir təklif verdi: “Mən bir ailə tanıyıram ki, həmin ailədə bir qadın var, onu gətirsək, bəlkə uşaq onun südünü əmər.” Musanı(ə) anasına apardılar və bir az keçməmiş Firona xəbər gətirdilər ki, uşaq həmin qadının südünü yedi. Firon yenə şübhələnib Musanın(ə) anasını çağırtdırdı və soruşdu: “Nəyə görə uşaq başqalarının südünü yeməyib, məhz sənin südünü yedi?” Musanın(ə) anası dedi: “Mənim südüm təmizdir, həm də bədənimdən xoş iy gəldiyi üçün uşaq mənim südümü yedi. Çünki uşağın xoş iydən xoşu gələr.”

Bu məsələyə diqqət yetirəndə görürük ki, Asiyanın bir kəlməsi, Musanın(ə) bacısının sarayda bir söz deməsi və anasının bir cümlə işlətməsi ilə Musanın(ə) nübüvvətinin zəmini quruldu və hazırlandı. Deməli qadınlar üçün Allah-təala belə bir fürsət də yaratmışdır. Əlbəttə, İslamdan öncə şərafət və fəzilətdə nümunəvi qadınlar var idi. Lakin belə qadınlara İslamdan öncə çox az rast gəlmək olur. Həmin qadınların bəzisi Quranda, bəziləri də hədis və rəvayətlərdə misal çəkilmişdir.

Həmin qadınlardan biri Fironun qızının məşşatəsi idi. Həmin qadın Allaha iman gətirmişdi. O, hər gün Fironun sarayına gedib onun qızına bəzək-düzək verərdi. Bir gün qızın başını darayarkən daraq əlindən yerə düşdü. Əyilib darağı götürəndə istər-istəməz dilindən ya Allah kəlməsi çıxdı. Fironun qızı soruşdu: “Mənin atamın adını deyirsən?” Məşşatə dedi: “Xeyr. Mən o Allahın adını çəkdim ki, həm sənin atanı, həm sənin özünü, həm də məni yaradıb.”

Bu xəbəri Firona çatdırdılar. Firon həmin qadını çağırtdırıb bunun doğru olub-olmamasını soruşdu. Qadın

dedi: “Bəli, mən Allahın adını çəkmişəm və heç də bu əməlimdən peşman deyiləm.” Firon dedi: “Sən mənim Allahlığımı qəbul etmirsən?” Qadın dedi: “Mən səni yaradan Allahı qəbul edirəm.” Firon tonqal qalatdırıb həmin qadının dörd uşağını, bir-bir gözü qarşısında tonqala atıb yandırdı. Dördüncü uşağı körpə idi. Onu da anasının qucağından alıb tonqala atarkən soruşdular: “Firona iman gətirirsənmi?” Qadın dedi: “Heç vaxt. O uşağı da atıb yandırandan sonra həmin qadını da tonqala atıb külünü göyə sovurdular.”

Bu hadisəyə zahirən baxdıqda nəticədə onlar yanıb kül oldular. Lakin digər tərəfdən bu məsələyə yanaşsaq, görərik ki, Allah o qadının məqamını hansı dərəcələrə yüksəldir. İslam Peyğəmbəri(s) buyurur: “Mən meraca gedəndə, ərşi gəzərkən bir yerə yetişdim ki, oradan çox gözəl ətir iyi gəlirdi. Həmin yeri ətirlə bəzəmişdilər. Cəbrayıldan(ə) buranın hansı məkan olduğunu soruşduqda belə cavab verdi: Ya Rəsulallah, bura elə bir yerdir ki, Fironun tonqalda yandırdığı həmin məşşatənin külü ilə bəzədilmişdir. Ona görə də buradan xoş ətir iyi gəlir.”

Həzrət İbrahim(ə) Peyğəmbərin anasının həyatına nəzər saldıqda görürük ki, o da həmin qadınlardandır ki, fəzilət və fərafət sahibi olmuşdur. O, Həzrət İbrahimi(ə) on üç il mağarada gizlədib boya-başa çatdırmışdır. Hər gün gecə-gündüz mağaraya gedir və uşağa süd verib qayıdardı. Uşaq böyüdükdən sonra hər gün yeməyini aparar, onunla məşğul olub qayıdardı. Uşağı şəhərə gətirmək mümkün deyildi. Çünki münəccimlər Nəmruda da Firona deyilən xəbərdən demişdilər. Tarixdə yazırlar ki, Nəmruda bu xəbər deyildikdən sonra o, yüz min uşaq öldürmüşdü. Lakin bilmirdi ki, Həzrət İbrahim(ə) mağarada böyüyür. Bu minvalla Həzrət İbrahimin(ə) anası

düz on üç il gecələr uşağa nəzarət edib evə qayıdırdı. On üç ildən sonra İbrahim(ə) şəhərə gəldi. Nəmrudun qorxduğu həmin işlər oldu. Nəmrud qorxurdu ki, birdən hansısa uşaq diri qalar və onun səltənətini alt-üst edər. Ona görə bütün uşaqların qətlinə fərman vermişdi. Lakin Allah bir işin olmasını istəyərsə, onun qarşısını heç kəs ala bilməz.

İslamdan öncə yaşayıb yüksək məqam sahibi olan qadınlardan biri Həzrət İbrahim(ə) Peyğəmbərin qulluqçusu Hacər idi. Həzrət İbrahimin(ə) həyat yoldaşının adı Sara idi. Onların övladları olmurdu. Həzrət İbrahimin(ə) səksən yaşı olduğuna baxmayaraq, Həzrət Cəbrayıl(ə) nazil olub onlara tezliklə oğlan övladının olmasını müjdə gətirir. Həzrət İbrahim(ə) qulluqçusu Hacərlə evlənir və Hacərdən bir oğlan uşağı dünyaya gəlir. Həmin uşağın adını Ismayıl qoyurlar. Uşaq dünyaya gələndən sonra Allah-təala İbrahimə(ə) əmr edir ki, aparıb uşağı anası ilə birlikdə çöldə qoysun. Cəbrayılın göstərişi ilə yola düşürlər. Xeyli yol getdikdən sonra gəlib isti, susuz və dağlıq bir yerə çatırlar. Cəbrayıl orada Həzrət İbrahimə(ə) dedi: “Hacər uşaqla birgə burada qalmalıdır.” Həzrət İbrahim(ə) uşaqla Hacəri orada qoyub, geri qayıtdı. Susuz çöldə Hacər uşağın susuzluğunu görüb orada su axtarmağa başladı. Yeddi dəfə Səfa və Mərvə dağı arasında o tərəf, bu tərəfə qaçdı. Üç gün orada susuz qaldıqdan sonra uşaq ayaqlarını suzundan yerə o qədər vurdu ki, ayağının altında bir çeşmə əmələ gəldi. O su həmin sudur ki, bu günə kimi Məkkədə zəmzəm adı ilə çıxmaqda davam edir. Hacər xanım elə bir şərafətli qadındır ki, hər il milyonlarla insan ziyarətinə getmiş, zəvvarlar o xanımın adına yeddi dəfə Səfa və Mərvə dağı arasında səy etməlidirlər. Quran ayələrində bəyan olunur

ki, zəmzəm çeşməsi orada axandan sonra Allah-təala oraları abadlaşdırdı. Həzrət İbrahim(ə) hərdən gəlib onlara baş çəkib qayıdırdı. Bu minvalla bu çətiniklərlə Ismayıl orada böyüyüb təqribən on üç yaşına yetişdi. Uşaq böyüyəndən sonra ikinci imtahan başlandı. Allah-təala Quranda bu məsələni belə bəyan edir.

فَلَمَّا بَلَغَ مَعَهُ السَّعْيَ قَالَ يَا بُنَيَّ إِنِّي أَرَى فِي الْمَنَامِ أَنِّي أَذْبَحُكَ فَانظُرْ مَاذَا
تَرَى قَالَ يَا أَبَتِ افْعَلْ مَا تُؤْمَرُ سَتَجِدُنِي إِن شَاء اللَّهُ مِنَ الصَّابِرِينَ

-Oğlu onunla birlikdə işləmək və çalışmaq həddinə çatanda *(İbrahim)* dedi: «Oğlum! Mən yuxuda hey görürəm ki, sənin başını kəsirəm *(boğazına bıçaq çəkirəm)*. Bəs bax *(gör)* nəzərin nədir?» *(Ismayıl)* dedi: «Ey ata! Sənə əmr ediləni yerinə yetir. Allahın istəyi ilə məni səbirlilərdən görəcəksən!»[1]

Həzrət İbrahim(ə) Ismayılla qurbangaha yollandı. Şeytan bunu özünə fürsət bilib insan cildinə girərək, Hacərin yanına gəldi və dedi: Sən bilirsənmi İbrahim Ismayılı hara aparır? Istəyir oğlunun başını kəssin. Hacər dedi: Heç bir ata istəməz Ki, oğlunun başını kəssin. Şeytan dedi: İbrahim oğluna deyir ki, bu işi görməyi Allah mənə əmr edib. Ona görə bu işi görür. Hacər ona dedi: Əgər bu işi görməyi Allah əmr edirsə, o zaman mənim və Ismayılın canımız qurban olsun Allaha. Əgər bu işi Allah istəyirsə, kaş min uşağım olaydı, hamısını Onun yolunda Qurban verəydim. Sonra əyilib yerdən daş götürüb kişi cildinə girmiş şeytana atdı. Yeddi dəfə daş atdıqdan sonra şeytan qaçıb uzaqlaşdı.

---

[1] Saffat,102

Hacər Xanım qadınlar arasında Allah yanında elə bir şərafət və məqam sahibidir ki, bu günə qədər hər il milyonlarla insan onun adına şeytana yeddi dəfə daş atmalıdırlar. Bu əməl rəmzi xarakter daşıyır. Həqiqətdə hər dəfə daş atdıqda ürəyindəki şeytanı daşlayır. Bu əməlin mənası budur ki, Məkkəyə gedəndə orada şeytana daş atmaqla həqiqətdə qəlbindən şeytanı qovmaq deməkdir. Yəni insan orada  geri qayıdandan sonra bir daha şeytanın onun qəlbinə girməsinə yol verməyəcəyinə söz verir.

Odur ki, İslamdan öncə yaşayıb izzətə çatmış və Allah yanında yüksək məqamlara ucalmış qadınlar bütün insanlara nümunədir. Bu insanlar Allahın eşq və məhəbbəti uğrunda öz canlarından, mallarından, hətta övladlarından keçməyə belə hazır olmuşlar. Əgər insan Allahı layiqincə tanıyarsa, tanıdıqdan sonra bütün problemlərinin hamısı həll olacaq. İmam Hüseyn(ə) Kərbəlada Allah yolunda hər şeyindən keçdi. Allah yolunda  həm can və malından keçdi, həm də övladlarını qurban verdi. Allah bu işə razıdırsa və bunları Allah istəyirsə, İmam Hüseyn(ə) gülərüzlə bunları Ona qurban verdi.

*Bülbüllərimin yansa da kaşanəsi yansın,*
*Yatsınlar tikanlıqda gülüstan əvəzində.*
*Ey kaş yüz on dörd ola oğlum mənim Allah,*
*Qurban verəm hər sureyi Quran əvəzində.*

## Peyğəmbər(s) dövründə qadınların qəhrəmanlığı

Qadınların İslamdan öncəki və İslam zühur etdikdən sonrakı vəziyyəti haqda söhbət olundu. Həmçinin

İslamdan öncə qadınlarla necə rəftar olunması və İslam zühur etdikdən sonra qadınların hüquqlarının bərpa olunması haqda kifayət qədər söz açdıq. İslam zühur edəndən sonra qadınların əlindən tutdu və onları elə tərbiyə etdi ki, onlar dünyanın ən xoşbəxt insanlarına çevrildilər. İslam dini qadınlara şərəf və izzət bəxş etdi.

İslam Peyğəmdəri(s) zühur edəndən sonra qadınların hüququ belə dərəcəyə gəlib çatmışdı ki, onlar döyüş meydanında kişilər kimi iştirak edə bilirdilər. İslamın qadınların hüquqlarını bərpa etməsi və qadınlara izzət və şərəf bəxş etməsi onları tez bir zamanda gözəl tərbiyə etməsinə səbəb oldu. Həmin qadınlar Allaha iman gətirdikdən sonra bu yolda müqavimət göstərərək öz imanlarında sabitqədəm oldular. Hətta bəzi tarixlərə əsasən İslamın birinci şəhidi qadın olmuşdur. Onun adı Süməyyə idi. O, Əmmar Yasirin anası idi. Lakin bəzi tarixlərdə yazırlar ki, İslamın ilk şəhidi qadınlar arasındadır. Onlar Peyğəmbərin(s) dininə iman gətirdikləri üçün Əbu Cəhl onlara işgəncə verirdi. Onların üçünü də tutub odun üstündə qızarmış qılıncla vururdu. Əmmarın dostları imkan tapıb onu qaçıra bildilər. Lakin onun ata və anası həmin işgəncələr altında şəhid oldular. Ona görə də bəziləri birinci Süməyyənin, bəziləri isə Yasirin birinci şəhid olduğunu yazmışlar. Hər halda İslamda qadınlar arasında olmuş olsa da ilk şəhid Əmmarın anası Süməyyədir. Həzrət Peyğəmbər(s) zamanında tərbiyə olunmuş həmin şücaətli və qəhrəman qadınların bir neçəsini möminlərin nəzərinə çatdırmaq istərdim.

**Lübeynə**

O, Bəni-Mubəl tayfasından olan bir qadın idi. Ömər ibn Xəttab iman gətirməmişdən öncə Lübeynə onun kənizi

idi. Lübeynə Peyğəmbərin(s) gətirdiyi dinə iman gətirmişdi. O, iman gətirdiyi üçün işgəncəyə məruz qalmışdı. Lübeynə onların işgəncələrinə baxmayaraq, imanından dönmədi və axıra qədər müqavimət göstərdi.

**Zinnirə**

Bu qadın Bəni-Məxzum tayfasından olan bir qadın idi. Müsəlman olduğu üçün Əbu Cəhl ona ağır işgəncələr verirdi. Istəyirdilər ki, Zinnirə Peyğəmbərin(s) əleyhinə danışsın. Lakin bu qadın da həmçinin necə iman gətirmişdisə, işgəncələr qarşısında dözdü və öz imanında sabitqədəm qaldı.

**Nəhdiyyə**

O, Bəni-Nəhd qəbiləsindən idi. Bir evin kənizi idi. Peyğəmbərə(s) iman gətirən qadınlardan biri idi. Onun sahibəsi Nəhdiyyəyə çox işgəncələr verirdi. Lakin o, öz imanından dönmədi.

**Ümmi Şərik Əsədi**

Onun əsl adı Əzziyyə idi. Cabir ibn Həkimin qızı idi. O, Qüreyş qəbiləsindən idi. Əzziyyə də Peyğəmbərə(s) iman gətirmişdi. Onun arxasında güclü şəxslər durduğu üçün ona çox müqavimət göstərə bilmirdilər. Onun güclü fəsahəti və təbliğatı var idi. Harada olsaydı, İslamı təbliğ edib haqqı camaata çatdırır və qadınları İslama tərəf çəkirdi. Lakin müşriklər gördülər ki, əgər onun qarşısını almasalar, vəziyyət çox dəyişəcək. Buna görə də tutub ona işgəncə verməyə başladılar. Onu dəvənin üstündə əyləşdirib ayaqlarını bağladılar. Üç gün dəvənin üstündə ac-susuz saxladılar ki, bəlkə İslamdan əl çəksin. Lakin özündən getməsinə baxmayaraq, o, dinindən dönmədi.

Sonra əl-ayağını bağlayıb günün altına atdılar. Yenə də o, imanından əl götürmədi və bu yolda sabitqədəm qaldı. Peyğəmbər(s) Məkkədən Mədinəyə hicrət edəndən sonra mühacirlərə qoşulub Mədinəyə hicrət etdi və orada yaşamağa başladı. Onun gözəl məntiqi və zirəkliyi olduğundan, habelə Peyğəmbərə(s) köməklik etdiyi üçün onun yaşayışına şəxsən Peyğəmbərin(s) özü nəzarət edirdi.

İslam tarixində belə imanlı, şücaətli və cəsarətli qadınlara tez-tez rast gəlirik. İslamın tərbiyə etdiyi bu qadınlar öz imanları uğrunda səy göstərib işgəncə və əziyyətlərə dözüb imanlarını qoruyub saxladılar. Hətta Peyğəmbərlə(s) birgə döyüş meydanında iştirak edirdilər. Lakin bir neçə qadına döyüş meydanında iştirak etməyə Peyğəmbər(s) özü icazə vermədi.

**Ümmi Vərəqə**

O qadınlardan biri olan Ümmi Vərəqə Abdulla ibn Harisin qızı idi. Elə ki, müsəlmanlar döyüşə hazırlaşdılar, Ümmi Vərəqə Peyğəmbərin(s) məhzərinə gəlib döyüşə getmək üçün icazə istədi. Peyğəmbər(s) ona buyurdu: “Sən get evində əyləş. Allah onsuz da sənə şəhadəti nəsib edəcək. Həzrət Peyğəmbər(s) ona görə icazə vermədi ki, əvvəla, müharibə hələ başlamamışdı. Onlar düşməni təqib edib ardınca gedirdilər. Ikincisi, yol çox uzaq olduğundan Peyğəmbər(s) məsləhət görmədi ki, o qadın onlarla getsin. Üçüncü səbəb də bu idi ki, Ümmi Vərəqə Mədinədə öz evində qadınlarla camaat namazı qılırdı və o da pişnamaz dayanırdı. Peyğəmbər(s) razı olmadı ki, onun evində qılınan camaat namazı təxirə salınsın.

Başqa vaxtlarda Peyğəmbər(s) qadınlara döyüş meydanında iştirak etməyə icazə verirdi. Həmin qadınların

bəzisi müharibədə iştirak edərək müsəlmanlara su paylayır, bəzisi isə yaralıların yaralarını sarıyırdı.

**Ümmi Ətiyyə**

O, elə bir qəhrəman qadın idi ki, yeddi müharibədə iştirak etmişdi. O, Peyğəmbərin(s) icazəsilə müharibədə yaralanan müsəlmanların yaralarını sarıyırdı.

**Nəsibə**

O, Ümmi Əmmarə ləqəbi ilə tanınırdı. Nəsibə İslam dünyasında ən tanınmış imanlı, cəsarətli və ürəkli bir qadın idi. Demək olar ki, o, bütün döyüşlərdə Peyğəmbərin(s) yanında idi. Döyüş meydanında həm su paylayardı, həm də yaralılara dəva-dərman edib, onların yaralarını sarıyardı. Ühüd döyüşündə müsəlmanlara su paylayırdı. Ühüd döyüşü İslam tarixində ən ağır müharibələrdən biri idi. Bu döyüşdə müsəlmanlar məğlub oldular. Çünki bir dəstəsi şəhid olmuşdu, bir dəstə müsəlman da döyüşü tərk edib qaçmışdı. Nəsibə gördü ki, vəziyyət daha da gərginləşir və müsəlmanlar Peyğəmbəri(s) qoyub geri çəkilirlər. Çiynindəki su tuluğunu yerə ataraq, qılıncı götürüb meydana daxil oldu. Gəlib Peyğəmbərin(s) ətrafında dolanırdı. Peyğəmbərə(s) ox, nizə dəyməməsi üçün düşmən hansı tərəfdən hücüm edirdisə, Nəsibə həmin tərəfdə dayanıb özünü sipər edərək, Peyğəmbəri(s) müdafiə edirdi. O döyüşdə həm Peyğəmbər(s) yaralanmışdı, həm də Həzrət Əli(ə). Müsəlmanların bir dəstəsi şəhid oldu və xeyli adam meydandan qaçdı. Bir nəfər əlində qalxan oradan qaçarkən Peyğəmbər(s) onu səsləyib buyurdu: “Özün qaçırsan, heç olmasa qalxanı yerə at.” Həmin şəxs qalxanı yerə atan kimi, Nəsibə qalxanı əlinə götürdü. Nəsibənin Abdulla adında bir oğlu var idi. O da həmin müharibədə iştirak edirdi. Belə bir anda Abdulla da meydandan qaçmaq istərkən anası onun qarşısını kəsdi və onu geri qaytardı.

Abdullanı həmin döyüşdə şəhid etdilər. Şəhid olmazdan öncə anası onun yaralarını sarıya-sarıya oğlunu yaralayan şəxsi yadında saxladı. Nəsibə oğlunun yarasını sarıyandan sonra onu yaralayan şəxsi tapıb, bir zərbə ilə cəhənnəmə vasil etdi. Nəsibənin bu zirəkliyini görən Həzrət Peyğəmbəri(s) gülmək tutdu. Hətta elə güldü ki, arxa dişləri göründü. Tarixdə yazırlar ki, Peyğəmbər(s) həmişə gülərkən heç vaxt dişləri görsənməzdi. Həmişə təbəssüm edərdi. Lakin Nəsibənin bu zirəkliyindən Peyğəmbəri(s) gülmək tutdu. Həzrət(s) güləndən sonra bir- bir ad gətirərək belə buyurdu: "Nəsibənin İslama xeyri filankəsdən və filankəsdən daha çox oldu."

Nəsibə Peyğəmbəri(s) gülən halda görüb, tez özünü Həzrətə(s) yetirdi və dua etməyi xahiş edərək belə dedi: "Ya Rəsulallah, dua et ki, Allah cənnətdə məni səndən ayrı salmasın. Həzrət Peyğəmbər(s) də ona belə dua etdi: İlahi, bunları (orada Peyğəmbərin(s) yanında olanları) cənnətdə mənim dostlarımdan qərar ver. Nəsibənin Həbib adlı bir oğlu da var idi. Peyğəmbərin(s) zamanında Müseyləmə adlı bir şəxs peyğəmbərlik iddiasında idi. Həzrət Peyğəmbər(s) Həbibə məktub verərək buyurdu: Bunu Müseyləməyə çatdır. Həbib Peyğəmbərin(s) məktubunu ona çatdırdı. Müseyləmə Həbibə dedi: Sən Məhəmmədə(s) iman gətirmisən? Həbib dedi: Bəli. Müseyləmə dedi: Bəs mənə də iman gətirmisən? Həbib dedi: Qulağım yaxşı eşitmir. Müseyləmə yenə ucadan soruşdu: Mənə də iman gətirmisən? Həbib yenə də dedi: Qulağım ağır eşidir. Müseyləmə üçüncü dəfə soruşanda başa düşdü ki, Həbib onu ələ salır. Buna görə də onu öldürməyi əmr etdi. Həbibi vəhşicəsinə öldürüb, doğradılar. Oğlunun ölüm xəbərini Nəsibəyə gətirdilər. Nəsibə soruşdu: Oğlumu Peyğəmbərin(s) sifarişini ona

çatdırdıqdan sonra öldürdülər, yoxsa çatdırmazdan əvvəl? Dedilər bəli. Nəsibə dedi: Əgər belədirsə, narahat deyiləm. Amma bu uşağın intiqamını Müseyləmədən alacağam. Ya onu öldürəcəyəm, ya da bu yolda şəhid olacağam. Peyğəmbər(s) dünyadan gedəndən sonra müsəlmanlarla Müseyləmə arasında müharibə başladı. Döyüşlərin birində Müseyləmə qaçıb bir bağda gizləndi. Nəsibə bir neçə nəfərlə onu təqib edib ardınca getdilər. Onu şəxsən Nəsibə özü öldürdü. Lakin bir qolunu da bu döyüşdə itirdi.

**Ümmi Eymən**

O, Peyğəmbərin(s) kənizi idi. Ümmi Eymən çox şücaətli və cəsur qadın idi. Ühüd döyüşündə iştirak edən qadınlardan biri idi. O da yaralıların yaralarını sarıyırdı. Bəzi müsəlmanların döyüşdən qaçdığını gördükdə, yerdən bir ovuc torpaq götürüb qaçanların üzünə səpdi və dedi: "Siz arvadsınız! Siz ancaq cəhrə arxasında oturmağa yarıyırsınız!"

Cəhrə yundan ip düzəltmək üçün istifadə olunan bir alətdir. Bu alətdən yalnız qadınlar istifadə edirlər. Heç vaxt görünməyib ki, kişi cəhrə arxasında əyləşib yun əyirsin. Yəni cəhrə məhz qadınlara məxsus olduğu üçün Ümmi Eymən qaçanlara bu sözü dedi. Allah-təala o qadının ömrünə bərəkət vermişdi. Peyğəmbər(s) dünyadan gedəndən sonra Xanım Fatimənin(s.ə) qulluğunda dayandı və ömrünün axırına kimi onların xidmətində oldu. Onun oğlunun adı Eymən idi. O da Hüneyn döyüşündə şəhid olmuşdu.

Bəzi qadınlar da var idi ki, bir sıra səbəblərə görə müharibədə iştirak edə bilmədiklərinə baxmayaraq, öz övladlarını ikiəlli Peyğəmbərə(s) təqdim edirdilər. Həmçinin öz övladlarının müharibədə olmasına

baxmayaraq, doyüşdən gələnlərdən ilk növbədə Peyğəmbəri(s) soruşurdular. Nümunə üçün bu qadınların bir neçəsinin adını qeyd edirəm.

**Söda**

Onun atasının adı Qeys idi. Södanın iki oğlu Ühüd döyüşündə şəhid oldu. O, döyüş meydanına gəldi və Peyğəmbəri(s) soruşdu. Çünki o döyüşdə şayiə yaymışdılar ki, Peyğəmbəri(s) şəhid ediblər. Bu xəbər Mədinə əhlini narahat etmişdi. O cümlədən Söda da bu xəbəri eşidən kimi çox narahat oldu və özünü döyüş meydanına yetirən kimi ilk növbədə o Həzrəti(s) soruşdu. Dedilər Peyğəmbər(s) sağdır. Lakin Söda inanmadı. Gəlib gözləri ilə Peyğəmbəri(s) görəndən sonra ürəyi sakit oldu və dedi: Ya Rəsulallah, indi ki səni sağ-salamat gördüm, daha mənim qəm-qüssəm yoxdur. Sonra meydana daxil olub iki oğlunun cənazəsini tapıb dəvənin üstünə qoyub Mədinəyə yollandı. Yolda Ayişə onunla rastlaşdı və soruşdu: Hara gedirsən belə? Söda dedi: Mədinəyə gedirəm. Ayişə soruşdu: Dəvənin yükü nədir? Söda çox sakit və soyuq- qanlılıqla dedi: Şəhidlərimdir, aparıram Mədinədə dəfn etməyə.

Ühüd döyüşü İslamın ən ağır döyüşlərindən biri idi. Bu döyüşdə müsəlmanlar çox şəhid verdilər. Həmçinin müsəlmanların bir çoxu həmin döyüşdən qaçmışdılar. Həm Həzrət Peyğəmbər(s) yaralanmışdı, həm də Həzrət Əli(ə). Bir tərəfdən də Peyğəmbərin(s) şəhid olması haqda yalan şayiə yaymışdılar. Buna görə də bu xəbər Mədinə əhalisini çox narahat etmişdi. Qadınlar bu xəbərin həqiqət olub-olmaması üçün döyüş meydanına gəlirdilər. Hərçənd ki öz övladlarının, ərlərinin və ya yaxın adamlarının həmin döyüşdə şəhid olmalarına baxmayaraq,

Peyğəmbərin(s) sağ-salamat olduğunu gördükdə çox sevinir və qəm- qüssələri aradan gedirdi.

Həmin qadınlardan biri meydana sarı gedərkən yolda bir döyüşçünün geri qayıtdığını görüb ondan soruşdu. Peyğəmbərdən(s) nə xəbər var? Həmin döyüşçü dedi: Bacı, Allah sənə səbr versin, atan şəhid oldu. Qadın bir an sakit dayanıb ikinci dəfə soruşdu: Peyğəmbərdən(s) nə xəbər var? Həmin döyüşçü yenə dedi: Allah sənə səbr versin, qardaşın da şəhid oldu. Qadın üçüncü dəfə soruşdu: Peyğəmbər(s) sağdırmı? Döyüşçü dedi: Bacı, Allah sənə səbr versin, ərin də şəhid oldu. Bu dəfə qadın əsəbiləşdi və dedi: Məni maraqlandırmır ki, qohum-əqrəbamdan kim şəhid olub. Mən səndən Peyğəmbəri(s) soruşuram. Döyüşçü dedi: Peyğəmbər(s) sağ-salamatdır. Bu sözdən sonra qadın dedi: Deməli bizim qurbanlarımız hədər getmədi.

Tarixin bu səhnələrinə nəzər saldıqda görürük ki, İslam dini zühur etdikdən sonra Həzrət Peyğəmbər(s) tez bir zamanda belə qəhrəman, imanlı, şir kimi qüvvətli qadınlar tərbiyə etmişdir.

**Süraqə**

Süraqə imanlı qadınlardan biri idi. Onun Harisə adlı oğlu var idi. Bədr döyüşündə ona oğlunun şəhid olduğunu xəbər gətirdilər. Süraqə qadınlarla əyləşmişdi. Bu xəbərdən sonra qadınlar gözləyirdilər ki, Harisənin anası nə deyəcək? Süraqə qadınlara dedi: Allaha and olsun ki, Peyğəmbər(s) gələnə qədər ağlamayacağam. Peyğəmbər(s) gələndə soruşacağam ki, oğlum cəhənnəmdədir, yoxsa cənnətdə? Əgər Peyğəmbər(s) oğlumun cəhənnəmdə olduğunu söyləsə, o qədər ağlayacağam ki, tökdüyüm göz yaşları cəhənnəmin odunu

sondürəcək. Əgər desə ki, cənnətdədir daha ölənə qədər ağlamayacağam. Həzrət Peyğəmbər(s) gəldi, Süraqə irəli gəlib soruşdu: Ya Rəsulallah, bilirsiniz ki, mən Harisəni çox istəyirdim. Eşitdim ki, o, döyüşdə şəhid oldu. Hələ onun üçün ağlamamışam. Lakin bilmək istəyirəm ki, o, behiştdədir, ya yox? Həzrət(s) buyurdu: Sənin oğlun cənnətdə Firdovsi Əladadır. Süraqə dedi: Onda mən heç vaxt ağlamayacağam.

İslam dini gələndən sonra Peyğəmbər(s) belə bir dini təfəkkürü cəmiyyətdə yarada bildi. Tez bir zamanda böyük şəxsiyyətlər yetişdirdi. Qadın və ya kişi olmasından asılı olmayaraq, insanlarda bu mərifəti, bu şücaəti yarada bildi. Peyğəmbərin(s) tərbiyə etdiyi bu insanlar o Həzrətin(s) vəfatından sonra belə öz imanlarında sabitqədəm oldular.

Əmr ibn Həmq Həzrət Əlinin(ə) yaxın dostlarından və böyük şəxsiyyətlərdən biri idi. Həzrət Əli(ə) şəhid olandan sonra Müaviyənin əleyhinə təbliğat aparırdı. Müaviyə Kufənin başçısına onun öldürülməsi barədə məktub yazıb əmr verdi. Əmr bu xəbəri biləndən sonra Musil şəhərinə qaçdı. Onu orada yaxalayıb icra hakimiyyətinə apardılar və Müaviyəyə onun yaxalanması barədə xəbər verdilər. Müaviyə onu iki seçim qarşısında qoydu. Ya gərək Əlinin(ə) əleyhinə danışmalıdır, ya da öldürülməlidir. Müaviyənin bu fərmanını ona dedilər. Əmr ibn Həmq dedi: Mən heç vaxt Əliyə(ə) lənət söyləməyəcəyəm. Çünki Əli(ə) haqq, Müaviyə batildir. Əgər lənət oxumaq lazımdırsa, batil lənət oxunmağa layıqir. Ikincisi, əgər məni öldürmək istəyirsinizsə, mən buna hazıram. Əgər məni öldürsəniz, mən Allahın, Peyğəmbərin(s) və Əlinin(ə) məhzərində öz intiqamımı sizdən alacağam. Onu oldürüb Müaviyəyə göndərdilər. Əmr ibn Həmqin Aminə

adlı bir həyat yoldaşı var idi. Onu da Əlini(ə) təbliğ etdiyinə görə və ərinin yerini Müaviyənin məmurlarına demədiyi üçün zindana salmışdılar. Əmrin başını Müaviyə üçün göndərəndə onun məsləhətçiləri dedilər: Intiqam almaq üçün bu başı onun arvadına göstərərsiniz. Müaviyə eşitmişdi ki, Aminə çox müqavimətli, dözümlü və imanından dönməyən bir qadındır. Buna görə də o qadının ürəyini daha da dağlamaq üçün ərinin başını ona göndərdi. Əmrin başını zindana gətirib Aminənin qarşısına qoydular. Aminə onlara dedi, ərimi öldürüb başını mənə gətirmisiniz? Heç etdiyiniz bu əməldən xəcalət çəkirsiniz? Sonra ərinin başına baxıb dedi: Xoş gəlmisən. Heç vaxt mən sənin etdiyin yaxşılıqları unutmaram. Sonra başı gətirənlərə dedi: Gedin, Müaviyəyə deyin ki, tezliklə ərimin intiqamını ondan alacağam. Ona deyin ki, çox böyük günaha mürtəkib olub. Tez bir zamanda Allahın əzabına giriftar olacaq. Bu xəbəri Müaviyəyə apardılar. Müaviyə əmr verdi ki, o qadını yanına gətirsinlər. Aminəni gətirdilər. Müaviyə dedi: Eşitmişəm mənim barəmdə belə sözlər danışmısan. Aminə dedi: Bəli, demişəm və bilirəm ki, tezliklə Allahın əzabına düçar olacaqsan. Müaviyə göstəriş verdi ki, qızıldan-gümüşdən gətirib ona versinlər. Qızıl-gümüşü gətirib Aminənin ayağının altına səpdilər. Aminə üzünü çevirib dedi: Müaviyə, üzün qara olsun, ərimi öldürüb könlümü qızıl-gümüşlə ələ almaq istəyirsən? Allaha and olsun ki, bu qızıl- gümüşlərin yüz bərabərini ərimin kəsilən dırnağına dəyişmərəm. Müaviyə dedi: Əlidən(ə) üz çevir. Aminə dedi: Çox pis təklif irəli sürürsən. Sonra üzünü göyə tutub dedi: İlahi, Müaviyə hər cür lənətə layıiqdir, Əli(ə) yox. Müaviyə əmr verdi ki, onu yenidən zindana atsınlar. Bir müddət keçəndən sonra onu azad etdilər. Amma Şamda

Müaviyənin əleyhinə təbliğat aparacağından qorxub Iraqa göndərdilər.

Odur ki, İslam Peyğəmbəri(s) az bir zaman ərzində belə şəhamətli, imanlı, dərrakəli və haqqsevər qadınlar tərbiyə etmişdi. Həmin qadınların biri Xanım Zeynəb(s.ə) idi. Bu əzəmətli qadın şəxsən Peyğəmbərin(s) evində, Həzrət Əlinin(ə) qucağında böyüyüb tərbiyə almışdı. İmam Hüseyn(ə) döyüş meydanında son anlarda meydana gedərkən Xanım Zeynəb(s.ə) azacıq səbrdən çıxdı. Xanım Zeynəb(s.ə) o biri qadınlardan çox fərqlənirdi. Onun iki oğlunu şəhid etdilər, amma bu Xanım xeymədən çıxmadı. Hər nəyi vardısa, Allah yolunda qurban verdi. Lakin zamanının Imamı, qardaşı İmam Hüseynin(ə) son anlarını görüb döyüş meydanına sonuncu dəfə getdiyini görəndə dözməyib azacıq səbri tükəndi və qardaşını səslədi. İmam Hüseyn(ə) ona yaxınlaşıb buyurdu:

*Dil dedi, Zeynəb, dilə gəldi Imam,*
*Aşiqi dilvapəsini etdi ram.*
*Sənlə mənimdür dedi, xunin qiyam,*
*Nişləri nuş eyləyib, qıl davam.*
*Yar baxır, ağlama. Ay zi-məqam!*
*Olma belə qalibe bicane eşq*
*Sinəvi qəmlər oxuna baz elə*
*Hişməte nasutiyə sən naz elə*
*Aləme lahutiyə  pərvaz elə*
*Fatimə tək eşqidə ecaz elə*
*Əhməde Muxtari sərəfraz elə.*
*Səy elə, ol silsilə cunbane eşq*
*Ruzi əzəl mətrəh olanda bəla*
*Çatdı bəla ilə bizə Kərbəla*
*Mən bu biyabanidə ollam fəna*
*Ta nəfəsin var, sənə var ibtila*

*Eşq giriftarinə yoxdur dəva.*
*Dərdidür tənha, bacı, dərmane eşq*
*Eşqimizin var əbədi dövləti.*
*Həqq özü vermiş bizə bu neməti,*
*Neyləyirəm canu səru itrəti,*
*Bəsdi mənə dilbərimin vəsləti,*
*Xəncəru-şəmşir ilə var ləzzəti,*
*Yar baxa doğrana qurbane-eşq.*

Xanım Zeynəb(s.ə) İmam Hüseynin(ə) bu sözlərdən sonra sakitləşdi. Qardaşını meydana yola salıb özü isə xeymələrə tərəf qayıtdı.

## İmam Hüseyn(ə) nəyə görə qadınları özü ilə Kərbəlaya aparmışdı?

İmam Hüseyn(ə) Mədinədən çıxarkən öz ailəsini, əhli-əyalını, bacılarını və yaxınlarını da özü ilə apardı. Mədinədən Məkkəyə, Məkkədən də Kufəyə doğru hərəkət etdilər. Yolda tale dəyişdi və Kərbəlaya getməli oldular. Buna görə də sual olunur ki, Həzrət İmam Hüseyn(ə) nəyə görə qadınları və uşaqları özü ilə müharibə meydanına aparmışdı? Bu barədə kitablarda müxtəlif cavablar yazmış və təhlillər aparılmışdır. Bu haqda bir çox cavablar yazılmışdır ki, həmin cavabların yeddisini əziz möminlərin nəzərinə çatdırıram:

**1-ci cavab:**

İmam Hüseyn(ə) hər bir işi görərkən hesab üzü ilə görürdü. Hər hansı bir işdə Allahın razılığı olsaydı, həmin işi görərdi. Əgər bir işdə Allahın rizayəti olmadığını hiss etsəydi, heç vaxt həmin işi görməzdi. Mədinədə cəddi Peyğəmbərlə(s) vidalaşmaq üçün ziyarətə getdi. Peyğəm-

bərin(s) qəbrinin kənarında yuxuya getdi. Yuxuda Peyğəmbəri(s) gördü və onunla söhbət etdi. Həzrət Peyğəmbər(s) İmam Hüseynə(ə) buyurdu:

يَا حُسَيْنُ أُخْرُجْ فَإِنَّ اللهَ تَعالى أَرادَ أَنْ يَراكَ قَتِيلاً

-Ya Hüseyn! Çıx, həqiqətən Allah səni qətil (qanına boyanmış) görmək istəyir.

İmam Hüseyn(ə) ailəsi və şadınlar barədə soruşduqda, Həzrət Peyğəmbər(s) buyurdu:

وَقَدْ شآءَ أَنْ يَراهُنَّ سَباياً

-Allah onları da əsir görmək istəyir.

Hüseyn(ə) Peyğəmbərin(s) vasitəsilə Allahın rizayətini əldə etdiyinə görə bu işi gördü və qadınları da özü ilə Kərbəlaya apardı.

**2-ci cavab:**

Mərhum Seyid ibn Tavus "Lühuf" adlı kitabında belə yazır: "İmam Hüseynin(ə) qadınları da özü ilə aparmasının səbəblərindən biri də bu idi ki, əgər o Həzrət(ə) öz ailəsini Mədinədə və ya başqa yerdə qoyub getsəydi, Yezid gedib onlara qarşı hörmətsizlik edəcək və girov götürəcəkdi. Bu işi görməklə İmam Hüseynə(ə) təzyiq göstərəcəkdi. Belə olduqda ola bilərdi ki, İmam Hüseyn(ə) öz vəsifəsini istədiyi kimi yerinə yetirə bilməsin. Buna görə də O Həzrət(ə) ailəsini də özü ilə apardı ki, nə Mədinədə qalsınlar, nə də Yezidin təhacumuna məruz qalmasınlar.

**3-cü cavab:**

Dünya qayda-qanununa əsasən müharibə zamanı heç vaxt qadınlara qarşı hörmətsizlik etməzlər. Əgər birdən müharibə vaxtı qadınlara qarşı hörmətsizlik olarsa, o

zaman bütün atifə və məhəbbətlər yaralanar. Belə olduqda bütün insanlar bu haqsızlığa etiraz edər və tarix bu qəbahətli əməli həmişə məhkum edər. İmam Hüseyn(ə) qadınları ona görə aparmışdı ki, əgər birdən düşmən qadınlara qarşı hörmətsizlik edərsə, tarix qarşısında məhkum olsunlar.

**4-cü cavab:**

Ərəblərin adəti belə idi ki, hər kəs ailəsini özü ilə gətirsəydi, mənası budur ki, mən müharibəyə gəlməmişəm. Əgər bir kəs qılıncsız və silahsız ailəsini özü ilə aparırsa, mənası budur ki, mən müharibə etmək fikrində deyiləm. İmam Hüseyn(ə) qadınları, qızları və südəmər körpəni özü ilə aparmaqla bildirirdi ki, mənim heç kəslə müharibə etmək fikrim yoxdur. Sadəcə öz vəzifəmi yerinə yetirirəm və Peyğəmbərin(s) ümmətini başa salım. Camaata bildirmək istəyirəm ki, mən Yezidə heç vaxt beyət etməyəcəyəm. Çünki onun beyət olunmağa heç bir səlahiyyəti çatmır. İmam Hüseyn(ə) camaatı haqqa dəvət edib, onları haqqla tanış etmək istəyirdi. Əgər onun müharibə etmək fikri olsaydı, özü ilə çoxlu silah- sursat və qoşun götürərdi. Buna görə də Həzrət(ə) öz ailəsini aparmaqla bildirirdi ki, mənim müharibə etmək fikrim yoxdur. İmam Hüseyn(ə) bəzi hərəkətlərində də bu məsələyə işarə etdi. O cümlədən altıaylıq körpəni meydana aparıb su istəyərkən atından düşüb, qılınc-qalxanını və döyüş paltarını çıxartı. Peyğəmbərin(s) əmmaməsini başına qoyub əbasını çiyninə saldı. Həmçinin Peyğəmbərin(s) əsasını götürüb uşağı qucağına alaraq dəvənin üstündə meydana gəldi. Həzrət(ə) bu əməli ilə bir daha bildirdi ki, müharibəyə gəlməmişəm. Əgər mən müharibəyə gəlsəydim, atla, silahla gələrdim. Həzrət(ə) bu

hərəkəti ilə düşməni ayıltmaq istəyirdi. Onun bu hərəkəti camaatın ruhuna təsir etdi. Tarixdə də bu hərəkətlər öz təsirini göstərib.

**5-ci cavab:**

İmam Hüseyn(ə) Məkkədən hərəkət etməyə başlayarkən İbn Abbas dedi: Indi ki, getməyi qərara almısan, əhli-əyalını və qadınları hara aparırsan? Gəl onları aparma. İmam(ə) buyurdu: Əmioğlu, bu qadınlar Allahın Peyğəmbərinin(s) əmanətləridir. Bunlar Peyğəmbərin(s) balalarıdır. Mən bunları kimə tapşırıb gedim? Əgər mən bunları qoyub getsəm də belə onlar məndən ayrılmaq istəmirlər. İbn Abbasla İmam Hüseynin(ə) bu sözlərini Xanım Zyenəb(s.ə) eşitdi. Üzünü İbn Abbasa tutub dedi: İbn Abbas, sən istəyirsən ağamız bizi burada qoyub tək getsin? Allaha and olsun ki, heç vaxt biz onu tək qoymayacağıq. Diri qalsaq da onunlayıq, ölsək də onunla birgə öləcəyik. Heç vaxt biz ondan ayrılmayacağıq. İbn Abbas bu sözləri eşidəndə gözləri yaşla doldu və hönkürtü ilə ağladı.

**6-cı cavab:**

Bu məsələyə dair bir irfani cavab da vermişlər. O da budur ki,  Həzrət(ə) bütün bu əməli ilə Allaha demək istəyirdi ki, hər nəyim varsa, hamısını Sənin yolunda fəda edirəm. Malım, canım, qardaşlarım, bacılarım, hətta körpə balalarımın hamısını belə Sənin yolunda qurban verməyə hazıram.

**7-ci cavab:**

Aşura qiyamında İmam Hüseyn(ə) hərəkatının iki məqsədi var idi.

Birinci məqsəd bu idi ki, həm İmam Hüseyn(ə), həm də kömək edənlər əmr be məruf və nəhy əz münkər idi. İmam Hüseyn(ə) insanları yaxşılığa dəvət edib pis işlərdən çəkindirmək qəsdi ilə hərəkətə başlamışdı.

Qadınları da özü ilə gətirməkdə məqsədi bu idi ki, İmam(ə) şəhid olandan sonra bu hadisəni təbliğ edib, yaymaq lazım idi. Əgər İmam Hüseyn(ə) şəhid olsaydı və bu məsələ insanlar arasında yayılmasaydı, o zaman nəzərdə olan hədəf itib aradan gedəcəkdi. Buna görə də aşura nehzətinin baş tutmasında İmam Hüseyn(ə) ilə Xanım Zeynəb(s.ə) şərik idilər. Bu işlərin yarısı İmamın(ə) öhdəsinə, yarısı da Xanım Zeynəbin(s.ə) öhdəsinə düşürdü. İmam Hüseyn(ə) camaatı başa salmaq üçün hərəkət etdi. Həzrət(ə) camaatı başa salmaq istəyirdi ki, Yezid İslam adı altında hakimiyyəti ələ alıb zülm, fəsad, alçaq işlərinə davam etmək istəyir. Buna görə də İmam(ə) öhdəsinə düşən işləri gördü, ondan sonra Xanım Zeynəbin(s.ə) təbliğatı başlandı. Əgər xanım Zeynəbin(s.ə) təbliğatı olmasaydı, İmam Hüseynin(ə) bu hərəkatı ört-basdır olub gedəcəkdi. Çünki Yezid istəmirdi ki,bu hadisədən kiminsə xəbəri olsun. Buna görə də elə başa düşürdü ki, İmamı(ə) xəlvət bir yerdə öldürməklə öz stəyinə nail ola biləcək. Buna görə də İmam Hüseyn(ə) bu hərəkatın bütün dünyaya çatdırılması üçün qadınları da özü ilə aparmışdı. Yəni qadınlar bütün bu hadisələrin şahidi olmalı, İmamın(ə) qanı töküləndən sonra onun məqsədini təbliğ etməli idilər. Indi baxaq görək, İmam Hüseynin(ə) gördüyü işlərin davamını qadınlar icra edə bildilərmi? Həmçinin qadınlar Kərbəlada və aşura hadisəsindən sonra öhdələrinə düşən vəzifələri yerinə yetirə bildilərmi?

## Kərbəlada iştirak edən qadınların dünyaya verdiyi dərslər

### 1. Dil və cihad

İmam Hüseynlə(ə) gələn xanımlar başda Xanım Zeynəb(s.ə) olmaqla, bütün dünya qadınlarına, hətta kişilərə belə beş dərs öyrədirlər. Həmin dərslərdən biri budur ki, insan dili ilə öz risalətini çatdırıb, sözünü hər bir zaman deyə bilər. Necə ki, İmam Hüseyn(ə) qılıncı ilə cihad edib məqsədini bildirdisə, eləcə də Xanım Zeynəb(s.ə) başa saldı ki, hər bir insan dili ilə cihad edə bilər. Bu dərsi Kərbəla qadınları bütün insanlara elə bir zamanda öyrədib başa saldılar ki, həmin günlər haqqı deyənin dilini kəsərdilər. Bu dərsi elə bir zamanda öyrətdilər ki, Yezid haqqı müdafiə edənləri qətlə yetirirdi. O dövrdə Yezidə qarşı hansısa kiçik bir etiraz olsaydı belə, həmin şəxs onun tərəfindən işgəncələrə və ölümə məhkum olunurdu. O zamanlar belə deyildi ki, Yezidə lənət oxusunlar. Bu hadisənin üstündən təqribən min dörd yüz il keçəndən sonra insanlar başa düşmüşlər ki, Yezidin adı gələndə lənət oxumaq lazımdır. Həzrət Peyğəmbər(s) dünyadan gedəndən sonra Əməvilər və İslam düşmənləri əlli il ərzində bir çox insanların, hətta körpə uşaqların fikrini belə dəyişdirə bilmişdilər. Xüsusilə bu müddət ərzində Müaviyə, Peyğəmbərin(s) Əhli-beytinə(ə) qarşı əks-təbliğat aparmışdı. Belə bir təbliğat ki, körpə uşaqlar belə Əliyə(ə) qarşı mənfi münasibət bəsləyirdilər.

Bir gün Əmr As Müaviyəyə dedi: Yaşlı adamları sən yoldan çıxara bilməyəcəksən. Həbib ibn Məzahir, Müslim ibn Ovsəcə kimi yaşlı adamlara gücün çatmaz. Əgər bu işi görmək istəyirsənsə, kiçik uşaqlardan başla. Müaviyə soruşdu: Bu işi necə görmək olar? Əmr As dedi: Nökərlərinə göstəriş ver ki, bacardıqları qədər xırda quzu

tapıb gətirsinlər. Müaviyənin göstərişi ilə xeyli quzu tapdılar. Əmr As həmin quzuları arabaya yükləyib qapı-qapı gəzməyə başladı. Hansı evdə kiçik uşaq vardısa, quzunu həmin uşağa verib, Müaviyənin hədiyyə etdiyini deyərdi. Bütün uşaqlar quzunu görüb sevinərdi. Beləliklə, iki-üç yüz quzu payladı. Uşaqlar bir neçə gün həmin quzularla oynayıb, heyvanlara meyl bəsləyirdilər. Bir neçə gündən sonra gecə yarısı Əmr As xəlvətcə həmin quzuları oğurlayıb apardı. Uşaqlar səhər yuxudan durub quzularının həyətdə olmadığını gördükdə bir-birindən quzunun harada olduğunu soruşurdular. Əmr As onların arasında şayiə yayırdı ki, quzuları gecə yarısı Əli oğurlayıb. Bu cür alçaq və namərd hərəkətləri ilə Peyğəmbərin(s) Əhli-beytinə(ə) qarşı insanlarda nifrət hissi yaratmışdılar. Onlar doğrudan da bir dəstə camaatda elə təsəvvür yaratmışdılar ki, onlar da elə bilirdilər ki, Bəni-Üməyyədən başqa, Peyğəmbərin(s) qohum- əqrəbası yoxdur.

Abbasilər qiyam edəndən sonra Əbul Abbas Səbbah Şamda hakim oldu. Şamın ağsaqqallarından və görkəmli şəxslərindən on nəfər yığışıb Səbbahın yanına gəldilər və dedilər: And olsun Allaha, bu günə qədər biz Bəni-Üməyyənin Peyğəmbərin(s) qohumu olmadığını bilmirdik. Bu günə qədər elə bilirdik ki, Peyğəmbərin(s) qohum-əqrəbası yalnız Bəni- Üməyyədir. Elə bilirdik ki, Bəni-Üməyyədən başqa, Peyğəmbərin(s) heç bir qohum-əqrəbası olmayıb.

Kərbəla hadisəsindən sonra əsirləri Şam şəhərinə gətirdilər. Şəhərin girəcəyində qoca bir kişi əsirlərə

yaxınlaşıb dedi: Allaha şükür olsun ki, sizi həlak edib bizim əmrimizi qalib etdi.[1]

İmam Səccad(ə) gördü ki, bu, yaşlı bir qocadır. Bildi ki, onun beynini pis fikirlərlə xarab ediblər. Buna görə də buyurdu: Sən Quran oxuyursanmı? Qoca dedi: Bəli. İmam Səccad(ə) buyurdu: Bu ayəni oxumusanmı?

أقرأت "قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى"

De: Mən sizdən bunun (peyğəmbərliyimin) müqabilində heç bir şey istəmirəm. Lakin mənə yaxşılıq etmək istəyirsinizsə, onda yaxınlarıma (Əhli-beytimə) məhəbbət bəsləyin. Qoca dedi: Bəli. İmam Səccad(ə) buyurdu:

أقرأت "وَآتِ ذَا الْقُرْبَى حَقَّهُ"

«Peyğəmbərin yaxınlarının haqqını əda edin» ayəsini oxumusanmı?

Qoca dedi: Bəli. İmam Səccad(ə) buyurdu: Allaha and olsun ki, Quranda buyurulan Peyğəmbərin həmin yaxınları bizik.

İmam Səccad(ə) buyurdu: Bu ayəni oxumusanmı?

أقرأت "وَاعْلَمُواْ أَنَّمَا غَنِمْتُم مِّن شَيْءٍ فَأَنَّ لِلّهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَى"

Qoca dedi: Bəli. Bunlar hamısı Peyğəmbərin(s) Əhli-beyti(ə) barədə olan ayələrdir. İmam Səccad(ə) buyurdu: Bu ayədə buyurulan qohumlar bizik.

İmam Səccad(ə) buyurdu: Bu ayəni oxumusanmı?

أقرأت "إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

[1] Yezid camaata bir xarici ilə müharibə etdiyini elan etmişdi. O, camaata deməmişdi ki, Peyğəmbərin nəvəsini öldürmək istəyir.

-Həqiqətən, Allah siz Əhli-beytdən bütün çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər.

Qoca dedi: Bəli. İmam Səccad(ə) buyurdu: And olsun Allaha ki, əhli- beyt bizik. Qoca təəccüblənib soruşdu: Sizi Allaha and verirəm, siz Peyğəmbərin(s) balalarısınız? Imam buyurdu: Allaha and olsun ki, biz Peyğəmbərin(s) itrəti və əhli-beytiyik. Qoca üzü üstə İmamın(ə) ayaqlarına düşüb ağlamağa başladı. Imamdan(ə) üzr istəyib dedi: Bizə belə deməmişdilər. Bizə bildirmişdilər ki, Yezid bir xarici ilə müharibə edir. Sizin qatillərinizə və sizə zülm edənlərə nifrət edirəm.

Bu mənzərə camaata təsir göstərdi. Bu hadisəni Yezidə xəbər verdilər. Yezid gördü ki, belə getsə, bütün işləri korlanacaq və cinayətlərinin üstü açılmasın deyə, həmin kişini öldürmək barədə göstəriş verdi. Qocanı tutub şəhid etdilər.

Elə pis təbliğat aparmışdılar ki, hətta İmam Hüseyni(ə) qətlə yetirməyi bir qism insanlar özlərinə savab hesab edirdilər. Hətta Kərbəlaya Imama bircə daş atıb savab iş görmək üçün gələnlər də var idi. Bəziləri elə bilirdilər ki, Imamı öldürməklə çoxlu mal-dövlət əldə edəcəklər.

Kufə yaxınlığında Yaqub adlı bir cavan yaşayırdı. Onun anası İmam Hüseyn(ə) aşiqi idi. Anası dəfələrlə Yaquba onu İmamın(ə) ziyarətinə aparmağı xahiş edirdi. Hər gün bu eşqlə ağlayırdı. Bir gün Yaqub evə gələrkən yenə anasının ağladığını görüb soruşdu: Anacan, niyə ağlayırsan? Anası dedi:

*Ağamın eşqi vurub başıma, göz yaşım axır,*
*Bir əlac eylə mənə, amandır, qəlbim darıxır.*

Oğul, məni apar ağamı ziyarət eləyim. Yaqub dedi: Anacan, narahat olma bir gün səni İmam Hüseynin(ə) ziyarətinə apararam.

Günlərin birində Yaqub bazarda gördü ki, hamı qılınc-qalxan alır. Nə baş verdiyini soruşduqda, ona belə dedilər: Bir xarici qiyam edib. Yezid İbn Ziyada həmin xarici ilə müharibə etməyi əmr verib. İbn Ziyad da camaata elan edib ki, onu öldürmək üçün hamı özünə silah alsın. Deyirlər həmin xaricinin mal-dövləti çoxdur. Biz də onunla müharibəyə hazırlaşırıq ki, bəlkə onu öldürüb qarətdən-qənimətdən ələ keçirək. Yaqub evə gəlib bu əhvalatı anasına danışdı və dedi: Ana, bəlkə mən də bu müharibəyə gedəsi oldum. Əgər orada əlimə bir qənimət keçərsə, gətirib bazarda satıb pul əldə edərəm. Həmin pulla səni İmam Hüseynin(ə) ziyarətinə apararam.

*Səhmi taracımı bazaridə dinar edərəm,*
*Nigaran olma, Hüseynə səni zəvvar edərəm.*

Yaqub yola düşüb aşura günü özünü Kərbəlaya yetirdi. Baxıb gördü ki, iş-işdən keçib. Müharibə artıq sona çatmışdı. Ibn Sədin yanına gəlib dedi: Deyəsən gecikmişəm. Ibn Səd dedi: Yox, əsl vaxtında gəlmisən. Orada bir yaralı var, qılıncı götür, onun başını kəs və mənə gətir. Onun başını kəsib gətirdikdən sonra mükafatını alacaqsan. Yaqub yaralının yanına gəlib təəccüblə ona baxmağa başladı. Gördü yaralının çox gözəl camalı, qəddi-qaməti var. Bu insan heç də xariciyə oxşamır.

*Razi həqqin əcəba bəndeyi ziba təri var,*
*Bu gözəl qamətə səd heyif ola qan bəstəri var,*
*Surətinnəki hicaz əhlinə çox bənzəri var.*

İmam Hüseyn(ə) gördü Yaqub sərgərdan qalıb. Nə etmək istədiyi yadından çıxıb.

*Gördü mehmanini avarə rəisüs-səqəleyn,*
*Cəddi Peyğəmbər öpən gözlərini açdı Hüseyn.*
*Gül kimi ləbləri güldi, özü ba raze suxən,*

*Dedi, Yəqub, gəlibsən başımı kəsməyə sən?*

Etiraz etmirəm, başımı kəsəndən sonra tez qayıt. Gözü yolda qalanın var. Başımı kəsəndən sonra Ibn Sədə vermə, apar anan üçün. Yaqub təəccüblə baxıb soruşdu: Ağa, sən kimsən belə? Mənim kim olduğumu haradan bildin? Hardan bildin ki, anamın gözü yoldadır?

İmam(ə) buyurdu: “Anana de ki, Yəsribə getməsin. Hüseyn oradan çıxıb, məkanını dəyişib.”

*Getməyin Yəsribə, təğyiri məkan etdi Hüseyn.*
*Itrətin çöllərə saldı, nigəran etdi Hüseyn.*
*Anası Fatimənin bağrını qan etdi Hüseyn.*
*O Hüseyn ki, zülmilə tökülür qani, o mənəm.*
*Adı olmuş ananın virdi zəbani, o mənəm.*

Yaqub bu sözləri eştcək, üzünü İmamın(ə) qədəmlərinə qoyub ağlamağa başladı.

Bəni-Üməyyənin alçaqlığı, şərəfsizliyi nəticəsində camaatın fikri Əhli-beytə(ə) qarşı dəyişmişdi. On minlərlə adam Hüseyni(ə) öldürmək üçün Kərbəlaya gəlmişdi. Bəziləri xəbisliyindən, bəziləri qənimət əldə etmək üçün, bəziləri isə İmam Hüseynə(ə) bir daş atmaqla belə savab qazanmaq üçün gəlmişdilər. Elə başa düşürdülər ki, bu işi görməklə savaba çatacaqlar. Çünki Yezid deməmişdi ki, müharibə etdiyi və öldürmək istədiyi insan Fatimənin balasıdır. Xarici adı ilə insanlarda təsəvvür yaratmışdı. Yaralının yanına getməzdən əvvəl Yaqub Ibn Səddən həmin yaralının adını soruşdu. Ibn Səd dedi: Sən onun adını neyləyirsən? Sizin müftiniz Şüreyh qazinin fitvasını istəyirsənsə, sənə göstərə bilərəm.

Bu cür fitvayla, bu cür təbliğatla bir dəstə camaatın başını elə xarab etmişdilər ki, onlar İmam Hüseyni(ə) savab qazanmaq üçün öldürməyə gəlirdilər. Belə bir vəziyyətdə Xanım Zeynəbin(s.ə) təbliğatı başlandı.

Məhərrəm ayının onu - aşura günü İmam Hüseyni(ə) şəhid edəndən sonra məhərrəm ayının on biri Həzrətin(ə) Əhli-beytini dəvələrə mindirib Kufəyə sarı yollandılar. Məşhur tarixə əsasən məhərrəm ayının on ikisi Kufəyə daxil oldular. Əsirləri kəcavəsiz dəvələrə və yəhərsiz atlarda əyləşdirib gətirmişdilər. Dörd min nəfər silahlı şəxs Kufədə dolanırdı ki, əsirləri ora gətirərkən çaxnaşma düşməsin. On minlərlə insan şəhərə axışmışdı. Əsrlər karvanı şəhərə daxil oldu, bir qadın damın üstündən təəccüblə onlara baxırdı. Əsirlərin üzləri açıq, paltarları toz-torpaq içində idi. Onlardan soruşdu: Siz kimsiniz? Haranın əsirlərisiniz? Xanım Zeynəbin(s.ə) sözü və risaləti elə oradan başlandı və dəvənin üstündən dedi: "Biz Ali Məhəmməd(s) əsirləriyik." Həmin qadın bu sözləri eşitcək tez evə keçib çoxlu paltar, çarşab, örpək gətirib Xanım Zeynəbə(s.ə) verdi. Xanım Zeynəb(s.ə) onları alıb, həm özü geyindi, həm də uşaqlara geyindirdi. Bəziləri də evdən çörək, xurma gətirib onlara vermək istəyərkən əsir xanımlardan biri dedi: "Ey Kufə camaatı, sədəqə bizə haramdır." Bəziləri təəccüblə əsirlərə baxırdılar. Yavaş-yavaş camaatda fikir ayrılığı yarandı və ağlaşma başladı. Xanım Zeynəb(s.ə) ilk xütbəsini oradaca başladı. Əlini göyə qaldırıb camaatı sakitləşdirdi. Camaat sakitləşəndən sonra Xanım(s.ə) belə buyurdu:

الْحَمْدُ لله وَالصَّلاةُ عَلى اَبِي مُحَمَّدٍ وَ آلهِ الطَّيِّبِينَ الأَخْيار

يا اَهْلَ الْكُوفَة، يَا اَهْلَ الْخَتْلِ وَ الْغَدْر أَتَبْكُون! فَلا رَقَأَتِ العَبْرَة وَ لا هَدَأَتِ الزَّفْرَة، اِنَّما مَثَلُكُم كَمَثَلِ الَّتِي نَقَضَتْ غَزْلَهَا مِن بَعْدِ قُوَّةٍ أَنكَاثًا تَتَّخِذُونَ أَيْمَانَكُمْ هَلْ فِيكُمْ اِلاّ الصَّلَفِ وَ الْعُجْب والشَّنَف وَالْكِذْب وَ مَلَقُ الإِماءِ وَ غَمْزُ الاَعْداء اَوْ كَمَرْعى عَلى دِمْنَة اَوْ كَفِضَّةٍ عَلى مَلْحُودَة

اَلا سَاءَ مَا قَدَّمَتْ لَكُمْ اَنْفُسكُم اَنْ سَخِتَ اللهُ عَلَيْكُم وَ فِي الْعَذابِ اَنْتُمْ خالِدُون

-Həmd olsun Allaha və salam olsun Atam Peyğəmbərə(s)[1] və onun pak və seçilmiş Əhli-beytinə.

"Ey kufəlilər! Ey kömək lazım olanda əl saxlayan hiyləgərlər və fırıldaqçılar! Bizim üçün ağlayırsınız?! Ölənə qədər göz yaşınız qurumasın və ahınız soyumasın. Sizin əhvalatınız ona bənzəyir ki, öz ipini əyirdikdən və möhkəmləndirdikdən sonra açıb bir-birindən ayıran o *(yelbeyin)* qadın kimidir ki, andlarınızı bir dəstənin *(digər)* bir dəstədən artıq və imkanlı olmasına xatir öz aranızda hiylə və fəsad vasitəsi edəsiniz. Sizdə yaltaqlıqdan, xudbinlikdən, yalançılıqdan başqa bir şey varmı?" Siz peyinlikdə bitən bitkilərə oxşayırsınız. Siz üstü gümüşlə bəzədilmiş, içində murdan leş olan qəbirlərə oxşayırsınız. Çox pis əməlləri özünüzdən əvvəl axirətə göndərmisiniz. Allahın qəzəbi olsun sizə aə Allahın əbədi əzabına düçar olasınız. Qiyamətin günü Peyğəmbər(s) sizdən «Əhli-beytim ilə necə rəftar etdiniz?» deyə soruşduqda, Ona nə cavab verəcəksiniz?

Ibn Səd gördü ki, əgər bir az da belə getsə, vəziyyət tamamilə dəyişəcək. Xanım Zeynəbin(s.ə) çıxışını saxlamaq üçün Şimrə işarə edib göstəriş verdi. Gördülər ki, Xanım Zeynəbi(s.ə) sakitləşdirə bilməyəcəklər. Buna görə də Şimr İmam Hüseynin(ə) başını nizənin üstündə gətirib Xanım Zeynəblə üzbəüz saxladı.

Xanım Zeynəb(s.ə) qardaşının başına baxıb dedi:

---

[1] Xanım Zeynəb (s.ə) Quran ayəsinə istinad edərək, Peyğəmbərə(s) ata dedi. Çünki Quranda Imam Həsən və Imam Hüseyni Allah-təala Peyğəmbərə(s) oğul kimi işarə etmişdir.

يَا هِلالاً لَمّا اسْتَتَمَّ كَمالاً

غَالَهُ غَسْفَهُ فَأَبْدا غُرُوبا

مَا تَوَهَّمْتُ يَا شَقِيقَ فُؤادِى

كانَ هذا مُقَدَّرا مَكْتُوبا

يَا اَخِى فاطِمُ الصَّغِيره كَلِّمُها

فَقَد كادَ قَلْبُها ان يَذُوبا

يَا اَخِى قَلْبُكَ الشَفِيق عَلَيْنا

ما له قد قسا و صار صليبا؟

-Ey Hilal, səni bu halda görəcəyimi heç vaxt fikirləşməzdim. Ey mənim qardaşım, qızın kiçik Fatimə səninlə danışmaq istəyir, onunla danış. Bu qızlarının bağrıları qana dönüb. Niyə onları danışdırmırsan? Qardaş, sən məhəbbətli idin, həmişə bizi görərkən bizimlə danışıb söhbət edərdin. Indi nə üçün sakitsən? Qardaş, üz-gözün külə bulaşıb, olmaya sənin başını küllər üstünə atıblar?

Xanım Zeynəb(s.ə) bu şeri oxudu və onu sakitləşdirə bilmədilər. Nəhayət, əsirləri İbn Ziyadın məclisinə apardılar. Xanım Zeynəb(s) qürurla həmin məclisdə əsirlərin arasında əyləşdi. İbn Ziyad soruşdu: Mənə məhəl qoymayan bu təkəbbürlü qadın kimdir belə? Dedilər: Bu Əlinin qızı Zeynəbdir. İbn Ziyad Xanım Zeynəbin adını eşidən kimi baxıb dedi:

اَلْحَمْدُ للهِ الَّذِى قَتَلَكُم وَ فَضَحَكُم

"Həmdu-səna olsun Allaha ki, sizi qətlə yetirdi və rüsvay etdi.

Xanım Zeynəb(s.ə) ona belə cavab verdi:

اَلْحَمْدُ للهِ الذِى اَكْرَمَنا بِنَبِيِّهِ مُحَمَّد وَ طَهَّرَنا مِنَ الرِّجْس تَطْهِيرا ، اِنَّما يُفْتَضَح الفاسِق و يَكْذِب الفاجِر وَ هُو غَيْرَنَا

"Həmd osun Allaha ki, bizi Peyğəmbəri Məhəmmədlə əzizlədi və hər növ çirkinlikdən yaxşıca pakladı. Şübhə yoxdur ki, fasiq rüsvay olar və facir yalan deyər. O isə biz deyilik, sizsiniz"

İbn Ziyad dedi:

كَيْفَ رَاَيْت صُنعَ الله بِاَخِيكَ وَ اَهْلِ بَيْتِك

Allahın qardaşına və əhli-beytinə etdiyini necə, gördün?

مَا رَئَيْتُ اِلاّ جَمِيلاً هؤلاء قَومٌ كَتَبَ اللهِ عَلَيْهِم القَتْل فَبَرَزُوا الى مضاجعهم، و سيجمع الله بينك و بينهم، فَانظُر لِمَن يَكون الفلج، ثَكَلَتكَ اُمُّكَ يا ابْن مَرْجانَة...

Xanım Zeynəb(s.ə) buyurdu: Gözəllikdən başqa bir şey görmədim. Onlar elə insanlardır ki, «Allah şəhadəti onların müqəddəratına qismət etdi və onlar öz qətlgahlarına qovuşdular. Tezliklə, Allah səninlə onları bir yerə cəm edər. Elə isə bax gör, qələbə kimə məxsusdur? Anan matəminə otursun, ey Mərcanənin oğlu!.."

İbn Ziyad əsirləri Şama göndərdi. Əsirlər Şam şəhərinə çatdıqda onları şəhərə buraxmadılar. Çünki Yezid şəhərin bəzədilməsi üçün göstəriş vermişdi. Əsirləri üç gün şəhərin darvazasının arxasında saxladılar. Yezid şənlik keçirmək üçün mütrüfləri çağırmışdı. Sarayı bəzəyib şənliyə başladılar. Həmin şənliyə çox sayda qonaqları dəvət etmişdilər. Hətta xaricidən də bu şənliyə adamlar dəvət olunmuşdu. Tanınmış şairlər, dövlət adamlarını həmin şənliyə çağırmışdılar. Hər şey tam hazır

olduqdan sonra əmr verdi ki, əvvəlcə yaralı başları, onların ardınca əsirləri gətirsinlər. Hamını saraya yığandan sonra İmam Hüseynin(ə) başını teştin içinə qoyub Yezidin qarşısına gətirdilər. Yezid əlindəki xeyzəranla Həzrətin(ə) dodaqlarına vurub dedi: Bu gün Bədr döyüşünün intiqamı alındı. Ikinci dəfə də İmamın(ə) dodaqlarına xeyzəranı vurub dedi: Nə yaxşı dodaqların var?

Məclisdə Səmurət ibn Cündəb adlı Peyğəmbərin(s) səhabəsi ayağa qalxıb dedi: "Yezid, Allah əllərini şikəst eləsin. Mən dəfələrlə Peyğəmbərin(s) həmin dodaqları öpdüyünün şahidi olmuşam. Indi sən həmin dodaqlara çubuqla vurursan?"

Yezid dedi: Əgər Peyğəmbərin səhabəsi olmasaydın, səni öldürərdim.

Səmurət ibn Cündəb dedi: "Çox təəccüb olsun. Sən Peyğəmbər(s) səhabəsinə hörmət edirsən? Peyğəmbərin(s) səhabəsinə hörmət edib, onun balasını öldürüb dodaqlarına xeyzəran vurursan?"

Yezid gördü ki bundan artıq danışsa, çaxnaşma düşəcək. Buna görə də Bədr döyüşündə Abdulla ibn Zibəranın Peyğəmbərin əleyhinə yazdığı şeirlərdən oxuyub, öz şeirlərini də ona qoşaraq oxumağa başladı.

Şerin məzmunu belə idi: Kaş Bədr döyüşündə ölən ata-babam və böyüklər görəydilər ki, bu gün Bədrin intiqamını alıram. Əgər onlar bu günü görsəydilər, deyərdilər ki, əllərin var olsun, Yezid. Bəni-Haşim hakimiyyət məsələləri ilə oynadı. Indiyə qədər heç bir vəhy gəlməmişdir. Kim deyir ki, Peyğəmbərə(s) vəhy nazil olub?

Orada Yezidə etiraz edənlər çox idi. Tarixdə yazırlar ki, həmin məclisə Rum padşahının nümayəndəsi də qonaq

kimi dəvət olunmuşdu. O, vəziyyəti belə görüb təəccüblə ayağa qalxdı və üzünü Yezidə tutaraq dedi: “Yezid, mən məsihiyəm. Bizim yaşadığımız ölkələrdə bir ada var. Həmin adada Isa Peyğəmbərin heyvanından bir əlamət və nişanə qalmışdır. Biz o əlaməti tutiya və təbərrük kimi saxlamışıq. İl ərzində bir dəfə mərasim təşkil edib, onu ziyarət edirik. Peyğəmbərinizin(s) ölümündən 50 il keçməmiş onun balasını öldürüb belə təhqir edirsən? Çox biədəb adamsan sən, Yezid. Sən çox azğın insansan.” Həmin məsihi bu sözləri deyəndən sonra İmam Hüseynin(ə) mübarək başının qarşısında əyləşib öpdü və şəhadət kəlmələrini söyləyərək İslamı qəbul etdi. Yezid bu mənzərəni görüb onu da öldürməyi əmr verdi. Həmin məclisdə hamı sakit idi. Bütün sinələrdə ürəklər qorxudan titrədiyi bir halda Xanım Zeynəb(s.ə) ayağa qalxıb bir xütbə oxudu. Həmin xütbənin bir neçə cümləsini qeyd edirəm.

اَظَنَنْتَ يا يَزِيد حِيْثُ اَخَذْتَ عَلَيْنا اَقْطارَ الاَرْض وَ آفاقَ السَّماء فَاَصْبَحَنا نساق كما تساق الاسارى ان بنا على الله هوانا و بك عليه كرامة...

«Ey Yezid! Çox göylə gedirsən. Sən xəyal edirsən ki, bu gün bizi əsir etmisənsə, bütün yer üzünü bizim üzümüzə bağlamısansa, biz sənin nökərinik və bu Allah tərəfindən sənə verilən bir nemətdir?! Xeyr, belə deyil, bunlar sənin xəyallarındır. And olsun Allaha, sən mənim gözümdə ən kiçik və ən alçaq adamsan və mən səni zərrə qədər ləyaqətli bilmirəm.» Sən Allahın bu ayəsini eşitməmisən ki, belə buyurur?

وَلاَ يَحْسَبَنَّ الَّذِينَ كَفَرُواْ أَنَّمَا نُمْلِي لَهُمْ خَيْرٌ لِّأَنفُسِهِمْ إِنَّمَا نُمْلِي لَهُمْ لِيَزْدَادُواْ إِثْمًا وَلَهْمُ عَذَابٌ مُّهِينٌ

-Küfr edən kəslər onlara verdiyimiz möhlətin öz xeyirlərinə olmasını güman etməsinlər. Əslində Biz onlara möhlət veririk ki, onlar *(öz)* günah*(ların)*ı artırsınlar. Onlar üçün alçaldıcı bir əzab vardır.

Yezid, bundan artıq səndən heç nə gözləmək olmaz. Sənin atan Müaviyənin anası, baban Əbu Süfyanan arvadı Seyyidiş-şühəda Həmzənin ciyərini dişləyib yeməklə özünə qan, ət və dəri düzəltdi. Onun nəticəsi səndən başqası ola bilməz. Indi də mənə «Kaş Bədr döyüşündə ölən ata-babam və böyüklər görəydilər ki, bu gün Bədrin intiqamını alıram» şeri oxuyursan? Çox keçməz ki, sən də ata-babana qoşulub mülhəq olacaqsan. O zaman deyəcəksən, kaş bu sözləri deyən yerdə dilim lal olaydı. O zaman deyəcəksən, kaş əllərim şikəst olaydı, bu işləri görməyəydim. Amma bu sözlərin sənə heç bir faydası olmayacaq.

Yezid, mən səninlə heç vaxt kəlmə kəsməzdim. Ruzigar məni səninlə danışmağa vadar etdi. Mən səni çox alçaq, ləyaqətsiz bir insan kimi tanıyıram. Əgər ruzigar məni vadar etməsəydi, heç vaxt səninlə belə üz-üzə dayanıb söhbət etməzdim. Çox təəccüb olsun ki, Allah sevən insanlar şeytanpərəst adamların əli ilə şəhadətə çatırlar. Yezid, bizim ətimizin iyi sənin ağzından gəlir. Ey Müaviyənin qan tökən canavarı! Ey Müaviyənin ət yeyəni. Ölüm olsun sənə! «Ey Yezid, sənə deyirəm. Hər nə hoqqa istəyirsən və hər nə bacarırsan et, amma yəqin bil ki, əgər dünyadan adımızı silmək istəyirsənsə, bizim adımız silinən deyil, bizə vəhy olunan ayələri aradan apara bilməyəcəksən, bil ki silinib gedən və məhv olan sənsən. Yezid, qiyamət günü nida səslənərkən deyiləcək, lənət olsun zalımlara.”

Xanım Zeynəb(s.ə) Yezidin məclisini sözləri ilə alt-üst etdi. Çalıb- oynamağa, deyib-gülməyə, əllərinə xına qoyub şənliyə gələnlərin hamısını ağlar qoydu. Onlar Xanım Zeynəbin(s.ə) bu xütbələrindən sonra həqiqəti başa düşüb ağlaşmağa başladılar. Yezid İmam Hüseynin(ə) şəhid olmağını gizlətmək üçün ona xarici adı qoyub, camaatın başını çalıb-oynamaqla qarışdırmaq istəyirdi. İmam Hüseyni(ə) qətlə yetirmək üçün Həzrətə (ə) xarici adı qoyub, Şüreyh Qazinin fitvası ilə bu işi görməklə camaatı aldadıb, Hüseynin(ə) qanının üstünü ört-basdır etmək istəyirdilər. Lakin bu şücaətli xanım onların hiylələrinin üstünü açdı və Hüseynin(ə) qanının hədərə getməsinə mane oldu. Imkan vermədi ki, İmamın(ə) yerə tökülən nahaq qanı itib aradan getsin. Bu əzəmətli xanım Kərbəla hadisəsini olduğu kimi təbliğ etdi və bütün dünya qadınlarına, həmçinin kişilərə öyrətdi ki, insan dili ilə cihad edib, həqiqəti üzə çıxarmaqla qalib ola bilər.

### 2. Zəmanənin İmamına(ə) itaət və Allah yolunda fədakarlıq

Kərbəlada İmam Hüseynin(ə) məhzərində olan qadınların başda Xanım Zeynəb (s.ə) olmaqla bütün dünya qadınlarına və insanlara öyrətdiyi dərslərdən biri budur ki, insan hər bir zamanda əsrin imamına itaət etməli və Allah yolunda fədakar olmalıdır. O xanımlar bu əməli həm dili ilə etiraf etmiş, həm də əməli surətdə həyata keçirmiş və bütün insanlara da öyrətmişlər. Bu şərafətli xanımlar öz dövrlərinin imamı olan İmam Hüseynə(ə) layiqincə itaət edib, bu yolda da canlarından, mallarından, balalarından, əzizlərindən keçdilər. Bunu bütün dünyaya da sübut etdilər, mallarından, balalarından, əzizlərindən keçdilər.

Bunu bütün dünyaya da mərhum Ayətulla Şüştəri «Xəsaisül-Hüseyn» adlı kitabında belə yazır: “İmam Hüseyn(ə) aşura günü camaatı yeddi dəfə köməyə çağırdı. İmamın(ə) bu çağırışının yeddisinə də xanımların hamısı çadırlardan çıxıb, Həzrətin(ə) çağırışına ləbbeyk dedilər. Həmin qadınlardan biri belə dedi: Ya Hüseyn, sənin bu çağırışına ləbbeyk deyirəmsə, əgər mənim özüm meydanda deyiləmsə, bil ki, mənim qəlbim səninlədir. Sənin bütün buyuruqlarına can-başla hazıram.”

Ömər Səd çadırlara od vurub, yandırmağı əmr verdi. Çadırları yandırdılar. Xanımlar, uşaqlar nə edəcəklərini bilmirdilər. Xanım Zeynəb(s.ə) dedi: Məni gözləyin, İmam Səccadla(ə) məsləhətləşim. Xanım Imamın məhzərinə gəldi və soruşdu: Ağa, bu halda bizə nə göstəriş verirsən? İmam(ə) buyurdu: Hamınız çadırlardan çıxıb qaçın. Xanım Zeynəb(s.ə) gəlib bu xəbəri qızlara çatdırdı. Qızlar dedilər: Əgər İmam(ə) bizə məsləhət görsə ki, çadırlardan çıxmayaq və odun içində yanaq, biz bu işə razıyıq. Əgər İmam(ə) bizim çadırlarda qalmağımızı məsləhət görürsə, biz çıxmarıq. Xanım Zeynəb(s.ə) dedi: Xeyr, İmam(ə) özü bizə çadırlardan çıxmağı əmr verdi. Qadınlar İmamın(ə) itaətinə qarşı o qədər dəqiq idilər ki, əgər İmam(ə) onların qalıb yanmağına əmr versəydi, bu işi görməyə can-başla hazır idilər. Onlar bu hərəkətləri ilə bildirirdilər ki, İmamın(ə) əmri mühümdür, bizim istəyimiz yox. Kərbəlada İmamın(ə) məhzərində olan qadınlar - Xanım Zeynəb(s.ə), bacısı Ümmi Gülsüm və başqaları bütün insanlara öyrətdilər ki, əsrin Imamına(ə) qeyd-şərtsiz itaət etməli, İmamın(ə) sözü qarşısında təslim olmalıdır.

Mariyə Münqəzin qızı idi. Onu Əbdiyyə deyə çağırardılar. O, öz evində elmi mərkəz təşkil etmişdi.

Qadınlar, uşaqlar onun evinə gəlib dərs oxuyub, dini təlimlər alırdılar. Onun əri və üç oğlu Cəməl döyüşündə Həzrət Əlinin(ə) məhzərində şəhid olmuşdu. Əbdiyyə çox dindar, mütədəyyin, İslam dininin hökmlərinə dəqiqliklə riayət edən bir qadın idi. İmam Hüseynin(ə) Mədinədən çıxdığını və hərəkətə başladığını eşitdikdə bütün dərslərində bu məsələni açıqladı və İmamın(ə) məqsədini gəlib-gedənlərə anlatdı. Həmçinin İmamın(ə) xanımları nə üçün Kərbəlaya apardığını öz düşüncəsi ilə açıqlayıb başa saldı ki, Xanım Zeynəbin(s.ə) ora getməsi Kərbəla hadisəsini mükəmməlləşdirmək üçündür. Bütün bunları şagirdlərinə başa saldıqdan sonra bütün mal-dövlətini, evini, bağını aşura hərəkati üçün ehsan etdi. Bütün varını bu yolda əsirgəmədi.

Qadınlar aşura günü Kərbəlada çadırda əyləşib Allaha ibadət, dua edirdilər. Onların bəzisinin oğlu, bəzilərinin həyat yoldaşı, bəzilərinin yaxınları müharibədə döyüşürdü. Lakin onların heç biri səbirsizlik etmədilər. Çünki İmamı(ə) müdafiə etmək üçün hər şeylərindən keçməyə tam hazır idilər. Bir sıra tarix kitablarında on nəfərin, bəzi tarixlərdə isə doqquz qadının adı qeyd olunmuşdur ki, onların oğlanları müharibədə şəhid olarkən onlar çadırda əyləşmişdilər. Bəzi qadınlar da var idi ki, çadırdan çıxıb öz oğlanlarının döyüşməyinə tamaşa edirdilər. Nümunə üçün o qadınların adlarını qeyd edirəm.

Abdulla ibn Hüseyn (Əli Əsğər) Kərbəlanın ən kiçik şəhidi idi. Əli Əsğəri şəhid edərkən anası Rübab xanım çadırda əyləşmişdi.

Ovn ibn Abdulla Cəfərin anası Zeynəb oğlu şəhid olarkən çadırdan çıxmadı. Qasim ibn Həsənin anası Rəmlə də oğlu şəhid olarkən çadırda əyləşmişdi.

Abdulla ibn Həsənin anası Şəlil çadırda idi.

Abdulla ibn Müslimin anası Həzrət Əlinin qızı Rüqəyyə xanım oğlu şəhid olarkən çadırda ibadət edirdi. Məhəmməd ibn əbi Səid ibn Əqilin anası çadırın kənarında dayanıb oğlunun döyüşünə tamaşa edirdi.

Əmr ibn Cünadənin anası dedi ki, mən oğlumun necə şəhid olduğunu gözümlə görmək istəyirəm. Buna görə də çadırdan çıxıb, oğlu şəhid olana qədər ona tamaşa edirdi.

Abdulla Kəlbi kiçik uşaq idi. Anası ona başa saldı ki, oğul, indi elə bir vaxtdır ki, döyüşə gedib İmamı(ə) müdafiə etməlisən. O da döyüşə gedib şəhid oldu.

Əli ibn Hüseynin (Əli Əkbərin) anası Xanım Leyla da bəzi tarixlərə əsasən Kərbəlada idi.

Xanım Zeynəbin(s.ə) iki oğlu da Kərbəlada şəhid olmuşdu. Bütün şəhidləri çadıra gətirərkən, çadırdan çıxar və həmin şəhidin anasına qoşulub, oxşayıb ağlayardı. Elə ki, İmam Hüseyn(ə) xanım Zeynəbin(s.ə) oğlanlarının cənazəsini  çadırın yanına gətirdi, xanım  çölə çıxmadı. Bir neçə qadın Həzrət Zeynəbin(s.ə) çadırına daxil olub dedilər: Xanım, qurbanlarını gətiriblər. Necə ki, bizim şəhidləri gətirəndə sən çıxıb oxşayıb ağlayırdın, indi də çıx, biz sənin oğlanlarını oxşayıb ağlayaq.

*Buyurdu xaneyi səbri bilin, yıxan deyiləm.*
*Min oğlum ölsə də, mən xeymədən çıxan deyiləm.*

Xanım Zeynəb(s.ə) İmam Hüseynin(ə) hörmətinə çadırdan çıxmadı. Qardaşının qarşısında çıxıb, öz oğlanlarına ağlamağı özünə ayıb bildi.

Cünadə ibn Haris Kərbəlada müqəddəs və möhtərəm şəxslərdən biri idi. Imamdan(ə) izn alıb döyüş meydanına daxil oldu. Bir neçə nəfəri öldürəndən sonra onun özünü də şəhid etdilər. Cünadənin Əmr adlı bir oğlu da orada iştirak edirdi. Əmr kiçik uşaq idi. Həddi-büluğa çatmamışdı. Anası ona dedi: Oğlum, atan şəhid oldu.

Istəyirsənsə mən səndən razı qalım və ürəyim səndən şad olsun? Əmr dedi: Əlbəttə, istəyirəm. Anası dedi: O zaman get İmamın(ə) məhzərində döyüş və şəhid ol. Belə bir səadət qapısı üzümüzə açılıb. Əmr meydana daxil olmaq istəyərkən İmam Hüseyn(ə) onu tanıdı və buyurdu: Bu uşağı qaytarın. Bunun atası şəhid olub. Ola bilsin anası onun ölməyinə razı olmasın. Əmr Həzrətin(ə) hüzuruna gəlib dedi: Ağa, məni döyüşə anam göndərib. Anamın əmrinə görə mən sənin məhzərində şəhid olmaq üçün çıxmışam.  Anası orada böyük qəhrəmanlıq göstərdi. O çadırdan çıxıb oğluna tamaşa edirdi. Düşmən onun oğlunu şəhid edib, başını kəsərək anasına sarı atdı. Əmrin anası oğlunun  başını götürüb meydana sarı hücum etdi və əlindəki başı oğlunun qatilinin başına vurub onu öldürdü. Sonra çadırlara sarı qayıdaraq çadırın dirəklərindən birini çıxardıb hücuma keçdi. Meydana daxil olmazdan öncə üzünü İmam Hüseynə(ə) tutaraq belə şeir oxudu:

انَا عَجُوزٌ سَيِّدِي ضَعِيفَة   خاوِيَةٌ بَالِيَةٌ نَحِيفَة

-Ey mənim ağam, mən zəif bir qadınam, amma öz ömrümü sənə bağışlamağa hazıram.

اَضرُبُكُم بِضَرْبَة عَنِيفَة  دُونَ بَنِى فاطِمَة الشَّرِيفَة

Sonra üzünü düşmənə tutub dedi:

-Mən Fatimənin (s.ə) balasını müdafiə etmək üçün sizə möhkəm zərbə endirməyə hazıram.

Bunu deyəndən sonra meydana girib düşmənlərdən ikisini öldürdü. İmam Hüseyn(ə) özünü ona yetirib onu da dua edərək geri qaytardı. İmamın(ə) duası onu sakitləşdirdi.

Qəmər adlı bir məsihi qadın öz oğlu ilə çadırlarda yaşayırdı. Oğlunun adı Vəhəb idi. Onların müəyyən miqdar ev əşyalarını özləri ilə daşıyıb hər fəsildə köç edib

başqa-başqa yerlərdə çadır quraraq, ömürlərini sürməklə məşğul idilər. Onlar kəndbəkənd gəzib müxtəlif obalarda yaşamağa adət etmişdilər. Bu dəfə Sələbiyyədə qalmaq qərarına gəldilər. Sələbiyyə Kərbəlanın yaxınlığında olan bir oba idi. Orada çadır qurub qalmağı qərara aldılar. Qəmər qonşu çadırda Haniyə adlı bir qızı oğlu üçün gözaltı etmişdi. Bir gün elçi gedib həmin qızı oğlu Vəhəb üçün aldı. Bu hadisədən təqribən beş-altı gün keçmişdi ki, İmam Hüseynin(ə) karvanı gəlib həmin obada mənzil etdi. Çadırları qurandan sonra İmam Hüseyn(ə) gördü ki, yaxınlıqda bir çadır var. Yavaş-yavaş həmin çadıra yaxınlaşdı. Gördü ki, bir qadın orada əyləşib. Qadınla salamlaşdı və onun əhvalını, yaşayış tərzini soruşdu. Qadın salamın cavabını alıb, öz dilində və dinində olduğu kimi, Imama (ə) dua etdi. İmam(ə) onun dolanışığı barədə hal-əhval etdi. Qadın dedi: Hər şey yaxşıdır, bircə suyun olmaması bizə narahatlıq yaradır. Həzrət(ə) xəncərin ucu ilə yeri azacıq qazdı. Yerdən su çıxmağa başladı. Qəmər suyu görən kimi ürəyi şad oldu və Həzrətin(ə) məhəbbəti ürəyinə doldu. Imamdan(ə) kim olduğunu soruşduqda, Həzrət(ə) əhvalatı ona danışdı. Bir az söhbət edib, öz çadırlarına tərəf qayıtdı. Bir az keçməmiş Vəhəblə Haniyə çadıra daxil oldular. Anası İmam(ə) və su məsələsi barədə onlara danışdı. Dedi ki, çox gözəl nurani bir insandır. Ürəyim onun yanında qalıb. Vəhəb dedi: Anacan, gedək mən də onu ziyarət edim. Üçü də İmamın(ə) çadrına tərəf yollandı. Həzrətin(ə) məhzərinə yetişib əyləşdilər. Qəmər oğlu və gəlini ilə Həzrəti(ə) tanış edib, bir az söhbət etdilər. Həzrət(ə) onlarla danışandan sonra, üçü də İslamı qəbul edib müsəlman oldular. Onların qəlbləri İmam Hüseynə(ə) elə bağlanır ki, Həzrətdən(ə) ayrılmaq istəmirdilər. Buna görə də Imamdan(ə) onunla getməyə

icazə istədilər. İmam(ə) etiraz etmədi. Nəhayət, Kərbəlaya yetişdilər. Aşura günü Vəhəbin evlənməyindən cəmi on yeddi gün ötürdü. Artıq döyüş başlandı. Qəmər oğlunun yanına gəlib dedi: Istəmirsən ki, sənin qanın İmamın(ə) qanına qarışsın? İmamın(ə) məhzərində döyüşmək istəmirsən? Vəhəb dedi: Anacan, ürəyim istəyir, bəs Haniyə necə olacaq? Anası dedi: Gəl sən əbədi camalı beş on günlük camala satma. Haniyənin də Allahı var, mənim də. Sən bizdən ötrü nigaran olma. Səadət qapısı üzümüzə açılıb, qoy bu şərafət bizə də nəsib olsun. Vəhəb anasının sözlərini eşidib qəbul etdi. Döyüşə hazırlaşarkən Haniyə gəlib Vəhəbə dedi: Bilirəm ki, mənə döyüşmək üçün icazə verməzlər. Amma səndən İmamın(ə) məhzərində söz almaq istyirəm ki, qiyamət günündə əgər cənnətə gedəsi olsan, məni də özünlə aparacaqsan. Vəhəb onunla razılaşıb İmamın(ə) məhzərinə gəldilər və məsələni Həzrətə(ə) danışdılar.Vəhəb orada Haniyəyə vəd verdi və döyüş meydanına daxil oldu. Bir neçə nəfəri öldürəndən sonra anasını görmək üçün qayıtdı. Bilmək istəyirdi ki, anası ondan razı qalıbmı. Anasının yanına gəlib dedi: Anacan, məndən razı qaldınmı? Anası dedi: Oğlum, nə qədər ki, Hüseynin(ə) məhzərində sənin qanının töküldüyünü görməsəm, razı qalmayacağam. Vəhəb axırıncı dəfə anası və həyat yoldaşı ilə vidalaşıb meydana girdi. Haniyə dayanıb həyat yoldaşının döyüşünə baxırdı. Bir müddət keçəndən sonra onu vurub yaraladılar. Haniyə özünü saxlaya bilməyib ozünü Vəhəbə yetirdi. Vəhəb gözlərini açıb gördü ki, Haniyə onun yanındadır. Ona dedi: Qayıt çadırlara. Haniyə dedi: Mən səni qoyub getməyəcəyəm. Vəhəbi götürüb Ömər Sədin yanına apardılar. Ömər Səd əmr verdi ki, onun başını kəssinlər. Vəhəbin başını kəsib çadırlara tərəf atdılar. Haniyə gəlib

başını Vəhəbin sinəsinin üstünə qoyub ağladı. Onu da nizəylə başına vurub şəhid etdilər. Haniyə Kərbəlada şəhid olan ilk qadın idi. Anası Vəhəbin başını götürüb öpəndən sonra düşmənə sarı atıb dedi: Məhbubumun yolunda verdiyim hədiyyəni geri almaram. Sonra çadırın dirəyini çıxarıb, düşmənə sarı hücuma keçib, bir-iki nəfəri öldürdü. Həzrət ona dua edib geri qaytardı.

Kərbəla qadınları bu əməlləri ilə bütün müsəlmanlara başa saldılar ki, əsrin Imamına(ə) itaət etməli və bu yolda hər şeydən keçməyi bacarmaq lazımdır.

### 3. İxlas və Allaha bəndəçilik

Kərbəla xanımlarının bütün dünya qadınlarına öyrətdiyi dərslərdən biri ixlas, übudiyyət, Allaha səcdə və namazın əhəmiyyətidir. Tarixdə yazırlar ki, Xanım Zeynəb(s.ə) anası Fatimə(s.ə) və atası Əli(ə) kimi ibadət edərdi. Xanım Zeynəb namazlarında o qədər dəqiq bir insan idi ki, Kərbəlada, hətta aşura gecəsi belə gecə namazını təxirə salmadı. İmam Hüseynin(ə) qızı Fatimə belə deyir: Bibim Zeynəb(s.ə) aşura gecəsi belə gecə namazını tərk etmədi. Səhərə qədər namaz qılıb, Allahla münacat edirdi.

Elə bir gecədə, səhər başlarına nə iş gələcəyini bildiyi halda namaz qılıb, Allaha dua edirdi. İmam Hüseyn(ə) sabahısı gün əvvəldən axıra nə baş verəcəyini Xanım Zeynəbə(s.ə) xəbər vermişdi. Xanım məhərrəm ayının on birinci gecəsinin ən ağır gecələrdən biri olduğuna baxmayaraq, gecə namazını qılmağı və Allaha dua etməyi ötürmədi. İmam Səccad(ə) buyurur: Bibim Zeynəb(s) hətta əsirləri Kərbəladan Kufəyə, Kufədən Şama apararkən belə yollarda gecənin nafilə namazını tərk etmədi. Bəzi gecələr mənzillərdə gecə namazını oturan

yerdə qılırdı. Çünki bəzən yemək az oluduğundan öz payını uşaqlara paylayırdı. Üç gün ac qaldığından ayaq üstə namaz qılmağa taqəti olmurdu. Buna görə də gecə namazını əyləşdiyi yerdə qılardı.

Siz təsəvvür edin ki, Kərbəlada qardaşları, qardaşı uşaqları, yaxın adamları, hətta öz oğlanlarının şəhid olmasına baxmayaraq, bütün bu məsuliyyətin ağırlığını çiyinlərində daşıdığı bir halda hətta gecənin müstəhəb namazını belə ötürmədi. Yorğunluq və aclıq o şəhamətli xanımı taqətdən salsa da belə, əyləşdiyi yerdə gecə namazını qılırdı. Həzrət İmam Hüseyn(ə) sonuncu dəfə meydana gedəndə bacısı Zeynəblə(s.ə) vidalaşarkən belə buyurdu: “Ey bacım, gecə namazlarında mənə dua etməyi unutma.”

Xanım Zeynəbin(s.ə) məqamına diqqət yetirin. Görün o necə abid, zahid, arif və təqvalı insan idi ki, İmam Hüseyn(ə) ondan dua etməyini istəyir.

Əgər bir insan ibadətlərində möhkəm olarsa və xanım Zeynəb(s.ə) kimi diqqətli olarsa, bu əməli onda iki xüsusiyyət yaradar. Biri budur ki, dünyanın bütün müsibətləri həmin şəxsə asan olar. Böyük alimlərdən biri xanım Zeynəbin(s.ə) məqamı haqda belə yazmışdır: Əgər bir insan xanım Zeynəbin(s.ə) məqamının nə dərəcədə yüksək olduğunu bilmək istəyirsə, Həzrətin(ə) bu kəlamına diqqət yetirsin: Əsirlər şəhidlərin cənazələri ilə vidalaşarkən Xanım Zeynəb(s.ə) qardaşı İmam Hüseynin (ə) cənazəsinin kənarında dayanıb, əllərini göyə qaldırdı və Allahla belə münacat etdi: “İlahi, bu az qurbanlıqları bizdən qəbul elə.”

Xanım Zeynəbin(s.ə) nəzərində Allahın əzəməti hər şeydən böyük və üstün idi. Çünki o bilirdi ki, kimin hüzurundadır. Çünki Xanım Zeynəb (s.ə) Allahı həqiqətən

tanıyırdı. Onun böyüklüyünü dərk etmiş bir xanım idi. Buna görə də Allahın böyüklüyü qarşısında verdiyi bu qurbanların hamısının az olduğunu bilirdi. Onun yolunda hər şeyi qurban verdi.

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də buyurur: “Allahın böyüklüyünü dərk edən insanın gözündə hər şey kiçik görünər.”

Dünyada bizə üz verən müsibətlərə səbirsizlik etməyimiz ona görədir ki, Allahın böyüklüyünü başa düşmürük. Xanım Zeynəb(s) Allahın böyüklüyünü dərk etdiyinə görə, ona üz verən hər bir müsibət və çətinliklər asan gəlirdi. Bilirdi ki, bütün bunlar kimin hüzurunda və kimin razılığı altında baş verir. Hətta öz oğlanları şəhid olandan sonra çadırda əyləşib Allahla belə münacat edirdi.

*İlahi, nisbəti lütfünə naçizidi, neynim olanım,*
*Sən riza ol, vəli mən çöldə oğulsuz dolanım.*

Allaha ibadət etməyin, gecələr Onunla münacat etməyin ikinci xüsusiyyəti budur ki, Allah həmin insanın münacat və dualarını qəbul edər. Nəcəf şəhərində bazarda bir fəhlə işləyirdi. O, ömrünün əvvəlindən axırına qədər namazlarını vaxtlı-vaxtında qılar, gecə namazını da heç vaxt əldən verməzdi. Bu insanın dilinə haram dəyməmişdi. Dolanışığını təmin etmək üçün fəhləlik edərdi. Bir gün bir yerdən keçərkən bir uşaq damın üstündən yerə yıxıldı. Yerə yıxılarkən bu kişi uşağa baxıb dedi. Dayan. Uşaq damla-yerin arasında havada asılı vəziyyətdə qaldı. Gəlib uşağı götürüb yerə qoydu. Bu hadisəni müşahidə edən camaat onun ətrafına toplaşıb təəccüblə onun kim olduğunu soruşdular. Həmin kişi dedi: Mən heç kim. Allahın bir bəndəsi. Camaat dedi: Sən qeyri-adi bir insansan. Belə bir qüvvəyə maliksən. Kişi dedi: Xeyr, mən adi bir adamam. Altmış ildir ki, Allahın

mənə buyurduqlarını eşitmişəm. Bu dəfə də mən Allahdan istədim O da məni eşitdi.

Zeynəb(s.ə) yüksək məqamlı bir xanım idi. Allah onun dualarını qəbul edirdi. Onu bu məqama çatdıran təqvası, imanı, Allaha müti olması, gecə namazları və bu kimi əməlləri idi. Xanım Zeynəb(s.ə) hacətlər qapısıdır. Onun ətəyinə əl atan şəxsi əli boş yola salmaz. Hər kəs dualarında xanım Zeynəbi(s.ə) vasitəçi qərar verərsə, Allah həmin şəxsin dualarını qəbul edər. Allaha dua edərkən insanla Onun arasında vasitəçini qəbul etməyən insanların həqiqətdə gözləri kordur. Belə şəxslərin həqiqətdən xəbərləri yoxdur.

Çadırlara od vurub qarət etməyə başladılar. Düşmənlərdən biri çox alçaqlıq edib, İmam Səccadın(ə) çadırına girib nə vardısa yığdı. Çıxanda gözü İmamın(ə) üstündə əyləşdiyi dəriyə sataşdı. Geri qayıdıb o dərini İmamın(ə) altından dartıb götürdü. İmamın(ə) qızlarından birinin qulağından sırğanı qopardıb getdi. Xanım Zeynəb(s.ə) bu hadisədən ürəyi bərk ağrıdı. Həmin şəxsə dedi: Sənin əllərin, ayaqların kəsilsin. Səni görüm axirətdən qabaq dünya oduna yanasan. Kərbəla hadisəsindən bir az keçməmiş Muxtar qiyam etdi. Kərbəla cinayətkarlarının hamısından qisas aldı. Həmin şəxsin həm əl-ayağını kəsdi, həm də onu odda yandırdı. Muxtar heç özü bilmirdi ki, Xanım Zeynəb(s.ə) həmin adama belə nifrin etmişdi.

Əsirləri Kufəyə gətirərkən bir nanəcib qadın hasarın kənarında dayanmışdı. Elə ki yaralı başları nizələrdə şəhərə daxil etdilər, bu qadın İmam Hüseynin(ə) başına daş atdı. Xanım Zeynəb(s.ə) ona baxıb dedi: “Səni görüm bundan artıq yaşamayasan. Xanım bu qarğışı edən kimi divar həmin qadının başına uçdu.”

Beləliklə, insan əgər namazlarında diqqətli olsa, xalis niyyətlə Allaha ibadət etsə, Allah həmin şəxsin dualarını qəbul edər. Aşura gecəsinin fəlsəfəsi namazdır. İmam Hüseyn(ə) bütün müsəlmanlara namazın mühümlüyünü öyrətmişdir. Hətta gecələr durub Allaha ibadət etməyi, Onunla münacat etməyi əməli surətdə öyrətdi. Insan bacardığı qədər namazı vaxtında qılmalı, imkan daxilində camaatla qılmalıdır. Çünki İmam Hüseyn(ə) döyüş zamanı namazın vaxtı çatan kimi döyüşü saxlayıb, namazı öz vaxtında camaatla qılırdı. Bu hərəkət bir daha namazın çox mühüm və vacib olmasını bizə bəyan edir. Tasua günü düşmən ordusu hücuma keçmək qərarına gəldi. İmam Hüseyn(ə) qardaşı Əbülfəzli çağırıb buyurdu: “Atını min, get onlardan soruş ki, nə etmək fikrindədirlə.”

Həzrət Əbülfəzl gedib onlarla söhbət edəndən sonra İmamın(ə) yanına qayıtdı və dedi: “Ağa, onlar döyüşə başlamaq istəyirlə.”

İmam(ə) ona buyurdu: “Get onlardan sabaha qədər möhlət al. Biz istəyirik, bu gecə doyunca Allahımıza ibadət edib Onunla münacat edək. Allah bilir ki, mən namazı nə qədər çox sevirəm. Mən bu möhləti yalnız və yalnız namaz qılmağa, Quran oxumağa, istiğfar etməyə görə alıram.”

Həzrət Əbülfəzl getdi və onlardan möhlət aldı. Elə bir halda, elə bir mövqedə Həzrət İmam Hüseyn(ə) namaz qılmağa görə möhlət alır. Bu mənzərə namazın insan üçün nə qədər əhəmiyyətli olmasının canlı bir sübutudur. İmam Hüseyn(ə) namazın əhəmiyyətini, Xanım Zeynəb(s.ə) isə gecə namazını bizə öyrədir.

Allah-təala “Səcdə” surəsinin 16-17-ci ayələrində gecə namazı barədə belə buyurur:

تَتَجَافَى جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ

*(Gecənin qaranlığında)* Yataqlarından qalxar, Rəbbini qorxu ilə və umaraq çağırarlar və ruzi olaraq onlara verdiklərimizdən *(elm, məqam və mal-dövlətdən ehtiyacı olanlara)* sərf edərlər.

فَلَا تَعْلَمُ نَفْسٌ مَّا أُخْفِيَ لَهُم مِّن قُرَّةِ أَعْيُنٍ جَزَاء بِمَا كَانُوا يَعْمَلُونَ

Etdikləri işlərin mükafatı olaraq onlar üçün gözlərə işıq gətirən nələrin gizlədildiyini heç kəs bilməz!

Bu ayələrə diqqət edin. Quranda ikinci belə ayə bəyan edilməmişdir. Ayədən məlum olur ki, hər kim gecənin qaranlığında durub gecə namazı qılaraq Allahla münacat edərsə, bu əməlin mükafatının nə olacağını Allahdan başqa heç kəs bilmir. Bütün əməllərin əcri barədə hədislərdə və ayələrdə xəbər verilmişdir. Lakin gecə namazının mükafatı o qədər böyükdür ki, onun nə dərəcədə böyük olduğunu Allahdan başqa heç kəs bilmir. Gecə namazı insana nuraniyyət, insaniyyət bəxş edər. Gecə namazı elə bir əməldir ki, onu yerinə yetirən şəxslə Allah fəxr edir. Hədislərdə vardır ki, hər kim gecə yarı yuxudan durub gecə namazı qıldığı halda səcdədə (yorğunluqdan) yatıb qalarsa. Allah-təala göyün hicabını çəkib həmin şəxsi mələklərə göstərərək belə buyurur: “Baxın bəndəmə, ruhu mənim yanımdadır, cismi isə səcdədə.”

Həzrət Peyğəmbər(s) Əliyə(ə) vəsiyyətlərində dəfələrlə gecə namazını tövsiyə edərək buyurardı: “Sənə gecə namazını tapşırıram.”

Kərbəlada qadınlar Xanım Zeynəb(s.ə) başda olmaqla bütün insanlara Allaha xalis niyyətlə ibadət etməyi və gecə namazının mühümlüyünü öyrədirlər. Gecə namazı insanın bir insan kimi formalaşması üçün həyatda mühüm yerlərdən birini

tutur. Hər bir insan dualarının qəbul olmasını, nuraniyyət tapmasını, insaniyyət mərhələsinə qədəm qoymasını istəyirsə, gərək bu dərsi öyrənib əməldə həyata keçirsin.

## 4. Hicab

Kərbəla qadınlarının bütün qadınlara, xüsusilə, müsəlman qadınlara öyrətdiyi dərslərdən biri də hicab dərsidir. Başda Həzrət Zeynəb(s.ə) olmaqla İmamın(ə) məhzərində iştirak edən qadınlar bütün dünyaya əməli surətdə sübut etdilər ki, qadın cəmiyyətdə iştirak edib boynuna düşən vəzifəni layiqincə yerinə yetirə bilər və bununla yanaşı, öz ismətini, iffətini, həyasını və hicabını Peyğəmbər(s) buyurduğu kimi qorumağı bacarar. Bəziləri elə başa düşməsinlər ki, hicab bağlamaqla bu işləri görmək mümkün deyil. Belə düşünənlər dar düşüncəli insanlardır. Kərbəla qadınları öz həya və hicablarını qorumaqla yanaşı, cəmiyyətdə iştirak edib, öhdələrinə düşən vəzifələri lazımıca yerinə yetirdilər və bunu bir dərs olaraq bütün dünyaya sübut etdilər.

İslam dininə əsasən hər bir müsəlman qadına özünü naməhrəmdən örtməsi vacibdir. Bir gün bir qadın Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, bir qadın İslam məclisində hicabı olmadığı halda iştirak edə bilərmi?" Həzrət Peyğəmbər(s) buyurdu: "Xeyr, hicabsız həmin məclisə gedə bilməz. Özünün hicabı varsa, geyinib getsin. Əgər yoxdursa, onu məclisə dəvət edənlər həmin qadın üçün hicab tapıb geyindirsinlər. Ondan sonra həmin məclisdə iştirak etsin."

Qadın xeyir məclislərində hicaba riayət etmək şərtilə iştirak edə bilər. Çünki qadının hicaba riayət etməsi vacib əməllərdəndir. Əsas söhbətimiz Kərbəla xanımlarının

öyrətdiyi dərslər barədə olduğundan, hicab barədə geniş danışıb mövzudan kənara çıxmaq istəmirəm. Əgər bu mözuda söhbət edəsi olsaq, bəhsimizdən kənarda qalarıq. Buna görə də hicab barədə ayə və hədislərdən keçirəm.

Kərbəla hadisəsindən sonra, məhərrəm ayının 11-ci günü hərəkət etməyə başladılar. İmam Səccad(ə) və İmam Baqirdən(ə) başqa qalanları qadın idi. İmam Baqirin(ə) dörd yaşı var idi. Səfər ayının 1-ci günü Şam şəhərinə yetişdilər. Dəməşqə daxil olarkən Yezid əmr verdi ki, əsirləri şəhər bəzənib qurtarana qədər qapıda saxlasınlar. Əsirlər üç gün şəhərin darvazasının arxasında qaldıqdan sonra onları şəhərə daxil etdilər. Şəhərə girərkən bir nəfər İmam Hüseynin(ə) qızı Səkinəyə baxıb dedi: “Siz haranın əsirlərisiniz? Xanım Səkinə bibisi Zeynəbin(s.ə) Kufə camaatına verdiyi cavabı həmin şəxsə dedi: Biz Ali-Məhəmməd əsirləriyik.”

Səhl ibn Saidi Peyğəmbərin(s) səhabələrindən biri idi. O deyir: “Şəhərin bəzədildiyini görüb bir nəfərdən orada nə baş verdiyini soruşdum. Mənə dedilər: Xarici əsirləri şəhərə gətiriblər. Gəlib yaxından maraqlananda nə baş verdiyini anladım. İmam Səccada(ə) yaxınlaşıb dedim: Ağa, mənə görə nə əmriniz var? İmam(ə) buyurdu: Görürsənmi, bizi nə vəziyyətdə şəhərə gətiriblər. Yaralı başların arxasınca qadınları aparırlar. Sən get onlarla danış, başları əsirlərdən bir az qabaqda aparsınlar. Başları çox yaxın aparanda onlara tamaşaya gələnlər qadınlara da baxırlar. Bir iş gör ki, Peyğəmbərin(s) itrəti camaatın gözlərindən amanda olsunlar.” Səhl deyir: “Mən gedib əsirləri gətirənlərlə danışıb dörd min dinara qədər pul xərcləyib İmamın(ə) buyurduğu kimi etdim.”

Diqqətlə bu əhvalata nəzər saldıqda görürük ki, İmam Səccad(ə) orada ac-susuz, yorğun olmasına baxmayaraq,

öncə qadınları naməhrəm gözündən uzaqlaşdırmaq niyyətində idi. Buna görə də Səhl ibn Saididən belə bir iş görməyi xahiş etdi.

Əsirləri Kufəyə gətirərkən onlara tamaşa etməyə minlərlə insan toplaşmışdı. Ümmi Gülsüm Kufə camaatını səsləyərək buyurdu:

- Ey Kufə camaatı! Allahdan və Onun Rəsulundan(s) utanmırsınız, bir halda ki, Peyğəmbərin(s) Əhli-beytinə(ə) tamaşaya gəlmisiniz?

Tarixdə qeyd olunmuşdur ki, əsirlərin əllərindən hicabı almışdılar. Onların başları açıq idi. Lakin nə dərəcədə açıq olduğu məlum deyil. Xanım Zeynəbin(s.ə) xütbəsində də bu məsələyə işarə olunur. Hər halda əgər hicab onlardan alınmışdısa, məcburi şəkildə almışdılar. Çünki bu, artıq əsirlərin ixtiyarında deyildi. İmamın(ə) başını kəsdikləri kimi, qadınların da hicabını almışdılar. Əgər onlar hicabsız qalmışdılarsa, məcburiyyət qarşısında idilər. Bütün bunlara baxmayaraq, dil ilə camaatı başa salmaqla öz iffətlərini və hicablarını imkan daxilində müdafiə edirdilər. Hər bir halda çıxış yolu tapıb öz iffətlərini qoruyub saxladılar. Bütün bunlar dünya müsəlmanlarına böyük dərs idi.

Şam şəhərinin iki darvazası var idi. Bir darvazanın ağzında izdiham çox, o birində isə az idi. Əsirləri camaatın daha çox yığışdığı darvazadan şəhərə daxil etmək istəyirdilər. Ümmi Gülsüm Şimri çağırıb dedi: Mənim səndən bir tələbim var. Bizi şəhərə o biri darvazadan aparın. Bu darvazanın qarşısında insan izdihamı çoxdur, istəmirik bizim başımızı, üzümüzü kimsə görsün. Şimr öz alçaqlığından əl çəkməyib, onun sözünə qulaq asmadı və əsirləri elə həmin darvazadan şəhərə daxil etdi.

Kərbəla qadınları belə ismətli qadınlar idi. Harada hicabı müdafiə etmək imkan olurdusa, bu işi əsirgəmirdilər. Hətta şəhərə daxil olarkən ac, susuz, yorğun və əsir olduqları halda da Şimrdən iffətlərini saxlamaq üçün imkan daxilində izdihamın az olduğu yerdən keçməyi tələb etdilər. Bütün bu hərəkətlər La ilahə illəllah əhlinə hicab, iffət dərsi öyrədir.

Xanım Zeynəbin(s.ə) Şamda Yezidin sarayında oxuduğu xütbə həm fəlsəfi, həm siyasi, həm də elmi xütbələrdən idi. Həmin xütbədə Xanım Zeynəb(s.ə) buyurur:

- Ey müşrik insanın oğlu. Sənin baban Əbu Süfyan müşrik adam idi. Ölənə qədər Peyğəmbərin(s) qulu olub. Sənin fikirləşdiyin ədalət budurmu ki, öz hərəmxananda saxladığın qadınları pərdə arxasında gizlədib, Peyğəmbərin(s) itrətinə isə belə hörmətsizlik edib başı və üzü açıq əsir gətirmisən? Peyğəmbərin(s) Əhli-beytini(ə) düşmənlərə vermisən ki, şəhərbəşəhər gəzdirsinlər və hər gəlib-gedən başlarına, üzlərinə, boy buxunlarına baxsınlar? Etdiyin əməllərdən utanmırsan?

Xanım Zeynəbə(s.ə) vurulan qamçılar, verilən əzablar və qılınc yaraları hicabının əlindən alınması qədər ağır deyildi. Şimr İmamın (ə) başını kəsmək istəyərkən Zeynəb(s.ə) özünü ora yetirib, qılıncın iti yerindən yapışdı. Qılınc barmaqlarının sümüklərinə qədər işlədi.

*Dörd əldə kəmale keşməkeşdə*
*Bir xəncəri tizi abdidə*
*Tutmuş iki səmtdən o tiği*
*Möhkəm iki iztirab didə*
*Gör kim yapışar yalın tərəfdən*
*Kim dəstədən ay hesab didə.*

O şərafətli xanımlara olunan bütün əzab-əziyyətlər hicabın onlardan alınması qədər ağır gəlmirdi. Kərbəladan çıxarkən qız-gəlinlər şəhidlərin cənazələri ilə vidalaşdılar. Xanım Səkinə İmam Hüseynin(ə) yaralı bədəninin kənarında dayanıb şikayət etməyə başladı. Atacan, bizim bu açıq başımıza bax. Bizim hicabımızı güclə əlmizdən alıblar. Bu sözləri deyib Həzrət Əbülfəzlin cənazəsinə sarı dönüb baxırdı. Bu baxışlar onu bildirirdi ki, ey əmi, sən sağ olsaydın, bizim başımızı açmağa heç kəs cürət etməzdi. Səkinə ona dəyən qamçılardan, verilən əzablardan və səhərə qədər ağlamağından bir kəlmə də olsun şikayət etmədi.

Düşmən çadırlara hücum çəkib qarət etməyə başladı. Xanım Zeynəb(s.ə) hər işi əvvəlcədən tədarük görmüşdü. Qız-gəlinlərdən zinət əşyalarını alıb parçalara bükmüşdü. Çadırlara qarət üçün hücum çəkərkən həmin əşyaları düşmənə atırdı ki, gəlib güclə qadınları qarət etməsinlər:

*Xanım Zeynəb zəru-zeybi qabaq bükmüşdi dəsmalə,*
*Dayandı rubərudə, atdı bir- bir qövmi cühhalə.*
*Buyurdu eyyühəl ərabi vəhşi mərdumi nadan,*
*Xəyalınız mali dünyadı, mənə möhlət verin əlan.*
*Hərimi haşimini saxlayım bir guşədə nalan,*
*Ki qalsın itiyarızda sizin bu xeymələr yeksan.*
*Çəkin fərşu – zürufu, tirməsin, həm pərdəsin-şalin,*
*Hüseynin bicəhət incitməyün biçarə ətfalin.*
*Əsər etməz nəsimi sübhi sadiq səngxarayə,*
*Həkimin anlamaz mənayi pəndin hər füru mayə.*

Qarət edəndən sonra od vurub çadırları yandırdılar. Xanım Rüqəyyənin ətəyini alov aldı. Ətəyi yana-yana o yan, bu yana qaçırdı. Bir nəfər özünü o uşağa yetirib onun ətəyini söndürmək istəyəndə, uşaq qorxdu. Həmin şəxs dedi: Narahat olma, mən ətəyinin odunu söndürmək

istəyirəm. Rüqəyyə dedi: Sən kimsən belə?  Həmin şəxs dedi: Mən yəhudiyəm. Rüqəyyə dedi: Yaxın gəlmə, özüm söndürərəm. Mən qoymaram naməhrəm əli mənə tərəf uzansın. Əlləri yansa da belə ətəyinin odunu söndürdü.

Əsirləri Şama apararkən gecə vaxtı bir yerdən keçərkən gördülər ki, İmam Hüseynin(ə) yaralı başı nizədə irəli getmir. Nə qədər çalışdılar, xeyri olmadı. Dedilər, yəqin bunun bir səbəbi var. İmam Səccaddan(ə) səbəbini soruşduqda Həzrət(ə) buyurdu: "İmam Hüseynin(ə) qızlarından biri yolda dəvənin üstündən yıxılıb və orada atasını səsləyir. Buna görə də Həzrətin(ə) mübarək başı hərəkət etmir." Zəcr adlı bir nəfər atı minib gəldikləri yolla geri qayıdıb qızı axtarmağa başladı. Zəcr deyir: Gecənin qaranlığında uşağın qorxudan bir ağacın altına qısılıb oturduğunu gördüm. Baxıb gördüm həmin uşaq Hüseynin(ə) qızıdır. Ona yaxınlaşıb ata mindirmək istədim. Geri çəkilib dedi: Mən səninlə bir atın üstündə gəlmərəm. Nə qədər qamçı vurdumsa, xeyri olmadı. Axırda mən atı minib sürdüm, o da atın arxasınca qaça-qaça gəldi.

*Naməhrəm ilə bir ata minməz Hüseyn qızı,*
*Əmməm deyibdi, bu əməlin çox günahı var.*

Xanım Rüqəyyə karvana çatan kimi gəlib atasının başı ilə üz-üzə dayanıb dedi: "Salam olsun sənə ey Əba Əbdillah. Ata, bu başı yetim qızlara çox görməsin Allah."

Qeyd olunan bu nümunələr hicaba riayət, iffət və ləyaqəti qorumağı bizə bir dərs kimi başa salır. Quran ayələri, Peyğəmbərin(s) hədisləri, həyat yoldaşları, qızı Xanım Zəhra(s.ə) bunu bütün müsəlmanlara öyrətməsi öz yerində, Kərbəla hadisəsi də bu dərsi bütün dünya müsəlmanlarına öyrədir.

## 5. Haqqı müdafiə etmək

Kərbəla xanımlarının bütün dünya qadınlarına, hətta kişilərinə belə öyrətdiyi dərslərdən biri də vəziyyətin çətinliyindən asılı olmayaraq, haqqı müdafiə etməkdir. Yəni haqq ilə batil üz-üzə dayandığı zaman haqqı müdafə etməyi öyrətmişlər. Hətta belə bir vəziyyət irəli çıxarsa, haqqı müdafiə etməklə yanaşı, özləri də bu işə laqeyd olmamalıdırlar.

Siffeyn müharibəsində bir dəstə insan kənara çəkildil və bu məsələyə qarışmayacaqlarına qərar verdilər. Dedilər: Biz nə Əlinin tərəfini tutacağıq, nə də Müaviyənin. Onlar - Abdulla ibn Ömər, Səd ibn Əbi Vəqqas, Səid ibn Zeyd, Ənəs ibn Malik, Əbu Musa Əşəri və bu qəbil insanlar kənara çəkildilər.

Həzrət Əli(ə) onlara buyurdu: “Bunlar elə insanlardır ki, öz əməlləri ilə haqqı alçaltdılar və batilə qarşı laqeyd qaldılar.”

İmam Hüseyn(ə) xütbələrin birində belə buyurdu: “Peyğəmbərdən(s) eşitmişəm ki, Əbu Süfyan ailəsinə xilafət haramdır. Müaviyəni mənim minbərimdə gördüyünüz zaman onun qarnını yırtın. Lakin siz bu işi görmədiniz. Əməlinizin nəticəsində ondan daha pisi sizə hakim kəsildi.” Camaat Peyğəmbərin(s) sözünə əməl etmədiyinə görə, nəticədə Müaviyədən də zalım olan oğlu Yezid onlara hakim oldu. Əgər bu gün bizə kömək etməkdən boyun qaçırdırsınızsa, o zaman daha zalım insanlar sizə hakim kəsilib, Peyğəmbərinizin(s) nurunu sizin üzünüzə söndürəcək.

Xanım Zeynəb(s.ə) bu sözü eşitmişdi. Əsirlər Yezidin sarayında əyləşmişdilər. Şamlı bir kişi o məclisdə əsirlərə baxıb İmam Hüseynin(ə) qızı Fatiməyə işarə edib, Yezidə

dedi: Yezid, bu əsiri mənə kəniz kimi bağışla. Bu sözü eşidən kimi Fatimə ağlayıb, özünü Xanım Zeynəbin(s.ə) qucağına atdı. Xanım Zeynəb(s.ə) buyurdu: Qızım, sakit ol. Heç kəsin bu işi görməyə cürəti çatmaz. Sonra üzünü həmin şamlıya tutub buyurdu: “Ey həyasız insan, dilini farağat saxla. Allah Peyğəmbərin(s) Əhli-beytindən(ə) heç kəsin kəniz olmasını qərar verməyib. Nə sənin, nə də sənin əmirinin Peyğəmbərin(s) Əhli-beytindən(ə) birini kiməsə bağışlamağa cürəti çatmaz.”

Yezid bu sözləri eşidib qəzəbləndi və dedi: Mən bu işi görərəm. Zeynəb(s.ə) buyurdu: “Allaha and olsun ki, sən bu işi görə bilməzsən. O vaxt bu işi görə bilərsən ki, dindən çıxdığını camaata elan edəsən. Əgər dindən çıxdığını bütün dünyaya elan etsən, o zaman bu işi görə bilərsən.” Yezid dedi: Sənin atan Əli və qardaşın Hüseyn dindən çıxıblar. Xanım Zeynəb(s.ə) buyurdu: “Sən atam Əli və qardaşım Hüseynin vasitəsilə dinə gəlmisən. Həmçinin sənin baban onların əli ilə əsirlikdən azad olunub. Yezid, sən zalım və bihəya adamsan.” Yezid gördü ki, əgər bir az da danışsa, rüsvay olacaq. Ona görə də bir söz deməyib  sakit dayandı. Həmin şamlı kişi bu söhbəti eşitdikdən sonra soruşdu. Bu qız kimin qızıdır? Dedilər, Hüseynin qızıdır. Şamlı kişi soruşdu: Fatimənin oğlu Hüseynin? Dedilər, bəli. Sonra kişi üzünü Yezidə tutub dedi: Yezid, bəs sən mənə demişdin ki, bu əsirlər Rumdan gətirmişəm. Mən bunları Rumlu bilib səndən istədim. Yezidin göstərişi ilə həmin kişini öldürdülər.

Haqqın aradan getmə təhlükəsi olduğu bir yerdə heç vaxt görünmədi ki, Xanım Zeynəb(s.ə) orada haqqı müdafiə etməsin. Haqqı aradan aparmaq istəyənlər Xanım Zeynəbi(s.ə) qarşılarında gördülər. O şərafətli xanım heç vaxt qoymadı ki, haqqı aradan aparıb tapdalasınlar.

Əsirləri Kufəyə İbn Ziyadın məclisinə gətirdilər. İbn Ziyad Xanım Zeynəblə(s.ə) danışdıqdan sonra üzünü İmam Səccada(ə) tutub soruşdu: Bu kimbir belə? Dedilər, Hüseynin oğlu Əlidir. İbn Ziyad dedi: Hüseynin oğlu Əlini Allah Kərbəlada öldürdü. İmam Səccad(ə) buyurdu: “Mənim Əli adında bir qardaşım da var idi. Lakin onu Kərbəlada sənin adamların öldürdü.” İbn Ziyad dedi: Yox, onu Allah öldürdü. İmam Səccad(ə) buyurdu: “Heç kəsin əcəli çatmayınca, Allah həmin şəxsi öldürməz. Qardaşımın əcəli çatmamışdı, onu siz öldürdünüz.” İbn Ziyad əsirlərin onunla belə danışdığını görüb İmam Səccadı(ə) öldürməyi əmr etdi. Elə bu zaman Xanım Zeynəb(s.ə) qollarını açıb İmamın(ə) boynuna saldı və İbn Ziyada buyurdu: “İbn Ziyad, bizim qanımızı bəs qədər tökmüsən. Amma bunu mən qoymaram öldürəsən. And olsun Allaha, bunu öldürmək fikriniz varsa, gərək məni də onunla birlikdə öldürəsiz.” İbn Ziyad baxıb dedi: Görürəm nə qədər ki, bu qadın sağdır, onu öldürə bilməyəcəyəm.

Xanım Zeynəb(s.ə) haqqı belə müdafiə edirdi. Heç vaxt haqqın tapdalanmasına imkan vermədi. O xanım həm özü, həm də onun tərbiyəsini görmüş və əlindən su içmiş qadınlar da haqq tərəfdarı olmuşlar.

Kufədə Tuə adlı bir qadın yaşayırdı. Müslüm İmam Hüseyn(ə) tərəfindən Kufəyə göndərilmişdi. Müslüm İmamın(ə) sözlərini kufəlilərə çatdırdı və bütün işləri qaydasına saldıqdan sonra İbn Ziyad bu işdən xəbər tutub bu işin qarşısını aldı. Müslümü tutmağı göstəriş verdi və elan etdi ki, onun yerini deyən şəxsə mükafat verəcək. Məmurlar küçələrə səpələndi. Bütün camaat qorxusundan evə girib qapını bağladılar. Müslüm tək-tənha küçələrin birində qaldı. Bir qadın oğlunun gəlib- gəlmədiyini yoxlamaq üçün qapını açıb küçəyə baxarkən bir şəxsin

dayandığını gördü. Ona yaxınlaşıb dedi: Oğul, sən kimsən belə? Müslüm dedi: Mümkündürmü mənə bir içim su verəsən. Qadın içəri keçib onun üçün su gətirdi. Qadın gördü ki, bu şəxs heç yerə getmək fikrində deyil. Bir də ondan soruşdu: Oğul, gecənin bu vaxtı niyə burada dayanmısan? Niyə getmirsən? Müslüm dedi: Gedəsi bir yerim yoxdur. Mən Əqilin oğlu Müslüməm. Qadın bunu eşidən kimi təəccübləndi və səadət qapısının onun üzünə açıldığını görüb  fürsətdən istifadə etdi. Tuə Allahın rizayətini qazanmaq və haqqı müdafiə etmək üçün Müslümə öz evində pənah verdi. O qadın yaxşı bilirdi ki, İbn Ziyadın adamları bundan xəbər tutsa, onun başına nə iş gələcək. Lakin bütün bunlara baxmayaraq, hər şeydən keçib Müslümü evinə qonaq apardı. Gecənin bir aləmində Tuənin oğlu evə daxil oldu. Evə girərkən anasından soruşdu: Ana, deyəsən qonağımız var? Anası dedi: Bəli, qonağımız var, amma sən mənə söz ver ki, bunu heç kəsə deməyəcəksən. Oğlu söz verdikdən sonra anası qonağın Müslüm olduğunu ona dedi. Oğlu bunu eşidən kimi yaxşı mükafat əldə edəcəyinə görə sevindi. Tuə axirətini qazanmaq üçün Müslümü öz evinə gətirdi. Lakin oğlu isə mükafat qazanmaq üçün bunu özünə bir şans hesab etdi. Səhər tezdən anasından xəbərsiz İbn Ziyadın yanına gedib, Müslümün onların evində olduğunu xəbər verdi. Gəlib Müslümü onların evində tutdular. Aparıb darülimarənin üstündən atıb öldürdülər və cənazəsini minarədən asdılar. Tuə əlindən gələnköməkliyi əsirgəmədi. Bacardığı qədər haqqı müdafiə etdi. Çünki o, Əhli-beytsevər bir qadın idi. Əhli-beyti(ə) sevənlər heç vaxt razı olmazlar ki, haqq itib aradan getsin. Əllərindən gələn qədər haqqı müdafə etməkdən əsirgəməzlər.

Züheyr ibn Qeyn öz tayfasının başçısı idi. Tanınmış bir insan idi. İmam Hüseynin(ə) bu məsələsində onun tərəfində olmaq istəmirdi. Buna görə də istəmirdi ki, Imamla(ə) üzləşsin. Amma iş belə gətirdi ki, Züheyrin karvanı dayandığı yerdə İmam Hüseynin(ə) karvanı da dayandı. Çadırları qurub hazırlamışdılar. İmam(ə) bir nəfəri Züheynin yanına göndərib buyurdu: “Onu mənim yanıma çağırın.” Həmin şəxs Züheyrin çadırına girib dedi: Züheyr, Hüseyn ibn Əli(ə) səni çağırır. Züheyr çadırda əyləşib yemək yeyirdi. Bunu eşidən kimi çörək əlindən yerə düşdü. Fikrə qərq oldu. Züheyrin Dilhəm adlı bir həyat yoldaşı var idi. Onun Xanım Zeynəblə(s.ə) yaxın münasibəti var idi. Dəfələrlə Xanımın məhzərində olmuşdu. Züheyrin fikrə daldığını gördükdə belə dedi: Züheyr, utanmırsan? Peyğəmbərin(s) balası səni çağırır, sən getmək istəmirsən? Züheyr bu sözləri eşidən kimi tez ayağa qalxıb İmamın(ə) məhzərinə getdi. İmam(ə) onunla bir neçə kəlmə söhbət etdi. Lakin heç kəs bu söhbətin nə barədə olduğundan xəbərdar olmadı. Bir az keçməmiş Züheyr  qayıdıb həyat yoldaşına dedi: Mən istəmirəm sən mənə görə əziyyətə düşəsən. Bunun üçün də sənin təlağını verməyə hazıram. Kim mənimlə qalmaq istəyirsə, qalsın. Bu gündən etibarən mən İmam Hüseynin(ə) qurbanlarının biriyəm. İmam Hüseynin(ə) bir kəlməsi ilə Züheyr tamamilə dəyişdi. İmamın(ə) ona nə söz buyurduğunu heç kəs eşitmədi. Lakin bəzi tarixlərdə yazırlar ki, Züheyr Bədr döyüşündə olan hadisəni bir nəfərə danışdı. Ola bilsin ki, İmam Hüseyn(ə) bir kəlmə ilə həmin hadisəni onun yadın salmışdı. Züheyr deyir: Müharibələrin birində Salman Farsi ilə iştirak edirdim. Həmin döyüşdə biz qələbə çalıb şad olduq. Salman mənim qulağıma dedi: “Züheyr, cənnət cavanlarının ağası səni şəhadətə

çağıracağı gün, sən həmin gün bu günkü gündən daha şad olacaqsan.”

Züheyrin həyat yoldaşı Xanım Zeynəbin(s.ə) mərifət çeşməsindən su içdiyi üçün bir kəlməsi onda təsir qoydu və Züheyr İmamın(ə) məhzərinə gedib, özünü xoşbəxtlər sırasına qoşdu. Hər kəs Xanım Zeynəbin(ə) mərifətindən bir damla da olsa əxz etmiş olubsa, həmin şəxsdə bunun müsbət təsirini görsətmişdir.

Xulinin həyat yoldaşı da həmin qadınlardan olub Əhli-beyt(ə) aşiqi idi. Özü də Xanım Zeynəbin(s.ə) tərbiyəsi altında mərifət kəsb etmişdi. Xuli həmin adam idi ki, aşura günü İmam Hüseynin(ə) başını nizəyə taxıb əsirlərdən öncə Kufəyə yollandı. Gecə yarı çatdığı üçün evləri Kufənin bir ağac yaxınlığında olduğundan öz evində gecələməyi qərara aldı. İmamın(ə) mübarək başını mətbəxdə təndirin içinə qoyub ağzını bağladı. Həyat yoldaşının Əhli-beyti(ə) sevdiyini bildiyi üçün bu hadisəni ona bildirmədi. Gecənin bir aləmində həyat yoldaşı nəsə hiss edib mətbəxə keçdi. Gördü ki, təndirin içindən nur göyə qalxır. Gəlib baxanda İmam Hüseynin(ə) yaralı başını gördü və hər şeyi başa düşdü. Gəlib ərinə dedi: “Xuli, kişilər evə gələndə qızıl-gümüş, qiymətli əşyalar gətirər. Heç utanmırsan, Fatimənin(s.ə) oğlunun başını mənim evimə gətirmisən? Bu gündən ömrümün axırına qədər səninlə bir otaqda oturmaram.” Xulinin arvadı öhdəsinə düşən vəzifəni yerinə yetirdi və haqqı müdafiə etməyi əlindən gələn qədər əsirgəmədi.

Beləliklə, Kərbəla dərslərindən biri də o qadınların bütün dünya qadınlarına, hətta kişilərə belə öyrətdiyi dərslər idi. Kərbəla qadınları başda Həzrət Zeynəb(s.ə) olmaqla bütün müsəlman qadınlarına, hətta kişilərə belə mərifət, qəhrəmanlıq dərsini öyrətmişlər.

# DOQQUZUNCU DƏRS

## İXLAS

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

Aşura və aşura günü İmam Hüseynin(ə) rəhbərliyi ilə şəhid olan insanların bizə öyrətdiyi dərslərdən biri ixlas və niyyətin pak və təmiz olmasından ibarətdir. Yəni o şərafətli insanlar bütün müsəlmanlara öyrətdilər ki, insan hər bir əməlində ixlaslı və etdiyi əməllərdə pak niyyətli olmalıdır.

Allah-təala “Zümər” surəsinin 2-ci ayəsində belə buyurur:

إِنَّا أَنزَلْنَا إِلَيْكَ الْكِتَابَ بِالْحَقِّ فَاعْبُدِ اللَّهَ مُخْلِصًا لَّهُ الدِّينَ

(Ya Peyğəmbər) Həqiqətən bu kitabı sənə haqq olaraq nazil etdik. Buna görə də Allaha etiqad və itaətini Onun üçün ixlaslı halda ibadət et.

Bu mübarək ayədə Allah-təala insanlara başa salır ki, ona ibadət edən kəslər mütləq əməldə ixlas və pak niyyətlə ibadət etməlidirlər. Yəni ibadətin əsas şərti onu ixlasla yerinə yetirməkdən ibarətdir. Bu o deməkdir ki, insan ibadət edərkən nəzərində Allahdan başqa heç bir şeyi tutmamalıdır. Əgər əməlində Allahdan başqasını niyyətində tutarsa, o zaman etdiyi əməldə ixlas olmaz.

İxlas odur ki, insan etdiyi ibadəti yalnız və yalnız Allaha görə etməlidir. Bu məsələdə bütün insanlar bərabərdir. Quran ayələrinə nəzər salsaq görərik ki, Allah-təala bu məsələni bəyan etməklə ixlasın həm Peyğəmbərin(s) özünə, həm də bütün insanlara aid olduğunu açıqlayır. “Zümər” surəsinin 11-ci ayəsində buyurur:

قُلْ إِنِّي أُمِرْتُ أَنْ أَعْبُدَ اللَّهَ مُخْلِصًا لَّهُ الدِّينَ

“(Ya Peyğəmbər!) De ki, Mən dini məhz Allaha məxsus edərək yalnız (ixlasla) Ona ibadət etmək üçün əmr olunmuşam.”

Bu ayədən məlum olur ki, Allah-təala Peyğəmbərə(s) ixlasla ibadət etməyi əmr etmişdir. Buna görə də Peyğəmbər(s) öz gətirdiyi dinə hamıdan əvvəl özü iman gətirib, ona nazil olan ayələrə hamıdan gözəl özü əməl edirdi.

Bundan başqa, Allah-təala “Ğafir” surəsinin 14-cü ayəsində bütün möminlərə və ibadət edənlərə belə buyurur:

فَادْعُوا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ وَلَوْ كَرِهَ الْكَافِرُونَ

- Odur ki, kafirlər xoşlamasalar belə, Allaha itaət və əqidəni Onun üçün xalisləşdirdiyiniz halda çağırın.

Bu ayə də bütün möminlərə Allaha ixlasla ibadət etməyi xitab edir. Buna görə də bütün insanlar həm əqidələrində, həm ibadətlərində, həm də əxlaq və davranışlarında yalnız və yalnız qürbətən iləllah niyyətində olmalıdırlar. Yəni bütün hallarda etdikləri əməllər Allaha görə olmalıdır.

Bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib dedi: Ya Rəsulallah, biz malımızı camaata paylayıb kömək edirik ki, bizi tərifləsinlər və bizim adımızı hər yerdə çəksinlər. Allah-təala bizim bu əməlimizə savab verərmi? Həzrət

Peyğəmbər(s) buyurdu: “Xeyr.” Həmin şəxs dedi: Ya Rəsulallah, biz malımızdan camaata veririk ki, həm Allah bizə əcr və savab versin, həm də camaat bizi tərifləsinlər. Bizim bu əməlimizə savab düşürmü?

Həzrət Peyğəmbər(s) buyurdu: “Allah ixlasla görülən əməldən başqa heç bir əməli qəbul etməz.” Sonra Həzrət(s) “Zümər” surəsinin 3-cü ayəsini oxudu: “Bil ki, xalis din (sırf ibadət, təmiz itaət) ancaq Allaha məxsusdur...”

Həzrət Peyğəmbərin(s) bu kəlamından açıq-aydın məlum olur ki, Allah yalnız ixlasla görülən əməlləri qəbul edir. Əgər bir şəxs onun adını çəkib onun barəsində danışsınlar deyə xeyir bir iş görürsə və onun adını çəkirlərsə, bu məsələnin Allaha heç bir aidiyyatı yoxdur. Çünki həmin şəxs bu işi görməklə adının hallanmasını istəmişdi, o da oldu. Etdiyi əməldən məqsədinə çatdı. Həmçinin əgər bir şəxs həm Allahın ondan xoşü gəlməsi üçün, həm də camaat onu bu əmələ görə tərifləməsi üçün bir işi görürsə, (yəni hər kim bir işdə Allahı kiminləsə şərik qərar verərsə) Peyğəmbər(s) buyurur, o zaman Allah Öz payını ona şərik edilən şəxsə verər. Bu ayə və hədislər bizə bildirir ki, Allah yalnız və yalnız Ona xatir edilən əməlləri qəbul edir.

Hər kəs ixlasla ibadət edərsə, şeytanın həmin şəxsə gücü çatmaz. Çünki bu barədə Qurani-Kərimin “Sad” surəsinin 82-83-cü ayələrində belə bəyan olunmuşdur:

قَالَ فَبِعِزَّتِكَ لَأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ    إِلَّا عِبَادَكَ مِنْهُمُ الْمُخْلَصِينَ

*(Şeytan)* dedi: «İzzətinə and olsun ki, onların hamısını aldadıb doğru yoldan çıxaracağam. Onların arasından Sənin xalis və seçilmiş bəndələrindən başqa.»

Deməli, məlum olur ki, ixlaslı və pak niyyətli insanları yoldan çıxarmağa şeytanın gücü çatmır. Bunu da qeyd etməliyəm ki, əməldə ixlaslı olmaq elə də asan deyil. Danışıqda insana asan gəlir, lakin əmələ gəldikdə isə çox çətin bir məsələdir. Bunun üçün insan Allaha yalvarmalıdır ki, ibadətləri və əməlləri ixlasla olsun. Həzrət Peyğəmbər(s) buyurur: “Xoş müxlis insanların halına.”

Əgər bir insanın gördüyü işlərinin hamısı sırf Allaha xatir olarsa, həmin şəxsin Allah yanında böyük məqamı və qiyməti vardır. Belə insanların qiymətini və mükafatını bu dünyada elə bir şey yoxdur ki, onunla müqayisə edilsin. Bu barədə İmam Həsən Əskəri(ə) buyurur:

قَالَ حَسَنْ عَسْكَرِى(ع): لَو جَعَلتُ الدُّنْيا كُلَّها لُقْمَةً وَاحِدَة وَ لَقَّمْتُها مَنْ يَعْبُدُالله خَالِصاً لَرَأَيْتُ اِنِّى مُقَصِّرٌ فِى حَقِّهِ

- Bütün dünyanın hamısını bir tikə yemək edib, Allaha xalis niyyətlə ibadət edən şəxsə versəm, yenə də özümü onun haqqını ödəmədiyim üçün müqəssir hesab edirəm.

İnsan bu hədisləri oxuyarkən belə qənaətə gəlir ki, ixlas bir o qədər də asan iş deyil. Çox çətindir ki, insan Allaha xatir bir iş görə və bu işdə kimisə Ona şərik qoşmaya. Məsələn, bir şəxs üç dəfə həcc ziyarətinə gedir. Məclislərin birində onun barəsində söhbət olunarkən onun üçüncü dəfə həccə getməsindən xəbəri olmayan biri «filankəs iki dəfə ziyarətdə olub» deyərkən, həmin həccə gedən şəxs dillənir və üç dəfə həcc ziyarətinə getdiyini dilinə gətirir. Əlbəttə, həcc ziyarətini bir misal olaraq qeyd etdim. Insan bütün əməllərini sırf Allaha xatir ixlasla görməlidir. Əgər belə olmasa, Allah həmin əməli qəbul etməyəcək.

Musa Peyğəmbər(ə) Misirdən çıxıb Mədyən şəhərinə yollandı. O, Fironun və adamlarının əlindən qaçmışdı. Çünki onlar Musanı(ə) öldürmək istəyirdilər. Musa Peyğəmbər(ə) min əzab əziyyətlə, ac-susuz neçə gün yol gedəndən sonra Mədyənə çatdı. Şəhərin girəcəyində bir bulaq var idi. Camaat öz qoyunlarını suvarmaq üçün o bulağa gəlirdi. Orada iki qız dayanmışdı. Onlar da öz qoyunlarını suvarmaq üçün ora gəlmişdilər. Lakin bulaq başında çox adam olduğundan qızlar qoyunlarını suvara bilmirdilər. Musa Peyğəmbər(ə) gəlib qızlara qoyunları suvarmaqda kömək etdi. Qızlar ona təşəkkürlərini bildirib ayrıldılar. Musa(ə) bərk acmışdı. Allaha belə dua etdi:

رَبِّ إِنِّي لِمَا أَنزَلْتَ إِلَيَّ مِنْ خَيْرٍ فَقِيرٌ

- Ey Rəbbim, həqiqətən, mən Sənin mənə nazil edəcəyin hər hansı bir xeyrə *(yeməyə)* möhtacam.

O qızlar Şüeyb Peyğəmbərin(ə) qızları idi. Lakin Musa Peyğəmbər(ə) onun qızlarını tanımırdı. Qızlar yolda başlarına gələn əhvalatı evdə öz atalarına danışdılar. Şüeyb Peyğəmbər(ə) bildi ki, o, Musadır(ə). O, qızlara dedi: "Gedin, onu bizə qonaq çağırın." Qızlardan biri gəlib Musaya(ə) dedi ki, atam səni evə dəvət edir. Musa(ə) Şüeyb Peyğəmbərin(ə) evinə daxil olanda gördü ki, süfrə açıblar. Ona görə də süfrə kənarında əyləşmədi. Şüeyb Peyğəmbər(ə) dedi: "Nəyə görə süfrəyə yaxın gəlmirsən?" Musa Peyğəmbər(ə) orada qiymətli bir söz dedi: Musa(ə) dedi: Mən Allaha pənah aparıram. Şüeyb(ə) soruşdu: Nə üçün pənah aparırsan Allaha? Musa dedi: "Biz elə bir ailədənik ki, axirətə görə etdiyimiz bir əməli heç bir şeyə, hətta yer kürəsini qızılla doldursalar belə, onunla dəyişmərik." Qorxuram ki, bu süfrəni gördüyüm işin əvəzində muzd kimi mənə vermiş olasan. Şüeyb

Peyğəmbər(ə) dedi: “Mən bu qonaqlığı sənin etdiyin o yaxşılığa görə vermirəm. Mən də bu süfrəni Allaha xatir sənin üçün açmışam.”

Əgər insan etdiyi əməllərdə səbirli olarsa və Allaha xatir gördüyü işləri dözüb saxlayarsa, o zaman işlər öz qaydasına düşəcək. Unutmamalıyıq ki, bu dünyanın ömrü çox azdır. Gərək bu dünyada Allahımıza ixlasla ibadət edib, Onun rizayətini qazanaq.

## Kərbəla qəhrəmanlarının ixlas nümunələri

Yuxarıda ixlas və pak niyyət barədə qeyd etdiyimiz ayə və hədislərin bariz nümunələrindən biri də İmam Hüseyndir(ə). İmam Hüseyn(ə) və Kərbəlada onun məhzərində olanlar ixlası əməli surətdə bizə bir dərs olaraq öyrətmişlər. İmam Hüseyn(ə) Məkkədən hərəkət etməzdən öncə Minada möminlərli böyük bir çadırın içinə cəm edib, geniş bir xütbə oxudu. Həzrət(ə) xütbədə bu yerə çatdıqda belə buyurdu:

İlahi, həqiqətən Sən bilirsən ki, mənim bu ağır səfərə çıxmaqda səltənət və dünya qazanmaq niyyətim yoxdur. Mən Sənin dininin ucalması, müsəlmanların şəhərlərinin abad olması, məzlum bəndələrin amanda yaşaması, dinin şəriətinə əməl olunması üçün çıxmışam. Camaat, siz də bilin ki, əgər bu işdə mənə yardımçı olmasanız, sizə daha da zalım insan hakim kəsiləcək və Peyğəmbərin(s) nurunu sizin üzünüzə söndürəcək. Allah mənə bəs edər və Ona təvəkkül edib Onun yolunu tutub getməkdən başqa heç bir niyyətim yoxdur.

Həzrət(ə) Minada buyurduğu sözləri aşura günü oxlar ürəyinə dəyəndə həmin sözləri başqa ibarə ilə Allaha münacat etdi:

تَرَكْتُ الْخَلْقَ طُرًّا فى هَواكا		وَ اَيْتَمْتُ الْعِيال لِكَى اَراكا

وَلَو قَطَّعْتَنِى فِى الْحُبِّ عِرْبا		وَما حَنَّ الْفُؤاد اِلى سِواكا

- İlahi, hər şeyi Sənin eşqinə görə tərk etdim. Əhli-əyalımdan da yalnız Sənə görə keçdim. Mənim bədənimi doğrasalar da belə, ürəyimdə Səndən başqasına yol verməyəcəyəm.

Həzrət İmam Hüseyn(ə) bütün işlərini sırf Allah eşqinə görə ixlasla yerinə yetirmişdi. Həzrət(ə) şəhid olana qədər pak niyyət və ixlasla Allaha ibadət etdi və ixlasla Onun yolunda hər şeyini qurban verdi. Odur ki, Həzrət İmam Hüseynin(ə) ziyarətnaməsində belə oxuyuruq:

اَلسَّلامُ عَلَيْكَ يا حُجَّةَ اللهِ  اَلسَّلامُ عَلَيْكَ يَا خالِصَةَ اللهِ

-Salam olsun sənə ey Allahın höccəti. Salam olsun sənə ey Allahın müxlisi.

Bu o deməkdir ki, İmam Hüseyn(ə) Kərbəlada ixlas dərsini bütün müsəlmanlara öyrədir. Imam Mədinədən Məkkəyə, Məkkədən Kərbəlaya qədər, həmçinin son nəfəsinə qədər bütün sözlərinin və hərəkətlərinin hamısında Allahdan başqa heç bir eşq onun ürəyində yox idi. İmam Hüseyn(ə) özü müxlis bir insan olduğu kimi, onun ətrafında və məhzərində şəhid olanların hamısı müxlis insanlar idi. Çox insanlar özünü Həzrətə(ə) qoşmaq istədilər, lakin yarı yolda bu işdən boyun qaçırıb geri çəkildilər. Buna misal olaraq maqniti misal çəkmək yerinə düşərdi. Daş, qum torpaq və dəmiri bir-birinə qarışdırıb maqniti onun üzərinə qoyduqda görürük ki, təmiz metal və dəmiri maqnit özünə çəkir. Qalan daş-kəsək, qum, toz-torpaq isə yerə tökülür. İmam Hüseyn(ə) özü müxlis olduğundan bütün müxlis insanları maqnit kimi özünə cəlb etmişdi. Xalis olmayan insanlar isə hamısı ayrıldı. O

adamlar ki, özlərini zahirdə dindar, abid kimi göstərirdilər, İmam Hüseyn(ə) bu hərəkata başlayarkən onların iç üzləri açıldı və  müxlis insanlar Həzrətə(ə) qoşuldular və xalis olmayan insanlar ayrılıb getdilər.

*Nəhrəvanın o kohənsalə cəbin pinələri,*
*Heydərin əhdişikən düşməni dirinələri.*
*Muye pormu ilə arayiş olan sinələri*
*Vurdular məzhəbə bir zəbə ki cübran görməz*
*Şəhe elmu fəzli əvam öldürür*
*Vilayət məqamı məqam öldürür*
*Səlat əhli sidqi səlam öldürür*
*Deyir ya Məhəmməd, İmam öldürür*

İmam Hüseyndən(ə) ayrılıb gedənlərin hamısı özlərini zahirən dindar kimi bəzəmişdilər. Saqqallarına hamar-tumar verməklə, əllərində təsbeh tutmaqla özlərini camaata alim, dindar kimi qələmə verən şəxslərin İmamın(ə) hərəkatında iç üzləri üzə çıxdı və zahirpərəst olduqları aşkar oldu.  Kərbəla hadisəsində Həzrət(ə) bu qəbil insanlarla hər cür söhbət edib höccəti tmamladı. Lakin onlar haqqı müdafiə etmədilər ki, etmədilər.

Zahirdə özünə bəzək vurub din pərdəsi altında gizdənənlərin biri Ömər Səd idi. İmam Hüseyn(ə) Ömər Sədə buyurdu: “Ömər Səd, heç Allahdan qorxmursan?! Məni öldürmək istəyirsən?! Bir halda ki, mənim kim olduğumu sən hamıdan yaxşı bilirsən, Ömər Səd! Sənə nəsihət edirəm ki, bu çirkin əməllərini kənara qoyub haqqa tərəf gələsən.”

Ömər Səd dedi: Ağa, mənim Hicazda evim və mal-dövlətim var. Əgər sənə qoşulsam, qorxuram ki, mal-dövlətimi əlimdən alıb, evimi dağıtsınlar.

Həzrət(ə) buyurdu: “Sənə söz verirəm ki, Hicaza qayıdandan sonra sənin evini əvvəlkindən də gözəl düzəltdirib, öz malımdan sənə səninkindən də çox verərəm. Razısanmı?”

Ömər Səd dedi: Ağa, mənim əhli-əyalım və uşaqlarım oradadır. Qorxuram ki, sənə qoşulsam, onlara bir ziyan vursunlar.

Həzrət(ə) buyurdu: “Ömər Səd, Allah səni bağışlamasın.”

Abdulla ibn Hürr Cüəfi də Yezidin tərəfdarlarından idi. Mənzillərin birində İmam Hüseyn(ə) onunla rastlaşdı. Həzrət(ə) ona buyurdu: “Mən bilirəm ki, sən çox günahkar bir adamsan. Amma səni elə bir tövbəyə dəvət edirəm ki, qəbul etsən, bütün günahların təmizlənər.”

Cüəfi dedi: Ağa, mən hamıdan gözəl bilirəm ki, hər kim gəlib sənə qoşulsa və kömək etsə, izzət və səadətə çatacaq. Sənin düşmənin çoxdur, mən gəlib sənə qoşuldum-qoşulmadım, onsuz da səni öldürəcəklər. Buna görə də sənə qoşulmağımın heç bir xeyri olmayacaq. Amma mənim gözəl və bərk qaçan bir atım var. Əgər istəyirsənsə, onu sənə bağışlayım. Bundan əlavə, gözəl və möhkəm bir qılıncım var ki, hər kəsə bir zərbə endirsən, ikinci zərbəyə ehtiyac olmaz. Onu da sənə verirəm.

Həzrət(ə) ona baxıb buyurdu: “Ey Hürrün oğlu, elə bilirsən sənin atına və qılıncına ehtiyacım var? Mən səni hidayət etmək istəyirəm. Istəyirəm ki, sən Peyğəmbərin(s) Əhli-beytinə(ə) kömək edib əbədi səadətə qovuşasan. Əgər özün gəlmək istəmirsənsə, sənin nə atın, nə də qılıncın mənə lazım deyil.”

Hərsəmə adlı bir şəxs Həzrət Əlinin(ə) məhzərində olan bir şəxs idi. Hərsəmənin taleyi Ömər Səd və Abdulla Cüəfidən də təəccüblüdür. O deyir: Bir gün Həzrət Əli(ə)

ilə səfərə çıxmışdı. Çöllərin birində namaz qılmaq üçün dayandıq. Yekə bir ağacın altında əyləşdik. Həzrət Əli(ə) həmin ağacın kənarından bir ovuc torpaq götürüb baxdı və buyurdu: “Xoş sənin halına, ey torpaq. Hər kim bu torpaqda dəfn olunsa, qiyamət günü hesabsız-kitabsız cənnətə daxil olacaq.”

Mən Həzrətin(ə) torpaqla danışdığı bu sözlərdən bir şey anlamadım. Üstündən illər keçəndən sonra aşura günü həmin ağacı Kərbəlada gördüm. Diqqətlə baxandan sonra yadıma düşdü ki, Əli(ə) ilə bu ağacın altında əyləşərkən Həzrət(ə) bu sözləri buyurmuşdu. İmam Hüseynin(ə) məhzərinə gəlib başıma gələnləri danışdım. Həzrət(ə) buyurdu: “Hərsəmə, bütün bunları bilirəm. Indi ki, sən başa düşdün, ağac həmin ağacdır və atam Əlinin(ə) bu torpağın barəsində buyurduqları yadına düşdü, fikrin nədir? Nə qərara gəlirsən?”

Hərsəmə dedi: Mənim ailəm, uşağım gözümün qabağında dayanıb. İbn Ziyaddan da qorxuram. İmam Hüseyn(ə) buyurdu: “Hərsəmə, elə isə çıx buradan elə bir yerə get ki, bizim köməyə çağırış səsimizi eşitməyəsən.”

Bunlar elə adamlar idilər ki, zahirdə özlərini çox yaxşı göstərirdilər, lakin Allah dininə kömək lazım gəldikdə, hərə bir bəhanə ilə bu işdən boyun qaçırdılar. Onların Allaha ixlasları yox idi. Elə bir insanlar idilər ki, öz dünyalarını axirətdən üstün tutub, Peyğəmbər(s) balasının köməyinə gəlmədilər.

İmam Hüseynin(ə) çağırışına ləbbeyk deyənlər müxlis və Allah yanında ən xoşbəxt insanlardır. Onlar pak niyyət və yalnız Allaha xatir İmam Hüseynə(ə) qoşuldular. Çünki İmam Hüseynin(ə) özü çox müxlis bir insan idi. Maqnit xalis dəmiri özünə çəkdiyi kimi, İmam Hüseyn(ə) də müxlis insanları özünə çəkdi. Həmin şəxslərdən biri Abis

Şakiri idi. O, Kərbəla şəhidlərindən biri idi. Müslüm ibn Əqil Kufədə İmam Hüseynin(ə) məktubunu oxuduğu zaman Abis ayağa qalxıb dedi: Mən camaatın adından bir söz deyə bilmərəm. Amma öz adımdan deyə bilərəm ki, deyəcəyim bu sözlər and olsun Allaha ki, ürəyimin dərinliyindən gələn sözlərdir. Mən sizin dəvətinizi qəbul edirəm və Allaha qovuşana qədər sizin düşmənlərinizlə döyüşməyə hazıram. Bunun müqabilində Allahın mənə verəcəyi əcirdən başqa heç kəsdən heç bir şey ummuram.

Məhərrəmin ikinci günü İmam Hüseyn(ə) xütbə oxuduqdan sonra Züheyr ibn Qeyn ayağa qalxıb dedi: “Əgər dünya bizə əbədi olaraq qalsaydı və biz də dünyada əbədi yaşamalı olsaydıq, mən yenə də sənin məhzərində şəhid olmağı üstün bilərdim. Halbuki dünya müvəqqətidir. Mən səni burada qoyub özüm üçün yaşasam, ölüm olsun bu cür yaşamağa.”

Kərbəlada bütün şəhidlərin hamısı müxlis, sədaqətli, mərd insanlar idi. Hər birinin öz sözü, meydanda oxuduğu rəcəzləri var idi. Onların bu sözləri və rəcəzləri ixlasın təzahürü idi. Həzrət Əbülfəzl(ə) buyurur:

والله ان قطعتم يمينى          انى احامى ابدا عن دينى

و عن امام صادق اليقين          نجل النبى الطاهر الامين

-Allaha and olsun, əgər sağ əlimi kəssəniz, mən Hüseynin ətəyindən əl çəkmərəm.

Tarixdə yazmışlar ki, iki imam Həzrət Əbülfəzlin qollarından öpüb. Dünyaya gələrkən ilk dəfə Həzrət Əli(ə) onu qucağına alıb və sağ qulağına azan, sol qulağına iqaməni oxuyub, adını Abbas qoydu. Sonra iki qolundan öpdü. Kərbəlada şəhid olarkən qollarını qələm etdilər. İmam Hüseyn(ə) gəlib onun qolunu yerdən götürüb öpdü.

Həzrət Əbülfəzl Kərbəlanın müxlis şəhidlərindən idi. Allaha olan eşqi və İmam Hüseynə(ə) olan məhəbbəti onun üçün hər şeydən üstün idi.

Beləliklə, Kərbəla şəhidlərinin hamısı ixlas, sırf Allaha ibadət və bu yolda hər şeydən keçməyi bütün müsəlmanlara bir dərs olaraq öyrətmişdir. İmam Hüseyn(ə) şəhid olduqdan sonra hər kəs, o Həzrətin(ə) haqqını tanıdığı halda ixlas və pak niyyətlə ziyarət edərsə və onların məktəbində təlim alarsa, deməli onlarla şərik hesab olunar.

Ətiyyə Cabir ibn Abdullanın şagirdi idi. O deyir: Cabirlə birgə İmam Hüseynin(ə) qəbrinin ziyarətinə getmişdik. Kərbəlaya gəlib Fərat çayında ziyarət qüslü etdikdən sonra Cabir bir parça çiyninə saldı və bir parça ilə bədənini bükdü. Gözləri kor olduğu üçün onun əlindən tutub İmam Hüseynin(ə) qəbrinin kənarında əyləşdik. Mənə dedi ki, əllərimi Hüseynin(ə) qəbrinin üstünə qoy. Mən onun əllərini İmamın(ə) qəbrinin üstünə qoydum. Cabir üç dəfə İmam Hüseyni səsləyib özündən getdi. Ayıldıqdan sonra belə dedi: Ya Hüseyn, dost dostunu çağırdıqda cavab verməzmi? Ya Hüseyn, sən axı necə cavab verəsən ki, bir halda başın bədənindən ayrıdır. Şəhidlərə salam verdikdən sonra belə dedi: Allahın sizə verəcəyi savabda mən də sizinlə şərikəm. Ətiyyə dedi: Ağa, bu nə sözdür belə? Sən onların bu əməllərində necə şərik ola bilərsən? Cabir dedi: Mən özüm Peyğəmbərdən(s) eşitdim ki, buyurdu: Hər kəs kimi çox sevərsə, qiyamət günü həmin şəxslə məşhur olacaq. Hər kəsin kiminsə əməlindən xoşu gəlirsə, bu əməldə şərik hesab olunar.

Sonra Cabir dedi: Ya Hüseyn, and olsun Allaha, əgər sənin məhzərində olsaydım, mən də şəhid olardım.

Yaxşı olar ki, insan İmam Hüseynin(ə) qəbrini ziyarət etsin. Əgər buna imkan yoxdursa, heç olmasa imkan daxilində hər gün aşura ziyarətnaməsini oxusun. Əgər buna da imkan edə bilmirsə, hər gecə yatmazdan əvvəl üç dəfə «Əssəlamu əleykə ya Əba Əbdillah» desin. Bütün bu əməlləri etməklə insan özünü şəhidlərin məramına qoşa bilər. Əgər İmamın(ə) ziyarətini haqqını tanıdığı halda ixlasla yerinə yetirərsə, Allah qiyamət günü həmin şəxsi şəhidlərlə şərik qərar verər.

Allah-təala dünya və axirətdə bizi İmam Hüseyndən(ə) ayrı salmasın. İnşallah.

# ONUNCU DƏRS

## QEYRƏT

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَ الْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ ولَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ

İmam Hüseynin(ə) Kərbəlada insanlara öyrətdiyi aşura dərslərindən biri də və bəşəriyyət üçün ən önəmli dərs qeyrət dərsidir. Həzrət İmam Hüseyn(ə) və o həzrətin səhabələri bütün dünya müsəlmanlarına İslamın buyurduğu kimi, qeyrətli olmağı həm sözdə, həm də əməldə öyrətmişlər. İslam dinində qeyrət məsələsi mühüm amillərdən biri kimi bəyan olmuşdur. Qeyrətin əhəmiyyəti barədə bir çox hədis və rəvayətlər vardır ki, onlardan bir neçəsini bu dərsin müqəddiməsi olaraq əziz möminlərin nəzərinə çatdırıram:

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ الْغَيْرَةَ مِنَ الإِيمان وَ إِنَّ الْمَذاءَ مِن النِّفاق

Həzrət Peyğəmbər(s) buyurur: “Həqiqətən qeyrət imandandır. Qeyrətsizlik isə münafiq insanın nişanələrindəndir.”

قَالَ علي(ع): قَدْرُ الرَّجُل عَلى قَدْرِ هِمَّتِه...وَعِفَّتُهُ عَلى قَدْرِ غيْرِتِه

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də buyurur: “Hər bir kişinin qədir- qiyməti onun himməti qədərdir. Həmçinin bir insanın iffət və paklığı onun qeyrəti qədərdir.”

قَالَ رَسُولُ اللهِ(ص):... إِنَّ الله تَعالى يُحِبُّ مِن عِبادِهِ الغَيُور

Həzrət Peyğəmbər(s) buyurur: “Həqiqətən Allah qeyrətli bəndəsini sevir.”

## Qeyrətin əhəmiyyəti

Qeyrət elə bir xüsusiyyətdir ki, insanın mükəmməlləşməsində mühüm rol oynayır. Deməli əgər bir insanın qeyrəti yoxdursa, o heç vaxt kamil insan ola bilməz. Qeyrət peyğəmbərlərin və imamların sifətləridir ki, bu da Allahın sifətlərindən biridir. Allah-təala özü hamıdan qeyrətli olduğu üçün qeyrətli insanları da sevir.

قَالَ الصّادِقُ(ع): إِنَّ اللهَ تَبارَك وَ تَعالى غَيُورٌ يُحِبُّ كُلَّ غَيُور وَ لِغَيْرَتِهِ حَرَّمَ الفَواحِش ظاهِرها وَ باطِنها

İmam Sadiq(ə) buyurur: “Allah-təala qeyrətlidir və bütün qeyrətliləri də sevir. Qeyrətli olduğundan bütün əxlaqsızlığı, pozğunluğu və pis əməlləri haram etmişdir.”

قَالَ رَسُولُ اللهِ(ص): اَلا وَ إِنَّ اللهَ حَرَّمَ الْحَرام وَ حَدَّ الْحُدُود وَ ما اَحَدٌ اَغْيَرَ مِنَ اللهِ وَ مِن غِيْرِتِهِ حَرَّمَ الْفَواهِش

Həzrət Peyğəmbər(s) buyurur: “Bilin ki, Allah bütün haram işləri haram etdi və onlara hədd təyin etdi. Allahdan çox qeyrətli kim ola bilər? Hamıdan çox qeyrətli olduğundan pozğunluğu, azğınlığı və haram işləri haram buyurdu.”

Qeyrət barədə bir çox hədis və rəvayətlər vardır. Əsas bəhsimizə yaxınlaşmaq üçün qeyrət barəsində qeyd etdiyimiz bir neçə hədis kifayət edər.

## Qeyrətin mənası

Yaxşı olar ki, burada qeyrətin məna və tərifi ilə tanış olaq. Qeyrət sözünün mənası bir çox lüğət kitablarında belə yazılıb məna edilmişdir: -Qorunması insanın ağlı ilə uyğun gələn vacib şeylərin qorunmasına qeyrət deyilir. Dini terminlə qeyrət sözünün mənası belədir. İnsanın şəxsi

hərəminə və həriminə başqalarının daxil olmasına icazə verməməyə qeyrət deyilir. Insanın ona məxsus olan hərim və hərəminə başqalarının daxil olmasına icazə verməyən şəxsə qeyrətli insan deyilir.

## Hərəm və hərimin mənası

İnsanın özünə məxsus olan hərim və hərəmi hansılardır? Yəni insanın özünə məxsus olan hansı şeyləri qoruması vacibdir?

Cavab belədir ki, hər bir insana dörd şeyi qorumaq vacibdir. Onlardan birincisi insanın dini, ikincisi vətəni, üçüncüsü namusu və dördüncüsü canı və malıdır. Bunlar insanın hərəmidir. Insanın imanı onun hərimidir. Heç vaxt insan yol verməz ki, onun imanına kimsə müdaxilə etsin. Hər kəs bu yolda öldürülərsə, şəhid hesab olunar. Hədisləri araşdırdıqda bu barədə çox xırdalıqlar və söhbətlər etmək olar. Lakin ümumi olaraq bunlardan dördünün ətrafında söhbət edib hədislərini möminlərin nəzərinə çatdırıram.

### 1.Dinin qeyrətini çəkmək

Hər bir insana vacibdir ki, öz dinini qorusun. Əgər bir insan səcdə etdiyi Allahın rizayəti yolunda öz imanına, Quranına və öz dininə görə mübarizə edib qoruması yolunda dünyadan getsə həmin şəxs şəhiddir. Məlumdur ki, şəhidin Allah yanında böyük qiyməti və şərafəti vardır.

قَالَ رَسُولُ اللهِ(ص): فَوْقَ كُلّ بِرٍّ بِرٌّ حَتّى يُقْتَل فِي سَبِيلِ اللهِ فَإِذا قُتِلَ فِي سَبِيلِ اللهِ فَلَيْسَ فُوقَهُ بِرٌّ

Həzrət Peyğəmbər(s) buyurur: “Hər yaxşıdan da yaxşısı vardır. Allah yolunda şəhid olana qədər. Əgər bir

insan Allah yolunda şəhid olarsa, artıq bundan yaxşı heç nə yoxdur.”

قَالَ زِينِ العابِدِين(ع): مَا مِنْ قَطْرَةٍ اَحَبّ اِلى اللهِ عَزَّوَجَلَّ مِنْ قَطْرَتَين قَطْرةُ دَمٍ فِى سَبِيل الله وَ دَمْعَةٍ فِى سِوادِ الليلِ لا يريدها العَبْد الا الله عَزَّوَجَلَّ

İmam Zeynalabidin(ə) buyurur: “Allah yanında iki damladan üstün damla yoxdur. Biri şəhidin yerə tökülən qanının damlaları, digəri isə bəndənin gecənin bir aləmində Allah xofundan, məhəbbətindən Onunla münacat edib ağlayarkən gözündən tökülən yaş damlaları.”

Şəhid olan şəxs Allah yanında şərafətli və əzizdir. Şəhidin məqamı Allah yanında çox böyükdür. Hər kəs Allahın dini uğrunda Peyğəmbərin(s) şərafətini, İslamın hərimini müdafiə edərkən öldürülərsə, həmin şəxs şəhiddir.

قَالَ رَسُولُ الله(ص): وَ مَنْ قُتِلَ فِى ذاتِ الله عَزَّوَجَلَّ فَهُوَ شَهِيد

Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs Allahın rizayəti üçün Onun yolunda öldürülsə, həmin şəxs şəhiddir.”

Imanın dərəcələri olduğu kimi, şəhidlərin də dərəcələri vardır. Onların ən üstünü ön cərgədə şəhid olan kəsdir.

قَالَ رَسُولُ الله(ص): اَفْضَلُ الشُّهَداءِ الَّذِينَ يُقاتِلُونَ فِى الصَّفِّ الأَوَّل فَلا يَلْفِتُونَ وُجُوهَهُم حَتّى يُقْتَلُوا اُلئِكَ يَطَلَبَّتُونَ فِى الغُرَفِ العُلى مِن الْجَنَّة. يَضْحَكُ اِلَيْهِم رَبُّك فَإِذا ضَحَكَ رَبُّكَ اِلى عَبْدٍ فِى مَوْطِنٍ فَلا حِساب عَلَيْهِ

Həzrət Peyğəmbər(s) buyurur: “Şəhidlərin ən fəzilətlisi ön cərgədə öldürülən insandır. Düşməndən üz döndərməyib (düşmənə arxa çevirməyib) öldürülərsə,

cənnətin ən yüksək dərəcəsini qazanar. Cərgənin əvvəlində düşmənlə üzbəüz dayanıb döyüşən insan şəhid olarkən Allah onların üzünə gülər. Elə ki, Allah bəndəsinin üzünə gülərsə, daha həmin şəxsə hesab-kitab yoxdur.

Qeyd etmək lazımdır ki, bu hədisdə Allahın gülməyi Onun rizayəti mənasındadır. Fəlsəfə alimləri Allahın vücudunda gülüb ağlamağı heç cür qəbul etmirlər. Çünki onun varlığının belə şeylərə qail olmadığını bəyan edirlər. Buna görə də hədisdə qeyd olunan Allahın gülməyi Onun rizayəti mənasındadır.

Odur ki, insan Allah yolunda şəhid olarsa, birbaşa cənnətə daxil olduğu üçün ondan sorğu-sual və hesab-kitab çəkilmir. Bu hədislər şəhidin məqamının nə qədər yüksək bir məqam olduğundan xəbər verir.

قَالَ عَلِيٌّ(ع): إِنَّ اَكْرَمَ الْمَوت القَتْل وَالَّذِى نَفْس اِبْن اَبِى طالِب بِيَدِه لأَلْفُ ضَرْبَةٍ بِالسَّيف اَهْوَنُ عَلَيَّ مِن مَيْتَةٍ عَلى الْفِراش فِى غَيْرِ طاعِتِ الله

Həzrət Əli(ə) buyurur: “Şəhid olmaq ən şərafətli ölümdür. And olsun O kəsə ki, Əli ibn Əbu Talibin canı Onun əlindədir, min qılınc zərbəsi ilə ölmək mənim üçün yorğan-döşəkdə ölməkdən çox asandır.”

قَالَ رَسُولُ الله(ص): وَالَّذِى نَفْسِى بِيَدِه لَوَددتُ اَنِّ اُقْتَل فِى سَبِيلِ الله ثُمّ اُحْيا ثُمَّ اُقْتَل ثُمَّ اُحْيا ثُمَّ اُقْتَل

Həzrət Peyğəmbər(s) buyurur: “And olsun O kəsə ki, canım Onun əlindədir. Çox sevirəm ki, məni Allah yolunda öldürsünlər. Diriltsinlər, yenə də öldürülüm. Bir daha dirilim, yenə öldürsünlər və yenə dirildib, bir də öldürsünlər.”

Həzrət Peyğəmbər(s), Imam Əli(ə) və məsumlar Allahın rizayətini çox gözəl başa düşürdülər. Onlar bilirdilər ki, bu yolda öldürülmək insan üçün səadət və şərafətdir. İmam Hüseyndən(ə) hansı əsasa görə hərəkət etdiyini soruşduqda Həzrət(ə) buyurdu: "Allahımın rizayətinə əsasən əgər mənim əlimdə heç bir sübut olmasaydı belə, Peyğəmbərin(s) «Allahın məni şəhid görmək istədiyini» deməsi mənim üçün bəs edər. Əgər Allahımın rizayəti budursa, doğranmağa hazıram." İmam Hüseyn(ə) cəddinin dininin diri qalması yolunda ölməyə hazır oldu. Həzrət(ə) öz kəlamlarında da belə buyurmuşdu:

إِنْ كانَ دِينُ مُحَمَّدٍ لا يَسْتَقِيمُ إِلاّ بِقَتْلِي يَاصُيُوفُ خُذُونِي

-Əgər cəddim Məhəmmədin dini mənim ölməyimlə diri qalacaqsa, elə isə ey qılınclar, doğrayın məni!

İmam Hüseyn(ə) Kərbəlada döyüş meydanına gedərkən belə buyurdu: "Izzətlə ölmək mənim üçün zillətlə yaşamaqdan yaxşıdır."

Allah yolunda şəhid olmaq insan üçün ən böyük şərafətdir. Insan öz dininin, imanının, Quranının qeyrətini çəkdiyi halda öldürülərsə, şəhiddir.

**2.Vətənin qeyrətini çəkmək**

İnsana vacibdir ki, öz yaşadığı vətəninin və torpağının qeyrətini çəksin. Əgər bir insan vətənini, torpağını qoruduğu zaman öldürülürsə, həmin şəxs şəhid hesab olunur.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ قُتِلَ دونَ مَظْلِمَتِه فَهُوَ شَهِيدٌ

Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim təcavüz və zülmə qarşı (vətəninə təcavüz edənlərlə döyüşüb) öldürülərsə, şəhiddir."

Deməli, insan gərək öz torpağının və vətəninin qeyrətini çəkib həmişə onu hər növ təcavüzdən qorumalıdır. Öz vətənini müdafiə edərkən öldürülərsə, həmin şəxs şəhiddir.

İmam Səccad(ə) dua edərkən vətəni qoruyanlara belə dua edərdi:

-Salam-salavat olsun Məhəmməd və onun Əhli-beytinə. İlahi, Öz izzətinə xatir müsəlmanların ölkələrinin sərhədlərini hifz et. İlahi, həmin ölkələri qoruyanları dəstəklə. İlahi, onların sayını çox et. Onların silahlarını iti elə. Onların ətrafını əminlikdə qərar ver. Sərhədi qoruyan əsgərləri bir-birinə mehriban et. Onların işlərini günbəgün yaxşılaşdır. Öz köməyinlə onlara yardımçı ol. Onlara səbirli olmağı inayət et. Onları cəhalətdən uzaq edib, bilmədiklərini onlara öyrət. Görmədiklərini onlara aşkar et. Düşmən onlara hücum edən zaman, insanı aldadan dünyanı, ailələrini, və mal-dövlətlərini onların yadından çıxart.

Çünki əgər sərhədi vətəni qoruyan zaman, dünya, ailə, mal-dövlət insanın yadında olarsa, o zaman vətəni qoruya bilməz.

İlahi, onlar düşməni görərkən cənnəti onların yadlarına sal.

İmam Hüseyn(ə) axırıncı gün öz yar və ənsarına cənnəti göstərdi. Hamı göyə baxıb sabah olacaqları məkanı gördülər. Əgər bir insan cənnətdəki məqamını görürsə və sabah orada olacağını bilirsə, heç vaxt bir addım da olsun geri çəkilməz. Əksinə olaraq onlar sabahı səbirsizliklə gözləyirdilər. Gözləyirdilər ki, tez şəhid olub gördükləri yerə tez getsinlər. Odur ki, İmam Səccad(ə) dua edərkən belə deyirdi: “İlahi, dünyanı onların yadlarından çıxarıb, cənnəti onların yadına sal.”

Buna görə də hər kəs öz vətənini qoruduğu halda öldürülərsə, şəhid hesab olunur.

**3.Can və malın qeyrətini çəkmək**

Insan öz canını və malını qorumalıdır. Bunları qorumaq insanın qeyrətindən xəbər verir. Yəni qeyrətli insan heç vaxt hazır olmaz ki, onun canına və malına təcavüz olunsun. Əgər bir insanın canına və ya malına təcavüz olunduğu zaman, onları müdafiə və qoruduğu zaman öldürülərsə, şəhid hesab olunacaq.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ قاتَلَ دونَ نَفْسِهِ حَتّى يُقْتَل فَهُوَ شَهِيدٌ

Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs öz canını qoruyarkən döyüşüb qətlə yetirilərsə, həmin şəxs şəhiddir.”

قَالَ رَسُولُ اللهِ(ص): قَاتِل دُونَ مالِكَ حَتَّى تَحُوزَ مالَك اَوْ تُقْتَل فَتَكُونَ مِن شُهَداءِ الآخِرَة

Başqa bir hədisdə Həzrət(s) belə buyurur: “Öz malını təcavüz olunduğu zaman qorumaq üçün vuruş. Beləliklə, ya malını hifz etmiş olarsan, əgər öldürülərsənsə, axirətdə şəhidlərin cərgəsində olacaqsan.”

Bu hədislərdən də məlum olur ki, insan öz canını və malını qorumalıdır. Əgər bir insan həm canını, həm malını təcavüzkardan qoruduğu halda öldürülərsə, şəhid hesab olunar.

**4.Namusun qeyrətini çəkmək**

Insana qeyrətini çəkməyin vacib olduğu yerlərdən biri də onun namusudur. Hər bir insan namusunu qoruyub hifz etməlidir. Əgər bir insan öz namusunu qoruduğu halda ölərsə şəhiddir. Qeyrətli insan əlbəttə ki, öz namusunun

yolunda ölməyə hazırdır. Bu məsələnin iki mənası vardır. Hər ikisi barədə bir sıra hədislər vardır.

Birinci mənası odur ki, insan özünü başqasının namusuna qarşı getməyə imkan verməməlidir. Yəni insanın şəhvəti, eşqi və məhəbbəti başqasının namusuna tərəf getdiyi halda özünü saxlamalıdır. Əgər insanda belə bir hal yaranarsa, özünü bu işlərdən qorumalı və xalqın namusuna təcavüz etməməlidir. Belə bir hal olduqda insan özünü ölənə qədər bu işdən saxlayıb, dünyadan iffətlə, üzü ağ öz əcəli ilə belə dünyadan gedərsə, Allah həmin şəxsə şəhid savabı verər. Çünki bu şəxs başqasının namusuna təcavüz etməsinə imkan vermədi.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ عَشِقَ فَكَتَمَ وَ عَفَّ فَماتَ فَهُوَ شَهِيدٌ

Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs başqasına (başqa birinin namusuna) eşq bağlayıb, imanına görə (bu işdən vaz keçib) öz iffətini ölənə qədər saxlayan şəxs şəhiddir.”

قَالَ عَلِیٌّ(ع): ماالْمُجاهِدُ الشَّهِيد فِی سَبِيلِ اللهِ بِأَعْظَمَ أَجْراً مِمَّن قَدَرَ فَعَفَّ

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də bu barədə belə buyurur: “Öz iffətini (başqasının namusuna qarşı öz şəhvətini) (imanına əsasən, Allaha xatir) ölənə qədər qoruyub saxlayan şəxsin savabını, Allah yolunda döyüşüb öldürülən şəxsin savabından heç də az bilməyin.”

Əlbəttə, tarixdə çox az görünə bilər ki, insan öz şəhvətini hansısa bir şeyə görə başqalarının namusuna tərəf getməyə qoymasın. Insan bu işi əsasən öz imanına görə etmir. Yəni əgər bir şəxsdə iman, təqva varsa, heç vaxt razı olmaz ki, şəhvəti və məhəbbəti başqasının namusuna tərəf yönəlsin. Əgər belə bir hal insanda yaranmış olsa, ölənə qədər onu heç kəsə bildirməyib öz iffətini saxlayaraq bu işi görməsə, Allah həmin şəxsə

şəhid savabını inayət edər. Həzrət Əlinin(ə) buyurduğuna əsasən belə bir şəxsin savabı heç də Allah yolunda döyüşüb şəhid olan insana verilən savabdan az hesab edilməsin. Çünki bu insan da öz şəhvəti və daxilində olan nəfsani qüvvələri ilə cihad edir və razı olmur ki, kiminsə namusuna təcavüz etsin. Belə bir şəxs nə özünü, nə də başqasının namusunu murdar etməyə razı olmaz.

İbn Sirin parça satan bir oğlan idi. Bir qadının ona gözü düşmüşdü. Bir gün ondan parça almaq bəhanəsilə evinə gətirdi. Evə daxil olan kimi qadın qapını kilidlədi. İbn Sirin başa düşdü ki, tələyə düşüb. Qadın dedi ki, gərək mənimlə günah bir iş görəsən. İbn Sirin dedi: Mənə ayaqyoluna getməyə icazə ver. Qadın razılaşdı. İbn Sirin ayaq- yoluna girib bütün paltarını və bədənini başdan-ayağadək bulayıb çıxdı. Qadın onu bu halda görüb iyrənərək evdən qovdu. İbn Sirin evdən çıxıb qaça-qaça şəhərdən kənarda, bir bulağın başında dayandı. Paltarlarını çıxarıb yumazdan əvvəl əllərini göyə qaldırıb Allahla belə münacat etdi: "İlahi, sən şahidsən ki, mənim paltarlarım və bədənim murdardır. Mən paltarımın murdar olmasına razı oldum. Lakin fəxr edirəm ki, Sənin lütfünlə ruhumun murdarlanmasına yol vermədim."

Namusun qeyrətini çəkməyin ikinci mənası da budur ki, insan öz namusunu başqasının təcavüzündən qorusun. Əgər bir insan başqasının onun namusuna təcavüz edəcəyini hiss edib, bu yolda öldürülərsə, şəhiddir. Yəni əgər bir insan öz namusunu hifz və müdafiə etməsi yolunda ölərsə, şəhid hesab olunacaq.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ قُتِلَ دونَ أَهْلِهِ فَهُوَ شَهِيدٌ

Həzrət Peyğəmbər(s) buyurur: “Hər kim namusuna təcavüz olunarkən (namusunun yolunda təcavüz edənlərlə döyüşüb) öldürülərsə şəhiddir.”

Qeyrət elə bir xüsusiyyətdir ki, hər kimdə bu xislət olarsa, Allahın həmin şəxsdən xoşu gəlir. Hətta bir insan kafir olsa belə qeyrətlidirsə, Allahın həmin şəxsdən də müəyyən qədər bu xislətinə görə xoşu gəlir. Tarixdə vardır ki, müharibələrin birində müsəlmanlar müşriklərə qalib gəlib onların bir neçəsini əsir tutmuşdular. Onları Peyğəmbərin(s) məhzərinə gətirdilər. Onlar İslamın əleyhinə döyüşüb müsəlmanları öldürürdülər. Peyğəmbər(s) əmr verdi ki, onları öldürsünlər. Elə bu vaxt Cəbrayıl(ə) nazil olub dedi: “Ya Rəsulallah, Allah əmr edir ki, onların arasından birini öldürmə. Peyğəmbər(s) Allahın əmrini yerinə yetirdikdən sonra Cəbrayıldan(ə) bunun səbəbini soruşdu. Cəbrayıl(ə) dedi: Ya Rəsulallah, bu şəxsdə bir sıra xüsusiyyətlər vardır ki, onlar peyğəmbərlərin xüsusiyyətləridir. Allahın bu sifət və xasiyyətlərdən xoşu gəldiyi üçün onu öldürməməyi əmr etdi. Həzrət Cəbrayıl(ə) onda olan xüsusiyyətləri saydı. Onlardan biri də qeyrətli olması idi.” Tarixdə yazırlar ki, həmin şəxs müsəlmanlarla qaldı və İslamı qəbul etdi. Dünyadan gedəndə də müsəlman kimi getdi.

Qeyrət elə bir xasiyyətdir ki, hər kəsdə olarsa, Allahın həmin şəxsdən xoşu gələr. Hətta bəzən dində olmayan kəslər bu xasiyyətin vasitəsi ilə hidayət olurlar.

Bura qədər biz qeyrətin mənası ilə tanış olub hansı şeylərin qeyrətini çəkməyin lazım olduğunu qeyd etdik. Burada iki incəlik və mətləbi əziz möminlərin nəzərinə çatdırmaq istəyirəm. Qeyrət məsələsində insan ifrat və təfritə yol verməməlidir.

Birinci mətləb budur ki, hər bir şeyin həddi olduğu kimi, qeyrətin də həddi-hüdudu vardır. Əgər bir insan həddindən artıq özündən qeyrət göstərərsə, bundan mənfi nəticə alacaqdır. Insana namusunu qorumaq vacibdir. Lakin bilmək lazımdır ki, bu işi hansı məqamlarda etməlidir. Insan namusunun qeyrətini o yerdə çəkməlidir ki, onun namusunun barəsində xain gözün olduğunu ehtimal etsin. Insan onun namusuna xəyanət olunacağını bildiyi zaman qeyrətli olmalıdır. Əgər bir yerdə ki, xain göz yoxdursa, xəyanət edən insan olmadığı bir şəraitdə, insanın orada özündən artıq qeyrət və qısqanclıq göstərməsi artıqdır. Belə artıq hərəkət mənfi nəticə ilə qurtarar.

Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) vəsiyyət edərkən bu barədə belə buyurmuşdur:

اِيَّاكَ وَالتَّغَايُر فِى غَيْرِ مَواضِعِ الغَيْرَة فَإِنَّ ذلِكَ يَدْعُو الصَّحِيحَةَ مِنْهُنَّ اِلى السَّقَم وَلكِن اَحْكِم أحكِمْ أمرهنَّ، فإن رأيت عيباً فعجلِ النكيرَ على الكبيرِ والصغيرِ

Qısqanclıq edilməməli yerdə qısqanclıq etmək və pis gümana düşmşkdən çəkin. *(İffətli qadın barədə pis gümana düşüb heç nədən özündən çıxma.)* Çünki bu iş, düz qadını əyriliyə və *(nalayiq işlərdən uzaqlıq zinəti ilə)* bəzənmiş qadını tərəddüdə və *(o barədə)* fikirləşməyə vadar edər. Lakin onlarin işlərində (üzərilərində) möhkəm dayan. Onlarda kiçik və böyuk bir nöqsan gördükdə tez bir zamanda qarşısını al.

Deməli bu məsələdə insan gərək həddi aşmasın. Çünki insan lazım olmadığı yerdə namusu barədə özündən daha çox qeyrət göstərdikdə və qısqanclıq nəticəsində qadını bədgümanlığa gətirib çıxarar.

Bu barədə ikinci mətləb belədir ki, əgər bir yerdə əmin- amanlıqdırsa, xain göz, xəyanət edən insan yoxdursa, həmçinin səmimiyyət olduğu bir yerdə gərək insan İlahi həddi aşmasın. Həmin cəmiyyətdə hamının bir-birinə etibar etdiyi bir halda da gərək İslamın qayda-qanunlarına əməl olunsun. Məsələn, qadın ona naməhrəm olan kəslər yanında iffətini saxlamalı, həddindən artıq söhbət etməməli, əl verib görüşməməli, bir sözlə, şəriətin naməhrəmlə olan münasibətlərinə riayət etməlidir. Kişi də gərək öz hərəkətinə, baxışlarına fikir versin. Çox vaxt bir-birinin evinə gedib-gələn qohumlar və möminlər bu kimi şeylərə riayət etməlidirlər. İslamda səmimiyyətin də həddi vardır ki, bu hədləri aşmaq olmaz. Məsələn, qadının yeznəsi qohum olmasına baxmayaraq, ona naməhrəm sayılır. Düzdür, qadının yeznəyə yaxın qohum və onun üçün namus hesab olmasına baxmayaraq, yenə də naməhrəmdir. Gərək bir-biri ilə olan rəftar və hərəkətləri şəriətin hökmləri çərçivəsində olmalıdır.

Ümumiyyətlə, şəriətdə hansı insan başqa bir insana naməhrəm hesab olunursa, onlar mütləq bu məsələlərdə şəriətin hökmlərinə əməl etməkdə diqqətli olsunlar. Bu məsələ həm qadınlara, həm də kişilərə aiddir. Bütün bunlar Peyğəmbərin(s) gətirdiyi şəriətin qayda-qanunlarıdr. Hər kim bu hökmləri öyrənib əməl etmirsə, o zaman həm dünyada ziyan çəkmiş olar, həm də axirətdə.

## Bütün peyğəmbərlər də qeyrətli idi

Ötən bəhsdə qeyrət barədə bir sıra hədisləri oxuyub mənası ilə tanış olduq. Həmçinin öyrəndik ki, hər bir insan öz qeyrəti uğrunda öldürülərsə, İslam həmin şəxsi şəhid hesab edir. Qeyrət peyğəmbər və imamların

xüsusiyyətləridir. Onlar bu xüsusiyyəti Allahdan əxz etmişlər. Yəni Allah Özü qeyrətil olduğundan, bütün peyğəmbərlər də bu xüsusiyyəti özlərində təcəssüm etdirmişlər. Buna görə də bütün peyğəmbərlər də həm iman yolunda, həm vətən uğrunda, həm can və mal yolunda, həm də namus yolunda qeyrətli olmuşlar. İslam və öncəki tarixlərə nəzər saldıqda peyğəmbərlərin qeyrət göstərdiklərinin şahidi ola bilərik. Nümunə üçün Həzrət İbrahim Peyğəmbərin(ə) həyatına nəzər salaq. Həzrət İbrahim(ə) Allahın peyğəmbərlərindən biri idi. O, Nəmrudla mübarizə aparırdı. Nəmrud əmr verdi ki, İbrahimi(ə) əhli-əyalı ilə birgə sürgün etsinlər. Onun həyat yoldaşı öz xalası qızı Sara xanım idi. Onlar Babil şəhərindən Şama tərəf hərəkət etdilər. Bu şəhərdən o biri şəhərə keçərkən Həzrət İbrahim(ə) həyat yoldaşına hörmətsizlik, təhqir olunacağını hiss etdi. Buna görə də dəvənin üstünə kəcavə qoyub Sara xanımı həmin kəcavəyə mindirdi. Həmin kəcavə dəvənin üstündə içərisi görünməyən otağa oxşayırdı. Gömrükdən keçərkən keşikçilər Həzrət İbrahimin(ə) yükünü yoxlamağa başladılar. Gömrük haqqını alandan sonra dəvənin üstündəki kəcavəni görüb soruşdular. Bunun içində nə var belə? Həzrət İbrahim(ə) buyurdu: “O kəcavədə mənim əhli-əyalımdır.” Dedilər: Gərək biz o kəcavəni açıb içinə baxaq. Həzrət İbrahim(ə) razı olmadı. Çox danışıqdan sonra onlar kəcavənin içinə baxmağı təkid etdilər. Onlardan bir-iki nəfər Həzrət İbrahimlə(ə) birgə gəlib kəcavəni açdılar. Onlar kəcavənin içində bir xanımın əyləşdiyini gördülər. Nəhayət, sərhədi keçdilər. Amma sərhəddən şaha xəbər göndərdilər ki, belə bir adam şəhərə daxil olub. Şah bu xəbəri eşidən kimi, onları çağırtdırıb Həzrət İbrahimdən(ə) soruşdu: Eşitmişəm ki, şəhərə

girərkən dəvənin üstündə bir otaq düzəltmisən. O otağın içində nə var belə? Həzrət İbrahim(ə) buyurdu: “Onun içində mənim həyat yoldaşım əyləşib.” Şah dedi: Mən mütləq ona baxmalıyam. Həzrət İbrahim(ə) buyurdu: “O mənim namusumdur və heç kəsə ona baxmağa icazə vermirəm.” Şah dedi: Mən mütləq o kəcavənin içinə baxmalıyam. Kəcavənin qapısını açdılar. Şah baxıb gördü ki, içəridə gözəl bir qadın əyləşib. Əlini Sara xanıma tərəf uzatmaq istəyərkən, Həzrət İbrahim(ə) göyə baxıb Allaha dedi: “İlahi, mənim namusumu bunun şərindən saxla.” Şahın əli elə oradaca qurudu və hərəkətsiz qaldı. İbrahimə(ə) baxıb soruşdu: Nəyə görə mənim əlim belə qurudu? Həzrət İbrahim(ə) buyurdu: “Mənim Allahım qeyrətlidir. Mən sənin əlinin namusuma tərəf uzanmaması üçün Ondan xahiş etdim. Ona görə də sənin əlin qurudu və namusuma tərəf uzanmadı.” Şah dedi: Allahdan istə ki, mənim əlimi əvvəlki halına qaytarsın. Söz verirəm, daha səninlə işim olmayacaq, bundan sonra heç vaxt xain gözlə baxmayacağam. Hara istəsən, gedə bilərsən. Həzrət İbrahim(ə) Allaha dua etdi və şahın əli əvvəlki halına qayıtdı. Həzrət İbrahimin(ə) bu möcüzəsi onun ürəyində təsir qoydu. Şah dedi: Həqiqətən sənin Allahın qeyrətlidir. Həzrət İbrahim(ə) buyurdu: “Həm Allah qeyrətlidir, həm də Allahın yer üzündə mömin bəndələri belə qeyrətli olar.” Şah bu sözlərdən sonra İbrahimə(ə) dedi: Mən sənə xidmətçi olaraq bir hədiyyə vermək istəyirəm. O, öz kənizlərindən birini Həzrət İbrahimə(ə) verdi. O kənizin adı Hacır xanım idi. Həzrət İbrahimin(ə) o xanımdan bir oğlu oldu. Həmin uşağın adını Ismayıl qoydular. Sonradan Sara xanımdan da bir oğlan uşağı dünyaya gəldi. Onun adını da Ishaq qoydular. Onların hər ikisi Allah tərəfindən peyğəmbər seçildi.

Həzrət İbrahim Peyğəmbər(ə), həmçinin Allahın bütün peyğəmbərləri qeyrətli idilər. İslam Peyğəmbəri(s) buyurur:

قَالَ رَسُولُ اللهِ(ص): كانَ اِبْراهِيم اَبِى غَيُوراً وَ اَنَا اَغْيَرُ مِنْهُ وَ اَرْغَمَ اللهُ اَنْفَ مَن لا يَغارُ مِنَ الْمُؤْمِنِين

-Mənim babam İbrahim qeyrətli idi. Mən ondan daha da qeyrətliyəm. Əgər bir mömin qeyrətli olmazsa, Allah həmin şəxsin burnunu yerə sürtər (onu peşman edər).

İnsan əlbəttə ki, öz namusu barədə qeyrətli olmalıdır. Namusunun yolunda diqqətli olmalıdır. Həmçinin başqasının namusu təhlükədə olarsa, hər bir möminə vacibdir ki, öz mömin qardaşının namusunun qeyrətini çəksin.

Həzrət Əliyə(ə) xəbər verdilər ki, Müaviyənin qoşunu İraqda Ənbar şəhərinə hücum edib. Ənbar Fərat çayının şərq tərəfində yerləşir. Oranın hakimi Həssan ibn Həssanı öldürüb şəhəri qarət ediblər. Bir müsəlman və bir əhli kitab qadınının boyunbağılarını, qolbağılarını, ayaqlarındakı xalxallarını və sırğalarını çıxardıb qarət ediblər. Həmin qadınlar özlərini qorumaq üçün ağlayıb qışqır-bağır salaraq, camaatdan kömək istəyirdilər. Bu xəbəri Əliyə(ə) dedikdə, Həzrət(ə) çox narahat oldu. Xütbələrinin birində bu hadisəyə işarə edərək belə buyurdu:

-Ğamidin qardaşı (Süfyan ibn Ovf Müaviyənin qoşununun başçısı) qoşunla atlı və piyada Ənbar şəhərinə daxil olub, Həssan ibn Həssan əl-Bəkrini öldürdü. Sizin əsgərlərinizi şəhərdən çıxardıb uzaqlaşdırdılar. Eşitdim ki, bir kişi müsəlman bir qadının bəzək əşyalarını, digəri isə əhli kitabdan olan bir qadının xalxalını, qolbağını, boyunbağısını və sırğalarını soyub aparıb. Bu qadının

onları özündən uzaqlaşdırmaq üçün qışqırıb ağlayaraq camaatdan kömək istəməkdən başqa çarəsi qalmayıb. Bu qoşun qənimət və qarətləri əldə etdikdən sonra həmin şəhərin kişilərindən bircə nəfər də olsun yaralanmadı və bir damla da olsun qan çıxmadı. Əgər bu hadisədən sonra ordakı müsəlmanlardan hər kim bu məsələyə görə ölənə qədər peşman olub öz təəssüfündən ölərsə, həmin şəxsi təəssüfünə görə məzəmmət etmək olmaz. Necə ola bilər ki, bir qadını gözlərinin qabağında qarət etsinlər, kişilər də dayanıb baxsın?

Həzrət Əli(ə) hətta bir qeyri müsəlman qadının barəsində bu sözləri buyurmuşdu. Allah və peyğəmbərlər qeyrətli olduğu kimi, imamlar da eləcə qeyrətli idilər.

Buna görə də əgər bir insan qeyrətsiz olarsa, dünyada zillət içində yaşayacaq və aqibəti pis nəticə ilə nəticələnəcək. Həmçinin insan qeyrətli olarsa, bu dünyada izzətlə yaşayıb səadətə nail olacaq. Hər bir halda bir insan təcavüz fikrində olanlara heç olmasa öz etirazını bildirərsə, bu öz təsirini göstərər. Həmin təcavüzkarlar onlara qarşı etiraz olduğunu görüb etdiyi əməllərdən əl çəkərlər. Lakin etiraz olunmasa, hamı gözü görə-görə dayanıb susarlarsa, həmin təcavüzkarlar bir az da ürəklənib, öz cinayətlərini daha da artırarlar.

Abdulla ibn Tahir bir müddət xəlifə Mötəsim tərəfindən Xorasana hakim təyin olunmuşdu. Bir gün öz qoşunu ilə Nişapur şəhərinə daxil olur. Əsgərləri onlar üçün nəzərdə tutulan evlərdə yerləşdirir. Lakin bir dəstə əsgərə yer çatmayır. Göstəriş verir ki, həmin əsgərləri camaatın evində yerləşdirsinlər. Əsgərləri evlərə paylaşdıraraq, hər evə birini yerləşdirirlər. Bu işi məcburi şəkildə edirlər. Heç kəsin qorxudan buna etiraz etməyə haqqı çatmır. Evlərin birində bir ailə yaşayırdı.

Əsgərlərdən biri də onların evində qalmalı olur. Evin kişisi çox qeyrətli bir insan idi. Əsgər onlarda qaldığından arvadı evdə qoyub, işə getməyə razı olmadı. Bir gün əsgər kişiyə dedi: Mənim atım susuzdur, gərək onu sən aparıb suvarasan. Kişi öz-özünə fikirləşdi ki, əgər mən atı aparıb suvarsam, həyat yoldaşımla bu əsgər evdə qalacaq. Qeyrəti buna yol vermədiyindən həyat yoldaşına dedi ki, atı suvarmağa sən apar. Qadın razılaşıb atın yüyənindən yapışıb, nohura tərəf yollandı. Abdulla ibn Tahir şəhəri gəzməyə çıxmışdı. Birdən gözü atı suvarmağa aparan qadına sataşdı. Təəccüblənib qadına tərəf gəldi. Çünki adətən atları kişilər suvarırdılar. Bu iş kişilərə məxsus olduğundan, qadınlar bu işi görməzdilər. Qadına yaxınlaşıb soruşdu: Bu iş qadına xas olan iş deyil. Nəyə görə atı suvarmağa sən aparırsan? Qadın onu tanımırdı. Ona dedi: Bütün bunların hamısı Abdulla ibn Tahirin qeyrətsizliyindəndir. Onun düşüncəsiz siyasətinin nəticəsidir ki, bu gün mən atın yüyənindən tutub suvarmağa aparıram. Abdulla ibn Tahir dedi: Sən onu tanıyırsan? Qadın dedi: Xeyr, mən onun əməllərindən bilirəm ki, o, qeyrətsiz adamdır. Əsgərləri evlərə paylaşdırıb, amma düşünmür ki, evdə arvad-uşaq var. Kişi də arvadı əsgərin yanında tək buraxıb, evdən çölə çıxa bilmir. Buna görə də məcbur olmuşuq ki, atı qadın suvarsın. Abdulla ibn Tahir bir söz deməyib, qayıtdı və əmr verdi ki, evlərdən bütün əsgərləri çıxarsınlar.

Odur ki, insan ən azından sözlə başa salıb, xəyanətkarlığa qarşı etiraz etməlidir. Çünki kiçik bir söz də öz təsirini göstərə bilər. Qeyrətli insan heç vaxt namussuzluğa yol verməz. Həm öz namusunu, həm də başqalarının namusunu xain gözlərdən və təcavüzdən hifz edib qorumalıdır.

Həzrət Peyğəmbərin(s) və Həzrət Əlinin(ə) qeyrət barədə buyurduqları sözləri İmam Hüseyn(ə) öz hərəkətləri ilə təsdiq edirdi. İmam Hüseyn(ə) həm özü qeyrətli idi, həm də başqalarının namusunun qeyrətini hifz edirdi. Istər Kərbəlada olmuş olsun, istərsə də ondan qabaq. Istər imamət dövründə olmuş olsun, istərsə də imamətindən öncə. Bir sözlə, İmamın(ə) namusu hamının namusu idi. Həzrət İmam Hüseyn(ə) qeyrətin bariz nümunəsi idi.

Yezid fasiq, əyyaş, biqeyrət, pozğun bir insan idi. Onun atası Müaviyə oğlunun belə olduğunu bilirdi və onu olduğu kimi də qəbul edirdi. Yezidin günü şərab içməklə, eyş-işrətlə, şəhvətbazlıqla keçirdi. Xanəndələri ətrafına yığıb onları dinləməklə və hərdən özü də oxumaqla vaxtını keçirirdi. Onun şəhvəti o qədər çox idi ki, yaxın adamları onun yanında başqalarının namusu haqda danışmaqla onun bu yanğısını söndürərdilər. Bir gün onun yanında Abdulla ibn Salamın arvadı Üreynəb barədə danışıb, onu tərif etdilər. O qədər danışdılar ki, Yezidin şəhvəti cuşa gəldi. Dedi ki, mən onu görməmiş vuruldum. O, atasının yanına gəlib dedi: Ata, mən Üreynəbi istəyirəm. Müaviyə fikirləşib Əbu Hüreyrəni çağırıb onunla məsləhətləşdi. Əbu Hüreyrəyə dedi: Sən Abdullanı Mədinədən Şama gətirə bilsən, çox yaxşı olar. Abdullanı Şama gətirdikdən sonra Müaviyə Əbu Hüreyrənin qulağına pıçıldayıb dedi: Mən istəyirəm Abdulla mənim kürəkənim olsun. Əbu Hüreyrə bu xəbəri Abdullaya çatdırıb, Müaviyənin ondan xoşu gəldiyini və özünə kürəkən etmək istədiyini dedi. Müaviyə öz qızını başa saldı ki, əgər Abdulla elçi gəlsə, sən bir şərtlə onunla razılaşıb bildir ki, gərək birinci arvadını boşayasan. Onların bu fırıldağı baş tutdu. Abdulla ibn Salama

təlaqnaməni oxutdurub imzalatdırdılar. Müaviyə təlaqnaməni Əbu Hüreyrəyə verib dedi: Bunu apar Üreynəbə göstər və de ki, Abdulla sənin təlağını verib. O, ərinin onu boşadığına görə narahat olub ağlayanda deyərsən ki, Müaviyə səni Yezid üçün almaq istəyir. Bunu desən, o, sakitləşəcək. Sonra onu çalış bura gətirəsən. Bu tərəfdən də Abdulla ibn Salamı bu gün-sabaha saxlayıb, tələbinin vaxtının qurtarmasını gözləyirlər. Əbu Hüreyrə yola düşür. Mədinədə yolda İmam Hüseynlə(ə) rastlaşır. Əbu Hüreyrə bütün bu hadisəni İmama(ə) danışır. Abdulla ibn Salam Üreynəbin təlağını verib və boşayıb. Indi mən də bu təlaqnaməni ona çatdırıb bildirmək istəyirəm ki, ərin səni boşayıb. Həm də onu Müaviyə öz oğluna almaq istəyir. İmam Hüseyn(ə) buyurdu: Üreynəbə bu xəbəri verəndə o, çox narahat olacaq. Yezidin adını çəkəndən sonra deyərsən ki, Hüseyn ibn Əli(ə) də səni istəyir. Əbu Hüreyrə təəccüblə Imamdan(ə) ayrılıb, Üreynəbin evinə gəlir və təlaqnaməni ona verib deyir: Ərin səni boşadı. Qadın narahat olub ağlamağa başlayır. Əbu Hüreyrə deyir: Narahat olma, sənə xoş bir xəbər də vermək istəyirəm. Müaviyə səni oğlu Yezid üçün almaq istəyir. Üreynəbin narahatlığı daha da artır və deyir: Mən nə Müaviyəni istəyirəm, nə də Yezidi. Əbu Hüreyrə görür ki, vəziyyət tamam başqa cür alındı, İmam Hüseynin(ə) sözünü ona çatdırdı. Üreynəb bu sözü eşidən kimi sakitləşdi. Əbu Hüreyrə Şama qayıdıb Müaviyəyə dedi: Üreynəbi heç cür yola gətirə bilmədim. Yolda İmam Hüseynlə(ə) olan sohbətini Müaviyəyə danışdı. Üreynəb Hüseyn ibn Əliyə(ə) razılıq verdi.  Müaviyə işlərin xarab olduğunu görüb bir söz demədi. Bu hadisədən sonra Abdulla ibn Salam aldandığını başa düşüb, geri qayıtdı. Evinə gələndə gördü ki, Üreynəb yoxdur. Bildi ki, İmam Hüseynin(ə)

evindədir. Həzrətin(ə) qapısına gəlib dedi: Mənim Üreynəbdə bir əmanətim var, istəyirəm ki, onu mənə qaytarsın. Mən ona bir açar vermişdim. Indi istəyirəm onu mənə qaytarsın. Həzrət(ə) Üreynəbdən bu məsələnin doğru olduğunu soruşduqda, o dedi: Bəli, o, mənə bir açar əmanət vermişdi. İmam(ə) Abdullaya dedi: “Gəl, sən Üreynəblə danış və açarı özün ondan al.” Abdulla açarı alandan sonra İmam(ə) ona buyurdu: “Mən Üreynəbin əqdini oxuyub, onu evimdə bir bacı kimi saxlamışam. Bilirdim ki, sənin başına nə iş gəlib, onu da bilirdim ki, sən qayıdacaqsan. Mən bu işi sənin namusunun qorunmasına görə etdim. Bu andan ona təlaq verirəm və verdiyim mehriyəni də istəmirəm. Indi də onu götür və gedin evinizə.” Ər-arvad ağlayıb, İmam Hüseynin(ə) ayaqlarına düşürlər.

İmam Hüseyn(ə) bütün hərəkətlərində, aşura və aşuradan öncə ömrünün əvvəlindən axırına qədər, Quranın buyurduğu kimi, bütün möminləri özünə qardaş xanımları da bacı hesab edirdi. Onların namusunu öz namusu hesab edirdi. Həzrət(ə) Kərbəlada aşura günü hücuma keçərkən belə buyurdu:

أَنَا حُسَيْن ابْن عَلِى        آلَيْتُ اَن لا اَنْثَنِى

اَحْمِى عَيالاتِ النَّبِى        اَمْضِى عَلى دِين النَّبِى

-Mən Hüseyn ibn Əliyəm, Peyğəmbərin əhli-əyalını (əmanətini) ölənə qədər qoruyacağam və Peyğəmbərin dini uğrunda ölməyə hazıram.

İmam Hüseyn(ə) bu kəlmələri ilə bütün dünyaya bildirdi ki, din və imanını qoruduğu kimi, namusunu da qorudu. Peyğəmbərin(s) ailəsini özünə əmanət bilirdi.

Ölənə qədər imkan vermədi ki, kimsə onlara qarşı hörmətsizlik etsin.

İmam Hüseyn(ə) axır saatlarında yaralı halda yerə yıxılmışdı. Elə ki, bir dəstənin çadırlara hücum etdiyini görüb səsləndi:

-Ey Əbu Süfyanın şiələri! Əgər sizin dininiz, imanınız yoxdursa, qiyamət günündən də qorxmursunuzsa, heç olmasa dünyada kişi və azad insan olun. Heç olmasa öz adətinizə riayət edin. Ərəblərdə adət deyil ki, insanın gözü baxa-baxa ailəsinə hücum etsinlər. Sizin mənimlə müharibəniz varsa, onda bəs qadınların günahı nədir? Onlara niyə hücum edirsiniz?

Əsirləri Şam şəhərinə apararkən bəzisinin örpəyini əllərindən almışdılar. Səhl ibn Saidi Peyğəmbərin(s) səhabələrindən biri idi. O deyir: İmam Səccada(ə) yaxınlaşıb dedim: Ağa, mənə görə nə əmriniz var? İmam(ə) buyurdu: "Görürsənmi, bizi nə vəziyyətdə şəhərə gətiriblər. Yaralı başların arxasınca qadınları bu vəziyyətdə aparırlar. Sən get, onlarla danış, başları əsirlərdən bir az qabaqda aparsınlar. Başları çox yaxın aparanda onlara tamaşaya gələnlər qadınlara da baxırlar. Bir iş gör ki, Peyğəmbərin(s) əhli-əyalı camaatın gözlərdən amanda olsunlar." Səhl dörd min dinara qədər pul xərcləyib, İmamın(ə) buyurduğu kimi etdi.

İmam Hüseynin(ə) qızı Fatimə deyir: Aşura günü çadırın kənarında dayanıb meydana baxırdım. Düşmənlər yaralı cənazələrin üstündə at çapırdılar. Birdən gördüm ki, bir nəfər atlı çadırlara tərəf hücum edib, qızların əyinlərindəki çadraları, başlarındakı örpəkləri alırlar. Qızlar da babaları Peyğəmbəri(s), ataları Əlini(ə) çağırıb çöllərə səpələniblər. Həmin şəxs mənə tərəf hücum edəndə mən qaçdım. Arxa tərəfdən nizə ilə çiynimdən möhkəm

bir zərbə vurdu. Üzü üstə yerə yıxıldım. Ağrının şiddətindən özümdən getdim. Gözümü açanda gördüm ki, bibim Zeynəb(s.ə) yanımda əyləşib əllərimi sığallayır. Baxıb gördüm ki, sırğalarımı və örpəyimi qarət ediblər. Zeynəbə(s.ə) dedim: Bibican, səndə elə bir şey varmı ki, onu verəsən mənə başıma örtüm ki, məni bu halda görən olmasın? Xanım Zeynəb(s.ə) ağlayıb buyurdu: Qızım, bibin də sənin halındadır.

Bu qeyrətli, iffətli qızın hərəkət və danışığına diqqət yetirin. Ayılan kimi ac, susuz, ona dəyən zərbələri fikirləşmədi. Yalnız öz iffətini saxlamaqdan ötrü çalışıb özünü naməhrəmdən gizlətmək üçün başına örtməyə bir parça istədi.

Xanım Zeynəb(s.ə) iki dəfə düşmənlə keşməkeşdə olub. Bir dəfə Şimr İmamın(ə) başını kəsərkən qılıncın iti yerindən yapışıb, qardaşının başını kəsməyə qoymadı. Şimr İmamın(ə) başını kəsmək istəyərkən Zeynəb(s.ə) özünü ora yetirib, qılıncın iti yerindən yapışdı. Qılınc onun barmaqlarının sümüklərinə qədər işlədi.

Bir dəfə də düşmən çadırlara hücum çəkib, Zeynəbin(s.ə) başından hicabını çəkmək istədikdə, xanım orada düşmənlə keşməkeşdə oldu və qoymadı ki, hicabını əlindən alsınlar.

Həzrət Əbülfəzl ağa bütün yolboyu gecələr yatmayıb, Peyğəmbərin(s) Əhli-beytinin(ə) və orada iştirak edənlərin namusunu qoruyub hifz edirdi.

Beləliklə, İmam Hüseyn(ə) və onun məhzərində olan şərafətli insanlar bütün insanlara qeyrətli, iffətli olmağı öz hərəkətləri ilə əməli surətdə öyrətdilər. Həm İmamın(ə) özü, həm də Əhli-beyti(ə) bu hərəkəti ilə Quranın ayələrini canlandırıb insanlara olduğu kimi çatdırdılar. Bütün bu hərəkətlə insanların qəlbində öz təsirini

göstərdi. Ona görə də deyirlər ki, İmam Hüseynin(ə) şəhadəti İslamı dirçəldib, ona yeni ruh bəxş etdi. Həzrət İmam Hüseyn(ə) qanının tökülməsi ilə İslamı könüllərə, qəlblərə tərəf yönəltdi. Qiyamətə qədər də İmam Hüseynin(ə) bu hərəkatı davam edəcək və qəlblər bunun vasitəsilə həqiqəti duyacaq.

# ON BİRİNCİ DƏRS

## DÜNYANIN MAHIYYƏTİNİN İZAHI

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

Ötən bəhslərdə İmam Hüseyn(ə) və onun məhzərində olan insanlar hicrətin 61-ci ilində Kərbəlada aşura günü bütün insanlara müəyyən dərslər öyrətmişlər. Bu bəhsdə də orların öyrətdiyi dərslərdən birini əziz möminlərin nəzərinə çatdırıram. Həmin dərs bundan ibarətdir ki, İmam Hüseyn(ə) və onun mübarək məhzərində iştirak edən insanlar dünyanın mahiyyətini və həqiqi üzünü bizə bəyan edib açıqladılar. Dünyanın mahiyyəti qaranlıq bir məsələdir. Bu barədə uzun illər müxtəlif insanlar müxtəlif düşüncələr, fikirlər və nəzəriyyələr irəli sürmüşlər. Lakin yenə də qaranlıq bir məsələ olaraq qalır. Kərbəlada İmam Hüseyn(ə) bu qaranlıq məsələnin üzərindən pərdəni götürərək, yar və ənsarlarına açıqladı və onlar da dünyanın bu qaranlıq mənasını əməli surətdə tam şəkildə bütün dünyaya bəyan etdilər.

Allah-təala dünyanın mahiyyəti barədə Qurani-Kərimdə belə buyurur:

وَمَا هَذِهِ الْحَيَاةُ الدُّنْيَا إِلَّا لَهْوٌ وَلَعِبٌ وَإِنَّ الدَّارَ الْآخِرَةَ لَهِيَ الْحَيَوَانُ لَوْ كَانُوا يَعْلَمُونَ

-Bu dünya həyatı bihudə əyləncədən və oyun-oyuncaqdan başqa bir şey deyildir. Həqiqətən də, axirət evi əbədi həyatdır *(onun yeri, göyü, mineralları və nəbatatı belə)* əbədilik diridir *(və elə bil ki, həyatın özüdür)*. Kaş biləydilər![1]

Bu ayə müşriklər barədə nazil olmuşdur. Həmin müşriklər barədədir ki, İslamın və Peyğəmbərin(s) haqq olduğunu ürəklərində bildikləri halda, dünyalarının əllərindən çıxacağından qorxub iman gətirmirdilər. Onlar elə başa düşürdülər ki, əgər İslamı qəbul etsələr, dünyaları bərbad olar, ruziləri kəsilər və gəlirləri azalar. Onlar bütpərəst olduqlarına baxmayaraq, ürəklərində Allahın varlığını nisbətən hiss edirdilər. Amma maddi ziyanlar dəyəcəyini güman edib, buna inanmaq istəmirdilər.

Allah onları üç yolla İslama dəvət edir. Həmin üç dəvəti qısa şəkildə nəzərinizə çatdırıram.

O yollardan biri xilqət yoludur ki, həmin xilqətə, yaradılışa baxmaqla dəvət edir. Ikincisi, robubiyyət yoludur ki, bu da yaradılışın kimin əlində olmasını və idarəçiliyin kimin əlində olmasını düşünüb, ona iman gətirsinlər. Üçüncüsü, fitrət yoludur. Bu yol insanın daxilində olan qeyri-iradi bir fitrətdir.

Birinci dəvəti Allah Quranda belə bəyan edir:

وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ لَيَقُولُنَّ اللَّهُ فَأَنَّى يُؤْفَكُونَ

---

[1] Ənkəbut,64

*(Ya Peyğəmbər!)* əgər onlardan *(Məkkə müşriklərindən)* soruşsan ki, «Göyləri və yeri kim yaratmış və günəşi, ayı kim ram etmişdir?» Mütləq deyəcəklər: «Allah» *(Çünki onlar bütləri xaliq və aləmlərin idarə edəni deyil, yalnız Rəbbin dərgahında, onun nəzəri altında olan şəfaət edən, dərgaha yaxın olan tanrılar bilirdilər).* Bəs belə isə *(Haqdan)* necə və haraya döndərilirlər?[1]

Onlar elə başa düşürlər ki, əgər Allaha iman gətirsələr, ruziləri azalar? Anlamırlar ki, ruzini verən də Allahdır.

Sonrakı ayədə belə buyurur:

اللَّهُ يَبْسُطُ الرِّزْقَ لِمَن يَشَاء مِنْ عِبَادِهِ وَيَقْدِرُ لَهُ إِنَّ اللَّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ

-Allah bəndələrindən istədiyi hər bir kəsin ruzisini artırar da, azaldar da. Həqiqətən, Allah hər şeyi biləndir.[2]

Bu ayələr onları başa salıb Allaha tərəf dönməyə dəvət edir. Həmçinin bəyan edir ki, yeri-göyü yaradan və bütün qüdrət sahibi olan Allah insanların ruzilərini də verir. Əgər birinin əlindən ruzini almaq istəsə və ya kiminsə ruzisini artırmaq istəsə, bu iş Allah üçün çox asandır.

Allah-təala ikinci dəvəti onlara robubiyyət yolu ilə başa salaraq belə buyurur:

وَلَئِن سَأَلْتَهُم مَّن نَّزَّلَ مِنَ السَّمَاءِ مَاءً فَأَحْيَا بِهِ الْأَرْضَ مِن بَعْدِ مَوْتِهَا لَيَقُولُنَّ اللَّهُ قُلِ الْحَمْدُ لِلَّهِ بَلْ أَكْثَرُهُمْ لَا يَعْقِلُونَ

Və əgər onlardan: «Göydən *(yağış, qar və dolu şəklində)* su nazil edib, bunun vasitəsilə yeri ölümündən sonra *(bitkilər, ağaclar bitirməklə)* dirildən kimdir?» –

---

[1] Ənkəbut,61
[2] Ənkəbut,62

deyə soruşsan, mütləq deyəcəklər: «Allah». De: «Həmd yalnız Ona məxsusdur. Lakin onların çoxu *(dərindən)* düşünmür».[1]

Bu ayədə Allah-təala onları başa salır ki, hər bir şey Allahın əlindədir. Həmçinin suyu Allah nazil edirsə, deməli bütün həyat suyun mövcudluğu ilə əlaqəlidir. Əgər su olmasa, heç bir canlı yer üzündə diri qalmaz. Hər bir canlı sudan asılı olduğu kimi, suyun kökü və mənbəyi də Allahın əlindədir. Buna görə də əgər insan hər bir şeyin Allahın əlində olmasını yəqinliklə başa düşsə, bu insanın Allaha iman gətirməsinə kifayət edər.

Üçüncü yol, yəni Allahı tanıma yolu insanın fitrətində qoyulmuşdur. Məsələn, insan acan zaman fitrətində ac olduğunu hiss edib başa düşür. Artıq ona kimsə demir ki, sən acmısan. Buna görə də yaranan gündən müəyyən şeyləri bilmək onun vücudunda yaranır. Həmin fitrətlərdən biri övlada məhəbbətdir. Insanın övladı dünyaya gələrkən istər-istəməz qəlbi həmin uşağın məhəbbəti ilə dolur. O cümlədən Allaha inam və iman insanın vücudunda olan fitrətlərdəndir. Lakin bu fitrətləri insan öz hərəkət və əməli ilə dəyişir. Əgər bir insanın fitrətində Allaha iman varsa, başqa bir şeyi Allahdan üstün tutmaqla o fitrətin simasını dəyişdirir. Bu barədə də Allah-təala Quranda belə buyurur:

فَإِذَا رَكِبُوا فِي الْفُلْكِ دَعَوُا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّاهُمْ إِلَى الْبَرِّ إِذَا هُمْ يُشْرِكُونَ

Gəmiyə minən *(və qərq olmaq təhlükəsi ilə üzləşən)* zaman dini yalnız Allaha məxsus edib, Ona dua edərlər.

[1] Ənkəbut,63

*(Ibadət etdikləri bütləri unudarlar. Allah)* onları quruya çıxarıb, xilas edən kimi dərhal ona şərik qoşarlar.

Bir nəfər İmam Sadiqin(ə) məhzərinə gəlib dedi: Mən Allahın varlığı barədə şübhə edirəm. Mənə Allahın kim olmasını başa sal.

İmam(ə) buyurdu: "Ey Allah bəndəsi, indiyə qədər gəmiyə minmisənmi?"

Həmin şəxd dedi: Bəli. İmam(ə) buyurdu: "Olubmu ki, sənin mindiyin gəmi dəryada üzən zaman sınsın və gəminin dəryada qərq olma ehtimalı çoxalsın?" Həmin şəxs dedi: Bəli, belə bir iş başıma gəlib. İmam(ə) buyurdu: "O zaman əlinin hər bir şeydən üzüldüyünü, lakin hansısa bir qüdrətin sənə nicat verməsini hiss etmisənmi? Həmin şəxd dedi: Bəli, o zaman mənim əlim hər bir şeydən üzüldü. Yalnız hansısa bir qüdrətin mənə yardımçı olmasını hiss edib, ona ürək bağladım. İmam(ə) buyurdu: Sənin orada əlin hər bir şeydən üzüldüyü anda ürək bağladığın şey və sənə nicat verən həmin kəs qüdrətli olan Allahdır."

Buna görə də insanın fitrəti ən çətin anlarında, əli hər bir şeydən üzüldüyü zaman ona nicat verəcək və son ümidi olan Allahı səsləyir.

Bu bəhsin əvvəlində qeyd olunan ayədə Allah-təala dünya barədə belə buyurur:

وَمَا هَذِهِ الْحَيَاةُ الدُّنْيَا إِلَّا لَهْوٌ وَلَعِبٌ وَإِنَّ الدَّارَ الْآخِرَةَ لَهِيَ الْحَيَوَانُ لَوْ كَانُوا يَعْلَمُونَ

-Bu dünya həyatı bihudə əyləncədən və oyun-oyuncaqdan başqa bir şey deyildir. Həqiqətən də, axirət evi əbədi həyatdır *(onun yeri, göyü, mineralları və*

*nəbatatı belə)* əbədilik diridir *(və elə bil ki, həyatın özüdür).* Kaş biləydilər![1]

Allah-təala bu mübarək ayədə dünya həyatının oyun-oyuncaqdan başqa bir şey olmadığını bəyan edir. Ayədə zikr olan "Ləhv"- (لَهْو) kəlməsinin mənası belədir ki, insanın başını özünə qarışdıran şeyə deyilir. Həmçinin zikr olan "Ləib"- (لَعِب) kəlməsi də oyuncaq mənasını daşıyır. Kiçik uşaqların oynamaqlarına diqqət yetirsək, görərik ki, bu ayənin timsalında böyük insanların bu dünyada hərəkətləri də eynilə onların oynamaqlarına bənzəyir. Məsələn, bir neçə uşaq evcik-evcik oynayarkən biri baba, biri nənə, biri ata, biri ana, biri də uşaq rolu oynayırlar. Özləri də bilirlər ki, bu onların özlərinin düzüb qoşduqları bir oyundur. Odur ki, Quran ayəsi bizə bəyan edir ki, bu dünya həm insanın başını məşğul edir, həm də oyun-oyuncaqdır. Fikir versəniz görərsiniz ki, uşaq vaxtı insan necə kiçik oyuncaqlarla oynayırsa, böyüyəndə də eyni xarakterdə oynayır. Məsələn, uşaq vaxtı kiçik əşyalarla oynayıb başını qarışdırırdısa, böyüyəndə uşaqlıqdan fərqli olaraq oynadığı əşyalar da böyüyür. Uşaq olarkən 5 manatlıq maşının üstündə savaşırdısa, böyüyüb 50 yaşına çatanda 50 min manatlıq maşının üstündə savaşır. Uşaq vaxtı necə olubsa, böyüyəndə də o cür qalır. Çünki əgər bir insanın əgər mənəviyyatı olmasa, 80 yaşı olmasına və fiziki cəhətdən böyüməsinə baxmayaraq, yenə də uşaq olaraq qalır. Başa düşmək lazımdır ki, insanı böyük edən, həddi-büluğa çatdıran onun mənəviyyatıdır. Əgər insan mənəvi cəhətdən həddi-büluğa çatmasa, fərq etməz ki, 15

---

[1] Ənkəbut, 64

yaşı olsun, ya da 55 yaşı. Bir daha uşaqların oynamasına nəzər salsaq görərik ki, onlar küçədə oynayarkən hərə yerdə bir cızıq çəkib, özləri üçün təxəyyülü ev düzəldirlər. Əgər bir uşaq onun çəkdiyi cızıqdan içəri girərsə, onunla savaşır ki, mənim yerimə girmə. Bir müddət oynadıqdan sonra, çıxıb gedirlər evlərinə. Çəkdikləri həmin cızıq və xəyallarında qurduğu həmin evlər qalır küçədə. Insan böyüyəndə sonra da tikdikləri ev və ya çəpər üstündə savaşırlar. Tarix boyu belə şeylər rastımıza gəlib. Bir çəpərin üstündə illərlə davalar gedir, məsələni aydınlaşdırmaq üçün ağsaqqallar yığışır. Bəzən məsələni həll edirlər, bəzən də məsələ olduğu kimi qalır. O vaxt 8 yaşı var idi və həmin şeyin üstündə dava edirdisə, indi 80 yaşı olub, yenə də həmin şeyin üstündə savaşır. Deməli, onun 80 yaşı olmasına baxmayaraq, yenə də uşaq olaraq qalmışdır. Buna görə də insana insaniyyət və qiymət bəxş edən amil insanın mənəviyyatıdır. Əgər bu mənəviyyat olmasa, insan ölənə qədər uşaq olaraq qalacaq. Insan həddi-büluğa çatmalıdır. Buna görə də insan iki cür həddi-büluğa çata bilər. Biri fiziki cəhətdən, biri də mənəvi cəhətdən həddi-büluğ ola bilər. Fiziki cəhətdən yaş həddi ilə ölçsək, 9 yaşında qızlar və 15 yaşında oğlanlar həddi-büluğa çatırlar. Digər tərəfdən yatıb durarkən ilk dəfə boynuna qüsul gəldiyini görərsə, hərçənd 15 yaşına çatmasa da belə, həddi-büluğa çatmışdır. Fiziki cəhətdən həddi-büluğa çatan şəxslərə həmin andan namaz qılmaq, əgər ramazan ayıdırsa, oruc tutmaq vacib olur. Ariflər buyururlar ki, əsas insan mənəvi cəhətdən həddi-büluğa çatmalıdır. Mənəvi cəhətdən həddi-büluğa çatmaq üçün yaş həddi və ya fiziki şəraitə ehtiyac yoxdur. Əgər bir müctəhid insandan şəhvətin çıxması ilə həddi-büluğa çatmasını bəyan edirsə. Ariflər deyirlər əgər insan

şəhvətdən xaric olsa, həddi-büluğa çatmış olar. Əgər insan özünü şəhvətdən xaric etsə, nəfsini ayağının altına qoysa, istər 5 yaşı olmuş olsun, istərsə də 50 yaşı mənəvi cəhətdən həddi-büluğa çatmışdır. Imam Zaman(ə.c) 5 yaşında ikən imamətə yetmişdi. Həzrət(ə.c) 5 yaşında ikən atası İmam Həsən Əskərinin(ə) cənazəsinin yanında dayanıb meyit namazı qıldı. Bütün ağsaqqallar da onun arxasında dayanıb iqtida etdilər. Çünki İmamın(ə) meyit namazını Imamdan(ə.c) başqası qıla bilməz. Imam Cavad(ə) 7 yaşında imamətə yetmişdi. Onun əmisi yaşlı ağsaqqal bir kişi idi. Bir gün uşaq evdən çıxarkən əmisi əyilib ayaqqabılarını cütləyib geyindirirdi. Bir nəfər dedi: Sən ağsaqqal kişisən, kiçik bir uşağın qarşısında əyilib ayaqqabılarını cütləyirsən. İmamın(ə) əmisi dedi: Bunu mən etməmişəm. Allah bu ağsaqqalın ixtiyarını həmin o yeddi yaşlı uşağa verib. Çünki o həddi-büluğa çatıb, amma mənim saqqalımın ağ olmasına baxmayaraq, həddi-büluğa çatmamışam. Mənəvi həddi- büluğa, insaniyyətliyə çatmaq saqqalın ağlığı, qaralığı, yaşın azlığı və ya çoxluğu ilə deyil.

Ona görə də Quran bu dünyanın oyun-oyuncaqdan başqa bir şey olmadığını bəyan edərək bildirir ki, axirət evi əbədi həyatdır *(onun yeri, göyü, mineralları və nəbatatı belə)* əbədilik diridir *(və elə bil ki, həyatın özüdür)*.

Eşqin məcazi və həqiqisi olduğu kimi, həyatın da məcaziliyi və həqiqiliyi vardır. Bizim hazırda yaşadığımız həyat məcazi, axirət həyatı isə həqiqi həyatdır.

Bu barədə bir ayəni də möminlərin nəzərinə çatdırıram. Bu ayə Musa Peyğəmbərlə(ə) Fironun əhvalatı əsnasında olan söhbətlərdir ki, Allah-təala Quranın

“Mömin” surəsinin 29-40-cı ayələrində bu məsələni bizə bəyan edir.

Firon öz düşüncəsi ilə özünə tərəf dəvət edirdi. Musa(ə) və ona iman gətirənlər Fironun bu dəvətlərinə məhəl qoymurdular. Fironun yaxınlarından, ailəsindən Musaya(ə) iman gətirənlər var idi. O cümlədən bir nəfər onun qəbiləsindən idi, lakin Musa Peyğəmbərə(ə) iman gətirmişdi. O, bir vaxtlar imanını gizli saxlamış, sonradan açıq- aşkar Allaha iman gətirdiyini elan etmişdi. Quranda bu belə bəyan olunur:

قَالَ فِرْعَوْنُ مَا أُرِيكُمْ إِلَّا مَا أَرَى وَمَا أَهْدِيكُمْ إِلَّا سَبِيلَ الرَّشَادِ

Firon dedi: «Mən sizə öz rəyimdən başqa bir nəzər bildirmirəm və sizi yalnız doğru yola yönəldirəm.»

Qeyd etmək lazımdır ki, hər dəvət edən kəs həmin dəvətinin üzünü bəzəyib danışır. Heç kəs öz etdiyi dəvətin pis olduğunu deməz. Buna görə də Firon hiylə işlədərək, bu sözləri öz qövmünə deyirdi. Lakin həmin iman gətirən kəs Firona belə cavab verir:

وَقَالَ الَّذِي آمَنَ يَا قَوْمِ اتَّبِعُونِ أَهْدِكُمْ سَبِيلَ الرَّشَادِ

Iman gətirmiş şəxs dedi: «Ey mənim qövmüm, mənə tabe olun, sizi doğru və hədəfə çatdıran yola hidayət edim.»

يَا قَوْمِ إِنَّمَا هَذِهِ الْحَيَاةُ الدُّنْيَا مَتَاعٌ وَإِنَّ الْآخِرَةَ هِيَ دَارُ الْقَرَارِ

«Ey mənim qövmüm! Bu dünya həyatı yalnız *(məhdud və müvəqqəti)* bəhrələnməkdir və həqiqətən sabitlik və əbədilik evi *(təkcə)* axirətdir *(axirət həyatıdır)*.

مَنْ عَمِلَ سَيِّئَةً فَلَا يُجْزَى إِلَّا مِثْلَهَا وَمَنْ عَمِلَ صَالِحًا مِّن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَأُوْلَئِكَ يَدْخُلُونَ الْجَنَّةَ يُرْزَقُونَ فِيهَا بِغَيْرِ حِسَابٍ

Kim pis iş görsə, yalnız onun miqdarında cəzalandırılacaq və kişi, yaxud qadınlığından asılı olmayaraq, kim mömin halda yaxşı iş görsə, belələri cənnətə daxil olacaq, orada onlara saysız-hesabsız ruzi veriləcəkdir.»

Bu ayədə iki incəlik vardır ki, onlardan biri dünyanın hədəf olmasını, digəri isə dünyanın əbədi həyatı əldə etməsi üçün vəsilə ola bilər. Bəziləri elə başa düşür ki, insanın həyatı elə bu dünyadadır və ölümlə bütün həyat məhv olub aradan gedir. Amma bəziləri deyir ki, xeyr, dünya əbədi həyata çatmaq üçün bir vəsilədir. Bir zamanlar zər aləmində insanların ruhları yaradıldı. Insanın ruhu yaradılandan sonra ona bütün həyatını göstərmişdilər. Yəni son nəfəsimizə qədər nələr baş verəcəyini əvvəldən axıra qədər göstərmişlər. Allah-təala insanı yaratmamışdan öncə ondan vədə almış, sonra yaratmışdır. Elə ki, insan dünyaya göz açdı, ona göstərilənlərin hamısı yadından çıxır. Bu dünyada hərdən zər aləmində gördüklərinin bəzi anları insanın yadına düşür. Bir insanı və ya bir hadisəni gördükdə elə bil ki, bir dəfə həmin insanla və bu hadisə ilə rastlaşıb. Lakin bilmir ki, bütün bunların hamısını ona zər aləmində əvvəldən axıra göstərmişlər. Buna görə də hamısı onun yadında qalmadığından həmin gördüklərinin cüzi bir hissəsi bir anda yadına düşür. Eyni ilə yuxu kimidir. Insan yuxu görür, lakin səhər yuxudan durduqda bilir ki, yuxu görüb, amma yuxuda nə gördüyünü yadına sala bilmir. Hərdən olur ki, həmin yuxunun bir hissəsi yadına gəlir. Zər aləmi də belədir. Çünki insan bir zamanlar həmin aləmdə yaşamışdır. Sonra bir müddət atanın sülbündə yaşayıb. Sonra ananın bətnində təqribən doqquz ay ömür keçirib. Sonra isə bu dünyaya gəlir. Bu sahə üzrə mütəxəssislər

kitablarında yazırlar ki, insan ana bətnində olarkən vaxtı çatdıqda dünyaya gəlmək istəmir. Ona deyirlər ki, yaşadığın bu yerdən gözəl havası, gözəl yeməkləri və s. olan geniş bir yerə gedirsən. Lakin o, bu sözlərə inanmır. Elə başa düşür ki, yeməyi çirkli qan olan və qaldığı qaranlıq və kiçik olan bu yerdən gözəl bir yer ola bilməz. Buna görə də dünyaya gəlmək istəmir. Elə ki özündən asılı olmayaraq dünyaya gəlir, gözünü açıb görür ki, doğrudan da bu dünya geniş, yeməkləri gözəl və imkanları çox böyük olan yerdir. Yavaş-yavaş bu dünyaya bağlanır. Bu dünyaya gələndən sonra ona bu dünyadan daha gözəl olan bir dünyanın olmasını başa saldıqda, bu dəfə də deyilən sözlərə inanmır. Yüz iyirmi dörd min peyğəmbər gəlib və insanlara bu dünyanın müvəqqəti olmasını başa salır. Peyğəmbərlər insanlara başa salırlar ki, bu dünya əbədi dünyaya çatmaq üçün bir vasitədir. Insan başını bu dünyaya məşğul etməməlidir. Elə bil ki, insanı bir bağa salıb, özü üçün meyvə yığmağı tapşırırlar, deyirlər ki, hər nə qədər meyvə yığıb apara bilirsən, apar. Bəziləri zirək tərpənib vaxtlarından istifadə edərək qutuları meyvə ilə doldurub bayıra çıxırlar. Lakin bəziləri hələ də bağda meyvə yeməklə məşğuldurlar. Vaxtları qurtaranda baxıb görürlər ki, aparmağa heç bir tədarük görməyiblər. Məcbur olub bağdan əliboş çıxırlar. Bu düyanın məsəli də belədir. Insan bu dünyaya qazanmaq üçün gəlmişdir. Aşura, məhərrəm, orucluq, namaz, həcc və bu kimi əməllər əbədi həyatı qazanmaq üçündür. Insan var ki, vaxtından istifadə edib qazanır. Lakin elələri də var ki, yalnız qarnını təmin etmək üçün çalışır. Elə güman edir ki, mənəvi aləmdə olarsa, qarnı doymayacaq. Bu, səhv düşüncədir. O kəslər ki, dünyada mənəviyyat aləmində yaşayırlar, dünyadan istifadə etməkdə onlarla şərikdirlər.

Amma axirət günü dünya üçün yaşayan insanlar mənəviyyatla yaşayanlarla şərik olmayacaqlar.

İmam Sadiqin(ə) dövründə bir nəfər axirəti, cənnət və cəhənnəmi qəbul etmirdi. Həzrət(ə) ona buyurdu: “Yəqin ki, ölümü qəbul edib və öz gözlərinlə ölümü müşahidə edirsər? Həmin şəxs dedi: Əlbəttə, qəbul edirəm, amma ondan sonra nə olacağını qəbul etmirəm. Həzrət(ə) buyurdu: Sən də dünyadan gedəcəksən, mən də. Sən də bu dünyada yeyirsən, mən də yeyirəm. Sənin də övladların var, mənim də. Lakin mən namazlarımı qılıram, orucumu tuturam, həcc ziyarətinə gedirəm, həmçinin bu dünyanın ləzzətlərindən də istifadə edirəm. Sən haram yollarla qazanıb yeyirsən, mən halal yollarla. Sən haramlardan ləzzət alırsan, mən halallardan. Əgər sən deyən kimi öləndən sonra torpağa qarışacağıqsa, mən heç nə itirməyəcəyəm? Yox, əgər mən dediyim ki, qiyamət, cənnət və cəhənnəm olarsa, o zaman sən nə qazanmış olacaqsan?

Yüz iyirmi dörd min peyğəmbər gəlib və insana axirəti başa salır. Insana onların sözləri təsir etməzmi? Nə üçün insan onların dediklərini qəbul etmək istəmir? Amma kiçik bir uşağın sözü hərdən elə təsir qoyur ki, sonradan böyüklər həmin uşağın sözünün əksini dedikdə onların sözünü qəbul etmir. Bu kimi elementar şeyləri həyatda dəfələrlə müşahidə edirik. Bir nəfər dostunun evinə qonaq getmişdi. Bir yerdə əyləşib söhbət edirdilər. Evdə kiçik yaşlı bir uşaq var idi. Uşaq qonağın yanına gəlib dedi: Əmi, dünən sən əyləşdiyin yerdən atam bir əqrəb tutub öldürdü. Qonaq uşağın sözünü eşitdikdə narahat olmağa başladı. Uşağın atası tez gəlib uşağı onun yanından apardı və danladı ki, sənə kim dedi bunu qonağa deyəsən? Sonra gəlib qonağa bildirdi ki, fikir verməyin, uşaqdır. Nə

danışdığını bilmir. Ev yiyəsinin toxtaxlıq verməsinə baxmayaraq, uşağın sözləri qonağa elə təsir etmişdi ki, həmin gecəni qorxusundan o evdə yata bilmədi.

Görürsünüzmü, bəzən beş yaşlı uşağın sözü insana elə təsir edir ki, gecəni səhərə qədər yata bilmir. Lakin böyük adam ona uşağın bilməyərəkdən söz dediyini bildirəndə inanmır. Kiçik bir uşağın bir sözü insanda ehtimal yaradırsa, bəs yüz iyirmi dörd min peyğəmbərin cənnət və cəhənnəmin varlığı barədə dedikdə,  nə üçün onların sözünə inanmır? Ömürlərinin əvvəlindən axırına qədər dillərindən bir kəlmə də olsa yalan çıxmayan bu peyğəmbərlərin sözü nə üçün insana təsir etmir? Insan gərək bunları öləndən sonra gözü ilə görüb inansın? O zaman çox gec olacaq. Insan öləndən sonra heç vaxt geri qaytarılmır. Elə ki, ölüm insanı yaxaladı, o zaman başa düşür ki, yüz iyirmi dörd min peyğəmbər düz buyurublar. O zaman peşmançılıqlar başlayır və bu peşmançılığın insana heç bir faydası olmur. Allah-təala “Möminun” surəsində bu barədə belə buyurur:

قَالَ رَبِّ ارْجِعُونِ   لَعَلِّي أَعْمَلُ صَالِحًا...

«Ey Rəbbim, məni *(dünyaya)* qaytar, bəlkə *(dünyada)* yaxşı bir iş gördüm.”

Buna görə də insan bu dünyanı başa vurandan sonra bərzəx aləminə gedir, bərzəxdən sonra qiyaməti görəcək, qiyamətdən sonra ya cənnət, ya da cəhənnəm. Bunlar hamısı insanın seyr etdiyi yoldur. Hazırda biz yolun yarısındayıq. Bir zamanlar müəyyən yollar keçmişik. Hazırda təqribən yolun ortasındayıq. Bundan sonra da gedəcəyimiz yollar var ki, onları da istər-istəməz getməliyik.

قالَ رَسُولُ اللهِ(ص): اَلدُّنْيا مَلْعُونَةٌ, مَلْعُونٌ ما فِيهَا اِلاّ ما كانَ فِيها لِلّه عَزّ وَجَلَّ

Həzrət Peyğəmbər(s)buyurur: “Dünya nifrin olunmuşdur. Və dünyada Allah üçün görülənlərdən başqa, hər nə varsa, hamısı nifrin olunmuşdur.”

قالَ عَلِي (ع): اَلدُّنْيا خُلِقَت لِغيْرِها وَ لَمْ تُخْلَق لِنَفْسِهَا

Həzrət Əli(ə) buyurur: “Dünya özündən başqası üçün yaranmışdır. Özü üçün yox.”

Yəni dünya bir vəsilədir. Bu dünyanın vasitəsi ilə insan axirətini qazanır. Məsələn, nərdivana diqqət yetirsək görərik ki, onu özünə görə yox, ondan dam və ya hasara çıxmaq üçün istifadə olunur. Əgər dam, hasar və ya yuxarı çıxmağa ehtiyac yoxdursa, o zaman nərdivan insana lazım deyil.

Odur ki, Həzrət(ə) buyurur: “Dünya özü üçün yox, axirət üçün yaranmışdır.” Insanın bu dünyada gördüyü hər bir iş yazılır və saxlanılır. Insanın gördüyü hər bir işin nəticəsi orada aydınlaşacaq. Xüsusən texnikanın inkişaf etdiyi bir zamanda bunu başa düşmək çox asandır. Yüz il bundan öncə belə bir inkişaf olmamışdı. Buna görə də bu şeylərə heç kəs inanmırdı. Lakin bizim bu dövrdə insanların əməlləri necə yazıla biləcəyi çox asan başa düşülür. Bəzən video- kamera ilə insanlar bir-birinin hərəkətlərini çəkirlər. Toyda, nişanda, müxtəlif məclislərdə, seminarlarda və s. yerlərdə çəkilişlər aparılır. Sonradan həmin kasset və diskləri cihazlara qoyub tamaşa edirlər. Həmin mərasimlərdə iştirak etmiş insanlar dünyasını dəyişəndən sonra belə kasetlərdə onlardan nişanə qalır. Həmin şəxs dünyada olmasa da, onun

danışıqları, hərəkətləri lent vasitəsilə yazılıb saxlanılmışdır.

Allah-təala Quranda insanların kiçiklik və böyüklüyündən asılı olmayaraq, bütün əməllərinin hamısının yazıldığı və qiyamət günündə onlara göstəriləcəyini belə bəyan edir:

فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ    وَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ

-Hər kim bir zərrə ağırlığında yaxşı iş görmüşsə, onu*(n qarşılığını, yaxud eyni ilə təcəssümünü)* görəcəkdir. Və hər kim bir zərrə ağırlığında pis iş görmüşsə, onu görəcəkdir.

Beləliklə, insan bu dünyada bacardığı qədər istifadə edib, axirətini qazanmalıdır. Çünki bu dünya ötüb keçəridir. Günlər tez bir zamanda ötüb keçir. Insan hər an, hər saniyə axirət dünyasına yaxınlaşır. Ömür qurtardıqdan sonra yaxşı işlər görənlər etdikləri yaxşılıqları, pis iş görənlər etdikləri pislikləri mütləq görəcəklər. Dünyada başları ləzzətlərə qarışan insanlar qiyamət günündə peşman olacaq, dünyadan vəsilə kimi istifadə edib, ömürlərindən səmərəli istifadə edənlər xeyirlərini mütləq görəcəklər.

## İnsan bu dünyada qonaqdır

Qeyd olundu ki, bu dünya axirət həyatına qovuşmaq üçün bir vasitədir. Buna görə də insan bu dünyadan hədəf kimi yox, bir vasitə kimi istifadə etməlidir. Bu məsələyə başqa yönümdən baxdıqda görürük ki, insanlar bu dünyada qonaqdır. Bu barədə Həzrət Peyğəmbər(s) buyurur:

قَال رَسُولُ اللهِ(ص): اَيُّها النّاس, اِنَّ مَنْ فِى الدُّنْيا ضِيْفٌ وَمَا فِى اَيْدِيكُمْ عارِيَةٌ وَ اِنَّ الضَّيْفَ مُرْتَحِلٌ وَ العارِيَةُ مَرْدُودَةٌ

-Ey insanlar, həqiqətən bu dünyada yaşayan hər bir insan qonaqdır. Həmçinin əllərində olan bu dünya, mallarının hamısı əmanətdir. Həqiqətən hər gələn qonaq nə vaxtsa getməlidir. Ona verilən əmanəti isə bir gün geri qaytarmalıdır.

Bu hədis bir daha yada salır ki, insan həm bu dünyaya qonaq kimi gəlmişdir, həm də ixtiyarında olan dünya malının hamısı ona tapşırılan əmanətdir.

Abuzər Ğəffari Həzrət Peyğəmbərin(s) yaxın səhabələrindən biri idi. O, uzun müddət Peyğəmbərin(s) məhzərində olmuş, Quran ayələrinin mənalarını, bir çox hədisləri əxz etmişdir. Bir gün Abuzər bir dəstə alimə moizə edərək belə dedi:

يَا مُبْتَغِىَ العِلْمِ لا يَشْغَلُكَ اَهْلٌ وَ لا مالٌ عَنْ نَفْسِكَ اَنْتَ يَومَ تُفارِقُهُم كَضِيْفٍ بِتَّ فِيهِمْ ثُمَّ غَدَوْتَ اِلى عَنْهُم اِلى غَيْرِه

-Ey elm sahibləri və ey elm axtaran insanlar. Əhli-əyalınız və mal- dövlətiniz sizi özünə məşğul etməsin. Onlardan ayrılanda qonaq kimi ayrılırsınız. Elə bil ki, bir gecə onlarla birgə qonaq qalıb və səhəri gün onlardan ayrılıb başqa yerə gedəcəksən.

Bura qədər dünya barəsində Quran ayələrindən və hədislərdən istifadə edərək lazımi qədər söhbət etdik. Indi isə İmam Hüseyn(ə) və onun məhzərində olan insanların dünyaya baxışlarına diqqət yetirək. Görəsən onlar bu dünyanı özlərinə vasitə hesab edirdilər, yoxsa dünya onlar üçün hədəf idi? Kərbəla hadisəsinə diqqətlə nəzər saldıqda görürük ki, başda İmam Hüseyn(ə) olmaqla Həzrətin(ə)

ətrafındakılar dünyanın mahiyyətini və mənasını həm dildə, həm də əməli surətdə bütün insanlara bəyan etmişlər.

İmam Hüseyn(ə) bu dünyanın mənasını belə bəyan edir:

اِنَّ جَمِيعَ مَا طَلَعَتْ عَلَيْهِ الشَّمْسُ (فِى مَشارِقِ الْأَرْض وَ مَغارِبِها, بَحْرِها وِ بَرِّها...) عِنْدَ وَلِيٍّ مِنْ اَوْلِياءِ اللهِ وَ اَهْلِ الْمَعْرِفَةِ بِحَقِّ اللهِ كَفَيْئِ الظِّلال

-Həqiqətən, günəş şüalarının məşriqdən məğribə düşdüyü, dənizlər və səhralığın, yaxud gün işığının üzərinə düşdüyü hər bir şey Allahın dostları və Allaha mərifəti olan kəslərin nəzərində ötüb keçəri bir kölgə kimidir.

Sonra Həzrət(ə) buyurdu:

قَالِ عَلِيٌّ(ع): أَلا حُرٌّ يَدَعُ هذِهِ اللُّمَاظَةَ لِأَهْلِهَا؟

İmam Əli(ə) buyurur: “Bu dünyada bir nəfər azad insan tapılarmı ki, bu “lumazə”ni[2] öz əhlinə versin?”

Bu kəlam Həzrət Əlinin(ə) kəlamıdır ki, İmam Hüseyn(ə) xütbələrinin birində camaata bəyan edir.

İbn Abbas deyir: “Camaat Həzrət Əlinin(ə) qapısına gəlib, beyət etmək üçün qapısına toplaşdılar. Mən içəri daxil olduqda, gördüm ki, Həzrət(ə) əyləşib çarıqlarını yamayır. Dedim: Ya Əmirəlmöminin, camaat səni İslam dünyasına xəlifə təyin edib, beyət etmək üçün toplaşıblar. Sən isə çarıqları yamamaqla məşğulsan. Həzrət Əli(ə) İbn Abbasa heç bir kəlmə də cavab verməyib işinə davam etdi. Çarıqları yamayıb qurtarandan sonra onları cütləyib İbn Abbasın qarşısına qoyub buyurdu: İbn Abbas, bu

---

[2] Lumazə – insan bir tikə yeməyi ağzında çeynəyib ürəyi bulanma nəticəsində çölə çıxarıb kənara qoyduğu tikəyə deyilir və heç kəsin onu götürüb yeməyə ürəyi gəlməz və ona tamah salmaz.

çarıqların səncə nə qədər qiyməti olar? İbn Abbas dedi: Ya Əli(ə), bunlar köhnə çarıqlardır, bunu əgər alsalar, çox ucuz qiymətə alarlar. Həzrət(ə) buyurdu: İbn Abbas, and olsun Allaha, mənə tapşırılan xilafətin qiyməti bu çarıqların qiymətindən də ucuzdur. Xilafəti də bir məzlumun haqqını zalımdan almaq üçün qəbul edirəm.

Həzrət Əli(ə) dünyanın mənasını tam dərk etmiş və onun lümazə olduğunu yəqin bilirdi. Buna görə də dünyaya heç vaxt rəğbət bəsləmədi. Odur ki, əgər özü dünyaya lümazə deyirsə, bunun mənasını çox gözəl bildiyi üçün əməlində də dünyaya belə baxırdı.

Sonra həmin xütbədə İmam Hüseyn(ə) buyurur:

لَيْسَ لِأَنْفُسِكُمْ ثَمَنٌ إِلّا الْجَنَّة, فَلا تَبِيْعُوها بِغيرِها فَإِنَّهُ مَنْ رَضِىَ مِنَ اللهِ بِاالدُّنْيا فَقَدْ رَضِىَ بِالْخَسِيس

-Sizin qiymətinizin ən azı cənnətdir. Özünüzü cənnətdən ucuz qiymətə satmayın. Əgər bir insan özünü bu dünyanın hamısına satmış olsa belə, çox ucuz qiymətə satmışdır.

Aşura gecəsi İmam Hüseyn(ə) öz səhabələri ilə bir daha höccəti tamamladı və onlarla söhbət edərək buyurdu: “Kim getmək istəyirsə, gedə bilər. Heç kəs onun getməsinə də mane olmayacaq.” Hətta Həzrət(ə) bəzilərinin adlarını çəkərək bu sözləri buyurdu. Səhabələr dedilər: Ey Peyğəmbər(s) balası, biz heç vaxt səni tərk edib getməyəcəyik. Düzdür ki, sən bizə getməyi məsləhət görürsən, lakin biz səndən ayrılmaq istəmirik. Səni narahat edən şeylər bizi də narahat edir, sən hər nədən razısansa, biz də onunla razılaşırıq. Biz sənin yanında özümüzü Allaha çox yaxın hiss edirik. Heç vaxt bu mənəviyyatı və bu qiyməti əldən vermək istəmirik. Həzrət(ə) buyurdu:

فَإِنَّ كُنْتُم قَدْ وَطَّنْتُم اَنْفُسَكُم عَلى مَا وطَّنْتُ نَفسِى عَلَيْهِ فَاعْلَمُوا اَنَّ اللهَ اِنَّما يَحَبُ الْمَنازِلَ الشَّرِيفَة لِعِبادِهِ بِاِحْتِمَالِ الْمَكارِهِ...

وَاعْلَمُوا اَنَّ الدُّنْيا حُلْوُها وَ مُرُّها حُلُمٌ وَ الْإِ نتِباهُ فِى الآخِرَةِ وَالفَائِزُ مَنْ فازَ فِيهَا وَالشَّقِيُّ مَنْ شَقِىَ فِيهَا

-Əgər həqiqətən mənim ürəyim bağlı olduğu şeyə sizin ürəyiniz də bağlıdırsa, əgər məni narahat edən şeylər sizi də narahat edirsə, (məndən ayrılıb getmək istəmirsinizsə) elə isə eşidin və bilin. Allah öz bəndələrinə (Onun yolunda qoyulan)  çətinliklərə dözüb səbr etdikləri üçün cənnətdə yüksək və şərafətli mənzillər hazırlamışdır.

Sonra Həzrət(ə) buyurdu: "Eşidin və bilin ! Həqiqətən bu dünyanın həm şirinliyi, həm də acılığı bir yuxudur. Axirətdə isə insanlar yuxudan ayılırlar."

Bəzən insan yuxuda çox hadisələrlə rastlaşır. Bəzən yuxuda gözəl məkanlarda istirahət etdiyini, yaxşı imkanı olduğunu və s. gözəlliklərin içində olduğunu görür. Yuxudan ayılanda hiss edir ki, bütün gördüklərinin hamısı sadəcə yuxu imiş. Həmin yuxuda gördüyü şirinliklər və gördüyü acılıq və çətinliklərin hamısı bir yuxu idi. Istisna hallarda insan yuxuda elə bir gözəllik və mənəviyyatla rastlaşır ki, ayılandan sonra həmin yuxunun təsiri bir müddət onun ürəyində qalır. Mərhum Ayətulla Mürtəza Mütəhərri şəhid olmazdan üç-dörd gün qabaq həyat yoldaşına deyir: "Mən yuxuda gördüm ki, Imam Xomeyni(r) ilə Məkkədə Kəbə ətrafında dayanmışdıq. Birdən gördüm ki, Həzrət Peyğəmbər(s) mənə baxa-baxa bizə tərəf gəlir. Ürəyimdə dedim ki, Ağa, mənə tərəf yox, İmam Xomeyniyə tərəf gəl. O, məndən böyükdür. Lakin Peyğəmbər(s) mənə tərəf gəlib, əlimdən tutub məni özünə

tərəf çəkdi və bağrına basdı. Elə bu andaca yuxudan ayıldım. O Həzrətin(s) istiliyini hələ də hiss edirəm. Peyğəmbərin(s) bu hərəkətindən başa düşdüm ki, mənim vaxtımdır. Mən artıq bu dünyadan getməliyəm.”

Həyat yoldaşı deyir: “Mən ondan soruşdum ki, bunu hardan bilirsən? Ustad Mütəhərri dedi: Çünki Peyğəmbər(s) mənə tərəf gəlirdi, Imama tərəf yox. Hiss etdim ki, onun vaxtına hələ qalır. Bu hadisədən üç gün sonra onu şəhid etdilər.”

Bəzən yuxunun hərarəti və ya başqa təsirləri bir müddət insanın ürəyində qalır.

Odur ki, İmam Hüseyn(ə) və onun yar və ənsarı bu dünyaya bir yuxu kimi baxırdılar. Əgər bir insan bu dünyaya yuxu kimi baxırsa, bu dünyanın əziyyətinə də, şirinliyinə də yuxu kimi baxar.

Sonra Həzrət İmam Hüseyn(ə) buyurur: “Insan axirət günü yuxudan ayılacaq. Axirətin xoşbəxtləri oranın xoşbəxləri, bədbəxtləri də oranın bədbəxtləri sayılacaq (əsas xoşbəxtlik və bədbəxtlik orada məlum olacaq).

Bu dünyanın xoşbəxtləri də, bədbəxtləri də axirət günü yuxudan ayılanda görəcəklər ki, bünyada olan bütün bu xoşbəxtlik və bədbəxtliklərin hamısı yuxu imiş. Yəni xoşbəxt insan odur ki, o dünyanın xoşbəxtlərindən sayılsın. Bədbəxt insanlar da o dünyada bədbəxt olduqlarını görəcəklər. O dünyada xoşbəxt olmaq üçün insanın gərək bu dünyada təqvası olsun. Çünki təqva insanın xoşbəxt olması üçün ən mühüm məsələdir.

Həzrət Əli(ə) Siffeyn müharibəsindən qayıdarkən Kufə qəbiristanlığının yanında durub üzünü qəbirlərə tutaraq belə buyurdu:

يَا أَهْلَ الدِّيارِ الْمُوهِشَةِ وَ الْمِحَالِ الْمُقْفِرَةِ  والقُبُورِ الْمُظْلِمَةِ يَا أَهْلَ التُّرْبَةِ يَا أَهْلَ الْغُرْبَةِ  يَا أَهْلَ الْوَحْدَةِ يَا أَهْلَ الْوَحْشَةِ أَنْتُمْ لَنَا فَرَطٌ سَابِقٌ وَنَحْنُ لَكُمْ تَبعٌ لاحِقٌ أَمَّا الْدُورُ فَقَدْ سُكِنَتْ وَ أَمَّا الْأَزْوَاجُ فَقَدْ نُكِحَتْ وَ أَمَّا الْأَمْوَالُ فَقَدْ قُسِمَتْ هَذَا خَبَرٌ مَاعِنْدَ نَا وَ مَا خَبَرٌ مَا عِنْدَكُمْ ثُمَّ الْتَفَتَ إِلى أَصْحَابِهِ فَقَالَ: أَمَا لَوْ أُذِنَ لَهُمْ فِى كَلامِى لَأَ خْبِرُوكُمْ إِنَّ خَيْرَ الزَّادِ التَّقْوى

-Ey vəhşətli evlərin sakinləri! Ey zülmət qəbirlərin əhli! Ey torpaq altında yatanlar! Ey qürbət əhli! Ey tənha evlərin əhli! Ey vəhşət əhli! Siz bizdən əvvəl bu diyara gəldiniz və biz də sizə qovuşacağıq. Əgər burda olan xəbərləri eşitmək istəyirsinizsə, sizə çatacaq xəbərlər budur: Siz öləndən sonra evlərinizdə başqaları sakin oldu. Həyat yoldaşlarınız başqaları ilə evləndi. Varislərininiz mallarınızı öz aralarında bölüb dağıtdılar.  Buradan sizə çatacaq xəbərlər yalnız bunlardar. İndi orada olan xəbərləri siz deyin. Sonra Həzrət(ə) üzünü əshabına tərəf çevirib buyurdu: “Əgər onlara danışıq icazəsi verilsəydi, onlar durub belə deyərdilər: Ya Əli, burada hər şeydən mühüm və dərdə dəyən əməl yalnız təqvadır.”[1]

İnsan axirət günü yalnız təqvası ilə fəxr edəcək və xoşbəxtlər cərgəsinə qoşulacaq. Bu dünyada mal-dövləti, imkanı, sarayları və s. olan insanların təqvası olmasa, bütün ixtiyarında olanlar axirət günü onun dərdinə dəyməyəcək. Dünyanın malı dünyada fəxr etmək üçündür, axirətdə yox. Çünki o dünyada insan namaz, oruc, xüms, zəkat və digər vacib  əməllər barədə sorğu-sual olunacaq.

---

[1] Nəhcül-bəlağə, Hikmət,130

İmam Hüseyn(ə) bu xütbəsində bütün insanlara başa salır ki, həqiqi xoşbəxtlər o dünyanın xoşbəxtləri, həqiqi bədbəxtlər də o dünyanın bədbəxtləridir. Bu dünyanın həm xoşbəxtliyi, həm də bədbəxtliyi ötəri bir yuxudur.

Aşura günü Həzrətin(ə) imaməti ilə sübh namazını camaatla qıldıqdan sonra xütbə oxudu. İmam Hüseyn(ə) həmin xütbədə dünya barədə camaata belə xitab etdi:

...اِنَّ اللهُ تَعالی اَذِنَ فِی قَتْلِکُم وَ قَتْلِی فِی هَذا اليَوم فَعَلَيْکُم بِالصَّبْرِ وَالقِتَال... صَبْرًا يَا بَنِی الکِرام فَمَا الْمَوتُ اِلاّ قَنْطَرَة تّعبُّرِ بِکُم عَنِ الْبُؤْسِ وَ الضَّراءِ اِلی الْجِنانِ الْواسِعَة وَ النَّعِمِ الدّائِمَة فَأَيُّکُم يَکْرَه اَنْ يَنْتَقِلَ مِن سِجْنِ اِلَی قَصْرٍ وَما هُوَ لِأَعْدائِکُم اِلاّ کَمَن يَنْتَقِلُ مِن قَصْرٍ اِلَی سِجْنٍ وَ عَذاب

-Həqiqətən Allah-təala bu gün həm sizin, həm də mənim öldürülməyimizə icazə vermişdir. Sizlərə səbri və düşmənlə savaşmağı tövsiyə edirəm.

Ey kəramətli insanların övladları, səbr edin. Ölüm körpüdən başqa bir şey deyildir. Insanlar bu körpüdən çətinliklə də olsa geniş və nemətləri tükənməyən bir cənnətə daxil olurlar. Sizlərdən kim istəməz ki, zindandan cənnətə getsin? Sizin düşmənləriniz də bu körpüdən keçəcək. Lakin onlar cənnətdən zindana gedəcəklər.

اِنَّ اَبِی حَدَّثَنِی عَنْ رَسُول اللهِ(ص) اَنَّ الدُّنْيا سِجْنُ الْمُؤْمِن وَ جَنَّةُ الْکافِر وَالْمَوتُ جِسْرُ هؤلاءِ اِلی جِنَانِهِم وَ جِسْرُ هؤلاء اِلی جَحِيمِهِم مَا کَذبت ولا کذبت

-Atam Allahın Rəsulundan(s) mənə belə hədis buyurdu: Dünya möminin zindanı və kafirin cənnətidir. Ölüm möminləri cənnətə və kafirləri cəhənnəmə aparmaq üçün bir körpüdür.

Digər bir hədisdə İmam Hüseyn(ə) belə buyurur:

لَيْسَ الْمَوتُ فِى سَبِيلِ العِزّ اِلاّ حَياةً خَالِدَة. لا اَرى الْمَوت اِلاّ سَعادَة والحياةَ مَعَ الظّالِمِين الا بَرَمًا

-İzzət yolunda olan ölüm insan üçün əbədi həyatdır.

Mən ölümü səadət və zalımlarla, namərd insanlarla birgə yaşamağı zillətdən başqa bir şey bilmirəm.

İmam Hüseyn(ə) dünyanın mahiyyətini çox gözəl bilirdi. Buna görə də dünyada Allah yolunda bütün çətinliklərə səbr etmiş, hətta ölümünə belə razı olmuşdu. O bilirdi ki, bu dünya bir körpüdür. O bilirdi ki, bu dünyanın bütün şirinlikləri və acılıqları bir yuxudur. O, ölümü səadət və zalımlarla birgə yaşamağın zillət olduğunu dərk etmişdi. Həmçinin onunla Kərbəlada iştirak edən səhabələri və Əhli-beyti də İmamın(ə) məhzərində bütün bunları öyrənmiş və başa düşmüşdülər.

İmam Hüseyn(ə) dualarının birində Allahla belə münacat edirdi:

اِلهى وَ سَيِّدِى وَدَدْتُ اَنْ اُقْتَلَ وَ اُحْيِى سَبْعِينَ اَلْف مَرَّة فِى طاعَتِكَ وَ مَحَبَّتِكَ سِيَّما اِذا كانَ فِى قَتْلِى نُصْرَة دِينِكَ وَ اِحياءُ اَمْرِكَ وَ حِفْظُ نامُوسِ شَرْعِكَ

-Ey mənim rəbbim, ey mənim ağam, Sənin itaətin və məhəbbətin yolunda, xüsusilə, mənim ölümümlə sənin dininə kömək olunacaqsa, Sənin əmrlərinin diri qalması və Sənin Peyğəmbərinin (şəriətin) namusunun hifz olunması uğrunda yetmiş min dəfə ölüb-dirilməyə hazıram.

Necə ki, İmam Hüseyn(ə) bu işə hazır olduğu kimi, onun yar və ənsarı da cani-dildən bu işə hazır idilər.

Nafe ibn Hilal İmamın(ə) məhzərində olan səhabələrdən biri idi. O deyir: Aşura gecəsi gördüm ki, İmam Hüseyn(ə) çadırlardan çıxıb təpələrin birinə tərəf

gedir. İmam(ə) gecənin bu aləmində tək-tənha gəzişdiyinə görə narahat oldum. Özümü İmama(ə) yetirdim və dedim: ağa, olar mən də səninlə gəlim? İmam(ə) məni görüb dayandı. Dedim: ağa, gecənin bu vaxtı tək-tənha gəzməyin məni narahat edir. Sənə qarşı təhlükə yarana biləcəyindən qorxuram. İmam(ə) buyurdu: Narahat olma. Çıxmışam ətrafı gəzim və çala-çuxur yerlərə baxım ki, birdən düşmən buralarda pusqu qurar və ya gizlənər. Ona görə çadırların ətrafında gəzişirəm ki, uşaqlar narahat olmasınlar və gecəni rahat yatsınlar. Nafe deyir: Sonra Həzrət(ə) mənim əlimdən tutdu və iki dağın arasını mənə göstərib buyurdu: Nafe, and olsun Allaha, mənə verilən vədə düzdür. Peyğəmbər(s) mənə şəhid olacağımı vədə vermişdir. Həmin verilən vədə bu gecədir. Peyğəmbərin(s) vədəsində heç bir şəkk-şübhə yoxdur. Sonra Həzrət(ə) mənim əlimdən tutaraq qarşıda görünən iki kiçik dağı mənə göstərib buyurdu: Istərdin ki, gecənin bu aləmində həmin dağların arasından çıxıb gedəsən? Canını qurtarmaq istəyirsənsə, azadsan, gedə bilərsən. Nafe deyir: İmamın(ə) bu sözlərini eşidən kimi özümü Həzrətin(ə) ayaqlarına atıb dedim: Ağa, and olsun Allaha, mən səndən ayrı düşmərəm. Son damla qanıma qədər səninlə qalacağam.

Nafe deyir: Sonra birlikdə çadırlara tərəf qayıtdıq. İmam(ə) çadıra daxil oldu. Mən içəri keçmədim, amma Həzrətin(ə) bacısı Xanım Zeynəblə(s.ə) söhbətini eşitdim. Xanım Zeynəb(s.ə) qardaşına belə sual verdi: Ey Allahın höccəti, səninlə bura gələn səhabələrini imtahan etmisənmi? İmam Hüseyn(ə) onların adından danışaraq bacısı Zeynəbə belə cavab verdi: And olsun Allaha, onları yoxlayıb imtahan etmişəm. Onlar belə insanlardır ki,

mənim yanımda şəhid olmaq meyilləri uşağın anasının südünə olan meylindən daha artıqdır.

Nafe deyir: Mən onların bu sözlərini eşidəndən sonra gözlərim yaşla doldu və ağlamağa başladım. Gedib bu söhbəti Həbib ibn Məzahirə danışdım və dedim: Elə bil Xanım Zeynəb bizim barəmizdə narahatdır. Yaxşı olar ki, sən dostları yığasan, birgə Həzrətin(ə) məhzərinə gedib son dəfə öz sözümüzü və bu yoldan dönməyəcəyimizi bir daha bildirək. Həbib orada olan dostları başına yığıb Bəni-Haşimdən olan cavanlardan xahiş etdilər ki, siz bizimlə gəlməyin. Istəyirik ki, burada Bəni-Haşimdən olmayan insanlar birlikdə İmamın(ə) məhzərinə gedib öz ürək sözümüzü deyib, sədaqətimizi bir daha Həzrətə(ə) bildirək. Onlar yığışıb İmamın(ə) çadırına tərəf yollandılar və Həzrətə(ə) ürəklərində olanları, bir an da olsun belə İmamı(ə) tək qoymayacaqlarını bir daha bildirdilər. Xanımlardan biri çadırdan çıxıb dedi: "Ey pak və şərafətli insanlar, çox sağ olun ki, siz həqiqətən Peyğəmbərin(s) Əhli-beytini(ə) himayət edib qoruyursunuz." Bu sözlərdən sonra hamı ağlayıb öz yerlərinə qayıtdılar.

Bu şərafətli insanlar ölümün mənasını tamamilə dərk etmiş insanlar idilər. Onlar zərrə qədər də olsun ölümdən qorxmurdular. Ölümün mənasını bildikləri üçün ondan qorxmurdular. Insan bilmədiyi şeydən qorxar, bildiklərindən yox. Bu insanlar son damla qanlarına qədər İmamı(ə) və Peyğəmbərin(s) Əhli-beytini (ə) müdafiə etməyə və bu yolda şəhid olmağa hazır idilər. Həzrət İmam Hüseyn(ə) onların hər biri ilə tək-tək söhbət edərkən belə heç kəs Həzrətdən(ə) ayrılmaq fikrində olmadığını bildirirdi.

Həzrət Qasimin Kərbəlada 11-14 yaşı olardı. O, Həzrətin(ə) məhzərinə gəlib əmisindən soruşdu: "Əmican,

mən də şəhid olacağam? Həzrət(ə) ondan soruşdu: Sən ölümü necə dərk edirsən? Həzrət Qasim dedi: Baldan da şirin. Bu sözdən sonra İmam(ə) ona şəhadət xəbərini verdi.”

Hürr ibn Yezid ibn Riyahi etdikləri işlərdən peşman oldu. O, həqiqətən bilmirdi ki, Ömər Səd(l) Peyğəmbərin balasını öldürmək istəyir. Bütün ba hadisələri müşahidə edəndən sonra gecəni çox narahat oldu. Səhərə qədər tərəddüd içində fikrə qərq olmuşdu. Bir nəfər ondan soruşdu: Sən çox ürəkli, güclü və şöhrətli bir adamsan. Səni bu halda görmək çox təəccüblüdür. Sənə bu gün nə olub belə? Hürr dedi:  Allaha and olsun, mən özümü cənnətlə cəhənnəmin arasında hiss edirəm. Seçim qarşısında qalmışam.  Amma bunu bil ki, bədənimi tikə-tikə doğrayıb yandırsalar da belə, cənnətdən başqa heç bir şeyi seçməyəcəyəm.

Ondan sonra Hürr öz qalxanını çevirib tərsinə bağladı. Əllərinin ikisini də göyə qaldırdı. Başını aşağı salıb torpağa baxa-baxa, xəcalət çəkə-çəkə İmamın(ə) çadırlarına tərəf yollandı. Bəzi tarixlərdə yazırlar ki, elə ki uşaqlar onun gəldiyini gördülər, qorxularından tez qaçıb çadıra girdilər.

Hürr İmam Hüseynə(ə) yaxınlaşanda düşüb torpağı öpdü. Bəzi kitablarda yazırlar ki, əyilib Həzrətin(ə) ayaqlarını öpdü. Həzrət(ə) ona baxıb buyurdu: Başını yuxarı qaldır. Hurr dedi: Ağa, mən həmin adamam ki, birinci dəfə yolu sənin üzünə mən bağlamışdım. Bu işin və bütün bu çətinliklərin yaranmasına mən səbəb olmuşam. Indi isə belə bir halda sənin məhzərinə gəlmişəm. Ağa, mən doğrudan da bilmirdim ki, bunlar işi bu yerə gətirib çıxaracaqlar. Indi gəlmişəm səndən üzr istəyim və Allaha tövbə edim. Ey Peyğəmbərin balası(ə), mənim tövbəm qəbul olarmı? Həzrət(ə) buyurdu: Bəli, Allah sənin

tövbəni qəbul edər və səni bağışlayar.Hürr dedi: Ağa, elə isə mənə izn ver dayanmadan gedim döyüş meydanına. İmam(ə) ona icazə verdi. O, Imamdan(ə) izn alandan sonra Züheyrlə birgə meydana daxil oldu. Hürr meydana daxil olanda bin neçə rəcəz[1] oxuduqdan sonra düşmənə üzünü tutub dedi: Heç utanmırsınız ki, Fəratın suyu çöllərə axıb gedir, amma Hüseynin(ə) balaca balaları üç gündür əl-ətəş deyib suzundan yanırlar. Bu sözləri deyib döyüşə başladı. Tarixdə yazırlar ki, qırx nəfərə qədər düşmən ordusundan öldürdü. Sonra atdan düşüb bir neçə nəfəri də piyada cəhənnəmə vasil etdikdən sonra onu yaraladılar. Hürrü çadırlara tərəf gətirdilər.

Həzrət Əli Əkbər İmamın(ə) böyük oğlu idi. O, Kərbəlada Bəni- Haşimin ilk şəhidi olmuşdu. Onun Kərbəlada təqribən 27 yaşı var idi. Kərbəlaya hərəkət edərkən İmam(ə) ona buyurdu: Bizim bu karvan ölümə doğru hərəkət edir. Əli Əkbər atasına dedi: Ata indiki gedirik, haqq bizimlədirmi? İmam(ə) buyurdu: Əlbəttə ki, haqq bizimlədir. Əli Əkbər dedi: Ata, haqq bizimlədirsə, o zaman bizim ölümdən heç bir qorxu-qüssəmiz yoxdur.

Aşura günü meydana getməzdən əvvəl atasından icazə aldıqdan sonra meydana sarı yollandı. İmam Hüseyn(ə) onun ardınca məyus gözlərlə baxdı. Bu baxışlar onu bildirirdi ki, oğlunun sonuncu vidasıdır. Sonra Həzrət(ə) Allahla belə münacat etməyə başladı. İlahi, şahid ol, meydana elə bir cavan göndərirəm ki, xilqət, əxlaq və məntiq cəhətdən hamıdan çox Peyğəmbərə(s) oxşayır. Ürəyimiz Peyğəmbər(s) üçün darıxan zaman bu cavanın camalına baxırdıq. Sonra üzünü düşmən qoşununa tərəf

---

[1] Rəcəz- döyüş meydanında oxunan şerə deyilir. Ərəblərdə adət idi ki, meydana daxil olduqda rəcəz oxuyardılar.

tutub buyurdu: “Ömər Səd, Allah sənin nəslini kəssin ki, belə cavanları öldürürsən.”

Əli Əkbər meydana daxil oldu, bir az müddət keçəndən sonra onu şəhid edib doğradılar.

Beləliklə, Kərbəlada İmam Hüseyn(ə) başda olmaqla onun məhzərində olanlar bütün dünyanın insanlarına dünyanın mənasını və izahını əməli surətdə başa salıb, ölümün mənasını bəyan etdilər. Bu şərafətli insanlar əməlləri ilə bizə başa saldılar ki, dünya ötəri bir kölgədir. Bu insanlar bizə başa saldılar ki, dünya çeynənmiş bir tikəyə bənzəyir. Bu insanlar bizə başa saldılar ki, ölüm bir körpüdür. Bu insanlar bizə öyrətdilər ki, dünyanın həm acılığı, həm şirinliyi bir yuxu, axirət isə xöşbəxt və bədbəxt insanların ayılan yeridir. Həmçinin bizə öyrətdilər ki, axirətdə xoşbəxt olan kəslər dünyada təqvalı olan kəslərdir.

# ON İKİNCİ DƏRS

## VƏFA

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

İmam Hüseynin(ə) aşura günü bütün bəşəriyyətə öyrətdiyi dərslərdən biri vəfadır. Başda İmam Hüseyn(ə) olmaqla vəfalı insanlar Kərbəlada İslama olan vəfalarını göstərdilər. Allah-təala "İsra" surəsinin 34- cü ayəsində buyurur:

وَأَوْفُواْ بِالْعَهْدِ إِنَّ الْعَهْدَ كَانَ مَسْؤُولاً

Və əhd-peymanınıza *(istər Allahın sizlə olan əhd-peymanı olsun, istər sizin Allahla olan əhd-peymanınız, yaxud sizin özünüzün bir-birinizlə olan əhd-peymanınız)* vəfa edin. Həqiqətən *(Qiyamət günü)* peymandan soruşulacaqdır *(peyman sahibindən, soruşacaqlar)*.

Əhd odur ki, insan verdiyi sözə vəfalı olsun. Yəni hər bir insan verdiyi sözə və bağladığı əhd- peymana vəfa etməlidir. Buna görə də əhd-peyman bağlayıb verdiyi sözə əməl edən şəxsə vəfalı insan deyilir. Lakin bir şəxs verdiyi sözə əməl etmirsə və bağladığı əhdini pozursa, ona vəfasız insan deyilir. Bu əhd və vəfa sözünün konkret mənasıdır.

Əhd-peyman iki qismə bölünür. Insanla Allah arasında bağlanılan əhd-peyman və insanların öz aralarında bağlanılan əhd-peyman.

## Allahla əhd-peyman bağlamaq

İnsanın Allahla bağladığı əhd-peyman üç qismə bölünür. Birinci qismi budur ki, insan yaranmamışdan öncə zər (ruh ) aləmində Allahla əhd bağlamışdır. Yəni Allah-təala insanları yaratmazdan öncə onlarla əhd-peyman bağlayıb və söz aldıqdan sonra yaratmışdır. Quranda bu məsələyə dair belə buyurulur:

وَاذْكُرُواْ نِعْمَةَ اللّهِ عَلَيْكُمْ وَمِيثَاقَهُ الَّذِي وَاثَقَكُم بِهِ إِذْ قُلْتُمْ سَمِعْنَا وَأَطَعْنَا وَاتَّقُواْ اللّهَ إِنَّ اللّهَ عَلِيمٌ بِذَاتِ الصُّدُورِ

Allahın sizə olan nemətini və «eşitdik və itaət etdik» dediyiniz zaman sizinlə bağladığı əhd-peymanını xatırlayın. Allahdan qorxun ki, həqiqətən Allah ürəklərdə olanı biləndir.[1]

Başqa bir ayədə belə buyurur:

وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتَ بِرَبِّكُمْ قَالُواْ بَلَى

O zaman sənin Rəbbin Adəm övladlarından – onların bellərindən övladlarını çıxartdı *(tarix boyu tədricən onları bir-birinin belindən dünyaya gətirdi)* və onları *(ağıllarının dərk etməsi və peyğəmbərlərin təbliği vasitəsilə)* özlərinə şahid tutdu ki: «Mən sizin Rəbbiniz deyiləmmi?» onların hamısı: «Bəli, *(Rəbbimiz olmağına)* şəhadət verdik» dedilər.[2]

İnsanlar dünyaya gəlməmişdən öncə Allahla əhd-peyman bağladıqdan sonra dünyaya gəlmişdlər. Lakin bu

---

[1] Maidə,7
[2] Əraf,172

dünyaya gələndən sonra həmin əhd-peyman yaddan çıxır. Həzrət Əli(ə) buyurur: “Allah- təala peyğəmbərləri göndərdi ki, həmin əhd-peymanı insanların yadına salsınlar. Allahın insandan aldığı vədələrdən biri yuxarıda qeyd etdiyimiz ayədədir ki, bütün insanlar Allaha şəhadət verib Onunla əhd bağlamışlar. Həmin vədələrdən biri də “Yasin” surəsinin 60-61- cı ayələrində buyurulur:

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ. وَأَنْ اعْبُدُونِي هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ

-Ey Adəm övladı, məgər Mən sizə buyurmadımmı ki: «Şeytana ibadət etməyin! Şübhəsiz, o, sizin açıq - aşkar düşməninizdir?!»

Və: «Yalnız Mənə ibadət edin ki, bu düz yoldur!»

Bu ayədən də açıq-aydın məlum olur ki, insan Allaha şeytana itaət etməyəcəyini, yalnız Allaha itaət və ibadət edəcəyini vədə verib, Onunla əhd-peyman bağlamışdır. Bu ayənin şərhində qeyd etmişlər ki, Allah-təala insanlara peyğəmbərləri və onların vəsilərinə tabe olmağı və onlara itaət etməyin də vədəsini almışdır.

## Peyğəmbərlə(s) əhd-peyman bağlamaq

İnsanın Allaha verdiyi sözlərdən və Onunla bağladığı əhd-peymanlardan biri də budur ki, insan Peyğəmbərə(s) itaət etməlidir. Quranda “Nəhl” surəsinin 91-ci ayəsində belə buyurulur:

وَأَوْفُواْ بِعَهْدِ اللّهِ إِذَا عَاهَدتُّمْ وَلاَ تَنقُضُواْ الأَيْمَانَ بَعْدَ تَوْكِيدِهَا وَقَدْ جَعَلْتُمُ اللّهَ عَلَيْكُمْ كَفِيلاً إِنَّ اللّهَ يَعْلَمُ مَا تَفْعَلُونَ

-Allahla əhd-peyman bağladığınız zaman öz peymanınıza vəfalı olun və öz andlarınızı onları

möhkəmlətdikdən sonra Allahı özünüzə zamin götürdüyünüz halda pozmayın. Şübhəsiz, Allah etdiklərinizi bilir.

Bu ayənin nazil olunmasında qeyd olunmuşdur ki, İslam Peyğəmbərinin(s) dövründə bir zaman müsəlmanların sayı az idi. Düşmənlərin isə sayı çox idi. Müsəlmanların özlərində qorxu hissi keçirmə ehtimalı var idi. Ola bilərdi ki, müsəlmanlar düşmənlərin çoxluğunu görüb, Peyğəmbərlə(s) bağladıqları əhd-peymanlarını sındırsınlar. Allah-təala bu ayəni Peyğəmbərə(s) nazil etdi. Bu ayənin mənasında qeyd olunur ki, Peyğəmbərlə(s) əhd-peyman bağlamaq Allahla əhd-peyman bağlamaq deməkdir. Hər kim Peyğəmbərə(s) söz verib ona tabe olursa, deməli Allaha söz verib tabe olmuşdur.

Həzrət Peyğəmbərin(s) müsəlmanlarla müxtəlif vədələri olmuşdur. Həzrət(s) müsəlmanlardan vədə almış və müsəlmanlar da ona söz vermişdilər. Qədir-xumda və başqa-başqa yerlərdə Həzrət(s) müsəlmanlardan vədə almışdır. Qeyd etdiyimiz ayələrdə Allah-təala müsəlmanların Peyğəmbərə(s) verdiyi həmin vədələri pozmamağı əmr edir. Hər kəs bu vədələri pozursa, deməli Allahla vədəni pozmuşdur.

Müsəlmanların Peyğəmbərlə(s) bağladığı əhdlərdən biri də Həzrət Əlinin(ə) barəsində olmuşdur. Həzrət Peyğəmbər(s) ömrünün axırlarında belə buyurmuşdu: (Adəm öz ümməti ilə, Isa öz ümməti ilə əhd bağladığı kimi) həqiqətən mən də öz ümmətimlə Əli ibn Əbu Talib(ə) barədə əhd-peyman bağlamışam. Indi də həmin əhdimi sizinlə təzələyib bildirirəm ki, hər kim məndən sonra bu peymanı sındırsa, özünü sındırmış olacaq. Hər kim mənimlə bağladığı bu əhdə vəfa etsə, həmin şəxsin əcri Allah yanında olacaq.

Buna görə də Peyğəmbərlə(s) əhd-peyman bağlayan şəxs həqiqətdə Allahla əhd-peyman bağlamışdır.

## İnsanın özü ilə Allah arasında bağladığı əhd-peyman

İnsan bəzən nəzir etməklə və and içməklə özü ilə Allah arasında əhd- peyman bağlayır. Bəzən insan hansısa işinin düzəlməsi üçün nəzir edir. Həmin işi düzəldikdən sonra verdiyi sözə əməl etməlidir. Və yaxud bir işi bir daha görməyəcəyinə and içir. And içəndən sonra gərək öz andına sadiq qalıb əhdə vəfalı olsun.

## İnsanlarla əhd-peyman bağlamaq

Əhd-peyman bağlamağın ikinci qismi insanların öz aralarında bağladığı əhd-peymandan ibarətdir. Insanlar bir-biriləri ilə söz kəsib, əhd bağlayırlarsa öz əhdlərinə vəfalı olmalıdırlar. İslam Peyğəmbəri(s) peyğəmbərliyə çatmazdan öncə belə camaatla bağladığı əhd-peymanı heç vaxt pozmazdı. Ömrü boyu görmədik ki, Peyğəmbər(s) kiməsə söz versin və həmin verdiyi sözə əməl etməsin. Peyğəmbərin(s) bu əməlinə dair bir çox rəvayətlər nəql olunmuşdur ki, onlardan bir neçəsini əziz möminlərin nəzərinə çatdırıram:

Əmmar Yasir deyir: Həzrət Peyğəmbər(s) peyğəmbərliyə çatmamışdan öncə mən öz qoyunlarımı çox vaxt onunla birgə otarmağa aparırdıq. O, öz qoyunlarını, mən də öz qoyunlarımı otarırdıq. Bir gün qoyunların otlaması üçün yaxşı bir yer tapdıq. Bir-birimizə söz verdik ki, sabah birgə öz qoyunlarımızı ora aparaq. Vədələşib səhər görüşmək üçün bir yer müəyyənləşdirdik. Səhəri gün qoyunları götürüb

Məhəmmədlə vədələşdiyimiz yerə gəldim. Gördüm ki, Məhəmməd məndən əvvəl gəlib məni gözləyir. Özümü ona yetirib soruşdum. Bəs niyə qoyunları tapdığımız yerə aparmamısan? Məhəmməd dedi: Mən səninlə əhd bağlamışdım ki, burada gözləyəcəyəm. Səninlə birgə qoyunları aparıb otaraq. Səndən əvvəl gəlməyimə baxmayaraq, sənə vədə verdiyim üçün xoşuma gəlmədi ki, sənsiz qoyunları həmin yerə aparım. Buna görə də sənin gəlməyini gözlədim.

Həzrət Peyğəmbər(s) kiminlə əhd bağlayıb söz versəydi, tam incəlikləri ilə verdiyi sözə əməl edərək, əhdinə vəfa edərdi. Əbu Heysəm adlı bir şəxs Peyğəmbərin(s) hüzuruna gəlib dedi: Ya Rəsulallah, mənim bir qulluqçuya ehtiyacım var. Həzrət(s) ona söz verib buyurdu: Nə vaxt belə bir imkan düşsə, sənin üçün təşkil edərəm. Müharibələrin birində üç əsir gətirdilər. Həzrət Peyğəmbər(s) onların ikisini möminlərə verdi. Həmin əsirlərdən biri qalmışdı. Xanım Fatimə(s.ə) atasının məhzərinə gəlib dedi: Atacan, ev işlərini çatdıra bilmirəm. Dəyirman daşını fırlamaqdan əllərim qabar olub. Mənə kömək üçün bir nökər verə bilərsənmi? Peyğəmbər(s) ona diqqətlə qulaq asıb buyurdu: “Qızım, indi mümkün deyil. Düzdür ki, sənin işlərin ağırdı və ev işlərində sənə köməkçi lazımdır, amma mən Əbu Heysəmə söz vermişəm. Gərək sözümün üstündə durub bu nökəri ona verim.” Həzrət Peyğəmbər(s) söz verdiyi insanın kimliyindən asılı olmayaraq, həmişə sözünün üstündə dayanar və əhdinə vəfa edərdi.

Quran və hədislərdə əhd-peymana əməl edənlərin tərifi.

Qurani-Kərimdə öz əhdlərinə vafa edənləri tərif edən bir çox ayələr vardır. Həmin ayələrdən birini nəzərinizə

çatdırıram. Allah-təala “Məryəm” surəsinin 54-55-ci ayələrində buyurur:

وَاذْكُرْ فِي الْكِتَابِ إِسْمَاعِيلَ إِنَّهُ كَانَ صَادِقَ الْوَعْدِ وَكَانَ رَسُولًا نَّبِيًّا. وَكَانَ يَأْمُرُ أَهْلَهُ بِالصَّلَاةِ وَالزَّكَاةِ وَكَانَ عِندَ رَبِّهِ مَرْضِيًّا

-Və bu kitabda Ismayılı xatırla. O, vədlərində sadiq və *(Allahın)* elçisi idi.

-O, öz ailəsinə həmişə namaz *(qılmağı)* və zəkatı *(zəkat verməyi)* buyurardı və Rəbbinin yanında bəyənilən (Allahın rizayətini qazanan) bir şəxs idi.

Bu ayə Ismayıl Peyğəmbər(ə) barədədir ki, Allah-təala onu bütün insanlara nümunəvi bir insan kimi misal çəkir. Allah-təala Ismayılı vədəsinə sadiq, yəni əhd-peymanına vəfalı olduğu, namaz qılıb, zəkat verdiyi üçün, həmçinin insanları bu işlərə dəvət etdiyi üçün bəyənmişdir.

Odur ki, Allahın rizayətini qazanmaq çox mühüm məsələdir. Əgər bir insan bu dünyada ömrünün əvvəlindən axırına qədər Allahın rizayətini qazanmaq üçün çalışarsa, ömrü hədər getməz. Allah belə şəxslərin ömrünə bərəkət verər. Əsl həqiqətdə insanın dünyaya gəlməsində məqsəd Allahın rizayətini qazanmaqdan ibarətdir. Hər kim bu rizayəti qazanarsa, axirət xoşbəxtlərindən hesab olunacaq. Həmçinin bu dünyada Allahın razılığını əldə edə bilməyən insan axirətdə heç vaxt xoşbəxt olmayacaq. Buna görə də axirətdə xoşbəxt olmaq üçün insan bu dünyada mütləq Allahın rizayətini özünə cəlb etməlidir. Həzrət Ismayıl(ə) verdiyi sözə və bağladığı əhdə vəfalı olduğundan Allahın rizayətini qazanmış, dünya və axirətin xoşbəxt insanlarından olmuşdur.

Həzrət Əli(ə) buyurur:

اَشْرَفُ الْخَلائِق الوَفا مِن دَلائِل الإِيمان الوَفا بِالعَهدِ

-Xislətlərin ən gözəli vəfadır. Imanın əlamətlərindən biri də əhdə vəfalı olmaqdır.

Quran və hədislərdə əhd-peymanı sındıranların tənqidi.

Öz əhdinə vəfasızlıq edənlər və verdikləri sözə əməl etməyən insanları Allah-təala Quranda tənqid edir. Bu barədə də bir çox ayə və hədislər vardır ki, nümunə üçün birini nəzərinizə çatdırıram. “Rəd” surəsinin 25-ci ayəsində belə buyurur:

وَالَّذِينَ يَنقُضُونَ عَهْدَ اللّهِ مِن بَعْدِ مِيثَاقِهِ وَيَقْطَعُونَ مَآ أَمَرَ اللّهُ بِهِ أَن يُوصَلَ وَيُفْسِدُونَ فِي الأَرْضِ أُوْلَئِكَ لَهُمُ اللَّعْنَةُ وَلَهُمْ سُوءُ الدَّارِ

-Allahın əhd-peymanını möhkəmləndirdikdən sonra pozan, Allahın birləşməsinə əmr etdiyi şeyi qıran və yer üzündə fəsad törədən kəslər üçün lənət və onların pis sonu vardır.

Bu ayədə əhdi pozan insanlara lənət oxunur. Ümumiyyətlə, Quranda çox az yerdə lənət oxunmuşdur. Lakin vədələrini pozan, beyətdən sonra beyətini pozanlar, həmçinin verdikləri sözə əməl etməyənlər bu lənətə tuş gəlməli olacaq və aqibətləri çox pis nəticə ilə sona yetəcək.

İmam Sadiq(ə) bu və bu kimi ayələrin təfsirində belə buyurmuşdur:

اِنَّ العَبْدَ اِذا دَعااللهَ تَعالی بِنِيَّة صَادِقَة وَ قَلب مُخلص اُسْتُجِيب لَه بَعْدَ وَفَائِه بِعَهْدالله (وَأَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ)

-Əgər bir insan pak niyyətlə, xalis qəlblə Allaha dua edərsə, Allah həmin şəxsin dualarını qəbul edər. Bir şərtlə ki, həmin şəxs öz əhdinə vəfa etmiş olsun. Çünki Allah

özü belə buyurmuşdur: “Mənim əhd-peymanıma vəfa edin ki, Mən də sizin əhd-peymanınıza vəfa edim.”[1]

Qeyd olunan ayə və hədislərdən vəfanın mənasını əxz edib öyrəndik. Bütün bunlar əsas bəhsimizə müqəddimə üçün qeyd olundu. İslam tarixində Bəni-Üməyyə o insanlar idilər ki, onlar vədələrini sındırıb, etdiyi beyəti sındırıb, imzaladıqları sözləri ayaqlarının altına saldılar. Bir sözlə desək, hər növ əhdə vəfasızlıq varsa, Bəni-Üməyyə onların hamısını sındırdı. Bəni-Üməyyənin alçaqlığından, vəfasızlığından, şərəfsizliyindən aşura hadisəsi yarandı. Əgər onlar öz əhdlərinə vəfalı olsaydılar, verdikləri sözlərə əməl etsəydilər, təqvalı olmasaydılar belə  bəlkə də bu hadisə baş verməzdi. Onlar heç olmasa öz sözlərini söz bilib, verdikləri sözə əməl etsəydilər, aşura faciəsi yaranmayacaqdı. Müaviyə İmam Həsənlə(ə) peyman bağlayıb müqavilə imzalamışdı. Əgər Müaviyə imzaladığı müqaviləyə əməl etsəydi, İmam Hüseyn(ə) əhli-əyalını, səhabələrini və qadınları Kərbəlaya aparmaq məcburiyyətində qalmazdı. Müaviyə alçaq, şərəfsiz və fasiq bir insan idi. Onun atası da, anası da bu cür idi. Lakin heç olmasa Müaviyə bağladığı əhdinə vəfalı olsaydı,  bu faciə törənməyəcəkdi.

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də buyurur: “Allaha and olsun ki, Müaviyə heç vaxt məndən zirək ola bilməz. (Elə güman etməyin ki, Müaviyə məndən zirəkdir.) O, hiylə, fırıldaq, hqqabazlıqla bütün bu işləri görür. Əgər kələkbazlıq etmək yaxşı iş olsaydı, o zaman mən hamıdan zirək olardım. Lakin Müaviyənin etdiyi hər bir kələkbazlıq, fitnə-fəsaddır. Onun törətdiyi bu fitnə-

[1] Bəqərə,40

fəsadlar insanları küfrə vadar edir. Qiyamət günü Müaviyənin əlinə bir bayraq veriləcək ki, camaat onun fırıldaqçı, hqqabaz və fəsad törədən adam olduğunu həmin bayraqdan tanıyacaqdır.”

İmam Hüseyn(ə) Bəni-Üməyyənin bu çirkin siyasətini ifşa etdi. Onların bütün bu fırıldaqlarını, hoqqabazlıqlarını, fitnə-fəsadlarını açıb camaata bəyan etdi. Müaviyə ömrünün axırlarında İmam Həsənin(ə) şəhadətindən sonra İmam Hüseyni(ə) təşkil etdiyi məclisə dəvət etdi. Həmin məclisdə bütün tanınmış adamlar iştirak edirdi. Müaviyə İmam Həsənlə(ə) müqavilə imzalamışdı. Həmin müqavilənin bəndlərindən biri də bu idi ki, Müaviyə özündən sonra kimisə xilafətə təyin etməməlidir. Istər öz oğlu olmuş olsun, istərsə də başqası. Xilafət məsələsini  də Şuranın öhdəsinə buraxmalıdır. Bütün bunlara baxmayaraq, Müaviyə verdiyi sözlərə və imzaladığı müqaviləyə əməl etmədi. Həmin məclisi təşkil etməkdə məqsədi də İmam Hüseyndən(ə) oğlu Yezid üçün beyət almaq idi. Istəyirdi ki, İmamı(ə) ora çağırmaqla bütün məsələləri birdəfəlik həll etsin. Müaviyə orada da açıq şəkildə İmam Hüseynə(ə) dedi ki, qardaşınla imzaladığım sülhnaməyə etina və əməl olunmayacaq. Sən də mənim oğlum Yezidə beyət etməlisən. Müaviyə orada bir xütbə oxudu və öz fikrini bildirdikdən sonra oğlu Yezidi tərifləməyə başladı. Məclisdə bir çox adamlar, o cümlədən Yezidin özü də əyləşmişdi. Onlar elə bilirdilər ki, İmam Hüseyn(ə) Müaviyənin bu sözlərindən bəlkə sakit qalıb, bir söz deməz. Elə oradaca bu məsələni həll edib ondan söz alsınlar və Müaviyədən sonra Yezidi xilafətə təyin etsinlər. Müaviyə Yezidi tərifləyib sözünü qurtardıqdan sonra İmam Hüseyn(ə) ayağa qalxıb özünə və imamətə layiq bir xütbə oxudu:

Həzrət(ə) bismillah və salam-salavatdan sonra bir neçə cümlə buyurdu. Sonra üzünü Müaviyəyə tərəf tutaraq belə xitab etdi:

-Müaviyə! Yezid barəsində dediyin sözləri başa düşdüm. Onun qabiliyyətindən və siyasətindən danışdın. Bunların hamısı mənə aydın oldu. Müaviyə! Elə bil ki, Yezid barəsində camaata başqa cür danışırsan. Elə bil bizim tanımadığımız adam barəsində söhbət edirsən. Elə bil özü burada olmayan adam barəsində danışırsan. Elə bil onun barəsində xüsusi məlumatı olan insanlar kimi danışırsan. Halbuki Yezid indiyə qədər özünü camaata çox yaxşı tanıtdırıb. Hamı onun siyasi fikrini bilir. Onun ictimai pozğunluqlarını və çirkinliklərini hamı gözəl bilir. Yezid öz əməlləri ilə özünü camaata çox gözəl tanıtdırıb. Ehtiyac yoxdur ki, sən yalandan onu camaata tərifləyəsən. Müaviyə, sən əgər düzgün adamsansa, Yezidi olduğu kimi camaata tanıtdır. Müaviyə, yaxşı olar ki, sən bir az Yezidin itbazlığından və quşbazlığından danışasan. Yezidi quşbazlıq edən zaman, itləri bir-birinin canına salıb əlləşdirən zaman hamı görüb. Müaviyə, bir az da Yezidin əyyaşlığından, gecə-gündüz pozğun qadınlarla zinakarlıq edərək əylənib çal-oynamaqla məşğul olmasından danış! Əgər beynində başqa fikirlər varsa, onları burax getsin. Müaviyə ömrü boyu qazandığın günahlar sənə azlıq edirmi, indi də özündən sonrakıların günahını boynuna götürüb Allah məhzərinə həmin günahlarla getmək istəyirsən? Müaviyə! Səninlə ölüm arasında bir göz qırpımı qədər vaxt qalıb. Bu nə sözlərdir ki danışırsan? Müaviyə! Bir az da axirətdə dərdinə dəyən sözlərdən danış! O sözlərdən danış ki, camaata xeyri olsun! Özün məgər az zülm etmisən ki, indi də oğlun Yezidi özündən sonraya hazırlaşdırmısan? Elə bilirsən Əmr ibn Ası

yanında əyləşdirməklə bir iş görəcəksən? Bir halda ki, onun nə səhabə olduğuna etibar var, nə dininə etibar var, nə də onun bir insanla qohum-əqrəba və ya dost olduğunun etibarı var. Bütün bu işləri onun vasitəsi ilə görmək istəyirsən? Müaviyə! Günahkar, dünyaya aldanmış dəli oğlunu bizə hakim etmək istəyirsən? Sən bu işlərlə insanları şəkk-şübhəyə salırsan. Istəyirsən ki, ləzzəti səndən sonrakılar aparsın və qiyamətdə əzab-əziyyət sənə qalsın?

Həzrətin(ə) bu sözlərindən Müaviyə elə bir vəziyyətə düşdü ki, on dəfə ölsəydi, bundan yaxşı olardı.

İmam Hüseyn(ə) ikinci belə bir xütbəni Mədinədə Vəlid ibn Ütbəyə oxudu. Müaviyə öləndən sonra Yezid Mədinənin valisi Vəlid ibn Ütbəyə məktub göndərdi. Məktubda belə yazılmışdı: Hüseyn ibn Əlidən iki şeydən birini mütləq mənə göndərməlisən. Ya ondan beyət al, ya da ki, onun başını mənə göndər. Vəlid məktubu oxuduqdan sonra İmam Hüseyni(ə) dəvət etdi. Abdulla ibn Zübeyri də dəvət etmişdi. Ibn Zübeyr İmam Hüseyndən(ə) söruşdu: Ey Peyğəmbərin balası, görəsən bizi nəyə görə çağırırlar? İmam Hüseyn(ə) imamət elmi ilə bilirdi ki, onların bu dəvətləri hansı məqsədə görədir. Lakin Ibn Zübeyrə gördüyü yuxusunu danışdı. Buyurdu ki, yuxuda Müaviyənin taxtının çevrildiyini və od tutub yandığını gördüm. Buna görə də bildim ki, Müaviyə ölüb. Vəlidin bizi çağırması isə Yezidə beyət almaq üçündür. Abdulla ibn Zübeyr soruşdu: Əgər səni ora çağırıb səndən beyət istəsələr, nə edəcəksən? İmam Hüseyn(ə) buyurdu: “Mən nə edəcəyimi çox gözəl bilirəm. Mən heç vaxt Yezidə beyət etməyəcəyəm. Müaviyə öz həyatında nə bilirdisə etdi. Mənim qardaşıma and içib, söz verib və müqavilə imzalayıb, dünyadan gedib. Söz verib ki, özündən sonra

nə oğlunu, nə də başqasını xilafətə təyin etməyəcək. Əgər mən diri qalsam, bütün bunların ixtiyarını mənim öhdəmə qoymalı idilər. Müaviyə öldü, lakin nə qardaşım İmam Həsənə(ə) verdiyi vədə, nə də mənə verdiyi sözə əməl etdi.

Beləliklə, əgər Müaviyə verdiyi sözlərə əməl etsəydi və imzaladığı müqaviləyə sadiq qalsaydı, bəlkə də iş bu yerə gəlib çatmayacaqdı. İmam Hüseyn(ə) həm Bəni-Üməyyənin verdikləri sözə əməl etməməsi üçün, həm də kufəlilərin vəfasızlıq etdiklərinə görə onlarla belə sərt danışıb, etirazını bildirdi.

İmam Hüseyn(ə) Kərbəlaya çatarkən sonuncu mənzillərin birinə yetişdilər. Hürr öz dəstəsi ilə İmamın(ə) karvanını təqib edirdi. Namaz qıldıqdan sonra Həzrət(ə) üzünü camaata tutub buyurdu:

اَيُّها النَّاس! اِنَّ رَسُولَ اللهِ(ص) قالَ: مَن رَأى سُلْطاناً جائِراً مُسْتَحِلّاً لِحَرامِ اللهِ ، ناكِثًا عَهْدَه مُخالِفاً لِسُنَّةِ رَسُولِ اللهِ وَ يَعْمَل فِي عِبادِاللهِ بِالإِثْمِ وَ الْعُدْوانِ ، فَلَمْ يُغَيِّرْ عَلَيْهِ بِفِعْلٍ وَ لا قَولٍ كانَ حَقًّا عَلى اللهِ اَنْ يُدْخِلَهُ مُدْخَلَه .

«Ey insanlar! Həqiqətən Allahın Rəsulu belə buyurmuşdu: Hər kəs Allahın halalını haram edən, Allahın əhdini sındıran və Peyğəmbərin sünnəsinin əksinə əməl edir, insanlarla günah etməklə gününü keçirir, Allahın qoyduğu hüdudlara təcavüz edən bir hakimi gördükdə əməli, yaxud sözü ilə ona qarşı çıxmasa, Allah o şəxsi də həmin hakimlə birgə cəhənnəmə atar.”

İmam Hüseyn(ə) Peyğəmbərdən(s) bu hədisi nəql edəndən sonra buyurdu:

الا وَ اِنَّ هولاءِ الْقَوم قَد لَزِمُوا طاعَتَ الشَّيْطان وَتَرَكُوا طاعَةَ الرَّحْمان وَ اَظْهَرُوا الْفَساد وَعَطَّلُوا الْحُدُود وَ اسْتَأْثَرُوا فِیء الله اَحَلُّوا حَرامَ الله و حَرَّمُوا حَلالَه

-Bu tayfa şeytana itaət edib, Allahın itaətindən çıxmışdır. Yer üzündə fəsadı yaydılar. Allahın hüdudlarını sındırdılar. Allahın haramını halal, halalını haram edərək, Allahın beytülmalını istədikləri yerə xərcləyiblər.

وَ اَنَا اَحَقُّ مِمَّنْ غَيْرِ

-Onların bu əməllərinə qarşı məndən yaxşı kim etiraz etdi?

وَقَدِمَتْ عَلَىَّ رُسُلُكُم بِبِيْعَتِكُمْ اِنَّكُم لا تُسَلِّمُونِ وَ لا تَخْذِلُون

-Siz tərəfdən mənim yanıma elçi gəldi və mənə beyət etməyinizi bildirdi.

فَإِ اَتْمَمْتُم عَلَىَّ بِيْعَتِكُمْ تَصِيبُوا رُشْدَكُم

-Əgər siz mənə verdyiniz sözün üstündə dayanıb, əhdinizə sadiq qalsanız, səadətə yetişəcəksiniz.

وَاِنْ لَمْ تَفْعَلُوا وَ نَقَضْتُمْ عَهْدَكُم مَا هِى بِنُكْرٍ لَقَد فَعَلْتُمُوها بِأَبِى وَ اَخِى وَ ابْنَ عَمِّى مُسْلِم

-Əgər öz dediklərinizin üstündə dayanmırsınızsa və mənimlə etdiyiniz beyəti sındıracaqsınızsa və əhdinizə vəfa etməyəcəksinizsə, bunu sizdən gözləmək olar. Siz vəfasızlığa adət etmisiniz. Necə ki, atam Əli, qardaşım Həsən və əmim oğlu Müslimlə belə etdiniz.

İmam Hüseyn(ə) həm Bəni-Üməyyənin, həm Müaviyənin, həm Müaviyənin tabeliyində olanların, həm də kufəlilərin və onların vəfasızlığı barədə bu söhbətləri

etmişdir. Həzrət(ə) aşura günü düşmən qoşunu ilə üzbəüz dayanıb belə buyurdu:

...اَلا لَعْنَةُاللهِ عَلى النَّاكِثِين اَلَّذِينَ يَنْقُضُونَ الاَيْمانَ بَعْد تَوكِيدِها وَ قَد جَعَلْتُم اللهَ عَلَيْكُم وَكِيلا فَأَنْتُمْ وَاللهِ هُمْ

-Allah öz vədələrini pozanlara lənət eləsin. Onlar vədə verdikdən sonra öz vədələrini sındırdılar. And olsun Allaha ki, onlar sizsiniz.

اَلا اِنَّ الدَعِيَّ بْنَ الدَّعِيّ قَدْ رَكَزَ بَيْنَ اثْنين بَيْنَ السِّلَّةِ وَ الذِّلَة هيهاتَ مِنَّا الذِّلَّة

-Bilin ki, alçaq kişinin oğlu alçaq məni qılıncla zillət arasında qoyub. Mən ya gərək zilləti qəbul edim, ya da qılınclar məni doğramalıdır. Heyhat, zillət bizdən uzaqdır. Mən heç vaxt onlara zillət əli uzatmayacağam.

İmam Hüseyn(ə) öz xütbələri və çıxışları ilə bütün aləmə elan etdi ki, Müaviyə və onun kimi insanlar öz əhdlərini pozanlardır. Əgər başda Müaviyə olmaqla onun tərəfdarları öz əhdlərinə vəfalı olsaydılar, bəlkə də Kərbəla hadisəsi belə nəticə ilə sona çatmayacaqdı.

## Aşura vəfadarları

Ötən bəhslərdə əhdə vəfa etmək barədə Quran ayələri və hədislərini əziz möminlərin nəzərinə çatdırdım. Quranda öz əhdinə sadiq olan insanların tərifi və vəfasızlıq edənlərin tənqidi barədə söhbət olundu. Həmçinin qeyd olundu ki, Bəni-Üməyyə tarix boyu öz əhd- peymanlarını sındırıb, verdikləri sözlərin əksinə əmələ edərək, imzaladığı müqavilələri pozmuşlar. Onlar ömrü boyu namərdlik, alçaqlıqla yaşamışlar.

Aşura günü Kərbəlada iki ordu üz-üzə dayanmışdı. Bir ordunun başında İmam Hüseyn(ə), digər orduya isə Ömər Səd başçılıq edirdi. Ömər Sədə göstəriş verən Kufənin valisi Übeydulla İbn Ziyad idi. Ümumilikdə düşmən ordusunun başında Müaviyənin nanəcib, alçaq və şərəfsiz oğlu Yezid dayanmışdı. Yezid Ömər Səd və İbn Ziyada məktublar göndərməklə bütün bu işlərin olmasını əmr verirdi. Məlumdur ki, bu şərəfsiz insanlar da onun əmrini can-başla yerinə yetirməyə hazır idilər. Çünki bunlar özləri də məsələnin sonunun Peyğəmbər balasının(ə) qanının tökülməklə nəticələnməsini istəyirdilər. Bu alçaq insanlar öz istədikləri kimi də etdilər.

Ömər Səd İmam Hüseynlə(ə) görüşəndən sonra İbn Ziyada məktub yazmışdı. İbn Ziyad həmin məktubun cavabında çox kəskin bir məktub yazdı. Yazdığı məktub belə idi: "Ömər Səd, əgər sənin bu qoşuna rəhbərlik etməyə ləyaqətin yoxdursa, o zaman mən bu işləri Şimrə həvalə edim." Həm İbn Ziyad, həm Ömər Səd, həm də Şimr İmamın(ə) qanını tökmək istəyirdilər. Həmçinin onlar Yezidə də can-başla itaət edirdilər.

Əsas söhbətimiz budur ki, bu iki qoşunun biri peymanşekən, vəfasız, şərəfsiz, verdikləri sözü geri götürən insanlar idi. Onlar hər söz danışırdısa, həmin saat üçün danışırdılar. Üstündən bir az keçməmiş öz sözlərinin əksinə çalışıb vəfasızlığa əl atırdılar. Bu insanların heç bir hərəkət və əməli İslamın qanunları ilə düz gəlmirdi. Digər qoşun isə İmam Hüseynin(ə) rəhbərlik etdiyi və əhdlərinə vəfalı, sözlərində sadiq insanlar idi. Bu insanlar sözlərində, əməllərində, imzalarında və bütün hərəkətlərində nümunəvi insanlar idi. Zərrə qədər də olsun öz əhdlərinə vəfasızlıq etmədilər. Verdikləri sözlərdə möhkəm, sədaqətli olan insanlar idi. Bu şərafətli insanlara külli miqdarda qızıl,

gümüş təklif olunmasına baxmayaraq, heç vaxt vəfasızlıq etmədilər. Ötən bəhsdə Bəni- Üməyyənin vəfasızlığından, imzaladığı müqaviləni pozmaqlarından, bir sözlə, şərəfsizliyindən söhbət olundu. Bu bəhsdə isə vəfalı, kəramətli insanlar barədə söhbət açıb nümunə üçün bir neçəsinin adını qeyd edirəm.

Həmin vəfalı, sədaqətli şəxslərdən biri bu qoşunun rəhbəri, şəxsən İmam Hüseyndir(ə). Həzrət İmam Hüseyn(ə) verdiyi bütün sözlərə sadiq qalıb, əhdinə vəfa edərək yazdığı müqaviləni öz qanı ilə imzaladı. Həzrət(ə) Mədinədən Məkkəyə, Məkkədən Kufəyə doğru hərəkət etdi. Lakin Hürr ilə görüşdükdən sonra tale elə gətirdi ki, İmamın(ə) karvanı Kərbəlaya getmək məcburiyyətində qaldı. Bütün yol boyu Həzrətin(ə) müxtəlif insanlarla görüşləri və söhbətləri olmuşdur. Həzrət(ə) Kufə nümayəndələri ilə oradakı vəziyyət barədə maraqlanırdı və göndərdiyi şəxslərin orada şəhid olduqlarından xəbər tutdu. Kufədən 12 min nəfər məktub imzalayıb İmam Hüseynə(ə) göndərmişdi. Onlar İmam Hüseyni(ə) Kufəyə dəvət edib, Həzrəti(ə) müdafiə etmək üçün məktub göndərmişdilər. Bütün bunlara baxmayaraq, Həzrət(ə) yolda xəbərdar oldu ki, Kufədə vəziyyət tamamilə dəyişib. Yolda mənzillərin birində Həzrət(ə) Kufədən gələn beş nəfərlə görüşüb söhbət etdi. Onlardan biri Əmr ibn Xalid, biri Səd, biri Məcmə, biri Nafe, biri isə Tərmah ibn Ədi idi. Onlar Uzeybül-Həcanat adlı bir məntəqədə Həzrəti(ə) ziyarət etdilər. Bir az söhbət etdikdən sonra dedilər: Ey Peyğəmbər balası(ə), Tərmah sənin üçün yolda çox gözəl şeirlər oxuyurdu. Tərmahdan istədilər ki, həmin şeirləri İmam(ə) üçün bir də oxusun. Tərmah şeirləri oxuyandan sonra Həzrət(ə) buyurdu:

اَما وَاللهِ اِنِّى لاَرْجُو اَنْ يَكُونَ خَيْراً مَا اَرادَاللهُ بِنا قُتِلْنا اَم ظَفَرْنا

-Öldürülsək də, zəfər çalsaq da belə, Allahdan istəyirəm ki, bizim barəmizdə xeyir iradə etsin.

Bu sözlərdən sonra İmam Hüseyn(ə) onlardan Kufənin vəziyyətini soruşdu. Onlar dedilər: Ağa, Kufənin vəziyyəti dəyişib. Kufənin vəzifəli şəxsləri İbn Ziyaddan külli miqdarda rüşvət alıblar və onun üçün işləyirlər. Buna görə də oranın vəziyyətini tamamilə dəyişdiriblər. Avam camaata gəldikdə isə onların ürəyi sizinlə olmasına baxmayaraq, qılıncları sizin əleyhinizə itilənir. Sonra Qeys ibn Müsəhhərin öldürüldüyünü Həzrətə(ə) xəbər verdilər. İmam Hüseyn(ə) bu xəbəri eşitdikdə bərk narahat oldu və gözləri yaşardı. Sonra işarə edərək Quranın bu ayəsini oxudu:

فَمِنْهُم مَّن قَضَى نَحْبَهُ وَمِنْهُم مَّن يَنتَظِرُ

-Onlardan bəzisi öz nəzrlərinə (əhdlərinə) əməl etdilər *(şəhid oldular)*, bəzisi isə *(vədəsinə əməl edərək şəhid olmağı)* gözləməkdədirlər.[1]

Həzrət(ə) bu ayəni oxuduqdan sonra Qeys barədə belə dua etdi:

اَللهُمَّ اجْعَل لَنا وَ لَهُم الجَنَّة

-İlahi, bizi onlarla birgə cənnətdə qərar ver.

Tərmah İmam Hüseynə(ə) öz fikrini bildirərək dedi: Ağa, mən Kufədən çıxarkən böyük bir dəstə ilə rastlaşdım ki, özləri üçün silah-sursat alırdılar. Vəziyyəti belə görüb bir neçə nəfərdən soruşdum ki, nəyə görə bunlar belə silahlanır? Mənə dedilər ki, bunlar Hüseyn ibn Əlini(ə) öldürmək üçün tədarük görürlər. Tərmah bu sözləri

[1] Əhzab,23

deyəndən sonra İmama(ə) belə təklif etdi: Ey Peyğəmbər balası(ə), mən istəyirəm ki, siz bu səfərdən imtina edəsiniz. Çünki ora getsəniz, sizi öldürəcəklər. Yaxşı olar ki, təhlükəsiz yerlərə səfər edəsiniz. Belə etsəniz, mən az bir müddət ərzində sizi müdafiə etmək üçün iyirmi min nəfər silahlı insan toplayaram. Belə getsə Kufə camaatı sizin əleyhinizə qılınc çəkib sizi öldürəcəklər. Əgər məsləhətdirsə, bizim təklifi qəbul edin. Onlar utana- utana və hörmətlə Həzrətə(ə) öz fikirlərini açıqladılar. İmam Hüseyn(ə) onların bütün sözlərinə diqqətlə qulaq asıb, bir neçə cümlədən sonra belə buyurdu:

-Həqiqətən biz bu qövm (Kufə camaatı)  ilə əhd-peyman bağlamışıq. Onlar məndən söz alıblar, mən də onlara söz vermişəm. Onlar mənə məktub yazıblar, mən də onlara cavab yazıb vədə vermişəm. Mən heç vaxt verdiyim sözü danmıram. Mən axıra qədər bu işi sona çatdıracağam. Əgər onlar bu əhd-peymanı pozarlarsa, mən heç vaxt bağladığım əhdi sındırmayacağam.

İmamın(ə) bu sözləri təkcə onlar üçün deyildi. Bu sözlər ümumbəşəri sözlərdir ki, hər bir ləyaqətli insan bu mübarək kəlamlardan öz həyatını tənzimləyə bilər.

## Tasua günü İmam Hüseynin(ə) xütbəsi

Tasua günü əsr vaxtı düşmən qoşunu hərəkətə başlamaq istəyirdi. İmam Hüseyn(ə) Həzrət Əbülfəzli onların məqsədlərinin nə olduğunu öyrənmək üçün danışığa göndərdi. Həzrət Əbülfəzl gedib onlarla danışdıqdan sonra qayıdıb İmama(ə) dedi: “Onlara İbn Ziyaddan məktub gəlib. Ya Hüseyndən beyət alınmalıdır, ya da  müharibəyə başlayacaqlar.”  İmam Hüseyn(ə) Həzrət Əbülfəzlə buyurdu: “Mən heç vaxt Yezidə beyət

etməyəcəyəm. Amma öldürmək istəyirlərsə, get sabaha qədər onlardan möhlət al. Çox istəyirəm ki, bu gecəni səhərə qədər Allaha ibadət edib namaz qılaq.” Həzrət Əbülfəzl gedib onlarla danışdı və sabaha qədər möhlət aldı. İmam Hüseyn(ə) həmin gün məğrib namazını qılandan sonra üzünü səhabələrinə tutub belə bir xütbəni bəyan etdi:

أُنْثِى عَلَى اللهِ أَحْسَنَ الثَّناء أَحْمَدُهُ عَلى السَّرّاءِ وَالضَّرّاءِ اَللّهُمَّ اَنِّى أَحْمَدُكَ عَلى أَنْ اَكْرَمْتَنا بِالنُّبُوَّة وَ جَعَلْتَ لَنا اَسْماعاً و اَبْصارًا وَ اَفْئِدَةً وَ عَلَّمْتَنَاالقُران و فَقَّهْتَنا فِى الدِّين فَاجْعَلْنا لَكَ مِنَ الشّاكِرِين

-Ən gözəl surətdə Allaha şükür edirəm. Həm əhvalımın yaxşı anlarında, həm də çətin anlarımda Ona həmd edirəm. İlahi, həmd və şükürlər olsun Sənə ki, bizi Peyğəmbərinin(s) vasitəsilə kəramətli etmisən. Və bizə eşidən qulaq, görən göz və duyan qəlb nəsib etmisən. Quranı öyrədib, dini təlimlərini bizə öyrətdin. Və bizi Sənə şükür edənlərdən qərar vermisən.

اَمّا بَعْد. فَإِنِّى لا اَعْلَم اَصْحاباً اَوفى وَ لا خَيْراً مِنْ اَصْحابِى وَ لا اَهْلِ بَيْتٍ اَبَرُّ وَ لا اَوْصَل مِنْ اَهْلِ بَيْتِى فَجَزاكُم الله جَمِيعًا عَنِّى خَيْرًا

-Həqiqətən mən öz əshabımdan vəfalı və yaxşı səhabə görmədim. Və öz əhli-beytimdən gözəl sileyi-ərham edən və yaxşı işlərlə məşğul olan əhli-beyt görməmişəm. Allah sizin hamınıza xeyir, əcr versin.

وَ قَدْ اَخْبَرَنِى جَدِّى رَسُولُ الله صَلّ الله عَلَيْهِ وَ آلِهِ بَأَنِّى سَأُساقُ اِلَى العِراق فَأَنْزِلُ أَرْضًا يُقالُ لَها كَرْبَلا وَ فِيها اَسْتَشْهِدُ وَ قَدْ قَرِبَ الْمُوعُد

-Cəddim Peyğəmbər Allahın salam və salavatı olsun ona və əhli-beytinə mənə xəbər vermişdi. Tezliklə mən Iraq şəhərinə səfər edəcəyəm. Kərbəla adlı bir yeri özümə

məskən qərar verəcəyəm. Elə oradaca şəhid olacağam. Peyğəmbərin mənə vəd etdiyi həmin sözlər artıq yaxınlaşmışdır.

اَلا وَ إِنِّ لَأُظَنُّ يَوْمَنا مِن هؤلاءِ الأَعْداءِ غَداً وَإِنِّ قَدْ اَذِنْتُ لَكُمْ جَمِياً فَانْطَلِقُوا فِي حِلٍّ لَيْسَ عَلَيْكُم مِنِّي ذِمامُ

-Elə bil gördüyüm bu düşmənlər sabah məni qətlə yetirəcəklər. Mən sizin hamınıza icazə verirəm. Mənimlə etdiyiniz beyəti üstünüzdən götürdüm. Daha sizin mənimlə heç bir beyətiniz qalmadı.

هَذا اللَّيْلُ قَدْ غَشِيَتُم فَاتَّخِذُوهُ جَمَلاً وَلِيَأخُذ كُلُّ رَجُلٍ مِنْكُم بِيَدِ رَجُولٍ مِنْ اَهْلِ بَيْتِي فَجَزاكُمُ اللهِ جَمْياً ثُمَّ تَفَرَّقُوا فِي الْبِلادِ فِي سَوادِكُم وَ مَدائِنِكُم

-Artıq gecənin qaranlığı düşmüşdür. Hara istəsəniz uzaqlaşıb gedə bilərsiniz. Hər kim getmək istəyir, mənim əhli-beytimin hər birinin əlindən tutub buradan gedə bilər. Allah sizin hamınıza xeyir versin. Dağılışıb öz kəndlərinizə, şəhərlərinizə gedə bilərsiniz.

فَإِنَّ الْقَوْمَ يَطْلُبُونَنِي وَلَوْ اَصابُونِي لَذَهَلُو عَنْ طَلَبِ غيْرِي

-Bizi öldürmək üçün bura toplaşan tayfanın mənimlə işləri vardır. Onların sizinlə heç bir işləri yoxdur, onlar məni öldürmək istəyirlər. Əgər sabah məni tutsalar öldürəcəklər. Siz indidən gedə bilərsiniz.

Həzrət bu sözləri deyəndən sonra üzünü Müslümün balalarına tutaraq buyurdu:

حَسْبُكُم مِنْ الْقَتْلِ بِمُسْلِمٍ اِذْهَبُوا قَدْ اَذِنْتُ لَكُم

-Sizin ailədən Müslümün şəhadəti sizə bəs edər. Siz də gedə bilərsiniz. Mən sizə də icazə verirəm.

Həzrət İmam Hüseyn(ə) orada iştirak edənlərin hamısına açıq- aydın sözlərlə höccəti tamamladı.

Onlar Həzrətin(ə) bu sözlərinə qulaq asandan sonra hamısı yekdilliklə dedilər. Ey Allahın höccəti, ey Peyğəmbərin balası(ə), biz heç vaxt səndən əl çəkməyəcəyik. Biz səni tək qoyub hara gedək? Səndən sonra necə diri qala bilərik? Allah bizə o günü göstərməsin. Səndən sonra ar olsun sağ qalıb yaşayan insanlara. Səndən sonra həyat sürən insanlara ayıb olsun.

Həzrətin(ə) bütün səhabələri öz vəfalarında bu qədər sadiq idilər. Onlar bir an da olsun belə İmam Hüseyndən(ə) ayrı düşmədilər.

Xanım Zeynəb(s.ə) qəhrəman, alim, şücaətli, Quranın müfəssiri və xətib bir qadın idi. Kufədə xütbə oxuyarkən camaat elə bilirdi ki, Həzrət Əli(ə) şəhid olmayıb. O xanımın çıxışları, xütbələri, məntiq və bəlağəti atası Əli(ə) kimi idi. Çünki o, bütün bunların hamısını atası Əlidən(ə) və anası Fatimədən(s.ə) əxz etmişdi. O, elə bir xanım idi ki, Yezidin taxtını nitqi ilə alt-üst etdi. Yezidin alçaq, şərəfsiz insan olduğunu tarixə yazdı. Kərbəlada aşura gecəsi təəccüblü bir hal baş verdi. İmam Hüseyn(ə) baxıb gördü ki, Xanım Zeynəb(s.ə) gülümsəyir. İmam(ə) onun gülümsəməsinə təəccüb etdi. Çünki Mədinədən çıxan gündən Kərbəlada aşura gecəsinə qədər heç kəs o xanımın gülümsəməyini belə görməmişdi. Buna görə də İmam Hüseyn(ə) ondan təbəssümünün səbəbini soruşdu. Xanım Zeynəb(s.ə) dedi: Sənin səhabələrinin vəfadarlığı və sadiqliyinə gülümsəyirəm. İmam Hüseyn(ə) buyurdu: “Bacı, bil ki, mənim bu səhabələrin zər aləmində mənə beyət edib, əhd-peyman bağlamışlar. Cəddim Rəsulullah Kərbəlada mənim şəhid olmağımı vədə verdikdə, bunların da vədəsini vermişdir. Istəyirsən bunların sabitqədəm, vəfalı olduqlarını imtahana çəkim?”

Sonra İmam Hüseyn(ə) Həbiblə Züheyri səslədi. Onlar dərhal İmamın(ə) məhzərinə gəldilər. Həzrət(ə) onlara buyurdu: “Mən beyətimi sizdən götürürəm. Hara istəsəniz, gedə bilərsiniz. Sabah məni öldürəcəklər, siz çıxın gedin.” Onlar ölənə qədər Imamdan(ə) ayrılmayacaqlarını bir daha bildirdilər. Hər biri öz sözünü Həzrətə(ə) bildirdi, sədaqətli və vəfalı olduqlarını sübut etdilər.

İmam Hüseyn(ə) üzünü səhabələrə tutub buyurdu:

يَا اَصْحابِى اِعْلَمُوا اَنَّ هؤلاءِ الْقَوم لَيْسَ لَمْ قَصْد سِوى قَتْلِى و قِتْلِ مَنْ مَعِى...

فَاَنْكُم فِى حِلٍّ مِنْ بِيْعَتِى وَ مَنْ اَحَبَّ مِنْكُم الاِ نْصِرافَ فَلْيَنْصَرِف فِى سِوادِ هذا للَّيل

-Ey mənim səhabələrim. Bilin ki, bu tayfa yalnız məni öldürmək istəyir. Kim mənimlə qalsa, onu da öldürəcəklər. Mən sizdən beyətimi geri götürürəm. Siz azadsınız və hara istəsəniz gedə bilərsiniz. Hər kim getmək istəyirsə, gecənin qaranlığında çıxıb getsin.

Səhabələrin heç biri yerindən tərpənmədi və hərə öz fikrini İmama(ə) bildirərək dedilər ki, biz heç vaxt səndən ayrı düşməyəcəyik. Ağlayaraq dedilər: Ey Allahın höccəti, biz səni burada qoyub heç yerə getməyəcəyik. Həzrət(ə) gördü ki, bunların heç biri getmək fikrində deyil. Onlara buyurdu:

اِنْ كُنْتُم كَذلِك فَارْفَعُوا رُؤُسَكُم وَانْظُرُوا اِلى مَنازِلِكُم فِى الْجَنَّة

-İndi ki belə oldu, onda başlarınızı yuxarı qaldırın və cənnətdəki mənzillərinizə baxın.

Tarixdə yazırlar ki, hamı başlarını yuxarı qaldırıb cənnətdəki öz məqamlarını gördülər. Yalnız Həzrət Əbülfəzl baxmadı. O, gözlərini İmam Hüseyndən(ə)

çəkmirdi. İmam Hüseyn(ə) ona buyurdu: “Qardaş, bəs sən cənnətdəki məqamını görmək istəmirsənmi?” Həzrət Əbülfəzl dedi: Ağa, mənim cənnətim sənsən.

## Səhabələrin sözləri

Aşura gecəsi İmam Hüseyn(ə) səhabələri ilə söhbət etdikdən sonra bu şərafətli insanların hamısının sözü bir oldu. Onlar Həzrətə(ə) dedilər: Biz heç vaxt vəfasızlıq edib səndən ayrılmayacağıq.

فَاِذا نَحْنُ قُتِلْنا كُنّا وَفَيْنا وَ قَضَيْنا مَا عَلَيْنا

-Öz vəfamızı ölməyimizlə təsdiqləyəcəyik.

Züheyr ibn Qeyn dedi: Allaha and olsun, əgər məni öldürüb yenidən diriltsələr və yenidən öldürsələr, həmçinin min dəfə məni öldürüb diriltsələr belə, bunun vasitəsilə Allah səndən ölümü dəf edəcəksə, bu, mənim üçün böyük şərafətdir.

Tasua günü əsr vaxtı İmam(ə) xütbə oxuduqdan sonra Müslüm ibn Ovsəcə ayağa qalxıb dedi: “Biz səni tək qoyub ayrılaq? Bəs Allah yanında sənin hansı haqqını yerinə yetirmədiyimizə görə nə cavab verərik? Allaha and olsun ki, bu, mümkün deyil. Əgər məni öldürsələr və yenidən diriltsələr və məni yandırıb külümü göyə sovursalar, həmçinin yetmiş dəfə bu işi görsələr belə, səndən ayırı düşmərəm. Məni öldürsələr də, səndən əl çəkmərəm. Bir halda ki, bir dəfə öldürüləcəyəm və sonu səadətlə nəticələnəcək ölümlə.”

Hətta döyüş meydanına gedərkən İmam Hüseyn(ə) onlara başlarını götürüb getməyi tövsiyə edirdi. Lakin heç kəs Həzrəti(ə) tək qoymaq istəmirdi. Onlar bütün dünyaya vəfanın mənasını öyrətdilər. Başa saldılar ki, əgər bir insan vəd verirsə, öz vədinə necə əməl etməlidir. Aşura

günü döyüş zamanı günorta Sümamə İmam Hüseynə(ə) dedi: “Ağa, namazın vaxtıdır.” İmam Hüseyn(ə) buyurdu: “Namazı yad etdin. Allah səni həqiqi namaz qılanlardan qərar versin. Gedin onlarla danışın, biz namaz qılıb qurtarana qədər əl saxlasınlar.” Gedib onlarla danışdılar, lakin onlar döyüşü saxlamayıb təhqirə keçdilər. Səhabələrdən bir neçə nəfər gəlib dedilər: biz qabağınızda dayanaq, siz də namazınızı qılın. İmam Hüseyn(ə) bir neçə nəfərlə camaat namazı qılmağa başladılar. Səhabələrdən bir neçəsi özlərini atılan ox və nizələr qarşısında sipər etdilər ki, İmam Hüseyn(ə) namazını qılsın. Onlardan biri Əmr ibn Qərəzə idi. Onun bədəninə o qədər ox dəydi ki, taqətdən düşüb yerə sərildi. Axır nəfəslərində üzünü İmam Hüseynə(ə) tutub dedi: “Ey Allahın höccəti, əhdimə vəfa etdimmi?” İmam(ə) buyurdu: “Bəli, sən cənnətdə mənim qarşımda gedəcəksən.” Onlardan birinin adı Səid idi. O da yaralanıb yerə yıxıldı. Üzünü İmama(ə) tutub həmin sözü soruşdu: Ey Peyğəmbər balası(ə) əhdimə vəfa etdimmi? İmam(ə) buyurdu: Bəli, sən də cənnətdə mənim qarşımda gedəcəksən. Allahın Rəsuluna məndən salam söylə və de ki, mən də sizdən sonra onun görüşünə gələcəyəm.”

Con zənci idi. O, Abuzər Ğəffarinin qulamı idi. Sonradan İmam Həsənin(ə), o, şəhid olandan sonra isə İmam Hüseynin(ə) məhzərində qulluqçu dayanmışdı. Kərbəlada döyüşün şiddətli vaxtında İmamın(ə) məhzərinə gəlib dedi: “Ağa, izn ver mən də döyüşə gedim.” İmam(ə) ona baxıb buyurdu: “Mən sənə icazə verirəm çıxıb gedəsən. Səni azad edirəm. Ürəyin hara istəyirsə, gedə bilərsən. Çünki sən bizə qulluq etməklə salamat yaşamaq üçün gəlmişdin. Gəlməmişdin ki, mən bəlaya düçar olanda sən də bəlaya giriftar olasan. Indi ki mən belə bir müsibətlə qarşılaşmışam, sənin günahın nədir? Çıx get,

ömrünü salamat başa vur.” Con dedi: “Ey Peyğəmbər balası(ə), sənin rahat yaşadığın vaxtlarda mən sənin süfrənin artığını yeyirdim. Sənin süfrəndən çörək yemişəm, necə ola bilər ki, indi səni tək qoyub çıxım gedim? Ağa, mənim rəngim qaradır, bədənimdən də pis iy gəlir və həsəb-nəsəbim də bəlli deyil. Lütf elə mənə icazə ver ki, mənim qara qanım sizin qanınıza qarışsın. Cənnətə getməyi məndən əsirgəmə.” İmam Hüseyn(ə) ona icazə verdi. Con meydana girib döyüşdükdən sonra onu şəhid etdilər. İmam Hüseyn(ə) onun başı üzərinə gəlib, Allaha belə dua etdi:

اَللّهُمَّ بَيِّض وَجْهَهُ وَ طَيِّبْ رِيحَهُ وَحْشُرْهُ مَعَ الْأَبْرار وَ عَرِّفْ بَيْنَهُ وَبَيْنَ مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ

-İlahi, bunun üzünü ağ və bədəninin iyini xoşətirli et. Bunu ən tanınmış və yaxşı insanlarla məşhur et, Məhəmməd(s) və onun Əhli-beyti (ə) ilə tanış edib, onlardan ayrı salma.

Tarixlərdə yazırlar ki, şəhidlərin cənazələrini dəfn edərkən cənazələrin altından Conun cənazəsini tapdılar. Gördülər ki, bunun bədənindən xoş ətir iyi gəlir. Sonradan başa düşdülər ki, İmamın(ə) onun barəsində etdiyi duaların nəticəsində Allah-təala onun bədənini xoş ətirlə müəttər etmişdi.

Məhəmməd İmamın(ə) ənsarlarından və aşura günü Həzrətin(ə) məhzərində şəhid olanlardan biri idi. Hazırlıq işləri görüldüyü bir halda bir nəfər Məhəmməd ibn Bişrə xəbər gətirdi ki, sənin oğlunu Reydə əsir tutublar. Deyir ki, gəlib mənim üçün bir çarə qılsın.

İmam Hüseyn(ə) bu məsələdən xəbər tutub Məhəmməd ibn Bişrə belə buyurdu: “Mən beyətimi səndən geri götürürəm. Istəyirsən get, oğlunun müşkülünü

həll et.” Həzrət(ə) ona bir miqdar qiymətli əşyalar da verdi ki, oğlunu xilas etmək üçün xərcləsin.

Bişr Həzrətin(ə) camalına baxıb dedi: “Mən səndən ayrılsam, çöldə qoy vəhşi heyvanlar məni parçalasın. Ağa, mən heç vaxt səni burada tək qoyub getmərəm. Mənim özüm də sənə qurban olum, oğlum da.”

Həzrətin(ə) səhabələri öz vəfalarına sadiq oldular. Qanları tökülənə qədər əhdlərinə vəfa etdilər. Onların hamısından da vəfalısı qardaşı Əbülfəzl idi:

*Ey Əbülfəzl, ey rəisi zümreyi əhli-vəfa,*
*Əbdi Saleh mənsəbin Allah sənə etmiş əda,*
*Nəhr aldın, içmədin su, nəfsinə aləm fəda,*
*Su kənarında susuz səqqa, salam olsun sənə.*

Həzrət Əbülfəzl bu vəfanı cəddi Peyğəmbərdən(s), atası Əlidən(ə), qardaşları İmam Həsən və İmam Hüseyndən(ə) öyrənmişdi.

İbn Ziyad Ömər Sədə məktub yazmışdı. Yazandan sonra Şimrə göstəriş verdi ki, bunu Kərbəlada Ömər Sədə çatdır. Onun ətrafındakılar dedilər: İbn Ziyad, yaxşı olar ki, Ümmül-Bəninin oğlanlarına amannamə də yazasan. Onlara yaz ki, əgər Hüseyndən ayrılsalar, heç kəsin onlarla işi olmayacaq və əmniyyətdə olacaqlar. İbn Ziyad bu təkliflə razılaşıb bir amannamə də yazdı. Ümmül-Bənin Həzrət Əbülfəzlin anası, Abdulla ibn Məhəllin bibisi idi. Abdulla məktubu alıb öz qulamına verdi və tapşırdı ki, bunu Kərbəlada Ümmül-Bəninin oğlanlarına oxuyarsan. Onun qulamı tasua günü günortadan qabaq Kərbəlaya yetişdi. Həmin məktubu onun özünün oxumasını məsləhət bildilər. Şimr məktubu ondan alıb dedi ki, mən özüm Ümmül-Bəninin oğlanlarını çağırıb, bu məktubu onlara oxuyaram. Şimr Həzrət Əbülfəzli və qardaşlarını çağırıb amannaməni onlara oxudu. Şimr məktubu oxuyub

qurtarandan sonra Həzrət Əbülfəzl buyurdu: Həm naməyə lənət olsun, həm də onu yazana.

Ey piri müzəvvir itiribsən özünü,
Mərifət yoxdu, tutub pərdeyi qəflət gözünü,
Deyiləm müştəri bu sözlərə, qurtar, sözünü,
Üməvilər ola bilməz hədəfi aliyədə,
Sənə də lənət, amannamə yazan valiyə də.

İmam Hüseyn(ə) bu məsələdən agah oldu və Həzrət Əbülfəzli yanına çağırıb buyurdu: “Abbas, eşitdim sənə məktub göndəriblər.” Həzrət Əbülfəzl istəmirdi ki, bu məsələni İmam Hüseyn(ə) bilsin. Buna görə özü də demək istəmirdi. Lakin İmamın(ə) amannamədən xəbər tutduğunu eşitdikdə utandı. Dedi: Bəli, mənim ağam, düzdür. İmam(ə) buyurdu: “Sən azadsan, qardaşlarını da götürüb istədiyin yerə gedə bilərsən.” Həzrət Əbülfəzl çox narahat oldu. İmamın(ə) sözləri onun ürəyinə toxundu:

Pozulub Mürtəzəvi siması,
Qüssəmərg az qalıb olsun o kərəm dəryası.
Üzünü xanım Zeynəbə tutub dedi:
Gör ağam qiyməti Abbasuvi sındırdı necə,
Deyəsən mən Nəcəfə getməli oldum bu gecə.

Həzrət Əbülfəzl dedi: “Ağa, biz heç vaxt səndən ayrılmarıq. İcazə ver, biz səninlə qalaq. Sən əyləş, mən də qardaşlarımla birgə sənin başına dolanaq.”

# ON ÜÇÜNCÜ DƏRS

## FÜTUVVƏT VƏ COMƏRDLIK

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ لِلهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

İmam Hüseyn(ə) aşura hadisəsində bütün insanlara öyrətdiyi dərslərdən biri də fütuvvət və comərdlikdir. Bu xüsusiyyət insanda olan xüsusiyyətlərdən biridir ki, İmam Hüseyn(ə) və onun ənsarı aşura günü Kərbəlada əməli surətdə nümayiş etdirərək, bütün insanlara nümunə, örnək və dərs olaraq bəyan etdilər. Comərdlik barədə həm Quran ayələri, həm də bir çox hədislər vardır ki, onlardan bir neçəsini bu dərsin girişinə əlavə edərək nümunə üçün qeyd edirəm:

Allah-təala “Kəhf” surəsinin 13-cü ayəsində buyurur:

نَحْنُ نَقُصُّ عَلَيْكَ نَبَأَهُم بِالْحَقِّ إِنَّهُمْ فِتْيَةٌ آمَنُوا بِرَبِّهِمْ وَزِدْنَاهُمْ هُدًى

-Biz onların əhvalatını sənə haqq olaraq və doğru şəkildə söyləyirik: «Həqiqətən onlar özlərinin Rəbbinə iman gətirmiş və bizim hidayətlərini artırdığımız cavanlar idilər.»

Fütuvvət ərəb mənşəli sözdən ibarət olub, kökü “fəta” kəlməsi ilə bağlıdır. “Fəta” sözünün mənası cavan, fütuvvət sözü isə comərd deməkdir. Azərbaycan dilində

comərd mənasını daşıyır. Qrammatik mənasından əlavə, bu kəlmənin dini termin kimi mənası yaxşı xüsusiyyət və sifətlərə malik olan insan (comərd insan) deməkdir.

Qeyd olunan ayədə Kəhf əshabı barədə Allah-təala onların fütuvvətli insan olduqlarını bəyan edir. Yəni bu insanlar yaxşı xislət və sifətlərə malik olan insanlardır.

Fütuvvət və comərdliyi iki cür təfsir etmişlər. Bir təfsir dini, digəri isə insani təfsir və açıqlamadır. Dini təfsirlərdə əxlaq elmində pak qəlbin adına fütuvvət deyilir. Hər bir qəlb pak, nurani olarsa, bütün üzvlər də pak və nurani olacaqdır. Çünki qəlb elə bir mənbədir ki, insanın bütün üzvləri həmin mənbədən bəhrələnır. Məsələn, bir şəhərin su mənbəyindən bütün əhalinin evinə borular vasitəsilə su çəkilir. Məlum məsələdir ki, borulardan evlərə gələn suyun mənbəyi həmin su anbarından paylanılır. Əgər həmin anbarın suyu bulanlıq olarsa, bütün evlərə bulanlıq su gələcək. Çünki mənbənin özü bulanıqdır. Həmçinin əksinə olaraq, əgər anbarın suyu təmiz, pak və istifadəyə yararlı olarsa, evlərə də həmin su gələcək. Odur ki, əgər ürək pakdırsa, deməli, bütün bədən üzvləri pakdır. Üzvlərin napaklığı və çıirkinliyi ürəyin napaklığından və çirkinliyindən xəbər verir. Əgər bir insanın gözü naməhrəmə baxmaqla məşğuldursa və haram baxışlardısa, həmin şəxsin gözünə etibar yoxdur. Çünki həmin şəxsin qəlbinə etibar olunmur. Əgər bir insanın qulağı və dili nalayiqdirsə, deməli, onun ürəyi nalayiqdir. Bütün üzvlərə ürəkdən əmr gəlir. Beləliklə, üzvlərin sağlam və pak olması ürəyin sağlamlığından, paklığından və nuraniyyətindən asılıdır. Əgər bir insanın baxışları, danışığı, eşitməyi və hərəkətləri haramdırsa, bu insanın ürəyi necə təmiz ola bilər? Mümkün deyil ki, insanın əzaları napak olsun, amma ürəyi sağlam, təmiz olmuş

olsun. Mənbə təmizdirsə, üzvlərin hamısı təmizdir. Buna görə də əxlaq elmində pak, sağlam və nurani qalbin adına fütuvvət deyilir.

Allah-təala Quranda Həzrət İbrahimin(ə) duasını bəyan etmiş və bu duada həmin məsələyə işarə olunmuşdur.

وَلَا تُخْزِنِي يَوْمَ يُبْعَثُونَ   يَوْمَ لَا يَنفَعُ مَالٌ وَلَا بَنُونَ   إِلَّا مَنْ أَتَى اللَّهَ بِقَلْبٍ سَلِيمٍ

Məni *(insanların)* dirildiləcəyi gün xar etmə,

O gün ki, malın və oğulların bir faydası olmayacaq.

Yalnız salamat *(sağlam)* bir qəlblə Allahın hüzuruna gələn kimsədən başqa!

Bu ayədə bəyan olunur ki, qiyamət günü yalnız və yalnız təmiz qəlblə gələn insanlar mənfəət aparacaq. Qəlbi təmiz olmayanların hamısı ziyan görəcəklər. O gün insana nə mal-dövlətləri, nə də övladları fayda verməyəcək. Yalnız qəlbi sağlam, təmiz və pak olan insanlar öz faydalarını aparacaqlar.

Fütuvvət və comərdliyi müxtəlif mənalarla ifadə etmişlər ki, ariflərin də bu xüsusiyyət barədə qeyd etdiyi mənalar vardır. Xacə Abdulla Ənsari böyük ariflərdən biri idi. O, onun «Yüz mənzil» adlı yazdığı irfani kitabda insanın irfan mərhələsində ona lazım olan mənzilləri sadalamışdır. Həmin mənzilləri sadalayarkən fütuvvət və comərdliyə gəldikdə belə yazır:

اَنْ لا تَشْهَدَ لَكَ فَضْلاً وَ لا تَرى لَكَ حَقًّا

-Öz yaşayışında özünə üstünlük verməmək və özünə haqq qazandırmamaq comərdlikdir.

Bu irfani bəhs olduğundan  məsələnin üstündən ötəri keçməyi lazım bilirəm. Bu mərhələ ariflərin mərhələsi

olduğundan, daha da dərin və geniş mənasını elə ariflər özləri bilirlər.

Ötəri mənası budur ki, insan özünü heç kəsdən üstün tutmamalı və hər bir işdə özünə haqq qazandırmamalıdır. Bəzi insanlar elə güman etməməlidir ki, hər kəs onun ayağına qalxmalı və ona hörmət etməlidir. Belə insanlarda heç vaxt comərdlik ola bilməz. Nəyə görə hamı sənə hörmət etməlidir, amma sən heç kəsə hörmət qoymamalısan? Bu haqqı sənə kim vermişdir ki, sən içəri daxil olarkən hamı sənə hörmət edib ayağa qalxmalıdır, amma sən heç kəs üçün ayağa qalxmamalısan? Kim sənə bu haqqı vermişdir ki, hamı sənə salam verməli, sən heç kəsə salam verməməlisən?

Həzrət Peyğəmbər(s) elə bir şərafətdə insan idi ki, Allah onu bütün aləmlərə rəhmət olaraq göndərdi. Əxlaqı hamıdan gözəl, məqamı hamıdan yüksək, elm və savadı hamıdan çox, hörməti Allah yanında hamıdan üstün olan bir insan idi. Çöldə yaşayan bədəvi bir ərəb onun məhzərinə gələrkən, Peyğəmbər(s) ona hörmət və ehtiram göstərərdi. Həmin bədəvi insan ağzını açıb danışmağa başlayarkən Peyğəmbər(s) onun nə deyəcəyini bilirdi. Lakin onun hörmətini saxlamaq üçün diqqətlə əyləşib sözlərinə axıra qədər qulaq asardı. Peyğəmbərin(s) şərafət və fəziləti öz yerində, lakin heç vaxt özünü insanlardan ayrı salmırdı. Onlarla birgə yeyir, birgə işləyirdi.

Comərdlik bir çox hədislərdə də mənalandırılaraq bizlərə çatdırılmışdır. O cümlədən Musa(ə) Peyğəmbər Turi Sina dağına gedən zaman Allahdan fütuvvət və comərdliyin mənasını soruşdu. Allah- təala onun cavabında buyurdu: “Mən səni yaradarkən bir ruh vermişəm. O ruhu sənə verəndə pak-pakizə, təmiz və şəffaf idi. Bir gün sən o ruhu Mənə qaytaracaqsan.

Fütuvvət odur ki, həmin ruhu Məndən aldığın kimi, Özümə qaytarasan. Əgər onu mənə təmiz və nurani halda qaytara bildinsə, comərd adamsan.

İnsan Allahın ona verdiyi ruhu olduğu kimi də qaytarmalıdır. Gərək insan elə bir iş görməsin ki, ruhu qaralsın. Ruhun qaralmasının da ən ümdə səbəbi günahdır. Hər dəfə günah etdikcə ruha qara ləkələr düşür. İmam Sadiq(ə) bu barədə belə buyurur: "Hər insanın qəlbində ağ bir nöqtə vardır. Insan günah etdikdə, o nöqtədən bir qara nöqtə əmələ gəlir. Əgər insan etdiyi günahdan tövbə edərsə, qəlbində yaranan qara nöqtə pozulur. Əgər günaha davam edərsə, o qara nöqtə o qədər çoxalar ki, qəlbin bütün ağlığını örtər və qəlbi tamamilə qaralar. Qəlbin ağlığı aradan getdikdən sonra və qəlb tamamilə qaraldıqdan sonra, o qəlbin sahibi bir daha xeyir və səadətə çatmaz.

İnsan günahların nəticəsində öz ruhunu qaraldır. Allahın vacib bildiklərini kənara qoyub, günahı günah ardınca edirsə, belə bir insanın ruhu necə pak ola bilər?

Bir gün İmam Sadiq(ə) səhabələrindən birinə buyurdu: "Fəta (cavan) kimə deyirlər? O dedi: Ey Allahın höccəti, gənc yaşlarında olan bir insana cavan deyilir. Həzrət(ə) buyurdu: Əshabi-Kəhf hamısı yaşlı və qoca adamlar idilər. Amma Quranda Allah-təala imanlarına görə onları fəta (cavan) adlandıraraq buyurur:

إِذْ أَوَى الْفِتْيَةُ إِلَى الْكَهْفِ

*"(Yada sal)* o zaman*(ı)* ki, həmin cavanlar o böyük mağaraya sığınaraq dedilər."

Sonra Həzrət İmam Sadiq(ə) buyurdu: "Hər kəs Allaha iman gətirib təqvalı olarsa, (günahlardan, haramlardan

çəkinb Allahın buyurduqlarına əməl edərsə) həmin şəxs cavandır (fütuvvətlidir).”

İnsan nə qədər qoca olmuş olsa da belə, əgər təqvası varsa, Allah yanında həmin şəxs cavan hesab olunar. Həbib ibn Məzahir Kərbəlada ən yaşlı səhabə idi. Tarix kitablarında onun yaşının yetmişdən çox olduğu yazılmışdır. Hətta aşura günü döyuş meydanına girməzdən öncə qaşlarının üstünə dəsmal bağladı ki, düşmən onun ağarmış qaşlarını görüb qoca təsəvvür etməsinlər. Elə bilsinlər ki, gənc bir döyüşçüdür. Həbib İmam Hüseyni(ə) müdafiə etməklə özünü cavanlar cərgəsinə qoşdu. Qurani-Kərim ona qoca kimi baxmır. İmam Sadiq(ə) onu cavan kimi qələmə alır. Əgər bir insan təqvada mükəmməldirsə və imanda nümunədirsə, həmin şəxs cavanların nümunəsidir. Çünki onun ruhu və imanı cavandır. Bu məsələdə insanın saçının ağ və ya qara olmasının fərqi yoxdur. Hər bir insan təmizdirsə, pakdırsa, Allaha səcdə edirsə, hər bir insan etdiyi səcdəsində sadiqdirsə və gecələr Allah qarşısında ibadət edirsə, gündüzlər əməlində sədaqət nişanələri görünür.

Bureyr İmam Hüseynin(ə) səhabələrindən və Kərbəla şəhidlərindən biri idi. Onun haqqında deyirlər ki, uzun illər xiftən namazında aldığı dəstəmazla sübh namazı qılmışdır. Yəni xiftən namazı üçün dəstəmaz alıb, həm xiftəni, həm də gecələri səhərə qədər ibadətlə məşğul olurdu. Həmçinin Üveys Qərəni barədə də belə yazırlar ki, bir səcdəsi gecədən səhərə qədər çəkirdi. Tarixdə təkcə bu insanlar olmayıblar ki, gecələri səhərə qədər ibadət ediblər. Öz həyatımızda da belə insanlara rast gəlmək olur. Məcnun Leylinin dərdindən dəli-divanə olub çöllərə düşmüşdü. Məkkədə onu döydülər ki, Leyliyə aşiq olduğu üçün tövbə etsin. O qədər vurdular ki, axırda məcnun

dedi: “Vurmayın məni, tövbə edəcəyəm.” Ona başa saldılar ki, belə desin: “İlahi, Leylinin məhəbbətini qəlbimdən çıxart.” Onu Kəbənin yanına gətirdilər. Məcnun dayanıb əllərini göyə qaldırdı və onların dediyi kimi demək istədi. Amma belə dedi: “İlahi, Leylinin məhəbbətini qəlbimdə daha da çoxalt.”

Buşri Hafi deyir: “Bir nəfəri şallaqla vururdular. Təəccüblü idi ki, onu hər nə qədər vurdularsa bir kəlmə də olsun söz demədi və heç inildəmədi belə. Ondan soruşdum: Səni bu qədər vurdular, bəs niyə heç səsin də çıxmadı. Dedi: Çünki məşuqəm mənə baxırdı, ona görə.”

Əgər bir insan öz məşuqəsinə görə vurulan zərbələrə və ağrılara dözürsə, Allaha aşiq olan gecəni səhərə qədər səcdə edə bilməzmi? Dəstəmazını səhərə qədər saxlaya bilməzmi? Allaha aşiq olan kəs səhərə qədər yatmayıb, ibadət edə bilməzmi? Əlbəttə ki, Allahı sevən, Ona aşiq olan insan bundan da ağır çətinliklərə dözər. Həmin abid insan öz cəmiyyətində belə alimdir ki, Yezidin, İbn Ziyadın, və Ömər Səd kimilərinin apardığı güclü yalan təbliğatlar ona təsir edə bilmədi. Kərbəlada bu yolda qanı tökülməyə hazır oldu. Öz cəmiyyətinin çətinliklərinin kökünün haradan olduğunu da çox gözəl başa düşürdü.

Buna görə də əgər bir insanın cismi, ruhu, qəlbi və bədən üzvləri pak olarsa, həmin şəxsə fütuvvətli insan deyilir. Fütuvvətin bir mənası da insani mənada bəyan olunur. Yəni insani hərəkətlərə fütuvvət deyilir. Comərd, canından keçən, mərd, insaniyyət və mənəviyyat yolunda canını verməyə hazır olan insana fütuvvətli insan deyilir. Bir insan başqa bir insana nicat vermək üçün canını təhlükəyə atırsa, İslam belə cömərdliyi təsdiq edib qiymətləndirir.

Ərəblərdə böyük qəbilənin başçısına şeyx deyirlər. Bir kasıb oğlan həmin qəbilələrdən birinin şeyxinin qızına aşiq olmuşdu. Öz elçilərini şeyxin qapısına göndərir. Şeyx baxıb görür ki, bu oğlan çox kasıb və özü ilə müqayisə olunmayan bir insandır. Onu başından etmək üçün deyir. Mənim qızımın mehriyəsi filan şeyxin atıdır. Əgər həmin atı mənə gətirə bilsən, qızımı sənə verəcəyəm. Şeyx özü bilərəkdən mümkün olmayan bir işi həmin oğlan üçün şərt qoyur. Oğlan öz-özünə fikirləşir ki, hansı yolla olursa-olsun həmin atı əldə etməlidir. Çox düşünəndən sonra gəlib həmin şeyxin həmişə keçdiyi yerdə dayanır. Bir neçə müddət hər gün gəlib o yolun üstündə gözləyir ki, bəlkə şeyx buradan keçdi. Bir gün görür ki, həmin şeyx öz atı ilə yolla gəlir. Şeyx ona yaxınlaşanda oğlan deyir: Mən şikəst bir adamam, məni də atınla mənzilbaşına çatdırsan, sizə minnətdar olaram. Şeyx də öz-özünə fikirləşir ki, cavan oğlandır, yolda qalıb. Onu öz məqsədinə çatdırsam, savab iş görmüş olaram. Buna görə də oğlana deyir: Gəl, min atın tərkinə. Oğlan deyir: Axı mən əliləm, ata minə bilmirəm. Mənə kömək edərsinizmi? Şeyx atdan düşüb oğlanı atın tərkinə mindirir. Özü də minmək istəyəndə oğlan atı çapıb uzaqlaşır. Şeyx onun ardınca deyir: Sən atı apardın, amma bu işi görməklə yaxşılığın qapısını bağladın. Şeyxin bu sözləri oğlana təsir edir. Atı saxlayıb, öz-özünə deyir: O qız daha mənə lazım deyil. Qoy elə yaxşılıq yerindəcə qalsın. Qayıdıb atı yiyəsinə verib deyir: Mən nə oğruyam, nə də quldur. Sadəcə filan şeyx öz qızının mehriyəsi üçün sənin atını məndən istəmişdi. Mən də bu yolla atı əldə etmək istəyirdim. Amma razı olmaram ki, yaxşılığın qapısını bağlayım. Daha o qızdan vaz keçirəm. Şeyx həmin oğlanın mərd hərəkətindən çox xoşu gəldi və dedi: Indi ki, sən kişilik etdin və atımı yaxşılığı

itirməmək üçün özümə qaytardın, mən də kişilik edib atımı həmin şeyxə verib, qızını sənin üçün alacağam. Yola düşüb həmin şeyxin evinə sarı yollandılar. Şeyx təəccüblə baxıb görür ki, bu oğlan həm atı gətirib, həm də atın yiyəsini. Yaxınlaşıb bütün hadisəni o şeyxə danışırlar. Şeyx bir az fikrə dalıb deyir: Indi ki, bu oğlan bir kişilik edib sənin atını özünə qaytarıb və sən də kişilik edib öz atını mənim qapıma gətirmisən. Sizin bu mərd hərəkətiniz məni vadar edir ki, mən də kişilik edib, qızımı bu oğlana verim və sənin atını da özünə qaytarım.

Tarixdə fütuvvət, mərdlik barədə bu və bu kimi hadisələr, nağıllar vardır. Hətta öz dövrümüzdə də bəzən belə insanlarla rastlaşmalı oluruq. Bütün bu nağıllar, hadisələr ən gözəl tarix və kişilik nümunələri olan İslamın tarixidir. Peyğəmbərlərin tarixində, xüsusilə İslam Peyğəmbəri(s), imamlarımız və onlardan sonra həqiqi İslam ümmətinin içərisində o qədər belə işlər görünüb ki, sayı-hesabı yoxdur. Əgər bütün tarixlərə nəzər salsaq, görərik ki, həmçinin bu məsələdə də hamıdan üstün İslam tarixidir. Bəzən Allah bəndələri bu cür məsələlərdə də imtahan edirdi. Belə dastanlardan danışmaq üçün uzun müddət vaxt lazımdır ki, söhbət olunsun. Nümunə üçün imamlardan belə bir fütuvvəti nəzərinizə çatdırıram.

Həzrət Əlinin(ə) zamanında bir quş uça-uça gəlib Həzrətin(ə) başı üzərində fırlanmağa başladı. Həzrət Əli(ə) onun nə istədiyini bildi. Quş dedi: Ya Əli, yerə dən tökülmüşdü. Aşağı enib həmin dənləri yemək istəyirdim ki, bir qırğı məni gördü və dalımca düşdü. O, məni ovlayıb yemək istəyir. Mən sənə pənah gətirmişəm. Həzrət Əli(ə) o quşu alıb əlində saxladı. Qırğı gəlib Həzrətin(ə) başı üzərində fırlanaraq dedi: Ya Əli, mən dörd gündür ki, yeməyə heç nə tapmıram. Bircə bu gün

əlindəki quşu tapmışdım ki, o da sənə pənah gətirib. Onu ver mənə. Həzrət(ə) buyurdu: Hər kim mənə pənah gətirsə, heç vaxt onu düşmənə verməréм. Qırğı dedi: Ya Əli, xahiş edirəm, onu ver mənə. Həzrət(ə) buyurdu ki, mümkün deyil. Qırğı dedi: Mən acından az qalır ki, ölüm. Həzrət(ə) buyurdu: Bu, başqa məsələdir. Əgər acsansa, yeməyə bir şey tapılar. Amma bu quş mənə pənah gətirib. Heç vaxt bunu sənə verməyəcəyəm. Sonra həmin qırğı dilə gəlib dedi: Ya Əli(ə) biz Allahın mələkləriyik. Allah səni imtahan etmək üçün bizi göndərmişdi.

Belə hadisələri İslam tarixində nə qədər desən oxumaq olar. İslam tarixində fütuvvət və comərdlik məsələlərindən biri də Kərbəla tarixidir. Bu hadisə nə quş məsələsidir, nə də imtahan məsələsi. Bu hadisədə Allahın yaratdığı həqiqi bəndələrdir ki, Kərbəlada insaniyyət sərgisi təşkil etmişdilər. Hər nə qədər yaxşılıqlar və bəyənilən əməllər vardırsa, hamısını bütün dünyaya nümayiş etdirdilər. O cümlədən fütuvvət və comərdliyin bariz nümunəsi idilər. Kərbəla hadisəsində İmam Hüseynin(ə) özü və məhzərində olan insanların fütuvvəti haqqında bir neçə nümunəni nəzərinizə çatdırıram.

## Kərbəla qəhrəmanlarının comərdliyi

İmam Hüseyn(ə) Məkkədən çıxıb Kufəyə doğru hərəkət etməyə başladı. Mənzil-mənzil yol gəlirdilər. Gecə yarı Şəraf adlı bir mənzilə yetişdilər. Həzrət(ə) göstəriş verdi ki, bütün su qablarını su ilə doldursunlar. Hamı gedib bacardığı qədər qablara su doldurub gətirdilər. Həmin gün günortadan əvvəl gördülər ki, Hürrün başçılığı ilə min nəfər silahlı dəstə gəlib həmin məntəqədə dayandılar. Havanın dəhşətli istisi, yorğunluq və susuzluq

onları əldən salmışdı. İmam Hüseyn(ə) göstəriş verdi ki, gecə topladıqları suları onlara paylasınlar. Həzrətin(ə) dəstəsindən bir neçə nəfər Hürrün adamlarını, hətta atlarını belə su ilə təmin etdilər. Atların, dəvələrin üzünə, sinəsinə və ayaqlarına sərinləmək üçün su səpdilər. Əli ibn Təan Hürrün dəstəsində idi. O, belə deyir: Mən silahları daşıdığım üçün dəstədən ayrı düşmüşdüm. Hürrün dəstəsi artıq Şərafa çatıb, atlardan düşmüşdülər. Axırda mən gəlib çatdım. O qədər camaatın içində heç kəs məni görmürdü. Birdən gözüm gözəl bir insana sataşdı. O qədər insanın içində yalnız o mənə baxırdı. Mənə yaxınlaşıb hicaz ləhcəsi ilə buyurdu: (اَنَخِلِ الراوِيَةَ) miniyi yatırt. Mən hicazlı olmadığım üçün o ləhcəni başa düşməyib, ona baxdım. O gördü ki, mən başa düşmədim, öz ləhcəmdə buyurdu: (اَنَخِلِ الجَمَلَ ) dəvəni yerə oturt. Mən dəvəni yerə yatırtdım. Su tuluğunu gətirib mənə tərəf uzadanda gördüm ki, bu İmam Hüseyn(ə) ağanın özü imiş. Mən suyu ondan alıb içmək istədim, amma yorğunluq və susuzluq məni elə bir hala salmışdı ki, tuluğu əlimdə tutub suyu içə bilmirdim. Həzrət(ə) məni bu halda görüb, tuluğu özü tutdu və mənə su içirtdi. Sonra dəvəmi də suvarıb, sinəsinə, üzünə və ayaqlarına su səpdi. Öz-özümə təəccübləndim ki, biz bura nə üçün gəlmişik, amma İmam Hüseyn(ə) bizə necə münasibət bəsləyir.

Zöhr namazının vaxtı yetişdi. Hamı camaat namazına hazırlaşırdı. Həzrət(ə) üzünü Hürrə tutaraq buyurdu: “Biz namaz qılmaq istəyirik, əgər sən də namaz qılmaq istəyirsənsə, öz qoşununla qıl.”

Hürr dedi: Mən sənin arxanda dayanıb, sənə iqtida edəcəyəm. Heç vaxt ola bilməz ki, sən camaat namazı qılasan, mən də gedib özüm üçün camaat namazı təşkil

edim. Həm mən, həm də hamımız birlikdə namazda sənə iqtida edəcəyik. Namaz qurtarandan sonra İmam Hüseyn(ə) onlara xütbə oxudu. Xütbədən sonra Züheyr İmamın(ə) məhzərinə gəlib dedi: Ağa, əvvəl-axır bizim işimiz bunlarla müharibəyə çəkəcək. Sən icazə ver, biz başlayaq. Bunların sayı az olduğundan bizim üçün asan olar. Bu bizim üçün bir fürsətdir. Sonraya qalsa, bunlar üçün Kufədən köməkçi qoşunlar gələcək və işimiz ağırlaşacaq. Həzrət(ə) buyurdu: "Züheyr, əgər bizim məqsədimiz bunları öldürüb aradan aparmaqdırsa, sən deyəndi. Amma qanun nöqteyi-nəzərindən nə qədər ki, bunlar bizə təcavüz etməyiblər, heç vaxt silaha əl atıb onlarla döyüşmərəm. Onlar da müsəlmandır, nə qədər ki, bizimlə müharibə etmirlər, müdafiəyə ehtiyac yoxdur. Heç vaxt mən birinci müharibəyə başlamaram. Həzrətin(ə) bu sözü və bu hərəkəti comərdliyinin və fütuvvətinin nişanəsi idi. Bütün tarixlərdə qeyd olunmuşdur ki, Ömər Səd müharibənin başlanması üçün birinci oxu İmam Hüseynin(ə) çadırına özü atdı. Oxu atarkən belə dedi: "Mənim üçün İbn Ziyadın yanında şahid olarsınız ki, birinci oxu Hüseynin(ə) çadırlarına mən atmışam." Bu sözləri deyib oxu atdı.Oxu atandan sonra İmam Hüseyn(ə) üzünü öz səhabələrinə tutaraq belə buyurdu: "Ey mənim səhabələrim, Allah sizə rəhmət etsin, qalxın ölümə doğru. Həqiqətən sizə tərəf atılan oxlar bu tayfanın müharibəyə başlaması üçün atdığı oxlardır. Qanımızın son damlasına və nəfəsimizin sonuna qədər özümüzü müdafiə edəcəyik. Indi onlara cavab vermək vaxtıdır."

Həm İmam Hüseyn(ə) belə mərd hərəkətlər edirdi, həm səhabələri, həm də nümayəndələri. Heç biri namərdlik və xainlik etmədi. Kufə hadisəsində Müslüm İmam Hüseynin(ə) nümayəndəsi kimi ora getmişdi. Hani Ibn

Ürvənin evində qalırdı. Şərik ibn Əvər də Haninin qonağı idi. İbn Ziyadın ona böyük hörməti var idi. İbn Ziyada xəbər gətirdilər ki, Şərik xəstələnib. Bir nəfəri Haninin evinə göndərdi ki, İbn Ziyad Şərikə baş çəkməyə gələcək. Bu xəbəri gətirəndən sonra Şərik Müslümə dedi: Bilirsən ki, İbn Ziyad çox fasiq və fasid bir adamdır. Yezid onun gücündən və etibarından istifadə edib, bu ərazinin məsələlərini ona tapşırıb. Bizim əlimizə çox gözəl bir fürsət düşüb. O, mənə baş çəkmək üçün bura gələcək. Sən gizlənərsən, mən də münasib bir vaxt tapan kimi su istəyəcəyəm. Elə ki gördün «mənə su verin, ciyərim yanır» deyib işarə edəndə, sən də çıxıb onun işini bitirərsən. Ortaya belə söz qoyurlar. İbn Ziyad Şərikin yanına gəlir. Bir az söhbət edəndən sonra Şərik işlərin münasib olduğunu gördükdə deyir: Mənə su verin, ciyərim yanır. Bunu deyəndən sonra görür ki, Müslümdən bir xəbər çıxmadı. Bir neçə dəfə bu sözü təkrar edir, amma Müslüm yenə də çıxmadı. İbn Ziyad onun bu sözlərindən şübhələnir. Deyir: Deyəsən bu xəstə çox sayıqlayır. Deyirlər: Onun xəstəliyi çox ağırdır, ona görə də tez-tez belə mənasız sözlər danışır. İbn Ziyad bütün bunlardan şübhələnib tez oranı tərk etdi. İbn Ziyad gedəndən sonra Şərik Müslümə dedi: Nə üçün çıxıb onun işini bitirmədin? Müslüm dedi: Əvvəla, biz Haninin evində qonağıq. Bəlkə ev yiyəsinin bu işə razılığı yoxdur. Çünki ev yiyəsi bu barədə öz fikrini mənə bildirməyib. Buna görə də bizim ixtiyarımız yoxdur qonaq gəldiyimiz evdə belə bir iş görək. Ikincisi, budur ki, mən Peyğəmbərdən(s) eşitmişəm ki, insanın imanı onun beyninə gələn kələkbazlıqı, fırıldağı və kiməsə qarşı sui-qəsd hazırlamağı məhdudlaşdırar. (Yəni iman bu kimi nalayiq hərəkətlərin qarşısını alar.) Mənim də imanım yol vermədi ki, kiminsə xəbəri olmadan hücum edib onu

öldürüm.  Mən bura İbn Ziyadı terror etməyə, ona qarşı sui-qəsd hazırlamağa gəlməmişəm. Mənim gəlişimin məqsədi İmam Hüseynin(ə) sözlərini xalqa çatdırmaq və xalqın fikrini öyrənməkdir. İbn Ziyad özü bilər, hər nə etmək istəyirsə, onun öz işidir. Mən öz vəzifəmə əməl edirəm. Allahım bu gün məndən nə istəyirsə, onu da yerinə yetirirəm. Heç vaxt mən belə bir çirkin işə əl atıb kimisə xəlvətcəsinə öldürmərəm.

Bu hadisədən sonra İbn Ziyad bütün məsələlərdən və Müslümün Haninin evində olduğundan agah olub, Hanini yaxalayıb saraya gətizdirdi. İbn Ziyad Haniyə dedi: Sən Müslümü mənə təslim edəcəksən. Hani dedi: Heç vaxt bu işi görmərəm. İbn Ziyad dedi: Əgər onu təslim etməsən, sənə işgəncələr verib öldürəcəyəm. Hani dedi: O, sənin öz işindir, nə bacarırsan, edə bilərsən. Amma mən heç vaxt öz qonağımı, özü də İmam Hüseyn(ə) kimi bir şəxsiyyətin adamını sənə təslim etməyəcəyəm. Əgər mənim bir nəfər köməkçim olmasa belə, yenə də bu işi görmərəm. Halbuki mənim minlərlə köməkçim vardır.

İmam Hüseynin(ə) bütün səhabələri, yar və ənsarı belə imanlı, comərd, igid, qorxmaz insanlar idi. Buna görə də Həzrət(ə) onları cavanmərd və comərd deyə çağırırdı. Xüsusilə aşura günü (Kufədə və Kərbəlada Yezidə zillət əli uzatmayıb, haqq yolunda şəhid olanlar üçün) belə buyurdu: “Mənim ürəyim o cavanmərd və comərd insanlar üçün yaman darıxır.”

Kərbəla bu cür mərd hərəkətləri bütün insanlara öyrədərək, hamını comərd olmağa dəvət edir. Hətta tarixlərdə yazmışlar ki, İmam Hüseynin(ə) başı nizədə ikən Quran ayəsini tilavət edirdi. Bunu rəvayət edən ən güclü ravi Zeyd ibn Ərqəmdir. İmam Hüseyn(ə) hansı ayəni tilavət etmişdi? Namaz barədəmi? Oruc barədəmi? Başqa

hökmlər barədəmi? Xeyr, İmam Hüseynin(ə) mübarək başı nizədə “Kəhf” surəsinin 9-10-cu ayələrini oxudu:

أَمْ حَسِبْتَ أَنَّ أَصْحَابَ الْكَهْفِ وَالرَّقِيمِ كَانُوا مِنْ آيَاتِنَا عَجَبًا. إِذْ أَوَى الْفِتْيَةُ إِلَى الْكَهْفِ...

Yoxsa o böyük mağara yoldaşlarının və o yazılı lövhə sahiblərinin *(əhvalatlarının)* Bizim ayə və nişanələrimizdən *(daha)* heyrətləndirici olmasını güman etmisən? *(Yada sal)* o zaman*(ı)* ki, həmin cavanlar o böyük mağaraya sığınaraq dedilər:...

İmam Hüseyn(ə) bu ayəni tilavət etməklə hamıya bildirdi ki, mənim səhabələrimin cavanmərdliyi və comərdliyi heç də Əshabi-Kəhfin comərdliyindən əskik deyil. İmam Hüseyn(ə) Hürrü də öz səhabələrinə qoşaraq bu ayənin timsalında nümayiş etdirdi. Hər kəs olsaydı, onu qəbul etməzdi. Çünki İmam Hüseynin(ə) Kərbəlaya getməsinin ən böyük səbəbkarlarından biri Hürr idi. Amma peşman olub Həzrətin(ə) məhzərinə gəlib tövbə etdi. İmam Hüseyn(ə) də onu qəbul etdi. Tarixlərdə yazırlar ki, Hürr peşman olub üzü üstə sürünə-sürünə İmamın(ə) çadırlarına sarı gələrkən bütün uşaqlar onun gəldiyini görüb qorxurdular. İmam Hüseyn(ə) buyurdu: “Narahat olmayın, onun bu gəlişi tamam başqa məqsəd üçündür.” Hürr Həzrətə(ə) yaxınlaşıb dedi: Ağa, əgər Allaha tövbə etsəm, mənim tövbəmi qəbul edərmi? Həzrət(ə) buyurdu: “Əlbəttə ki, Allah sənin tövbəni qəbul edər.”

Fütuvvətin mənası budur ki, İmam Hüseyn(ə) və onun şərafətli səhabələri onu Kərbəlada nümayiş etdirdilər. Amma düşmən ordusunda zərrə qədər də olsun fütuvvət və insaniyyət yox idi. Hətta İmam Hüseyn(ə) yaralı halda yerə yıxılmışdı. Düşmən bu vəziyyətdən istifadə edib,

Həzrətin(ə) çadırlarına hücum etdi. İmam Hüseyn(ə) onlara baxıb səsləndi: “Ey Əbu Süfyanın şiələri, əgər sizin dininiz yoxdursa və qiyamətdən də qorxmursunuzsa, heç olmasa dünyada azad və kişi insan olun. Siz ərəb olduğunuzu da unutmusunuz? Ərəblər heç vaxt kişinin gözü baxa-baxa ailəsinə hücum etməz.” Ömər Səd soruşdu: Hüseyn, bu nə sözdür deyirsən? Həzrət(ə) buyurdu: “Mən sizinlə döyüşürəmsə qadınların və uşaqların burada günahı nədir?”

Amma onlar bu sözlərə əhəmiyyət vermədilər. Çadırlara hücum etdilər. Ömər Səd dedi: Hamınız çadırları tərk edin. Xanım Zeynəb(s.ə) buyurdu: Biz çadırdan öz xoşumuzla çıxmayacağıq. Nə bacarırsınızsa edin. Amma biz öz ixtiyarımızla çadırları tərk etməyəcəyik. Ömər Səd göstəriş verdi ki, çadırlara od vursunlar. Xanım Zeynəb(s.ə) İmam Səccadın(ə) məhzərinə gəlib soruşdu: Ağa, çadırlara od vurdular. Əgər məsləhət görürsənsə, biz çadırları tərk edək. Əgər burada qalıb yanmağımız məsləhətdirsə, o zaman biz çadırlardan çıxmayacağıq. Həzrət(ə) buyurdu: De, hamı çöllərə dağılışsın:

*Əleykunnəl firar hökmü yetişdi ismətullahə,*
*Özün vurdu oda qızlar, dağıldı rahi-birahə.*
*Biyabandı, alovdu, yel- tufandı, qızdı, övrətdi,*
*Həvadən qırmızı topraq yağır, ruzi qiyamətdi.*
*Bir-birini qızlar qucaqlardı, deyərdi, neyləyək?*
*Gəl gedək, əlqəm kənarində əmim Əbülfəzlə deyək.*

# ON BEŞINCI DƏRS

## ALLAHIN RAZILIĞI VƏ ALLAHA TƏSLIM

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رَسُول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِهِ الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِلِ وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

İmam Hüseynin(ə) aşurası bütün bəşəriyyətə müəyyən dərslər öyrədir. Həzrətin(ə) bəşəriyyətə, insanlara və xüsusilə müsəlmanlara öyrətdiyi dərslərdən biri də budur ki, insan Allahdan razı və Ona təslim olmalıdır. Bu, müsəlmanın dərəcəsi və ən yüksək məqamlarından biridir. Hər bir müsəlman bu dərəcəni qazanmalıdır. Yaxşı olar ki, bir neçə ayə və hədisləri qeyd edib, riza və təslimin nə olduğunu bilək. Ondan sonra baxıb görək ki, İmam Hüseyn(ə) hansı hallarda riza və təslimi bizlərə öyrətmişdir.

Allah-təala "Tövbə" surəsinin 72-ci ayəsində belə buyurur:

وَعَدَ اللّهُ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ وَرِضْوَانٌ مِّنَ اللّهِ أَكْبَرُ ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

-Allah mömin kişilərə və qadınlara *(ev və ağaclarının)* altından çaylar axan, əbədi qalacaqları cənnətlər vəd etmişdir. Həmçinin əbədi cənnətlərdə pak məskənlər!

Allah tərəfindən olan razılıq *(isə bütün nemətlərdən)* böyükdür. Budur böyük uğur və qurtuluş!

Bu ayədə Allah-təala mömin kişi və möminə qadınlara altından çaylar bulaqlar axan və cənnətdə gözəl məskənlər bəxş edəcəkdir. Həzrət Peyğəmbərdən(s) soruşdular ki,Ya Rəsulallah(s), ədn cənnətin hansı məqamıdır? Həzrət Peyğəmbər(s) buyurdu: “Cənnətin ən yüksək məqamlarından və peyğəmbərlərin, şəhidlərin və imanlarında sadiq olan insanların olduğu bir yerdir.”

Başqa bir hədisdə Həzrət Peyğəmbər(s) buyurur: “Hər kim Əli ibn Əbi Talibi sidq-ürəklə sevib, ona məhəbbəti olarsa, həmin şəxsə də gəlib peyğəmbərlərin kənarında əyləşməyə icazə veriləcək.”

Ayədə cənnətin bu nemət və dərəcələrini sadaladıqdan sonra Allah-təala buyurur: "Allah tərəfindən olan razılıq *(isə bütün nemətlərdən)* böyükdür." Yəni cənnətdə altından axan bulaqlar və neməti çox olan məskənlərin hamısı bir tərəfə, cənnətdə bütün bunlardan da ən böyük nemət Allahın insandan rizayəti və razılığıdır. Ba ayənin sonunda belə buyurulur: "Ən böyük səadət (uğur) və qurtuluş budur!"

Allaha yaxın olmaq istəyən insanlar üçün Allah-təala müxtəlif qapılar qərar vermişdir. Hər kəs hansı qapıdan daxil olmaq istəsə, mümkündür. Cənnətin müxtəlif qapıları vardır ki, hər qapıdan daxil olmaq üçün insana müəyyən əməllər və göstərişlər təyin olmuşdur. Yəni hansı əməllərin sahibi hansı qapıdan ora daxil ola bilər. Cənnətin bir qapısı da vardır ki, oradan yalnız Allahın razı olduğu insanlar daxil olub cənnətə girəcəklər. Allahın razılığını qazanmış insanlar həmin qapıdan içəri daxil olan kimi Allah-təala buyuracaq:

قَالَ اللّهُ هَذَا يَوْمُ يَنفَعُ الصَّادِقِينَ صِدْقُهُمْ لَهُمْ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا رَّضِيَ اللّهُ عَنْهُمْ وَرَضُواْ عَنْهُ ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ

-Bu doğruçulara *(əqidə, danışıq və əməldəki)* düzlüklərinin fayda verdiyi bir gündür. Onlar üçün *(ev və ağaclarının)* altından çaylar axan cənnətlər vardır, orada əbədi qalacaqlar. Allah onlardan razıdır və onlar da Allahdan razıdırlar. Budur ən böyük səadət!

Həzrət Musa Peyğəmbər(ə) Allaha dedi: “İlahi, mənə elə bir işə yol göstər ki, ona əməl edəndə sənin razılığını qazana bilim.» Allah-təala ona vəhy etdi:«Ya Musa! Həqiqətən, Mənim (sənin barəndə olan hər) qəza-qədərimə razı olarsansa, Mənim rizayətim də elə ondadır. (Yəni Mən sənə hər nəyi məsləhət görürəmsə, əgər sən ona razı olarsansa, Mənim rizayətimi qazanmış olacaqsan.)

قَالَ رَسُول الله(ص) لِجِبرِيل: فَمَا تَفْسِير الرِّضا؟

قَالَ جِبرِيل: اَلرّاضِى لا يَسخَط عَلَى سَيِّدِه اَصابَ مِنَ الدُّنيا اَمْ لَمْ يُصِب وَلا يرضى لِنَفْسِه بِاليسير مِنَ العَمَل

Əziz İslam Peyğəmbəri(s) həzrət Cəbrayıldan soruşdu: Ya Cəbrayıl, riza və rizayət sözünün təfsiri nədir? Həzrət Cəbrayıl dedi: Razı o kəsə deyərlər ki, öz ağasına (Allaha) qarşı ürəyində zərrə qədər də narazılıq olmasın. Istər bu dünyadan ona bir şey vermiş olsun, istərsə də verməmiş olsun.

Bu hədisdən aydın olur ki, Allah insana hər nə məsləhət görürsə, ona razı olmaq rizayətin əlamətidir. Əgər Allah bir insana bu dünyanın naz-nemətlərini bəxş etdirsə və ya heç bir şey vermirsə, insan bütün bunlara razı olmalıdır. Bəzən görünür ki, Allah-təala bir insana

dünyada heç bir şey verməyib. Bəzən də elə insanlar var ki, Allah onlara dünyada çox şeylər bəxş edir. Əlbəttə, bəzi insanlar elə düşünməsinlər ki, haram yolla pul, mal-dövlət qazanırlar və elə bilirlər ki, Allah onlara bunu inayət edib. Burada söhbət dünyanın halal nemətlərindən gedir. Haram pul, haram mal-dövlətin hesab-kitabı tamam başqadır və bu işdə Allahın rizayəti ola bilməz. Əgər insanın imkanı yaxşı olan vaxtda da, imkansız vaxtında da Allaha qarşı narazı olmasa, buna rizayət və razılıq deyilir.

Bir zamanlar var idi ki, Allah Süleyman Peyğəmbərə(ə) hər bir şeyi inayət etmişdi. Hətta bütün heyvanların ixtiyarı onun əlində idi. Bir zamanlar da var idi ki, Musa Peyğəmbər(ə) uzun müddət yeməyə heç bir şey tapmırdı ki, yesin. Hədislərdə vardı ki, ağacların yarpaqlarını yeməkdən qarnının rəngi göyərmişdi. Amma bir kəlmə də olsun Allaha qarşı narazılıq etmədi. Bu insanlar elə bir şəxsiyyətlər idilər ki, əgər Allah onlara bütün dünyanı versəydi və ya dünyadan heç bir şey onlara nəsib etməsəydi, bir kəlmə də olsun dillərinə və ya fikirlərinə narazılıq gətirmədilər. Bir zamanlar Həzrət Əli(ə) bağları, quyuları, dirhəm və dinarları kasıblara paylayardı. Bir zamanlar da var idi ki, gecə yatarkən üşüməmək üçün bir parça tapmırdı üstünə çəkib yatsın. Hər iki halda Allaha ibadət edirdi.

Riza odur ki, həm zahirdə və batində, həm dildə və əməldə insanın Allaha etirazı olmasın. Hətta heç ürəyindən belə narazılığını keçirməməlidir.

Arif bir şəxsiyyət var idi. Illər boyu Allaha səcdə edib deyərdi. İlahi, səndən çox razıyam. Ondan soruşdular: Sən bu rizayəti necə qazana bilmisən? Səndə rizayət və Allaha təslim nə dərəcədədir? O dedi: Məndə razılıq yoxdur. Siz elə güman edirsiniz ki, məndə bu əlamətlər var. Siz

dediyiniz kimi olsa, mənim halım belədir ki, əgər Allah məni cəhənnəmin üstündə körpü qərar versə və əmr versə ki, bütün insanların hamısı hətta günahkarlar belə mənim üstümdən keçib cənnətə getsinlər, axırda da Allah məni götürüb cəhənnəmə atsa da belə, zərrə qədər də ürəyimdən keçməz ki, Allah niyə belə etdi. Çünki O hər nə edirsə, hamısını hikmət üzü ilə edir. O, hikmət sahibidir.

Belə bir şeyə riza və təslim deyilir. Belə bir halın insanda olması çox yüksək hallardan biridir. Əgər insan özündə belə bir halı yoxlayıb imtahan etmək istəyirsə, heç bilmir ki, haradan və hansı əməldən başlasın. Sadəcə insan bir gün özünə diqqət yetirsə görər ki, gün ərzində ixtiyarsız halda nə qədər narazılar üzə çıxarır. Əgər insan bu məsələdə məşq edib özündə inkişaf etdirə bilsə, bu insanın insaniyyət mənasıdır. Əgər insan bu prosesdə inkişaf edərsə, həqiqətən nuraniyyət aləminə qədəm qoymuş olar. Allahın bəndəsi olmağa ləyaqət qazanmış olar.

Cabir ibn Abdulla Ənsari çox qocalmışdı. Gözləri tutulmuş, bədəni zəifləmişdi. Bir gün İmam Baqirin(ə) məhzərinə nail oldu. Həzrət ondan soruşdu: "Ey Cabir, necəsən? Özünü necə hiss edirsən?" Cabir dedi: "Ey Peyğəmbər balası(ə), qocalığı cavanlıqdan, xəstəliyi sağlamlıqdan, ölümü diri qalmaqdan çox sevirəm." İmam Baqir(ə) buyurdu: "Amma mən belə deyiləm. Əgər Allah mənə cavanlıq bəxş edirsə, onu çox sevirəm. Qocalıq verirsə, qocalığı çox sevirəm. Əgər Allah mənə xəstəlik verisə, xəstəliyi, sağlamlıq bəxş edirsə, sağlamlığı sevirəm. Əgər Allah mənə ölüm göndərirsə, ölümü, həyat bəxş edirsə, həyatı sevirəm."

İmam Baqir(ə) bu sözləri Cabirə deməklə bildirir ki, Allah mənim barəmdə hər nə iradə edirsə, onu sevirəm.

Çünki bunu Allah özü istəyir. Onun bütün iradəsi qarşısında razı və təslimən.

Miqdad Peyğəmbərin(s) ən yaxın səhabələrindən biri idi. Bir gün Həzrət Peyğəmbərin(s) məhzərinə gəlib belə dedi: “Ya Rəsulallah, mən bilirəm ki, Sən Allahın Peyğəmbərisən. Sən mənə hər nə buyursan, mən can-başla hazıram. Əgər özümü oda atmağımı istəyirsənsə, mən hazıram. Mənə əmr etsən ki, özümü suya atıb boğulum ölüm, yenə də hazıram. Mənim üçün Sənin əmrindən başqa heç bir istəyim yoxdur. Sən hər nə iradə etsən, mən ona razı və təslimən. Sən Allahın Peyğəmbərisən. Sənin iradən Allahın iradəsidir. Mən sizin istəklərinizin və iradənizin qarşısında təslimən.”

Əmmar Yasir İslam aləmində tanınmış şəxsiyyətlərdən və Peyğəmbərin səhabələrindən biridir. Onun imanı o qədər çox idi ki, Həzrət Peyğəmbər(s) onun haqqında belə buyurmuşdu:

اِنَّ عَمّارًا مَلَئُ اِيماناً مِن قَرْنِهِ اِلى قَدَمِهِ وَاخْتَلَطَ الإيمانُ بِلَحْمِهِ وَ دَمِهِ

-Əmmar başdan-ayağa qədər imandır. Iman onun ətinə və qanına qarışmışdır.

Siffeyn müharibəsində Həzrət Əlinin(ə) dəstəsində iştirak edirdi. Bir gün dəstədən ayrılıb düşmən qoşunu ilə üz-üzə dayanaraq Allahla belə bir münacat etdi: İlahi, Sən bilirsən ki, əgər sənin rizayətin və razılığın mənim özümü dəryaya atmağımda olsa, mən bu işdən imtina etmərəm. Əgər sənin rizayətin mənim qılıncı qarnıma sancıb özümü öldürməyimdə olarsa, mən bu işi görərəm. İlahi, amma mən bu gün bilirəm ki, sənin mənim barəmdə rizayətin bundadır ki, bu fasiq insanlarla müharibə edim. Bilirəm ki, Sənin rizayətin mənim barəmdə Həzrət Əlini(ə) müdafiə etməkdir. İlahi, əgər bu əməldən gözəl bir əməl olsaydı,

gedib onu edərdim. Mən bu fasiq insanların əleyhinə müharibə aparmaqdan gözəl bir əməl tapmadım.

Sonra üzünü möminlərə tütüb dedi: Camaat, hər kim Allahın razılığını qazanmaq istəyirsə, qalxsın ayağa. Sonra Həzrət Əlinin(ə) məhzərinə gəlib dedi: Ya Əli, and olsun Allaha, mən sənə bəsirət gözümün açıqlığı ilə itaət edirəm. Çünki Hüneyn müharibəsində Həzrət Peyğəmbər(s) mənə belə buyurdu: "Ya Əmmar, məndən sonra fitnələr qalxacaq. Belə bir halda Əlinin(ə) ətəyindən möhkəm yapış. Əgər onun ətəyindən əlini üzsən, yolunu azacaqsan. Əli haqq illədir, haqq da Əli ilə."

Əmmar bu sözlərdən sonra düşmənə hücum edib döyüşməyə başladı. Onu şəhid edəndən sonra Həzrət Əli(ə) onun başı üzərinə gəlib Əmmarın başını dizinin üstünə qoydu. Əli(ə) heç vaxt döyüş meydanında heç vaxt ağlamazdı. Amma Əmmarın başını dizinin üstünə qoyub, üzünü təmizləyə-təmizləyə ağlayaraq buyurdu: "Ey ölüm, elə bil ki, sən də mənim dostlarımı tanıyırsan. Buna görə də bir- bir onları məndən almaq istəyirsən."

Diqqət etdikdə görürük ki, bu imanlı insanlar riza və təslimin mənasını tamamilə dərk edib, Allahın istəkləri və iradəsi qarşısında bütün hüceyrələri ilə təslim olmuşlar.

## Aşuraçıların əməllərində riza və təslimin nümunələri

Yuxarıda bəhsimizin müqəddiməsi olaraq insanın Allaha riza və təslim olması barədə nümunə üçün bir neçə ayə və hədisləri əziz möminlərin nəzərinə çatdırdım. Bütün bu ayələr və hədislər möminləri Allahın iradəsi qarşısında razı və təslim olmağa çağırır. Riza və təslim barədə bir çox hədis və rəvayətlər vardır. Bu barədə geniş

söhbətlər etmək olar. Bütün bu hədislər və rəvayətlər bizim üçün önəmli və mühümdür. Lakin İmam Hüseyn(ə) Kərbəlada aşura günü bu barədə olan bütün ayələrin və Peyğəmbər(s) və Əhli-beytin(ə) sözlərinin bariz nümunəsi kimi, bu dərsi əməli surətdə bizə öyrədir. İmam Hüseyn(ə) Mədinədən çıxıb Kərbəlada şəhid olana qədər bütün hərəkətlərində Quranın ayələrinə, Peyğəmbərin və Əhli-beytin kəlamlarına əməl etdi. Həzrətin(ə) bütün hərəkətləri yalnız Allahın rizayəti əsasında qurulmuşdu. Bu barədə bir neçə nümunəni möminlərin nəzərinə çatdırıram:

**Birinci nümunə:**

İmam Hüseynin(ə) dövründə Kərbəla hadisəsi Mədinənin valisinin o Həzrəti(ə) dəvət edib, Yezidə beyət istəməsindən başlandı. Bu barədə ötən bəhslərdə söhbət olunmuşdur. Qısaca onu qeyd edim ki, Vəlid İmam Hüseyni(ə) dəvət edib Yezidin məktubunu oxuduqdan sonra İmam Hüseyn(ə) bildirdi ki, Yezid fasiq, fasid, itbaz, əyyaş, şərabiçən bir adamdır. Mənim kimi insanlar onun kimilərinə heç vaxt beyət etməzlər. İmam Hüseyn(ə) həmin gecə oradan çıxıb birbaşa babası Peyğəmbərin(s) qəbrinin kənarına gedərək, Peyğəmbəri(s) ziyarət edib Allahla münacat etdi. Ikinci gecə Mədinədən hərəkət edən zaman yenə babasının qəbri kənarına gəlib ziyarət etdikdən sonra Allahla belə münacat etdi:

اَللّهُمَّ اِنَّ هذا قَبرُ نَبِيِّكَ مُحَمَّد(ص) وَ اَنَا ابْنُ بِنْتِ نَبِيِّك وَ قَد حَضَرَنِى مِنَ الأَمر ما قَد عَلِمْتَ. اَللّهُمَّ اِنِّى أُحِبُّ الْمَعرُوف وَ أُنْكِرُ الْمُنْكَر وَ اَسْئَلُكَ يا ذَاالْجَلالِ وَالإِكْرام بِحَقِّ الْقَبْر وَمَن فِيهِ اِلاّ اخْتَرْتَ لِى مَا هُو لَكَ رِضىً وَ لِرَسُولِكَ رِضىً

İlahi, bu Sənin Peyğəmbərin Məhəmmədin(s) qəbridir. Və mən də Peyğəmbərinin qızının oğluyam. Mənim qarşıma bir çətinlik çıxıb və Sən də bunu bilirsən. İlahi, mən mərufu sevirəm. (Sənin razı olduğun işləri sevirəm) Və münkərdən acığım gəlir. (Sənin acığın gəldiyin işlərdən mənim də acığım gəlir). Ey cəlal və kərəm sahibi, sənə bu qəbrə və bu qəbrdə yatan insana and verirəm, Sənin və Peyğəmbərinin razı olduğu işləri mənim barəmdə inayət et.

İmam Hüseyn(ə) bu münacatında bildirir ki, İlahi, mən Səndən öz istəklərimi deyil, Sənin Öz istəklərini mənim barəmdə inayət et. Mənim qarşıma çıxartdığın hər bir əməldə Sənin və Peyğəmbərinin rizayəti olsun. Sənin və Peyğəmbərinin mənim barəmdə razı olduğu bütün şeylərə mən də razıyam. İmam Hüseyn(ə) bu münacatı edəndən sonra Mədinədən çıxıb hərəkət etməyə başladı. İmam Hüseyni(ə) Allahın rizayətindən başqa heç bir şey maraqlandırmırdı. Bu o deməkdir ki, əgər Hüseynin ölməyində Allahın rizayəti varsa, İmam Hüseyn(ə) buna razı və bu iradənin qarşısında təslim idi.

**İkinci nümunə:**

İmam Hüseyn(ə) Mədinədən çıxıb Məkkə şəhərinə gəldi və bir müddət orada qaldı. Camaat dəstə-dəstə ziyarət üçün Məkkəyə gəlirdi. Həcc əməllərinin başlanmasına bir neçə gün qalmış İmam Hüseyn(ə) xəbər tutdu ki, Əmr ibn Səd ibn As Yezidin fərmanı ilə Məkkəyə gəlib. Onun gəlişinin məqsədi Yezidin göstərişinə əsasən İmam Hüseyni(ə) öldürmək idi. Zahirdə özünü Həcc zəvvarı kimi göstərirdi. Amma göstəriş almışdı ki, İmam Hüseyni(ə) harada görsə, öldürsünlər. Hamı kimi ehram paltarı geyinib zəvvarların arasında

özünü həcc ziyarətinə gələnlərə oxşadırdı. İmam Hüseyn(ə) onun niyyətindən xəbərdar oldu. Həzrət(ə) gördü ki, əgər Məkkədə qalsa və bunlar da məni terror surətində öldürsələr, həm mənim sözüm boğazımda qalacaq və camaata sözümü və məntiqimi çatdıra bilməyəcəyəm. Həm də qan tökülməklə Məkkənin hörməti aradan gedəcək. Buna görə də İmam Hüseyn(ə) Məkkədən çıxmağı qərara aldı. Camaat İmamın(ə) Məkkədən çıxmaq fikrində olduğundan xəbərdar olub, Həzrətin(ə) məhzərinə gələrək dedilər: "Ağa, hamı ziyarətə gəlir, amma sən Məkkəni tərk edirsən?" Hamı İmam Hüseynə(ə) öz fikrini bildirib nəsihət edirdilər. İmam Hüseyn(ə) hamıya necə lazımdırsa cavab verib onlara bu hərəkatın səbəblərini başa salırdı. İmam Hüseyn(ə) onların hər birinə mərifətləri qədər cavab verirdi. Zilhəccə ayının səkkizinci günü Məkkədən çıxarkən Həzrət(ə) həm Bəni-Haşimi, həm də onun məhzərində olanları bir yerə cəm edib, bir xütbə oxudu. Həmin xütbənin bir hissəsini nəzərinizə çatdırıram. İmam Hüseyn(ə) bismillah və salam-salavatdan sonra buyurdu:

-Ürəyim ata babamı, sələflərimi görmək üçün yaman darıxır. Yaqub Yusifi şövq ilə görmək üçün tələsdiyi kimi, mən də ata babamı cənnətdə görmək üçün bu şövqlə tələsirəm. Mənim üçün bir qətlgah müəyyən olunmuşdur. Mən orada olacağam. Elə bil gözlərimlə Nəvavis və Kərbəla arasında çöllərin yırtıcı heyvanlarının məni parcaladığını gözümlə görürəm. Onlar öz qarınlarını mənim ətimi parçalayıb yeməklə doldururlar. Bu mənim qəza-qədərimdə yazılmışdır. Mənim başqa çarəm yoxdur. (Çünki mən Allahıma söz vermişəm) Allahın rizayəti biz Əhli-beytin rizayətidir. (Allahım məndən bunu istəyirsə, mən də bunu istəyirəm) Allah tərəfindən bizə hər nə bəla gələrsə,

biz ona dözüb səbr edəcəyik. Allah səbr edənlərin əcrini inayət edəcək.

İmam Hüseyn(ə) bu xütbədə açıq danışaraq bilirdi ki, onu Kərbəla çölündə öldürüb başını kəsəcəklər. Bütün bu işgəncələrə və olacaqlara baxmayaraq, Allahın rizayətinin bunda olduğu üçün, o da razı idi. Həqiqi riza və təslim bu deməkdir. Riza və təslim insanda elə bir haldır ki, hər kəs bu halı özündə yarada bilmir. Bəzən insanlar bir işi gördükdə özü üçün sərfəli olduğundan deyir ki, Allahın rizayəti də bu işdə var. Əsl həqiqətdə özünə sərf edən işi görür. Amma Allahın rizayəti olan çətin bir əməli özünə ağır gəldiyindən əməl edə bilmir. Əgər özü üçün sərfəli olsaydı, onu da Allahın rizayətinə bağlayıb görəcəkdi. İmam Hüseyn(ə) üçün fərq etmirdi, hər hansı bir işdə və hər hansı bir yerdə Allahın razılığı var idisə, Həzrət(ə) orada idi.

**Üçüncü nümunə:**

Ərəblərin Fərəzdəq adlı tanınmış bir ədəbiyyatçı və şairi var idi. O deyir: "Anamla Məkkə ziyarətinə getmişdim. Xəbər tutdum ki, İmam Hüseyn(ə) Məkkədən çıxmaq istəyir. Məkkənin çıxacağında özümü Həzrətə(ə) yetirib salam verdim. İmam Hüseyn(ə) salamımın cavabını alıb halımı soruşdu. Azacıq söhbət etdikdən sonra mən Həzrətdən(ə) soruşdum: Ey Allahın höccəti, nə üçün həcc əməllərini etmədən Məkkədən çıxdınız? İmam Hüseyn(ə) bir cümlə ilə mənə cavab buyurdu: "Əgər oradan çıxmağa tələsməsəydim, məni öldürəcəkdilər." Fərəzdəq daha heç bir söz demədi. İmam Hüseyn(ə) ondan soruşdu: "Sən Kufədən çıxarkən oranın vəziyyəti necə idi?" Fərəzdəq Həzrətə(ə) bir ədəbiyyatçı və şairanə cavab verərək dedi: "Camaatın qəlbi səninlə, qılınclarını isə sənin əleyhinə

itiləyiblər.” İmam Hüseyn(ə) buyurdu: “Doğru deyirsən, əmr Allahındır və hər günün öz hökmü vardır. Əgər bu gedişlə məqsədimizə çatsaq, o zaman Allaha həmd-səna edəcəyik. Amma bizim məqsədimizlə həmin çatacağımız əməllərin arasını qəza- qədər kəsərsə, bu yolda qədəm qoyan insanlar yenə də təqva yolu ilə hərəkət etmişlər və Allahın rizayətindən kənara qədəm qoymamışlar. (Yəni bu məqsədimizə çatsaq da çatmasaq da, hər iki halda Allahın rizayəti bizimlədir.)”

**Dördüncü nümunə:**

Həzrət(ə) Məkkədən hərəkət edib yola düşdü. Üzeybül-Həcanat adlı bir məntəqəyə yetişdi. Orada beş nəfərlə görüşüb söhbət etdi. Onlardan biri Əmr ibn Xalid, biri Səd, biri Məcmə, biri Nafe ibn Hilal, biri isə Tərümmah ibn Ədi idi. Onlar həmin yerdə Həzrəti(ə) ziyarət etdilər. Bir az söhbət etdikdən sonra dedilər: “Ey Peyğəmbər balası(ə), Tərümmah sənin üçün yolda çox gözəl şerlər oxuyurdu.” Tərümmahdan istədilər ki, həmin şerləri İmam(ə) üçün bir də oxusun. Tərümmah şerləri oxuyandan sonra Həzrət(ə) buyurdu:

اَما وَاللهِ اِنِّ لاَرْجُو اَنْ يَكُونَ خَيْراً مَا اَرادَاللهُ بِنا قُتِلْنا اَم ظَفَرْنا

-Öldürülsək də, zəfər çalsaq da belə, Allahdan istəyirəm ki, bizim barəmizdə xeyir iradə etsin.

**Beşinci nümunə:**

Əbu Müxnəf İmam Səccaddan(ə) belə nəql edir: “Aşura gecəsi atam öz qılıncını itiləmək üçün Abuzərin qulamına vermişdi. Qulam qılıncı itiləyə-itiləyə atam belə bir şeir zümzümə edirdi:

.

يا دَهر اُفٍّ لَكَ مِن خَلِيلِ

كَم لَكَ بِالإِشراقِ وَ الأَصِيلِ

مِن صاحِبٍ اَو طالِبٍ قَتِيلِ

وَالدَّهرُ لا يَقْنَعُ بِالْبَدِيلِ

وَ اِنَّما الأَمر اِلى الجَلِيلِ

كُلُّ حَيٍّ سالِكٌ السَبِيلِ

"Ey ruzigar, sən nə qədər də pissən, dostları əldən alırsan! Bəli, ruzigar belədir, lakin iş ruzigarın və fələyin əlində deyil, iş Allahın əlindədir, biz Allahın razı olduğu işə razıyıq, Allahın bizə istədiyini biz istəyirik."

Xanım Zeynəb(s.ə) bu şeri eşidib İmam Hüseynə(ə) belə ərz etdi: “Qardaşım, bu şeri insan özünü ölümə hazırlayarkən oxuyar.” İmam Hüseyn(ə) buyurdu: “Bəli, doğrudur. Mən də bu şeri elə o məqsəd üçün oxuyuram.” Xanım Zeynəb(s.ə) ağlayıb ərz etdi: “Babam Peyğəmbər(s) dünyadan getdi, atam Əli, anam Fatimə və qardaşım Həsən şəhid oldular. Indi də sən öz ölümündən və şəhadətindən xəbər verirsən.” Bu sözləri deyəndən sonra həm Xanımın özü, həm də orada olanların həmısı ağladılar. İmam Hüseyn(ə) buyurdu: “Allahın səbri ilə səbr et və Allahın qəzası (hər bir məsləhəti) ilə razı ol.”

*Sinəvi qəmlər oxuna baz elə*
*Hişməte nasutiyə sən naz elə*
*Aləme lahutiyə pərvaz elə*
*Fatimə tək eşqdə ecaz elə*
*Əhməde Muxtari sərəfraz elə.*
*Səy elə, ol silsilə cunbane-eşq*
*Ruzi əzəl mətrəh olanda bəla*

*Çatdı bəla ilə bizə Kərbəla*
*Mən bu biyabanidə ollam fəna*
*Ta nəfəsin var, sənə var ibtila*
*Eşq giriftarinə yoxdur dəva.*
*Dərdidür tənha, bacı, dərmane-eşq*
*Eşqimizin var əbədi dövləti.*
*Həqq özü vermiş bizə bu neməti,*
*Neyləyirəm cano səru itrəti,*
*Bəsdi mənə dilbərimin vəsləti,*
*Xəncəro-şəmşir ilə var ləzzəti,*
*Yar baxa, doğrana qurbane-eşq.*

İmam Hüseynin(ə) bu sözləri xanım Zeynəbin ürəyini dağ kimi möhkəmləndirdi.

**Altıncı nümunə:**

Kərbəla hadisəsindən sonra əsirləri İbn Ziyadın sarayına gətirdilər. Xanım Zeynəb(s.ə) gəlib əyləşdi və bütün qızlar da onun kənarında əyləşdilər. İbn Ziyad baxıb dedi: Bu qadın kimdir belə, hamı onun ətrafında əyləşib? Heç kəs ona cavab vermədi. İbn Ziyad bir də soruşdu: Dedilər, bu Peyğəmbərin qızı Fatimənin qızı Zeynəbdir. İbn Ziyad Xanım Zeynəbin(s.ə) adını eşidən kimi baxıb dedi:

اَلْحَمْدُ للهِ الَّذِى قَتَلَكُم وَ فَضَحَكُم

-Həmd-səna olsun Allaha ki, sizi rüsvay edib qətlə yetirdi.

Xanım Zeynəb(s.ə) ona belə cavab verdi:

اَلْحَمْدُ للهِ الذِى اَكْرَمَنا بِنَبِيِّهِ مُحَمَّد وَ طَهَّرَنا مِنَ الرِّجْس تَطْهِيرا ، اِنَّما يُفْتَضَح الفاسِق و يَكْذِب الفاجِر وَ هُو غَيْرنَا

-Həmd osun Allaha ki, bizi Peyğəmbər Məhəmmədlə(s) əzizlədi və hər növ çirkinlikdən pakladı. Şübhə yoxdur ki, fasiq rüsvay olar və facir yalan deyər. O isə biz deyilik, sizsiniz.

İbn Ziyad dedi:

كَيْفَ رَاَيْت صُنعَ اللهِ بِاَخِيكَ وَ اَهْلِ بَيْتِك

-Allahın qardaşına və əhli-beytinə etdiyini necə, gördün?

مَا رَئَيْتُ اِلاّ جَمِيلاً هؤلاء قَومٌ كَتَبَ اللهِ عَلَيْهِم القَتْل فَبَرَزُوا الى مضاجعهم، و سيجمع الله بينك و بينهم، فَانظُر لِمَن يَكون الفلج، ثَكَلَتكَ اُمُّكَ يا ابْن مَرْجانَة...

Xanım Zeynəb(s.ə) buyurdu: “Gözəllikdən başqa bir şey görmədim. Onlar elə insanlardır ki, «Allah şəhadəti onların müqəddəratına qismət etdi və onlar öz qətlgahlarına qovuşdular. Tezliklə, Allah səninlə onları bir yerə cəm edər. Elə isə bax gör qələbə kimə məxsusdur? Anan matəminə otursun, ey Mərcanənin oğlu!.."

*Qorx o gündən bizə Cibrili Əmin yavər ola,*
*Qurula məhkəmə, Allah arada davər ola,*
*Sən ilən Hərmələ, mənnən də Əli Əsğər ola.*

İmam Hüseynin(ə) moizələri və sözləri nəticəsində Xanım Zeynəb (s.ə) dağ kimi möhkəm olmuşdu. Buna görə də Kərbəladan sonra bütün hadisələrdə səbr və izzətlə dayanırdı. Hər bir çıxışı və sözləri tərəf-müqabilinin ürəyinə ox kimi sancılırdı. Həm İmam Hüseyn(ə), həm də onun yar və ənsarı Allahın rizayəti altında hərəkət etdilər. Hər bir yerdə, hər bir əməldə Allahın rizayəti var idisə, onlar da orada idilər. İmam Hüseynin(ə) mübarək ürəyinə ox dəyəndə belə buyurdu: “Bismillah və billah, və la hovlə

vəla quvvətə illa billah. Bu insan Allahın razılığına xatir öldürülür.”

*Qəbri şeşquşe yerin dideyi binasi gəzir,*
*Köməyə hacəti var, Xizri, nə İlyası gəzir,*
*Çox baxır əlqəmə sarı, şərəfünnası gəzir,*
*Özü atdan yıxılır, gözləri Abbası gəzir.*

Həzrət(ə) son nəfəsində mübarək üzünü isti torpaqlar üzərinə qoyub Allahla belə münacat edirdi: “Ey mənim Rəbbim, Sənin qəza- qədərinə razıyam. Sənin bütün əmrlərinə təslimən. Sənin razı olduğun hər bir şeyə mən də razıyam. Səndən başqa mənim məbudum yoxdur. Ey çarəsizlərin ən ulu Pənahı.”

Beləliklə, Kərbəlanın bizə öyrətdiyi dərslərdən biri budur ki, insan Allahın əmrinin qarşısında razı və təslim olsun. Namaz, oruc, Həcc və Allahın vacib etdiyi hər bir əməli yerinə yetirməli, həmçinin Allahın haram etdiyi hər bir şeydən çəkinməlidir. Bir sözlə, mömin odur ki, Allahın tərəfindən hər bir əmrin qarşısında təslim olsun.

# ON BEŞİNCİ DƏRS

## İSAR VƏ FƏDAKARLIQ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رَسُول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

İmam Hüseynin(ə) yaratdığı inqilab və Kərbəlada aşura günü bizə öyrətdiyi dərslərdən biri isardır. Isar barədə bir çox ayə və hədislər vardır. Quranın bu haqda buyurduğu ayələrdən birini əziz möminlərin nəzərinə çatdırdıqdan sonra isarın mənaları ilə tanış olub bəhsimizi davam edəcəyik. “Həşr” surəsinin 9-cu ayəsi mühacir və ənsarlar barədə olan ayədir. Mühacirlər o kəslərdir ki, Peyğəmbərlə(s) birgə Mədinəyə hicrət etmişdilər. Ənsarlar isə Mədinədə Peyğəmbərə(s) iman gətirib, Həzrətə(s) köməkçi olan insanlardır. Əlbəttə, mühacir və ənsarların öz aralarında dərəcələri barədə bir sıra söhbətlər etmək olar ki, bəhsimizdən uzaq düşməmək üçün bu söhbətin üstündən ötəri keçirəm. Bu ayədən öncəki ayələrdə qənimətlər, beytülmal və onun kimlər üçün olduğu barədə söhbət olunduqdan sonra 9-cu ayədə belə buyurulur:

وَالَّذِينَ تَبَوَّؤُوا الدَّارَ وَالْإِيمَانَ مِن قَبْلِهِمْ يُحِبُّونَ مَنْ هَاجَرَ إِلَيْهِمْ وَلَا يَجِدُونَ فِي صُدُورِهِمْ حَاجَةً مِّمَّا أُوتُوا وَيُؤْثِرُونَ عَلَى أَنفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ وَمَن يُوقَ شُحَّ نَفْسِهِ فَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ

Həm də *(ənsardan)* o kəslər üçündür ki, hicrət və iman evini *(Mədinə mühitini)* özü üçün yurd seçib onlara tərəf hicrət edənləri sevər, onlara *(mühacirlərə)* verilən qənimətə görə ürəklərində həsəd duymaz, özləri ehtiyac içində olduqları halda onları özlərindən üstün tutarlar. Nəfsin xəsisliyindən qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapanlardır.

Bu ayədə möminlərin gözəl xislətlərindən bir neçəsi bəyan olunmuşdur. Əsas bəhsimiz isə bu ayədə olan xislətlərdən biri barədədir ki, Allah-təala buyurur: “Özləri ehtiyac içində olduqları halda onları özlərindən üstün tutarlar”. Yəni möminlərin gözəl sifət və xüsusiyyətlərindən biri budur ki, isar edib başqalarını özlərindən üstün tutarlar.

Bu ayənin şəni-nüzulu belədir. İbn Abbas deyir: “Müsəlmanlar Bəni-Nəzir yəhudiləri ilə döyüşüb qələbə çaldıqdan sonra, müəyyən miqdar qənimət götürdülər. Peyğəmbər(s) ənsarları çağırıb belə bir təklif verərək buyurdu: Sizin öz şəxsi mal-dövlətiniz özünüzdə qalsın, müharibədən əldə etdiyiniz bu malıın hamısını isə mühacirlərə bağışlayın.[1] Ya da ələ gələn qənimətlə öz mallarınızı qarışdırıb mühacirlərlə bərabər bölüşdürün. Həzrət Peyğəmbər(s) bu təklifi edəndən sonra ənsarlar dedilər: Ya Rəsulallah(s), müharibədən əldə edilən qənimətlərin hamısını mühacirlərə veririk. Bundan əlavə, öz şəxsi əmlak və mallarımızı da onlarla bölüşdürürük.”

---

[1] Müharibədən əldə olunmuş qənimətdə hamının haqqı var idi. Çünki döyüşdə həm ənsarlar iştirak edirdi, həm də mühacirlər. Buna görə də bu qənimətdən hər iki dəstəyə pay düşürdü. Həzrət Peyğəmbər(s) təklif irəli sürdü ki, ənsarlar yerli əhali olduqları üçün və şəxsi evləri və malları olduğu üçün ənsarların öz malları özlərində qalsın və bu qənimətdən onlara çatacaq payları da mühacirlərə versinlər.

Onların bu sözündən sonra Allah-təala qeyd olunan ayəni Həzrət Peyğəmbərə(s) nazil etdi. Ənsarların imanları o qədər çox idi ki, onlar mühacirləri özlərindən çox istəyirdilər. Mühacirlərə hər nə verilirdisə, ənsarlar zərrə qədər də paxıllıq, həsəd etmirdilər. Əksinə öz sevdiklər və özlərinin ehtiyacı olduğu şeyləri də onlara verirdilər. Başqalarını özlərindən üstün hesab edirdilər.

## İsarın mənası

Burada bir mətləbi nəzərinizə yetirirəm. Bu ayə bizə isar etməyi öyrədir. Indi görək isar deyilən bu xüsusiyyətin mənası nə deməkdir? Lüğətdə bu sözün mənası belədir ki, əgər bir insan öz malını başqasına bağışlayarsa, bu əməlin adına isar deyilir. Insan başqasının mənfəətini öz mənfəətindən üstün sayarsa, bu əmələ də isar deyilir. Həmçinin insan özünün ehtiyacı olduğu malı, özünə xərcləmədən başqası üçün xərcləyərsə, bu əmələ isar deyilir. O cümlədən insan özünü başqasına görə zəhmətə salarsa, bu əmələ də isar deyilir. Bu, isarın lüğəvi mənasıdır.

## Müvasatla isarın fərqi

Müvasat o əmələ deyilir ki, insanın imkanı var və həmin imkandan həm özü istifadə edir, həm də başqalarına verir. Məsələn, bir insanın içməyə suyu var, o sudan həm başqalarına verir, həm də özü içir. Bu və bu kimi əmələ müvasat deyilir. Bu əməl isar mənasındadır, lakin bir pillə isardan aşağıda yer tutur. Çünki isar o əməldir ki, özünün bir şeyə ehtiyacı olduğu halda, ondan keçib başqasına verir. Məsələn, iki nəfər susuzdur və onlardan birinin bir içimlik suyu vardır. Həmin şəxs öz

suyunu özü içmədən, o biri şəxsi özündən üstün tutaraq suyunu ona verir.

## İsarın növləri və qismləri

Bir mətləbi də əlavə etmək lazımdır ki, isarı üç qismə bölmüşlər. Birincisi budur ki, insan öz malı ilə isar edir. Məsələn, bir insan susuzdur. Ona içmək üçün bir stəkan su verirlər. O, suyu içmək isəyərkən baxıb görür ki, başqa biri susuzdur. O, suyu həmin şəxsə verir və özü içmir. Deməli, bu şəxs o biri insanı özündən üstün saydığı üçün isar etmişdir. Bir stəkan suyu misal olaraq qeyd etdim. Təkcə su verməklə deyil, elə insanlar vardır ki, çoxlu mal-dövlətindən, pulundan və s. əmlakından keçib, başqasına verməklə isar etmişlər. Bu və buna bənzər əməllərə mal cəhətdən olan isar deyilir. Ikinci qism isar odur ki, insan öz abrı üçün haqqından keçərək isar edir. Isarın üçüncü qismi isə insanın başqasına görə canından keçməsidir. Məsələn, bir uşaq odun içinə düşür. Başqa biri özünü oda atıb uşağı xilas edir. Özü yanmağına razı olur, amma uşağın və ya başqa bir insanın yanmasına razı olmur. Buna isar deyilir.

İsar ən gözəl xüsusiyyətlərdən və cəmiyyətin nurani olmasında mühüm rol oynayan ən gözəl əməllərdən biridir. İslamın nəzərində hər bir cəmiyyətdə nuraniyyət, fəzilət yaratmaq üçün və həmin cəmiyyətdə fəzilətli insanların tərbiyə olunması üçün mütləq həmin cəmiyyətdə isar olmalıdır. Yəni həmin cəmiyyətdə yaşayan insanlar isar əhli olsunlar. Nümunə üçün tarixdə isar edən insanlar barədə bir sıra nümunələri əziz möminlərin nəzərinə yetirirəm:

**Mal ilə isar etmək**

Bir nəfər Həzrət Peyğəmbərin(s) məhzərinə gəlib dedi: "Ya Rəsulallah, uzaq yerdən gəlmişəm. Neçə gündür ki, heç nə yeməmişəm. Mənə yeməyə bir şey tapılarmı?" Həzrət Peyğəmbər(s) bir nəfəri öz evinə göndərib buyurdu: "Get gör bizim evdə bir şey varsa, gətir gəl." Həmin şəxs Peyğəmbərin(s) evinə getdi. Bir az keçməmiş əli boş qayıdıb dedi: "Ya Rəsulallah(s), evdə sudan başqa heç bir şey yoxdur." Peyğəmbər(s) üzünü orada əyləşən möminlərə tutub buyurdu: "Kim bu qəribi bu gecə öz evinə qonaq aparmaq istəyir? Bir nəfər ayağa qalxıb dedi: Ya Rəsulallah(s), mən bu şəxsi öz evimə dəvət edirəm. Qonaqla birgə evə gəldilər. Həyat yoldaşı ilə söhbət edib evdə yeməyə nə olduğunu soruşdu. Həyat yoldaşı dedi: Evdə yeməyə heç nəyimiz yoxdur. Sadəcə bir az uşaqlar üçün yemək saxlamışam. Ev yiyəsi dedi: Gəl uşaqların payını bu qonağa verək. Həyat yoldaşı dedi: Əgər biz o yeməyi bu qonağa verib özümüz kənarda dayansaq, o, hiss edəcək ki, bizim bundan artıq heç nəyimiz yoxdur. Ev yiyəsi dedi: onda gəl çıraqları söndürək və yeməyi onun qarşısına qoyaq. Qoy o elə başa düşməsin ki, biz yemirik. Razılaşıb elə də etdilər. Qonaq yeməyi yeyib doydu. Səhəri gün hər ikisi Peyğəmbərin(s) məhzərinə gəldilər. Peyğəmbər(s) onları uzaqdan görüb gülümsəyərək "Həşr" surəsinin 9-cu ayəsinin bu hissəsini oxudu:

وَيُؤْثِرُونَ عَلَى أَنفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ

-Özləri ehtiyac içində olduqları halda, onları özlərindən üstün tutarlar.

Əbu Hüreyrə deyir: "Qonağı evinə aparıb özlərinin ehtiyacları olduğu uşaqların yemək paylarını ona verən Peyğəmbərin(s) əmisi oğlu Əli(ə) idi.

Həzrət Peyğəmbərin(s) həm özü belə idi, həm də onun Əhli-beyti. Onun həm özünün, həm də Əhli-beytinin əməlləri Quranın ayələri kimi idi.”

Ayişə deyir: “Peyğəmbər(s) ömrünün son üç günündə heç nə yeməmişdi. Dünyadan gedəndə də ac getdi. Əgər özünü doyurmaq istəsəydi, yeyə bilərdi. Amma onun üçün yemək gətirdikdə, öz payını yanında yeməyə ehtiyacı olan bir şəxsə verirdi.”

İmam Sadiq(ə) buyurur: “Atam İmam Baqir(ə) bir gün Quran oxuyurdu. “Insan” surəsinin 6-7-ci ayələrini oxuduqdan sonra belə buyurdu: Bir gün İmam Həsən(ə) və İmam Hüseyn(ə) xəstələnmişdilər. Həzrət Peyğəmbər(s) məsciddə iki nəfərlə əyləşmişdi. Uşaqların xəstələndiyindən xəbərdar olan kimi, yanında olan şəxslərə buyurdu ki, gedək Həsənlə, Hüseynə baş çəkək. Ayağa qalxıb Həzrət Əlinin evinə gəldilər. Peyğəmbərlə gələn iki nəfərdən biri dedi: Ya Əli, yaxşı olardı ki, bu uşaqların şəfa tapması üçün bir şey nəzir edəsən. Həzrət Əli(ə) buyurdu: Mən üç gün oruc tutmağı nəzir etdim. Xanım Fatimeyi Zəhra(s.ə) buyurdu: Mən də üç gün oruc tutmağı nəzir edirəm. İmam Həsənlə İmam Hüseynin özü də nəzir etdilər ki, şəfa tapandan sonra üç gün hamımız birgə oruc tutacağıq. Xanım Zəhranın(s.ə) qulluqçusu Fizzə də onlara qoşuldu. Ev sakinləri nəzir etdikdən sonra uşaqlar şəfa tapdılar. Sağalandan sonra nəzir etdikləri orucu tutmağa başladılar. Birinci gün iftar vaxtı hamı iftar etmək üçün süfrə kənarına əyləşdi. Xanım Zəhra(s.ə) beş ədəd çörək bişirmişdi. Hər nəfərə bir çörək düşürdü. Elə iftar açmağa başlamaq istəyirdilər ki, birdən qapı döyüldü. Həzrət Əli(ə) qapını açıdıqda bir şəxsin qapıda dayandığını gördü. Həmin şəxs dedi: Salam olsun sizə ey Məhəmmədin(s) Əhli-beyti. Mən miskin və yoxsul bir

müsəlmanam. Yeməyə ehtiyacım var. Öz yeməyinizdən mənə də əta edin. Allah cənnətin nemət və süfrələrindən sizə mərhəmət etsin. Həzrət Əli(ə) gəlib Xanım Zəhranın(s.ə) tərifində bir şeir oxudu və məsələni o xanıma danışdı. Xanım Zəhra(s.ə) buyurdu: Mən öz haqqımı həmin yoxsula verirəm. Həzrət Əli(ə) də, uşaqlar da öz paylarını həmin yoxsula verdilər. Həmin gecəni su ilə iftar edib yatdılar. Səhəri gün yenə oruc tutdular. Həzrət Əli(ə) məsciddə namazı qılıb evə gəldi və hamı iftar süfrəsinə əyləşdi. Iftar açmaq istəyərkən yenə qapı döyüldü. Həzrət Əli(ə) qapını açdıqda bir şəxin qapıda dayandığını gördü. Həzrət onun nə istədiyini soruşduqda həmin şəxs dedi: Salam olsun sizə ey Məhəmmədin(s) Əhli-beyti. Mən yetim bir müsəlmanam. Mənə öz yeməyinizdən əta edin. Həzrət Əli(ə) Xanım Zəhranın(s.ə) yanına gəlib, o xanımın barəsində bir şeir oxuduqdan sonra qapıda dayananın halından onu xəbərdar etdi. Ev sakinləri yenə də iftar edəcəkləri yeməyi həmin yetimə verdilər və həmin gecəni də su ilə iftar edib yatdılar. Üçüncü gecə iftar vaxtı yenə qapı döyüldü. Bu dəfə əsir bir adam yemək üçün onların qapısına gəlmşdi. O gecə də öz yeməklərini həmin əsirə verib su ilə iftar etdilər. Beləcə, üç gecə ac yatdılar. Səhəri gün Həzrət Əli(ə) İmam Həsən və İmam Hüseynin əlindən tutub məscidə gəldi. Acından uşaqların rəngi saralmış və bədənləri titrəyirdi. Həzrət Peyğəmbər(s) uşaqları bu halda gördükdə Əlidən(ə) soruşdu: “Niyə uşaqlar bu vəziyyətdədirlər.” Həzrət Əli(ə) əhvalatı Peyğəmbərə(s) danışdı. Həzrət Peyğəmbər(s) buyurdu: “Elə isə qalxın, birlikdə Fatimənin yanına gedək. Hamı birgə Xanım Zəhranın(s.ə) yanına gəldilər. Peyğəmbər(s) qızını bağrına

basdı. Elə bu haldaca Həzrət Cəbrayıl(ə) nazil olub bu ayələri gətirdi.

إِنَّ الْأَبْرَارَ يَشْرَبُونَ مِن كَأْسٍ كَانَ مِزَاجُهَا كَافُورًا. عَيْنًا يَشْرَبُ بِهَا عِبَادُ اللَّهِ يُفَجِّرُونَهَا تَفْجِيرًا. يُوفُونَ بِالنَّذْرِ وَيَخَافُونَ يَوْمًا كَانَ شَرُّهُ مُسْتَطِيرًا. وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا. إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنكُمْ جَزَاء وَلَا شُكُورًا

*(Orada)* elə bir bulaq *(vardır)* ki, Allah bəndələri ondan içəcək və onu hər hansı bir tərzdə istəsələr, axıdacaqlar.

Onlar öz nəzirlərinə əməl edər, şəri və əzabı olduqca geniş olan bir gündən qorxarlar.

Və onlar yeməklərini, özləri*(nin ehtiyacı olub çox)* istədikləri halda Allaha olan məhəbbət üzündən fəqirə, yetimə və əsirə verərlər.

*(Onlar həm dildə, həm də qəlbdə deyərlər:)* «Biz sizə Allah rizası üçün yemək veririk. Biz sizdən hər hansı bir mükafat və təşəkkür istəmirik».

«Həqiqətən, Biz öz Rəbbimizdən, çox sərt, olduqca çətin, dəhşətli *(və üzlərin tutulub qaralacağı)* gündən qorxuruq».

Allah onları o günün şərindən saxladı və onları şadlıq və sevinclə üzləşdirəcəkdir.

Və onları etdikləri səbr müqabilində *(üstün bir)* cənnətlə və *(zərif)* ipəklə mükafatlandıracaqdır.

Bu ayələri Allah-təala onların barəsində nazil etdi. Ayədə həm yoxsulun, həm yetimin, həm də əsirin adı çəklilir. Ümumiyyətlə, həm Peyğəmbər(s), həm də Əhli-beyti(ə) öz istədiklərini və özlərinin ehtiyacları olduğu şeyi verməyi əsirgəmirdilər. Bu əzəmətli və şərafətli insanlar ömürlərinin əvvəlindən axırına qədər başqalarını

özlərindən üstün tutmuşlar. Ixtiyarlarında olduğu və özlərinin ehtiyacı olduğu bir şeyi başqalarına verərdilər.

Bir gün Həzrət Əli(ə) bazardan özü üçün bir köynək aldı. Aldığı köynəkdən çox xoşu gəldi. Sonra həmin köynəyi sədəqə verdi. Sədəqə verəndən sonra buyurdu: “Allahın Rəsulundan eşitmişəm ki, hər kim isar edib başqasını özündən üstün tutarsa, qiyamət günü Allah-təala cənnəti həmin şəxsin ixtiyarında qoyacaq.”

Başqa bir hədisdə vardır ki, bir gün Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) buyurdu: “Oğlum, bir ildir ki, könlümdən ciyər keçir. Bir az ciyər yesəydim, yaxşı olardı. İmam Həsən(ə) gedib ciyər aldı və bişirdi. Həmin gün Həzrət Əli(ə) oruc tutmuşdu. Iftar vaxtı ciyəti Həzrətin(ə) qarşısına qoydu. Elə bu zaman bir dilənçi qapını döydü. Həzrət Əli(ə) yeməyə baxıb oğluna buyurdu: Oğlum, düzdür ki, mən sənə ürəyimdən ciyər yemək keçdiyini danışdım. Amma apar bu yeməyi o dilənçiyə ver. Qoy qiyamət günü Allah bizə “Əhqaf” surəsinin 20-ci ayəsini oxumasın: «Siz dünya həyatınızda bütün kef və ləzzətlərinizi aldınız, orada bəhrələndiniz.»

Əgər biz İslam tarixində Peyğəmbər(s) və Əhli-beyti(ə) barədə belə hadisə və rəvayətlərdən günlərlə danışsaq, yenə də bitməz. Çünki onların hamısının həyatı və hər günü belə məsələlərlə doludur. Buna görə də bir neçə nümunəni sizin üçün qeyd etdim. Hətta onlar müharibələrdə belə isar etmiş və öz ehtiyacları olduğu şeyi verməyi əsirgəməmişlər. Müharibələrin birində müşriklərdən bir nəfər Həzrət Əliyə(ə) dedi: Ya Əli, qılıncını mənə ver. Həzrət Əli(ə) qılıncı ona sarı atdı. Həmin müşrik inanmırdı ki, Həzrət Əli(ə) bu işi görər. Bu işdən təəccüblənib dedi: Ya Əli(ə), axı müharibə zamanı heç vaxt kimsə öz silahını başqasına verməz. Nəyə görə

sən bu işi gördün. Həzrət Əli(ə) ona baxıb buyurdu: Hər kim mənə ağız açsa, hətta müharibədə qılıncımı istəsə belə, heç vaxt onu əliboş qaytarmaram. Həmin müşrik atdan düşüb əyilərək Həzrət Əlinin(ə) dizlərini qucaqladı və dedi: Belə əməllər din əhlinin xüsusiyyətləridir. Mənə sübut oldu ki, haqq sizinlədir. Bu sözləri deyib İslamı qəbul etdi.

Həzrət Əli(ə) kişilərin içində, Xanım Xədicə qadınların içində İslamı qəbul edən ilk qadın idi. Xədicənin külli miqdarda mal-dövləti var idi. O, Məkkədə ən varlı insanlardan biri idi. Bəzi kitablarda yazılmışdır ki, səksən min dəvə Xədicə üçün ticarətə gedib mal daşıyırdı. Belə bir xanım mütün mal-dövlətini isar edərək, Peyğəmbərə(s) bağışladı. Peyğəmbərin(s), belə bir qadının qızı və Əli(ə) şücaətli bir kişinin həyat yoldaşı olan Xanım Zəhra(s.ə) belə xüsusiyyətə malik idi. Gəlin gedən gecəsi yoxsula öz gəlinlik libasını çıxarıb bəxşiş etdi. Bəzən insanlar təəccüb edirlər ki, görəsən, belə bir şey olarmı ki, bir qız gəlin gedən günü qapısına gələn dilənçiyə öz gəlinlik libasını versin? Tarixə baxdıqda görərlər ki, Peyğəmbərin(s) və Xədicə kimi bir qadının qızı, həmçinin Həzrət Əli(ə) kimi bir kişinin yoldaşı belə olar. Onların İmam Həsən(ə) və İmam Hüseyn(ə) kimi övladları da bu cür olar. Həmçinin Əhli-beytsevər insanlar, İmam Hüseynə(ə) məhəbbət bəsləyən, imamların yolunu gedən insanlar da belə bir xüsusiyyət və gözəlliyə malik olarlar. İmam Hüseynə(ə) əza saxlayıb məclis təşkil edənlər o Həzrətin(ə) belə gözəl xüsusiyyətlərini öyrənib həyatlarında xöşbəxtliyin əsl mənasını dərk edirlər. Əgər Kərbəla şəhidləri üçün min ildən artıq müsəlmanlar əza saxlayıb məclislər qururlarsa, bunun mənalarından biri də budur ki, həmin şəhidlərin bu cür xasiyyətlərindən söhbət edib özləri üçün əxz edirlər.

Kərbəla qəhrəmanları bu dərsləri öyrədir, onların ardıcılları da öyrənir. Onlar izzətlə yaşayıb, izzətlə də şəhid oldular. Onların xatirəsini yad edənlər də bu izzəti onlardan öyrənirlər. O cümlədən isar etməyi həmin qəhrəmanlardan öyrənməklə, öz cəmiyyətlərində səadətə nail olurlar. Əgər bir ailədə və cəmiyyətdə isar məsələsi olmasa, heç vaxt bu cəmiyyət heç bir nailiyyət əldə edə bilməyəcək.

**Abırla isar etmək**

İslam dini isar barəsində bizlərə təkid edir. Cəmiyyət isarın vasitəsilə nuraniyyət tapıb, bir cəmiyyət kimi yüksələ bilər. Əgər bir cəmiyyətdə isar olmasa və o cəmiyyətdə yaşayan insanlar hərə özü üçün çalışırsa, hərə öz qarnını doyurmaq üçün yaşayırsa və hər kəsdən özü üçün fəaliyyət tələb edirsə, belə bir cəmiyyətdə insaniyyətlikdən əsər-əlamət ola bilməz. Çünki heyvanlar aləmində belədir ki, hər hansı bir heyvanın gücü çoxdursa, həmin heyvanın işi öndə gedir. Əgər bir cəmiyyətdə isar olmasa, həmin cəmiyyətin yaşayış tərzi heyvanların yaşayış tərzi kimi olacaq. Deməli, insanların heyvanlardan fərqlənməsinin səbəblərindən biri də budur ki, insanlar ictimai halda yaşayıb, bir-birinə yardım etməlidirlər. Insan cəmiyyətdə fərdi yaşamaq üçün yaranmamışdır. Belə deyil ki, kimsə deyə mənim varımdır, başqasının olmamasının mənə dəxli yoxdur. Yaxud mən tox olum, başqalarının ac qalmasının mənə heç bir aidiyyatı yoxdur. Əgər cəmiyyətdə hərə özünü fikirləşərsə və başqalarına qarşı laqeyd olarsa, belə bir cəmiyyətdə müsəlmançılıqdan və İslamdan söz gedə bilməz. Bu cəmiyyət eyni ilə meşəyə bənzər ki, kimin gücü çoxdursa, deməli, onun işi öndədir. İslam dini insanların ictimai yaşamasını və bir-birinə

yardımçı, köməkçi olmasını təkid edir. Yəni insanlar arasında mütləq isar olunmalıdır. Əgər bir cəmiyyətdə isar olmasa, həmin cəmiyyətdə heç bir nuraniyyət və insaniyyətin olması mümkün deyildir.

Ötən bəhsdə isarın mənası və növləri ilə tanış olduq və insanın mal cəhətdən isar etməsi barədə söhbət etdik. Isarın bir növü də insanın öz abrı ilə isar etməsidir. Insan üçün abır çox mühümdür. Insan öz malını verməklə, abrını hifz edir. Yəni abır insanın malından mühümdür. Hətta bəzən insanın abrı canından da irəlidir. Peyğəmbərdən əvvəl insanlar öz qızlarını diri-diri basdırıb öldürürdülər. Çünki nadanlıq və cahillik o dərəcədə idi ki, hər kəsin qızı olsaydı, özünü biabır olunmuş hiss edirdi. Buna görə də öz abırlarını saxlamaq üçün qızlarını gözləri baxa-baxa torpağa basdırırdılar. Tarixdə yazılıb ki, həmin dövrlərdə bir nəfərin qızı dünyaya gəlir. Uşağı öldürməyə ürəyi gəlmədiyi üçün bir neçə il onu gizli saxlayıb, boya-başa çatdırır. Lakin onun qızının olmasından camaatın xəbər tutacağını hiss etdikdə, öz abrının əldən getməməsi üçün uşağın əlindən tutub səhralığa gətirir. Külüng və bel ilə yeri qazmağa başlayır. Uşaq atasının tərlədiyini görüb dəsmal ilə onun tərini təmizləyir. Bilmir ki, atası onun üçün qəbir qazır. Kişi yeri qazıb qurtardıqdan sonra uşağı diri-diri həmin qəbirə qoyub üstünü torpaqlayır.

İslamdan öncə insanların arasında belə bir vəziyyət yaranmışdı ki, hər kimin qızı olsaydı, özünü abırsız hiss edirdi. Belə bir mühitdə Həzrət Peyğəmbər(s) qızı Fatimənin(s.ə) üzündən öpüb ona ehtiram etdi. Fatimə(s.ə) gəldikdə Peyğəmbər(s) ayağa qalxar, öz yerində əyləşdirərdi. Həzrət Peyğəmbər(s) bu hərəkəti ilə bütün insanlara başa saldı ki, övlad müqəddəsdir, istər oğlan olsun, istərsə də qız. Belə bir mühitdə Peyğəmbər(s)

Fatimə(s.ə) haqda “atası ona qurban olsun” deyərdi. Belə bir mühitdə Peyğəmbər(s) buyurmuşdu: “Fatimənin razılığı mənim razılığımdır.” İslam Peyğəmbəri(s) belə bir icmanı dirildib təmizlədi və ona insaniyyət bəxş etdi.

Odur ki, bəzən insanın abrı çox mühüm yer tutur. Əgər insan başqasının abrını qorumaq üçün öz abrının getməsinə razı olursa, bu əmələ də isar deyilir. Bəzən başqasının abrına görə öz abrından keçir. Məsələn, İslamın güclənməsi və inkişafı yolunda öz abrından keçir. Insan var ki, İslam yolunda malından keçir, insan da vardır ki, öz abrından keçməyə hazır olur. Belə insanlara da tarix boyu rast gəlmək olur. İslam tarixində belə insanlar çoxdur. Nümunə üçün bir neçəsini nəzərinizə çatdırıram.

İbn Qüdamə Peyğəmbərin(s) dövründə yaşayan müsəlmanlardan biri idi. O deyir: “Müharibələrin birində mən bir məntəqəyə getdim. Orada camaatı Peyğəmbəri(s) müdafiə etmək üçün təşviq edirdim. Camaata başa salırdım ki, qarşıda gələn müharibəyə özlərini hazırlayıb, İslamı müdafiə etmək üçün hazır olsunlar. Həmin məntəqədə ölkəni, torpağı, dini, Peyğəmbəri(s) qorumaq üçün camaata lazımi qədər çıxışlar edib, ayə və hədislər oxuyub, cihadın savabından söhbət etdim. Bütün bu işləri gördükdən sonra evə qayıtdım. Bir az keçməmiş gördüm ki, bir qadın məni axtarır. Çölə çıxıb onun kim olduğunu və məni nə üçün axtardığını soruşdum. Həmin qadın mənə tanışlıq verib dedi: Mən sənə bir məktub gətirmişəm. Xahiş edərdim ki, bu məktubu məndən qəbul edəsən. Mənim vəzifəm budur ki, bu məktubu sənə çatdırım. Ibn Qüdamə deyir: Mən məktubu o qadından aldım. Lakin məktubun kənarında bir bağlama da var idi. Içəri keçdim və məktubu açıb oxudum. Məktubda belə yazılmışdı: Sən

bizim məntəqəyə gəlib camaatı hıqqı müdafiə etmək üçün dəvət etdin. Hazırda camaat döyüşmək üçün hazırlıq işləri görür. Mənim də könlümdən keçdi ki, bu müharibədə iştirak edim. Istərdim ki, cihad barədə oxuduğun savablara mən də nail olum. Lakin mən qadın olduğum üçün mənə müharibə etməyə icazə yoxdur. Belə bir savabın mənim əlimdən çıxmasını istəmirəm. Buna görə də belə bir savaba əlimin çatması üçün çox götür-qoy etdikdən sonra bu qərara gəldim ki, bu bağlamanı sənə çatdırım. Mənim uzun saçlarım var. Mən saçlarımı hörüb, qayçı ilə kəsib bağlamaya qoydum. Onları sənə bağışlayıram. Müharibədə iştirak edərkən atının ayaqlarını bağlamaq istədikdə mənim bu hörüklərmlə bağla. Qoy həmin müharibədə azacıq da olsa mənim rolum olmuş olsun. Qoy Allah-təala həmin müharibə meydanında mənim də saçlarımı mücahidlərin atlarının ayağında görsün. Bəlkə buna xatir mənə də azacıq da olsa əcr və savab versin.”

Mən o qadının məktubunu oxuyub təəccübləndim. Müharibə başlandı, hamı döyüş meydanına axışdı. Müharibənin qızğın vaxtında gözüm yeniyetmə bir oğlana sataşdı. Bu oğlan çox gözəl döyüşürdü. Ona yaxınlaşdım ki, görəsən bu kimdir belə döyüşür. Mən ona sarı yaxınlaşanda gördüm ki, o da mənə sarı gəlir. Mənə yaxınlaşıb dedi: “Mənim oxum qurtarıb, səndən xahiş edirəm ki, mənə üç ədəd ox borc verəsən.” Ona dedim: Axı müharibənin belə bir vaxtında kim kimə öz silahından verər? Sənin fikrin Həzrət Əliyə(ə) getməsin. Əgər bir müşrik ondan qılıncını istədikdə, Həzrət(ə) qılıncını ona verirdisə, bilirdi ki, işin axırı nə yerdə qurtaracaq. Amma adi şəraitdə kim kimə öz silahını verər? Həmin yeniyetmə bir daha üz vurub məndən xahiş etdi. Mən oxumdan üç ədəd ona verdim. O, oxları alıb ikisini düşmənə atdı və iki

müşriki oldürdü. Sonra onun özünü oxlayıb yerə yıxdılar. Mən onun başı üzərinə gəldim. O xudahafizləşmək mənasında salam verib, mənə bir əmanət uzadaraq dedi: Mənim salamımı anama çatdırıb, bu əmanəti ona verərsən. Bir də ona deyərsən ki, sən də, oğlun da arzunuza çatdınız. Sənin oğlun şəhid oldu. Dedim: Axı mən bilmirəm, sən kimin oğlusan. Ananın kim olduğunu da bilmirəm. O dedi: İbn Qüdamə, sən anamı tanıyırsan. Lakin o qadının mənim anam olduğunu bilmirsən. İbn Qüdamə, bir xanım sənə bir məktub və bir bağlama vermişdi. Saçlarını kəsib həmin bağlamaya qoyub sənə verən xanım mənim anamdır. Mən həmin xanımın oğluyam. Bu gün mən şəhid oluram. Mənim salamımı ona yetirərsən. Qadının ən gözəl sərmayəsi və zinəti onun saçlarıdır. Anamın bundan başqa heç bir şeyə imkanı olmadığı üçün İslam yolunda öz zinətindən keçdi. Mənim də bircə canım vardı ki, mən də onu İslam yolunda fəda edirəm."

İslam tarixinə nəzər saldıqda bu kimi hadisələrlə tez-tez rastlaşmaq olur. Insanlar Peyğəmbərin(s) şərafət və fəziləti sayəsində bu kimi xislətləri öyrənərək öz cəmiyyətlərində nuraniyyət yaratmışlar. O insanlar ki, öz zinətlərindən, abırlarından keçmişlərsə, deməli, həmin cəmiyyət isar cəmiyyətidir. Cəmiyyətdə belə bir fəzilət yalnız isarın sayəsində diri qala bilər. Əgər bir cəmiyyətdə isar olmasa, həmin cəmiyyət ölüb məhv olacaq. Yəni əgər bir cəmiyyətdə isar ölərsə, həmin cəmiyyətdə inkişaf və insaniyyət də öləcəkdir. Əgər hər kəs özü üçün, öz yaşayışını təmin etmək üçün çalışarsa və başqaları haqda düşünməzsə, belə bir cəmiyyət heyvani cəmiyyətə çevriləcək. Çünki meşədə heyvanlar yalnız hərə öz qarnına qulluq edir. Heç bir heyvan öz tapdığı yeməyi

bölüşmək istəmir. Buna görə də insanların cəmiyyəti isar cəmiyyəti olmalıdır.

**Canla isar etmək**

Qeyd olundu ki, bəzən insan həm malı ilə, həm də abrı ilə isar etməlidir. Lakin bunların ikisindən də mühümü bəzi cəhətə görə canla isar etməkdir. Bəzən elə məqamlar olur ki, insan başqasının canını qorumaq üçün öz canından keçir. Peyğəmbərin(s) tərbiyəsi nəticəsində belə insanlar tarix boyu olmuşdur ki, öz canlarını başqalarına görə fəda etmişlər. Həzrət Peyğəmbər(s) həyatında ona iman gətirənlərə bu əməli öyrətmişdir. Həzrət Peyğəmbər(s) özü çox məhəbbətli bir insan idi. Peyğəmbərin(s) gözəl əxlaqı, məlahətli danışığı, ədəbi və rəftarı hamını heyran edirdi. Böyüklü-kiçikli hamı onu sevib, ehtiram göstərirdilər. Allah Peyğəmbəri(s) hər cəhətdən mükəmməl yaratmışdı. O Həzrətin(s) məhəbbəti onunla azacıq ünsiyyət quran insanların qəlbinə dolurdu. Hətta kiçik uşaqlar belə Peyğəmbəri(s) çox sevirdilər. Həzrət Peyğəmbər(s) küçədə gedərkən uşaqlar Həzrətin(s) ətəyindən yapışıb, onunla oynamağı xahiş edirdilər. Peyğəmbər(s) onların qəlbini heç vaxt qırmazdı. Onların sözləri yerə düşməsin deyə, müəyyən qədər onlarla oynayıb nəvaziş göstərərdi. Həzrət Peyğəmbər(s) belə bir insan idi. Hər kəs onunla əyləşib söhbət edərkən Həzrətdən(s) ayrılmaq istəmirdi.

Əbu Süfyan deyərdi: “İndiyə qədər elə bir insan görməmişəm ki, Məhəmməd qədər insanlar arasında sevimli bir insan osun.”

Fransız alimi Kustablov belə deyir: “Məhəmmədin(s) qazandığı məhəbbət və onun qədər sevimli bir şəxsiyyət dünyanın heç bir yerində görünməyib. Bütün tarixlərə

baxdım, lakin bu məhəbbətə bənzər məhəbbət heç bir yerdə görmədim.”

Həzrət Peyğəmbər(s) çox məhəbbətli bir insan idi. Hamı onu çox sevirdi. Hətta müharibədə yaxın insanlarının şəhid olduğunu eşidən möminlər ilk növbədə Peyğəmbərin(s) salamatlığını düşünürdülər.

İbn İshaq deyir: “Ühüd müharibəsində ənsarlardan olan bir qadına atasının ölüm xəbərini gətirdilər: Qadın soruşdu: Peyğəmbərdən(s) nə xəbər var? Dedilər: Həyat yoldaşın və qardaşın da şəhid oldu. Qadın dedi: Mən sizdən atamın və yoldaşımın xəbərini soruşmuram. Soruşuram ki, Peyğəmbərdən(s) nə xəbər var? Dedilər: Şükürlər olsun Allaha, Peyğəmbər(s) sağdır. Qadın dedi:Məni Peyğəmbərin(s) yanına aparın. Istəyirəm, onu gözlərimlə görüm. Həzrət Peyğəmbərə(s) xəbər verdilər ki, ya Rəsulallah, bir qadının üç əzizi şəhid olmasına baxmayaraq, o, səni soruşur və görmək istəyir. Peyğəmbər(s) buyurdu: Çağırın gəlsin. Qadını Peyğəmbərin(s) yanına apardılar. O, Peyğəmbəri(s) görən kimi dedi: Ya Rəsulallah, nə qədər ki, sən sağsan, bütün müsibətlərin hamısı mənim üçün çox kiçikdir. (Mənim atamın, qardaşımın və ərimin ölümü mənim üçün kiçik müsibətdir. Allah eləməmiş sənə bir şey olsaydı, bu, mənim üçün ağır dərd və ən böyük müsibət olarcadı. Indi ki, sən sağ-salamatsan, atam da, ərim də, qardaşım da sənə qurban olsun.)”

Həqiqətən də Peyğəmbər(s) məhəbbət bəslənilərsi yeganə insan idi. Belə bir məhəbbət dünyanın heç bir yerində, heç kəsdə olmamışdır. Hamı öz canını Peyğəmbərə(s) qurban verməyə hazır idi.

Zeyd adlı bir şəxs Peyğəmbərin(s) səhabələrindən biri idi. Ühüd döyüşündə iştirak etmişdi. Ühüd döyüşündən

sonra Peyğəmbər(s) Quran və dini təhsil öyrətmək üçün bir neçə nəfəri müəyyən məntəqələrə göndərmşdi. Onlardan biri də Zeyd idi. Lakin müşriklər Peyğəmbərin(s) göndərdiyi adamları tutub işgəncələrə məruz qoyurdular və öldürürdülər. Həmçinin Zeydi də yaxalayıb bir dəstə camaatın içində işgəncə ilə öldürmək istəyirdilər. Işgəncə verə-verə Əbu Süfyan ondan soruşdu: Istərdin ki, Məhəmməd sənin yerində olub öldürülsün və sən də öz ailənin yanında olasan? Zeyd dedi: Allaha and olsun ki, hətta Məhəmmədin öz evində belə ayağına tikan batmasına razı olmaram."

Müsəlmanlar arasında Peyğəmbərə(s) bu dərəcədə məhəbbət var idi. Isar etməyi Peyğəmbərin(s) özündən öyrənmişdilər. Öz canlarını Peyğəmbərin(s) və Əhli-beytinin(ə) salamat qalması yolunda fəda edirdilər.

## Kumeyl İbn Ziyad

Həzrət Əlinin(ə) yolunda nə qədər insan özünü fəda etmişdi. Onlardan biri Kumeyl İbn Ziyad idi. Həccac ibn Yusif onu öldürmək üçün axtarırdı. Hamı onu axtarırdı, lakin tapa bilmirdilər. Hiyləyə əl atıb göstəriş verdi ki, Kumeylin qəbiləsindən hər nə qədər işçi varsa, hamısının maaşını kəssinlər. Bu xəbəri Kumeylə çatdırdılar ki, sənə görə bu qədər camaat maaşdan məhrum olub. Kumeyl fikirləşib öz- özünə dedi: "Mən qoca bir kişiyəm. Əgər məni öldürəcəklərsə, qoy oldürsünlər. Amma camaatın haqqını mənə görə kəsməsinlər. Buna görə də öz ayağı ilə Həccacın yanına gəldi. Həccac dedi: Kumeyl, səni tutmaq üçün çox çalışmışam. Nəhayət ki, bu gün ələ keçdin. Kumeyl dedi: Məni sən ələ keçirməmisən, mən özüm öz ayağımla bura gəlmişəm. Ömrümün sonuna az qalıb.

Mənim barəmdə nə bacarırsansa onu da et. Çünki qiyamət günündə mənimlə sənin hesabımızı həmin günün sahibi çəkəcək. Buna görə də mənim heç bir nigarançılığım yoxdur. Ağam Əlidən(ə) eşitmişəm ki, mənim qatilim sən olacaqsan.” Həccac əmr verdi ki, onun boynunu vursunlar.

Kumeyl öz canından keçməyə razı oldu, amma bir dəstə insanın haqqının tapdalanmasına razı olmadı. Peyğəmbər(s) və müsəlmanlar belə idilər. Isar vasitəsilə insaniyyət cəmiyyəti yaratdılar və insanların bir-birinə məhəbbətli olmasını və bir-biri üçün canını fəda etməyi öyrətdilər.

## Həzrət Əlinin(ə) isarı

Şəxsən Həzrət Əli(ə) Peyğəmbər(s) Məkkədən Mədinəyə hicrət edərkən Həzrətin(s) yerində yatdı. Həmin gecə müşriklər Peyğəmbəri(s) öldürmək üçün plan qurmuşdular. Həzrət Əli(ə) həmin gecə Peyğəmbərin(s) yerində yatdı. Buyurdu ki, qoy mənim peyğəmbər olduğumu zənn edib öldürsünlər. Peyğəmbərin(s) sağ qalması üçün öz ölümünə razı oldu. Ən böyük isar candan keçməkdir. Əli(ə) bu işi gördü və Allah-təala onun şəninə ayə nazil etdi. Bu hadisə baş verərkən Allah-təala iki mələkə xitab etdi. Həmin mələklərdən biri Cəbrayıl, biri də Mikayıl idi. Allah-təala onlara buyurdu: “Mən sizi bir-birinizə qardaş etdim. Sizin birinizin ömrünü uzun etmişəm. Hansı biriniz razı olarsınız ki, öz ömrünüzü o biri qardaşınıza verəsiniz? Onlardan heç biri razı olmadı. Hər ikisi yaşamağı və həyatı seçdilər. Bu zaman Allah onlara vəhy etdi. Mən Əli ilə Məhəmmədi bir-birinə qardaş etdim. Əli öz canını Məhəmmədin yolunda fəda etməyə razı oldu və öz ömrünü Peyğəmbərə bağışladı.”

Allah-təala Həzrət Əlini(ə) tərif edərək, onun şəninə ayə nazil etdi. Həzrət Əli(ə) hər bir cəhətdən insanlar üçün nümunəvi bir insan idi. O həzrət ibadətdə, məntiqdə, bəlağətdə, əxlaqda, yetimdarlıqda isar cəhətdən insanlar üçün bir örnəkdir. Hər bir cəhətdən baxdıqda Həzrət Əli(ə) birinci yeri tuturdu. Peyğəmbərin(s) yerində yatmaqla öz ölməyinə razılaşdı, amma Peyğəmbərin(s) ölməsinə razı olmadı. Buna görə də Allah-təala ona bu şövkəti və əzəməti inayət etmiş və şəninə ayə nazil etmişdi.

Həzrət Musa(ə) Allahla münacat edərkən dedi: "Ey mənim Rəbbim, mənə Məhəmməd və onun ümmətinin dərəcə və məqamlarını göstər. Allah-təala xitab etdi: Ya Musa, onların dərəcə və məqamlarını görməyə taqətin çatmaz. Lakin onun üçün təyin olunmuş məqamlardan birini sənə göstərirəm. Bu həmin dərəcə və məqamdır ki, Məhəmməd buna görə səndən üstündür. Allah mələkut aləmində olan həmin dərəcəni Musa Peyğəmbərə(ə) göstərdi. Musa(ə) bu məqama baxdıqda taqətdən düşərək haldan getdi. Bu əzəmətin qarşısında dözə bilmədi. Özünə gələndən sonra soruşdu: İlahi, hansı səbəbə görə bu insanları belə bir dərəcəyə çatdırmısan? Allah-təala buyurdu: Onların isarına görə onları belə bir dərəcə və məqama çatdırmışam. Ya Musa, hər kəs ömründən bir miqdar bu məsələyə sərf edərsə (isar edərsə) qiyamət günü Mən həmin şəxsi məhkəməyə çəkməkdən və hesab-kitab almaqdan utanıb həya edərəm. Onu cənnətə apararam."

Mən həyatda bəzi insanların bu halının şahidi olmuşam. Camaatın çox olduğu bir yerdə, yerin dar olmasını görüb ayaq üstə dayanır. Istəyir ki, hamı rahat əyləşsin. Ona deyəndə ki, sən də əyləş, deyir mən ayaq üstə dayanmaq istəyirəm. Bir halda ki, başqalarının rahat

oturması üçün zəhmət də olsa ayaq üstə dayanır. Bəzi insanlar görmüşəm ki, yemək yeyərkən, yeməyin az olduğunu görüb süfrəyə əyləşmir və ürəyindən yemək keçmədiyini deyir. Və yaxud yavaş-yavaş bir cür yeyir ki, hamıya yemək çatsın. Necə oturmaqda və yeməkdə belədirsə, bütün məsələlərdə də o cür idilər. Hətta ölümlə üzləşdikdə özünü başqalarının qarşısına atırdılar ki, qoy mən ölüm, buna heç nə olmasın. Yəni iki nəfərdən biri ölməli olduqda, bu insanlar özlərini qabağa atırdılar.

Peyğəmbərin(s) səhabələri belə Həzrətdən(s) bu əməlləri öyrənib imanlarını artıraraq hər bir şeydə isar edirdilər. Hətta döyüş meydanında son anlarında belə isar edirdilər.

## Döyüş meydanında isar

Həzifə Peyğəmbərin(s) yaxın səhabələrindən biri idi. O deyir: “Yərmuk müharibəsində hər gün bir dəstə müsəlman əsgəri döyüşə gedirdi. Bir neçə saatdan sonra onların bəzisi şəhid olurdu, bəzisi sağlam qayıdırdı. Mənim əmim oğlu da döyüşə getmişdi. Amma o, qayıdıb gəlmədi. Mən onu axtarmaq üçün özümlə bir az su götürüb meydana getdim. Yaralıların arasında bir-bir axtarıb onu tapdım. Onun başı üzərinə gəlib salam verdim. Onu yaralayıb yerə yıxmışdılar. Ona dedim ki, su istəyirsənmi? Dedi: Bəli. Suyu qaba töküb ona vermək istəyərkən, o biri tərəfdən bir yaralı məni səslədi və dedi: O sudan mənə də ver. Əmim oğlu mənə dedi: bu suyu apar ona içirt. Dedim: Yaxşı, sən bunu iç, mən onun üçün də apararam. Dedi: Yox, birinci o içsin, sonra mən içərəm. Suyu onun yanına aparıb dedim: Gəl, suyu içməkdə sənə kömək edim. O biri tərəfdən başqa bir yaralı da səsləndi

ki, mənə də su ver. Bu yaralı dedi: Apar suyu ona ver. Mən suyu o yaralıya aparıb yavaş-yavaş başını qaldırdım ki, su içsin. O, suyu içmək istəyərkən baxıb gördü ki, əlimdəki qab doludur. Məndən soruşdu: Bəs o biri yaralılar su içmədilərmi? Dedim: Xeyr, onlar istədilər ki, birinci sən içəsən, sonra onlar içsinlər. Yaralı dedi: Xeyr, bu mümkün deyil. Apar onlar içsinlər, əgər qalsa, mən də içərəm. Mən suyu götürüb birinci yaralının yanına qayıtdım ki, ona su içizdirim. Baxıb gördüm ki, dünyasını dəyişib. Ikinciyə yaxınlaşanda gördüm ki, o da şəhid olub. Yenidən həmin üçüncü yaralının yanına qayıtdım ki, suyu ona verim. Ona yaxınlaşana qədər artıq o da dünyadan getmişdi.

Bu şəhidlər son nəfəslərində belə isar edərək başqalarını özlərindən üstün sayırdılar. Hətta bir neçə dəqiqədən sonra öləcəklərini bildikləri halda suyu içməyib isar etdilər. Onlar suyu içsəydilər də, içməsəydilər də şəhid olacaqdılar. Lakin öz insaniyyətliklərini, şərafətlərini isar vasitəsilə bildirərək, tarix vasitəsilə bütün insanlara bu əməli göstərdilər. İslamı bu əməllərlə dirildib, insanlara nuraniyyət bəxş etdilər. Isar elə bir əməldir ki, onun vasitəsilə insaniyyət, mənəviyyat diri saxlanılır. Əgər insanlar İslama əməl edib isar etsələr, deməli, onların fəzilətləri, ölkələri, dinləri və kitabları və hər bir şeyləri təmin olunmuşdur.

## Kərbəlada aşura iştirakçılarının isarı

Yuxarıda isar barədə "Həşr" surəsinin 9-cu ayəsi barədə bir neçə mətləb əziz möminlər üçün söhbət olundu. Qeyd olundu ki, İslam, Quran və İslam Peyğəmbəri(s) hər bir ailəyə və hər bir insana, həmçinin hər bir cəmiyyətə

öyrədir ki, həmin cəmiyyətdə yaşayan insanlar mənəviyyatını, əldə etdiyi uğurları, hətta dünyasını belə abad edib saxlamaqdan ötrü isar məsələsini öyrənməli və lazım olan yerlərdə isar etməlidirlər. İslam tarixində şəxsən Peyğəmbər(s) başda olmaqla və onun Əhli-beyti(ə) öz hərəkətlərində isar göstərmişlər. Iman gətirənlər də Peyğəmbərin(s) hərəkətlərində isarı görüb, Həzrətdən(s) öyrənməklə yanaşı, bu əməli öz həyatlarında hərə öz imanı qədər tətbiq etmişdir. Hər kəs öz imanı, Allaha mərifəti, qeybə inamı qədərində isar göstərmişdir. Bəzilərinin başqalarına nisbətən imanı az da olmuş olsa belə, hər halda öz imanı miqdarında isar etmişdir. Əgər bir kəsin də imanı olmayıbsa, həmin şəxslərdən də isar görünməmişdir. Imanı olmayan bir kimsənin isarı da olmaz. Çünki isar imanın əsasında vücuda gələn bir hiss və əməldir. Isar olmayan bir cəmiyyət meşə cəmiyyətinə bənzəyir. Çünki heyvanlar arasında belə bir şey yoxdur ki, hansısa heyvan başqası üçün yeməyindən keçsin. Hərə öz qarnının və canının uğrunda çalışır. Amma insanlar belə deyildir. Insanların danışıqlarında, yeməklərində, hətta canlarında belə isar olunmalıdır. Necə ki, Peyğəmbər(s) zamanında bu hallarla tez-tez rastlaşmaq olurdu. İslamın əvvəllərində bu kimi əməllər sayəsində İslam inkişaf edib tərəqqi tapdı. O qədər inkişaf etmişdi ki, hətta Avropa ölkələrinə qədər yayılmışdı. Sonradan bir dəstə insan tapıldı ki, Müaviyənin heykəlini öz şəhərlərinin küçələrində qoymaq qərarına gəldilər. Mərhum Ayətulla Şirazi Avropa alimlərinin biri ilə söhbət edərkən bu məsələ haqda bəhs olunmuşdur. Həmin avropalı alim demişdir ki, biz gərək Müaviyənin heykəlini qızıldan düzəldib öz küçələrimizdə və yolların kənarında ucaldaq. Ayətulla Şirazi ondan soruşdu: “Nəyə görə siz Müaviyəyə

bu qədər məhəbbətlisiniz? Müaviyə sizə hansı xidmətləri göstərmişdir ki, siz onu belə ucaldırsınız? Həmin alim dedi: Əgər Müaviyə olmasaydı, İslam dünyanın hər yerini əhatə edəcəkdi. Əgər o olmasaydı, yer üzündə bir nəfər də olsun qeyri müsəlman tapılmayacaqdı. Hətta biz xristianları belə müsəlman edəcəkdilər."

Odur ki, əgər cəmiyyətdə isar prinsipi rəvac tapsa, o zaman müsəlmanlar bütün cəhətdən inkişaf edərək istədikləri arzularına çatacaqlar. Yuxarıda mal cəhətindən, abır cəhətindən və can cəhətindən isar edənlər barədə müəyyən miqdar söhbət olundu. Kərbəla hadisəsinə diqqət yetirdikdə, isarın gözəlliyini daha aydın və şəffaf görmək olur. İmam Hüseyn(ə) və Həzrətin(ə) yar və ənsarı Kərbəlada aşura günü bütün insanlara isarın mənasını bir dərs olaraq öyrətdilər. Onlar isarı Kərbəlada bir sərgi olaraq bütün insanlara nümayiş etdirdilər. Əlbəttə, qeyd etmək lazımdır ki, İmam Hüseynin(ə) vücudunda əvvəldən isar var idi. Həzrət(ə) icmaya qədəm qoyan gündən isar edirdi. Lakin Kərbəla məsələsində Mədinədən Məkkəyə, Məkkədən Kərbəlaya qədər olan bu hərəkatda göstərdiyi isar başqa yerlərin isarı ilə demək olar ki, ölçüyəgəlməz miqyasdadır.

Bəşəriyyətə baxdıqda görürük ki, hər hansısa bir məsələni oyunbazlıq və kələklə həll etməyə çalışırlar. Məsələn, dünyada siyasi insanların işlərinə azacıq diqqət etsək görürük ki, onlar hər bir şeyə belə baxırlar. Qarşılarına çıxan bəzi insanlarla bir cür alver edərək ağızlarını yumurlar. Bir-birilərinə nəyisə verib-almaqla işlərini yola verirlər. Yalan, kələk, oyunbazlıqla öz həyatlarını bu dünyada sürməklə məşğuldurlar. Lakin bir sıra insanlar da vardır ki, onlar təmiz, imanlı və möhkəm ideologiya sahibidirlər. Bu insanlar heç vaxt məsələlərə

fırıldaq, yalan və kələkbazlıqla yanaşmırlar. Onlar elm, məntiq və özlərini nəhayət dərəcədə fəda edərək, isarla məsələni çözürlər. İmam Hüseyn(ə) bu məsələnin ən gözəl və bariz nümunəsidir. Həzrət(ə) Yezidlə nəyinsə müamiləsini etmədi. Bağlı qapı arxasında onunla əyləşib, hansısa gizli bir məsələni müzakirə etmədi. Dünyada bəzi siyasətçilər bağlı qapılar arxasında əyləşib, öz aralarında alış-veriş etdikdən sonra çıxıb camaata başqa sözlər danışırlar. İmam Hüseyn(ə) məsələni bu cür həll etmədi. Bu məsələni siyasiləşdirib qəlizləşdirmədi. Bu hadisədə heç bir hiylə, kələkbazlıq, gözlərdən pərdə asmaq kimi işlər görmədi. İmam Hüseynin(ə) əqidəsi pak, əməlləri tərtəmiz və sözü bötöv idi. Hər bir işi açıq-aşkar edərək, camaata da olduğu şeyləri bəyan edirdi. Heç bir şeyi gizlətmədi və əvvəl buyurduğu sözlərinin üstündə şəhid olana qədər dayandı. İmam Hüseyn(ə) öz səhabələri ilə birgə öz canlarını ovuclarının içinə qoyub, Mədinədən hərəkət etdilər. Bu hadisədə əvvəldən axıra qədər Həzrətin(ə) dilindən çıxan hər bir kəlmə tarixi kitablarda qeyd olunmuşdur. Hətta son nəfəslərində buyurduğu kəlmələr belə yazılıb tarixdə qeyd olunmuşdur. İmam Hüseynin(ə) bütün kəlmələrini bir-birinin yanına düzdükdə, sanki bir kitabın yazıldığının şahidi olarıq. Həzrətin(ə) əvvəl buyurduğu kəlmələrlə axırda buyurduğu sözlərin bir-biri ilə zərrə qədər də olsun ziddiyyəti yoxdur. Sözünün əvvəlində nə buyurmuşdusa, ömrünün sonunda da həmin kəlmələri təkrar edirdi. Çünki Həzrət(ə) bütün kəlmələrini İslamın və Quranın ayələrinin əsasında buyurub hərəkət edirdi. Onun kəlmələrində nuraniyyət və ixlas cilvələnirdi.

Kərbəla hadisəsində isar məsələsinə gəldikdə, birinci dərəcədə şəxsən İmam Hüseyn(ə), ikinci dərəcədə Bəni-

Haşim və üçüncü dərəcədə səhabələr dayanırdı. Bu insanların hər üçü bir-biri barədə isar etmişdilər. Aşura gecəsi bu məsələyə dair baş vermiş bir hadisəni Xanım Zeynəbin(s.ə) dili ilə nəzərinizə çatdırıram. Bu hadisədə İmam Hüseyn(ə) özünü İslama fəda etdi. Bəni-Haşim özlərini İmam Hüseynə(ə) və səhabələr də özlərini bəni-Haşimə fəda etdilər. İmam Hüseyn(ə) söhbət edərkən çox açıq-aydın danışırdı. Özünü İslama fəda etdi və buyurdu:

إِنْ كانَ دِينُ مُحَمَّدٍ لا يَسْتَقِيمُ إِلاّ بِقَتْلِي يَاصُيُوفُ خُذُونِي

-Əgər ceddim Məhəmmədin dini mənim ölməyimlə diri qalacaqsa, elə isə ey qılınclar, doğrayın məni!

Bəni-Haşim də öz aralarında bildirdilər ki, mümkün deyil, səhabələr[1] bizdən əvvəl şəhid olsunlar. Qoy əvvəl bizi öldürsünlər. Səhabələr də bir çadırda yığışıb söhbət edirdilər ki, ola bilməz ki, Bəni- Haşim bizdən əvvəl öldürülsün. Biz buna razı olmarıq ki, gözümüzün önündə doğranıb şəhid olsunlar. Biz onların ölümünü görməməliyik. Gərək biz onlardan əvvəl öldürülək.

Hər dəstə bir-birinə qarşı öz isar və məhəbbətini bildirirdi. Hadisə belədir. Xanım Zeynəb(s.ə) buyurur: "Aşura gecəsi vəziyyətlə maraqlanmaq üçün çadırdan çıxdım. İmam Hüseynin(ə) çadırına yaxınlaşanda gördüm ki, Həzrət(ə) tək əyləşərək Allahla münacat edir və Quran oxuyurdu. Öz-özümə fikirləşdim ki, belə bir gecədə qardaşım tək qalmasın deyə, gedib Bəni-Haşimi yığıb onlarla söhbət edim ki, ağamızı tək qoymasınlar. Elə bu fikirlə Həzrət Əbülfəzlin çadırına yaxınlaşanda gördüm ki, Əbülfəzl Haşim övladlarını başına yığıb onlarla söhbət edir. Çadırın kənarında dayanıb söhbətlərinə qulaq

[1] Burada söhbət Imam Hüseynin (ə) səhabələrindən gedir.

asırdım. O gecə Həzrət Əbülfəzl çadırda elə bir xütbə oxuyurdu ki, Hüseyndən(ə) başqa heç bir kəsdən belə bir xütbə eşitməmişdim. Çox fəsahətli və bəlağətli sözlər danışırdı. Sözlərin sonuna yetişəndə belə buyurdu: Ey mənim qardaşlarım, ey mənim qardaşım uşaqları və ey əmi oğlanlarım, səhər açılarkən nə edəcəksiniz? Onlar yekdilliklə dedilər: Sən bizə nə əmr etsən, biz də onu can-başla yerinə yetirəsəyik. Sənin sözündən kənara çıxmayacağıq. Həzrət Əbülfəzl buyurdu: Səhabələr və köməkçilər hər nə qədər çox olsalar belə, işin ağırlığı iş yiyəsinin çiynindədir. Bu işin yiyəsi də bizlərik. Səhər açılarkən ilk növbədə siz şəhid olmalısınız. Məbada səhabələr sizdən əvvəl döyüşə gedib şəhid olsunlar. Siz qala-qala onlar döyüşə getməməlidirlər. Biz gərək onların hamısından qabaq ölək. Bu sözlərdən sonra Haşim övladları ayağa qalxıb qılınclarını çəkərək üzlərini Əbülfəzlə tutaraq dedilər: Sabah bizim hamımız sənin buyurduğun kimi edəcəyik.

Xanım Zeynəb(s.ə) deyir: “Bu söhbətləri eşidib onların səmimiyyətini gördükdə ürəyim sevinclə doldu. Bu xəbəri İmam Hüseynə(ə) çatdırmaq üçün Həzrətin(ə) çadırına tərəf yollandım. Çadırların kənarı ilə keçəndə birindən səs-küy gəlirdi. Dayanıb qulaq asanda gördüm ki, Həbib ibn Məzahir səhabələri ətrafına toplayıb onlarla söhbət edir. Həbib onlara belə deyirdi: Ey mənim dostlarım, bu məkana nə üçün toplaşmısınız? Allah sizə rəhmətini nəsib etsin. Səhabələr belə cavab verdilər: Biz bura Fatimənin qərib balasını müdafiə və ona kömək etmək üçün gəlmişik. Həbib dedi: Nə üçün həyat yoldaşlarınızdan ayrılıb bura yığışmısınız? Dedilər: Elə bu məsələyə görə. Həbib dedi: Səhər açılan zaman nə iş görəcəksiniz? Dedilər: Sən nə buyursan, biz də onu edəcəyik. Biz sənin

sözündən artıq başqa söz danışmayacağıq. Həbib dedi: Mənim sözüm sizə budur ki, səhər açılan zaman siz döyüşdə Bəni-Haşimdən əvvəl şəhid olmalısınız. Biz Haşim övladlarının birini belə qanına bələnmiş görməməliyik. Biz dayana-dayana mümkün deyil ki, Hüseynin(ə) balalarını gözümüzün qarşısında doğrayıb qanlarına bələsinlər. Birinci biz gedib şəhid olmalıyıq. Sonra bizim barəmizdə deyilməsin ki, bunlar öz ağalarını meydana göndərib, özləri dayanıb baxırdılar. Həbibin bu sözlərindən sonra bütün səhabələr qılınclarını çəkib üzlərini Həbibə tutaraq dedilər: Sənin sözün bizim üçün qanundur."

Xanım Zeynəb(s.ə) deyir: "Bu hadisəni də Həbibin çadırında gördükdə ürəyim daha da şad oldu. Gözlərim yaşla doldu. Hüseynin(ə) belə möhkəm və vəfalı səhabələri olduğunu görüb sevindim. Təbəssüm edərək qardaşımın çadırına qayıtdım. İmam Hüseyn(ə) məni görüb buyurdu: Bacı, Mədinədən çıxandan bu günə qədər səni təbəssüm edən halda görməmişdim. Sənin bu təbəssümünün səbəbi nədir belə? Mən Haşim övladlarının və səhabələrin danışdığı sözləri qardaşıma danışdım və bildirdim ki, onların vəfalı və sədaqətli olmaları mənə təbəssüm bəxş etdi. İmam Hüseyn(ə) buyurdu: Bacı, bil ki, mənim bu səhabələrim zər aləmində mənə beyət edib, əhd-peyman bağlamışlar (onlar zər aləmindən mənim səhabələrim olmuşlar). Cəddim Rəsulullah(s) Kərbəlada mənim şəhid olmağımı vədə verdikdə, bunların da vədəsini vermişdir. Istəyirsən bunların sabitqədəm, vəfalı olduqlarını imtahana çəkim? Dedim: Bəli. Həzrət(ə) buyurdu: Sən çadıra gəlmə. Çadırın arxasında dayan və qulaq as. İmam Hüseyn(ə) əmr verdi ki, o gecə Həzrətin(ə) məhzərində olan bütün yar və ənsarının hamısı

çadıra cəm olsunlar. Hamı Həzrətin(ə) çadırına toplaşdı. İmam Hüseyn(ə) onlarla bir az söhbət etdikdən sonra buyurdu:

يَا اَصْحابِى اِعْلَمُوا اَنَّ هؤلاءِ الْقَوم لَيْسَ لَمْ قَصْد سِوى قَتْلِى و قِتْلِ مَنْ مَعِى...

فَاَنْكُم فِى حِلٍّ مِنْ بِيْعَتِى وَ مَنْ اَحَبَّ مِنْكُم الاِ نْصِرافَ فَلْيَنْصَرِف فِى سِوادِ هذا للَّيل

-Ey mənim səhabələrim, bilin ki, bu tayfa məni, yalnız məni öldürmək istəyir. Kim mənimlə qalsa, onu da öldürəcəklər. Mən sizdən beyətimi geri götürürəm. Siz azadsınız və hara istəsəniz, gedə bilərsiniz. Hər kim getmək istəyirsə, gecənin bu qaranlığında çıxıb getsin.”

Xanım Zeynəb(s.ə) deyir: “İmamın(ə) bu sözlərindən sonra səhabələrin heç biri yerindən tərpənmədi və hərə öz fikrini İmama(ə) bildirərək dedilər ki, biz heç vaxt səndən ayrı düşməyəcəyik. Ağlayaraq dedilər: Ey Allahın Höccəti, biz səni heç vaxt burada qoyub getmərik. Həzrət(ə) onların heç birinin getmək fikrində olmadıqlarını və bu işdə sabitqədəm olduqlarını görüb buyurdu:

اِنْ كُنْتُم كَذلِك فَارْفَصُوا رُؤُسَكُم وَانْظُرُوا اِلى مَنازِلِكُم فِى الْجَنَّة

-İndi ki belə oldu, onda başınızı yuxarı qaldırıb cənnətdəki mənzillərinizə baxın.”

Xanım Zeynəb(s.ə) deyir: “İmamın(ə) əmri ilə göyün pərdələri kənara çəkildi. Hamı cənnətdəki öz mənzil və məqamlarını gördülər. Oradakı qəsrləri, sarayları və Huriləri gördülər. Hurilər onları səsləyirdilər. Bura gəlmək üçün tələsin. Tələsin ki, bizim sizə şövqümüz var. Hamı bu mənzərəni gördükdən sonra dedilər: Ya Əba Əbdillah,

icazə verirsənmi biz elə bu gecə şəhid olaq? Həzrət buyurdu: Biz bu gecəni ibadət etmək üçün möhlət almışıq. Allah sizə xeyir versin.

Sonra Həzrət(ə) onlara buyurdu: Kim həyat yoldaşını özü ilə Kərbəlaya gətirmişdir? Indi ki, özünüz getmirsiniz, heç olmasa ailənizi aparıb yaxın kəndlərdə qoya bilərsiniz. Qoy onlar sabahkı döyüşdə, qanlı və qorxulu meydanda qalmasınlar. Əli ibn Məzahir ayağa qalxıb soruşdu: Ağa, nəyə görə bu təklifi bizə edirsən? Həzrət(ə) buyurdu: Çünki bizi öldürəndən sonra ailəmizi əsir aparacaqlar. İstəmirəm ki, sizin də əhli-əyalınız əsir düşsünlər. Əli ibn Məzahir gedib qadınlar əyləşən çadırdan öz yoldaşını səslədi. Onun həyat yoldaşı çadırdan çıxıb dedi: Mən İmam Hüseynin(ə) bütün sözlərini eşitdim. Amma axırda ailələriniz barədə danışdığı sözləri yaxşı eşidə bilmədim. Ağamız ailələr barədə nə buyurdu? Əli ibn Məzahir dedi: Həzrət(ə) buyurdu ki, hər kəsin əhli-əyalı burdadırsa, onu aparıb yaxın kəndlərdə qoyub özü geri qayıda bilər. Həyat yoldaşı dedi: Indi sən nə fikirdəsən? Əli ibn Məzahir dedi: Əgər sən istəyirsənsə, mən səni apara bilərəm. Qadın bu sözü eşitcək, başını çadırın dirəyinə möhkəm vurub, ağlaya-ağlaya dedi: Ey Məzahirin oğlu, Allaha and olsun ki, sən mənim barəmdə insaf etmədin. Sən istəyirsən ki, Peyğəmbərin(s) qızlarını burada əsir etsinlər və mən də öz evimdə rahat yatım? Sən istəyirsən ki, Zeynəbin(s.ə) başından hicabı çəkib çıxartsınlır, mən də evimdə başımı örtüb sakit qalım? Sən istəyirsən ki, Zəhranın(s.ə) balalarının sırğalarını qulaqlarından dartıb çıxartsınlar, mən də bəzənib öz evimdə əyləşim? Istəyirsən ki, sənin üzün Peyğəmbərin(s) yanında ağ olsun, mənim üzüm yox? And olsun Allaha ki, belə olmayacaq. Siz canınızı Peyğəmbərin(s) Əhli-beytinin kişilərinə isar və fəda edin,

biz də gedib öz canımızı Əhli-beytin qadınlarına fəda edəcəyik. Əli ibn Məzahir bu sözləri eşidəndə ağlaya-ağlaya İmamın(ə) məhzərinə gəlib, yoldaşının sözlərini Həzrətə(ə) danışdı. İmam Hüseyn(ə) bu sözləri eşidəndə gözləri yaşla doldu. Sonra Həzrət(ə) buyurdu: Allah sizə xeyir versin inşallah."

Beləliklə, Kərbəlada İmam Hüseyn(ə) və Həzrətin(ə) məhzərində olanların hamısı ümumilikdə bir-birinə qarşı çox isarlı idilər. İmam Hüseyn(ə) Allahla münacat edir və Onun yolunda hər şeyindən keçməyə hazır olduğunu bildirir. Həzrət(ə) öz isarını edib, qərarını qəbul etmişdi. Haşim övladları İmam Hüseyni(ə) və İslamı müdafiə etmək üçün birinci fəda olmalarını qərarlaşdırırlar. Səhabələr də öz canlarını Haşim övladlarına fəda etməklə isar göstərirlər. Hətta İmamın(ə) təklifini öz qadınlarına xəbər verdikdə, qadınlar da İmamı(ə) və Əhli-beyti tək qoyub heç yerə getməyəcəklərinə söz verdilər. Bu, Kərbəlada görünən ümumi bir isardır.

## Aşura iştirakçılarının hərəkətlərində isarın nümunələri

Kərbəlada ümumi isarlardan başqa İmam Hüseynin(ə) yar və ənsarının hər birinin özünəməxsus isarı olmuşdur. Nümunə üçün bir neçə nəfərin etdiyi isarı nəzərinizə çatdırıram. Kərbəlada şəxsi isar edənlərin hamısından öndə gedəni Həzrət Əbülfəzl(ə) idi. O, İmam Hüseynin(ə) məhzərində və qulluğunda dayanmışdı. İmam Hüseyn(ə) hər nə buyururdusa, Həzrət Əbülfəzl(ə) ona əməl edirdi. Həzrət Əbülfəzl(ə) gördü ki, İmamın(ə) yar və ənsarı bir-bir şəhid olurlar. Buna görə də Imamdan(ə) döyüşə getmək üçün izn istədi:

*Yapışıb daməni mövlayi vəfadarından,*
*Elə bil hacı tutub Kəbənin astarından,*
*Şəbnəmi xiclət  axır laleyi rüxsarından,*
*Yusif heyrətdə qalıb gərmiye bazarından,*
*Harda Yusif, bu qədər gərmiye bazar eləyir?*

İmam Hüseyn(ə) ona buyurdu: “İstəyirəm sən tuluğu götürüb Fəratın suyundan uşaqlar üçün su gətirəsən.” Həzrət Əbülfəzl tuluğu götürüb Fəratın kənarına gəldi. Tarixdə yazırlar ki, düşmən qoşunundan dörd min nəfər Fəratın kənarına düzülmüşdü ki, heç kəs oradan su götürə bilməsin. Həzrət Əbülfəzl onlarla müharibəyə girib onları dağıtdı və səksən nəfərini öldürdü. Fəratın içinə daxil olub, tuluğu su ilə doldurdu. Sonra ovcunu doldurub özü içmək istədi. Əlləri ilə suyu dodaqlarına yaxınlaşdıranda İmam Hüseynin(ə) və Əhli- beytinin susuz olduqlarını xatırlayıb əllərini açdı. Suyu yerə boşaldıb bu şeri oxudu:

يا نَفْسُ مِنْ بَعْدِ الْحُسَينِ هَوْنى          وَ بَعْدَهُ لا كُنْتِ اَنْ تَكُونى

هذا الحُسَيْنُ شارِبُ الْمَنُون          وَتَشْرَبِينَ بارِدَ المِعِين

واللهِ ما هَذا فِعالُ دِين

-Ey nəfs, Hüseyndən sonra yaşamaq zillətdir. Hüseyndən sonra heç yaşamayasan. Hüseyn ölüm şərbəti içir, sənsə sərin su içmək istəyirsən? And olsun Allaha belə bir iş (Hüseyni orada susuz görüb, özü burada su içmək) dindar insanın işi deyildir.

Həzrət Əbülfəzl isar göstərdi. Hüseynin və balalarının susuz olduğunu görüb su içmədi. Istəyirdi ki, birinci onlar su içsinlər. Buna görə də suyu dodaqlarına yaxınlaşdırıb yerə boşaltdı.

*Ey Əbülfəzl, ey rəisi zümreyi əhli vəfa,*
*Əbdi Saleh mənsəbin, Allah sənə etmiş əda.*

*Nəhri aldın içmədin su, nəfsinə aləm fəda,*
*Su kənarında susuz səqqa, salam olsun sənə.*

Aşura günü döyüş zamanı Əbu Sümamə İmam Hüseynə(ə) yaxınaşıb dedi: "Ağa, namaz vaxtıdır. İmam Hüseyn(ə) ona buyurdu: Namazı yad etdin, Allah səni həqiqi namaz qılanlardan qərar versin. Onlara deyin döyüşü saxlasınlar, biz namazımızı qılaq. Düşmənə xəbər verdilər ki, namaz qılmaq üçün döyüşü saxlaşınlar. Lakin düşmən qoşunu döyüşü saxlamadı. Həsin ibn Nümeyr Ömər Sədin adamlarından biri idi. O dedi: Sizin qıldığınız namaz qəbul olunmayacaq. Həbib ibn Məzahir ona belə cavab verdi: Sənin namazın qəbul olunacaq, amma Peyğəmbərin(s) Əhli-beytinin(ə) namazı qəbul olunmayacaq, ay ulaq? Bu sözlərdən sonra Həbib ibn Məzahirin başını bədənindən ayırıb şəhid etdilər. İmam Hüseyn(ə) Səid ibn Abdulla, Züheyr ibn Qeyn kimi bir neçə nəfərə göstəriş verdi ki, qabaqda dayansınlar, namazımızı qılaq. İmam Hüseyn(ə) namazı qılıb qurtardıqdan sonra Səid ibn Abdullaya baxdı. Səid öz sinəsini oxlara sipər etmişdi ki, İmama(ə) dəyməsin. Oxlar onun bədəninə sancılmışdı. Yaraların şiddətindən yerə yıxılmış halda Allahla belə münacat edirdi: İlahi, Ad və Səmud qövmünə lənət etdiyin kimi, bu qövmə də lənət et. Mənim salamımı Peyğəmbərə(s) yetir. Mənə dəyən bu yaralar, Sənin Peyğəmbərinin(s) balasının müdafiəsi uğrunda dəyib. Inşallah, mən bütün bunların əcr və savabını görəcəyəm. Bu sözləri deyəndən sonra gözlərini açanda İmam Hüseynin(ə) ona baxdığını gördü. İmam Hüseynin(ə) mübarək camalına baxıb dedi: Ey Peyğəmbər balası(ə), əhdimə vəfa etdimmi? Həzrət(ə) buyurdu: Bəli, sən cənnətdə mənim qarşımda olacaqsan."

Əmr ibn Qərəzə də Səid kimi öz sinəsini oxlara sipər etmişdi. Yaralı halda yerə yıxılmışdı. O da İmam Hüseyndən(ə) həmin sözü soruşdu: “Ey Peyğəmbər balası(ə), mən də əhdimə vəfa etdimmi? Həzrət (ə)buyurdu: Bəli, sən də cənnətdə gedəndə mənim qarşımda olacaqsan. Peyğəmbərə(s) məndən salam söylə. O Həzrətə(s) de ki, mən də sizdən sonra onun görüşünə gələcəyəm.”

Bütün bunlar Kərbəla isarından nümunələrdir. İmam Hüseynin(ə) istəyi yerinə yetsin deyə öz sinələrini oxların qarşısında sipər edib şəhid oldular. Kərbəlada həm kişilər isar göstərdilər, həm də qadınlar.

İmam Səccad(ə) buyurur: “Bibim Zeynəb(s.ə) hətta əsirləri Kərbəladan Kufəyə, Kufədən Şama apararkən yollarda belə gecənin nafilə namazını tərk etmədi. Bir gecə gördüm ki, namazı əyləşdiyi halda qılır. Bunun səbəbini soruşduqda belə dedi: Uşaqlara yeməyi az verdikləri üçün onlar doymurlar. Mən də öz payımı onların arasında bölüşdürürəm. Neçə gündür ki, özüm çörək yeməmişəm. Buna görə də ayaq üstə dayanmağa taqətim qalmayıb.”

Bu isarların nəticəsidir ki, bu gün müsəlmanlar rahatlıqla namazlarını qılırlar. Hüseynlə(ə) Zeynəbin(s.ə) zəhmətinin nəticəsidir ki, bu gün biz İmam Hüseynə(ə) əza məclisləri təşkil edib onu tanıyırıq. Insan dünyaya gəlib Hüseyni(ə) tanımayıb getsə, dünyaya gəlməyinin nə faydası vardır? İmam Hüseyn(ə) İslamı diri saxladı. Dinin bütün məsələlərini müsəlmanlara öyrətdi. Həmçinin bütün müsəlmanlara başa saldı ki, cəmiyyətdə insanlar isar vasitəsilə nuraniyyət tapırlar.

Kərbəla hadisəsindən və şəhidlər dəfn olunandan sonra karvan Mədinəyə qayıtdı. Bəşir adlı bir şəxs qabaqda

gedib bu karvanı qarşılamaq üçün xəbəri Mədinə camaatına çatdırdı. O deyir: “Şəhərə daxil olanda Ümmül-Bənini görüb ona yaxınlaşıb salam verdim. Ümmül-Bənin məndən soruşdu: Bəşir, Hüseyndən nə xəbər var? Dedim: Oğlun Əbülfəzl şəhid oldu. Ümmül-Bənin dedi: Hüseyn necə oldu? Dedim: O biri oğlanların da şəhid oldu. Ümmül-Bənin dedi: Bəşir, mən səndən Hüseyni(ə) soruşuram. Dedim: Hüseyni(ə) də şəhid etdilər. Ümmül-Bənin ağlayıb dedi: Bu xəbəri mənə verməklə elə bil ürəyimin damarlarını qırdın.”

# ON ALTINCI DƏRS

## İZZƏT VƏ AZADLIQ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

-Aşura hadisəsinin dərslərindən biri də izzət və azadlıqdır. Bu dərsi Kərbəlada şəhid olanların İmam Hüseynin(ə) rəhbərliyi ilə bütün bəşəriyyətə öyrətdiyi mühüm dərslərdəndir. Izzət və azadlıq hər bir insanın həyatında çox lazımlı və önəmli yer tutur.

Allah-təala Quranın “Fatir” surəsinin 10-cu ayəsində buyurur:

مَن كَانَ يُرِيدُ الْعِزَّةَ فَلِلَّهِ الْعِزَّةُ جَمِيعًا إِلَيْهِ يَصْعَدُ الْكَلِمُ الطَّيِّبُ وَالْعَمَلُ الصَّالِحُ يَرْفَعُهُ وَالَّذِينَ يَمْكُرُونَ السَّيِّئَاتِ لَهُمْ عَذَابٌ شَدِيدٌ وَمَكْرُ أُوْلَئِكَ هُوَ يَبُورُ

Hər kəs şərəf-şan, izzət istəyirsə *(bilsin ki,)* bunlar birbaşa Allaha məxsusdur *(və bunları Ondan istəməlidir)*; pak sözlər *(pak sözlərdən ibarət olan tövhidə və əqidə üsullarına etiqad)* On*(un dərgahın)*a tərəf yüksələr və pak sözü isə yaxşı əməl yuxarı qaldırar; hiyləgərliklə pis iş görənlər üçünsə şiddətli bir əzab vardır. Onların hiylələri puç və təsirsizdir.

İzzətin mənası barədə alimlər geniş söhbətlər açmışlar. Bu sözün kökü «əzaz» sözündən götürülür. Əzaz kəlməsi

bərk və möhkəm mənasını ifadə edir. Məsələn, «Ərzun əzaz» dedikdə bərk yer nəzərdə tutulur. Bəzi yerlər vardır ki, torpağı yumşaq olur və qazılması çox rahatdır. Amma elə yerlər vardır ki, oranın torpağını külünglə güclə qazmaq olur. Həmin möhkəm olan yerə ərəb dilində «ərzun əzaz» -möhkəm yer deyilir. Həmçinin bu sözün mənası çətinliklə tapılan bir şey mənasını daşıyır. Yəni əldə edilməsi çox çətinliklə tapılan şeyə əzaz deyilir. Hər bir şey bərk və çətinliklə tapılırsa, ona izzət deyilir. Yəni izzət sözünün mənası ora qayıdır. Lakin ümumi danışıqda, alimlərin sözlərində, hədislərdə və Quran ayələrində istifadə olunan izzət kəlməsi möhtərəm, güclü, misilsiz, qiymətli mənalarını daşıyır. O cümlədən hər hansı insana nüfuz edib təsir qoymaq çətin olursa, buna da əziz deyilir. Izzət kəlməsinin mənası belədir. Buna görə də Allahın adlarından biri də Əzizdir. Çünki Allaha heç kəs qələbə çala bilmir. Allah qüdrətli olduğundan heç kəs Ona nüfuz edə bilmir. Onun misli, tayı-bərabəri yoxdur. Izzətin bütün mənalarının hamısı Allahda vardır. Quranda Allahın sifətləri sadalanır və 92 dəfə Əziz sözü işlədilmişdir. Bu kəlmə Quranda müxtəlif mənalarda gəlmişdir, amma bizim söhbətimizə aid olan mənalar qüdrətli, başı uca, şövkətli, əzəmətli, güclü və qələbə çalan və məğlub olmayan insanın barəsindədir. Hər kəsdə bu sifət və xüsusiyyətlər olarsa, əziz və izzətli insan hesab olunar. Bəzi insanlar bu sözün mənasını tamam başqa cür məna edirlər, səhv qənaətə gəlirlər. Elə düşünürlər ki, hər kəs güclü, məntiqsiz qələbə çalsa və təkəbbürü özündə təcəssüm etdirməklə izzətə çatmış olar. Çox təəssüflər olsun ki, indiki zamanda elmin belə inkişaf etməsinə baxmayaraq, dünya izzəti bu cür görür. Amma heç də belə deyil. Əziz təvazökar insanlarla yola gedən, səmimi

məhəbbətlə rəftar edən insandır. Həmçinin azad, sülhtələb, Peyğəmbərin(s) əxlaqı kimi gözəl əxlaqa malik olan insanların barəsində əziz sözü tərənnüm olunur. Heç də belə deyildir ki, insan heyvaniyyət zorundan istifadə etməklə özünə izzət qazanmış olsun. Çox təəssüflər olsun ki, tarixdə bu məsələni belə başa düşüblər. Öz əsrimizdə şahidi oluruq ki, bəzi insanlar bu dünyada özlərinə beş günlük təmtəraq düzəltməklə özlərini izzətli hesab edirlər. Amma Quran onlara izzət gözü ilə baxmır.

Aşura günü çadırların kənarında xəndək qazmışdılar. Şimr gəlib gördü ki, çadırların kənarında enli, dərin xəndək qazılıb və içində də od qalanıb. O nanəcib insan İmam Hüseynə(ə) yaxınlaşıb dedi: Ya Hüseyn, elə bil cəhənnəm odunda yanmazdan öncə bu dünyanın odunda yanmaq fikrindəsən? Belə alçaq və nalayıiq sözlərlə o, İmama(ə) qarşı cəsarət etdi.

Şimrin bu ədəbsizliyinə və hörmətsizliyinə Müslüm ibn Ovsəcə əsəbiləşib onu oxla vurmaq istədi. İmam Hüseyn(ə) Müslümə baxıb buyurdu: "Lazım deyil, ona ox atma. Onların belə sözlər deməyinə baxma. Çünki onlar zəlil insanlardır. Onlar bundan artıq bir şey bacarmırlar. Onların bütün güclərinin hamısı yalan danışmaq, söyüş söymək və vurub öldürməkdən başqa bir şey deyil. Mən bu müharibəni birinci başlayan insanlardan olmaq istəmirəm. O, özünün adam olduğunu təsəvvür edir. Amma həqiqətdə o heç bir şey deyil. Dünya belə insanlarla çox rastlaşıb."

İmam Hüseyn(ə) izzəti öz kəlmələri və hərəkətləri ilə çox gözəl şəkildə məna etmişdir. İslam tarixində Quranla bir çox insanlar müxalifətçilik edirlər. Çox axtarış aparmalarına baxmayaraq, Qurandan heç bir eyb və nöqsan tapa bilmirlər. Əgər bir çatışmazlıq tapsaydılar,

Quranın əleyhinə heç bir söz deməzdilər. Sadəcə həmin eyb və nöqsanı hər yerdə açıb camaata göstərərdilər. Onlar Qurandan heç bir eyb və nöqsan tapmadıqlarından, başqa yollara əl  atırlar. Həmçinin bu min dörd yüz ildə İmam Hüseyn(ə) hərəkətində və kəlamlarında heç bir nöqsan, çatışmazlıq tapa bilmirlər. Həzrətin(ə) bütün kəlamları və çıxışları bir çox kitablarda yazılıb tarixdə saxlanılmışdır. Həzrətin(ə) sözlərindən insani, siyasi, əxlaqi və ictimai baxımdan heç bir eyb və nöqsan tapa bilmirlər. Çünki Həzrətin(ə) əvvəldən axıra qədər olan mübarək sözləri, danışıqları və hərəkətlərinin hamısı Allahın razılığı, insaniyyət və İslamın məqsədi əsasında idi. İmam Hüseynin(ə) heç bir kəlməsində və heç bir hərəkətində İslamdan kənar söhbət etməmiş və heç bir halalı harama qatmamışdır. Hətta qılıncın altında belə sözünün üstündə dayanıb Allah istədiyi kimi hərəkət etdi. İmam Hüseyn(ə) camaata haqqtələb səsini çatdırarkən imkan vermirdilər. Həzrət(ə) dəfələrlə buyurardı ki, sözlərimi dinləyin, mənim səsimi boğmaqla elə bilirsiniz mənim səsim dünyaya və qulaqlara çatmayacaq? Gəlin söz deyib söz eşidək, qılıncla səsimi boğmaqla məni məqsədimdən ayrı sala bilməyəcəksiniz. Yaxşısı budur sözlərimə qulaq asıb məni dinləyəsiniz. Amma o nanəcib insanlar bu dünyanın oyun-oyuncağına aldanıb, Peyğəmbərin(s) əziz balası İmam Hüseyni(ə) şəhid etdilər. İmam Hüseynin(ə) və məhzərində iştirak edən səhabələrinin bütün sözləri, məntiqləri və deyiləsi mətləbləri Xanım Zeynəbin(s.ə) və Imam Cəccadın(ə) dili ilə bütün qulaqlara çatdırıldı. İmamın(ə) demək istədiyi bütün sözlərini əsirlərin dili ilə şəhərbəşəhər camaata çatdırdı. Indiyə qədər də O həzrətin sözləri deyilib və haqq-həqiqət axtarışında olanlar da həmin kəlmələri tapıb öz həyatlarına izzət bəxş etmişlər.

Amma məntiqdən, haqq-həqiqətdən uzaq düşənlər və zülm əhli olanlar indinin özündə də nə bu məntiqi anlayırlar, nə də o zamanın məntiqini başa düşüblər. Bundan əlavə, heç başa düşmək belə istəmirlər.

İmam Hüseyn(ə) son anlarında yaralı halda belə onlarla höccəti tamamladı. Ox, qılınc yaralarına və qardaşlarının, səhabələrinin, oğlanlarının şəhid olmasına baxmayaraq, həmçinin ürəyi, bədəni yaralı olduğu bir halda, Həzrətin(ə) başını kəsmək üçün qılıncı boğacına qoyarkən sonuncu kəlməsini belə buyurdu: Deməyin ki, qardaşım Əbülfəzl ölüb, artıq gecdir. Qanlar tökülüb, başlar kəsilib, insanlar öldürülüb. Bununla belə, deməyin ki, artıq iş-işdən keçmişdir. Əgər mənim sözümü və məntiqimi qəbul etsəniz, mənim sizlərə deməyə sözüm var. İmam Hüseynin(ə) onlara ən son kəlmələri bunlar idi. Həzrət(ə) bütün bu hadisələri məntiqə, sülhə və haqqa qurban verməyə hazır idi. Çox təəssüflər olsun ki, onlar məntiq əhli deyildilər. İmam Hüseynin(ə) nəzərində izzət bu cür idi. Buna görə də İmam Hüseyn(ə) qiyamətə qədər əziz olaraq qalacaq. Çünki izzətin həqiqi mənasını öz əməlində bütün dünyaya sübut etdi.

Yezid(ə) şərəfsiz və alçaq bir insan idi. Hamı onun kim olduğunu çox gözəl bilirdi. Müaviyə onun atası olmasına baxmayaraq, oğlu haqda danışarkən xəcalət çəkirdi. O, öz oğlunu müdafiə edərkən utanırdı. Bu məsələ haqda söhbət edərkən bəzi adamları çağıranda bəzisini çağırmırdı. Yezidin haqqında bəzi sözləri danışırdı, amma bəzisini deməyə dili gəlmirdi. Bir sözlə, Yezid belə bir insan idi ki, öz atası onun barəsində danışmağa xəcalət çəkirdi. Hətta İmam Hüseyni(ə) Yezidə beyət etmək üçün təşkil etdiyi məclisə dəvət edərkən sözünün haradan başlayıb, harada qurtarmasını bilmirdi. Oğlunun özündən sonra hakim

olması məsələsini danışıb, beyət almaq istədikdə İmam Hüseyn(ə) buyurdu:

-Müaviyə, Yezid barəsində dediyin sözləri başa düşdüm. Onun qabiliyyətindən və siyasətindən danışdın. Bunların hamısı mənə aydın oldu. Müaviyə, elə bil ki, Yezid barəsində camaata başqa cür danışırsan. Elə bil bizim tanımadığımız adam barəsində söhbət edirsən. Elə bil özü burada olmayan adam barəsində danışırsan. Elə bil onun barəsində xüsusi məlumatı olan insanlar kimi danışırsan. Halbuki Yezid indiyə qədər özünü camaata çox yaxşı tanıtdırıb. Hamı onun ictimai, siyasi fikrini çox gözəl bilir. Onun ictimai pozğunluqlarını və çirkinliklərini hamı gözəl bilir.  Yezid öz əməlləri ilə özünü camaata çox gözəl tanıtdırıb. Ehtiyac yoxdur ki, sən yalandan onu camaata tərifləyəsən. Müaviyə, sən əgər düzgün adamsansa Yezidi olduğu kimi camaata tanıtdır. Müaviyə, yaxşı olar ki, sən bir az Yezidin itbazlığından və quşbazlığından danışasan. Yezidi quşbazlıq edən zaman, itləri biri-birinin canına salıb, əlləşdirən zaman hamı görüb. Müaviyə, bir az da Yezidin əyyaşlığından, gecə-gündüz pozğun qadınlarla zinakarlıq edərək əylənib çal-oynamaqla məşğul olmasından danış!

İmam Hüseyn(ə) bu sözləri düz Müaviyənin və Yezidin gözünün içinə deyərək, onun cavabını verdi. Onlar özləri də bilirdi ki, Yezid barəsində danışılası heç bir yaxşı söz yoxdur.

Əmr ibn Həccac Ömər Sədin qoşununda idi. Aşura günü döyüş başlamazdan əvvəl İmam Hüseynə(ə) yaxınlaşıb üzünü öz qoşununa tutaraq dedi: Camaat, öz yolunuzda möhkəm dayanın. Dindən çıxmış insanı öldürməkdən qorxmayın. Onu öldürün. Çünki o, bizim

imamımıza (Yezidə) boyun əymir. O, bu sözləri İmam Hüseynə(ə) ünvanlayıb öz adamlarına deyirdi.

Həzrət(ə) ona baxıb buyurdu: “Ey Həccacın oğlu, camaatı mənim əleyhimə qaldırırsan? Mənim dindən çıxdığımı güman edib, özünüzün dində sabitqədəm olduğunuzu nümayiş etdirirsiniz? Allaha and olsun ki, kimin dindən çıxdığını sən yaxşı bilirsən. Sən yaxşı bilirsən ki, cəhənnəmə getməyə hansımız daha layiqik.”

İmam Hüseyn(ə) izzətin mənasına onların baxdığı kimi baxmırdı. Onlar elə başa düşürdülər ki, bu dünyada əllərinə hər nə keçirsə və beş-on gün bacardıqlarını etmək onlar üçün izzət və şərəfdir. İmam Hüseyn(ə) min dörd yüz il sonranı və qiyamətə qədər olan vaxtı görüb izzəti yerində danışıb məna edir. Allah-təala izzət barədə buyurur:

مَن كَانَ يُرِيدُ الْعِزَّةَ فَلِلَّهِ الْعِزَّةُ

Hər kəs şərəf-şan, izzət istəyirsə *(bilsin ki,)* bunlar birbaşa Allaha məxsusdur.

Hər kəs izzət axtarırsa, deməli, Allaha bağlı olmalıdır. Çünki izzət yalnız və yalnız Allahın yanındadır. Quranda izzət barədə bir çox ayələr vardır ki, onlardan biri də “Münafiqun” surəsinin 8-ci ayəsidir. Bu ayə münafiqlər barəsində nazil olmuşdur. Müharibələrin birindən qayıdarkən belə dedilər: “Biz Mədinəyə qayıdandan sonra əziz insanlar zəlil insanları şəhərdən qovub uzaqlaşdıracaqlar. Onlar özlərini əziz, Peyğəmbər(s) və möminləri zəlil hesab edirdilər. Allah-təala bu ayəni nazil etməklə onlara cavab verdi:

وَلِلَّهِ الْعِزَّةُ وَلِرَسُولِهِ وَلِلْمُؤْمِنِينَ وَلَكِنَّ الْمُنَافِقِينَ لَا يَعْلَمُونَ

-İzzət və qüdrət Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur və lakin münafiqlər *(bunu)* bilmirlər.

Başqa bir ayədə Allah-təala belə buyurur:

الَّذِينَ يَتَّخِذُونَ الْكَافِرِينَ أَوْلِيَاء مِن دُونِ الْمُؤْمِنِينَ أَيَبْتَغُونَ عِندَهُمُ الْعِزَّةَ فَإِنَّ العِزَّةَ لِلّهِ جَمِيعًا

-Həmin o kəsləri ki, möminlərin yerinə kafirləri özlərinə başçı, köməkçi və dost tuturlar. *(Onlar)* izzət və əzəməti onların *(kafirlərin)* yanında axtarırlar? Belə isə *(bilsinlər ki,)* həqiqətən bütün izzətlər Allaha məxsusdur.[1]

## Peyğəmbər(s) və Əhli-beytin(ə) nəzərində izzətin mənası

Bu barədə bir mətləb də budur ki, insan hansı əməllərlə özündə olan izzəti artırıb zillətdən uzaqlaşa bilər. Bu barədə Peyğəmbər(s) və Əhli-beytdən(ə) bir çox hədislər və rəvayətlər vardır. Onlardan bəzisini qeyd etməzdən öncə nəzərinizə çatdırmalıyam ki, bütün insanlar arasında hamı izzətin və səadətin çox gözəl bir şey olmasını bilir və qəbul edir. Amma mənasına gəldikdə isə bəzi insanlar izzəti özlərinə və düşüncələrinə uyğun məna edərək özlərini xoşbəxt hiss edirlər. Bəzi insanlar izzəti mal-dövlətli olmaqda bilirlər. Elə düşünürlər ki, əgər adamın pulu, malı və dövləti çox olarsa, həmin insan izzətli bir insandır. Pul əldə etmək üçün hər şeydən keçməyə hazırdırlar. Belə insanları tarix boyu görüb müşahidə etmişik. Hazırkı zamanda da belə insanlarla tez-tez rastlaşırıq. Pul xatirinə, mal-dövlət əldə etmək xatirinə insaniyyətdən, şərafətdən, bir sözlə, hər şeyindən keçirlər.

Bir nəfər danışır ki, riba yeyən (faizlə pulverən) bir şəxsi tanıyırdım. Bir gün ondan soruşdum ki, sizin belə

---

[1] Nisa, 139

haram işlər görməyiniz, evlər yıxmağınız məlumdur. Amma bilmək istərdim ki, sizin ən yaxşı və ləzzət aldığınız vaxt nə vaxtlardır. Yəni bu qədər günahın içində ikən dünyada ən çox nədən ləzzət alırsınız? O dedi: Mənim ən ləzzət aldığım vaxt o vaxtlardır ki, qonşuma faizlə pul verirəm, o da faizi ödəyə bilmədiyi üçün məhkəmə yolu ilə evini əlindən alıb uşaqları ilə birgə qışın çovğun vaxtında onu çöllərə atıram. Uşaqlarının ac qaldığını və soyuqdan titrədiyini görüb bu acınacaqlı vəziyyətdə sinəsini didərkən, mən də isti evdə toyuğun sinəsini diddiyim zaman aldığım ləzzəti heç nədən almıram.

Həyatda bir az fərqli olmuş olsa da, belə insanlarla rastlaşmaq olur. Bəziləri dildə deyir, bəziləri də əməldə həyata keçirir. Əgər insan izzəti, şərafəti pulda görərsə, bundan da artığını edib pul yolunda hər iş görər.

Ömər Səd belə bir insan idi ki, ona Rey mülkünü vədə vermişdilər. İmam Hüseyn(ə) onunla söhbət edərkən buyurdu: “Ömər Səd, sən elə bilirsən ki, sənə Rey mülkünü verəcəklər? Allaha and olsun ki, sənin başını nizələrə taxılmış və uşaqların sənin başına daş atdıqlarını indidən görürəm. Elə düşünürsən ki, Rey mülkü sənə nəsib olacaq? Bu cinayətləri Rey mülkünün eşqinə edirsən? Məndən sonra buğda çörəyi sənə nəsib olmayacaq.”

Ömər Səd Həzrətin(ə) sözləri qarşısında cavab verə bilmədiyindən dedi: Yəbnə Rəsulillah, eybi yox, arpa çörəyi yeyərəm.

Aşura hadisəsindən sonra istədiyi qədər çörək yeyə bilmədi. Ona Rey mülkünü vermədilər. Çox az bir müddətdən sonra onu öldürüb İmam Hüseynin(ə) buyurduğu kimi, başını nizələrə keçirib şəhərdə

gəzdirdilər. Şəhərin xırda uşaqları onun başına daş atırdılar.

Əgər bir insan izzəti pul, mal-dövlətdə görürsə, daha baxmaz ki, öldürdüyü insan kimdir. Belə insan nə danışdığını heç özü də bilməz. Çünki pulun xatirinə ona deyilənləri deməli, ona əmr olunanlara əməl etməlidir.

Bəzi insanlar da izzəti vəzifədə, yüksək iş başında görürlər. Elə düşünürlər ki, əgər vəzifəyə çatarsa, bu, onun üçün böyük izzət və şərəfdir. Vəzifə uğrunda hər nəyindən keçməyə hazırdır. Bu yolda öldürməyə, zülm etməyə can-başla hazır olduğunu izhar edir. Belə insanlar üçün vəzifədən artıq izzət heç nə yoxdur.

Bəhlul Danəndə bir gün Harun ər-Rəşidin yanına gəlib bir az söhbət etdilər. Harun üçün yaşıl bir çəmənlikdə yer düzəltmişdilər. Harun göyə baxıb bir dəstə buludun bu tərəfə, bir dəstəsinin o tərəfə getdiyini görüb dedi: “Ay buludlar, hara gedirsiniz belə? Istər gecə gedin, istərsə də gündüz, bilin ki, mənim ölkəmdən kənara çıxa bilməyəcəksiniz.” Harun bu sözlərlə bildirmək istəyirdi ki, hər yerin hakimi mənəm. Bəhlul dedi: “Harun, sən elə düşünürsən ki, bu ölkə sənindir?” Harun dedi: “Bəs kimindir?” Bəhlul dedi: “Sənin sarayının arxasında bir zirzəmi var. Həmin zirzəmidə qaranlıq bir otaq var. Həmin otağın içində qollarına qandal vurub zindana saldığın bir seyid var. Bax bütün bunların hamısı o seyidindir.” Sonra Bəhlul soruşdu: “Harun, əgər sən bir çöldə susuz qalsan və içməyə su tapa bilməsən, susuzluqdan öləcəyin halda bir nəfərin var-dövlətinin müqabilində sənə bir içim su verəcəyini gördükdə nə edərsən? Mülkünün, var-dövlətinin yarısını ona verərsənmi? Harun dedi: Görsəm ki, ölürəm və başqa çarəm yoxdursa, verərəm. Bəhlul dedi: Həmin suyu içəndən sonra bir az keçməmiş idrar

etmək istəyərkən gördün ki, yolu bağlanır. Sancıdan qovrulduğun halda sənin dərdinə çarə qılan bir həkim tapılır. Amma sənin dərdinə çarə etmək üçün həmin mülkünün və mal-dövlətinin qalan hissəsini səndən tələb edərsə, onunla razılaşarsanmı? Harun dedi: Əlacımın kəsildiyini və öləcəyimi gördükdə razılaşmamaqdan başqa çarə yoxdur. Bu dərddən qurtarmaq üçün hamısını ona verərərm. Bəhlul dedi: Harun, yarısını bir içim suya və qalan yarısını da həmin suyu bədənindən çıxartmağa görə verdiyin mülkün üstündə adam Musa ibn Cəfər kimi bir insanı öldürər? Bəhlul bu sözləri ona deyəndən sonra çıxıb getdi.”

İzzət pulda, mal-dövlətdə, vəzifədə deyil. Hər kəs izzəti şərəf və ləyaqəti bu kimi şeylərdə axtarırsa, heç vaxt izzətə çata bilməyəcək. Həzrət Peyğəmbər(s) buyurur:

اِنَّ رَبَّكُمْ يَقُول كُلَّ يَوْم: اَنَا العَزِيز فَمَنْ اَرادَ عِزَّ الدارَين فَلْيُطِعِ الْعَزِيز

-Həqiqətən Allah hər gün belə buyurur: Əziz (izzətli) mənəm. Hər kəs dünya və axirətin izzətini istəyirsə, gərək Əzizə (Allaha) itaət etsin.

Buna görə də əgər bir insan izzət, şərəf və ləyaqət axtarırsa, mütləq Allahın itaətində olmalıdır. Çünki izzət yalnız Allahdadır. Həzrət Peyğəmbər(s) buyurur:

اَوحَى الله اِلى داوُد: يا داوُد اِنِّى وَضَعْتُ العِزَّ فِى طَاعَتِى وَ هُم يَطْلُبُونَهُ فِى خِدْمَةِ السُّلْطان فَلا يَجِدُونَهُ

-Allah-təala Davuda vəhy göndərərək belə buyurdu: Ey Davud, insanların izzətə çatmasını Mənə itaət etməkdə qərar vermişəm. Amma onlar izzəti sultanların, padşahların (pullu və imkanlı insanların) qapısında qulluq etməkdə axtarırlar. Heç vaxt tapa bilməyəcəklər.

Bəzi insanlar həqiqətən elə düşünürlər ki, onun-bunun qapısında qul və kölə olmaqla izzətə nail ola bilərlər. Amma başa düşmürlər ki, insan özünü onun-bunun qarşısında zəlil etməklə heç vaxt izzətə çata bilməyəcək. Insan izzətə çatmaq üçün mütləq təqvalı olmalı və Allahın itaətində olmalıdır. Belə olduqda Allah-təala həmin insana izzət bəxş edər. Həzrət Əli(ə) belə buyurur:

اَلتَّقْوى تُعِزّ وَالفُجُورُ تُذِلّ

-Təqva insana izzət,  günah isə zillət verər.

Günah insanı zəlalətə çəkib zəlil edər. Əgər insanın təqvası olmasa, izzətə çatması çətin məsələdir. Yəni əgər bir insan Allahdan qorxmursa, günah etməyindən də əl çəkmirsə, deməli, zəlalət içindədir. Züleyxa bütpərəst bir qadın idi. Vəzifəli bir insanın həyat yoldaşı olmasına baxmayaraq, bütə ibadət etməklə özünü zəlil etmişdi. Yusifi tapandan sonra və bütün işlərinin puça çıxdığını gördükdən sonra hər şeyi başa düşüb bütü sındırdı və Allahını taparaq izzətə çatdı. Əziz olan Allah qul insanlara Ona itaət etdiyinə görə əziz, mənim kimi şah saraylarının əzizlərini günahlara görə zəlil etdi. Bütü sındırıb bu sözləri deyəndən sonra izzətin yolunu tapdı.

Təqva insanı izzətə yetirər. Təqva insanı günahdan saxlayar. Maşın sürərkən hər hansı bir təhlükə ilə üzləşərkən əyləci basmaqla maşını saxlamaq olur. Əgər əyləc olmasa və ya xarab olarsa, istənilən vaxt təhlükəyə düşmək ehtimalı var. Təqva da insanın əyləcidir. Əgər bu əyləc insanda olmasa, insan həlakətə uğrayar. Süfrə kənarında əyləşərkən göz görür və əl təamlara tərəf uzanır. Təqva insanın əlinin haram yeməklərə qarşı uzadılmasının qarşısını alır. Təqva olmasa, insan qarşısına çıxan hər bir yeməyin  halal - haram olmasının fərqində olmaz. O,

təqvadır ki, insanı haramlardan və günahlardan saxlayır. Seçim qarşısında qalarkən təqva insana kömək edir. Bütün hərəkət və əməllərdə təqva insanın ehtiyatıdır. Məsələn, tikanlıqda ayaqyalın gəzən insan tikanların ayağına batmaması üçün ehtiyatla gəzdiyi kimi, təqva da insanın bütün əməllərində ehtiyatlı olmaqda kömək edir. Insan evdən çölə çıxıb bir yerə gedərkən yüzlərlə günahla qarşılaşır. Əgər həmin günahlar adamın başını qarışdırmasa, həmin şəxs təqvalı insandır. Çünki təqva onu günah etməyə qoymur. Insanın izzəti də bundan asılıdır. Təqvalı insan izzətə çatar. Yusifin(ə) izzətə və şərafətə çatması da təqvasının nəticəsində oldu. Əgər Züleyxanın evində onun istəklərini etsəydi, Allah onun adını Quranda nümunə kimi insanlara göstərməzdi. Allah Quranda Yusifin adına bir surə nazil etdi. Bir çox ayələrdə onun adını çəkərək, bütün insanlara nümunə göstərib fəxr edir. Günah etmək üçün bütün şəraitin hamısının hazır olduğu bir vəziyyətdə Yusif bu işə razılıq vermədiyi üçün Allah ona bu cür izzət bəxş etdi. Izzət öz nəfsləri ilə mübarizə aparan insanlarındır. Izzət haqqtələb insanlarındır. Harada olmasından asılı olmayaraq, haqqı müdafiə edən insanlar həmişə izzətə çatar. Izzət odur ki, insan əlini başqalarına uzatmasın. Özünü ona-buna möhtac etməsin. Bir gün Həzrət Peyğəmbər(s) ətrafındakı müsəlmanlara buyurdu: "Siz mənə beyət etmək istəmirsiniz? Dedilər: Ya Rəsulallah, biz ki sənə beyət etmişik. Bunun mənasını bizə izah et. Həzrət(s) buyurdu: Mənə beyət edin və mənimlə əhd bağlayın ki, sizə nə qədər çətinlik baş versə də, heç vaxt heç kəsə əl uzatmayacaqsınız və camaatdan bir şey istəməyəcəksiniz. Yəni gözünüz onun-bunun əlində olmayacaq. Çalışın, özünüz öz ayağınız üstə dura biləsiniz."

## Zillət möminlərə haramdır

Burada bir mətləbi də əziz möminlərin nəzərinə çatdırıram. O da budur ki, İslam dini, Quran ayələri və hədislər dəlil və sübutlar əsasında möminin zillət altına girməsini haram sayır. Insan heç vaxt zillət qarşısında boyun əyməməlidir. Belə deyil ki, mömin öz ixtiyarında olmalıdır. Seçim qarşısında qalarkən izzəti və ya zilləti seçmək ixtiyarı möminə verilməmişdir. Heç kəs deyə bilməz ki, mən zilləti seçmək istəyirəm. Özünü zillətə salmaq möminlərə haramdır. Getdiyi yerdə zəlil olacağını, zillətə düşəcəyini bilsə, həmin yerə getməyə ixtiyarı yoxdur.

İmam Sadiq(ə) «Izzət və qüdrət Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur» ayəsini oxuyub təfsir edərkən buyurdu:

فَالْمُؤْمِنُ يَكُونُ عَزِيزاً  وَلا يَكُونُ ذَلِيلاً...

اَلْمُؤْمِنُ اَعَزُّ مِنَ الْجَبَل اِنَّ الْجَبَلَ يُسْتَقَلُّ مِنْهُ بِالْمَعاوِل وَالْمُؤْمِنُ  لا يُسْتَقَلُّ مِن دِينِه شَيئٌ

-Mömin əziz olmalıdır, zəlil yox. Mömin dağdan da möhkəm, əziz olmalıdır. Dağdan külünglə vurub daş qopartmaq olar, amma möminin din və imanından heç bir şey qopartmaq olmaz.

Mömin dağ kimi möhkəm olmalıdır. Hər əsən külək, qopan tufan onu yerindən oynada bilməz. Bəlaların hamısını çəkər, amma sözündən zərrə qədər də dönməz. Mömin heç vaxt haqdan kənara çıxmaz.

İbn Ziyad Xanım Zeynəbə(s.ə) dedi: Gördünmü Allah sizinlə nə etdi? Aqibətinizin necə olduğunu gördünmü? Xanım Zeynəb(s.ə) İbn Ziyada təhqirlə baxıb buyurdu:

"Mən gözəllikdən başqa bir şey görmədim. Biz Allahın rəhməti altındayıq. Biz izzət içindəyik. Mən zilləti sizdə görürəm." Xanım Zeynəb(s.ə) çox əzəmətli, şövkətli və izzətli bir qadın idi. Bütün insanlar gərək bu xanımdan nümunə dərsləri öyrənsinlər. Hər çətinliyin qarşısında səbrlə, izzətlə möhkəm dayandı.

*Dedim dağa, nə ağırsan?*
*Dedi: məndən ağır vüqari Zeynəbdi.*

Xanım Zeynəb(s.ə) Yezidin qarşısından keçərkən elə vüqarla keçdi ki, onun acığı gəldi. Möhkəm addımlarla, vüqar və qürurla, saymamazlıqla, ayaqlarını yerə möhkəm vura-vura keçdi. Yezid soruşdu: Bu təkəbbürlü qadın kimdir belə? Bu qadının yaxın adamlarından kimisə öldürməmisiniz ki, ürəyi yansın? Dedilər: Yezid, bu, Əlinin(ə) qızıdır. Ölənlərin bir neçəsi bu qadının qardaşıdır. Bu qadının qardaşı uşaqlarını, öz oğlanlarını da öldürmüşük.

Kərbəlada şəhid olanları İmam Hüseyn(ə) çadırların kənarına gətirirdi. Xanım Zeynəb(s.ə) həmin şəhidi qarşılayıb onun anasını, bacısını və yaxınlarını çağırıb, birlikdə həmin şəhidi oxşayıb ağlayırdılar. Elə ki, İmam Hüseynin(ə), Həzrət Zeynəbin(s.ə) oğlanlarının cənazəsini çadırların yanına gətirdilər, xanım çölə çıxmadı. Bir neçə qadın Həzrət Zeynəbin(s.ə) çadırına daxil olub dedilər: "Xanım, çadıra qurbanlarını gətiriblər. Necə ki, bizim şəhidləri gətirəndə sən çıxıb oxşayıb ağlayırdın, indi də çıx, biz sənin oğlanlarını oxşayıb ağlayaq."

*Buyurdu xaneyi səbri bilin, çıxan deyiləm,*
*Min oğlum ölsə də, mən xeymədən çıxan deyiləm.*

Sonra İmam Sadiq(ə) belə buyurur:

اِنَّ اللهَ فَوَّضَ اِلى الْمُؤْمِنِ اُمُورَها كُلَّها وَلَمْ يُفَوِّض اِلَيهِ اَنْ يُذِلَّ نَفْسَهُ

لأَنَّ اللهَ يَقُول: وَلِلَّهِ الْعِزَّةُ وَلِرَسُولِهِ وَلِلْمُؤْمِنِينَ

-Allah möminə özünü əskik və zəlil edən heç bir şeyə icazə verməyib. Iynənin ucu qədər möminin zillətə düşəcəyi bir yerdə olmasına icazəsi yoxdur. Buna görə də Allah buyurur: “İzzət və qüdrət Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur.”

“Nəhcül-Bəlağə”də Həzrət Əlinin(ə) İmam Həsənə(ə) ətraflı bir vəsiyyətnaməsi vardır. Bu vəsiyyətnamə əvvəldən axıra qədər mərifət dolu kəlamlardır. Həzrət(ə) belə buyurur:

اَكْرِم نَفْسَكَ عَن كُلِّ دَنِيَّةٍ وَ اِن سَاقَتكَ اِلى الرَّغائِب فَإِنَّكَ لَن تَعتاضٍ بِما تَبْذُل مِن نَفْسكَ عَوَضاً وَلا تَكن عَبدَ غَيْرِك وَ قَد جَعَلكَ اللهُ حُرًّا وَما خيرُ خير لا يُنالُ اِلاّ بشرٍ

-Nəfsin səni saysız nemətlərə çatdırsa da, onu bütün alçaqlıq və rəzilliklərdən üstün tut, əzizlə. Çünki nəfsindən sərf etdiyin şeyin müqabilində, onu əvəz edəcək bir şey tapa bilməyəcəksən. Başqasına qul olma *(mal və məqam tamahı ilə heç kəsə baş əymə)*. Allah səni azad yaradıb. Pisliklə *(başqasının yanında abır tökməklə)* qazanılan xeyirin *(mal və məqamın)* harası xeyirdir?! Çətinliklə əldə edilən asanlığın nə xeyri var?!

Başqa bir kəlamda Həzrət Əli(ə) buyurur: “Sizin ən az qiymətiniz cənnətdir. Özünüzü cənnətdən ucuz qiymətə satmayın.”

Müaviyə suyun qarşısını kəsdikdən sonra Həzrət Əli(ə) camaata buyurdu: “Müaviyənin qoşunu *(Fəratın mənsəbini tutmaq və sizi ordan su götürməyə qoymamaqla)* sizlərlə döyüşmək istəyir. Belə olduqda siz ya zəlillik və rəzilliyi boynunuza alaraq şücaət və

şərəfinizi əldən verməli *(acizlik və gücsüzlüyünüzü bildirməli, susuzluqdan əlacsız qalaraq, özünüzü düşmənə təslim etməlisiniz)*, yaxud da sudan doymanız üçün qılınclarınızı *(onların)* qanı ilə doydurmalısınız. Deməli, əgər məğlub olsanız *(əsl)* ölüm sizin həyatınızda, *(düşmənə)* qalib gəlsəniz *(həqiqi)* həyatınız ölümünüzdə olacaq *(şərəfli və başıuca ölüm, rəzillik və zillət içində yaşamaqdan yaxşıdır).”*

İmam Hüseynin(ə) Kərbəlada buyurduğu sözlər də atası Əlinin(ə) həmin sözləri idi.

لا اَرى الْمَوت اِلاّ سَعادَة والحياةَ مَعَ الظّالِمِين الا بَرَمًا

-Mən ölümü səadət, zalımlarla və namərd insanlarla birgə yaşamağı zillətdən başqa bir şey görmürəm.

İzzət Allahın insanlara vacib etdiyi əməllərdən biridir. İzzət Kərbəlanın insanlara öyrətdiyi ən mühüm dərslərdən biridir.

## Aşura iştirakçılarının hərəkətlərində izzətin nümunələri

İmam Hüseyn(ə) Kərbəlada aşura günü rəhbərlik etdiyi aşiqlərin vasitəsilə sözlərində və əməlində bütün bəşəriyyətə və tarixə izzətin mənasını öyrədir. Kərbəla hadisəsinin başlanğıcına nəzər saldıqda görürük ki, bu məsələ Peyğəmbərin(s) son anlarına təsadüf edir. Yəni Peyğəmbərin(s) dünyasını dəyişdiyi andan bu hadisənin təməli qoyuldu. Peyğəmbər(s) dünyasını dəyişdikdən sonra Əli(ə) Həzrətə(s) qüsl verib, onu dəfn etməklə məşğul olduğu zaman bəzi insanlar Kərbəla hadisəsinin yaranmasının təməlini qoyurdular. Buna görə də bu hadisənin kökü və təməli o dövrlərə təsadüf edir. Bu barədə geniş şəkildə danışmaq olar. Amma həmin dövrdən

təqribən 50 il sonra baş vermiş hadisənin bir hissəsini nəzərinizə çatdırıram.

Müaviyə cəhənnəmə vasil olandan sonra Yezid Mədinənin valisi Vəlid ibn Ütbəyə bir məktub yazdı. Müaviyənin zamanında Mərvan Mədinənin valisi idi. Məktub göndərilən zaman Mərvan da Mədinədə idi. Yezid Vəlidə belə yazmışdı: Üç nəfərdən mənim üçün beyət al. Onlar atam Müaviyənin sağlığında mənə beyət etməmişdilər.

Müaviyə ölməmişdən əvvəl oğlu Yezid üçün bir çox adamdan beyət almışdı. Amma bu üç nəfərdən beyət ala bilmədi. Həmin üç nəfərdən biri Hüseyn ibn Əli(ə), biri Abdulla ibn Ömər, biri də Abdulla ibn Zübeyr idi. Buna görə də Yezid yazdığı məktubda Vəliddən təkidlə bu üç nəfərdən beyət almasını yazmışdı. Bu, Yezidin hakimiyyətinin ilk məktubu idi. Məktubda belə yazılmışdı ki, ya onlardan beyət almalısan, ya da beyət etməsələr, başlarını kəsib mənə göndərməlisən. Xüsusən İmam Hüseyn(ə) barəsində belə yazmışdı: “Hüseyn ibn Əlidən mənim üçün beyət al. Əgər beyət etməsə, boynunu vurub başını mənə göndər.”

Vəlid məktubu oxuduqdan sonra gördü ki, bu çox təhlükəli bir məktubdur. Məsləhət üçün Mərvanı yanına çağırıb, hal-qəziyyə ilə onu tanış etdi. Mərvan dedi: Bu işi yubatmaq olmaz. Bu üç şəxsi dəvət edib Müaviyənin ölməyini bildir və oğlunun yazdığı məktubu onlara oxu. Sonra hər üçündən Yezid üçün beyət al. Bu məsləhətdən sonra adam göndərib üçünü də dəvət etdilər. Bu xəbəri gətirərkən təsadüfən Abdulla ibn Zübeyr İmam Hüseynlə(ə) məsciddə əyləşmişdilər. Abdulla ibn Zübeyr İmam Hüseyndən(ə) soruşdu: Görəsən gecənin bu aləmində bizi nəyə görə çağırtdırıblar. İmam Hüseyn(ə)

buyurdu: “Mən belə bilirəm ki, deyəsən bunların tağutları (Müaviyə) dünyadan gedib. Yezid bizdən beyət almaq üçün Vəlidə məktub göndərib.” İmam Hüseyn(ə) otuz nəfər silahlı dəstə ilə Vəlidin qərargahına gəldi. Həzrət(ə) onlara buyurdu: “Siz qapıda dayanıb məni gözləyin. Əgər lazım olsa, mən sizə xəbər edərəm, gələrsiz.” İmam Hüseyn(ə) Vəlidin otağına daxil oldu. Vəlid də bütün məsələni olduğu kimi Həzrətə(ə) bildirdi. İmam Hüseyn(ə) Vəlidə buyurdu:

اَيُّها الأَمِير اِنَّ البيْعَةَ لا تَكُونُ سِرًّا وَلكِنَّ اِذا دَعَوْتَ النّاس غَدًا فَادْعُنا مَعَهُم

-Ey əmir, adamdan gizlicə beyət almazlar. Sabah səhər camaatı bizimlə birgə dəvət edib sözünü deyərsən.

Vəlid Həzrətin(ə) bu sözləri qarşısında sakit dayandı. Elə bil ki, İmamın(ə) sözlərini qəbul etmək istəyirdi. Buna görə də danışmağa söz tapmırdı. Mərvan İmam Hüseyn(ə) bilməsin deyə, Vəlidə işarə ilə bildirdi ki, bu işi sabaha saxlamaq olmaz. Əgər bu gecə iki işdən birini etməsən (ya beyət, ya da öldürmək), heç vaxt bu işi edə bilməyəcəksən. Gəl, sən bu işi elə buradaca həll et. İmam Hüseyn(ə) bütün bunları hiss edib, üzünü Mərvana tutaraq buyurdu:

يَابْنَ الزَّقاء اَنْتَ تَقْتُلُنِى أَمْ هُوَ؟ كَذِبتَ وَ اَثِمْتَ

-Ey əxlaqsız qadının oğlu, məni sən öldürəcəksən, yoxsa o? Mən beyət etsəm də, etməsəm də, məni öldürsə də, öldürməsə də tərəf- müqabilim Vəliddi. Sən kimsən ki, özünü ortaya atırsan? Sən üsyankar bir adamsan. Bizim işimizə qarışma. Vəlid Yezidin rəsmi nümayəndəsi olduğundan Həzrət(ə) üzünü ona tutub buyurdu:

اَيُّهَاالأَمِير اِنّا اَهْلُ بَيْتِ النُّبُوَّة وَ مَعْدِنُ الرِّسالَة وَ مُخْتَلَفِ الْمَلآئِكَ بِنا فَتَحَ الله وَ بِنا خَتَمَ الله

وَيَزِيدُ رَجُلٌ شارِبُ الْخَمر وَ قاتِلُ النَّفسِ مُحْتَرَمَ مُعلِنٌ بالْفِسق لَيْسَ لَهُ هذهِ الْمَنْزَلَة وَ مِثْلِى لا يُبايِعُ مِثْلَه وَلكِن نُصْبِح وَ تُصْبِحُون وَ نَنْظُر وَ تَنْظُرُون اَيُّنا اَحَقُّ بْالْخِلافَة وَالْبَيعَة

-Ey əmir, biz Peyğəmbərin əhli-beytiyik və risalətin mədəniyik. Allahın mələkləri bizim evimizə get-gəl ediblər. (Peyğəmbərə ayələr nazil olarkən Cəbrayıl mələk bizim evimizə gəlib gedirdi) Allah Öz dinin bizimlə başlamış və bizimlə də tamamlayacaq. Yezid isə şərab içən, adam öldürən, qan tökən, cinayətkar bir insandır. O, açıq-aşkar günah işlər görən fasiqdir. Onun İslama hakimiyyət etməyə ləyaqəti yoxdur. Mənim kimi insanlar onun kimi insanlara heç vaxt beyət etməz.

İmam Hüseyn(ə) əgər «mən ona beyət etməyəcəyəm» desəydi, məsələnin əhatə dairəsi kiçiləcəkdi. O zaman iki insanın qarşı-qarşıya durması hesab olunacaqdı. Yəni məsələ İmam Hüseynlə(ə) Yezid arasında olan xüsusi bir söhbət kimi başa düşüləcəkdi. Bu məsələ İslamın məsələsi olduğundan İmam Hüseyn(ə) buyurdu: “Mənim kimi insanlar onun kimi insanlara heç vaxt beyət etməz.” Bu o deməkdir ki, İmam Hüseyn(ə) kimi pak insanlar heç vaxt Yezid kimi fasiq bir insana əl uzatmaz. Həzrət(ə) bu sözü tarixə yazdı.

Sonra İmam Hüseyn(ə) buyurdu: “Siz də qərar verin, biz də, siz də baxın, biz də baxaq görək hansımızın xilafətdə olmağa daha çox haqqımız var. Fikirləşin, görün həqiqətdə kim kimə beyət etməli və kim kimə iman gətirməlidir. Içəridə səs-küyün ucaldığını gördükdə İmam

Hüseynlə(ə) birgə gəlib qapı arxasında dayanan əli qılınclılardan bir neçəsi içəri daxil oldu. Vəlid və adamları heç bir söz deyə bilmədilər. İmam Hüseyn(ə) sözünü deyib, öz adamları ilə birgə çıxdılar.

Səhəri gün Həzrət(ə) Mərvanla rastlaşdı. Mərvan yaxınlaşıb İmama(ə) dedi: Mənim sizə bir təklifim var, əgər qəbul etsəniz, sizin məsləhətinizdir. Bu həmin Mərvan idi ki, dünən gecə Vəlidlə İmam Hüseyn(ə) söhbət edərkən özünü ortaya atırdı. Amma indi Həzrət(ə) ona buyurdu: “Sözünü de: Mərvan dedi: Dünən gecə sizə bir məsləhət verdim. Əgər beyət etsəniz, sizin özünüz, dininiz və dünyanız üçün  xeyirli olar.”

Mərvanın bu sözlərindən açıq-aydın bilinir ki, onlar dinin nə olduğunu başa düşmürdülər. Əgər Mərvan dinin nə olduğunu, risalətin nə olduğunu başa düşsəydi, heç vaxt bu sözləri dilinə gətirməzdi. O, dini sadəcə dildə «Allaha qurban olum» deməkdə başa düşürdü. Dildə «Allahım məni sevir, Ona qurban olum, heç vaxt O, məni məəttəl qoymayıb» demək heç də o demək deyil ki, insan dini, Allahı tanıyıb. Dildə deməklə yanaşı, Allahın kitab göndərdiyini və həmin kitabda nələri buyurduğunu bilib, əməl etmək lazımdır.

İmam Hüseyn(ə) Mərvanın cavabında buyurdu:

اِنّا لِلّهِ وَ اِنّا اِلَيْهِ راجِعُون, وَعَلَى الإِسْلامِ اَسَّلام اِذا بُلِيَتُ الأُمَّة بِراعٍ مِثلَ يَزِيد وَلَقَد سَمِعتُ جَدِّى رَسُوُل الله(ص) يَقُولُ: اَلْخِلافَةُ مُحَرَّمَةٌ عَلى آلِ اَبِى سفيان, فَإِذا رَأَيْتُم مُعاوِيَة عَلى مِنْبَرِى فَأَبْقَرُوا بَطْنه وَقد رآهَ اَهْلِ الْمَدِينَة عَلى مَنْبَر فَلَم يَبْقَرُوا فَابْتِلاهُم الله بِيَزِيد الفاسِق

-Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq. Əgər Yezid kimi bir insan ümmətə başçılıq edəcəksə, o zaman

İslamın işi bitmişdir. Allahın Rəsulundan eşitdim ki, buyurdu: “Xilafət Əbu Süfyan ailəsinə haramdır. Müaviyəni mənim minbərimdə gördükdə qarnını yırtıb onu aşağı salın. Amma Mədinə əhli onu Peyğəmbərin minbərində görüb etiraz etmədiklərinə görə Allah bu camaata fasiq Yezidi mübtəla etdi.”

İmam Hüseyn(ə) fəsahətlə və açıq-aydın başa salırdı ki, əgər bir insan Müaviyənin oğludursa, heç vaxt onun İslama hakim olmağa ixtiyarı yoxdur. Əgər ümmətin işi İslam adı altında Yezidin hakimiyyəti altına keçəcəksə, o zaman İslamın fatihəsi oxunmalıdır. Çünki Yezid öz hakimiyyətini İslama bağlayıb, hökm sürmək istəyirdi. İmam Hüseyn(ə) heç vaxt buna yol vermədi. Əgər Yezid bir bütpərəst kimi özü üçün bir hakimiyyət qursaydı, heç kəsin onunla işi yoxdur. Dünyada o qədər bütpərəst insanlar var idi ki, nə Peyğəmbər, nə Həzrət Əli, nə də İmam Hüseynin(ə) onlarla heç bir işi olmadı. Həmçinin müşriklər də o zaman azad şəkildə başlarını aşağı salıb yaşayırdılar. Heç kəsin onlarla bir işi yox idi. Amma Yezid İslam adı altında hakim olmaq istəyirdi. Əgər Yezid bir tərəf olsaydı və İmam Hüseyn də onun tərəf-müqabili olsaydı və arada da İslam məsələsi olmasaydı, bir-birini hakimiyyət üstə öldürsəydilər, məsələ elə oradaca da tamamlanacaqdı. Əgər məsələ bu cür olsaydı, heç indiyə qədər bu hadisənin xəbəri bizə gəlib çatmayacaqdı. Tarixdə nə qədər hakimiyyət üstündə bir-birini öldürüb, çevrilişlər edilib və qırğınlar olub. Amma heç kəs onların hakimiyyətinə bir söz deməyib. Müaviyə və mundar törəməsi olan Yezid isə hakim olub, İslam adı altında taxtda oturmaq istəyirdi. İmam Hüseynin(ə) məntiqi və sözü bu idi ki, Yezidin İslamdan danışmağa ixtiyarı yoxdur. Yezidin atası Müaviyə belə bir adam idi ki, cümə

namazını həftənin üçüncü günü qılıb. Yezid şərabxor, harambaz, günah və fəsad törədən bir adam idi. Açıq-aşkar fisqi-fücur törədən bir insanı heç vaxt qoymaq olmaz Peyğəmbərin(s) taxtında əyləşsin. İmam Hüseynin(ə) sözü və mübarizəsi bu məsələnin üstündə idi. Burada məsələ iki ərəbin məsələsi deyil. Hər kim bu məsələyə iki ərəbin və iki insanın şəxsi məsələsi kimi baxırsa və bu hadisənin "bizə nə dəxli var" deyirsə, deməli, həmin şəxsin düşüncəsi dardır. Belə düşüncəli insanlar nə dini tanıyır, nə Yezidi tanıyır, nə də Hüseyni(ə) tanıyır. Belə insanın bu hadisəyə münasibət bildirməyə də heç bir ixtiyarı yoxdur. Çünki danışığını heç özü də anlamayan insan bu məsələ ilə bağlı nə danışa bilər? Anlayan insan danışar, ona da cavab verərlər. Necə ki, İmam Hüseyn(ə) Vəlidin yanında Mərvana buyurdu: "Sən kimsən ki, bizim söhbətimizə müdaxilə edirsən? Buranın əmiri Vəliddirsə, məni o çağırtdırıbsa, sən kimsən?" Həzrətin(ə) bu sözlərini eşidən Mərvan kənara çəkildi. Səhəri gün Mərvan İmam Hüseynə(ə) yaxınlaşdı və dedi: Mənim sənə sözüm var. Həzrət(ə) buyurdu: "Hə, indi sözünü deyə bilərsən." Mərvan sözünü dedi və Həzrət(ə) ona yuxarıda qeyd olunduğu kimi, mükəmməl cavab verib yola saldı.

İmam Hüseyn(ə) Yezidin İslam adı altında hakimiyyət başına keçməsinə qətiyyətlə etiraz edərək bildirirdi ki, ya mən bu yolda öləcəyəm, ya da Yezidi belə bir məqsədə çatmağa qoymayacağam. Çünki İmam Hüseyn(ə) bilirdi ki, Yezid kimi bir adam İslam ümmətinə hakimlik etsə, İslamın sonu çatmışdır. İslamdan qoymayacaqlar ki, bir əsər-əlamət qalsın. Əgər indiyə qədər İslamın hökmlərinə əməl olunursa, bütün İslam dünyası, hətta İslamın vilayətsiz firqələrində belə rahatlıqla iki rükət namaz

qılırlarsa, hamı bütövlükdə İmam Hüseynə(ə) borcludur. Çünki Həzrətin(ə) qanı İslamın diri qalması uğrunda töküldü. İmam Hüseyn(ə) İslamın, şəriət hökmlərinin diri qalması üçün oğlanlarından, qardaşlarından, canından, qanından, bir sözlə, hər şeyindən keçdi.

Belə hərəkətə izzət, şərəf, insaniyyət və müsəlmançılıq deyərlər. Həzrət Peyğəmbərin(s) dini və şəriəti oğlu İmam Hüseyn(ə) vasitəsilə bizə qədər gəlib çatıb.

Elə ki, İmam Hüseyndən(ə) beyət almaq üçün onu Vəlidin imarətgahına dəvət etdilər, camaat arasında hay-küy yarandı. Həzrət Əlinin(ə) Ətrəf adlı bir oğlu da var idi. İmam Hüseynin(ə) məhzərinə gəlib öz fikrini bildirmək üçün dedi: "Ey Peyğəmbər balası(ə), bir gün qardaşın İmam Həsən(ə) mənə bir söz buyurdu." Ətrəf bu sözləri deyərkən gözləri yaşla doldu və ağlamağa başladı. İmam Hüseyn(ə) onun fikrini başa düşüb buyurdu: "Qardaşım sənə mənim öldürülməyim haqda xəbər vermişdir?" Ətrəf dedi: "Ağa, Allah o günü bizə göstərməsin." İmam Hüseyn(ə) buyurdu: "Sözünü tamamla. Elə güman edirsən ki, mən bu məsələni bilmirəm?" Ətrəf dedi: "Ağa, doğrudur, qardaşın mənə sənin şəhid olmağın haqda xəbər vermişdi." Həzrət(ə)buyurdu: "Ətrəf, atam Əli(ə) mənə belə buyurmuşdu: Peyğəmbərdən(s) eşitdim ki, buyurdu: Həm sən Əli, həm də oğlun Hüseyn şəhid olub, qanınıza qəltan olacaqsınız. Hüseynin qəbri sənin qəbrinə hamıdan yaxın olacaq. İmam Hüseyn(ə) bu sözlərdən sonra buyurdu: Əgər sənə bu xəbəri qardaşım Həsən deyibsə, atam Əli(ə) bunu Peyğəmbərdən(s) mənə xəbər vermişdir." Ətrəf qardaşının belə bir təhlükəyə düşməsini istəmirdi. Amma Həzrətin(ə) bu sözlərindən sonra cürət edib davam etmədi. İmam Hüseyn(ə) onun bütün fikrini oxumuşdu. Ona görə

də buyurdu: “Heç vaxt mən zillət altına düşməyəcəyəm.” Həzrət(ə) bu sözlərlə onları başa salmaq istəyirdi ki, heç vaxt belə sözlər danışmayın. Yer üzündə Peyğəmbərin(s) yeganə nəvəsi və Allahın yer üzündə höccəti mənəm. Heç Allahın höccətindən də zillət görünərmi?

İmam Hüseynin(ə) bu məsələsindən xəbərdar olan qardaşı Məhəmməd Hənəfiyyənin İmam Hüseynlə(ə) münasibəti açıq idi. Sözünü rahat deyə bilirdi. Mədinə şəhərində qardaşının məhzərinə gəlib dedi: “Ağa, icazə verin öz fikrimi sizə bildirim. Həzrət(ə) onu dinlədi. Məhəmməd dedi: Ağa sən hamının əzizi və Peyğəmbərin(s) ümmət arasında yeganə yadigarısan. Yaxşı olar ki, siz müəyyən bir şəhərdə qalmayasız. Ailənizi də götürüb uzaq şəhərlərin birinə gedin. Işlərin gedişatını nümayəndələr vasitəsilə həll edin. Nümayəndələr gəlib camaatla danışıqlar aparsın. Əgər camaat sizə beyət etsə, çox yaxşı, amma sizdən üz çevirib başqasına beyət etdikdə sizə ziyan dəyməsin.”

Məhəmməd siyasi baxımdan fikrini Həzrətə(ə) bildirdi. Onun bu fikri öz ağlı ilə yaxşı fikir idi. Çünki bu da siyasətin bir növüdür. Indiki siyasətçilərin çoxu öz ölkəsindən çıxıb kənardan işlərə nəzarət edir və öz adamları vasitəsilə işlər görürlər. Onlar şəraitin hazır olduğunu gördükdə, qayıdıb öz ölkələrinə gəlirlər. Məhəmməd də öz siyasət və düşüncəsi ilə yaxşı söz dedi. Amma o, İmam Hüseyn(ə) deyildi. O, Hüseyn(ə) biləni bilmirdi və Hüseynin(ə) fikirləşdiyini fikirləşmirdi.

İmam Hüseyn(ə) istəyirdi ki, Məhəmməd bütün sözlərini deyib ürəyini boşaltsın. Buna görə də soruşdu: “Məsələn, mənim hara getməyimi məsləhət görürsən? Məhəmməd dedi: Ağa, heç olmasa ən azından Məkkəyə getsəniz, yaxşı olardı. Əgər ondan da uzaq yerə getsəniz,

daha yaxşı olar. Vəziyyət aydınlaşana qədər orada qalmağınızı məsləhət görürəm. Ondan sonra nə etməyin lazım olduğunu bilmək olacaq. Hazırkı vəziyyət çox qəlizdir.”

Məhəmməd sözlərini deyib qurtarandan sonra İmam Hüseyn(ə) ona tarixə yazılacaq bir cümlə buyurdu: “Qardaşım, əgər yer üzündə mənim üçün heç bir yer tapılmasa və mənə heç kəs pənah verməsə belə, yenə də Müaviyənin oğlu Yezidə beyət etməyəcəyəm.

Mənə nəsihət və göstəriş verdiyin üçün Allah sənə xeyir və əcr versin. Sənə də göstəriş verirəm ki, Mədinədə qalıb, hər hansı mühüm bir xəbər olsa, bizə çatdırarsan.”

Günlər keçdikcə müxtəlif insanlar gəlib öz fikirlərini İmam Hüseynə(ə) bildirirdilər. Amma heç biri İmam Hüseynin(ə) fikirləşdiyi kimi düşünə bilmirdi. İmam Hüseyn(ə) Məkkəyə yollandı və sonra oradan hərəkət etməyə başladı və Kufəyə sarı yollandı. Gecə yarı Şəraf adlı bir məntəqəyə yetişdilər. Həzrət(ə) göstəriş verdi ki, bütün su qablarını su ilə doldursunlar. Hamı gedib bacardığı qədər qablara su doldurub gətirdilər. Həmin gün gönortadan əvvəl gördülər ki, Hürrün başçılığı ilə min nəfər silahlı dəstə gəlib həmin yerdə dayandılar. Havanın dəhşətli istisi, yorğunluq və susuzluq onları əldən salmışdı. İmam Hüseyn(ə) göstəriş verdi ki, gecə topladıqları suları onlara paylasınlar. Həzrətin(ə) dəstəsindən bir neçə nəfər Hürrün adamlarını və heyvanları su ilə təmin etdilər. Hətta atların üzünə, sinəsinə və ayaqlarına sərinləmək üçün su səpdilər.

Zöhr vaxtı yetişən kimi İmam Hüseyn(ə) Həccac ibn Məsruqa azan deməyi göstəriş verdi. Məsruq azan deyəndən sonra İmam Hüseyn(ə) üzünü Hürrə tutaraq buyurdu: “Camaat namazını bizimlə qılmaq istəyirsiniz,

yoxsa özünüz ayrıca qılacaqsınız? Hürr dedi: Ağa, sən olan yerdə biz camaat namazını ayrıca qılmarıq. Əlbəttə, hamımız sənə iqtida edəcəyik.” İmam Hüseynin(ə) imamətilə zöhr namazı qılındı. Namaz qurtaran kimi Həzrət(ə) ayağa qalxıb üzünü camaata tutaraq buyurdu:

-Camaat! Camaat, mən sizinlə höccəti tamamlamaq istəyirəm. Elə başa düşməyin ki, mən özbaşıma bura gəlmişəm. Sizin yazdığınız məktublar və göndərdiyiniz qasidlərin sözlərinə əsasən bura gəlmişəm. Siz özünüz mənə yazmışdınız ki, bizim Kufədə rəhbərimiz yoxdur, bəlkə sənin vasitənlə Allah bizi hidayət edər və bizə vəhdət, birlik bəxş edər. Əgər yenə də həmin fikirdəsinizsə, mən gəlmişəm. Mən sizə inanıb etibar edim və siz də verdiyiniz vədlərə vəfalı olun. Yox, əgər fikrinizdən daşınmısınızsa, o zaman mən də öz bildiyim yerə gedərəm.

İmamın(ə) bu çıxışından sonra hamı sakit qalıb heç bir söz demədilər. İmam(ə) və onunla gələnlər öz çadırlarına çəkilib bir az istirahət edəndən sonra, Həzrət(ə) göstəriş verdi ki, qalxın, əsr namazını da qılaq, sonra yolumuza davam edək. Hamı durub namaza hazırlaşdılar. Həzrət(ə) müəzzinə azan deməyi göstəriş verdi. Sonra hamı birlikdə Həzrətin(ə) imamətilə əsr namazına başladılar. Namaz qutaran kimi Həzrət(ə) ayağa qalxıb üzünü camaata tutaraq yenə Bismillah və salam-salavatdan sonra kiçik bir xütbə oxudu:

-Camaat! Əgər siz təqvalı olsanız, əgər siz Allahın əmrini yerinə yetirsəniz, haqq və haqq əhlini tanısanız, bu, Allahın razılığına səbəb olar. Biz Məhəmmədin(s) Əhli-beytiyik, belə bir vilayətin malikiyik. Bəni-Üməyyə zülm və cinayət əhlidir. Siz bunları bilirsiniz. Əgər siz bunları qəbul eləmirsizsə, bizim haqqımızı danırsınızsa, məktublarda mənə yazdığınız fikirlərdən daşınmısınızsa,

fikriniz dəyişibsə, eybi yoxdur, mən sizdən ayrılıb öz bildiyim yerə gedərəm.

İmamın(ə) bu xütbəsindən sonra Hürr irəli gəlib dedi: “Mənim məktublardan xəbərim yoxdur və mən sənə məktub yazmamışam.”

Həzrət(ə) göstəriş verdi ki, çantanı gətirsinlər. Həzrət(ə) çantanı açıb, məktubları yerə boşaltdı.

Hürr baxıb gördü ki, məktubların sayı min, iki min deyil, həddindən artıq çox imzalanmış məktublar vardır. Hürr məktublara baxandan sonra Həzrətə(ə) dedi: “Mənim bu məktublardan xəbərim yoxdur.” Həzrət(ə) buyurdu: ”Elə isə imkan ver, yolumuza davam edək. Hürr dedi: Mənim buna icazəm  yoxdur. Həzrət(ə) buyurdu: Mənimlə müharibə etmək istəyirsən? Hürr dedi: Mənim səninlə müharibə etməyə də icazəm yoxdur. Həzrət(ə) buyurdu: Əgər yolumu kəsmisənsə və müharibə etməyə icazən də yoxdursa, bəs fikrin nədir? Hürr dedi: Mənə tapşırıq verilib ki, səni nə Kufə, nə də Mədinə yoluna buraxmayım. Başqa hansı tərəfə istəsəniz, gedə bilərsiniz. Mən də mümkün olan bir vaxtda məsələnin həlli üçün İbn Ziyada məktub yazaram. Hürr istəmirdi ki, məsələ ağırlaşsın. Uzun söhbətdən sonra Hürr İmam Hüseynə(ə) dedi: Mən sizə bir məsələni xatırladım ki, əgər bunlarla müharibə etmək fikrində olsanız, yüz faiz sizi öldürəcəklər. Bütün bu hadisələrdən xəbərdaram.

İmam Hüseyn(ə) buyurdu: Məni ölümlə qorxudursan? Öldürməkdən başqa əlinizdən bir şey gəlirmi? Mən sənə Ovs qəbiləsindən olan bir nəfərin hadisəsini danışmaq istəyirəm. O, Peyğəmbərə(s) kömək etmək üçün yola düşdü. Yolda onun əmisi oğlu qarşısını kəsib dedi: Sən Peyğəmbərin(s) tərəfində olsan, səni öldürəcəklər. O, əmisi oğlunun cavabında belə bir şeir oxudu.

سَأَمضِى وَما بِالْمَوتِ عَارٌ عَلَى الْفَتى　　اِذا مَا نَوى حَقّاً وَ جاهَدَ مُسْلِما

وَ واسَى الرَّجالَ الصالِحِينَ بِنَفسه　　و فارق مثبورا و خالَفَ مُجرِما

أُقَدّمُ نفسى لا أريد بقائِها　　لِتَلقى خمسياً فِى الْهِياج عَرَمْرَما

فان عِشتُ لم اَنْدَمَ وَ ان مِتُّ لَم اَلَمُ　　كَفى بِك ذُلاًّ ان تَعيش وَ تَرغَما

-Mən ölümə sarı gedəcəyəm və ölüm comərd insan üçün ar deyil. Xüsusilə müsəlman və hədəfi haqq olan insan üçün. Saleh insanları (Peyğəmbəri və İslamı) himayət etmək üçün canımdan keçib fədakarlıq edəcəyəm. Cinayətkarlarla müxalifətçilik edib Allahın düşmənləri ilə mübarizə aparacağam. Əxlaq yolunda canımdan keçib əllərimi həyat suyu ilə yuyaraq böyük düşmənlə üz-üzə dayanacağam. Əgər bu yolda salamat qalsam, peşman olmaram, əgər bu yolda ölsəm belə, heç bir narahatlığım yoxdur."

İmam Hüseyn(ə) Hürrə həmin Ovs qəbiləsindən olan oğlanın bu şerini oxuduqdan sonra buyurdu: "Izzət yolunda ölmək əbədi həyat deməkdir. Zillətlə yaşamaq isə həyatsız bir ölümdür. Məni ölümlə hədələyirsən? Heyhat, belə bir şey məndən uzaqdır. Mən ölümdən qorxmuram. Çünki mən ölümdən daha ucayam."

İmam Hüseyn(ə) bununla başa salırdı ki, kiçik insanlar ölümdən qorxarlar. Zəlil insanlar ölümdən qaçmaq istəyərlər. Amma mən ölümə və həyata uca zirvələrdən tamaşa edirəm. Ölüm mənim üçün çox kiçikdir. Sən məni ölümlə hədələyə bilməzsən. İmam Hüseyn(ə) həm özü belə izzətli insan idi, həm də Kərbəlaya onunla birgə gələn insanların hamısı. Kiçikli-böyüklü aşura günü şəhid olacaqlarını yüz faiz bilirdilər. Bu anı da çox səbirsizliklə gözləyirdilər. Orada ağlıkəsən ən kiçikyaşlı uşaqlardan biri

də İmam Həsənin(ə) oğlu Qasim idi. Tarixdə onun həmin vaxt təqribən 12-14 yaşı olduğu qeyd olunmuşdur. İmam Hüseyn(ə) aşura gecəsi bütün səhabələrə sabah nə baş verəcəyini danışdı. Qasim Həzrətin(ə) məhzərinə gəlib soruşdu: "Əmican, sabah mən də şəhid olacağam? Icazə verirsənmi, mənə də belə bir iftixar nəsib olsun? İmam Hüseyn(ə) ondan soruşdu? Ölüm sənin nəzərində necədir? Qasim dedi: Ağa, ölüm mənə baldan da şirindir."

Kiçik bir uşağın ölüm haqda belə bir söz deməsi onun izzətindən, şərafətindən, fədakarlığından və əsrin imamını himayə etməsindən xəbər verir. İmamın(ə) məhzərində olan bu şərafətli insanların hamısı eyni fikirdə idilər. Xanım Zeynəbin(s.ə) iki oğlu, İmam Hüseynin(ə) böyük oğlu Əli Əkbər və Həzrətin(ə) qardaşı Həzrət Əbülfəzl və səhabələrin hamısı eyni əqidədə idilər. Bu yolda canlarından keçməyi, bu yolda şəhid olmağı özlərinə izzət bilirdilər. Onlar izzətin mərkəzi və nümunəsi idilər. Bütün dünya insanlarına da öz hərəkətləri və sözləri ilə izzətin mənasını öyrətdilər.

## İmam Hüseynin(ə) Biyzədə buyurduğu kəlamlar

İmam Hüseyn(ə) Şərafda Hürr ilə söhbət edəndən sonra Kərbəlaya sarı hərəkət etməyə başladı. Çünki Hürr İmamın(ə) yolunu kəsmişdi. Nə Kufəyə getməyə imkan verdi, nə də Mədinəyə. Həzrət(ə) öz dəstəsi ilə yola düşdü. Hürr də öz dəstəsi ilə onların kənarında hərəkət edirdi. Çünki göstəriş almışdı ki, İmam Hüseynin(ə) dəstəsindən ayrılmamalı və onları təqib etməlidir. Yolboyu müxtəlif məntəqələri geridə qoydular. Bu məntəqələrin bəzisi kiçik olduğundan orada çox dayanmırdılar. Amma bəzi

məntəqələr istirahət üçün əlverişli olduğu üçün dayanıb bir qədər dincəldikdən sonra yollarına davam edirdilər. Şərafdan çıxandan sonra Biyzə adlı bir məntəqəyə yetişdilər. Biyzə böyük və istirahət üçün daha əlverişli olduğundan həm Həzrətin(ə) öz dəstəsi, həm də Hürrün dəstəsi orada dayandılar. Hamı istirahət etmək üçün atlardan yerə düşdülər. İmam Hüseyn(ə) bu imkandan istifadə edib bir daha onlarla höccəti tamamladı. Üzünü Hürrə və qoşununa tutub belə bir xütbə oxudu. Həmin xütbədə bu səfərin məqsədini camaata bəyan etdikdən sonra belə buyurdu:

اَيُّها النَّاس ! اِنَّ رَسُولَ اللهِ(ص) قالَ: مَن رَأى سُلْطاناً جائِراً مُسْتَحِلّاً لِحَرامِ اللهِ ، ناكِثًا عَهْدَه مُخالِفاً لِسُنَّةِ رَسُول الله وَ يَعْمَل فِى عِبادِالله بِالإِثْمِ وَ الْعُدْوان ، فَلَمْ يُغَيِّر عَلَيْهِ بِفِعْلٍ وَ لا قَولٍ كانَ حَقًّا عَلى اللهِ اَنْ يُدْخِلَهُ مُدْخَلَه .

-Camaat! Həqiqətən Allahın Rəsulu(s) belə buyurmuşdu: “Hər kəs Allahın halalını haram edən, Allahın əhdini sındıran və Peyğəmbərin sünnəsinin əksinə əməl edən, insanlarla günah etməklə gününü keçirən, Allahın qoyduğu hüdudlara təcavüz edən bir hakimi gördükdə öz əməli, yaxud sözü ilə ona qarşı çıxmasa, Allah o şəxsi də həmin hakimlə birgə cəhənnəmə atacaq.”

İmam Hüseyn(ə) Peyğəmbərdən(s) bu hədisi nəql edəndən sonra buyurdu:

اَلا وَ اِنَّ هولاءِ الْقَوم قَد لَزِمُوا طاعَتَ الشَّيْطان وَتَرَكُوا طاعَةَ الرَّحْمان وَ اَظْهَرُوا الْفَساد وَ عَطَّلُوا الْحُدُود وَ اسْتَأْثَرُوا فِىء الله اَحَلُّوا حَرامَ الله و حَرَّمُوا حَلالَه

-Bu tayfa şeytana itaət edib, Allahın itaətindən çıxmışdır. Yer üzündə fəsadı yaydılar. Allahın hüdudlarını

sındırdılar. Allahın haramını halal, halalını haram edərək, Allahın beytülmalını istədikləri yerə xərcləyiblər.

Sonra Həzrət(ə) buyurdu:

اَنا اَولى مِمَّن قَامَ بِنُصْرَةِ دِينِ الله وَ إعزازِ شَرعِهِ وَالْجِهاد فِى سَبِيلِ الله لِتَكُنَ كَلِمَةُ الله هِى العُلْيا...

-Allahın dininə nüsrət etməyi, Allahın şəriətinin izzətini qoruyub saxlamağı, Allah yolunda cihad etməyi məndən başqa kim etməlidir? (Yəni bu işləri mən də etməsəm, kim etməlidir. Peyğəmbər(s) bütün bu sözləri kimə buyurmuşdur? Əgər onun evində boya-başa çatan bir insan etməsə, başqa kim bu işləri görəcəkdir? Allahın dininin izzətini qoruyub saxlamaq mənim işimdir.) Uca və üstün Allahın kəlməsidir.

İmam Hüseyn(ə) orada bir daha camaatla açıq-aydın söhbətlər apardı. Onları bir daha başa saldı ki, Peyğəmbər(s) gətirən dini himayə etmək lazımdır. Həzrət(ə) bu sözlərlə camaata bəyan etdi ki, bu yolda mənim izzətdən başqa bir məqsədim yoxdur. Camaat, bilin ki, Allahın şəriətinin izzətini saxlamaqdan başqa mənim kiminləsə şəxsi heç bir problemim yoxdur. Əgər Yezid İslamın və Peyğəmbərin(s) adı altında hökumət qurmaq fikrində olmasaydı, mən çöllərə düşməzdim. Amma Yezid Peyğəmbərin(s) yerində əyləşib, İlahi qanunları ayaq altına atacaqsa və məndən də beyət istəyəcəksə, heç vaxt belə bir beyəti məndən görməyəcəksiniz. Sonra deməyin ki, Hüseynlə(ə) Yezid arasında olan bu söz-söhbətlər nə idi? Onunla mənim aramda bu məsələdən savayı heç bir şey yoxdur. Yezid bu əməlindən əl çəkməlidir, əgər əl çəkməsə, mənim qanım töküləcək və onu bu işi görməyə qoymayacağam. İmam Hüseyn(ə) çox açıq, şəffaf və heç bir gizli və qərəzli

sözlər olmadan bütün məsələnin gedişatını, öz ürəyinin sözünü və məqsədini danışır. Məhərrəm ayının ikinci günü onlar Kərbəlaya daxil oldular. Kərbəlaya daxil olan kimi bütün yolların hamısını Həzrətin(ə) və dəstəsinin üzünə bağladılar. İbn Ziyad Yezidin göndərdiyi məktubu oxuyub dedi: Mən bu məktuba olduğu kimi əməl edəcəyəm. Buna görə də bütün yolları bağlatdırdı. Hətta suyu da onların üzünə bağlamışdılar. İmam Hüseynin(ə) bu məsələsi atası Əlinin(ə) hadisəsi kimi oldu. Müaviyə suyun qarşısını kəsdikdən sonra Həzrət Əli(ə) camaata buyurdu: “Müaviyənin qoşunu *(Fəratın mənsəbini tutmaq və sizi ordan su götürməyə qoymamaqla)* sizlərlə döyüşmək istəyir. Belə olduqda siz ya zəlillik və rəzilliyi boynunuza alaraq şücaət və şərəfinizi əldən verməli *(acizlik və gücsüzlüyünüzü bildirməli, susuzluqdan əlacsız qalaraq, özünüzü düşmənə təslim etməlisiniz),* ya da sudan doymanız üçün qılınclarınızı *(onların)* qanı ilə doydurmalısınız. Deməli, əgər məğlub olsanız *(əsl)* ölüm sizin həyatınızda, *(düşmənə)* qalib gəlsəniz *(həqiqi)* həyatınız ölümünüzdə olacaq *(şərəfli və başıuca ölüm, rəzillik və zillət içində yaşamaqdan yaxşıdır).”*

İmam Hüseyn(ə) üçün belə bir mövqe yarandı. Həzrət(ə) üzünü öz səhabələrinə tutub buyurdu:

اَمّا بَعد فَقَد نَزَلَ بِنا مِن الأَمْرِ ما قَد تَرَونَ وَاِنّ الدُّنْيا قَد تَغَيَّرَت وَ تَنَكَّرَت وَ أُدبِر مَعرُوفُها وَلَم يَبْقَ مِنْها اِلاّ كَصُبابَةِ الإِناء وَخَسيسِ عيشٍ كَالْمَرعَى الوَبِيل

-Camaat, görürsünüz ki, biz hansı hadisə ilə üzləşdik. Dünya bizim üçün öz vəziyyətini dəyişdi. Pislikləri və acı hadisələr bizə tərəf yönəlib. Yaxşılıqlar bizdən üz çevirib. Bizim dünyamızdan bizim üçün çox az qalıb. Bizim

dünyamız qabın dibində damcı-damcı gələn su qədər qalmışdır. Camaat öz həyatını zillətlə yaşamağa məruz qoyub.

اَلا تَرَونَ اِلَى الْحَقِّ لا يُعْمَلُ بِه؟ وَ اِلى الباطِلِ لا يُتَناهى عَنْهُ؟ لِيَرغَبَ الْمُؤمِنُ فِى لِقائِهِ مُحِقًّا

-Görmürsünüzmü, haqqa əməl olunmur? Görmürsünüzmü, heç kəs heç kimi batildən çəkindirmir? İndi belə bir vaxtdır ki, möminlər Allahı mulağat etmək üçün hazırlaşsınlar.

فَإِنِّى لا اَرَى الْمَوتَ اِلاّ سَعادَةً وَالْحَياةَ مَعَ الظّالِمِين اِلاّ بَرَمًا

-Mən ölümü səadət və zalımlarla birgə yaşamağı özümə zillət bilirəm.

وَالنّاسُ عَبِيدُ الدُّنْيا وَالدِّينُ لَعِقٌ عَلَى اَلْسِنَتِهِم يَحُوطُونَهُ ما دَرَّت مَعايِشُهُم فَإِذا مُحِصُوا بِالبَلاءِ قَلَّ الدَّيّانُون

-Camaat dünyanın quludur. Dini də dillərinin əzbəri və lağlağısı etmişlər. (Yalnız dillərində Allahı və dini tanıyırlar, əməldə isə Allahın heç bir hökmünə əməl etmirlər.) Dinin barəsində ona görə danışırlar ki, onların dünyaları və qazancları bu yolla təmin olunur. Amma dünyalarının və qazanclarının azacıq təhlükəyə düşdüyünü və bəla ilə üzləşdiklərini hiss etdikdə, hamısı dindən üz döndərir. Belə bir halda sadiq dindar çox az qalır.

## İbn Ziyadın yazdığı məktub və İmam Hüseynin(ə) reaksiyası

İmam Hüseyn(ə) Kərbəlaya daxil olandan sonra İbn Ziyad bir məktub yazıb birbaşa  Həzrətə(ə) göndərdi. Məktubda belə yazılmışdı.

-Ey Hüseyn, mənə xəbər çatdı ki, sən Kərbəlaya daxil olmusan. Amma mənim əmirəlmöminim Yezid məktub göndərib ki, başımın altına yastıq qoymadan və çorək yemədən (yəni hər işdən) öncə səni Allahınla görüşdürüm. Ya belə olacaq, ya da  sən mənim və Müaviyənin oğlu Yezidin hökmünə əməl edəcəksən.

Məktubu gətirən şəxs deyir: "Mən məktubu İmam Hüseynə(ə) verdim. Həzrət(ə) məktubu açıb oxuyandan sonra tulladı. Məktubu tullayandan sonra buyurdu:

-Öz razılığını Allahın razılığından üstün tutan bir insan heç vaxt səadət və izzətin üzünü görməyəcək."

Məktubu gətirən deyir: "Mən İmam Hüseyndən(ə) soruşdum ki, Ağa, bu məktubun cavabında İbn Ziyada nə deyim? Həzrət(ə) buyurdu: "Onun heç bir cavabı yoxdur. Çünki Allahın əzabı onun üçün mütləq və qaçılmaz olub."

İbn Ziyadın yanına getdim və hadisəni ona danışdım. İbn Ziyad bu sözləri eşitdikdə şiddətlə qəzəbləndi.

## Aşura günü İmam Hüseynin(ə) xütbəsi

İmam Hüseyn(ə) aşura günü bir neçə xütbə oxumuşdu. Xütbələrdən birində üzünü düşmən qoşununa tutaraq belə buyurdu: "Camaat, bəlkə sizin məni tanımaqda şübhəniz var. Mən özümü sizə bir daha təqdim edirəm. Bilin ki, kiminlə danışırsınız və kiminlə müharibə edirsiniz. Əgər Peyğəmbərin(s) mən və qardaşım Həsənin(ə) barəsində buyurduqlarını qəbul etmirsinizsə və bu sözlərə şəkk-şübhə

edirsinizsə, mənim Peyğəmbərinizin(s) qızının oğlu olduğuma da şəkk edirsiz? And olsun Allaha, məşriqdən məğribə axtarsanız, məndən savayı Peyğəmbərin(s) qızının oğlu yoxdur. (Peyğəmbərinizin(s) qızının oğlanlarından təkcə mən qalmışam.) Məni nəyə görə öldürürsünüz? Bəlkə mən sizlərdən kimisə öldürmüşəm? Bəlkə bura yığışıb məndən onun intiqamını almaq istəyirsiniz?"

Həzrətin(ə) sözləri bu yerə çatdıqdan sonra üzünü yenə düşmən qoşununa tutub onların bir neçəsinin adını çəkərək buyurdu: "Ey Şəbəs ibn Bəbii! Ey Həccar ibn Əbcər! Ey Qeys ibn Əşəs! Ey Yəzib ibn Haris! Siz mənə məktub yazmamışdınız ki, meyvələr artıq yetişib, ağaclar göyərib, burda hər şey hazırdır və hazırlanmış qoşun sənin yolunu gözləyir ki, sən bizə rəhbərlik edəsən? Bu məktubları siz yazıb imzalamamısınız?"

Onlardan bəzisi  dedilər: Biz dediklərinin hamısını bilirik. Amma səni susuz qətlə yetirməsək, səndən əl çəkməyəcəyik.

Həzrət(ə) onların bu sözlərinin cavabında buyurdu: "Allaha and olsun ki, mən onlara zillət əli uzatmayacağam. Və onların qabağından qorxaq qullar kimi qaçmayacağam."

İmam Hüseyn(ə) izzətin əsl mənasını həm sözündə, həm də hərəkətlərində bütün dünyaya öyrətdi. Həmçinin başa saldı ki, insan əgər bir söz danışırsa, onu heç kəs və heç bir şey sözündən döndərməməlidir. Amma Kufə camaatı İmam Hüseynə(ə) yazdığı sözləri və verdiyi vədləri Kərbəlada inkar etdi. Həzrət(ə) Mədinədən çıxanda bir məqsədlə çıxmışdı və heç bir şey onu öz məqsədindən və sözündən döndərə bilmədi. Mədinədə buyurduğu sözləri elə Kərbəlada da düşmənin gözünün içinə deyirdi.

Həzrət(ə) ikinci xütbəsində belə buyurdu: "Bilin ki, alçaq oğlu alçaq məni qılıncla zillət arasında qoyub. Mən

ya zilləti qəbul etməliyəm, ya da qılınclar məni doğramalıdır. Heyhat, zillət bizdən uzaqdır. Mən heç vaxt onlara zillət əli uzatmayacağam.

Allah, Peyğəmbər(s) və möminlər mənim zilləti seçməyimə heç vaxt razı olmazlar. Qeyrətli atalar və ətəyi pak analar heç vaxt mənim zilləti seçməyimə razı olmazlar. Heç vaxt mən bu işi görməyəcəyəm. Heç vaxt mən zillət altına girməyəcəyəm.”

İmam Hüseynın(ə) özü qüdrətli və izzətli olduğu kimi, ətrafında olan şərafətli insanlar da belə idilər. Hamının sözü bir söz, hədəfləri də eyni idi. Heç birinin gözündə zərrə qədər də olsun ölüm qorxusu yox idi.

Müslümün oğlu Abdulla döyüş meydanına daxil olarkən belə bir rəcəz oxudu:

اَلْيَوم أَلْقى مُسْلِماً وَ هُوَ أَبِي        وَعُصْبَةً بَادُوا عَلى دِينِ النَّبِي

-Bu gün elə bir gündür ki, atam Müslümün görüşünə gedirəm. Peyğəmbərin(s) dini yolunda şəhid olanların ziyarətinə nail olacağam.

Bu sözləri deyəndən sonra hücuma keçib bir neçə nəfəri öldürdü. Düşmən ona bir ox atdı. Abdulla oxun atıldığını görüb əlini alnına tutdu ki, ox başına batmasın. Amma ox onun əlini alnına tikdi. Bəni- Haşimin cavanları onun ətrafına toplaşıb, ona kömək edirdilər. İmam Hüseyn(ə) bu mənzərəni görüb buyurdu:

صَبْرًا يَا بَنِي عُمُومَتِي  صَبْرًا يَا اَهلَ بَيْتِي  صَبْرًا فَوَاللهِ لا رَأَيْتُم  هَواناً بَعْدَ هذا الْيَوم اَبَداً

-Səbr edin ey əmim uşaqları. Səbr edin ey mənim əhli-beytim. Səbr edin. Allaha and olsun, bu gündən sonra siz heç vaxt zilləti görməyəcəksiniz. (Zillət o vaxt olardı ki, siz Yezidə beyət edəydiniz. Indi ki, Yezidə beyət əli

uzatmadınız, bundan sonra heç vaxt zillətin üzünü görməyəcəksiniz.)

Kərbəla hadisəsindən sonra İmam Səccad(ə) öz karvanı ilə Mədinəyə daxil oldu. Şəhərin girəcəyində bir nəfər Həzrətə(ə) yaxınlaşıb narahat halda başsağlığı verib dedi: "Ey Peyğəmbər balası(ə), gördünüzmü nə oldu? Gördünüzmü getdiniz, başınıza hansı müsibətlər gəldi? Həzrət(ə) buyurdu: "Mən nə olduğunu yaxşı gördüm. Amma sən bilmirsən ki, getməsəydik, nə olacaqdı? Əgər getməsəydik, nə olacağını bilsəydin, o zaman başa düşərdin ki, getməyimiz vacib imiş."

Əgər İmam Hüseyn(ə) bu işi görməsəydi, indi İslamdan heç bir əsər- əlamət qalmayacaqdı. Müaviyə İslam əleyhinə nə iş görmək lazım idisə, əlindən gələni əsirgəməmişdi. Hər bir işi görmüşdü. Yezid hakimiyyətə gəlsəydi, İslamın fatihəsi oxunacaqdı. Avropa alimlərindən biri belə deyir: "Gərək biz minnətdarlıq əlaməti olaraq Müaviyənin heykəlini qızıldan düzəldib şəhərlərimizin meydanlarına qoyaq. Çünki əgər Müaviyə olmasaydı, İslam inkişaf edəcəkdi və indi bütün insanlar müsəlman olacaqdı."

Bəni-Üməyyənin işi əvvəldən İslamla düşmənçilik olmuşdu və həm Müaviyə, həm də Yezid İslamın adını birdəfəlik yer üzündən silmək istəyirdilər. İmam Hüseynin(ə) Yezidlə mübarizəsi İslamı bütün müsəlmanlara çatdırdı. Başa düşsələr də, başa düşməsələr də belə, bütün dünyada namaz qılanların hamısı o Həzrətə(ə) borcludurlar. Çünki İmam Hüseyn(ə) və onun şərafətli səhabələri izzət uğrunda mübarizə aparıb, imkan vermədilər ki, müsəlmançılıq zillət altında qalsın. Həzrətin(ə) məhzərində olan insanların hamısı bu əqidə, bu düşüncələrlə son damla qanlarına qədər mübarizə apardılar və istəklərinə də nail oldular. Hətta orada iştirak edən

qadınlar da bu yolda öz övladlarını belə qurban verməyi əsirgəmədilər.

## Müslüm ibn Ovsəcənin həyat yoldaşı

Müslüm ibn Ovsəcə Kərbəlada şəhid oldu. Onun oğlu da İmam Hüseynin(ə) məhzərində idi. O da meydana daxil olub, döyüşdükdən sonra başını bədənindən ayırdılar. Başını kəsdikdən sonra çadırlara tərəf atdılar. Onun anasına xəbər verdilər ki, oğlunu şəhid etdilər. (Təsəvvür edin ki, bir qoca qadın oğlunun kəsilmiş başını gördükdə nə edər?) Qadın xəstə halda çadırdan çıxıb oğlunun kəsilmiş başını götürüb dedi: “Oğlum, Allahın salamı olsun sənə, mənim ürəyimi şad etdin.” Oğlunun başını öpüb, iyləyəndən sonra yerə qoydu. Sonra qayıdaraq çadırın dirəyini çıxarıb hücuma keçdi. Meydana sarı gedə-gedə üzünü İmam Hüseynə(ə) tutaraq belə şeir oxudu:

اَنَا عَجُوزٌ سَيِّدِي ضَعِيفَة   خاوِيَةٌ بَالِيَةٌ نَحِيفَة

-Ey mənim ağam, mən zəif bir qadınam, amma öz ömrümü sənə bağışlamağa hazıram.

Sonra üzünü düşmənə tutub dedi:

اَضرُبُكُم بِضَرْبَة عَنِيفَة  دُونَ بَنِى فاطِمَةَ الشَّرِيفَة

-Mən Fatimənin(s.ə) balasını müdafiə etmək üçün sizə möhkəm zərbə endirməyə hazıram.

Qadın bu hərəkəti ilə bildirmək istəyirdi ki, qoca, zəif və xəstə olduğuna baxmayaraq, Peyğəmbər(s) və onun Əhli-beytini(ə) müdafiə edib canımı qurban verməyə hazıram. Çünki onlar mənim üçün canımdan da əzizdir. Həm Peyğəmbər(s), həm Əhli-beyti(ə), həm də möminlər izzətlidirlər. Onlar şərafətli insanlardır. Mən də bu gün bu halımla özümü o şərafət yolunda qurban verəcəyəm.

Qadın bu sözləri deyəndən sonra meydana sarı hücuma keçdi. İmam Hüseyn(ə) özünü yetirib ona dua edərək geri qaytardı. İmamın(ə) duası onu sakitləşdirdi.

## Vəhəbin anası və həyat yoldaşı

Qəmər adlı məsihi bir qadın İmam Hüseynin(ə) karvanı ilə rastlaşdı. Onun Vəhəb adlı bir oğlu var idi. Vəhəb təzə ailə qurmuşdu. Onlar İmam Hüseynin(ə) ailəsi ilə təzəcə tanış olmuşdular. Qəmər Vəhəbin yoldaşı ilə birgə Xanım Zeynəbin(s.ə) məhzərinə get-gəl edirdi. Günbəgün məhəbbəti İmam Hüseynə(ə) və ailəsinə qarşı daha da artırdı. Bu minvalla İslamı qəbul edib iman gətirdilər. Ötən bəhslərdə bu barədə müfəssəl şəkildə söhbət olunduğu üçün bu söhbətlərin üstündən ötəri keçirəm. Nəhayət, aşura günü yetişdi. Həzrətin(ə) yar və ənsarı bir-bir şəhid olurdu. Vəhəbin anası oğlunun yanına gəlib dedi: "Oğlum, qalx ayağa, get Peyğəmbərin(s) qızının balasını müdafiə et. Vəhəb dedi: Anacan, narahat olma. Mən də bu fikirdəyəm. Sadəcə, İmamın(ə) əmrini gözləyirəm. Mənə icazə verən kimi meydana hücum edəcəyəm. Sonra Vəhəb İmam Hüseyndən(ə) icazə alıb, meydana daxil oldu. Bir qədər döyüşəndən sonra anasının yanına qayıdıb soruşdu: Anacan, məndən razı qaldınmı? Anası dedi: Nə qədər ki, şəhid olmamısan, səndən razı qalmayacağam. Nə qədər ki, canını Hüseynə(ə) qurban verməmisən, səndən razı deyiləm. Get, Peyğəmbərin(s) balasının yolunda şəhid ol."

Bu söhbəti Vəhəbin həyat yoldaşı eşidib Vəhəbə yaxınlaşdı. Istədi bildirsin ki, gedib döyüşdün və borcunu yerinə yetirdin. Vəhəb onu başa salıb, yenidən meydana yollandı. Bir az döyüşəndən sonra onu şəhid edib başını

kəsdilər. Anası gəlib oğlunun cənazəsinin kənarında dayanıb belə dedi: “Həmd olsun Allaha ki, sənin şəhadətinlə İmam Hüseynin(ə) yanında üzümü ağ etdi.” Sonra oğlunun başını götürüb öpərək, düşmənə tərəf atdı. İmam Hüseyn(ə) gəlib onu çadırlara qaytararaq buyurdu: “Qiyamət günü sən də, oğlun da Peyğəmbərin(s) yanında olacaqsınız.” Qadın bu sözləri eşidəndən sonra ürəyi sakitləşdi və qayıtdı. Vəhəbin həyat yoldaşı onun cənazəsinin kənarına gəlib başını sinəsinin üstünə qoydu. Sonra belə münacat etdi: “Cənnət sənə nuş olsun. Allah sənə cənnəti nəsib etdi. Kaş, mən də cənnətdə səninlə birgə olaydım.” Şimr onun sözlərini eşidib əmr verdi ki, onu öldürsünlər. Nizə ilə vurub o gəlini də şəhid etdilər. Kərbəlanın ilk qadın şəhidi Vəhəbin həyat yoldaşı oldu.

Kərbəla belə bir izzəti, azadlığı və şərafəti bütün insanlara nümayiş etdirdi və əməldə öyrətdi. Kərbəlada həm yaşlı insanlar, həm də cavanlar, habelə başda Xanım Zeynəb(s.ə) odmaqla həm qadınlar, həm də uşaqlar izzət dərsini öz danışıqları və hərəkətləri ilə bütün dünyaya öyrətdilər.

# ON YEDDİNCİ DƏRS

## DINDƏ ZÜLM VƏ AZĞINLIĞA QARŞI MÜBARİZƏNİN ZƏRURİLİYİ

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رسول الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِه الْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ الدَائِم عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

İmam Hüseyn(ə) Kərbəlada aşura günü bütün insanlara müəyyən dərsləri öyrətmişdir. O cümlədən həmin dərslərdən biri də dində zülmə və azğınlığa qarşı mübarizənin zəruriliyidir. Bu bəhsə başlamazdan öncə bir müqəddiməni əziz möminlərin nəzərinə çatdırmaq istəyirəm. Bu müqəddimə iki hissədən ibarətdir. Birinci hissədə dörd mətləb vardır. Inşallah, bü müqəddimələri və mətləbləri diqqətlə izləsək, bəhsimizin nəticəsi daha da aydınlaşacaq.

### İnsanın qiymətinin ölçüsü

Birinci mətləb budur ki, insanın qiyməti nədədir? Biz haradan öyrənə bilərik ki, bir insanın qiymətinin ölçüsü nə qədərdir? Insanların qiymətini ölçmək üçün bir mizan və meyar varmı? Məsələn, bazardan ərzaq alarkən onun çəkisini tərəzi ilə ölçdükdən sonra məlum olur. Havanın temperaturunu ölçmək üçün müəyyən ölçü cihazı vardır. Həmçinin insanın təzyiqini ölçmək üçün bir qurğu

düzəldilib. Bəs insanın öz qiymətinin qədərini ölçmək üçün hansı vasitədən istifadə olunur? İslam baxımından insanın qiymətinin ölçüsünü bilmək üçün müəyyən bir meyar və mizan təyin olunmuşdur.

Alimlərin buyurduqlarına əsasən insanın qiymətinin ölçüsü onun elmindən, təfəkküründən, düşüncəsindən və mərifətindən asılıdır. Hər hansı bir insanda bunlar çoxdursa, deməli, onun qiyməti də çoxdur.

قَالَ عَلِيٌّ(ع): قَدْرُ كُلُّ إِمْرِءٍ ما يُحْسِن

Həzrət Əli(ə) buyurur: "Hər bir şəxsin qiyməti onun bilik və düşüncəsindən asılıdır."

Həzrət(ə) bu kəlamı buyurmaqla bizlərə öyrədir ki, insanın qiyməti onun elm və mərifəti ilə bərabərdir. Nəticədə belə alınır ki, hər kimin elmi və mərifəti çoxdursa, deməli, qiyməti də çoxdur. Həmçinin hər kəsin elmi, düşüncəsi və mərifəti azdırsa, deməli, həmin şəxsin qiyməti də azdır. Movləvi demişkən:

ای برادر تو همان اندیشه ای     ما بقی تو استخوان و ریشه‌ای

İkinci mətləb belədir ki, elmlərin içində hansı elm və mərifət dəyərli, daha üstün və daha fəzilətlidir? Deməli, belə çıxır ki, insanın ölçüsü olduğu kimi, elm və mərifətlərin də ölçüsü vardır. Bəs bu mərifətlərin qiymətini və fəzilətini necə ölçə bilərik? Bu mətləb birinci mətləbdən çox mühümdür. Çünki elm və mərifətin dəyərini başa düşmək insanın öz dəyərini bilməyindən mühümdür. Əgər bir insan bunu bilməsə, aydın məsələdir ki, öz qiymətini də ölçə bilməyəcək.

Bu sualın da cavabı belədir ki, hansı mərifətin insanın səadətə və təkamülə çatmasında rolu çox olarsa, elmlərin içində həmin elmin və mərifətin qiyməti də çoxdur. Əgər bir elmin insanın kamilləşməsində rolu azdırsa, deməli,

onun qiyməti də azdır. Məsələn, tibb elminə nəzər salaq. Bu elmin qiymətinin çox olduğunu biz haradan bilməliyik? Bunu bilmək üçün baxmaq lazımdır ki, insanın yaşayışında onun kamal, mərifət və səadətə çatmasında tibb elminin rolu, təsiri nə qədərdirsə, qiyməti də elə o qədərdir. Məlumdur ki, riyaziyyat elminin insan həyatında böyük rolu vardır. Belə olduqda bu elmin də özünəməxsus qiyməti və dəyəri var.

Üçüncü mətləb budur ki, belə olduqda, yəni hansı elmin insanın kamal və mərifətə çatmasında rolu çoxdursa, həmin elmin qiyməti də çox olduğu bir halda, Allaha mərifətli olmağın, yəni Allahı tanımağın qiyməti bütün elmlərin qiymətindən daha çox olmalıdır. Çünki insanın kamal və mərifətə çatmasında İlahi mərifətin rolu bütün elmlərdən artıq və üstündür. Bu mərifət 100% insanı kamilləşdirir. Odur ki, insanın kamilləşməsində İlahi mərifətin rolu çox olduğuna görə nəticədə məlum olur ki, bu mərifət bütün mərifət və elmlərdən dəyərli və üstündür.

قَالَ عَلِيٌّ(ع): مَعْرِفَةُ اللهِ سُبْحانَه اَعلَى الْمَعَارِفِ

Həzrət Əli(ə) bu barədə belə buyurur: “İlahi mərifət bütün mərifət və elmlərdən üstündür.”

İlahi mərifət insanın bütün elmlərini kamilləşdirir. Əgər bir insan Allahı tanımasa, onun elmi hər nə qədər çox olsa da belə, elmi bu varlığa nisbət yenə də azdır. Çünki bu varlığın hamısını yaradan Allahdır. Əgər bir şəxs Allahı tanımasa, Onun məxluqunu hər nə qədər yaxşı tanısa da belə, həmin şəxsin elm və mərifəti nöqsanlıdır. Çünki bu insan nəticəni başa düşüb, lakin illəti (nəticəni əmələ gətirəni) bilmir. Bu insan aləmi tanıyır, amma aləmi yaradanı tanımır. Aləmi yaradanı tanımadığına görə, bütün

bu aləmi tanısa belə yenə də onun elminin dəyəri və qiyməti yoxdur. Deməli, insan Allahı tanımaqla öz elmini bütün məxluqların barəsində kamilləşdirə bilər.

قَالَ عَلِيٌّ(ع): مَنْ عَرَفَ اللهَ كَمُلَتْ مَعْرِفَتُهُ

Həzrət Əli(ə) buyurur: "Hər kim Allahı tanısa, elm və mərifəti kamilləşər."

Ola bilsin ki, bir şəxs dünyada olan elmləri çox gözəl bilsin. Əgər Allahı tanımasa, onun bütün bildikləri yenə də nöqsanlıdır. İnsan yalnız Allahı tanımaqla öz elmini kamilləşdirə bilər. Əgər bir insan Allahı tanısa, elmin ən gözəl nöqtəsindən başlamışdır.

Bir gün bir şəxs Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah(s), olarmı mənə elmin qəribəliklərindən və təəccüb doğuran hallarından danışasan? Həzrət Peyğəmbər(s) buyurdu: Sən elmin başının və əsasının harasından bilirsən ki, qəribəliklərindən də soruşursan? Həmin şəxs təəccüblə soruşdu: Elmin başı və əsası hansıdır? Həzrət(s) buyurdu: Allahı olduğu kimi tanımaq elmin başıdır."

Deməli, əgər insan Allaha mərifət taparsa, o zaman öz vücudundan, həyatından, aqibətindən nəticə alacaq. Əgər bir insan əsas mərifəti tapa bilməsə, nə qədər çalışsa da belə, ömrünü hədərə vermiş olacaq. Belə olduqda həyata nəyə görə gəldiyini bilməyəcək. Öz həyatında girinc, avara gəzib dolanacaq və harda nə yediyini, nə geydiyini, harda nə danışdığını bilməyəcək. Çünki haradan gəlib, hara gedəcəyini bilmir. Anlamır ki, bu dünyada məqsədi nədir. Bir insan ki, məqsədini müəyyən etməyib, hansı məqsədə çatmaq üçün çalışır və nəyə görə vaxt keçirir? Əgər bir insan ona lazım olanı taparsa, deməli, onun vücudunun, həyatının, yaşamağının mənası vardır.

Danışığı, yeməyi, baxmağı, bir sözlə, bütün hərəkəti hesab-kitab üzü ilə olar. Belə insanın ölməyinin də hesab-kitabı vardır və öləndən sonra öz məqsədinə çatacaq. Əgər insan bu dünyada ona lazım olan əsas şeyi tapa bilmədisə, o zaman onun həyatı mənasız olacaq.

Bu müqəddimədə dördüncü mətləb belədir. Əgər bir şəxsin ağlı sağlam olsa, xəstə olmasa, mümkün deyil ki, dünyanı, yaradılışı tanısın, amma Allahı tanımasın. Ağlı düz işləyən insanın hər hansı bir sənət əsərinə baxıb onun sənətkarını tanımaması mümkün deyil. Buna görə də Allahı tanımaq insanın öz ağlının vasitəsilə ələ gəlir. Heç vaxt Allahı tanımada təqlid olmur. Bütün bunları insan öz ağlı ilə fikirləşib nəticəyə gəlməlidir. Həzrət Əli(ə) buyurur: “Mümkün deyil ki, mən hər hansı bir şeyə baxım, amma Allahı ondan öncə görməyim. Hər nəyi görürəmsə, Allahı ondan qabaq görüb hiss edirəm. Elmlə iman bir-birindən asılıdır. Əgər elmi imandan ayırsalar, bu elm insana heç bir fayda verməyəcək.”

قَالَ عَلِیٌّ(ع): اَلْإِيمانُ وَ الْعِلْمُ اَخوَان تُأَمَان وَ رَفِيقَان لَا يَفْتَرِقَان

Həzrət Əli(ə) buyurur: “İmanla elm əkiz qardaşlardır. Onların hər ikisi ayrılmaz dostlardır.”

Bu hədis bizə bildirir ki, həqiqi elmi imansız təsəvvür etmək mümkün deyil. Elmin o zaman qiyməti olar ki, iman da onun yanında olsun. Gərək insanın öyrəndiyi elm həqiqətən də elm olsun. Bəzi insanlar müəyyən formul və düsturları öyrənməklə özlərini alim hesab edirlər. Riyaziyyatın düsturlarını və kimyəvi elementlərini öyrənməklə insan elm və mərifətli olmur. Bunlar insanın fikrində olan müəyyən formul və düsturlardır ki, hamı bunları bilir. Həqiqi elm odur ki, insan dünya və yaradılış

barədə biliyi olmaqla yanaşı, yaradanı da tanısın. Allah-təala Quranda alimlər barədə belə buyurur:

إِنَّمَا يَخْشَى اللَّهَ مِنْ عِبَادِهِ الْعُلَمَاءُ

-Həqiqətən Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxarlar. (Onlar elm sahibi olduqları üçün Allahın vəhdaniyyətini, heybəti və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar.)[1]

Bu ayədən başa düşürük ki, Allahı yalnız alimlər tanıyıb ibadət edirlər. Əgər bir şəxs Allahı tanımasa, necə ibadət edə bilər? Bunun mənası belədir ki, Allaha ibadət etməyənlər nə qədər savadlı olsalar da belə, alim hesab olunmurlar. Bunun mənası belə çıxır ki, hər kim Allahdan qorxmursa, alim deyil. Çünki Allahı tanımır və Ona mərifəti yoxdur. Çox kitab oxumasına və çox məlumat toplamasına baxmayaraq, ağlı və ürəyi ilə Allaha mərifəti olmasa, ona alim demək olmaz.

قال الصادق(ع): اَلْخَشْيَةُ مِيراثُ الْعِلْم وَالعِلْمُ شُعاعُ الْمَعرِفَة. مَن حَرُمَ الْخَشْيَة حَرُمَ الْعِلْم وَ اِنْ شَقَّ الشَّعْرَ فِى مُتَشابِهاتِ الْعِلْم

İmam Sadiq(ə) buyurur: “Elmin nəticəsi ilə insan Allahdan qorxur və mərifət kəsb edir. Elm mərifətin şüasıdır. Elmin xırdalıqlarını öyrənməkdə (elmin formullarını öyrənməkdə, bütün sahələr üzrə işləyib) saçları ağarsa da belə, hər kimdə Allahdan qorxu olmasa, elmdən məhrum olmuşdur.

Dünyəvi və axirət elmlərini bilən insanlar o demək deyil ki, alimdirlər. Elə insanlar vardır ki, bir çox elmləri bilirlər. Bəzi insanlar da vardır ki, Quran və təfsir yazır və

---

[1] Fatir,28

çoxlu kitab oxumalarına baxmayaraq, namaz qılmağa gəldikdə, avam bir adam onlardan gözəl namaz qılır.

Elm o deyil ki, insan onu bilsin. Elm odur ki, insana hərəkət verib onu kamilləşdirsin. Alim o şəxsə deyilir ki, malik olduğu elm onda təsir qoysun. Çox bilmək şərt deyil. Əsas şərt odur ki, insan o elmə əməl etsin. Kompüterə nəzər salanda görürük ki, onun yaddaşına milyonlarla kitab və məlumatları yükləmək olur. Bir düyməni basmaqla insan milyonlarla məlumatı monitor vasitəsilə göz önünə gətirir. Əgər çox elm öyrənməklə insan alim hesab olunursa, onda kompüter hamıdan bilikli və elmlidir. Lakin kompüterə alim demək olmaz. Çünki alim üçün çox bilmək şərt deyil. Əsl alim odur ki, bildiyi elm onda öz təsirini göstərsin və ona hərəkət verib hidayət etsin. Buna görə də Allah-təala Quranda buyurur: "Həqiqətən Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxarlar. (Onlar elm sahibi olduqları üçün Allahın vəhdaniyyətini, heybətini və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar.)"

Elmi olan şəxslər hər nə qədər elmli olsalar da belə, əgər Allahdan qorxmasalar (itaət etməsələr), elmlərinin onlara xeyri yoxdur. Indi əgər bir şəxs bu dünyanı bütün incəlikləri ilə çox gözəl şəkildə tanısa, lakin Allahı tanımasa, onun elmi o qədər qiymətsizdir ki, yox dərəcəsindədir. Amma əgər mərifəti öz elminin üstünə əlavə edərsə, yəni Allahı olduğu kimi tanıyarsa, onun elmi kamilləşər.

İmam Hüseynin(ə) "Ərəfə" duasında bu barədə Allahla gözəl və dəyərli bir münacatı vardır. Həzrət(ə) Allahla münacat edərkən belə deyir:

اِلهی ماذا وَجَدَ مَنْ فَقَدَكَ وَ مَا الَّذِی فَقَدَ مَنْ وَجَدَكَ

-İlahi, Səni tapan nəyi itirər? Səni itirən nəyi tapar?

Həzrət(ə) bu münacatı ilə bildirir ki, Allahı tanıyan və Onunla yaxın münasibətdə olan şəxsin hər bir şeyi olar və heç vaxt möhtac qalmaz. Amma Allahı tanımayan insanın hər nəyi olsa da belə, yenə də möhtacdır. Həzrətin(ə) bu sözü fikrimizə daha yaxın olsun deyə bir misalı əziz möminlərin nəzərinə çatdırıram. Məsələn, bir şəxs bir ölkənin şahı ilə yaxın dostdur. O, ürəyi istədiyi vaxt həmin ölkəyə getmək istədikdə, birbaşa şahın yanına gedir. Hamı bilir ki, o, şahın yaxın dostudur. Həmin ölkədə ürəyi hər nə istəsə, onun üçün o saat təşkil edəcəklər. Oranın şahı ilə yaxın dost olduğundan o ölkədə ürəyi istədiyini tapa bilər. Amma başqa bir şəxs o ölkəyə daxil olur və nəinki o ölkənin şahı ilə, heç vəziri ilə də tanışlığı yoxdur. Həmin şəxs o ölkədə hər istədiyinə nail ola bilməz. Odur ki, İmam Hüseyn(ə) buyurur: "Allahı tanıyan şəxsin hər şeyi vardır. Allahı tanımayanın isə hər nəyi olsa da belə, yenə möhtacdır."

Bir nəfər İmam Sadiqin(ə) məhzərinə gəlib dedi: "Ey Allahın höccəti, mən fəqir bir insanam. Mənim köməyə ehtiyacım var." Həzrət(ə) buyurdu: "Sən fəqir deyilsən." Həmin şəxs dedi: "Ey Peyğəmbərin(s) balası mənim heç nəyim yoxdur." Həzrət(ə) buyurdu: "Sən Allahı, Peyğəmbəri(s) və Əhli-beyti tanımırsanmı?" Həmin şəxs dedi: "Tanıyıram və Əhli-beyti də tanıyıram." Həzrət(ə) buyurdu: "Belə isə sən fəqir deyilsən. Sadəcə deyə bilərsən ki, mənim bu saat yeməyə bir şeyim yoxdur. Fəqir o şəxsdir ki, Allahı, Peyğəmbəri(s) və Əhli-beyti tanımır. Fəqir o şəxsdir ki, bu dünyada öz vücudunun mənasını bilmir. Dünyada onun məqsədi bəlli deyil."

Bu hədisi aydın başa düşmək üçün bir misalı əziz möminlərin nəzərinə çatdırıram. Bir şəxsin bankda külli

miqdarda pulu vardır. Əlində olan pulu qurtardıqda banka müraciət edir. Lakin həmin bank bazar günü işləmədiyi üçün oradan öz pulunu götürə bilmir. Həmin gün ola bilsin heç nəyi olmasın, amma bankda kifayət qədər pulu var. Sadəcə yalnız həmin gün istirahət günü olduğundan öz pulundan istifadə edə bilmir və sabahı gözləməli olur. Buna görə də əgər bir insan bütün varlığı ilə yaradanı tanıyarsa və Ona həqiqi mərifəti olarsa, onun hər şeyi vardır. Lakin hələlik həmin şeylər əlinə çatmayıb və nə vaxtsa onların hamısını əldə edəcək.

Hədislərdə vardır ki, əgər bir insan Allahı tanısa, dünyanın özü və bütün qiymətli əşyaları həmin şəxsin ayağının altındakı tozundan da qiymətsizdir.

قَالَ الصَّادِقُ(ع): لَوْ يَعْلَمُ النَّاس مَا فِى فَضْلِ مَعْرِفَةُ الله عَزَّوَجَلَّ مَا مَدُّوا اَعْيُنَهُمْ اِلَى مَا مَتَّعَ اللهُ بِهِ الأَعْدَاءَ مِنْ زَهْرَةِ الْحَيوة الدُّنْيَا وَ نَعِيمِهَا كَانَتْ دُنْيَاهُمْ اَقَلَّ عِنْدَهُمْ مِنْ مَا يَطَؤُونَهُ بِأَرْجُلَهُم

İmam Sadiq(ə) buyurur: “Əgər insanlar Allah mərifətinin fəzilətinin nə qədər çox olduğunu bilsəydilər, heç vaxt buna göz dikməzdilər ki, görüm Allah kimə nə verib. Onların dünyası həmin şəxslərin nəzərində ayaqlarının altındakı torpaqdan da qiymətsizdir.”

Bu hədis bizlərə öyrədir ki, hər kim Allahı həqiqətən olduğu kimi tanıyarsa, dünyanın özü və qiymətli əşyaları ilə birgə həmin şəxsin ayağının altının torpağından da qiymətsizdir.

Burada Həzrət Əlinin(ə) gözəl bir cümləsi var. Həzrət(ə) buyurur:

قَالَ عَلِى(ع): ما يَسِرُّنِى لَو مِتُّ طِفْلاً وَاُدْخِلْتُ الْجَنَّة وَلَمْ اَكْبُر فَاَعْرِف رَبِّى عزوجل

-Əgər məndən soruşsalar, ya Əli, istərdinmi uşaq olan vaxtlarında dünyanı dəyişib cənnətə gedəsən?[1] Əgər mənə bu sualı versələr, belə cavab verərəm: "Xeyr, mən istəyərəm ki, böyüyüm, Allahımı tanıyım, ondan sonra cənnətə gedim."

Bu hədisdə Həzrət(ə) bildirir ki, uşaq vaxtı dünyadan getmək istəmir. Mən istəyirəm ki, böyüyəm, Allahı tanıyam, ondan sonra O, məni hara aparır, aparsın. Ən əsası budur ki, mən Onu tanıyım, onun qarşısında səcdə edim və bu vasitə ilə öz izzət və kamalımı tapım, ondan sonra Allah məni hara aparır, aparsın.

Allaha mərifəti olan insanların, Onu həqiqətən tanıyıb ibadət edən insanların gözündə nəinki dünyanın, hətta cənnətin də belə qiyməti və mənası yoxdur. Bu məsələyə Quranda belə işarə olunur:

إِنَّ الْمُتَّقِينَ فِي جَنَّاتٍ وَنَهَرٍ. فِي مَقْعَدِ صِدْقٍ عِندَ مَلِيكٍ مُّقْتَدِرٍ

-Şübhəsiz ki, müttəqilər cənnət bağlarında və çaylar kənarında, (heç bir yersiz söhbətə və günaha təhrik olunmayan) haqq məclisində, qadir hökmdarın yanında olacaqlar!

Bu ayədən də məlum olur ki, təqvalı insanlar, Allahı sevib Ona itaət edən insanlar cənnətdə olmaqla bərabər, Allahın yanında, yəni Allahın rəhmət və mərhəmətinin olduğu bir yerdə olacaqlar ki, orada yalnız sədaqət və düzlük olacaq.

Tarixə nəzər salanda görürük ki, Fironun yoldaşı mömin bir qadın idi. O, Firona iman gətirmədi. Ona görə də əmr etdi ki, yoldaşını çarmıxa çəkib cəzalandırsınlar. O xanımın əllərinə və ayaqlarına mismar vurub çarmıxa

[1] Hədislərdə vardır ki, insan uşaq vaxtlarında dünyadan gedərsə, sorğusuz-sualsız cənnətə gedər.

çəkdilər. O, göyə baxıb Allahla münacat edirdi. Allah-təala Quranda onu bütün möminlərə misal çəkir:

وَضَرَبَ اللَّهُ مَثَلًا لِّلَّذِينَ آمَنُوا اِمْرَأَةَ فِرْعَوْنَ إِذْ قَالَتْ

رَبِّ ابْنِ لِي عِندَكَ بَيْتًا فِي الْجَنَّةِ

-Allah iman gətirənlərə Fironun zövcəsini (Asiyanı) məsəl çəkir. O zaman o: "Ey Rəbbim! Mənim üçün öz yanında – cənnətdə bir ev tik",-deyir.

Fironun həyat yoldaşı o halda Allahla münacat edərkən belə dedi ki, İlahi, əgər mənə cənnətdə yer verirsənsə, Öz yanında qərar ver.

Həzrət Əli(ə) Allahla beləcə münacat edərdi. Çünki Həzrət(ə) bilirdi ki, kimin qarşısında dayanıb. O, Allahı olduğu kimi tanıyırdı. Buna görə də heç vaxt Ondan ayrı düşməsini istəmirdi. Cənnətə də getsəydi belə, Allahın yanına getməyi diləyərdi. Həzrət Əli(ə) bütün bunların mənasını gözəl başa düşüb, əməl edirdi. Əgər bir insan belə olarsa, deməli, onun mərifətinin yanında iman vardır. Bir insanda mərifətlə iman bir yerdə olarsa, həmin şəxs öz insaniyyətindən nəticə alacaq.

İmam Hüseynin(ə) həyatına, Kərbəlada, aşura günü hərəkatına nəzər saldıqda görürük ki, O, Həzrət Əlinin(ə) buyurduğu sözləri əməldə gözəl surətdə icra etdi. İmam Hüseyn(ə) özü qanı və canı ilə, altıaylıq körpəsi və Peyğəmbərə(s) oxşar cavan övladı ilə, bacısı Zeynəb(s.ə) və sadiq tərəfdarları ilə birgə bunu icra etdilər.

Kərbəlada iki dəstə üz-üzə dayanmışdı. Bir dəstə cinayət, qan tökmək, şərəfsizlik adı altında dayanmışdı. Onlar canavar kimi qan tökmək, didib parçalamaq üçün ora gəlmişdilər. Canavarın işi vəhşilik, və parçalamaqdan ibarətdir. O, ac olarkən qarşısındakı yeyəcəyi insanın alim, professor, cahil və savadsız, kasıb və ya varlı olmasının,

bir sözlə, kimliyinin fərqində deyil. Çünki  yırtıcı heyvan olduğundan onun xüsusiyyəti belədir. Bu dəstə də eyni ilə həmin xarakterdə olan insanlar idilər. Xanım Zeynəb(s.ə) Yezidin sarayında çıxış edərkən bu məsələyə işarə edərək buyurmuşdur: "Ey Müaviyənin qan içən canavarı! Ey Müaviyənin qarın yırtan qatil oğlu."

Tarixə nəzər saldıqda görürük ki, Müaviyənin dövründən qabaq da insan öldürənlər, vəhşilər, cinayətkarlar var idi. Onlar üçün öldürdükləri insanların üşaq və cavan, qadın və qoca olması fərq etmirdi. Tarixdə vardır ki, hətta bir gün ərzində yetmiş peyğəmbər öldürmüşlər. Indinin özündə də bu vəhşilik vardır. O vaxt uşaqları öldürdükləri kimi, elə bu zamanda da öldürürlər. Necə ki, keçmişdə qadınları işgəncələrlə həlak edirdilərsə, yaşadığımız dövrdə də həmin cinayətlər var. Sadəcə, həmin vəhşiliyin surətini dəyişib, ona bir ad qoyaraq əncam verirlər. Keçmişdə qılıncla öldürərdilər, indiki zamanda müasir silahlarla öldürürlər. O zaman Yezidin xilafəti üstündə, indiki zamanda işğalçılıq üstündə camaatı zülmə məruz qoyub öldürürlər. Hər gün bunu televiziya vasitəsilə görür, radio vasitəsilə onlarca, yüzlərlə məzlum insanın öldürülməsindən xəbər tuturuq. Bu məzlum insanları nəyə görə öldürürlər? Axı bu öldürülən insanlar kimin haqqını yeyiblər ki, onları bu cür zülmə məruz qoyurlar? Vəhşi heyvan həmişə elə vəhşidir. Onun işi parçalamaqdır. Kərbəlada da Yezid kimi qaniçən canavar öz quldurları ilə qan tökməyə gəlmişdilər.

Kərbəlada ikinci dəstə isə insaniyyətin nümayəndəsi kimi orada iştirak edirdi. Onlar Allahın sərgisini, elm və tərbiyə məktəbini nümayiş etdirirdilər. Bu sərgidə İmam Hüseyn(ə) insaniyyətliyi nümayiş etdirdi. Allah-təala aşura günü Kərbəlada ən kamil və mütərəqqi insanı

sərgiyə qoymuşdu. Göyün bütün pərdələrini kənara çəkib, mələklərə həmin sərgiyə baxmağı əmr etdi. Allah-təala İmam Hüseyni(ə) o sərgiyə qoyaraq, bütün aləmləri insaniyyət sərgisinə tamaşa etməyə dəvət etmişdi. Bir zaman mələklər insanın yaranmasına etiraz etmişdilər. Allah-təala mələklərə insanı yaradacağını xəbər verdikdə mələklər dedilər: "İlahi, insanı yaratma. O, gəlib yer üzündə qan töküb, fəsad törədəcək. Biz sənin şəninə təsbih deyib şükür edirik. Allah-təala onların cavabında buyurdu: Mən bildiyimi siz bilmirsiniz."

Allah-təala aşura günü İmam Hüseyni(ə) mələklərə göstərib buyurdu: "Bir zaman siz insanın yaranmasını istəmirdiniz. Amma bu gün baxın mənim bəndəmə. Görün necə eşq və məhəbbətlə Mənə səcdə edir?" Allah üçün həmin qan tökənlər, canavarlar və vəhşilər maraqlı deyildi. Maraqlı o idi ki, İmam Hüseyn(ə) əlində altıaylıq balası Allahla münacat edirdi. Maraqlı o idi ki, İmam Hüseyn(ə) öz məşuqu olan Allah üçün hər şeyindən keçməyə hazır idi. Bu yolda hər şeyini qurban verdi, hətta altıaylıq körpəsini də belə. İmam Hüseyn(ə) uşağı meydana apardı. Onu əllərinin üstündə yuxarı qaldırıb buyurdu: "Mənimlə döyüşürsünüzsə, bəs bu uşağın günahı nədir? Niyə buna su vermək istəmirsiniz?" Həzrətin(ə) bu sözlərinə oxla cavab verdilər. Atılan ox uşağın boğazını bir qulağından o biri qulağına qədər üzdü. Həzrət(ə) körpəyə baxıb buyurdu: "Bu mənzərəni görmək və bu müsibətə dözmək mənim üçün çox asandır. Çünki bütün bunlar Allahın gözü önündə baş verir."

İmam Hüseyn(ə) Allahın eşqinə, məhəbbətinə görə bütün bu işləri görürdü. Allahın məhəbbətinə görə bütün bu çətinliklər və müsibətlər onun üçün çox asan idi. İmam Hüseyn(ə) yaralı halda son anlarında mübarək üzünü isti

qumlar üzərinə qoyub Allahla münacat edirdi. Oxlar, nizələr və daşların o həzrətə atılmasına baxmayaraq, O, yenə də öz məşuqu ilə razi-niyaz edirdi:

*Bəh-bəh nə gözəl səslənir oxlar havada,*
*Heç nəğmeyi davud olamaz bu sədada.*
*Bir zərrə əziyyət eləmir yaralı sinəm,*
*Heç bilməyirəm harda qalıb nazlı səkinəm.*

Bu, insaniyyət sərgisi və böyük bir məktəbdir. İmam Hüseyn(ə) bu sərgidə bütün insaniyyətə Allaha mərifəti öyrədir.

Kənardan bu hadisəyə baxanda və bu hadisə haqda məlumat əldə etdikdə bütün bunlar insana qorxulu gəlir. Lakin İmam Hüseyn(ə) üçün bütün bunlar çox asan idi. Çünki Həzrətin(ə) Allaha mərifəti var idi. Ona vurulan zərbələr, atılan oxlar, dəyən qılınc yaraları çox şirin idi. Həzrət(ə) bilirdi ki, bütün bunlar O uca Allahın məhzərində, Onun gözü qarşısında baş verirdi və Onun rizayəti uğrunda idi.

## Allaha mərifət tapmağın yolları

Bu bəhsə giriş olaraq iki hissədən ibarət olan bir müqəddimənin lazım olduğunu qeyd etdik. Həmçinin həmin müqəddimənin birinci hissəsini əziz möminlərin nəzərinə çatdırdım. Indi isə həmin müqəddimənin ikinci hissəsini qeyd edirəm. Birinci hissədə dörd mətləb zikr olunduğu kimi, bu hissədə də altı mətləbi nəzərinizə çatdırmağı zəruri hesab edirəm.

Birinci mətləb budur ki, Allaha mərifət tapmaq və aləmin həqiqətlərini başa düşmək üçün Allah-təala insanın vücudunda üç imkan və mənbə qərar verib. Insan bu üç mənbə və imkandan istifadə edərək onların vasitəsilə

dünyanın həqiqətlərinə yetişib, Allaha mərifət tapa bilər. Insanda olan həmin mənbələrdən biri hissiyyat üzvləridir. Hər bir insan bununla aləmin zahirində olanları hiss edib başa düşür. Bu mənbə insanda olan beş hissiyyat üzvüdür ki, biri görmə, biri eşitmə, dad bilmə, biri iyləmə, biri də lamisədən ibarətdir. Insan bu üzvlərin vasitəsilə aləmin zahirini özünəməxsus şəkildə hiss edib başa düşür.

Allaha mərifət gətirmək üçün insanda olan imkan və mənbələrdən ikincisi ağıldır. Bir çox şeylər də vardır ki, insan onu ağlı ilə hiss edib dərk edir. Insan hər şeyi gözü və ya qulağı ilə hiss edib başa düşə bilmir. Çox məsələlər və həqiqətlər vardır ki, insan onları yalnız ağlı ilə hiss edir.

Allahın insana verdiyi üçüncü mənbə və imkan qəlbdir. Qəlb dedikdə insanın ruhu nəzərdə tutulur. Elə şeylər var ki, insan qəlbinin gözləri ilə yaradılışın bəzi həqiqətlərini görə bilər. Belə deyil ki, insan gözü ilə hər nə görürsə o var, görmürsə yoxdur. Məsələn, bədəndə olan ağrını gözlə görmək mümkün deyil. Bu o demək deyil ki, ağrı yoxdur. Gözlərin görmədiyi çox şeylər vardır ki, qəlb onları görə bilər. Dünyanın zahiri (üz tərəfi) olduğu kimi, iç tərəfi də var. Bu aləmin üz tərəfini görmək üçün zahiri gözlər kifayət edir, lakin batinini dərk etmək üçün mütləq qəlbin gözü lazımdır. Qəlbin bu gözünə bəsirət gözü deyilir. Əgər bir insanın gözü kordusa və dünyada heç nəyi görə bilmirsə, amma bəsirət gözü açıqdırsa, bəsirətin gördüyü şeyləri bu insan görə bilir. Çünki zahiri gözlərlə qəlbin gözü qərqlidir. Biri aləmin zahirini görür, digəri isə batinini. Əgər qəlbin gözü açılmayıbsa, insan heç vaxt aləmin həqiqətlərini dərk etməyəcək.

Buna görə də insan gözü ilə görmədiyi bir şeyi deyə bilməz ki, aləmdə belə bir şey yoxdur. Insanın qəlbi çox

şeyləri gərər ki, gözü onları görə bilməz və hissiyyat üzvləri onu hiss edə bilməz.

İkinci mətləb budur ki, bəzən insan elə bir iş görür ki, həmin işin nəticəsində gözləri kor olur. Həmçinin hansısa təsadüf nəticəsində qulaqları kar olur. Hətta bəzi insanlar da vardır ki, anadangəlmə iy- bilmə qabiliyyəti yoxdur. Hansı iyin xoş və ya pis olduğunu duya bilmir. Eləcə də bəzi insanlar bir sıra işləri görməklə, o iki mənbənin--ağlının və ürəyinin qapılarını öz üzlərinə bağlayırlar. Belə insanlar öz əməllərinin nəticəsində ağlının və ürəyinin qapısını öz üzünə bağlamış olurlar. Bu insanlarda yalnız bir mənbə qalır ki, o da zahirdə olanları hiss etmək üçün bədəndə olan hissiyyat qüvvələridir. Insan zahirdə olan əşyaları bu hissiyyat üzvləri ilə başa düşür. Amma ağlın və qəlbin qapılarını öz üzlərinə bağladıqlarına görə bir çox həqiqətlərdən qafil olurlar. Allah-təala belə insanlar barədə Quranda buyurur:

يَعْلَمُونَ ظَاهِرًا مِّنَ الْحَيَاةِ الدُّنْيَا وَهُمْ عَنِ الْآخِرَةِ هُمْ غَافِلُونَ

-Onlar dünyanın zahirini bilirlər, axirətdən isə qafildirlər.[1]

Bu ayə açıq-aydın bəyan edir ki, belə insanlar ağıl və qəlbin qapılarını öz üzlərinə bağlayıb, həqiqətdən uzaq düşən insanlardır. Onlar yalnız başqa heyvanlar kimi dünyanın zahirini başa düşürlər. Bu ayədən məlum olur ki, onların yaşayışları heyvanların yaşayışlarından heç fərqlənmir.

Başqa bir ayədə Allah-təala buyurur:

وَالَّذِينَ كَفَرُوا يَتَمَتَّعُونَ وَيَأْكُلُونَ كَمَا تَأْكُلُ الْأَنْعَامُ

---

[1] Rum , 7

-Kafir olanlar (Allaha inanmayanlar, ağlın və qəlbin gözünü kor edənlər) (dünyada) səfa sürər, heyvan kimi yeyib içərlər.[1]

Bu ayə bir daha bəyan edir ki, belə insanlar heyvanlardan fərqlənmirlər. Başqa heyvanlar görüb eşidirlər, bərki-yumşağı hiss edirlər, iyləri duyub, acı və şirini başa düşdükləri kimi, bunlar da hiss edirlər. Bir sözlə, ağlının və qəlbinin qapılarını öz üzlərinə bağlayan insanlar heyvan kimidirlər. Çünki insanlar əsas üstünlüyü o iki mənbə vasitəsilə tapırlar. Əgər bir insan o iki mənbədən məhrum olarsa, onda heyvanlardan fərqi olmayacaq. Belə olduqda da onlar aləmin həqiqətlərindən və batinlərindən qafil olarlar. Bundan əlavə, belə insanlara batini həqiqətlərdən, mənəvi fəzilətlərdən, insanın mənəvi həyatından hər nə qədər danışılsa da belə, yenə də başa düşməzlər. Düzdür, insanlardan bir çoxu mənəviyyat sözünü dildə tez-tez işlədir, amma mənəviyyatın özünün nə olduğunu başa düşmürlər. Belə insanlara mənəviyyatın nə olduğunu başa saldıqda, yenə də anlamazlar. Məsələn, elə bil bir insan anadan dünyaya kor gəlib və heç bir insanı görməyib. Əgər gözəl bir insanı ona başa salmaq istəsək, o, başa düşməyəcək. Məsələn, həmin şəxsə bir məşuqənin qaşlarının, gözlərinin, dodaqlarının gözəlliyindən danışıb tərif etdikdə, o, belə şeyləri başa düşməyəcək. Çünki o, nə gözəlliyi, nə də çirkinliyi görməmişdir. Əgər həmin şəxsə yaşıllıqlar, bağlar, təbiətin gözəlliyindən danışılıb tərif olunsa, yenə də o, heç bir şey anlamayacaq. Çünki o, nə dağ görüb, nə yaşıllıq, nə də təbiəti görməyib. Ona bir mənzərəni başa salmağa çalışsaq, yenə də o, başa düşməyəcək. Çünki onun gözləri

[1] Məhəmməd,12

olmayıb ki, bunları görsün və başa da düşsün. Buna görə də gözü olmayan insanın həmin mənzərələri və təbiətin gözəlliklərini başa düşmədiyi kimi, eləcə də ağlının və qəlbinin gözlərini kor edən insanların da heç bir mənəviyyatdan xəbəri olmaz və onun nə olduğunu başa düşməzlər.

Üçüncü mətləb budur ki, əgər insan əllərinə əlcək geyərsə, onun əlləri yenə də həmin hissləri keçirə bilərmi? Insan əlcək geydikdə, daha yalın əli ilə keçirdiyi hissi keçirə bilməz. Insanın burnunu bağlasalar, daha hansısa iyi duya bilməz. Əgər insanın qulaqlarını tutsalar, səs eşidə bilməz. Beləcə də əgər insanın ağlının və qəlbinin qarşısında maneə yaranarsa, onlar da kor olub, həqiqətləri görə bilməzlər. Insanın dilində, gözündə və qulağında maneə yarandıqda bir şeyi hiss etmədiyi kimi, ağlının və qəlbinin qarşısında da maneə olarsa, onda insan həqiqəti başa düşməyəcək. Bu, aydın bir məsələdir. Lakin burada qarşıya maraqlı bir sual çıxır. Hansı əməl və hərəkətlər insanın ağlında və qəlbində həqiqətləri görməyinə maneçilik törədir? Bu barədə bir çox hədislər və Quran ayələri vardır. Lakin bu sualın ümumi cavabı bir cümlədədir. O cümlə budur ki, həvayi-nəfs insanın ağlını kor edər və günah da qəlbin gözünü. Həvayi-nəfs həmişə insanın ağlı ilə ziddiyyət təşkil etmişdir. Insanda hər nə qədər həvayi-nəfs varsa, bir o qədər də ağlın bəhrəsi az olacaq. Insan var ki, 2% həvayi-nəfsi vardır. Insan var ki, 90% həvayi-nəfsə aludədir. Elə insan da var ki, ömrünün əvvəlindən axırına qədər həvayi-nəfsin əsiri olub. Hərdən görünür ki, bəzi insanlar həyatda nəfslərinə aldanırlar. Lakin tez başa düşüb, tövbə edir və Allah da onu hidayət yoluna çəkir. Həvayi-nəfsin nəticəsi günahla qurtarır. Deməli, həvayi-nəfs insanın ağlını kor etdiyi kimi,

nəticədə günaha düşüb ürəyinin gözünü də kor etmiş olur. Belə olduqda insanın qəlbinin güzgüsünün üstünü toz alar və o, həqiqətləri görməz. Çünki həvayi-nəfs elə bir şeydir ki, hər hansı bir insan onu öz qəlbinə daxil etsə, onun qəlbinin gözü kor olar. Fərq etməz həvayi- nəfs istər kin-küdurət, istərsə də məhəbbət surətində olsun. Çünki həvayi-nəfs insanın qəlbinə bəzən kin-küdurət, bəzən də məhəbbət surətində yol tapır. Hər halda bunların ikisi də insanın ağlının və qəlbinin gözlərini kor edir. Belə olduqda insan artıq həqiqəti anlaya bilmir. O, inadkarlığa, təəssübkeşliyə düşür və haqqı hər nə qədər ona başa salsalar da qəbul etmir.

Leyli və Məcnunun hekayəsini hamı bilir. Bu hekayəni çox şairlər yazıb qələmə almışlar. Məlumdur ki, Məcnun Leylini sevirdi. Leyli çox da göyçək qız deyildi. Onun dili pəltək, rəngi qara və bədənində bəzi qüsur və çatışmazlıqlar olduğuna baxmayaraq, Məcnun onun dərdindən dəli-divanə olmuşdu. Məcnun Leylinin qaralığını ona olan məhəbbətinin şiddətindən hiss etmir. Məcnuna dedilər: “Leyli qara bir qızdır, onun nəyinə aşiq olmusan belə?”

Məcnun onların cavabında belə dedi: “Hər sevən insan istər ki, öz məşuqunun üzündə bir kiçik qara xal olsun. Xoş mənim halıma ki, mənim məşuqəm başdan-ayağa xaldır.”

Məhəbbətinin şiddətindən Leylidə olan nöqsanları görə bilmir. Çünki məhəbbət onun gözlərini kor etmişdir.

Bir gün Leylidən Məcnunu nəyə görə bu qədər sevdiyini soruşdular. Nəyə görə Məcnun sənin dərdindən dəli-divanədir? Sən ki, belə gözəl deyilsən, niyə Məcnun səni bu qədər sevir? Leyli dedi: “Sən mənə Məcnunun gözü ilə baxsan, məni hamıdan gözəl görərsən.”

*Qoft Leylira xəlife kan toi,*
*Kəz to Məcnun şod pərişano ğəvi,*
*Əz degər xuban to əfzun nisti.*
*Qoft xamuş, çun to Məcnun nisti.*

O, Leylidə yalnız gözəlliyi görürdü. Məcnunun özündən də bunu soruşdular: “Leyli belə də gözəl qız deyil. Onun bədəninin hər bir üzvündə nöqsan və çatışmazlığı var. Sən onu niyə bu qədər çox sevirsən?” Məcnun onun sözlərindən narahat oldu. Sonra gülümsəyib dedi: “Əgər sən Leyliyə mənim gözümlə baxsan, onda gözəllikdən başqa heç bir şey görməzsən.”

*Be Məcnun qoft ruzi eybcui*
*Ke peyda kon veh əz Leyli nikui*
*Ke gər Leyla be çeşmane to hurist,*
*Be hər uzvi ze əzayəş qüsurist.*
*Ze hərfe eybcu Məcnun bər aşuft,*
*Dər an aşuftegi xəndan şudo qoft,*
*Əgər bər dideye Məcnun neşini,*
*Be coz əz xubiye Leyli nəbini.*
*To mu mibini və mən piçeşe mu.*
*To əbru, mən işarəthaye əbru*

Eşq, məhəbbət insanın həm ağlının, həm də qəlbinin gözlərini elə kor edər ki, həqiqəti görüb dərk edə bilməz. Allah-təala Quranda bu məsələyə işarə edir. Yusif(ə) çox gözəl idi. Züleyxanın gözü ona düşdü. Onun bu hərəkəti şəhərdə qadınlar arasında söz-söhbətə səbəb oldu. Onlar Züleyxanın haqq yoldan azdığını və pozğunlara qoşulduğunu iddia edirdilər. “Yusif” surəsinin 30-31-ci ayələri Yusiflə Züleyxanın məsələsini belə bəyan edir:

وَقَالَ نِسْوَةٌ فِي الْمَدِينَةِ امْرَأَةُ الْعَزِيزِ تُرَاوِدُ فَتَاهَا عَن نَّفْسِهِ قَدْ شَغَفَهَا حُبًّا إِنَّا لَنَرَاهَا فِي ضَلاَلٍ مُّبِينٍ

فَلَمَّا سَمِعَتْ بِمَكْرِهِنَّ أَرْسَلَتْ إِلَيْهِنَّ وَأَعْتَدَتْ لَهُنَّ مُتَّكَأً وَآتَتْ كُلَّ وَاحِدَةٍ مِّنْهُنَّ سِكِّينًا وَقَالَتِ اخْرُجْ عَلَيْهِنَّ فَلَمَّا رَأَيْنَهُ أَكْبَرْنَهُ وَقَطَّعْنَ أَيْدِيَهُنَّ وَقُلْنَ حَاشَ لِلّهِ مَا هَـذَا بَشَرًا إِنْ هَـذَا إِلاَّ مَلَكٌ كَرِيمٌ

-Şəhərdə qadınlar dedilər: Vəzirin həyat yoldaşı cavan qulunu tovlayıb yoldan çıxarmaq istəyir. Yusifin məhəbbəti onun bağrını qan edib (gözlərini kor edib). Biz onun açıq-aşkar (doğru yoldan) çıxdığını görürük.

(Züleyxa) qadınların gizli dedi-qodularını (məkrini) eşitdikdə onlara xəbər göndərib ziyafətə dəvət etdi, onlar üçün gözəl (mütəkkələrlə, xalılarla döşənmiş bir otaqda ləziz təamlardan ibarət) bir məclis düzəltdi. O, hər qadına meyvə və kəsmək üçün bir bıçaq verdi, sonra Yusifə: "Qadınların qabağına çıx!" deyə əmr etdi. Qadınlar Yusifi gördükdə (gözəlliyinə heyran olub) onu həddindən artıq təriflədilər və (özlərini itirib) əllərindəki meyvəni soymaq əvəzinə əllərini kəsdilər. Onlar dedilər: "Aman Allah! Bu, bəşər deyildir! Bu ancaq Allah yanında əziz olan bir mələkdir!"

Bu ayələr insanı başa salır ki, məhəbbət insanı elə kor edər ki, həm ağlını, həm qəlbini kor edər, həm də insan əlini də kəsər və heç hiss də etməz.

Bəzən uşaqlar futbol və ya maraqlı bir oyun oynayarkən, yıxılıb əzildiklərinə baxmayaraq, oyunun şirinliyindən ağrıları hiss etmirlər. Oynayıb qurtardıqdan sonra əzildiyi yerin qaşındığını hiss edirlər. Baxıb görürlər ki, həmin yerdən qan axır. Oyunun şirinliyindən nə vaxt əzildiyini hiss etməyiblər. Oyun qurtardıqdan sonra başa düşürlər ki, bədənləri əzilib.

قَالَ رَسُولُ اللهِ(ص): حُبُّكَ لِلشَّئِ يُعْمِى وَ يُصِم

Həzrət Peyğəmbər(s) buyurur: “İnsan bir şeyə çox məhəbbət bağlasa, həmin məhəbbət onun gözlərini kor, qulaqlarını kar edər.”

قَالَ الْبَاقِرُ(ع): ما عَبْدٌ إلا فِي قَلْبِهِ نُكْتَةٌ بَيْضَاءٌ فَإِذا أَذْنَبَ ذَنْبًا خَرَجَ فِي النُّكْتَةِ نُكْتَةٌ سَوْداءٌ فَإِنْ تَابَ ذَهَبَ ذَلِكَ السِّوادُ وَ إِنْ تَمَادَى فِي الذُّنُوبِ زَادَ ذَالِكَ السِّوَادُ حَتّى يغطى الْبَيَاضُ فَإِذا غُطَّى الْبَيَاضُ لَمْ يَرْجِعْ صَاحِبُهُ إِلَى خَيْرٍ أَبَدًا وَ هُوَ قَوْلُ اللهِ عَزَّ وَ جَلَّ: كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِم مَّا كَانُوا يَكْسِبُونَ

İmam Baqir(ə) buyurur: “Hər insanın qəlbində ağ bir nöqtə vardır. Insan günah etdikdə o nöqtədən bir qara nöqtə əmələ gəlir. Əgər insan etdiyi günahdan tövbə edərsə, qəlbində yaranan qara nöqtə pozulur. Əgər günaha davam edərsə, o qara nöqtə o qədər çoxalar ki, qəlbin bütün ağlığını örtər və qəlbi tamamilə qaralar. Qəlbin ağlığı aradan getdikdən sonra və qəlb tamamilə qaraldıqdan sonra, o qəlbin sahibi bir daha xeyir və səadətə çatmaz.”

Bu, Allahın sözüdür: “Xeyr, (belə deyildir). Əslində onların qəlblərini qazandıqları günahlar pasla örtmüşdür.”[2]

Bu barədə Peyğəmbər(s) və imamlardan çox hədislər danışmaq olar. Bütün bu hədislər insanlara günahların təsirini və acı nəticəsini başa salır. Əgər bir insan günah içində qərq olarsa, qəlbinin nuraniyyəti tamamilə aradan gedər. Lakin əgər insan həvayi-nəfsi özündən uzaqlaşdırıb, özünü günahdan saxlaya bilsə və öz nuraniyyətini qoruyub saxlayarsa, o zaman bu həqiqi aşiq olacaq. Belə olduqda artıq insan həqiqi məşuqunun, yəni Allahın eşqi ilə yanacaq. Allah Özü nurdur. Bütün nurlar ondan yaranır. Aləmdə olan nurların hamısı Ondandır.

[2] Mizanul-hikmə, c.3. səh.465.

İmam Hüseyn(ə) Allahın aşiqi idi. Həzrət(ə) bu eşqi tamamilə dərk etmişdi. İmam Hüseynin(ə) Allaha olan eşqi bütün çətinlikləri asan etmişdi.

İmam Hüseyn(ə) öz səhabələrinə Kərbəla şəhidləri barədə Peyğəmbərdən(s) hədis nəql etmişdir. Həmin hədisdə deyilir ki, Kərbəlada Allah yolunda şəhid olanlar qılınc, ox, nizə və s. ağrıları hiss etməyəcəklər.

Şəhid olmazdan öncə İmam Hüseyn(ə) səhabələrə buyurdu:

اِنَّ رَسُولُ الله صَلّ الله عَلَيْهِ وَ آلِهِ قالَ لِی – يَا بُنَيَّ اِنَّكَ سَتُساقُ اِلَی العِراق وَهِیَ أَرْضٌ قَد اِلْتَقی بِها النَّبِیُّون وَ اَوْصِیاء النَّبِیِّین وَ هِی اَرْضٌ تُدْعی عَمُورا وَ اِنَّكَ تُسْتَشْهَدُ بِها وَ یُسْتَشْهَدُ مَعَكَ جَماعَةٌ مِنْ اَصْحابِك لا یَجِدُونَ اَلَمَ مَسِّ الْحَدِید وَ تلا: قُلْنَا يَا نَارُ كُونِي بَرْدًا وَسَلَامًا عَلَى إِبْرَاهِيمَ

-Cəddim Rəsulullah mənə buyurdu: Oğlum, həqiqətən tezliklə sənin işlərin Iraqa çəkiləcək. Ora elə bir yerdir ki, peyğəmbərlər öz vəsiləri ilə orada görüşürlər. Ora elə bir yerdir ki, oranı «Əmura»[1] deyə çağırırlar. Sən və sənin bir dəstə səhabən orada şəhid olacaqsınız. Dəmirin ağrısını hiss etməyəcəklər. Sonra Peyğəmbər(s) bu ayəni tilavət etdi: “Biz də : Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol! – deyə buyurduq.”[1]

یَکُونُ الْحَرْبُ بَرْدًا وَ سَلامًا عَلَیْكَ وَ عَلَیْكُم

-Müharibə sənə və sənin səhabələrin üçün sərin və ağrısız olacaq.

İmam Hüseyn(ə) Peyğəmbərdən(s) bu hədisi nəql etdikdən sonra üzünü səhabələrə tutub buyurdu:

---

[1] Kərbəlanın adlarından biri də Əmuradır

[1] Ənbiya, 69.

فَاَبْشِرُو فَوَاللهِ لَئِن قَتَلُونَا فَاِنّا نَرِدُ عَلى نَبِيِّنَا

-Sizə müjdə verirəm ki, and olsun Allaha, bizi öldürən kimi Peyğəmbərin(s) məhzərinə gedəcəyik.

Buna görə də onlar Aşiq idilər. Bütün səhabələr meydana tez getməyə can atırdılar. Onlardan biri meydana getdikdə, digəri yubandığına görə darıxırdı. O da istəyirdi ki, tez gedib şəhid olsun.

Əmarə deyir: “Atam mənə İmam Sadiqdən(ə) belə hədis nəql etdi: Bir gün mən İmam Sadiqin(ə) məhzərində idim. Həzrətdən(ə) soruşdum: Ey Allahın höccəti, xahiş edirəm ki, mənə İmam Hüseyn(ə) və səhabələrinin şəhid olmaları barədə söhbət edəsən. İmam Sadiq(ə) buyurdu: Həqiqətən onların gözlərinin qarşısından pərdə götürülmüşdü. Bu dərəcədə idilər ki, cənnətdəki öz imarətlərini görürdülər. Buna görə də bir-birindən qabaq öz imarətlərinə getməyə və məkanlarını görməyə tələsirdilər.

İmam Hüseyn(ə) öz səhabələrinə bildirirdi ki, Peyğəmbərlə(s) bizim aramızda bir nəfəs qalıb. Əgər o nəfəsi bizdən alsalar, Həzrətin(s) məhzərinə yetişəcəyik. Onlar aləmin iç tərəfini, batinini görürdülər. Bunu gördükləri üçün də ağrı hiss etmirdilər. Heç fikirləşmirdilər ki, bədənlərinə nə qədər qılınc zərbəsi və ox yarası dəyib. Isti qumlar üstə, günəşin isti şüaları altında susuzluq hiss etmirdilər.

İmam Hüseyn(ə) son anlarında Allahla münacat edərkən Allahın mələyi Cəbrayıl ora gəldi. Həzrət(ə) üzərinə düşən kölgəni hiss etdikdə gözlərini açıb Cəbrayılı gördü.

*O halda Cəbrəili pakfitrət,*
*Bəyan etdi pəs əz təzimu xidmət,*

*Icazə ver mənə ey şəmsi izzət,*
*Açım şəhpər sən eylə istirahət,*
*Gətirim nuş elə Kovsərdən abi.*
*Silib qanlı gözün ol şahi-əbrar,*
*Edib Ruhul-əminə lütfün izhar.*
*Təbəssümlə açıb nitqi qohərbar,*
*Dedi xoş gəldin ey yari vəfadar.*
*Ona qıldı dübarə bu xitabı.*
*Mənə lazım deyil şəhpər səfası,*
*Sərindi bu yerin isti havası,*
*Mənə rahatdı ox-nizə yarası,*
*Çün açıqdır əbdilən Məbud arası,*
*Ki salmaz vəchə vəchullah niqabı.*
*Özüm dərvazeyi baği cinanəm,*
*Nə dərvazə beheşti cavidanəm.*
*Bu vəsfilə ke qərqi imtəhanəm,*
*Ğəriqe iftixarəm, imtinanəm,*
*Çox olduqca yaranın iltihabı.*
*Özüm ətşane vəsli davərəm mən,*
*Nəinki təşnəyəm su istərəm mən,*
*Mənim təşnəmdi aləm, Kovsərəm mən,*
*Mudire səlsəbili ətharəm mən,*
*Mənə şirin şəhadət şəhdi nabi.*

Belə bir eşqin şirinliyini İmam Hüseyn(ə) özü bilirdi. Cəbrayıl mələk olduğundan eşqin şirinliyini hiss etmirdi. İmam Hüseyndə(ə) ağlın və qəlbin qapıları açıq olduğundan Allaha lazım olduğu qədər mərifəti var idi. Həzrətin(ə) məhzərində olanların hamısı öz mərifətləri qədər bu eşqdə, məhəbbətdə idilər. Qardaşları, bacıları, hətta xırda uşaqlar belə bu eşqin şirinliyini dərk etmişdilər. Onların hər biri bu eşqlə, bu mərifətlə Kərbəla meydanında imtahan verdilər və oranı məktəbə çevirdilər.

Kərbəla bir hadisə deyil. Kərbəla təkcə bir inqilabdan ibarət deyil. Kərbəla insaniyyət sərgisi və böyük bir məktəbdir. Bu məktəbin qapısı qiyamətə qədər açıqdır. Qiyamətə qədər bu məktəbdən hər kim nə qədər dərs albsa, o qədər də izzətə, səadətə, əzəmətə, hürriyyətə və insaniyyətə yaxınlaşıb. Hər kəs bu məktəbdən nə qədər uzaqlaşıbsa, bir o qədər də heyvaniyyətə, zəlalətə yaxınlaşıbdır.

Dördüncü mətləb budur ki, əgər insan ağlının və qəlbinin nuraniyyətini əlindən verərsə, hansı yollarla bu çətinlikdən çıxa bilər? Əgər bir insan həvayi-nəfsə aldanıb günah etməklə ağlının və qəlbinin gözlərini kor edibsə, nəyin vasitəsilə bu təhlükədən nicat tapa bilər?

Bu sualın cavabı belədir: Iki amil vardır ki, insanın onların vasitəsilə əlindən verdiyi nuraniyyəti özünə qaytara bilər. Quranın buyurduğuna əsasən insan iki şeyin vasitəsilə bu böhran və çətinlikdən çıxa bilər. Onlardan biri möizə, nəsihət, biri isə bəladır. Əgər insana moizə və nəsihət etsələr, o, bu çətinlikdən nicat tapar. Lakin həvayi-nəfs güclü olarsa, moizə ona təsir etməz. Insanda həvayi-nəfs zəif olarsa, moizə onun qəlbinə öz təsirini göstərər. Hədislərdə vardır ki, moizə və nəsihət insanın qəlbini təmizləyər.

قالَ عَلِيٌّ(ع): اَلْمَواعِظُ صِقالُ النُّفُوس وَ جِلاءُ الْقُلُوب

Həzrət Əli(ə) buyurur: “Moizələr insanın nəfsini təmizləyər və qəlbini cilalayar.”

Quran ayələrində və hədislərdə bildirilir ki, möizənin insan üçün çox böyük əhəmiyyəti vardır. Əlbəttə, moizədə iki mətləb çox mühümdür. Biri budur ki, insan öz daxilindən özünü moizə etməlidir. Insanın daxilində onu moizə edən bir amil vardır. Gərək hər kəs öz moizəsinin

səsini eşidib qulaq assın. Bu barədə İmam Səccad(ə) buyurur:

يابْنَ آدَم اِنَّكَ لا تَزالُ بِخَيرٍ ما كانَ لَكَ واعِظٌ مِن نَفْسِكَ وَ مَا كانَتِ الْمُحاسِبة مِنْ همِّكَ وَ ما كانَ الْخَوف لَكَ شِعارًا وْالْحِذرُ لَك دِثارًا

-Ey Adəm övladı! Özün-özünə vaiz olduğun və öz nəfsini sorğu-sual etdiyin vaxta qədər həmişə xeyir-bərəkət içində, Allah qorxusu sənin altdan geydiyin paltar və qəm-qüssə üstdən geyindiyin geyim olanadək daim xeyir-bərəkət içində olacaqsan.

Bu hədisdən belə nəticəyə gəlmək olur ki, insanın daxilində öz-özünü moizə və nəsihət edən bir amil olmalıdır. Insan hər bir işi ölçüb- biçməlidir. Hər bir şeyin barəsində özü ilə hesab-kitab aparmalıdır. Moizə nəticəsində apardığı bu hesab-kitabdan bir nəticəyə gəlməlidir. Məsələn, insan hansısa bir məsələni həll etmək üçün birinin yanına gedir. Getməzdən əvvəl fikirləşib götür-qoy edir. Əgər müsbət nəticə alacaqsa, nə etməyin lazım olduğunu, həmçinin mənfi nəticə aldıqda nə edəcəyini düşündükdən sonra gedir. Hər bir məsələdə gərək insan içəridən özü üçün qərar qəbul etsin.

İmam Sadiqin(ə) dövründə bir nəfər axirəti, cənnət və cəhənnəmi qəbul etmirdi. Həzrət(ə) ona buyurdu: “Yəqin ki, ölümü qəbul edib,  öz gözlərinlə ölümü müşahidə edirsər?” Həmin şəxs dedi: Əlbəttə, qəbul edirəm, amma ondan sonra nə olacağını qəbul etmirəm. Həzrət(ə) buyurdu: “Sən də dünyadan gedəcəksən, mən də. Sən də bu dünyada yeyirsən, mən də yeyirəm. Sənin də övladların var, mənim də. Lakin mən namazlarımı qılıram, orucumu tuturam, həcc ziyarətinə gedirəm, həmçinin bu dünyanın ləzzətlərindən də istifadə edirəm. Sən haram yollarla qazanıb yeyirsən, mən halal yollarla. Sən haramlardan

ləzzət alırsan, mən halallardan. Əgər sən deyən kimi öləndən sonra torpağa qarışacağıqsa, mən heç nə itirməyəcəyəm? Ən azından səninlə bərabər olacağam. Yox, əgər mən dediyim ki, qiyamət, cənnət və cəhənnəm olarsa, o zaman sən nə qazanmış olacaqsan? Səni etdiyin pis əməllərə görə cəzalandıracaqlar. Allaha qarşı küfr etmək bağışlanmaz günahdır.”

Buna görə də həmişə insanın daxilində onu moizə edən bir amil olmalı və özü ilə hesab-kitab, sorğu-sual aparmalıdır. Içəridə yaranan qorxu insanın əməllərində özünü büruzə verməlidir.

قالَ الصّادِق(ع): مَنْ لَمْ يَكُن لَهُ وَاعِظٌ مِنْ قِلبِهِ... وَزاجِرٌ مِن نَفْسِهِ وَ لَمَ يَكُن لَهُ قرينٌ مرشد اِسْتَمَكَنَ عَدُوَّهُ مِن عُنُقِه

İmam Sadiq(ə) buyurur: “Hər kəsin daxilində onu moizə edən bir amil olmasa, həmçinin nəfsini cilovlamasa, həmin şəxs öz düşmənini boynuna mindirmişdir.”

Moizədə ikinci məsələ budur ki, daxildə moizə edən amilin olması öz yerində, lakin insan yaxşı moizələrin ardınca getməlidir. Yəni kənardan ibrət, nəsihət və moizələri özü üçün əxz etməlidir. Həzrət Peyğəmbər(s) buyurur: “Ən gözəl moizə Allahın kitabıdır. Quran oxumaq insanın ürəyinin pasını aparar və insanı hidayət edər. Allah- təala buyurur:

يا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

-Ey insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət *(başdan-başa öyüd-nəsihət olan bir kitab)*, sinələrdə olan *(xarab əqidələr və rəzil sifətlər)*

üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir.”[1]

قالَ عَلِی(ع): اِنَّ اللهَ لَمْ یَعِظ اَحَدًا بِمِثْلِ هذا القُران

Həzrət Əli(ə) buyurur: “Allah heç kəsə bu Quran kimi bir şeylə öyüd verməyib.”

Çox yaxşı olar ki, insan bacardığı qədər Allahın kitabını çox oxusun. Çünki Quran oxumaq insana nuraniyyət bəxş edər.

Quran İslam Peyğəmbərinə(ə) nazil olmuşdur. Həm bütovlükdə onun qəlbinə nazil oldu, həm də iyirmi üç il müddətində ayə-ayə Cəbrayıl vasitəsilə nazil oldu. Həzrət Peyğəmbər(s) həmin ayələri camaata oxuyurdu. Camaat Peyğəmbərin(s) oxuduğu ayələrə qulaq asıb istifadə edirdilər. Hər kəs Həzrətin(s) dilindən bu ayələri eşitcək, valeh olurdu. Bir sıra insanlar da camaatı Peyğəmbərə(s) yaxın getməyə qoymurdular. Bilirdilər ki, əgər Peyğəmbərin(s) kəlamları və oxuduğu ayələr onların qulaqlarına çatsa, dönüb müsəlman olacaqlar. Lakin camaata qadağan etmələrinə baxmayaraq, gecə özləri gedib gizlicə Həzrətin(s) Quran tilavət etməsinə qulaq asardılar. Çünki Həzrət Peyğəmbər(s) Quranı gözəl, ürəyəyatan səslə və aydın şəkildə tilavət edirdi. Belə gözəl səslə, belə bəlağətli sözlərə qulaq asmamaq mümkün deyildi. Bununla belə, Həzrət Peyğəmbər(s) bəzi səhabələrə buyurardı ki, siz Quran tilavət edin, mən də qulaq asım. Onlar cavabında deyirdilər ki, Ya Rəsulallah, biz Quran oxumağı səndən öyrənmişik. Quranı hamıdan yaxşı sən oxuyub, dərk edirsən. Həzrət(s) buyurardı:

[1] Yunis, 57

“Düzdür ki, mən özüm oxuyuram, qəlbim hiss edir. Lakin mən istəyirəm ki, qulaqlarım da bu kəlamları eşitsin.”

İranda müharibə zamanı hərbçilər Imam Xomeyni ilə görüşə gəlmişdilər. Böyük bir məclis təşkil olunmuşdu. Imam məclisə daxil olanda camaat ayağa qalxıb şüar dedilər. Ağa da onlara əli ilə işarə edərək cavab verdi. Həmin gün Imam Xomeyni proqrama görə danışmamalıydı. Çünki Imam Xomeyni arif bir şəxsiyyət idi. Hər gün danışan insan deyildi. Onun özünəməxsus gündəlik proqramları var idi. Təsadüfən həmin görüş də Imamın söz danışmadığı bir günə düşmüşdü. Hamı onu ziyarət etdi və əyləşdi. Həmin məclisdə müharibədə əlil olmuş cavan bir oğlan əyləşmişdi. Iki gözlərini də döyüşdə itirmişdi. Imamı görə bilmədiyindən ayağa qalxıb iki kəlmə söz dedi: “Ey imam, bu camaat gəlib səni ziyarət etdilər və öz paylarını aparırlar. Bunların hamısı sənin camalını gördülər. Amma mən burdan çıxandan sonra camaat «bu ziyarətdən nə qazandın»,- deyə soruşsalar, mən nə cavab verəcəyəm? Mənim gözlərim görmür ki, sənin camalını görüm. Əgər bu gün danışmasan, mənim bura gəlməyimin faydası nədir?” Hamı sakit dayanıb həmin cavana qulaq asırdı. Imam onun sözlərini eşidib mikrafonu götürdü və bir neçə kəlmə danışdı. Bu cavanın iki kəlmə sözü o əzəmətdə şəxsiyyətin qərarını pozub proqramını dəyişdirdi. Çünki o görmürdü, amma istəmirdi ki, ona çatacaq paydan məhrum olsun. Düzdür, gözləri kor idi və imamı görə bilmirdi, lakin qulaqları eşidirdi. Heç olmasa bir neçə kəlmə də olsun moizə və nəsihət eşitməklə ona düşən payı aparmaq istəyirdi.

Odur ki, insanın bütün bədən üzvlərinin öz payı vardır. Gözlərin, dilin öhdəsinə düşən payların olduğu kimi, qulaqların da moizə eşitməyə ehtiyacı vardır.

Bir çox insanlar Peyğəmbərin(s) və Əhli-beytin(ə) məhzərinə gələrək onlardan moizə etmələrini xahiş etmişlər. Bütün insanlar moizə və nəsihət eşitməlidir. Bütün bədən üzvlərinin haqqı olduğu kimi, qulaqların da moizə və nəsihət eşitməyə haqqı var. Buna görə də hərdən Peyğəmbər(s) səhabələrə Quran oxumağı tapşırardı ki, özü də əyləşib qulaq assın. Həzrət Əli(ə) Abuzərə buyurdu: “Ey Abuzər, mənə moizə və nəsihət et.” Abuzər təəccüblə soruşdu: “Ya Əli, bütün aləm sənin moizə və nəsihətinə möhtacdır, mən sənə necə moizə edə bilərəm?” Imam Əli(ə) Peyğəmbərin(s) camaata verdiyi cavabı buyurdu: “Doğrudur, sənin dediklərini bilirəm, amma qulaqların da ibadəti və zikri vardır. Onlar da gərək moizə eşitsin.”

Beləliklə, insan kor olmuş qəlbini və əldən verdiyi nuraniyyəti özünə qaytarmaq istəyirsə, mütləq moizə və nəsihət olunmalıdır. Həm daxilindən özünü moizə etməli, həm də ətraf mühitdən Quran oxumaqla, gözəl sözlər eşitməklə itirdiyi nuraniyyəti qaytarıb, qəlbin kor olmuş gözünü aça bilər. Insan gərək bu yolda çalışıb bacardığı qədər moizə və nəsihətə qulaq assın.

İnsanın qəlbini ayıldıb nuraniyyətini özünə qaytaran ikinci amil bəladan ibarətdir. Əgər bir insana moizə təsir etmirsə, Allah-təala həmin şəxsə hərdən bir bəla göndərər ki, ayılsın. Bəzən yatmış insanları müqayisə etməklə bu məsələni daha aydın başa düşmək olur. Elə insan var ki, yuxulayarkən bircə dəfə çağırmaqla yuxudan ayılır. Bəzi insanlar da vardır ki, yatdıqları zaman çox çətinliklə onu yuxudan ayıltmaq olur. Həvayi-nəfsi güclü olan insanlar, moizə ilə qəflət yuxusundan ayılmadıqda, Allah-təala bəla

vasitəsilə onları ayıldır. Bəlanın təsiri moizədən güclüdür. Allah-təala Quranda belə buyurur:

وَلَنُذِيقَنَّهُمْ مِنَ الْعَذَابِ الْأَدْنَى دُونَ الْعَذَابِ الْأَكْبَرِ لَعَلَّهُمْ يَرْجِعُونَ

-Biz ən böyük əzabdan (axirət əzabından) əvvəl onlara mütləq dünya əzabından (bəla) göndərəcəyik. Bəlkə tövbə edib düz yola qayıdalar.[1]

Bu ayədən məlum olur ki, bəla insanı ayıldıb, kor olmuş qəlbinin gözünə nuraniyyət verər. Amma bəlanın bir şərti vardır. Bəla o insanı ayıldıb hidayət edər ki, həmin şəxs ayıq olsun. Yəni insanın qəlbi diri olsun, yuxuda da olmuş olarsa, bəla həmin şəxsi ayıldıb hidayət edər. Lakin insanın qəlbi ölü olarsa, ona nə moizə, nə də bəla təsir etməz. Yuxuya getmiş insanı çağırdıqda oyanır. Amma ölünü hər nə qədər çağırsalar da belə, yenə də ayılmaz. Camaat arasında çox insanlar vardır ki, qəlbləri tamamilə ölmüşdür. Həzrət Əli(ə) belə insanlar barədə buyurur: "Diri insanlar arasında ölüdürlər."

Allah-təala "Yasin" surəsinin 70-ci ayəsində buyurur:

لِيُنذِرَ مَن كَانَ حَيًّا وَيَحِقَّ الْقَوْلُ عَلَى الْكَافِرِينَ

-Qəlbləri diri olan kəsləri qorxutsun və *(Allahın)* söz*(ü və cəhənnəm vədi)* kafirlərin barəsində gerçək olsun.

Həzrət Əli(ə) buyurur: "Elə ki, Allahın sənə ardıcıl olaraq bəla gördərdiyini gördükdə bil ki, Allah səni qəflətdən oyatmaq istəyir. Elə ki, Allah-təala nemətlərini ardıcıl olaraq sənə şamil edirsə, bil ki, səni qəflətə salmaq istəyir."

Bəzən insan bunu hiss etmir. Qəlbləri ölü oduğundan elə başa düşür ki, Allah ona hər şey vermişdir. Bu dünyada daha heç bir problemi yoxdur. Daha başa

---

[1] Səcdə,21

düşmürlər ki, Allah onları giriftar edib. Özləri də hər yerdə bu barədə söhbət edərək bildirirlər ki, Allahdan hər nə istəmişiksə, bizə verib. Ondan çox razıyıq. Allah sənə hər şey veribsə, bəs nə üçü namaz qılmırsan və nə üçün Onun buyurduqlarından boyun qaçırırsan? Çünki bu insanlar anlamırlar ki, bütün bu nemətlər həmin şəxsin əleyhinə höccətdir. Qarşıda onu nə gözlədiyini başa düşmür.

İmam Sadiq(ə) buyurur: “Bəla möminin zinəti və ağıllı insanlar üçün kəramətdir. (Yəni ağıllı insanlar başa düşərlər ki, onlara nazil olan bəlalar Allahın lütfü və kəramətidir.)”

Digər bir hədisdə Həzrət(ə) belə buyurur: “Allah hamıdan çox peyğəmbərlərə bəla göndərir. Çünki onları hamıdan çox istəyir. Peyğəmbərlərdən sonra imamlara göndərir. Çünki onları da çox sevir. Daha sonra isə kim Allaha daha yaxındırsa, onlara bir o qədər də çox bəla göndərir.”

Bəlanın insana çox xeyri vardır. Bəla elə bir şeydir ki, əgər moizə insanın qəlbini qəflət yuxusundan oyatmasa, bəla nəticəsində ayıla bilər.

Bu bəhsimizdə beşinci mətləb budur ki, moizə və bəla ilə hidayət olmayan insanlar iki dəstədir. Birinci dəstə insanlar onlardır ki, ən böyük bəla nəticəsində həlak olduğu zaman başa düşüb ayılır. Yəni bəla həmin şəxsi məhv etməyə az qalmış başa düşür. Belə oyanış və başa düşməyin insana heç bir faydası yoxdur. Çünki ayıltmaq üçün gələn bəlaların heç birini başa düşməmişdir və bu bəla artıq onu aparmaq üçün gəlmişdir. Ikinci dəstə insanlar isə hətta ən sonuncu və həlakedici bəlalar nəticəsində belə ayılmırlar. Öləndən sonra gözləri qiyaməti görən zaman hər şey onlara aydın olur.

Tarixdə belə insanların nümunələrinə çox rast gəlmək olar. Ölümü gözləri ilə görüb ayılan insanlardan biri Firon idi. Firon o qədər təkəbbürlü idi ki, axırda özünü Allah hesab edirdi. Onun həvayi-nəfsi çox güclü və qəlbinin gözlərini kor etdiyi üçün moizə və bəla onu ayıltmadı. Quran buyurur ki, Musa Peyğəmbər(ə) onu nə qədər moizə etdisə, onunla elmi söhbətlər apardısa da xeyri olmadı. Həzrət Musaya(ə) verilən on dörd möcüzədən doqquzunu Firon və fironçulara göstərdi. Amma yenə də ona təsir etmədi. Allah-təala ona iqtisadi və ictimai bəlalar nazil etdi ki, bəlkə ayılıb hidayət olsun. Quranın buyurduğuna əsasən ona beş növ ictimai bəla nazil olunmuşdur. Firon bunların heç birindən ayılmadı ki, ayılmadı. Lakin ölümlə üz-üzə gəldikdə, o, Allaha iman gətirdi. Onlar Bəni-Israilin ardınca düşüb qovurdular. Nil çayının kənarına çatdıqda Allahın əmri ilə Musa və onun tərəfdarları suyun üstündən ötüb keçdilər. Firon bu möcüzəni görüb elə başa düşdü ki, bunlar da suyun üzərindən rahatlıqla keçə biləcəklər. Buna görə də onların ardınca özünü suya vurdu. Bütün qoşunu ilə suyun ortasına çatdıqda Allahın əmri ilə boğuldular. Firon boğulduğunu görüb Allaha iman gətirməyə başladı. Allah-təala Quranda onun barəsində belə buyurur:

إِذَا أَدْرَكَهُ الْغَرَقُ قَالَ آمَنتُ أَنَّهُ لا إِلِهَ إِلاَّ الَّذِي آمَنَتْ بِهِ بَنُو إِسْرَائِيلَ وَأَنَاْ مِنَ الْمُسْلِمِينَ

(Firon) boğulub batacağını gördükdə belə dedi: “İsrail övladlarının inandıqlarından başqa tanrı olmadığına iman gətirdim. Mən artıq təslim olanlardanam.”[1]

---

[1] Qaf , 22

Firon bu sözləri ölümlə üz-üzə gəldikdə dedi. Bu qədər moizələr, möcüzələr və bəlalar onu ayılda bilmədi. Amma ölümü gözləri ilə gördükdə, axır saatlarında iman gətirdi. Onun bu iman gətirməyinin də heç bir faydası olmadı. Əgər boğulmazdan öncə və suya girməmişdən qabaq iman gətirsəydi, o zaman faydası olardı. Lakin artıq iş-işdən keçmişdi. Allah-təala Firona belə xitab etdi:

آلآنَ وَقَدْ عَصَيْتَ قَبْلُ وَكُنتَ مِنَ الْمُفْسِدِينَ

*(Ona deyildi)*: «Indimi *(ki, tövbənin vaxtı keçmişdir)*?! Halbuki bundan qabaq itaətsizlik etdin və fəsad törədənlərdən idin».[1]

Belə bir halda tövbənin heç bir xeyri yoxdur. Çünki moizələr, ictimai, sosial və ən güclü bəlalar insanı ayıltmırsa, bəlanın içində həlak olan zaman ayılıb tövbə etməyin heç bir xeyri olmayacaq.

Allah-təala buyurur:

وَلَيْسَتِ التَّوْبَةُ لِلَّذِينَ يَعْمَلُونَ السَّيِّئَاتِ حَتَّى إِذَا حَضَرَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ إِنِّي تُبْتُ الآنَ

Daim günah edib ölümləri çatan zaman *(öləcəyini yəqin edəndə və ya zahiri hissləri Bərzəx aləminin əlamətlərini dərk edəndə)* «mən indi tövbə etdim» deyənlər və həmçinin küfr halında ölənlər üçün tövbə yoxdur *(onların tövbələri qəbul olunmaz)*.

İnsan ölənə qədər tövbə edərsə, Allah tövbəsini qəbul edəcək. Lakin son anlarında öləcəyini və əzrayılı başı üzərində gördükdə artıq gecdir. Əgər əzrayılı görməmişdən bir dəqiqə də olsa öncə tövbə etsə, onun tövbəsinin qəbul olma şansı vardır.

[1] Yunis, 91

Firon suda qərq olandan sonra Allah-təala buyurdu:

فَالْيَوْمَ نُنَجِّيكَ بِبَدَنِكَ لِتَكُونَ لِمَنْ خَلْفَكَ آيَةً وَإِنَّ كَثِيرًا مِّنَ النَّاسِ عَنْ آيَاتِنَا لَغَافِلُونَ

-Beləliklə, bu gün səni cansız bədəninlə birgə qurtarıb dəniz sahilinin uca bir yerinə atacağıq ki, səndən sonra gələnlərə bir nişanə olasan. Doğrudan da insanların çoxu bizim nişanələrimizdən qafildirlər.

Allah-təala bəzən bu kimi insanları ibrət almaq üçün bütün aləmə göstərir. Həcc ziyarətində hər il milyonlarla hacı şeytana daş atır. Bütün hacılar hər dəfə yeddi daş atmalıdır. Bütovlükdə hər hacının öhdəsinə 49 daş atmaq düşür. Hər hacının atdığı 49 daşı hesablasaq, neçə milyon daş edər? Onların hamısının atdığı daş bir tərəfə, bir atılan ayaqqabı bir tərəfə.

Belə insanlar təkcə Firon və onun dövründə olan insanlar deyildilər. Ondan sonra da belə insanlar dünyaya gəlib gedəcək. Allah-təala Fironun bədənini saxladı. Ona görə ki, gələn nəsillər və onun kimi insanlar bunu görüb aqibətlərinin hansi nəticə ilə sona çatdığından ibrət alsınlar.

Fironun bədəninin çürüməməsində bir incəlik də vardır. Bəzi təfsir alimləri  öz kitablarında yazmışlar ki, Allah-təala heç bir yaxşı əməli əvəzsiz qoymaz. Firon son anlarında “La ilahə illəllah” kəlməsini dilinə gətirdiyi üçün Allah onun bu sözünün əvəzinə cəsədini çürüməyə qoymadı. Düzdür ki, Firona son anlarda iman gətirməyin faydası olmadı və düzdür ki, etdiyi tövbə qəbul olmadı, amma o kəlmənin hörmətinə Allah belə cavab verdi və cəsədini çürüməyə qoymadı. Indinin özünə qədər Fironun bədəni mumun içində eksponat kimi saxlanılır.

İkinci qism insanlar da vardır ki, onlar Firon və Firon kimilərdən daha da pisdir. Bu insanlar hətta ölənə qədər haqqı qəbul etmirlər. Can bədəndən çıxandan, qiyaməti gözləri ilə gördükdən sonra qiyamətin olduğunu başa düşürlər. Tarix boyu belə insanlar mövcud olmuşdur. Həmin insanlardan biri Əbu Cəhl idi. O, ölənə qədər Peyğəmbərlə(s) müharibə apardı. Hətta öləndə də belə qəflətdən ayılmadı. Firon özünü Allah elan etmişdi, amma faydası olmasa da belə, ölən zaman Allaha iman gətirdi. Əbu Cəhl isə öləndə bunu anlamadı.

İbn Abbas deyir: “Bədr döyüşü sona yetdi. Həzrət Peyğəmbər(s) gəlib döyüş meydanına baxdı və bir-bir düşmənlərin cənazələrinin yanından keçərkən bir yerdə dayanıb onlara baxdı və belə buyurdu: “Allah sizə pis cəza versin. Siz mənə böhtan atıb deyirdiniz ki, Məhəmməd yalançıdır. Halbuki mən ömrümdə bir kəlmə də olsun yalan danışmamışam. Allah sizə pis cəza versin. Siz mənə böhtan atıb deyirdiniz ki, Məhəmməd xain və xəyanətkardır. Halbuki mən ömrü boyu zərrə qədər xəyanət etməmişəm. Sonra Həzrət Peyğəmbər(s) gəlib Əbu Cəhlin murdar cəsədinin üzərində dayanıb onun adını çəkərək bir kəlmə söz buyurdu: Bu insan Firondan da pisdir. Firon ölümlə üz-üzə gəldikdə Allaha iman gətirdi. Amma bu öləndə də ayılmadı və iman gətirmədi.”

Quran bu növ insanlar barədə buyurur:

لَقَدْ كُنتَ فِي غَفْلَةٍ مِّنْ هَذَا فَكَشَفْنَا عَنكَ غِطَاءكَ فَبَصَرُكَ الْيَوْمَ حَدِيدٌ

(Qiyamət günü ona belə deyəcəklər): “Sən (dünyada) bundan qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən!”

Beləliklə, ölümü görəndə də belə ayılmayan insanların nümunəsi Əbu Cəhl, Əbu Ləhəb və Əbu Süfyan kimilər

öləndən sonra özlərindən ixtiyarsız olaraq ayılan insanlardır. Bu kimi fasiq insanları əzrayıldan başqa heç kəs ayılda bilməyib.

Bəni-Üməyyə Əbu Süfyanın nəslidir. Bəni-Üməyyə Əbu Cəhldən daha da pis idi. Çünki onların həvayi-nəfsləri ağıl və qəlblərinin gözlərini tamamilə kor etmişdi. Həzrət Peyğəmbər(s), Imam Əli(ə), İmam Həsən(ə) və İmam Hüseyn(ə) onlarla söhbət etdi, nəsihət etdi, amma faydası olmadı. Onlar axirətə, ölümdən sonrakı həyata inanmırdılar. Sadəcə olaraq İslam adı altında hakimiyyətə keçmək üçün əllərinə fürsət düşmüşdü. Onlar Peyğəmbərin(s) yerində əyləşmək və Peyğəmbərin(s) xəlifəsi olmaq bəhanəsilə səltənət qurmaq istəyirdilər. Onların səltənət, hakimiyyətdən başqa heç bir niyyətləri yox idi. İmam Hüseyn(ə) bu insanlarla üz-üzə dayanmışdı. Elə güman etməyin ki, təkcə Musa(ə) Fironun qarşısında dayanmışdı. Bəni- Üməyyə Firondan daha da pis idi. Firon son anlarında «Mən müsəlman oldum» dedi. Amma bunlar heç onu da demədilər. Bunların ürəyində Peyğəmbər(s) və Əliyə(ə) qarşı həmişə kin-küdurət var idi. Həmişə Peyğəmbər(s) və Əhli-beyti(ə) ilə düşmənçilik etmişdilər. Hətta qiyamət günü Peyğəmbər(s) cəhənnəmin kənarından keçərkən cəhənnəm əhli odun azaldığını hiss edəcəklər. Bir-birindən bunun səbəbini soruşduqda, xəbər tutacaqlar ki, Peyğəmbər(s) cəhənnəmin ətrafından keçdiyi üçün od zəifləyib. Bu insanlar deyəcəklər ki, biz razıyıq od daha da güclənsin, amma Peyğəmbər(s) buradan keçməsin.

Bu insanları nəylə ayıltmaq olar. İmam Hüseyn(ə) onlara çox moizə etdi, onları çox başa saldı, amma heç bir faydası olmadı ki, olmadı.

*Rəfrəfi eşqi minib, fikrəti agah ilə,*

*Başladı yol şühəda teyy eliyən rah ilə,*
*Rubəru oldu Hüseyn ləşkəri qumrah ilə.*

Hətta aşura günü bir daha onlara nəsihət etdi. Amma onlar əvəzində səs-küy saldılar ki, İmam Hüseynin(ə) səsini heç kəs eşitməsin. İmam Hüseyn(ə) yalnız qanının tökülməyi ilə onları rüsvay edə bilərdi ki, onu da etdi. Əgər Kərbəla məsələsi olmasaydı, İmam Hüseynin(ə) qanı tökülməsəydi, Xanım Zəhranın(s.ə) adı o həzrətin üstündə olmasaydı, başı nizələrdə Quran oxunmasaydı, elə həmin gündən İslamın işi bitmişdi. Indiyə qədər dünyada neçə milyard insan "La ilahə illəllah"- deyirsə, onların hamısı Hüseyn ibn Əlinin(ə) qanına minnətdardır. Bu fasiq, şərəfsiz və alçaq insanlara nə məntiqli sözlər, nə moizələr, nə də möcüzələr təsir etmədi. Kərbəlada Peyğəmbərin(s) səhabələrindən də var idi. Çünki Peyğəmbərin(s) ölümündən hələ 50 il ötməmişdi. Səhabələrin bəzisi sağ idi. İmam Hüseyn(ə) düşmən ordusunun qarşısında dayanıb onlara xitab edərkən həmin səhabələrin adlarını çəkdi. Həzrət(ə) buyurdu: "Peyğəmbər(s) qardaşım və mənim barəmdə buyurmadımı Həsən və Hüseyn cənnət cavanlarının ağasıdır? Mənim dediklərimin həqiqət olduğunu təsdiq edirsinizsə, daha nə sözünüz var? Əgər mənim sözlərimi qəbul etmirsinizsə, sizin içərinizdəki yaşlı insanlardan soruşun. Siz tanıyan insanların içərisindəki Peyğəmbərin(s) səhabələrindən soruşun. Siz onlardan soruşsanız, həqiqəti sizə deyərlər. Cabir ibn Abdulla Ənsaridən soruşun. Əba Səid Əl-Xidridən soruşun. Səhl ibn Sədi Saididən soruşun. Bunlar hələ sağdırlar, gedin mənim barəmdə onlardan soruşun. Zeyd ibn Ərqəmdən soruşun. Ənəs ibn Malikdən soruşun. Bunlar Peyğəmbərin(s) səhabələridir. Onlardan xəbər alsanız, sizə deyərlər ki, mənim və qardaşımın barəsində buyurduğu bu sözləri

Peyğəmbərin(s) özündən eşidiblər. Əgər bu sözü məndən qəbul etsəniz və ya səhabələrdən soruşub həqiqəti öyrənib qəbul etsəniz, bu sizə bəs edər.”

Amma onlar bütün bu sözlərə, dəlil-sübutlara məhəl qoymadılar. İmam Hüseyn(ə) üçün qanının tökülməsindən başqa bir yol qalmamışdı. Əgər onlar özləri üçün hakimiyyətə gəlsəydilər, heç kəsin onlarla işi yox idi. Nə çoxdur dünyada öz dünyaları üçün hakimiyyətə gələnlər. Kiminsə onların hakimiyyəti ilə heç bir işi yoxdur. Amma bunlar Peyğəmbərin(s) adı altında hakimiyyətə gəlib, İslamı tamamilə məhv etmək istəyirlər. İmam Hüseyn(ə) Kərbəlada münkəri münkər, mərufu da məruf kimi bütün aləmə tanıtdırdı. Həzrət(ə) qoymadı ki, münkəri məruf adı ilə tanıtdırsınlar. Yəni bu insanlar istəyirdilər ki, öz pozğun, azğın hərəkətlərini İslam dini altında həyata keçirsinlər. İmam Hüseyn(ə) qanı tökülməsinə bahasına bu işin baş tutmasına imkan vermədi. İmam Hüseynlə(ə) çox söhbətlər etdilər ki, bəlkə Yezidin hakimiyyətə gəlməsinə razı olsun. İmam Hüseyn(ə) heç vaxt bu işə razı olmadı. Bildirdi ki, mənim qanım töküləcək, amma razı olmaram ki, Yezid İslama hakim kəsilsin. Çünki əgər bir fasiq insan İslamın adı altında xilafət qurub hakimlik edərsə, o zaman İslamdan əsər-əlamət qalmaz. Əgər fasiq insan İslamın xəlifəsi olarsa, o zaman Quranın ayələrinə heç kəs inanmaz. Çünki Quranda ola bilməz ki, Allah bir tərəfdən əmr be məruf etməyin, fasiq insanı başa salmağın vacib olduğunu bəyan etsin, bir tərəfdən də fasiq insanın əmr sahibi olmasını bəyan etsin. Buna görə də fasiq, nadan və cahil insan heç vaxt əmr sahibi ola bilməz. Əgər belə olsa, Quranın başqa ayələrinə də heç kəs etibar etməz. Quranın əzəməti də ondadır ki, iki cümlə ola bilməz ki, bir- biri ilə düz gəlməsin. İmam Hüseyn(ə) imkan vermədi ki, Quranın

ayələrinə hörmətsizlik olunsun. Həzrət(ə) qoymadı ki, fasiq bir insan İslam dini altında hökumət qursun. Buna görə də buyurdu:

إِنْ كانَ دِينُ مُحَمَّدٍ لا يَسْتَقِيمُ إِلاّ بِقَتْلِى يَاصُيُوفُ خُذُونِى

-Əgər cəddim Məhəmmədin dini mənim ölməyimlə diri qalacaqsa, elə isə ey qılınclar, doğrayın məni!

*Güldən də gözəl güllərimin rəngi saralsın,*
*Olsun güli İslam şükufan əvəzində.*
*Bülbüllərimin yansa da kaşanəsi yansın,*
*Yatsınlar tikanlıqda gülüstan əvəzində.*
*Əkbər başı münşəqq olur-olsun nə sözüm var,*
*Dilsiz balam əmsin oxu püstan əvəzində.*
*Ey kaş yüz on dörd ola oğlum mənim, Allah,*
*Qurban verəm hər sureyi Quran əvəzində.*

## Nəticə

Qeyd etdiyimiz geniş bir müqəddimənin nəticəsi belədir ki, Kərbəlada iki dəstə üz-üzə dayanmışdı və bir dəstə digər dəstəni öldürmüşdü. Indi aydınlaşdırmaq lazımdır ki, qətlə yetirilən insanlar nəyə görə öldürülmüşdür və həmçinin öldürənlərin bu faciəni törətməkdə məqsədləri nə idi. Ümumiyyətlə, dünyada insan yaranandan belə bir mübarizə vardır. Bir dəstə öldürən, digər dəstə isə ölən. Adəmin oğlanlarından biri digərini öldürməklə insan qətlinin təməlini qoymuşdur. Bir məsələnin üstündə Qabil Habili qətlə yetirmişdi. Insan qətlinin təməlini həmin iki qardaş qoymuşdusa, bu, baş vermiş hadisənin surəti və zahiri tərəfidir. Amma bu məsələnin iç tərəfinə baxsaq, tamam başqa bir məsələdir. Bu təməl o vaxtdan bu günə qədər qoyulub və bundan sonra da qiyamətə qədər davam edəcək. Yəni bu mübarizə

hələ də davam etməkdədir. Bu mübarizələrdə qarşı-qarşıya dayanan dəstələrin biri haqqın, digəri isə haqsızlığın tərəfdarıdır. Bu iki cəbhənin biri Rəhmanın qoşunu, digəri isə şeytanın qoşunudur. Bu qarşılığın bir tərəfi nurdur, digər tərəfi isə zülmət. Bunlardan biri məruf, digəri münkərdir. Bir tərəfdə peyğəmbərlər, digər tərəfdə müşriklər və tağutlar dayanır. Belə bir mübarizənin nə indiki zamanda yeniliyi var, nə də İmam Hüseynin dövründə yeniliyi olmayıb. Bu mübarizənin təməli Habillə Qabilin zamanından qoyulub və hələ də davam etməkdədir. Əgər belə mübarizələrin tarixinə nəzər salsaq, yüzlərlə, minlərlə belə hadisələrin şahidi olarıq. Belə məsələlər həm Quranda bəyan olunmuşdur, həm hədislərdə, həm də tarix kitablarında müşahidə etmək olar. İmam Hüseyn(ə) zamanında da belə bir cərgələr yaranmışdı. Əgər bu cərgənin kökünün haradan bünövrə götürməsi ilə maraqlansaq, uzun və geniş bir söhbət olacaq. Bu mübarizənin toxumu Peyğəmbərin(s) zamanında səpilmişdir. Bu toxumlar yavaş-yavaş cücərib, İmam Hüseynin(ə) zamanında artıq yetişməyə başlamışdı. İmam Əlinin(ə) və İmam Həsənin(ə) zamanında da mövcud idi, amma hələ yetişməmişdi. İmam Hüseynin(ə) zamanında artıq bu mübarizənin toxumları yetişməyə başladı. Beləliklə, bu məsələ iki qoşunun üz-üzə dayanmasına səbəb oldu. Qoşunlardan birinə Bəni-Üməyyənin törəməsi Yezid və bir sıra digər insanlar rəhbərlik edirdilər. Bu insanların arasında zahiri görkəmindən özlərini dindarlara oxşadanlar və dildə bir söz deyib, camaatın başını aldadanlar, görkəmli şəxslər də var idi. Digər dəstəyə isə İmam Hüseyn(ə) rəhbərlik edirdi. Belə bir hadisə məhz Həzrətin(ə) qarşısına çıxdı və İmam Hüseyn(ə) Yezidlə qarşı-qarşıya dayanmalı oldu.

İmam Hüseynin(ə) kəlamları, xütbələri, məktubları və hədəfi bütün tarix kitablarında yazılmışdır. İslam dünyasında firqəsindən asılı olmayaraq bu məsələ qeyd olunmuşdur. Bəzi kitablarda insafsızlıq edib az yazılmış, bəzi kitablarda nisbətən çox, bəzi kitablarda isə mükəmməl şəkildə bütün bu hadisələr nəql olunmuşdur. Burada söhbət bir və ya iki firqədən getmir. Əsas budur ki, İmam Hüseynin(ə) hadisəsinin Həzrət Əlidən(ə) qabaq başlandığını bütün İslam dünyası qələmə almışdır.

Kərbəlada iki dəstə insan üz-üzə dayanmışdı. Hər bir dəstənin başında bir rəhbər var idi. Indi bu iki dəstənin rəhbəri haqqında söhbət açaq. Görək ki, üz-üzə dayanan bu dəstələr iki ərəbin müharibəsidir, yaxud bu hadisədə hansı insanlar və nə üçün qarşı-qarşıya gəlmişdilər? Əgər iki ərəbin bir-biri ilə üz-üzə dayanıb müharibə etməsidirsə, tarixdə nə çox ərəb bir-biri ilə müharibə etmişdir. Bəs nə üçün onların adı tarixlərdə yazılmamış və bu barədə danışılmır? İslamdan əvvəl ərəblərin işi elə qılınc itiləmək, baş kəsmək, qan tökmək, çadır yandırmaq, uşaq oxlamaq və adam öldürüb cinayət törətməkdən ibarət idi. Onlar hətta öz uşaqlarını belə diri-diri basdırırdılar. İslam dini zühur etdikdən sonra onları adamların cərgəsinə çıxartdı. Buna görə də baxaq görək Kərbəlada bir-biri ilə müharibə edən bu iki ərəb kim idi ki, indiyə qədər bu məsələ dillərdən düşmür? Istəsək də, istəməsək də bu məsələ qiyamətə qədər dillər əzbəri olacaq. Qeyd etmək lazımdır ki, bu məsələnin arxasında Allahın da iradəsi vardır ki, gələn bəhslərdə imkan daxilində bu barədə söhbət edərik. Öncə bu iki dəstənin və onların rəhbərlərinin kimliyi ilə tanış olaq.

## İmam Hüseyn(ə) kimdir?

Qurani-Kərim Allah tərəfindən insanlar üçün göndərilmiş müqəddəs bir kitabdır. Firqələrin hamısı Quranda heç bir ayənin yer dəyişikliyinə və hansısa təhrifə yol verilmədiyini qəbul edirlər. Quranın "Həmd" surəsindən "Nas" surəsinə qədər Peyğəmbər(s) zamanında tənzimlənib kitab formasına düşdüyünü və indiyə qədər heç bir dəyişiklik olmadığını yekdilliklə təsdiqləyirlər. Bir sözlə, Peyğəmbərin (s) göstərişi ilə necə yazılmışdısa, indi də həmin üslub və qaydada yazılıb qiraət olunur. Imamlarımız da Quranı olduğu kimi oxuyub təsdiq etmişlər. Əgər küçələrdə, bəzi məscidlərdə və s. yerlərdə insanlar az da olsa Quranın təhrif olunması ilə bağlı bir-birini ittiham edirlərsə, bu da onların nadanlığından irəli gəlir. Belə ittihamlarla Qurana ziyan vurmaqla yanaşı, İslama da ziyan vurmuş olarıq. Ümumiyyətlə, heç bir firqə Quranın təhrif olunmasını qəbul etmir. Ola bilsin ki, bəzi firqələrin kitablarında, hətta bəzi səhabələrin və ya Peyğəmbərin(s) zamanında yaşamış insanların dilində bu barədə hansısa bir hədis nəql olunmuş olsun. Bir sözlə, Quranın təhrif olunması barədə deyilən sözlər boş və əsassız sözlərdir. Quranın sözü və ayələri bütün müsəlmanlar üçün höccət, dəlil və sübutdur. Heç kəs bu ayələri inkar edə bilməz. Indi görək Allahın nazil etdiyi bu kitabda İmam Hüseynin(ə) adı və ona bir işarə varmı? Peyğəmbərin(s) gətirdiyi bu ayələrin içində Hüseyndən(ə) söhbət olunurmu? Bu barədə bir neçə ayəni əziz möminlərin nəzərinə çatdırıram. Həmin ayələrdən biri "Əhzab" surəsinin 33-cü ayəsidir.

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

-Həqiqətən, Allah siz Əhli-beytdən bütün çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər.[1]

Bu mübarək ayədə Əhli-beyt(ə) barədə söhbət olunur. Ayədə qeyd olunan Əhli-beyt(ə) kimlərdir? Bütün firqələr Əhli-beytin(ə) kimlər olduğunu öz kitablarında yazmışlar. Ayişə xanımdan bu barədə belə bir hədis nəql olunmuşdur. Bir gün Peyğəmbər(s) sübh evdən çıxdı. Əynində əba var idi. Bu zaman Hüseyn(ə) də gəldi. Peyğəmbər(s) Hüseyni əynindəki əbanın altına saldı. Sonra qızı Fatimə gəldi. Peyğəmbər(s) onu da əbanın altına daxil etdi. Sonra Həsən gəldi və Peyğəmbər(s) onu da əbanın altına saldı. Sonra Əli gəldi. Peyğəmbər(s) onu da əbanın altına aldıqdan sonra buyurdu:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

-Həqiqətən, Allah siz Əhli-beytdən bütün çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər.

Hətta ikinci xəlifə Ömər ibn Xəttab Əhli-beyt barədə Peyğəmbərdən(s) belə bir hədis nəql edir.

قالَ عُمَر اِبن خَطّاب: سَمِعْتُ رَسُول الله (ص) يَقُول:

اَيُّهَا النّاس اِنّ فَرَطٌ لَكُم وَ اَنَّكُم وارِدُونَ عَلَىَّ الْحَوض وَ اِنِّ سائِلِكُم حِينَ تَرِدُونَ عَلَىَّ عَنِ الثَّقَلَين...

كِتابَ الله وَ اِتْرَتِى اَهْلَ بَيْتِى

فَقُلْتُ: يا رَسُولَ الله مَنْ عِتْرَتُكَ؟

قالَ(ص): اَهلُ بَيْتِى مِنْ وُلْدِ عَلِيٍّ وَ فَاطِمَة وَ تِسعَةٌ مِن صُلْبِ الْحُسَين اَئِمَّة اَبْرار وَ هُمْ عِتْرَتِى مِنْ لَحْمِى وَ دَمِى

[1] Əhzab, 33.

-Bir gün Peyğəmbərdən eşitdim ki, buyurdu: Camaat, mən sizdən ayrılıram, siz Kövsər hovuzunun kənarında mənə qovuşacaqsınız. Mən sizdən iki şey barədə soruşacağam. Biri Allahın kitabı, biri də itrətim və Əhli-beytimdir.

Soruşdum: Ya Rəsulallah, sənin itrətin kimlərdir?

Peyğəmbər(s) buyurdu: "Mənim Əhli-beytim Əli və Fatimədən olan oğlanlar, həmçinin Hüseynin nəslindən olan doqquz oğuldur. Bunlar mənim itrətimdir. Onların qanı qanımdan, əti də ətimdəndir."

Bu hədislərdən İmam Hüseynin(ə) Peyğəmbərin(s) Əhli-beytindən olduğu aydın olur. Qurani-Kərimdə barəsində nazil olmuş İmam Hüseyn(ə) haqda bütün müsəlmanlar qiyamət günü sorğu-sual olunacaq.

İmam Hüseyn(ə) barədə nazil olmuş ayələrdən biri də "Şura" surəsinin 23-cü ayəsidir. Allah-təala bu ayədə buyurur:

قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى

"De: Mən sizdən bunun (peyğəmbərliyimin) müqabilində heç bir şey istəmirəm. Lakin mənə yaxşılıq etmək istəyirsinizsə, onda yaxınlarıma (Əhli-beytimə) məhəbbət bəsləyin."[3]

Bu ayənin təfsirində İbn Abbas Səd ibn Cübeyrdən belə nəql edir. Ayədə zikr olunan «Qurba-Peyğəmbərin yaxınları» Məhəmmədin əhli-beytidir.

Digər bir hədisdə İbn Abbas belə deyir:

لَمّا نَزَلَتْ قُل لَّا أَسْأَلُكُمْ ...

قَالُوا يَا رَسُولَ اللهِ مَنْ قَرابَتُكَ؟ مَنْ هَؤُلاءِ الَّذِينَ وَجَبَتْ عَلَيْنا مَوَدَّتُهُمْ؟

---

[3] Şura, 23.

قَالَ رَسُولُ اللهِ(ص): عَلِيٌ وَ فَاطِمَةُ وَ أَبْنَاهُمَا

-“Şura” surəsinin 23-cü ayəsi nazil olanda müsəlmanlar Həzrət Peyğəmbərin(s) yanına gəlib dedilər: “Ya Rəsulallah, sənin yaxınların kimlərdir ki, Allah-təala onlara məhəbbət bəsləməyi bizlərə vacib etdi? Peyğəmbər(s) buyurdu: “Əli(ə), Fatimə(ə) və onlardan dünyaya gələn iki övlad (Həsən(ə) və Hüseyn(ə).”

Hədislərdə nəql olunmuşdur ki, “Təthir” ayəsi nazil olandan sonra Peyğəmbər(s) hər gün sübh Əhli-beytin(ə) qapısına gəlib onlara salam verərdi. Əbül-Həmra Peyğəmbərin(s) xadimi idi. O deyir: “Həzrət Peyğəmbər(ə) hər gün sübh tezdən məscidə gedərkən gəlib Əli və Fatimənin qapısında dayanıb belə deyirdi: Salam olsun sizə ey Əhli-beyt.”

Bu hədislər və ayələr İmam Hüseynin(ə) Əhli-beyt olmasına sübut və dəlildir. Hüseyn(ə) o kəsdir ki, “Təthir” ayəsi nazil olduqdan sonra Peyğəmbər(s) bir müddət sübh tezdən ona salam verib. Hüseyn(ə) o kəsdir ki, Peyğəmbər(s) onu Nuhun gəmisinə bənzətmişdir.

قَالَ اَبُوذَر وَ هُوَ آخِذٌ بِبابِ الْكَعْبَة: سَمِعْتُ النَّبِي(ص) يَقُول:

...اَلا اِنَّ مَثَلَ اَهْلِ بَيْتِي فِيكُمْ مَثَلُ سَفِينَةِ نُوحٍ مِن قَوْمِهِ مَنْ رَكِبَها نَجَا وَ مَن تَخَلَّفَ عَنْها غَرَق

-Abuzər Kəbə evinin qapısını ziyarət edərkən ora yığışan bir dəstə müsəlmana belə dedi: “Peyğəmbərdən(s) eşitdim ki, belə buyurdu: Həqiqətən mənim Əhli-beytim Nuhun gəmisi kimidir. Hər kim bu gəmiyə minsə, nicat tapar və hər kim bu gəmiyə minməkdən üz çevirsə, həlak olar.”

Digər bir hədisdə Əbu Hüreyrə Peyğəmbərdən(s)belə nəql edir:

قالَ رَسُولُ اللهِ(ص): نَحْنُ سَفِينَة النَّجاة وَمَنْ تَعَلَّقَ بِها نَجا مَن حادَ عَنْها هَلَكَ وَ مَنْ كانَ لَهُ اِلى اللهِ حَاجَةٌ فَلْيَسئَل بِنا اَهْلَ البَيت

Peyğəmbər(s) buyurdu: “Biz nicat gəmisiyik. Hər kəs bu gəmiyə minsə, nicat tapacaq və hər kəs üz çevirsə, həlak olacaq. Hər kəsin Allahdan hacəti varsa, biz Əhli-beyt vasitəsilə diləyə bilər.”

Əhli-beyt(ə) nicat gəmisidir, hər kəs nicat tapmaq istəyirsə, mütləq onların qapısından möhkəm yapışmalıdır.

*Buyurdu xətmül-ənbiya səfinətün-nəcat Hüseyn,*
*Çirağı rahnüma Hüseyn, həqiqətür-rəca Hüseyn.*
*Əlində nur pərçəmi qədəm qoyanda məhşərə,*
*Şəfii əhli həqqidür, həbibi kibriya Hüseyn.*

Hüseyn(ə) elə bir kəsdir ki, Peyğəmbər(s) özü ilə birgə onu nicat gəmisinə bənzədir. Həmçinin Peyğəmbər(s) İmam Hüseyni(ə) Allahın evi Kəbəyə bənzədərək Əliyə(ə) buyurdu:

مَثَلُكُم يا عَلِيّ مَثلُ بَيْتِ اللهِ الْحَرام مَنْ دَخَلَهُ كانَ آمِناً فَمَن اَحَبَّكُم وَ والاكُم كانَ آمِناً مِنْ عَذابِ النَّارِ وَمَن اَبْغَضَكُم اُلْقِيَ فِي النّار

-Ya Əli, sizin məsəliniz Allahın evi olan Kəbənin məsəli kimidir. Kəbə evinə daxil olanlar əmin-amanlıqda olduğu kimi, sizin məhəbbətinizi ürəyində daşıyıb sizin vilayətinizi qəbul edən kəslər də cəhənnəm atəşindən amanda qalacaqlar. Sizinlə düşmənçilik edib sizə qarşı kin-küdurətli olan insanlar isə cəhənnəm odunda yanacaqlar.

Həzrət Peyğəmbər(s) İmam Hüseyni(ə) göyün ulduzlarına bənzədir.

قال رسول الله(ص): يا عَلِيّ ...مَثَلُكُم مَثَلُ النُّجُوم كُلَّما غَابَ نَجْمٌ طَلَعَ نَجْمٌ اِلی يَومِ القِيامَة

İbn Abbas deyir: "Bir gün Həzrət Peyğəmbər(s) Əliyə(ə) buyurdu: Ya Əli, siz göyün ulduzlarına bənzəyirsiniz. Qiyamətə qədər bir ulduz batdıqda, yerinə digər ulduz çıxır."

Bu hədisdə Həzrət Peyğəmbər(s) bəyan edir ki, Əli(ə) dünyadan gedəndən sonra İmam Həsən, ondan sonra İmam Hüseyn, həmçinin o biri imamlar bir-birinin ardınca insanlar üçün nur və hidayət çırağıdırlar. On ikinci imamımız hələ də sağdır, inşallah, zühur edəndən sonra bütün yer üzünü ədalətlə dolduracaq. Allah-təala bizləri o Həzrəti(ə) ziyarət edənlərdən qərar versin, inşallah.

Hədislərdə İmam Hüseynin(ə) məhəbbətinin Allahın məhəbbəti olduğu vurğulanmışdır. Yəni hər kəs Hüseyni(ə) sevirsə, Allahı sevmişdir. Bu barədə Həzrət Əli(ə) Peyğəmbərdən(s) belə bir hədis nəql edir:

قالَ عَلِیٌّ(ع): سَمِعْتُ رَسُول الله(ص) يَقُول: اَنَا سَيِّدُ وُلْدِ آدَم وَ اَنْتَ يَا عَلِيّ وَالأَئِمَةُ مِن بَعْدِكَ سادَةُ اُمَّتِی مَن اَحَبَّنا فَقَد اَحَبَّ الله وَ مَن اَبْغَضَنا فَقَد اَبْغَضَ الله ...وَ مَن اَطاعَنا فَقَد اَطاعَ الله وَ مَن عَصانا فَقَد عَصَی الله

-Allahın Peyğəmbərindən(s) eşitdim ki, belə buyurdu: "Ya Əli, mən Adəm övladlarının seyidi və ağasıyam. Ya Əli, sən və səndən sonra gələn imamlar ümmətimin seyidi və ağasısınız. Bizi sevən Allahı sevmiş və bizə qarşı kin-küdurət saxlayan  Allaha qarşı kin-küdurət saxlamışdır. Bizə itaət edən Allaha itaət etmişdir, bizə qarşı düşmənçilik edən Allaha qarşı düşmənçilik etmişdir."

Hədislərdə vardır ki, İmam Hüseyni(ə) sevmək ibadətdir. Hüseyni(ə) sevmək Peyğəmbəri(s) sevmək deməkdir və Peyğəmbəri(s) sevmək Allahı sevməkdir.

İbn Məsud Həzrət Peyğəmbərdən(s) belə nəql edir:

قالَ رَسُول الله (ص): حُبُّ آلِ مُحَمَّد يَوْماً خَيْرٌ مِن عِبادَةِ سَنَةٍ وَمَن مَاتَ عَلَيْهِ دَخَلَ الْجَنَّة

Hər kəsin ürəyində bircə gün Məhəmməd və ali Məhəmmədin həqiqi məhəbbəti olarsa, bu məhəbbət bir ilin ibadətindən üstündür. Bu məhəbbət insanın qəlbində olarkən dünyadan gedərsə, cənnətə daxil olacaq.

İmam Hüseynin(ə) məhəbbəti imandır. Yəni İmam Hüseyni(ə) sevmək imanın içindədir. Bu barədə də hədislər vardır ki, nəzərinizə çatdırıram.

Əbdürrəhman ibn Əbi Leyla öz atasından, atası da Peyğəmbərdən(s) belə bir hədis nəql edərək deyir:

قالَ رَسُول الله (ص): لا يُؤْمِنُ عَبْدٌ حَتَّى اَكُونَ اَحَبَّ اِلَيْهِ مِنْ نَفْسِهِ وَ اَهلى اَحَبَّ اِليهِ مِن اَهْلِهِ وَ عِتْرَتِى اَحَبَّ اِلَيهِ مِن عِتْرَتِهِ

-Peyğəmbərdən(s) eşitdim ki, Həzrət(s) buyurdu: “Hər kəs məni özündən çox sevmirsə, mömin deyildir. Mənim Əhli-beytimi öz əhli-beytindən çox sevmirsə, həmin şəxs də mömin deyil. Həmçinin mənim itrətimi öz itrətindən çox sevməsə, həmin şəxs də mömin deyildir.”

Qiyamət günü İmam Hüseynin(ə) barəsində insanlardan sorğu-sual olunacaq. Bu barədə Həzrət Peyğəmbər(s) buyurur:

قالَ رَسُول الله (ص): اَوَّلُ ما يُسْئَلُ عَنْهُ الْعَبْد حُبُّنا اَهْلَ الْبيت

-Qiyamət günü bəndələrdən ilk növbədə biz Əhli-beytin məhəbbətindən soruşulacaq.

Əgər bizdən Peyğəmbərin(s) Əhli-beyti(ə) barədə sorğu-sual olunacaqsa, deməli, bu, çox mühüm məsələdir. Belə deyil ki, insana deyələr sən namazını qıl və Əli, Həsən və Hüseynlə nə işin var? Xeyr, bunlar namazın kənarında hesab olunur. Əgər Əhli-beyti(ə) namazdan ayırsalar, o zaman namazın sadəcə forması qalacaq. Namaz bir heykəldir, bu heykəlin ruhu Əhli-beytdir(ə). Əgər Əhli-beyti(ə) və imamları namazdan ayrı hesab etsələr, o zaman insana quru-quru əyilib durmaq qalacaq. Bir hədisdə də İmam Hüseynin(ə) məramına iqtida etməyin vacib olduğu vurğulanır. Təkcə dildə İmam Hüseynin(ə) adını çəkmək və onlara dildə məhəbbət göstərmək kifayət deyil. Gərək insan bu məhəbbəti və itaəti əməlində izhar etsin. Bu o deməkdir ki, insan İmam Hüseynin(ə) getdiyi yolu getməlidir.

قالَ رَسُول الله (ص): مَنْ سَرَّهُ اَنْ يَحْيا حَياتِى و يَمُوتُ مَمَاتِى ويَسكنَ جَنَّةَ عَدْنٍ... فَلِيُوالِ عَلِيًّا مِنْ بَعْدِى وَلِيُوالِ وَلِيَّهُ وَ لِيَقْتَدِ بِالأَئِمَّة مِن بَعْدِى فَإِنَّهُم عِتْرَتِى خُلِقُوا مِن طِينَتِى رُزِقُوا فَهْماً وَ عِلماً وَ وَيْلٌ لِلْمُكَذِّبِين بِفَضْلِهِم مِن اُمَّتِى لا اَنا لَهُمُ الله شَفَاعَتِى

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs mənim kimi yaşamaq, mənim kimi dünyadan getmək və ədn cənnətdə sakin olmaq istəyirsə, məndən sonra Əlini(ə) sevib vilayətini qəbul etməli və məndən sonra gələn imamları sevib vilayətlərini qəbul etməlidir. Həmçinin məndən sonra təyin etdiyim imamlara iqtida etməlidir. Çünki onlar mənim itrətimdir. Onların torpağı mənim torpağımdan yoğrulmuşdur. Onlar mənim fəhm və elmimlə ruzilənmişdir. Onların məhəbbətini təkzib edib

fəzilətlərini danan şəxslərə vay olsun. Allah mənim şəfaətimi onlara yetirməsin.”

Qeyd olunan hədislərdə Əhli-beytdən(ə) söhbət açılır və məlum məsələdir ki, İmam Hüseyn(ə) də Əhli-beytdən(ə) biridir. Hətta İmam Hüseyn(ə) özünü camaata tanıtdıranda da belə Peyğəmbərin(s) hədislərində buyurulduğu kimi tanıtdırırdı.

Vəlid Yezidin məktubunu aldıqdan sonra İmam Hüseyndən(ə) beyət almaq üçün dəvət etdi. İmam Hüseyn(ə) Abdulla ibn Zübeyrlə məsciddə əyləşmişdi. Vəlidin dəvətini Həzrətə(ə) gətirəndən sonra İmam Hüseyn(ə) bir neçə nəfərlə ora getdi. Onlarla söhbət etdikdən sonra İmam Hüseyn(ə) oradan çıxıb birbaşa cəddi Peyğəmbərin(s) hərəminə gəlib babasını ziyarət edərək belə dedi:

اَلسَّلامُ عَلَيْكَ يَا رَسُول الله اَنا الْحُسَيْنُ بْنُ فاطِمَة فَرْخُكَ وَ ابْنُ فَرْخَتِكَ وَ سِبْطتُكَ الَّذِى خَلَّفْتَنِى فِى اُمَّتِك فَاشْهَد يا نَبِىَّ الله اَنَّهُم خَذَلُونِى وَلَم يَحْفَظُونِى وَ هذِهِ شَكْوایَ اِلَيكَ حَتَّى اَلْقاكَ

-Salam olsun sənə ya Rəsulallah. Mən sənin qızın Fatimənin oğluyam. Mən sənin və qızın Fatimənin övladıyam. Mən sənin ümmətinin arasında olan övladınam. Ey Allahın Peyğəmbəri(s), sən özün şahid ol ki, bu camaat məni əzmək istəyir. Bunlar mənim hörmətimi saxlamaq istəmirlər. Sənin görüşünə gələnə qədər onlardan sənə şikayət edirəm.

İmam Hüseyn(ə) hətta babasının məzarının kənarında özünü tanıtdıraraq belə buyurur: “Mən sənin övladın və qızın Fatimənin oğluyam.”

Mədinədən hərəkət edən zaman yenə babasının qəbri kənarına gəlib ziyarət edir və deyir:

اَللّٰهُمَّ اِنَّ هذا قَبرُ نَبِيِّكَ مُحَمَّد(ص) وَ اَنَا ابْنُ بِنْتِ نَبِيِّك وَ قَد حَضَرَنِى مِنَ الأَمر ما قَد عَلِمْتَ

ٰللّٰهُمَّ اِنِّ اُحِبُّ الْمَعرُوف وَ اُنْكِرُ الْمُنْكَر وَ اَسْئَلُكَ يا ذَاالْجَلالِ وَالإِكْرام بِحَقِّ الْقَبْر وَمَن فِيهِ اِلاّ اخْتَرْتَ لِى مَا هُو لَكَ رِضىً وَ لِرَسُولِكَ رِضىً

-İlahi, bu, Sənin Peyğəmbərin Məhəmmədin(s) qəbridir. Və mən də Peyğəmbərinin qızının oğluyam. Mənim qarşıma bir çətinlik çıxıb və Sən də bunu bilirsən. İlahi, mən mərufu sevirəm. (Sənin razı olduğun işləri sevirəm) Və münkərdən acığım gəlir. (Sənin acığın gəldiyin işlərdən mənim də acığım gəlir). Ey cəlal və kərəm sahibi, sənə bu qəbrə və bu qəbrdə yatan insana and verirəm, Sənin və Peyğəmbərinin(s) razı olduğu işləri mənim barəmdə inayət et.

Qeyd etdiyimiz ayələrdən və nəql olunan hədislərdən həmçinin İmam Hüseynin(ə) öz kəlamlarından o Həzrətin(ə) kim olduğu açıq- aydın məlum olur. İmam Hüseyn(ə) həm Allahla, həm Peyğəmbərlə(s), həm də camaatla söhbət edərkən çox şəffaf, aydın və birmənalı şəkildə danışır. Buna görə də Kərbəlada üz-üzə dayanan iki ərəbin biri həmin kəsdir ki, Peyğəmbər(s) onun barəsində buyurur: “Öz övladlarınızı Hüseynin məhəbbəti ilə tərbiyə edin.” Hədisin məzmunu belədir:

قالَ رَسُول الله (ص): اَدِّبُوا اَوْلادَكُم عَلى حُبِّى وَ حُبِّ اَهْلِ بَيْتِى وَالْقُرآن

-Öz övladlarınızı mənim, Əhli-beytimin və Quranın məhəbbəti ilə ədəbləndirib, tərbiyə edin.

Məlum məsələdir ki, İmam Hüseyn(ə) həmin Əhli-beytin üzvüdür. Bu hədisdə həm Əhli-beyti, həm də Quranı tapşırır. Çünki Peyğəmbər(s) heç vaxt Quranı Əhli-beytdən ayrı hesab etməmişdir. Quranla Əhli-beyt(ə)

bir-birinin ayrılmaz hissələridir. Əgər hər kim bunları bir-birindən ayırsa, nə Quranın təklikdə insana faydası olacaq, nə də Əhli-beytin(ə) faydası ona dəyməyəcək. Çünki bunların ikisini Peyğəmbər(s) bir yerdə tapşırmışdı.

Bu müharibə iki ərəbin müharibəsi deyil. Bu müharibə haqq ilə nahaqqın üz-üzə gəlməsidir. Insan İmam Hüseyn(ə) yolunda ehsan verib, məclis təşkil etməlidir. Bu kimi əməllərlə onun məramını yaşatmaq hər bir müsəlmana vacibdir. Hər bir müsəlman bacardığı qədər bu yolda ehsan edərsə, böyük savab əldə etmiş olar. Allah-təala Hüseynin(ə) yolunda xərclənən hər bir vəsaiti insanın əməl dəftərinə yazar və qiyamət günü onun əvəzini verər. Bu əməllərdən həm Allahın, həm də Peyğəmbərin(s) xoşu gəlir.

قالَ رَسُول الله (ص): مَنْ اَرادَ التَّوَسُّل اِلَيَّ وَ اَن تَكُونَ لَهُ عِنْدِى يَدٌ اَشفَعُ لَهُ بِهَا يومَ القِيامَة فَلْيَصِل اَهْلَ بَيْتِى وَ يُدْخِل السُّرُورَ عَلَيْهِم

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs mənə təvəssül etmək istəyirsə və hər kəs Qiyamət günü mənim ona şəfaət etməyim üçün mənə bir minnət qoymaq istəyirsə, gərək Əhli-beytimin yolunda ehsan etsin və onların ürəyini şad etsin.”

قَالَ الصَّادِقُ(ع): لا تَدَعُوا صِلَةَ آلِ مُحَمَّد مِنْ اَمْوالِكُم مَن كانَ غَنِيًّا فَعَلى قَدرِ غِناه وَ مَن كانَ فَقِرًا فَعَلى قَدرِ فَقْرِه فَمَن اَرادَ اَنْ يَقضِى اللهُ لَهُ اَهَمَّ الْحَوائِجِ اِلى الله فَلْيَصِل آلَ مُحَمَّد وَ شِيعَتَهُم بِأَحْوَجَ ما يَكُونُ مِن مَالِه

İmam Sadiq(ə) buyurur: “Öz mal-dövlətinizi Məhəmmədin(s) Əhli-beyti(ə) yolunda ehsan etməyi əsirgəməyin. Əgər bir insanın var- dövləti çoxdursa, həmin mal-dövlətə layiq ehsan etsin. Əgər bir kəs kasıbdırsa, gücü çatdığı qədər ehsan etsin. Hər kəs

Allahdan ən mühüm hacətlərinin həyata keçməsini istəyirsə, o zaman gərək Məhəmmədin(s) Əhli-beytinin(ə) və şiələrinin yolunda özünün çox sevdiyi və ehtiyacı olduğu malından ehsan etsin.

Bu iki hədisdə iki mətləb vardır. Biri budur ki, insan Əhli-beytin(ə) ürəyini şad etməli, ikincisi isə onların yolunda ehsan etməlidir. Bu yolda insan hətta bir kibrit çöpü qədər ehsan etmiş olsa, Allah qiyamət günü mütləq onun əvəzini verəcək. Çünki bütün bu əməllərin hamısı insanın əməl dəftərində qeyd olunur. Insanın hesabı heç vaxt itib-batmır. Hətta bir kibrit çöpü də olmuş olsa belə. Qurani-Kərimdə bu məsələ daha dəqiq bəyan olunur. Buyurulur ki, hər kim zərrə qədər də olmuş olsa yaxşı iş görsə, onun xeyrini görəcəkdir.

Mərhum Ayətulla Mərəşi Nəcəfinin yaxın dostlarından biri barədə nəql edirlər ki, Kərbəla səfərinə yollanır. Aşura gününü Kərbəlada keçirmək istəyir. Həmin şəxs hər il öz evində aşura günü ehsan süfrəsi açıb, məclis təşkil etdiyi üçün bu il də istəmirdi ki, bu məclis tərk olunsun. Özü aşura günü evində olmadığı üçün məclisə lazım olan hər tədarükü görmüşdü. Hətta məclisdə iştirak edənlər üçün tənbəki də alıb qoymuşdu. O zamanlar iki növ tənbəki satılırdı. Birinci və ikinci dərəcəli tənbəki. Həmin şəxs deyir: Mən ehsan üçün birinci dərəcəli yaxşı tütün almışdım. Evdə uşaqlara tapşırdım ki, məclisi həmişəki qayda ilə yola verin və bizim aşbazımız Məşhədi Abbası da çağırarsınız, gəlib yeməyi bişirər. Bütün göstərişləri verib Kərbəla səfərinə yola düşdüm və aşura günü İmam Hüseynin(ə) ziyarətində oldum və əzadarlıq etdik. Gecəni əhya saxladığımız üçün yorulub hərəmin bir tərəfində yatdım. Yuxuda gördüm ki, İmam Hüseyn(ə) ətrafında bir neçə nəfərlə gəldilər. Həzrətin(ə) yanında olanların

əllərində dəftər-qələm var idi. İmam Hüseyn(ə) onlara başa saldıqca, onlar da nəyisə qeyd edirdilər. Həmin günün əməllərini yazdıqdan sonra gördüm ki, Isfahanda bizim evimizə gəldilər və verilən ehsanın hamısını qeyd etdilər. Amma tənbəkini yazanda ikinci dərəcəli tənbəki yazdılar. Sonra Məşhədi Abbasın bu ehsanda bir kibrit çöpü verdiyini qeydə aldılar. Yuxudan ayıldım və mat-məəttəl qaldım. Bu məsələ mənim ürəyimdə müəmma kimi qalmışdı. Evə qayıdıb bir az söhbət edəndən sonra aşura günü məclisin necə keçdiyini soruşdum. Dedilər ki, hər şeyi çox gözəl və öz qaydası ilə yola verdik. Sən aldıqlarının hamısını ehsanda işlətdik və Məşədi Abbas da gəlib yemək bişirdi. Aldığım tənbəkini onlardan soruşanda dedilər: Aldığın tənbəkini sənin gəlməyin üçün saxladıq. Bazarda həmin tənbəkidən axtardıq, tapa bilmədik. Ona görə də ikinci dərəcəli tənbəki alıb aşura günü süfrəyə qoyduq. Məşhədi Abbası da çağırtdırdım və ondan hal-əhval tutdum. Sonra soruşdum ki, Məşhədi Abbas, bu ehsanda özündən hansısa bir şey istifadə etmisənmi? Məşhədi Abbas dedi: Xeyr, mən yalnız yemək bişirib getmişəm. Dedim, bir az fikirləş, bəlkə yadına bir şey düşdü. Ola bilsin öz cibindən bu ehsanda bir şey istifadə etmiş olasan. Bir az fikirləşib dedi: Hə ocağı qalamaq üçün uşaqlara dedim mənə kibrit gətirin. Uşaqlar tapa bilmədilər. Yadıma düşdü ki, mənim cibimdə öz kibritim var. Öz-özümə dedim: Imam ehsanıdır, qoy mən də bir kibrit çöpü yandırmaqla bu ehsanda iştirak edim. Bu söhbəti edəndən sonra öz yuxumu orada danışdım və bildirdim ki, Imam yolunda hər nə ehsan olursa, hamısı yazılıb qeyd olunur.

Bu hadisənin nə dərəcədə dəqiq olub-olmaması ola bilsin ki müəmmalı olsun. Hər halda həyatda baş vermiş

həqiqətə uyğun olan bir hadisədir. Amma insanın bütün əməllərinin yazılması Quranda bəyan olunmuşdur. Quran bundan daha dəqiqini bizə bəyan edərək buyurur:

فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ وَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ

-Hər kim bir zərrə ağırlığında yaxşı iş görmüşsə, onu*(n qarşılığını, yaxud eyni ilə təcəssümünü)* görəcəkdir. Və hər kim bir zərrə ağırlığında pis iş görmüşsə, onu görəcəkdir.[1]

Hər halda hər kim İmam Hüseyn(ə) yolunda bircə manat da olmuş olsa belə ehsan edirsə, o, insanın əməl dəftərində yazılıb qeydə alınır və qiyamət günü həmin şəxsin özünə qaytaracaqlar. Həm Əhli-beyt(ə) yolunda edilən ehsan, həm də onların ürəyini şad etmək axirətdə insanın dərdinə dəyəcək. Hədislərdə vardır ki, hər kim bir möminin qəlbini şad edərsə, o şadlıq qəbirdə onun üçün nura çevrilib, qəbrini işıqlandırar. Bir möminin qəlbini sevindirən şəxs öldükdə onu qəbrə qoyduqdan sonra görəcək ki, qəbrinə bir nur daxil olub oranı işıqlandıracaq. O, nurdan soruşacaq ki, sən kimsən və haradan gəlmisən? Nur deyəcək: Filan vaxt bir möminin qəlbini şad etməyin yadındadırmı? Mən həmin şadlığam ki, Allah-təala məni nur surətində sənin qəbrini işıqlandırmaq üçün bura göndərib.

Alimlərdən biri yazır ki, bir möminin qəlbini sevindirmək qəbirdə insan üçün nura çevriləcəksə, əgər bir şəxs Peyğəmbərin(s) qəlbini şad etsə necə olar? Əgər bir şəxs Həzrət Əlinin(ə) qəlbini şad etsə necə olar? Əgər bir şəxs Həzrət Fatimənin(s.ə) qəlbini şad etsə necə olar? Əlbəttə ki, bir insan Həzrət Zəhranın(s.ə) balasına əza

[1] Zəlzələ, 7-8

saxlayıb, səsini o xanımın səsinə qoşsa, onun ürəyi şad olar.

*Hüseyn məcalisü və qəlbidə yara gedərəm,*
*Mühəqqər aşiqiyəm məhfili yara gedərəm.*
*Xuda nəkərde məni qovson asitanınnan,*
*Üzüm-gözüm qapına örgəşib, hara gedərəm?*

## Bəni-Üməyyə kim idi?

Ötən bəhsdə qeyd olundu ki, Kərbəlada aşura günü iki dəstə üz-üzə dayanmışdı. O dəstələrin birinə İmam Hüseyn(ə) rəhbərlik edirdi. O həzrət barədə Quran ayələrindən və hədislərdən istifadə edərək İmam Hüseynin(ə) kimliyi barədə müəyyən qədər söhbət olundu. Digər dəstənin başçısı isə Müaviyənin oğlu Yezid idi. Ümumiyyətlə, Kərbəla faciəsini törədən iki insan olmuşdur. Onlardan biri Müaviyə, biri də oğlu Yeziddir. Bu hadisədən əvvəl və sonra olan hadisələrin tarixi haqda söhbət etsək, çox uzun çəkər. Hər halda bu cinayətin törənməsində Müaviyə və oğlu Yezid bilavasitə rol oynamışdır. Həmçinin Bəni-Üməyyənin kimliyi barəsində də söhbət açsaq, onların cinayət dolu çox uzun bir tarixi vardır. Qısası budur ki, Bəni-Üməyyə min ay hakimiyyətdə olmuşdur. Onlar haqqında «Min ay qara hökumət» adlı bir kitab da vardır ki, Bəni-Üməyyənin əvvəldən axıra qədər törətdiyi cinayətlər dəlil və sübutlarla həmin kitabda qeyd olunmuşdur. Əsas mövzumuz Kərbəla və aşura barədə olduğu üçün onların tarixinə keçmək istəməzdim. Amma onların kimliyinin İmam Hüseyn(ə) tərəfindən bütün insanlara tanıtdırıldığı barədə bir sıra söhbətləri nəzərinizə çatdırıram. Əlbəttə, Bəni-Üməyyə barədə demək olar ki, bütün tarix kitabları

yazmışlar. Müsəlman və qeyri-müsəlman tarixçilər onların məsələsini hərə bir yönümdən təhlil edib, qələmə almışlar. İbn Əbil-Hədid, Təbəri, Ibn Əsir kimi müsəlman tarixçilər bu haqda öz tarix kitablarında yazmışlar. Hətta Vildorand, Qustablov, Carc Cordaq və s. qeyri-müsəlman tarixçiləri də bu məsələ haqda hərə özünəməxsus şəkildə yazıb təhlil etmişlər.

İmam Hüseyn(ə) məsum bir insandır. Məsum o insana deyilir ki, ömrünün əvvəlindən axırına qədər bir dəfə də olsun günah etməyib. O Həzrət(ə) pak bir insandır. Allah-təala bütün çirkinlikdən onu pak- pakizə etmişdir. Bəziləri elə düşünməsinlər ki, pak zahiri görkəmi təmiz olan insana deyilir. Xeyr, pak o insana deyilir ki, ömrünün əvvəlindən axırına qədər bir kəlmə də olsun yalan danışmayıb və günah etməyib. Buna görə İmam Hüseynin(ə) sözü bizim üçün höccət olduğundan Həzrətin(ə) Bəni-Üməyyə, xüsusilə bu ata-bala -- Müaviyə və oğlu Yezid barədə buyurduğu sözlərin və oxuduğu xütbələrin bəzisini nəzərinizə çatdırıram.

İmam Hüseyn(ə) Mədinədən hərəkət edib Məkkəyə gəldi. Məkkədən çıxıb Kərbəlaya hərəkət etməyə başladı. Bu müddət ərzində müəyyən yerlərdə namaz qılıb, istirahət etmək üçün dayandılar. Bəzən münasib yerlərdə bir neçə cümlə söhbət edirdi. Şərafdan Hürrün qoşunu ilə birgə hərəkət etdikdən sonra Biyzə adlı bir məntəqədə dayandılar. İmam Hüseyn(ə) orada bir xütbə oxudu. Həmin xütbə və söhbətlərin bir hissəsi belədir:

اَيُّها النَّاس! اِنَّ رَسُولَ اللهِ(ص) قالَ: مَن رَأى سُلْطاناً جائِراً مُسْتَحِلّاً لِحَرامِ اللهِ، ناكِثًا عَهْدَه مُخالِفاً لِسُنَّةِ رَسُول الله وَ يَعْمَل فِى عِبادِاللهِ بِالإِثْمِ وَ الْعُدْوان، فَلَمْ يُغَيِّرْ عَلَيْهِ بِفِعْلٍ وَ لا قَولٍ كانَ حَقًّا عَلى اللهِ اَنْ يُدْخِلَهُ مُدْخَلَه.

«Ey insanlar! Həqiqətən Allahın Rəsulu(s) belə buyurmuşdu: "Hər kəs Allahın halalını haram edən, Allahla bağladığı əhdini sındıran və Peyğəmbərin sünnəsinin əksinə əməl edən, insanlarla günah etməklə gününü keçirən, Allahın qoyduğu hüdudlara təcavüz edən bir hakimi (sultanı) gördükdə öz əməli, yaxud sözü ilə ona qarşı çıxmasa, Allah o şəxsi də həmin hakimlə birgə cəhənnəmə atar."

أَلا وَ اِنَّ هولاءِ قَد لَزِمُوا طاعَتَ الشَّيْطان وَتَرَكُوا طاعَةَ الرَّحْمان وَ اَظْهَرُوا الْفَساد وَ عَطَّلُوا الْحُدُود وَ اسْتَأْثَرُوا فِیء اَحَلُّوا حَرامَ الله و حَرَّمُوا حَلالَه وَ اَنَا اَحَقُّ مِمَّنْ غَيْرِ

İmam Hüseyn(ə) sonra belə buyurdu: "Bu tayfa (Bəni-Üməyyə) şeytana itaət edib Allahın itaətindən çıxmışdır. Yer üzündə fəsadı yayırlar. Allahın hüdudlarını sındırdılar. Allahın haramını halal, halalını haram edərək, beytülmalını istədikləri yerə xərcləyiblər. Onların bu əməllərinə qarşı məndən yaxşı kim etiraz etdi?"

Xütbənin ikinci hissəsi belədir:

وَ قَدْ أَتَتْنِی كُتُبُكُم وَقَدِمَتْ عَلَىَّ رُسُلُكُم بِبِيْعَتِكُمْ اِنَّكُم لا تُسَلِّمُونِ وَ لا تَخْذِلُون فَإِ اَتْمَمْتُم عَلَىَّ بِيْعَتِكُمْ تَصِيبُوا رُشْدَكُم

Sizin məktublarınızı aldım və siz tərəfdən mənim yanıma elçi gəlib mənə beyət etməyinizi bildirdi. Əgər siz mənə verdyiniz sözün üstündə dayanıb əhdinizə sadiq qalsanız, səadətə yetişəcəksiniz.

فَأَنَا الْحُسَيْنُ ابنُ عَلِیّ وَابْنُ فَاطِمة بِنتِ رَسُولِ الله نَفْسِی مَع اَنْفُسِكُم وَ أَهْلِی مَعَ اَهْلِكُمْ وَ لَكُمْ فِیَّ اُسْوَةٌ

Bunu da bilin, mən Əlinin və Peyğəmbərin qızı Fatimənin oğluyam. Mən sizin aranızdayam və məni yaxşı

tanıyırsınız. Mənim əhlim də sizin əhlinizlə İslam dünyasında birgə yaşayıb. Mən həmin şəxsəm ki, siz məndən örnək götürməlisiniz. Mən sizin aranızda Allahın höccətiyəm.

وَاِنْ لَمْ تَفْعَلُوا وَ نَقَضْتُمْ عَهْدَكُم وَ خَلَّفْتُمْ بِيْعَتِي مِن اَعنَاقِكُم مَا هِى لَكُم بِنُكْرٍ لَقَد فَعَلْتُمُوها بِأَبِى وَ اَخِى وَ ابْنَ عَمِّى مُسْلِم

فَالْمَغْرُور مَن اِغْتَرَّ بِكُم فَحَضُّكُم أَخْطأْتُم وَنَصِيبُكُم ضَيَّعْتُم وَمَنْ نَكَثَ فَإِنَّمَا يَنْكُثُ عَلى نَفْسِهِ وَسَيُغنِيَ الله عَنْكُم... وَالسَّلامُ عَلَيْكُم وَ رَحْمَةُ اللهِ وَ بَرَكاتُهُ

Əgər öz dediklərinizin üstündə dayanmırsınızsa, bağladığınız əhd- peymanı sındıracaqsınızsa və mənimlə etdiyiniz beyəti boynunuzdan atacaqsınızsa, bunu sizdən gözləmək olar. Siz vəfasızlığa adət etmisiniz. Necə ki, atam Əli, qardaşım Həsən və əmim oğlu Müslümlə belə etdiniz.

Hər kim sizə inansa, aldanmışdır. Mənfəətinizi əldə edəcəyiniz yeri səhv saldınız. Sizin əlinizə gələn gəliri əlinizdən verdiniz. Hər kim öz peymanını sındırsa, özünü sındırmış olur. (Elə bilməyin ki, bu işi görməklə öz zirəkliyinizi göstərirsiniz) Allah məni sizlərdən ğəni edib, Öz köməyini mənə nəsib edəcək. Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuhu.

İmam Hüseyn(ə) orada Bəni-Üməyyənin və onun tərəfdarlarının gözünün içinə baxıb bu sözləri söyləyirdi. Orada böyük sərkərdələr, saray xadimləri, Yezidin adamları, həmçinin dəstəyə rəhbərlik edən Hürrlə üz-üzə dayanıb, Bəni-Üməyyənin kim olduğunu məntiq, dəlil və sübutla tanıtdırdı.

Məkkədən hərəkət etməzdən öncə İmam Hüseyn(ə) orada bir xütbə oxuyaraq, salam-salavatdan sonra buyurdu: "Ürəyim ata babamı görmək üçün darıxır. Yaqub Yusifi

şövq ilə görmək üçün tələsdiyi kimi, mən də ata babamı cənnətdə görmək üçün bu şövqlə tələsirəm. Mənim üçün bir qətlgah müəyyən olunmuşdur. Mən orada olacağam. Elə bil gözlərimlə çöllərin yırtıcılarının məni parcaladığını görürəm. Onlar öz qarınlarını mənim ətimi parçalayıb yeməklə doldurmaq istəyirlər. (Yəni məni öldürməklə dünyalarını qazanmaq və öz istəklərinə çatmaq istəyirlər.)

İmam Hüseyn(ə) Bəni-Üməyyənin yırtıcı, adam öldürən, qan tökən, baş kəsən, uşaq oxlayan, Peyğəmbərin(s) səhabələrini öldürən insanlar olduğunu camaata başa salırdı.

İmam Hüseyn(ə) Mədinə məscidində əyləşmişdi. Bir nəfər Bəni- Üməyyənin tərəfdarlarından bir neçə nəfəri başına yığıb onlar üçün söhbət edirdi. Amma sözlərini İmama(ə) eşitdirmək üçün bir az ucadan danışırdı. Imamla(ə) üz-üzə dayanıb danışmağa cəsarəti çatmadığından onlara danışmaqla sözlərini İmama(ə) eşitdirmək istəyirdi.

Əbu Talibin övladları Peyğəmbərlə(s) qohum idilər. Biz də Peyğəmbərlə(s) qohum olaraq onlarla şərik olduq. Özümüzü həsəb- nəsəblə Peyğəmbərə(s) yaxın etmişdik. Amma biz nübüvvətə xilafət vasitəsilə çatdıq, amma onlar çata bilmədilər. Onlar nə üçün bizə fəxr edirlər? Onların nəyi bizdən artıqdır?

İmam Hüseyn(ə) onun sözlərinə əhəmiyyət vermədi. İmamın(ə) ona məhəl qoymadığını görüb, üç dəfə həmin sözü təkrar etdi.

İmam Hüseyn(ə) üzünü ona tutub buyurdu: “Birinci dəfə səbr etmək mənasında sənə cavab vermədim. Ikinci dəfə səni bağışlamaq üçün cavab vermədim. Amma üçüncü dəfə bu sözü təkrar etdiyin üçün sənə bu cavabı verirəm. Atam Əlidən(ə) belə eşitmişəm ki, buyurdu: Allah

Məhəmmədə vəhy nazil edərkən belə buyurmuşdu: Böyük qiyamət baş verən zaman Allah Bəni-Üməyyəni kiçik qarışqalar boyda məhşər ayağına gətirəcək.[1] Əməllərdən hesab-kitab çəkilib qurtarana qədər camaat onları ayaqlayacaq. Bütün insanlardan hesab-kitab çəkiləndən sonra Bəni-Üməyyəni gətirib onlardan sorğu-sual aparılandan sonra hamısını cəhənnəmə atacaq.

Aşura günü döyüşə başlamazdan öncə İmam Hüseyn(ə) xütbə oxudu. Həmin xütbənin bəzi hissəsini nəzərinizə çatdırıram:

Həzrət(ə) buyurdu: "Camaat, bir az düşünün və baxın ki, mən kiməm. Öz-özünüzlə danışın və nəfsinizi məzəmmət edin. Baxın görün məni öldürmək və mənim hörmətimi sındırmaq sizə belə vacib olubdur? Mən sizin Peyğəmbərinizin(s) qızının oğlu deyiləmmi? Onun vəsisi və əmisi oğlu Əlinin(ə) oğlu deyiləmmi? Mənim atam həmin şəxsdir ki, Allaha, Peyğəmbərə(s) və Allahın nazil etdiyi ayələrə hamıdan əvvəl iman gətirdi. Həmzə seyyidüş-şühəda atamın əmisi oğlu deyildimi? Cəfər Təyyar mənim əmim oğlu deyildimi? Peyğəmbərin (s) qardaşım və mənim barəmdə buyurduğu «Həsən və Hüseyn cənnət cavanlarının ağasıdır» sözlərini eşitməmisiniz? Siz əgər bu sözləri qəbul etsəniz, sizə bəs edər. Yaxşı bilirsiniz ki, mənim bu sözlərim haqdır. Əgər mənim bu sözlərimə inanmırsınızsa, o zaman öz içərinizdə bu sözləri Peyğəmbərin(s) dilindən eşidənlərdən eşidə bilərsiniz. Siz tanıyan insanların içərisində Peyğəmbərin(s) səhabələrindən soruşun. Siz onlardan soruşsanız, həqiqəti sizə deyərlər. Cabir ibn Abdulla Ənsaridən soruşun. Əba

[1] Hədislərdə var ki, təkəbbürlü insanları Allah-təala qiyamət günü zəlil edərək, məhşər ayağına çəkəcək.

Səid Əl-Xidridən soruşun. Səhl ibn Sədi Saididən soruşun. Bunlar hələ sağdırlar, gedin mənim barəmdə onlardan soruşun. Zeyd ibn Ərğəmdən soruşun. Ənəs ibn Malikdən soruşun. Bunlar Peyğəmbərin(s) səhabələridir. Onlardan xəbər alsanız, sizə deyərlər ki, mənim və qardaşım barədə buyurduğu bu sözləri Peyğəmbərin(s) özündən eşidiblər. Əgər bu sözü məndən qəbul etsəniz və ya səhabələrdən soruşub həqiqəti öyrənib qəbul etsəniz, bu, sizə bəs edər.

Sonra İmam Hüseyn(ə) belə buyurdu: "Mənim bu dediklərimə şübhə edirsinizsə, bəs Peyğəmbərin(s) qızının oğlu olduğuma da şəkk edirsiniz?And olsun Allaha, məğribdən məşriqə axtarsanız, məndən savayı Peyğəmbərin(s) qızının oğlu yoxdur. (Peyğəmbərinizin qızının oğlanlarından təkcə mən qalmışam.) Məni nəyə görə öldürürsünüz?"

Sonra Həzrət(ə) onlardan bir neçəsinin adını çəkib buyurdu: "Vay olsun sizə! Bəlkə mən sizlərdən kimisə öldürmüşəm? Bura yığışıb məndən onun intiqamını almaq istəyirsiniz? (Əgər belə bir iş varsa deyin. Bu qədər camaatın bura yığışmaqda məqsədi nədir? Kim sizin beyinlərinizi puç sözlərlə doldurub?)

Ey Şəbəs ibn Rəbi, ey Həccar ibn Əbcər, ey Qeys ibn Əşəs, ey Yezid ibn Haris, mənə məktub yazan siz deyildinizmi? Siz mənə məktub yazmamışdınız ki, meyvələr artıq yetişib, ağaclar göyərib, burda hər şey hazırdır və hazırlanmış qoşun sənin yolunu gözləyir ki, sən bizə rəhbərlik edəsən? Bu məktubları siz yazıb imzalamamışdız?"

Qeys ibn Əşəs dedi: Ya Hüseyn(ə), gəl sən beyət et və bütün işlər tamamlansın. Beyət et ki, sənin ehtiramını sındırmasınlar.

İmam Hüseyn(ə) buyurdu: “And olsun Allaha, yox. Mən onlara heç vaxt zillət əli uzatmayacağam və bunların qabağından qorxaq qullar kimi qaçmaram.”

İmam Hüseyn(ə) bu hərəkəti ilə bütün dünyaya Bəni-Üməyyənin belə alçaq, qan içən, yırtıcı və adam öldürən olduqlarını sübut etdi. İmam Hüseyn(ə) aşura günü iki dəfə mühüm söhbət etmişdi. Ikinci xütbəni oxuyarkən belə buyurdu:

-Ayıb və ar olsun sizə! Siz bu ümmətin tağutlarısınız. Keçmiş partiyaların qalıqlarısınız. Sizin böyükləriniz Peyğəmbərlə(s) müharibə edirdi. Siz Quranı ayaq altına atıb, onun ayələrinə qarşı çıxan insanlarsınız. Siz şeytanın burnundan yerə düşən adamlarsınız. Siz bir dəstə cinayətkarlarsınız. Siz Qurana hörmətsizlik edən və onu təhrif edən insanlarsınız. Peyğəmbərin(s) sünnəsinə əməl etməyən insanlarsınız. Siz peyğəmbərlərin balalarını öldürənlərin nəslisiniz. Siz peyğəmbərlərin vəsilərinin itrətini öldürüb, zülm edən insanlarsınız ki, bura yığışmısınız.

Sonra Həzrət(ə) onlara baxıb buyurdu: “Siz Hərbin[1] balalarısınız. Siz onun oğluna və onun yolunu gedənlərə inananlarsınız. Sizin tarix boyu işiniz cinayətkarlıq olub.”

İmam Hüseyn(ə) Bəni-Üməyyənin sifətlərini, alçaqlıqlarını və cinayətlərini bir-bir sayıb camaata çatdırırdı. Heç kəs elə düşünməsin ki, Kərbəlada iki ərəb bir-biri ilə üzləşib. Bu qarşıdurma şərafətlə zillətin qarşıdurmasıdır. Yəni burada şərafətin, fəzilətin, insaniyyətin zirvəsində dayanan insanla heyvaniyyətin, çirkinliklərin, zülm və cinayətin zirvəsində dayanan insanın

---

[1] Hərb - Əbu Süfyanın atası idi.

qarşı-qarşıya durmasıdır. Burada söhbət iki şəxsdən getmir. Burada mərufla münkər müharibə edir. Zülmlə ədalət qarşı-qarşıya dayanır. Bu müharibə nurla zülmətin müharibəsidir. Buna görə də İmam Hüseyn(ə) bütün dünyaya sübut etdi ki, heç vaxt zillətə boyun əyməyəcək. Bütün dünyaya başa saldı ki, Bəni- Üməyyə heyvaniyyət, cinayət, şərəfsizlik və alçaqlığın simvoludur. Əgər İmam Hüseyn(ə) Yezidə beyət əlini uzatsaydı, indi heç kəs azadlığın nə olduğunu başa düşməyəcəkdi. Əgər İmam Hüseyn(ə) Yezidə beyət etsəydi, indi Qurandan əsər-əlamət qalmayacaqdı. Əgər bu iş olmasaydı, Quranın əmr be məruf və nəhy əz münkər ayəsini oxuduqda deyəcəkdilər ki, əgər belədirsə, bəs Hüseyn(ə) nə üçün bu işi görmədi? Şərab, qumar, naməhrəmlə xəlvət otaqda qalmaq ayəsini oxuduqda deyəcəkdilər ki, hamısı boş şeylərdir. Əgər bunlar qadağan olsaydı, bəs İmam Hüseyn(ə) nə üçün bu şeylərə etiraz etmədi? Yezid bütün bu fəsadları açıq-aşkarda törətmişdi. Əgər İmam Hüseyn(ə) onun qarşısında dayanmasaydı, indi yer üzündə İslamdan və Qurandan əsər- əlamət qalmayacaqdı. İmam Hüseyn(ə) bütün bunları yaxşı dərk edirdi və öz yolundan heç vaxt əl götürmədi. Hətta Yezidə beyət etməyi təklif etdikdə Həzrət(ə) buyurdu: "Mən kimə beyət edim? Əgər ona beyət etsəm, bu o deməkdir ki, İslamı, Quranı və Peyğəmbəri(s) kənara qoyaq. Əgər mən Yezidə beyət etsəm, İslamın Fatihəsi oxunacaq." İmam Hüseyn(ə) son damla qanına qədər onların qarşısında dayandı və qanı tökülmək bahasına olmuş olsa da belə imkan vermədi ki, İslamın, Quranın və Peyğəmbərin(s) adı yer üzündən silinsin. Hətta körpə qızlar, İmamın(ə) bacıları və xanımlar əl-ələ verib bu işdə Həzrətə(ə) yardımçı oldular. Təsəvvür edin ki, bir çadırda və ya bir neçə çadırda beş- on nəfər qadın və uşaq var idi. Çadırlara od vurduqda

nə baş verəcəyini gözünüzün qarşısına gətirin. Yəqin ki, adi şəraitdə hamı çadırdan çıxıb qaçar və bir-birinin hayına qalan olmaz. Amma çadırların od tutub yanmasına baxmayaraq, bu şərafətli xanımların heç biri yerindən belə tərpənmədi. Kişilərin hamısı şəhid olmuşdu. Təkcə İmam Səccad(ə) xəstə olduğundan çadırdan çıxa bilmirdi. Hamı Xanım Zeynəbin(s.ə) nə buyuracağını gözləyirdi. Xanım Zeynəb(s.ə) İmam Səccadın(ə) yanına gəlib dedi: "Yəbnə Rəsulillah, çadırlara od vurublar, sənin bizim barəmizdə əmrin nədir? Əgər məsləhət görürsənsə, mən qızlara deyim, çıxıb çöllərə dağılışsınlar. Əgər çadırda qalıb yanmağımız məsləhətdirsə, biz qalacağıq."

İmam Hüseyn(ə) və onun məhzərində olan şərafətli insanlar istər qadınlar, istərsə də kişilər, heç kəsdən zərrə qədər də olsun qorxmurdular. Çünki onlar bilirdilər ki, hara və nə üçün gəlmişlər. İmam Hüseyn(ə) hər bir hərəkətinin Allah rizası üçün olduğunu çox gözəl bilirdi. İmam Hüseyn(ə) bilirdi ki, Bəni-Üməyyə şərəfsiz və alçaq bir tayfadır. Əgər onların qarşısında dayanmasa, İslamın aqibəti çox acınacaqlı olacaq.

## İmam Hüseynin(ə) nəzərində Müaviyənin kimliyi

Yuxarıda qeyd olundu ki, tarixdə hadisələri araşdırıb çözmək üçün müxtəlif yollar vardır ki, tarixçilər də həmin yollardan istifadə ediblər. Həmin yollardan biri budur ki, insan həmin hadisəni yaradanların özü ilə tanışlıq əldə etmiş olsun. Həmçinin bir müharibə kimi bir hadisənin mahiyyətini bilmək üçün iki dəstənin rəhbəri haqda dəqiq və düzgün məlumat əldə etməklə hadisəni çözə bilər. Başqa bir yol isə onlar arasında aparılan danışıqlar, müzakirələr,

yazılan məktublar və oxunan xütbələr əsasında həmin hadisənin mahiyyəti ilə tanış olmaqdır. Buna görə də Kərbəla hadisəsində İmam Hüseynin(ə) üç kəlamını nəzərinizə çatdırmaq istərdim. Onlardan biri Həzrətin(ə) Həcc səfərində Minada oxuduğu xütbə, ikincisi, Müaviyənin yazdığı məktubun cavabında yazdığı geniş bir məktubun məzmunu və üçüncüsü, Müaviyənin təşkil etdiyi məclisdə İmam Hüseynin(ə) oxuduğu xütbədir. Bu üç kəlamın içərisində Bəni-Üməyyə, xüsusilə, Müaviyə və onun murdar törəməsi olan Yezid barədə Həzrət(ə) öz fikrini çox gözəl, açıq-aydın şəkildə bəyan etmişdir. İmam Hüseynin(ə) bu üç söhbətini əziz möminlərin nəzərinə yetirirəm.

## İmam Hüseynin(ə) Minada oxuduğu xütbə

Müaviyənin ölümündən bir il qabaq, hicrətin 59-cu ilində Həcc mərasimində Peyğəmbərin(s) bəzi səhabələri və müsəlmanlar İmam Hüseynin(ə) dəvəti ilə çadırların birində toplaşdılar. İmamın(ə) çadırına cəm olanların sayı təxminən 700 nəfər idi. Onların 200 nəfəri səhabə, qalanları isə tabeinlər idi. Səhabə o kəslərə deyilir ki, Peyğəmbəri(s) gözləri ilə görüb iman gətirmiş və Həzrətin(s) məhzərində olmuşlar. Tabeinlər isə Peyğəmbəri(s) görmədən Həzrətə(s) iman gətirənlərə deyilir. Onlar toplaşandan sonra Həzrət İmam Hüseyn(ə) onlara geniş bir xütbə oxudu. Həmin xütbənin Bəni-Üməyyə haqda buyurduğu hissəsini nəzərinizə çatdırıram. Həzrət(ə) buyurdu:

اَمَّا بَعْدُ فَإِنَّ هذا الطّاغِية قَد فَعَلَ بِنا وَ بِشِيعَتِنا مَا قَد رَأَيْتُم وَ عَلِمْتُم وَ شَهِدْتُم

Amma bu həddini aşmış Müaviyənin bizə və şiələrimizə qarşı nə işlər gördüyünün şahidi oldunuz. (Müaviyənin bu neçə il hakimiyyətdə olduğu müddətdə nə işlər gördüyünü bilirsiniz.)

إِسْمَعُوا مَقالَتِي وَاكْتُبُوا قَولِي ثُمّ ارجِعُوا اِلى امْصارِكُم وَ قَبائِلِكُم فَمَن آمَنْتُم مِنَ النّاسِ وَ وَثِقْتُم بِهِ فَادْعُوهُم اِلى مَا تَعْلَمُونَ مِن حَقِّنا فَإِنِّي اَتَخَوَّفُ اَنْ يَدْرُسَ هَذا الأَمر وَ يَذْهَبَ الْحَقّ وَ يُغْلَب "وَاللهُ مُتِمُّ نُورِهِ وَ لَو كَرِهَ الكافِرُون"

Bu sözlərimi eşidin və yazıb özünüzdə qeydə alın. Öz şəhərlərinizə və qəbilələrinizin yanına qayıtdıqdan sonra onların imanlılarına və etibar etdiyiniz kəslərə biz Əhli-beyt haqqında və həddini aşmış o şəxsin gördüyü çirkin işlər barədə bildiklərinizi onlara danışın. Mən həqiqətin aradan getməsindən və bu məsələlərin köhnəlməsindən qorxuram. Əgər bu məsələlər köhnələrsə, o zaman camaat daha bu haqda fikirləşməyəcək. Kafirlərin acığı da gəlsə belə, Allah öz nurunu tamamlayacaq.

Sonra İmam Hüseyn(ə) bu söhbətin içində Əhli-beyt və vilayət barədə nazil olan ayələrdən və Peyğəmbərin(s) hədislərindən nəql etməyə başladı. Atası Əlinin(ə), anası Fatimənin(s.ə) və qardaşı Həsənin(ə), həmçinin özü haqqında olan ayə və hədisləri camaata bəyan etdi. Hamı həzrətin bu sözlərini təsdiq etdikdən sonra Həzrət(ə) buyurdu:

...بِأَنَّ مَجارِيَ الأُمُور وَالأَحْكام عَلى اَيْدِى العُلَماء بِالله اَلأُمَناءِ عَلى حَلالِهِ وَ حَرامِه

فَأَنْتُم مَسْلُوبُونَ تِلكَ الْمَنْزَلَة وَ ما سُلِبْتُم ذلِكَ اِلاّ بِتَفَرُّقِكُم عَنِ الْحَقِّ وَ اِخْتِلافِكُم فِي السُّنَّة بَعدَ البَيِّنَةِ الواضِحَة

Bilin ki, İslam və şəriət məsələlərini idarə etmək İslam alimlərinin, ruhanilərin və halalı halal, haramı da haram bilən insanların əlində olmalıdır. Amma bunu sizin əlinizdən çıxardıblar. Bilirsinizmi, nəyə görə bu, sizin əlinizdən çıxıb? Çünki siz özünüz haqdan uzaqlaşmısınız. Peyğəmbərin(s) möhkəm dəlil və sübutlarla sizə çatdırdığı sünnəsi ilə bağlı ixtilaf yaratdınız. (Peyğəmbərdən(s) sonra Həzrətin(s) sözlərində ixtilaf etdiniz. Açıq-aydın olan məsələlərin üstündə ixtilaf salıb, axırda şuralarda müzakirəyə qoydunuz. Buna görə də bütün bunlar sizin əlinizdən çıxdı.)

وَلَو صَبَرْتُم عَلى الأَذى وَ تَحَمَّلْتُم اَلْمَؤُنَةَ فِى ذاتِ الله كانَت اُمُورُ الله عَلَيكُم تَرِدُ وَ عَنْكُم تَصْدُر وَ اِلَيْكُم تَرْجِع وَلكِنَّكُم مَكَّنْتُم الظَلَمَةَ مِنْ مَنْزِلَتِكُم وَ اَسْلَمْتُم اُمُوالله فِى اَيْدِيهِم يَعْمَلُونَ بِالشُّبَهَات وَ يَسِيرُونَ فِى الشَّهَواتِ سَلَّطَهُم عَلى ذلِكَ فِرارُكُم مِنَ الْمَوتِ وَ اِعْجَابُكُمْ بِالْحَياةِ الَّتِى وَ هِىَ مُفارِقَتِكُم فَأَسْلَمْتُم الضُّعَفاءَ فِى اَيْدِيهِم

Əgər siz bu çətinliklərə azacıq səbr edib dözsəydiniz və əgər Allahın yolunda əlinizdən gələni əsirgəməsəydiniz, Allahın hökmü indi sizin öz əlinizdə qalacaqdı. Hökmlər siz tərəfdən sadir olacaqdır və bütün bu işlər sizin ixtiyarınızda olacaqdı. Amma siz zülmkarları gətirib öz yerinizdə əyləşdirdiniz. Allahın əmrini (hökmlərini) onların ixtiyarına verdiniz. Onlar da bu hökmləri öz istəklərinə və şəhvətlərinə uyğun icra etdilər. Siz ölümdən qorxduğunuz üçün onlar bu işə müsəllət ola bildilər. Siz dünyanın bəzək-düzəklərinə aldandınız, halbuki bu dünya heç vaxt sizə qalmayacaq. Zəif və məzlum xalqı zalımların əlinə verdiniz. Onlar da öz istədikləri kimi bu camaatla rəftar etdilər. Onlar camaatı incidib, onlara zülm etdilər.

Həzrət(ə) bu sözləri xitab etdikdən sonra buyurdu:

يَتَقَلَّبُونَ فِى الْمُلْكِ بِآرائِهِم وَ يَسْتَشْعِرُون الْخِزى بأَهْوائِهِم اِقْتِداءً بِالأَشْرار وَ جُرأَةً عَلى الْجَبّار

فِى كُلِّ بَلَدٍ مِنْهُم عَلى مَنْبَرِهِ خَطِيبٌ مُصْقِعٌ فَالأَرْضُ لَهُم شاغِرَةٌ وَ اَيْدِيهِم فِيهَا مَبْسُوطَةٌ وَ النّاسُ خَوَلٌ لا يَدْفَعُون يَدَ لا مس

Onlar hakimiyyətdə öz əqidələri ilə istədikləri kimi hərəkət etdilər. Öz həva-həvəsləri ilə camaatı zillətə doğru çəkdilər. Onlar tarixin şər və fasiq insanlara iqtida edərək bütün bu işləri gördülər. Allahın məhzərində hörmətsizlik edib cəsarət etdilər. Onlar hər bir şəhərdə minbərlərdə istədikləri kimi onların xeyrinə xütbə oxumaq üçün xətib təyin etdilər. İslam ölkələri bunların əlinə keçdi və İslamın barəsində istədiklərini də həyata keçirdilər. Camaatın səsini elə boğmuşdular ki, heç kəs səsini çıxarıb qorxudan bir söz deyə bilmirdi.

مُطاعٍ لا يَعْرِفُ الْمُبْدِئَ الْمُعِيد

Bunlar belə bir hakimdirlər ki, nə Allahı tanıyırlar, nə də qiyamətə inanırlar. Onlar nəyin bahasına olursa-olsun öz dünyalarını abad etmək istəyirlər.

## İmam Hüseynin(ə) Müaviyəyə yazdığı mühüm bir məktub

Mərhum Əllamə Əmini "Əl-Ğədir" kitabında əhli-sünnə mənbələrinin sənədlərinə əsasən belə yazır: "Müaviyə hakimiyyətə keçib camaata müsəllət olduqdan sonra ölümündən yeddi gün qabaq özündən sonra oğlu Yezidi hakimiyyətə təyin etmək üçün əliçatan yerlərdən onun üçün beyət alırdı. Bunun üçün bir sıra hiylələrə əl

atıb, yaxın adamları ilə arası düz gəlməyənləri bağışlayırdı. Uzaq adamları isə pul verməklə özünə cəlb edirdi. Bir sözlə, bu işin xatirinə yolu açıb hamarlayır və bütün maneələri uzaqlaşdırırdı. Həyatının axırıncı 7-8 ilini bu işə sərf etdi. Hicrətin 53-cü ilində Ziyad ibn Əbih dünyasını dəyişdi. Ziyadın atası kim olduğu bəlli deyildi. Buna görə də onu Ziyad ibn Əbih deyə çağırırdılar. Yəni atasının oğlu Ziyad. Böyüyüb boya-başa çatdıqdan sonra Müaviyənin ondan xoşu gəlirdi. Xoşu gəldiyi üçün də deyirdi ki, bu oğlan mənim atam Əbu Süfyanın oğludur. Müaviyə onu özünə qardaş seçmək üçün atasını Əbu Süfyanın adına qoşdular. Müaviyə bu adla onu özünə qardaş təyin etmişdi. Kimisə öldürmək, yaxalamaq və bu kimi işləri görmək lazım gəlirdisə, Müaviyə onu göndərirdi. Hicrətin 53-cü ilində Ziyad dünyasını dəyişən kimi Müaviyə onun adından bir vəsiyyətnamə düzəltdi. Həqiqətdə Ziyad elə bir vəsiyyətnamə yazmamışdı. Ziyad həyatında Yezidin hakimiyyətə gəlməyinin əleyhinə idi. Bilirdi ki, bu iş Yezidə aid olan bir iş deyil. Müaviyə Yezidin hakimiyyətə gəlməsindən ötrü hər bir fırıldağa və bacardığı işə əl atırdı. Buna görə də heç olmasa bir neçə nəfərdə təsir qoyması üçün həmin qondarma vəsiyyətnaməni camaat üçün oxutdurdu. Həmin vəsiyyətnamədə yazılmışdı ki, guya Ziyad özü də Yezidə beyət etmişdi."

İmam Həsən(ə) dünyasını dəyişəndən sonra Mərvan ibn Həkəm Mədinə şəhərinin hakimi idi. O zamanlar Mədinə İslamın mərkəzi hesab olunurdu. Müaviyə ona belə bir məktub yazdı: "Mən artıq qocalmışam. Qorxuram məndən sonra ümmətin arasına ixtilaf düşsün. Buna görə də səninlə məsləhətləşmək istəyirəm ki, məndən sonra bir şəxsi yerimə təyin edim. Elə bir şəxs olsun ki, məndən sonra bu ümmətə başçılıq etsin. Mənim bu fikrimi Mədinə

camaatına çatdır və nəticəsini məktubla yazıb mənə göndər.”

Mərvan Mədinə camaatını yığıb Müaviyənin bu fikrini onlara çatdırdı. Camaat bu sözləri eşidib heç bir söz demədilər. Bəziləri dedilər ki, əgər bir nəfər olsa və sonradan ixtilaf düşməyəcəksə yaxşı fikirdir. Amma camaat bilmirdi ki, Müaviyə kimi öz yerinə təyin etmək istəyir. Mərvan Müaviyəyə hal-qəziyyəni yazıb göndərdi. Müaviyə Mərvana göndərdiyi ikinci məktubda belə yazdı: “Mən öz yerimə oğlum Yezidi təyin etmək istəyirəm. Bu fikri də camaata bildir və onların bu işə nə reaksiya verdiklərini yazıb mənə göndər.”

Mərvan yenə camaatı yığıb Müaviyənin bu fikrini də camaata çatdırdı. Camaatın bəzisi Yezidin hakimiyyətinə öz etirazını bildirdi. Onlardan biri Əbdürrəhman ibn Əbu Bəkr idi. Ayişə xanım da öz etirazını bildirərək, qardaşını bu məsələdə müdafiə etdi. Sonra Abdulla ibn Ömər və Abdulla ibn Zübeyr də bu təskliflə razılaşmadılar. Bu işə möhkəm dəlil və sübutlar əsasında hamıdan çox etiraz edən şəxsən İmam Hüseyn(ə) oldu.

Mərvan Müaviyəyə məsələni və etiraz edənləri olduğu kimi yazıb Müaviyəyə göndərdi. Bildirdi ki, camaatın çoxu sənin bu işinə müsbət fikirdə deyillər. Müaviyə məktubu oxuyandan sonra gördü ki, bu işi Mərvan bacarmayacaq. Həm də hiss etmşdi ki, Mərvanın özünün də bu işə razılığı yoxdur. Buna görə də Səd ibn Ası Mərvanın yerinə təyin etdi. Səd ibn As Mədinəyə gəlib lazımi işləri gördü. Amma Müaviyəyə məktub yazdı ki, deyəsən mən bu işi başa çatdıra bilməyəcəyəm. Mədinədə bu işi görmək mümkün deyil. Sən indidən nə iş görə bilirsənsə gör. Sonradan mənə demə ki, sən bu işi edə bilmədin. Müaviyə məktubu oxuyandan sonra gördü ki, göndərdiyi adamlar Mədinədə

bir iş görə bilməyəcəklər. Buna görə də bu işi görməyi öz öhdəsinə alıb, bir neçə nəfərə şəxsən özü məktub yazmalı oldu. Məktub yazdığı şəxslər Abdulla İbn Abbas, Abdulla ibn Zübeyr, Cəfər və ən mühümü İmam Hüseyn(ə) idi. Müaviyə İmam Hüseynə(ə) belə bir məktub yazdı:

اَمّا بعدُ فَقَد اِنْتَهَت اِلَيَّ مِنْكَ اُمُورٌ لَم اَكُن اَظُنُّكَ بِها رَغْبةً عَنْها وَ اِنَّ اَحَقَّ النّاس بِالْوَفاءِ لِمَن أُعْطِيَ بِيعَتَهُ من كان مثلك فى خطرك و شرفك و منزلتك التى أنزلك الله بها.

فَلا تَنازَع اِلى قَطِيعَتِك , وَاتَّقِ الله,وَلا تَرِدَنَّ هذِهِ الأُمَّة فِى فِتْنَة اُنْظُر لِنَفْسِكَ وَ دِينِكَ وَ اُمَّةِ مُحَمَّد وَلا يَستَخِفَّنَّكَ الذِينَ لا يُوقِنُون

-Sənin barəndə mənə elə məlumatlar çatdı ki, bu işləri sən etdiyini güman etməzdim. Hamının beyət etdiyi bir adama (Yezidə) sənin kimi şərafətli, yüksək məqamlı insan nəyə görə müxalifətçilik edirsən? Gəl sən bu ixtilafa yol vermə. Allahdan qorx və ümmətin arasında fitnə düşməsinə yol vermə. Özünə, dininə və imanına, Məhəmmədin ümmətinə fikir ver. Imanı zəif olan insanlar sənə təsir göstərməsin.

İmam Hüseyn(ə) Müaviyənin bu məktubunu oxuduqdan sonra ona belə cavab yazdı:

اَمّا بَعْدُ, فَقَد جاءَنِى كِتابُكَ تَذْكُر فِيهِ أَنَّهُ اِنْتَهَت اِلَيكَ عَنِّى اُمُورٌ لَم تَكُن تَظُنُّنِّى بِها رَغبَةً بِى عَنْها

-Sənin yazdıqlarını oxudum. Yazdıqlarında belə təsəvvür etmisən ki, məndən gəlib sənə xəbər veriblər və elə bil sən də mənim barəmdə bu xoşagəlməz sözlərə inanmayıbsan.

وَاَمّا ما ذَكَرْتَ اَنَّه رُقِىَ اِليكَ عَنِّى اِنَّما رَقّاهُ الْمَلّاقُونَ الْمَشّائُونَ بِالنَّمِيمَةِ الْمُفَرِّقُونَ بَيْنَ الْجَمع

وَكَذِبَ الغاوُونَ الْمارِقُونَ مَا أَرَدْتُ حَرباً وَلاخِلافاً وَ اِنِّى لَأَخشَى اللهَ فِى تَركِ ذلِكَ مِنْكَ وَ مِن حِزبِكَ القَاسِطِينَ الْمُحِلِّينَ حِزبَ الْظالِمِ وَ اَعْوانِ الشّيطانِ الرَّجِيم

Öz ətrafında əyləşdirdiyin yaltaq, xəbərçi insanlardır ki, xəbərləri sənin xoşun gəldiyi kimi düzəldib sənə çatdırırlar. Öz ətrafına ixtilaf toxumu səpən insanları toplamısan. Sən onların sözü ilə mənimlə danışırsan. Onlar yoldan çıxmış yalançı insanlardır. Mən müharibə və ixtilafı xoşlamıram. Mən Allahdan qorxuram ki, bütün bu ixtilafları sən törətmiş olasan. Siz elə zalım partiyalardansınız ki, bütün bu işlər yalnız sizin əlinizdən gəlir. Sənin partiyanın üzvlərinin hamısı qovulmuş şeytanın adamlarından ibarətdir.

اَلَستَ قَاتِلَ حُجرٍ وَ اَصْحابِه العابِدِينَ الْمُخْبِتِينَ الذِّينَ كانُوا يَسْتفظِعون البِدع؟

...فَقَتَلْتَهُم ظُلْماً وَ عُدوانًا مِن بَعدِ ما اَعْطَيْتَهُمُ الْمَواثِق

Hücr ibn Ədinin[1] və onun abid səhabələrinin qatili sən deyilsənmi? Sən onları zülmlə qətlə yetirdin.

[1] Hücr ibn Ədi Həzrət Əlinin(ə) yaxın adamlarından həm də Peyğəmbərin(s) səhabəsi idi. Həzrət Peyğəmbər(s) onun barəsində və necə öləcəyi haqda xəbər vermişdi. Dəməşq şəhərində Mərəci Əzra deyilən bir yerdə dəfn olunmuşdur. Müaviyənin göstərişi ilə Ziyad ibn Əbih Hücrü tutmaq istəyirdi. Lakin tuta bilmədilər. Hücr bir neçə nəfər yaxın adamlarla Şam

şəhərinə gəlməli olur. Mərəci Əzrada onları yaxalayıb Müaviyəyə xəbər verdilər. Müaviyə bir neçə nəfəri ora göndərib onlarla söhbət etməyi və qəbul etməsələr necə öldürməyi göstəriş verdi. Onlar gəlib Hücrlə belə söhbət etdilər ki, əgər Əlinin(ə) əleyhinə danışsanız sizi azad edəcəyik. Əgər dediklərimizlə razılaşmasanız sizin qəbirlərinizi indidən qazıb hazırlamışıq. Onlar həmin gecə təqribən yeddi qəbir qazdırıb, kəfən gətirmişdilər ki, əgər razılaşmasalar onları öldürüb basdıracaqlar. Səhərə qədər bir qərara gəlmək üçün onlara möhlət verdilər. Hücr ibn Ədiy abid, imanlı Peyğəmbərin səhabəsi və müti bir insan idi. O bilirdi ki, bütün bu söhbətlərin hamısı hədə qorxu gəlmək üçün qurulan puç söhbətlərdir. Məlum məsələdir ki, ölən insan üçün qəbir qazılmalıdır. Indidən qəbir qazımağın mənası nədir? Ölərəmsə Peyğəmbəri(s) ziyarət etmiş olacağam. Əgər sağ qalsam öz işimə davam edəcəyəm. Səhər Müaviyənin adamları gəlib onların fikirlərini öyrəndikdə Hücr dedi: Mən öz sözümdən dönmərəm və heç vaxt Əlinin(ə) əleyhinə bir kəlmə də olsun söz danışmaram. Hücrü öldürmək istəyərkən dedi: Imkan verin iki rəkət namaz qılım. Qazılaşdılar. Hücr namazı tez qılıb qurtardı və dedi: Allahım bilir ki mən həmişə namazı aram-aram qılırdım. Əgər mən namazı həmişəki kimi qılsaydım siz elə bilərdiniz ki, mən ölümdən qorxduğum üçün namazı uzadıram. Buna görə də namazı tez qutardım ki, nə işiniz varsa görün. Amma bir vəsiyyətim var. O da budur ki, əl-ayağıma bağladığınız qandalları açmayın və tökülən qanımı yumayın. Qiyamət günü Müaviyə ilə sirat körpüsündə belə görüşmək istəyirəm. Bu sözlərdən sonra onu öldürüb dəfn etdilər. Ayişə xanım Hücrün Mərəci Əzrada Müaviyənin adamları tərəfindən tutulduğunu eşidib Əbdürrəhmanı onu öldürməmək üçün ora göndərdi. Amma Əbdürrəhman elə bir vaxt ora yetişdi ki, artıq iş işdən keçmişdi. Ayişə Müaviyə ilə görüşəndə ona dedi: Hücrü nəyə görə öldürdün? Mən Peyğəmbərdən(s) eşitmişdim ki, Mərəci Əzrada bir neçə nəfəri qətlə yetirəcəklər. Bu işdən həm Allah qəzəblənəcək, həm də mələklər.
Müaviyə Həcc səfərində xüsusi söhbətlərdə Imam Hüseynə(ə) Hücrü öldürdüyünü və qüsl edib kəfənləyib dəfn etdiyini danışdı. Imam(ə) buyurdu: Qiyamət günü özün üçün düşmən qazanmısan. Əgər mən sənin adamlarından kimisə öldürsəydim, ona nə qüsl verərdim, nə kəfənə bükərdim, nə də dəfn edərdim. (Yəni sizi kafir bilirəm. Siz müsəlman deyilsiniz) Əgər sən onu müsəlman bilirdin və kəfənə bükübdəfn edirdinsə, bəs nə üçün onu öldürdün?
Hətta Müaviyə ömrünün axır saatlarında çox narahat halda bu sözləri deyirdi: Mənimlə Hücrün məhkəməsi çox uzun çəkəcək. Düzdür ki, Müaviyə qiyamətə inanmırdı və axirətə inamı yox idi. Amma azacıq da olmuş olsun bilirdi ki, bütün bunlar hesab-kitabsız ötməyəcək.

اَوَلَستَ بِقاتِلِ عَمرو بنِ الْحَمْقِ الَّذِى أَخْلَقَت وَ اَبْلَت وَجهه العِبادَة؟

Sən Əmr ibn Həmqin qatili deyilsənmi? O elə bir insan idi ki, Allaha ibadət edib səcdə etməkdən alnı pinə bağlamışdı.

اَوَلَسْتَ الْمُدَّعِى زِياداً فِى الْإسلام فَزَعَمْتَ اَنَّهُ اِبْن اَبِى سفْيان

...ثم سَلَّطتَهُ عَلى اَهْلِ الْإسلام يَقْتُلُهُم وَ يُقَطِّعُ أَيْدِيَهم وَ أَرجُلَهُم مِن خلافه وَ يُصَلِّبُهُم عَلى جزوعِ النَّخْل؟

Ziyadı Əbu Süfyanın oğlu kimi tanıtdırıb özünə qardaş hesab edən kəs sən deyilsənmi? Sonra da Ziyadı müsəlmanların canına müsəllət etdin. O da istədiyi adamı ürəyi istədiyi kimi qətlə yetirirdi. Birinin sağ qolunu və sol ayağını, digərinin sol qolunu və sağ ayağını kəsməklə qətlə yetirirdi. Bəzi insanları xurma ağaclarından asıb müxtəlif işgəncələr verməklə öldürürdü.

سُبْحانَ الله يا مُعاوِيَة! لَكَأَنَّكَ لَسْتَ مْن هذِهِ الأُمَّة وَالَيُسوا مِنْكَ أَوَلَسْتَ قَاتِلَ الْخَضْرَمِى الَّذى كَتَبَ اِلَيكَ فِيهِ زِيادُ "اَنَّهُ عَلى دِينِ عَلِيٍّ (كَرَّمَ الله وَجْهِه)" وَ دِينُ عَلِيٍّ هُوَ دِينُ اِبن عَمِّه(ص) الَّذِى اَجْلَسَكَ مَجْلَسَكَ الَّذِى اَنْتَ فِيهِ وَلَولا ذَلِكَ كَانَ اَفْضلُ شَرَفك وَ شَرَفِ آبائِكَ تَجَشُّمُ الرِّحْلَتَيْن رِحْلَةَ الشِّتَاءِ وَ الصَّيْفِ فَوَضَعَهاالله عَنْكُم بِنَا مِنَّةً عَلَيْكُم

Subhanallah, ey Müaviyə, elə bil sən heç bu ümmətdən deyilsən. Həmçinin elə bil bu ümmət də səndən deyil. Xəzrəminin qatili sən deyilsənmi? Ziyad sənə onun haqqında Əlinin(ə) yolunu getdiyi haqda məlumat verən kimi onu da qətlə yetirdin. Əlinin(ə) yolu Peyğəmbərin(s) yoludur. Həmin Peyğəmbər(s) ki, sizi adam edib adamlar arasına çıxartdı. Siz qışlaqdan yaylağa, yaylaqdan qışlağa

köçən ərəblər deyildinizmi. Obaları gəzməklə özünüzə çadır qurub yaşamaq sizin ən böyük şərəfiniz idi. Sən hara, hakimiyyət hara? Peyğəmbərin(s) şərəfindən, İslamın əzəmətindən indi sən hakimiyyət başına keçmisən.

قُلتَ فِيما قلت:

" وَلا تَرِدَنَّ هذِهِ الأُمَّة فِى فِتْنَةٍ "

وَاِنِّى لا اَعْلَمُ لَها فِتْنَةً اَعْظَم مِنْ اِمارِتِكَ عَلَيْهَا

Sən mənə deyirsən ki, ümməti fitnəyə tərəf yönəltmə? Müaviyə, İslamın ən böyük fitnəsi budur ki, sən müsəlmanlara hakim kəsilmisən.

فَاتَّقِ الله يا مُعاوِيَة! وَاعْلَمْ اَنَّ لِلّهِ كِتاباً لا يُغادر صَغِيرَةً وَلا كَبِيرَةً اِلا اَحْصاهَا وَاعْلَم ان الله ليس بناس لك قتلك بالظنة و اَخذَكَ بْالتُّهمة وَاِمارَتَكَ صَبِيًّا يَشْرَبُ الشَّراب وَ يَلْعَبُ بِالْكِلاب مَا اَراكَ اِلاّ قَد أَوْبَقْتَ نَفْسَك وَ اَهْلَكْتَ دِينَكَ وَ اَضَعْتَ الرَّعِيَّة. وَالسَّلام

Müaviyə, Allahdan qorx. Bil ki, Allahın elə bir kitabı var ki, insanların bütün əməllərini kiçikdən böyüyə kimi hamısını orada yazıblar. Bunu da bil ki, sənin qətlə yetirdiyin və zülm etdiyin adamların hamısı orada yazılıb. Şərab içən və itbaz oğlunu öz yerinə təyin etməyini Allah bilir və həmin kitabda yazılıb. Yox, sən özünü həlakətdən başqa bir şeyə atmamısan. Sən həm dini, həm camaatı həlakətə sürükləyib atdın. Vəssalam.

## Müaviyənin məclisində İmam Hüseynin(ə) xütbəsi

Müaviyə oğlu Yezid üçün camaatdan beyət almağa iki dəfə Həcc səfərinə getmişdi. Birinci dəfə məktub yazdığı

şəxslərlə söhbət etmişdi. Ikinci dəfə hicrətin 56-cı ilində Həcc səfərindən Mədinəyə gəlidi. Orada bir dəfə Imamla(ə) xüsusi söhbət etmişdi. Ikinci dəfə istəyirdi ki, bir məclisdə əyləşib oğlu Yezid barədə söhbət etsin. Məclis təşkil edib bir dəstə camaatı ora çağırmışdı. İmam Hüseyni(ə) həmin məclisə dəvət etdi. Həzrət(ə) həmin məclisə daxil olarkən Müaviyə onu hörmətlə qarşılayıb yuxarı başda, sağ tərəfində əyləşdirdi. Bir az hal-əhval tutub uşaqlarının halını soruşdu. İmam Hüseyn(ə) lazımlı cavabı verdi. Sonra Müaviyə ayağa qalxıb oğlu Yezid barədə bir xütbə oxudu və camaatı da ona beyət etməyi təklif etdi. İbn Abbas istədi ayağa qalxıb ona cavab versin. İmam Hüseyn(ə) ona işarə etdi ki, onun cavabını mən verəcəyəm. Çünki onun söhbəti mənimlədir. İmam Hüseyn(ə) orada belə bir xütbə oxudu:

-Müaviyə, Yezid barədə dediyin sözləri başa düşdüm. Onun qabiliyyətindən və siyasətindən danışdın. Bunların hamısı mənə aydın oldu. Müaviyə, elə bil ki, Yezid barədə camaata başqa cür danışırsan. Elə bil bizim tanımadığımız adam barəsində söhbət edirsən. Elə bil özü burada olmayan adam barədə danışırsan. Elə bil onun barəsində xüsusi məlumatı olan insanlar kimi danışırsan. Halbuki Yezid indiyə qədər özünü camaata çox yaxşı tanıtdırıb. Hamı onun siyasi fikrini bilir. Onun ictimai pozğunluqlarını və çirkinliklərini hamı gözəl bilir. Yezid öz əməlləri ilə özünü camaata çox gözəl tanıtdırıb. Ehtiyac yoxdur ki, sən yalandan onu camaata tərifləyəsən. Müaviyə, sən əgər düzgün adamsansa, Yezidi olduğu kimi camaata tanıtdır. Müaviyə, yaxşı olar ki, sən bir az Yezidin itbazlığından və quşbazlığından danışasan. Yezidi quşbazlıq edən zaman, itləri bir-birinin canına salıb əlləşdirən zaman hamı görüb. Müaviyə, bir az da Yezidin əyyaşlığından, gecə-gündüz pozğun qadınlarla zinakarlıq

edərək əylənib çal-oynamaqla məşğul olmasından danış! Əgər beynində başqa fikirlər varsa, onları burax getsin. Müaviyə ömrü boyu qazandığın günahlar sənə azlıq edirmi, indi də özündən sonrakıların günahını boynuna götürüb, Allahın məhzərinə həmin günahlarla getmək istəyirsən? Müaviyə! Səninlə ölüm arasında bir göz qırpımı qədər vaxt qalıb. Bu nə sözlərdir danışırsan? Müaviyə! Bir az da axirətdə dərdinə dəyən sözlərdən danış! O sözlərdən danış ki, camaata xeyri olsun! Özün məgər az zülm etmisən ki, indi də oğlun Yezidi özündən sonraya hazırlaşdırmısan? Elə bilirsən Əmr ibn Ası yanında əyləşdirməklə bir iş görəcəksən? Bir halda ki, onun nə səhabə olduğuna etibar var, nə dininə etibar var, nə də onun bir insanla qohum-əqrəba və ya dost olduğunun etibarı var. Bütün bu işləri onun vasitəsilə görmək istəyirsən? Müaviyə! Günahkar, dünyaya aldanmış dəli oğlunu bizə hakim etmək istəyirsən? Sən bu işlərlə insanları şəkk-şübhəyə salırsan. Istəyirsən ki, ləzzəti səndən sonrakılar aparsın və qiyamətdə əzab-əziyyət sənə qalsın?

Qeyd etdiyimiz çıxışlar, məktublar və xütbələrdə İmam Hüseyn(ə) Yezidə beyət etməməsinin səbəbini açıq şəkildə öz mövqeyini bildirib, Bəni-Üməyyənin kim olduğunu bütün aləmə bəyan etdi. Öz çıxışları və hərəkəti ilə bütün dünyaya Bəni-Üməyyənin -- Müaviyənin və Yezidin iç üzünü açıb göstərdi. Həmçinin bildirdi ki, əgər Yezidə beyət etsəydi, İslamın, Quranın adını belə aradan aparacaqdılar. Bütün bu məsələlər iki insanın savaş məsələsi deyil. Bütün bu hadisələr imanla küfrün məsələsidir. İmam Hüseyn(ə) heç vaxt razı olmadı ki, Bəni-Üməyyənin murdar töröməsi müsəlmanlara hakim

kəsilsin. Qanının tökülməsi bahasına olsa da, bu işin baş tutmasına imkan vermədi.

İmam Hüseynin(ə) Allah yanında xüsusi şərafət və fəziləti vardır. Hətta İmam Hüseyn(ə) kiçik yaşlarında olarkən Peyğəmbər(s) onun sinəsindən, boğazından öpərdi. Hədislərdə vardır ki, oğlu İbrahimi Hüseynə qurban verdi. Hədisin məzmunu belədir: "Həzrət Peyğəmbər(s) bir dizinin üstündə Hüseyni, o biri dizində isə oğlu İbrahimi əyləşdirmişdi. Həzrət Cəbrayıl nazil oldu və dedi: Ya Rəsulallah(s), Allah bu uşaqlardan birini səndən almaq istəyir. Hansını verə bilərsən. Həzrət Peyğəmbər(s) hər iki uşağın üzündən öpüb buyurdu: Oğlum İbrahimi Hüseynə fəda edirəm. Bu hadisədən sonra Hüseyni harda görürdüsə, bağrına basıb sinəsindən, boğazından, bəzən dişlərindən və dodaqlarından öpüb buyurardı: Qurban olum bu uşağa ki, oğlum İbrahimi buna fəda etdim."

Bir gün Peyğəmbər(s) qızı Zəhranın(s.ə) evinin kənarından keçərkən Hüseynin ağlamaq səsini eşitdi. Qızıına buyurdu: Qızım bilmirsənmi ki, Hüseynin ağlamaq səsi məni incidir? Qoyma Hüseyn ağlasın."

Həzrət Peyğəmbər(s) bütün bunları Hüseynin(ə) bu işlərinə görə edirdi. Çünki Peyğəmbər(s) Hüseynin(ə) şəhid olacağını əvvəlcədən bilirdi. Peyğəmbərin(s) Hüseynə(ə) olan inayəti təkcə nəvəsi olduğuna görə deyildi. Həzrət(s) İmam Hüseynə(ə) xüsusi şərafətinə görə hörmət edirdi. İmam Hüseynin(ə) aşurası da belə idi. Həzrət Peyğəmbər(s) sanki İmam Hüseynin(ə) aşura günü Allah yolunda şəhid olacağını gözləri ilə görürdü. Buna görə də buyurdu: "Hər kəs aşura gecəsini əhya saxlasa, elə bil bütün mələklərin ibadəti qədər ibadət etmişdir." Peyğəmbər(s) bu sözləri İmam Hüseyn(ə) şəhid

olmamışdan öncə buyurmuşdu. Kərbəlada İmam Hüseyn(ə) və yar, ənsarı aşura gecəsi Peyğəmbərin(s) buyurduğu ibadəti yerinə yetirirdilər.

قالَ الرِّضا(ع) مَنْ تَرَكَ السَّعْيَ فِى حَوائِجِهِ يومَ عاشُورا قَضَى اللّهُ لَهُ حَوائِجَ الدُّنْيا وَالآخِرَة

وَ مَنْ كَانَ يَومَ عاشُورا يَومَ حُذْنِهِ وَ مُصِيبَتِهِ بكائه يَجْعَلِ اللّهُ تَعالى يَوْمَ القِيامَة يَومَ فَرَحِهِ وَ سُرُورِهِ وَقَرَّت بِنا فِى الجنان عِينَهُ

Imam Rza(ə) buyurur: "Hər kim aşura günü öz işini və sənətini tətil edib (İmam Hüseynə əzadarlıq edərsə) Allah-təala həmin şəxsin dünya və axirət hacətlərini rəva edər. Hər kim aşura gününü özünə qəm və müsibət günü qərar verərsə, Allah-təala qiyamət gününü həmin şəxsə sevinc və fərəh günü qərar verər. Həmin şəxslərin gözlərini cənnətdə bizi görməklə aydın edər."

قالَ الصّادِقُ(ع): ما مِن عِينٍ بَكَت لَنا اِلاّ نُعِّمَت بِالنَّظَرِ اِلى الْكَوْثَر وَسُقِيَت مِنْهُ

İmam Sadiq(ə) buyurur: "Hər kəs bizim üçün ağlasa, Allah ona Kövsər suyunu göstərib, o su ilə həmin şəxsi sirab edəcək."

İmam Hüseynin(ə) Allah yanında çox böyük əzəməti var. Hər kəs o həzrətə ağlasa, çox böyük fəzilətə nail olar. Belə deyil ki, bu ağlamalar bir ərəb üçün ağlamaqdır. Bütün bunlar qiyamət günü hesab olunacaq.

*Etibar eyləmə az ömrə əcəl verməz aman,*
*Gecə- gündüz dolanır sürətilən çərxi zəman,*
*Körpüdür cənnətə ya duzəxə bu mülki cahan*
*Başuva onda ki, qəhrən ləhədin daşı dəyər,*
*Dərdüvə qabridə vallahi bu göz yaşı dəyər.*

İmam Hüseyn(ə) üçün ağlayanlar belə deyil ki, boş-boşuna ağlayırlar. Camaatın atası dünyasını dəyişərkən qırx gün qara geyməyə xəcalət çəkir. Amma İmam Hüseynə(ə) qara geyinib əza saxlamağı özünə fəxr hesab edir. Çünki bu, Peyğəmbərin(s) tapşırığıdır. Çünki bilir ki, yediyi çörək İmam Hüseynin(ə) bərəkətindəndir. Çünki İmam Hüseyn(ə) sayəsində namaz qılıb Quran oxuyur. Əgər İmam Hüseynin(ə) bu hərəkəti olmasaydı, Bəni-Üməyyə namazın, orucun, Quranın qovluğunu bağlamışdı. Müaviyə bütün işləri görmüşdü və oğlu Yezid üçün bir şey saxlamamışdı. Yezid sadəcə atasının gördüklərinə bircə düyün vurmalı idi. Amma İmam Hüseyn(ə) bu işin baş tutmasına imkan vermədi. Allah-təala öz dinini qiyamətə qədər saxlayacağına vədə vermişdi. İmam Hüseynin(ə) əli ilə dini qoruyub saxladı. Bundan sonra da din qiyamətə qədər yaşayacaq.

## Zülm və azğınlığa qarşı mübarizənin zəruriliyi

İmam Hüseynin(ə) aşura məktəbində bütün insanlara öyrətdiyi ən əsas və mühüm dərslərdən biri də bu idi ki, tarixdə Hüseyn kimi insanlar Müaviyə və Yezid kimi insanlarla həmişə mübarizə etməlidir. İmam Hüseyn(ə) bu hərəkəti ilə bütün aləmə sübut etdi ki, belə cinayətkarlara qarşı insan öz etirazını bildirməli və bu yolda sabitqədəm olmalıdır. İmam Hüseynə(ə) ağlayıb əzadarlığını saxlamaqla müxalifətçilik edən insanlara bu iş siyasi və tarixi cəhətdən sərf etmir. Fikirləşirlər ki, onların sevdiyi insanlar Kərbəlada İmam Hüseyni(ə) öldürüb qarət etdikləri üçün Hüseynin(ə) adının çəkilməsindən narahat olurlar. Onlar istəmirlər ki, bu hadisə barədə söhbət

olunsun. Buna görə də İmam Hüseynə(ə) məclis qurub ağlamağı şirk ünvanı ilə camaat arasında yaymışlar. İmam Hüseynə(ə) ağlamaq şirk deyil. Ağlamaq o deməkdir ki, Bəni-Üməyyənin cinayətkar, yırtıcı olduğu insanların yadına salınsın. Bütün bu cinayətlərin üstünə pərdə çəkmək üçün hər bir yolla İmam Hüseyn(ə) məclislərinin və əzadarlıqlarının qarşısını almağa çalışırlar. O cümlədən Hüseynə(ə) ağlamağı şirk ünvanıyla camaatın beyninə yeritmək istəyirlər. İmam Hüseynin(ə) qətli möminlərin qəlblərini yandırıb alovlandırır. Bu hərarət qiyamətə qədər qəlblərdən soyumayacaq. Bu sözlər İslam Peyğəmbərinin(s) mübarək dilindən bəyan olunmuşdur. Həzrət Peyğəmbər(s) bu barədə buyurur: "Həqiqətən, möminlərin qəlbindən Hüseynin(ə) öldürülməsi ilə elə bir atəş şölələnmişdir ki, heç vaxt bu atəş onların qəlbində sönməyəcək."

Buna görə də buyururlar ki, ağlamaqla həmin hadisəni diri saxlamalı, həm də bu hadisədə hansı tərəfdən olduğunuza münasibət bildirin. Insan ağlamaqla bu hadisəyə öz münasibətini bildirir. Əgər bir insan ağlayıb Hüseyni(ə) çağırırsa, bu o demək deyil ki, Hüseyni(ə) Allahın yerinə çağırır. Kim deyir ki, Hüseyni(ə) çağırmaq şirkdir? Axı Hüseyni(ə) səsləmək və onu çağırmaq necə şirk ola bilər? Insan evdə atasını çağırırsa, bu o deməkdir ki, Allaha şərik qoşurmu? Əgər bir insan evdə qardaşını, bacısını, anasını və yaxud qonşusunu, məktəbdə müəllimini səsləyib çağırırsa, bu o demək deyil ki, Allaha şərik qərar verir. Insan atasını ata kimi, qardaşını qardaş kimi çağırır. Əgər insan bacını həyat yoldaşı kimi çağırarsa, yaxud yoldaşı ananın yerinə çağırarsa, haramdır. Amma hərəni öz yerində və öz ünvanıyla çağırmaq insanın həyatının mənasıdır. Həmçinin də Allah

Allah kimi, Peyğəmbər də Peyğəmbər ünvanı ilə çağırılmalıdır. Əgər biz İmam Hüseyni(ə) səsləyib çağırırıqsa, bu o demək deyil ki, onu Allahın əvəzinə çağırırıq. Əgər bir insan əzadarlıq edib, Hüseynə(ə) ağlayaraq onu çağırırsa, bu o deməkdir ki, öz mövqeyinin İmam Hüseynlə(ə) olduğunu bildirir. Insan ağlamaqla bu hadisədə törənən cinayətlərə qarşı etiraz edir və məzlumcasına qətlə yetirilən İmam Hüseynin(ə) şərafət və fəzilətini müdafiə etmək üçün öz mövqeyini bildirir. Ağlamağın mənası budur və bu ağlamaq insanı həmişə diri saxlayır. Belə ağlamaq Hüseynin(ə) qanını və fəzilətlərini insanın hüceyrələrinə hopdurub, onu Hüseynçi saxlayır. Belə bir insan heç vaxt zülm və zillət altına getməz. Hüseyni(ə) tanıyıb özünə örnək, nümunə kimi rəhbər qərar verən şəxs heç bir vaxt təcavüzə məruz qalmaz və haqqını əlindən verməz. İmam Hüseynə(ə) qurulan əzadarlıqlar hansı insanın kim tərəfdən olmasının əlamətidir. Yəni Hüseynə(ə) əzadarlıq saxlayıb, ağlayan kəslər İmam Hüseyn(ə) tərəfdarları, bu işə müxalifətçilik edənlər isə Bəni-Üməyyə, Müaviyə və Yezid tərəfdarlarıdır.

İmam Hüseynin(ə) yaşadığı dövrdə cəmiyyət xəstəliyə düçar olmuşdu. Belə bir xəstəliyə düçar olmuşdu ki, moizə, nəsihət və bəla ilə sağalmadı. Bəzən insan xəstələnərkən müəyyən müalicə ilə onu sağaltmaq olur. Bəzi xəstələr 6 ay və ya bir il müalicə olunduqdan sonra sağalır. Amma bəzən elə xəstəliklər olur ki, həkimlər onun sağalmasına heç bir əlac edə bilmirlər. İmam Hüseynin(ə) dövründə olan cəmiyyət də elə bir xəstəliyə düşmüşdü ki, Quran oxumaqla, namaz qılmaqla, "vələzzalin" kəlməsini uzadıb gözəl tilavət etməklə sağalan xəstəlik deyildi. Bu elə bir xəstəlik idi ki, moizə və minbər onun dərdinə əlac etmirdi. İmam Hüseyn(ə) bu cəmiyyəti düçar olduğu

xəstəlikdən qurtarmaq istəyirdi. Peyğəmbərin(s) vəfatından əlli il keçmiş bir İslam ölkə və cəmiyyətində hədəf yaddan çıxmış, dini dəyərlər xasiyyətini itirmiş, zülm, cinayət baş alıb getmiş və insanların hüquqları pozulmuşdu.

Həzrət Əli(ə) belə cəmiyyət haqqında buyurur:

اِلى الله أَشْكُو مِن مَعْشَر يَعِيشُونَ جُهّالاً وَ يمُوتُون ضُلّالاً لَيْسَ فِيهِم سِلْعَةٌ أَبْوَر مِنَ الْكِتاب اِذا تُلِىَ حَقَّ تِلاوَتِهِ وَلا سِلْعَةٌ اَنْفَقُ بَيْعاً وَلا اَغْلى ثَمَناً مِن الْكِتاب اِذا حُرِّف عَن مَواضِعه وَلا عِنْدَهُم أَنْكَرُ مِنَ الْمَعْرُوف وَ لا اَعْرَفُ مِنَ الْمُنْكَر

-Cəhalət və nadanlıqla yaşayan, azğınlıqla ölən dəstədən Allaha şikayət *(öz dərdlərimi izhar)* edirəm. Doğru oxuduqda və onda heç dəyişiklik etmədikdə onlar üçün Allahın kitabından daha kasad və dəyərsiz mal yoxdur. Təhrif və dəyişiklik etdikdə *(öz batil qərəzlərinə uyğun təvil etdikdə)* ondan qiymətli və geniş yayılmış başqa bir mal olmaz. Onlar üçün yaxşı işlərdən pis və pis əməllərdən yaxşı olan iş yoxdur. *(Çünki onların qərəzli məqsədləri dində qadağan edilmiş şeylərlə bağlıdır.)*

وَما كُلُّ ذِى قَلْبٍ بِلَبِيب وَلا كُلُّ ذِى سَمْعٍ بِسَمِيع وَلا كُلُّ ذِى ناظِرٍ بِبَصِير. فَياعَجَبًا وَمالِى لا أَعْجَب مِن خَطَاءِ هَذِهِ الفِرق عَلى اختِلافِ حُجَجِها فِى دِينِها. لا يَقْتَصُّونَ أَثَرَ النَّبِى وَلا يَقْتَدُونَ بِعَمَلِ وَصِىٍّ وَلا يُؤْمِنُونَ بِغَيْبٍ وَلا يَعِفُّونَ عَنْ عِيْبٍ. يَعْمَلُونَ فِى الشُّبَهات وَ يَسِيرُونَ فِى الشَّهَواتِ اَلْمَعْرُوفُ فِيهِم ما عَرَفوا وَالْمُنْكَرُ عِنْدَهُم مَا اَنْكَرُوا مَفْزَعَهُم فِى الْمُعْضِلات اِلى اَنْفُسهم...

-Hər qəlb sahibi ağıllı deyil *(ki, həqiqətləri anlasın),* hər qulağı olan *(haqqı)* eşitməz, hər baxan göz görməz *(ki, ruzigarın hadisələrindən ibrət alsın).* Dini dəlilləri bir-birinə zidd olan bu müxtəlif firqələrin səhv işlərinə və xətalarına *(onlar hər bir işdə öz dəlillərinə əsaslanırlar),* heç bir peyğəmbərin yolunu davam etdirməmələrinə, heç bir canişinin əməlinə tabe olmamalarına, qeybə *(Allaha və qiyamət gününə)* inanmamalarına, pislikdən *(haram və şübhəli şeylərdən)* çəkinməmələrinə necə heyrətlənməyim?! Şübhələrə *(onlar üçün naməlum olanlara öz nadürüst rəylərinə əsasən)* əməl edib nəfsi-istəklərinə tabe olurlar. Onlar arasında yaxşı və bəyənilmiş özlərinin yaxşı bildikləridir, onların nəzərində pis və bəyənilməyən isə özlərinin pis hesab etdikləridir. Çətinliklərdə sığınacaqları pənah yerləri özləridir.[1] Örtülü işlərdə *(İlahi elmlərdə)* öz *(nadürüst)* rəylərini *(hətta ağıla zidd olsa belə)* əsas götürürlər. Sanki onlardan hər biri *(dini məsələdə)* gördüyü hər bir şeydə *(bəyan etdiyi hər bir məsələnin hökmündə)* özü-özünün qırılmaz iplərdən və möhkəm dəlillərdən yapışmış Imamıdır *(onlara istinad edir, öz nadürüst rəyinə əsasən ictihad etdiyi hər bir hökmün İlahi hökm kimi olduğuna inanır).*

Hədəf tamamilə itib aradan getmişdi. Əsas hədəf nə idi? Həzrət Peyğəmbər(s) nə üçün gəlmişdi? Həzrət Peyğəmbər(s) insanları bütpərəstlikdən çıxarıb Allaha pərəstiş etmək üçün göndərilmişdi.

İmam Hüseyn(ə) cəddinin dinini qoruyub saxlamaq üçün Yezidin qarşısında dayandı. Yezid elə bir insan idi ki, onun nə dini, nə də insanlığı var idi. Belə bir insan müsəlmanlara

---

[1] Çətin hökmlərin həllində özlərinə müraciət edir, Allah və Peyğəmbərin buyurduqları ilə zidd olsa belə öz rəylərinə uyğun rəftar edirlər

hakim kəsilmək istəyirdi. İmam Hüseynin(ə) başını teştin içinə qoyub məclisə gətirdilər. Müsəlman və qeyri müsəlmanlar, müxtəlif ölkələrin səfirləri həmin məclisə dəvət olunmuşdu. Qeyri müsəlmanların bəzisi ayağa qalxıb Yezidin bu alçaq hərəkətinə öz etirazlarını bildirdilər. Öz Peyğəmbərinin balasının(ə) başını qızları qarşısında teştin içinə qoyub ağacla dodaqlarına vurursan? Etdiyin hərəkətdən utanmırsanmı?

Orda əyləşənlərin bəzisi dedi: Bu işi görmə. Sənin üçün təhlükə yarana bilər. Yezid dedi: Hər nə yaranır, qoyun yaransın. Əlindəki çubuqla İmam Hüseynin(ə) mübarək dodaqlarına və dişlərinə vura- vura şeir oxuyurdu. Onun oxuduğu şerin bir hissəsi Peyğəmbər(s) zamanında bir müşrikin oxuduğu şeir idi. Sonradan həmin müşrik dönüb müsəlman oldu və daha belə şeir oxumadı. Amma Yezid ağına- bozuna baxmayaraq, onun şerlərindən bir-iki misra oxuduqdan sonra öz şerlərini də həmin sətirlərə qoşub oxudu:

لَيْتَ اَشْياخِى بِبَدْرٍ شَهِدُوا  جَزَعِ الْخَزْرَجِ مِن وَقعِ الأَسَل

لَأَهَلُّو وَسْتَهَلُّوا فَرَحاً  ثُمَّ قَالُوا يَا يَزِيدُ لا تَشَل

قَدْ قَتَلْنا الْقَومَ من ساداتِهِم  وَعَدَلْناه بِبدْرٍ فَاعْتَدَل

لَعِبَت هَاشِمُ بِالْمُلْكِ فَلا  خَبَرٌ جَاءَ وَ لا وَحىٌ نَزَل

لَستُ مِن خَنْدَفِ اِنْ لَمْ اَنْتَقِم  مِن بَنِى اَحْمَدَ مَا كانَ فَعَل

-Kaş Bədr döyüşündə ölən ata babam və böyüklər görəydilər ki, bu gün Bədrin intiqamını alıram. Əgər onlar bu günü görsəydilər, fərəhlənib deyərdilər ki, əllərin var olsun, Yezid. Bəni-Haşim hakimiyyət məsələləri ilə oynadı. Indiyə qədər heç bir vəhy gəlməmişdir. Kim deyir ki, Peyğəmbərə(s) vəhy nazil olub? Əgər mən Əhmədin

(Peyğəmbərin) balalarından ata-babalarımın intiqamını almasam, heç öz qəbiləmin balası deyiləm.

Yezid həyasızcasına bü sözləri deyirdi. Həzrət Peyğəmbər(s) insanları bütpərəstlikdən çıxarıb, Allaha pərəstiş etmək üçün gəlmişdi. Amma İmam Hüseynin(ə) zamanında bütün dini dəyərlər xasiyyətini itirmiş və hədəf unudulmuşdu. Yezid və onun atası açıq-aşkar dindən çıxdıqlarını, nanəcib hərəkətləri öz boyunlarına almışdılar. İmam Həsən(ə) dünyadan gedəndən sonra Müaviyə minbərə çıxıb bağladığı müqaviləni ayağının altına qoyub dedi: Camaat, Həsən ibn Əli ilə bağladığım müqaviləni ayağımın altına qoyuram. Onunla bağladığım bütün şərtlər indi mənim ayaqlarımın altındadır. Müaviyə bu hərəkəti ilə bildirmək istəyirdi ki, mən şərt bağlamışdım, amma şərtimi sındırıram. Bir vaxt bir söz demişdimsə, indi deməmiş olum. Yəni şərafət, insaniyyət, vicdan və ləyaqətin hamısını ayağımın altına qoyuram. Onların bu cinayətlərini saymaqla qurtarmaz. Bəni-Üməyyə elə bir nəsil idi ki, günləri cinayət etməklə keçirdi.

İmam Hüseynin(ə) zamanındakı cəmiyyət xəstəliyə düçar olmuşdu. Həzrət(ə) bu cəmiyyəti sağaldıb yuxudan oyatmaq istəyirdi. Bu xəstəliyin dərdinə moizə etmək və Quran oxumağın heç bir xeyri yoxdur. Yuxudan o adam oyanar ki, yatmış olsun. Istər bərk yatmış olsun, istərsə də sayıq, hər halda həmin şəxsi yuxudan oyatmaq mümkündür. Amma oyaq bir insanı çağırdıqda gəlmək istəmirsə, onu çağırırlar, cavab vermək istəmir.

نَحْنُ وَ بَنُو اُمَيَّة اِخْتَصَمْنا فِى الله عَزَّوَجَلَّ قُلْنا صَدَقَ الله وَ قالُوا كَذِبَ الله

İmam Hüseyn(ə) buyurur: “Bizimlə Bəni-Üməyyənin davası Allahın üstündədir. (Allaha görədir) Biz deyirik

Allahın sözləri doğrudur (Allah düz deyir), onlarsa deyirlər ki, Allah yalan deyir.”

Bu sözlər, kəlamlar və hərəkətlərdən çox aydın görünür ki, bu müharibə iki ərəbin müharibəsi deyil. Bu xəstə cəmiyyəti İmam Hüseyn(ə) islah edib düzəltmək istəyir. Əgər bu xəstəlik moizə və Quran oxumaqla düzəlmirsə, bəs İmam Hüseyn(ə) cəmiyyəti düçar olduğu bu xəstəlikdən hansı vasitə ilə qurtara bilər?

Allah-təala “Hücərat” surəsinin 10-cu ayəsində buyurur:

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ

-Həqiqətən bütün möminlər bir-biriləri ilə qardaşdırlar. Buna görə də qardaşınız olan iki şəxs və ya iki dəstənin arasını düzəldin.

Bu ayədə möminlərin bir-biri ilə qardaş olduğunu və aralarında bir problem yarandıqda onları islah etmək bəyan edilir.

Bu məsələyə “Ənfal” surəsində də belə işarə olunmuşdur:

فَاتَّقُواْ اللّهَ وَأَصْلِحُواْ ذَاتَ بِيْنِكُمْ

-Allahdan qorxun, aralarınızdakı əlaqələri islah edib düzəldin.

Qeyd etdiyimiz ayələr iki mömin və ya bir neçə möminin arasında hər hansısa ixtilaf, söz-söhbət düşdükdə onların arasında islah yaratmaq təkid olunmuşdur. Bir sıra ayələr də vardır ki, Allah-təala iki tayfa arasında münaqişə yarandıqda islah etməyi əmr edir. “Hücərat” surəsinin 9-cu ayəsində belə buyurur:

وَإِن طَائِفَتَانِ مِنَ الْمُؤْمِنِينَ اقْتَتَلُوا فَأَصْلِحُوا بَيْنَهُمَا

-Əgər möminlərdən iki tayfa bir-biri ilə vuruşsa, onları islah edib düzəldin.

Birdən əgər bir cəmiyyət başdan-ayağa xəstəliyə düçar olarsa, onları islah etmək lazım deyilmi? Iki nəfərin və ya iki dəstənin arasında problem olduqda onların arasını düzəltmək üçün belə təkidlə ayələr nazil olmuşdur. Əlbəttə, cəmiyyətin də islah olması üçün ayələr vardır. Ümumiyyətlə, cəmiyyəti islah etmək peyğəmbərlərin hədəfi idi. “Hud” surəsi belə buyurur:

إِنْ أُرِيدُ إِلاَّ الإِصْلاَحَ مَا اسْتَطَعْتُ

-Mən yalnız bacardığım qədər *(cəmiyyətin vəziyyətini)* islah etmək istəyirəm.

Bu xəstə cəmiyyəti İmam Hüseyn(ə) islah edib vəziyyətini düzəltmək istəyir. Hər cür danışıqlar, moizələr, təşkil olunan məclislər bu dərdi aradan götürə bilmədi. Həzrət(ə) Mədinədən çıxarkən qardaşı Məhəmməd Hənəfiyyəyə bir vəsiyyətnamə yazdı:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ هذا ما اوصى به لحسين...

وَاِنِّی لَمْ اَخْرُج اَشِراً وَ لا بَطِرًا وَ لا مُفْسِدًا وَ لا ظالِماً وَ اِنَّما خَرَجْتُ لِطَلَبِ الإِصْلاح فِی اُمَّةِ جَدِّی

-Mən nə gəzib dolanmaq üçün Mədinədən yola düşürəm, nə də yer üzündə zülm edib fəsad törətmək üçün. Mənim bu səfərim ancaq cəddimin ümməti arasında islahat aparmaq üçündür.

Həzrət(ə) Minada xütbə oxuyarkən xütbənin axırında belə buyurdu:

اَللّٰهُمَّ اِنَّكَ تَعلم اَنَّهُ لَمْ يَكُن مَا كانَ مِنّا تَنافُسًا فِى سُلْطانٍ وَ لا اِلتِماساً مِن فُضُولِ الحُطام وَلكنَّ لِنُرِىَ الْمَعالِمَ مِن دِينِكَ وَ نُظْهِرَ الإِصلاح فِى بِلادِكَ وَ يَأمَن الْمَظْلُومُونَ مِن عِبادِكَ وَ يُعْمَل بِفَرائِضِك وَ سُنَنِكَ وَ اَحْكامِك

-İlahi, həqiqətən Sən bilirsən ki, mənim bu ağır səfərə çıxmaqda səltənət və dünya qazanmaq niyyətim yoxdur. Mən Sənin dininin ucalması, müsəlmanların şəhərlərinin abad və islah olması, məzlum bəndələrin amanda yaşaması, dinin şəriətinə, Peyğəmbərin sünnəsinə əməl olunması üçün çıxmışam.

İmam Hüseyn(ə) bu cəmiyyəti islah etmək üçün iki ümdə məsələni bəyan edərək hərəkətə başladı. Birinci məsələ budur ki, bütün insanlara Yezidin fasiq olduğunu sübut etdi. Bütün dünyaya başa saldı ki, Peyğəmbərin(s) yerində fasiq, əyyaş, cinayətkar bir insan xəlifə ola bilməz. Bəni-Üməyyə və onun murdar töröməsi olan Yezid İslam ümmətinin başında əyləşməklə mərufu münkər və münkəri də məruf kimi tanıtdırmaq istəyirdi. İmam Hüseyn(ə) sübut etdi ki, məruf elə mərufdur, münkər də münkər. Yezid fasiq və fasid bir adamdır. İmam Hüseyn(ə) bütün bu hadisənin başlanğıcında buna işarə etmişdi. Belə deyildi ki, İmam Hüseyn(ə) bir gün bu sözü buyursun, sabah onun əksinə, başqa söz desin. Sözü bir dəfə buyurardı və axıra qədər də həmin sözün üstündə dayanırdı. Vəlid ibn Ütbə İmam Hüseyni(ə) dəvət edib, Yezidin məktubunu oxuduğu zaman Həzrət(ə) buyurdu:

اَيُّهَاالأَمِير ...وَيَزِيدُ رَجُلٌ شارِبُ الْخَمر وَ قاتِلُ النَّفسِ مُحْتَرَمَ مُعلِنٌ بالْفِسق لَيْسَ لَهُ هذهِ الْمَنْزَلَة وَ مِثْلِى لا يُبايِعُ مِثْلَه وَلكِن نُصْبِح وَ تُصْبِحُون وَ نَنْظُر وَ تَنْظُرُون اَيُّنا اَحَقُّ بْالْخِلافَة وَالْبَيعَة

-Ey əmir, ...Yezid isə şərab içən, adam öldürən, qan tökən, cinayətkar bir insandır. O, açıq-aşkar günah işlər görən fasiqdir. Onun

İslama hakimlik etməyə ləyaqəti yoxdur. Mənim kimi insanlar onun kimi insanlara heç vaxt beyət etməz.

Səhərisi gün Mərvan İmam Hüseynə(ə) öz fikrini bildirərkən Həzrət(ə) onun cavabında buyurdu:

اِنّا لِلّهِ وَ اِنّا اِلَيْهِ راجِعُون, وَعَلَى الإِسْلاَمِ اَلسَّلام اِذا بُلِيت الأمة بِراعٍ مِثْلَ يَزِيد وَلَقَد سَمْعِتُ جَدِّى رَسُول الله(ص) يَقُول: الخلافة محرمة على آل ابى سفيان, فَإِذا رَأَيْتُم مُعاوِيَة عَلى مَنْبَرِى فَأَبْقَروا بَطْنَهُ وَقَد رآه اَهْل الْمَدِينة عَلى مَنْبَر فَلَم يبقَروا فَابْتلاهُم الله بِيزِيد الفاسِق

-Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq. Əgər Yezid kimi bir insan ümmətə başçılıq edəcəksə, o zaman gərək İslamın fatihəsi oxunsun. Allahın Rəsulundan(s) eşitdtim ki, buyurdu: “Xilafət Əbu Süfyan ailəsinə haramdır. Müaviyəni mənim minbərimdə gördükdə qarnını yırtıb onu aşağı salın.” Amma Mədinə əhli onu Peyğəmbərin(s) minbərində görüb etiraz etmədiklərinə görə Allah bu camaata fasiq Yezidi mübtəla etdi.

İmam Hüseynin(ə) ikinci sözü və hədəfi belə idi: “Yezidə beyət etməməyim iki haldan xaric deyil. Biri budur ki, beyət etməməyimi Yezid başa düşüb geri çəkilməli və camaat da azad şəkildə ürəyi istədiyi adama beyət edər. Ikincisi budur ki, mən beyət etməsəm və Yezid də geri çəkilməsə, mən sakit dayanmayacağam. Çünki əgər mən beyət etməsəm belə, yenə camaat deyəcək ki, Hüseyn ibn Əli(ə) bu məsələləri görüb nə üçün etiraz

etmədi. Belə olduqda gərək mən bu yolda ölüm və Yezidin fisqini, cinayətlərini görməyim. Ya mən onu hakim olmağa qoymayacağam, ya da öləcəyəm, bu cinayətləri görməyəcəyəm. Sonra qoy deməsinlər ki, bütün bu cinayətlər Hüseyn ibn Əlinin(ə) gözü qarşısında oldu. Mən heç vaxt bu zilləti qəbul edə bilmərəm. Razı olmaram, mən sağ qaldığım halda Yezid öz cinayətkarlığında olsun. Yezidin səlahiyyəti yoxdur ki, Peyğəmbərin(s) yerində əyləşsin. Kimin yerində istəyir əyləşsin, amma mən qoymaram onu Peyğəmbərin(s) yerində oturub müsəlmanlara hakim kəsilsin. İmam Hüseyn(ə) camaatı bu barədə danışığa dəvət edirdi. Yalnız bu yolla ümməti islah etmək mümkün idi. Həzrət(ə) dildə camaatı əmr be məruf etdi və bu yolda ölməyə hazır olduğunu bildirdi. Əgər mən bu yolda ölməyə hazıramsa, bəs siz nə üçün narahat olursunuz? Hamı bilirdi ki, əgər İmam Hüseyn(ə) ölsə, Yezidin hakimiyyəti baş tutmayacaq. Hətta Müaviyə də bunu çox gözəl bilirdi. Oğlu Yezidə başa salmışdı ki, hakimiyyətə keçəndən sonra Hüseyn ibn Əli(ə) ilə işin olmasın. Bilirdi ki, əgər Hüseyni(ə) öldürsə, hakimiyyətdə qala bilməyəcək.

İmam Hüseyn(ə) bütün çıxışlarında və söhbətlərində bütün bu hadisənin hər bir halda necə qurtaracağına işarə edirdi.

Məkkədən hərəkət etməzdən öncə bir xütbə oxudu. Bu xütbənin axırında belə buyurdu:

اَلا وَ مَنْ كَانَ فِينا باذِلاً مُهْجَتَهُ مُوَطِّناً عَلى لِقاءِ اللهِ نَفْسَهُ ، فَلْيَرْحَل مَعَنا فَانِّى راحِلٌ مُصْبِحاً اِنْشاءَ اللهِ

-Mən sabah sübh hərəkət edirəm və hər kim canından keçməyə hazırdırsa, bizim yolumuzda öz qanını axıtmaq

qərarına gəlibsə və Allaha qovuşmaq istəyirsə, sabah sübh hərəkət etsin ki, mən o vaxt gedirəm, inşallah.

Həzrət(ə) Kərbəlaya daxil olandan sonra xütbə oxudu. Həmin xütbədə bu barədə belə buyurur:

فَإِنِّ لا اَرى الْمَوت اِلاّ سَعادَة والحياةَ مَعَ الظّالِمِين الا بَرَمًا

-Mən ölümü səadət və zalımlarla, namərd insanlarla birgə yaşamağı zillətdən başqa bir şey görmürəm. Heç vaxt bu zilləti qəbul etmərəm.

İmam Hüseyn(ə) aşura günü camaatın qarşısında xütbə oxudu. Həmin xütbənin sonunda belə buyurdu:

اَلا اِنَّ الدَعِىَّ بْنَ الدَّعِىّ قَدْ رَكَزَ بَيْنَ اثْنين بَيْنَ السِّلَّةِ وَ الذِّلَة هِيهاتَ مِنَّا الذِّلَة

-Bilin ki, alçaq kişinin oğlu alçaq məni qılıncla zillət arasında qoyub. Mən ya gərək zilləti qəbul edim, ya da qılınclar məni doğramalıdır. Heyhat, zillət bizdən uzaqdır. Mən heç vaxt onlara zillət əli uzatmayacağam.

Həzrət(ə) bütün çıxışlarında çox açıq danışıb sözlərini camaata çatdırırdı. Həzrət(ə) hər bir sözü dəqiqliklə camaata çatdırırdı ki, üstündən min il keçmiş olsa da belə, uşaqlı-böyüklü məsələnin nə yerdə olduğunu bilsinlər. Həzrətin(ə) kiminləsə gizli bir danışığı yox idi. Vəlidin imarətgahında ona dediyi sözləri aşura günü Həzrəti(ə) öldürmək üçün yığışan otuz min nəfər əli silahlının qarşısında da söylədi. Ümmətin arasında hədəf aradan gedib itdiyi üçün İmam Hüseyn(ə) bu xəstəliyin müalicəsinin yolunu iki şeydə gördü. Ya öz dediyini etməli, ya da o günü görməmək üçün bu yolda ölməlidir. İmam Hüseynin(ə) bu məntiqi və bu hərəkəti bütün dünyaya başa saldı ki, zülmə qarşı mübarizə olmalıdır. Səadət və şərəf axtarışında olan bütün insanlar gərək İmam Hüseyndən(ə)

bu dərsi öyrənsinlər. Bu məsələ iki ərəbin məsələsi deyil. Bu hadisə izzətlə zillətin, səadətlə bədbəxtliyin müharibəsidir.

Mahatma Qandi İmam Hüseynin(ə) yolunu davam etdirdiyi üçün öz məqsədinə çatdı. Çünki o, xoşbəxtliyin yolunu yalnız İmam Hüseynin(ə) məktəbini keçməklə əldə etdi. Onu zindana salmışdılar. O belə deyirdi: ”Əgər bu yolda ölsəm, öz millətimin, xalqımın yolunda ölmüş oluram. Əgər qələbə çalsam, demək xain əlləri öz xalqımın üzərindən kəsmiş olacağam. Hər iki yol mənim üçün qələbədir. Bunların hər ikisi gözəldir. Insan bu yolda ya şəhadətə çatır, ya da istədiyinə çatır.” Qandi öz qızına bir məktub göndərdi. Məktubda belə yazılmışdı: “Qızım, əgər sağ qalıb zindandan çıxsam, nə etməyin lazım olduğunu mən özüm biləcəyəm. Amma əgər buradan sağ çıxmasam, Hüseyn ibn Əlinin(ə) barəsində olan kitabları oxuyub mənim yolumun davamını orada axtar. O, bizə bu yolu göstərmişdir. Mən bu inqilabı Hüseyndən(ə) öyrənmişəm.

*Sual olundu Qandidən, o, mərdi inqilabidən,*
*Kim oldi bu nehzətində məlhəmin, kim oldi şeyxi şabidən?*
*Cəvabidür sərahətən o möhtərəm cənabidən,*
*Yetib mənə bu fəlsəfə Hüseyn yazan kitabidən,*
*Ələmdə tabeəm onun qiyami neynəvasinə.*

İmam Hüseyn(ə) necə söyləmişdisə, eləcə də əməl etdi. Yəni söylədiyi sözləri əməldə həyata keçirdi. Zərrə qədər də olsun bu yolda qorxu hiss etmədi. Aşura günü tam arxayınçılıqla insan axınının qarşısında dağ kimi dayandı. Dağı heç bir əsən külək, qopan tufan yerindən tərpədə bilmədiyi kimi, belə bir izdiham və müharibə İmam Hüseyni(ə) öz əqidəsindən və yolundan döndərə bilmədi. Bəzi tarixlərdə yazırlar ki, İmam Hüseyn(ə) döyüş

meydanında təbəssümlə döyüşürdü. Zərrə qədər də olsun onun çöhrəsində qorxu və nigarançılıq yox idi. Çünki eşqlə meydana daxil olmuşdu. Allahın yolunda, dinin diri qalması uğrunda hər şeyindən keçdi. Oğlu Əli Əkbəri meydana yola salarkən əlini saqqalına çəkərək buyurdu: "İlahi, Sən özün şahid ol, döyüşə elə bir cavan göndərirəm ki, xilqətdə, əxlaqda və danışıqda hamıdan çox Peyğəmbərə(s) oxşayır." Hər bir döyüşçü meydana gedərkən İmam Hüseyn(ə) ona buyurardı: "Əgər meylin yoxdursa, getmə meydana. Çıx get, yaşa özünçün."

Əgər bu məsələ dünyaya, vəzifəyə görə olsaydı, heç kəs imkan verməzdi ki, kimsə döyüşdən çıxıb getsin. Amma İmam Hüseyn(ə) aşura gecəsi bütün yar və ənsarı, hətta qardaşları ilə bu barədə söhbət etdi. Çıraqları söndürtdürdü və elan etdi ki, kim istəyirsə, çıxıb gedə bilər. Hamıdan beyətimi geri götürürəm. Bunların davası mənimlədir. Kim hara getmək istəyir, getsin. İmam Hüseyn(ə) Allahla belə münacat edirdi:

تَرَكْتُ الْخَلْقَ تُرًّا فِى هَواكا          وَ اَيْتَمْتُ الْعَيال لِكَى اَراكا

وَلَو قَطَّعْتَنِى فِى الْحُبِّ عِرْبا          وَما حَنَّ الْفُؤاد اِلى سِواكا

-İlahi, mən Sənin yolunda hər nəyim vardısa, hətta əhli-əyalım, uşaqlarımdan belə keçirəm. Əgər mənim bədənimi tikə-tikə doğrasalar belə, qəlbimdə Sənin (Sənin Peyğəmbərinin və dininin) eşqindən savayı heç kəs yoxdur.

*Ya Rəbb, tamame aləme imkan səninkidir,*
*Zərrate kainat kəma-kan səninkidir.*
*Əvvəldən afərineşə vabəstə hər nə var,*
*Ayəndəvu güzəştəvu əlan səninkidir.*
*İlahi, mən də səninkiyəm, nəyim olsun nəyim mənim?*
*Bəndə sənin vüzu sənin qan səninkidir.*

*Bir xeymələr ki, orda daldalanır əhli- beyti Şam,*
*Od vursa düşmən, eyləsə talan səninkidir.*
*Səs gəldi qeybdən, Mən özüm yarüvəm, Hüseyn,*
*Bu qəmsəraye eşqdə qəmxarüvəm, Hüseyn.*
*Qoymullar gər ziyarətüvə əhli-beytivi,*
*Ərvahi ənbiya ilən zəvvarüvəm, Hüseyn.*
*Eşqin bir olsun at nəzərünnən Rüqəyyəni,*
*Mən saxlaram o tifli nigəhdarüvəm, Hüseyn.*

Allah-təala İslamı Hüseynin(ə) qanı ilə diri saxladı. Hər kəs İslamdan söhbət açırsa, Hüseynin(ə) adını çəkməyə borcludur. Çünki İslam onun qanı sayəsində diri qaldı. İslam Hüseynin(ə) qanına minnətdardır. Bizim namaz qılıb, şəriətə əməl etməyimiz onun qanının nəticəsindədir. Əgər Hüseynin(ə) bu hərəkatı olmasaydı, İslamın qovluğunu bağlayacaqdılar. İmam Hüseyn(ə) öz vəzifəsini bilirdi və heç bir şey onu öhdəsinə düşən vəzifəni yerinə yetirməkdən ayrı sala bilmədi. Bütün dünyaya öyrətdi ki, Hüseynçi, Hüseyn yolunu gedənlər qiyamətə qədər Yezid kimi insanlara beyət əli uzatmayacaq.

İlahi, bizi dünya və axirətdə Hüseyndən(ə) ayrı salma!

İlahi, İmam Hüseyn(ə) xatirinə aqibətimizi xeyirlə xətm elə!

İlahi, dünyada müsəlmanlara zülm edənləri məhv elə!

İlahi, müsəlmanların işğal olunmuş torpaqlarını azad elə!

İlahi, Səni izzətinə and veririk, müsəlmanlara izzət bəxş elə!

***Allahın rəhməti və bərəkəti olsun sizlərə.***

## MÜNDƏRICAT


ƏHLİ-BEYT(ə) ..........................................................................
**BIRİNCİ DƏRS ...................................................................**
Allah yolunda fədakarlıq ..................................................
**İKİNCİ DƏRS ......................................................................**
Tövbə ....................................................................................
Hürr kim idi? ........................................................................
İmamın(ə) xütbəsi və Hürrün tövbəsi ................................
**ÜÇÜNCÜ DƏRS ...................................................................**
Moizənin təsiri və haram yeməklərdən uzaqlaşmaq .........
Ölümü xatırlamaq ən gözəl moizələrdəndir ......................
Təcrübə ..................................................................................
Ruzigar ..................................................................................
Haram yemək moizənin təsirini itirir ................................
**DÖRDÜNCÜ DƏRS ..............................................................**
Namazın əhəmiyyəti ...........................................................
Namaz qılmaq hər bir müsəlmana vacibdir ......................
Namazı vaxtlı-vaxtında qılmaq ........................................
Camaat namazı .....................................................................
**BEŞİNCİ DƏRS ....................................................................**
İslamda ailə və fikir həmrəyliyi .......................................
İslamda ailə ...........................................................................
Kərbəla və ailə ......................................................................
**ALTINCI DƏRS ....................................................................**
Nəfslə mübarizə ...................................................................
Insanın ziddiyyətli cəhətləri .............................................
Kərbəla nəfslə mübarizə dərsini öyrədir ..........................
Əmr ibn Qərzə Ənsari .......................................................
Məhəmməd ibn Bişr Həzrəmi ...........................................
Nafe ibn Hilal .......................................................................
Abdulla ibn Müslüm ...........................................................
Vəhəb ibn Abdulla ...............................................................

Həzrət Xanm Zeynəb(s.ə) ................................................
Həzrət Əbülfəzl(ə).........................................................
Həzrət İmam Hüseyn(ə) ..................................................
**YEDDİNCİ DƏRS.........................................................**
Əmr be məruf və nəhy əz münkər....................................
İnsan fitrətən ictimai (mədəni) bir məxluqdur .................
Nəzəri və əməli hikmət ...................................................
Təhzibi nəfs (əxlaqını təmizləmək)..................................
Tədbiri mənzil (ailədə islahatlar aparmaq).......................
Siyasəti mudun ...............................................................
Quran baxımından bu üç mərhələ ...................................
Əmr be məruf və nəhy əz münkər və ya milli nəzarət........
İslam və ictimai məsuliyyət..............................................
Quran və əmr be məruf və nəhy əz münkər ......................
"La ilahə illəllah" kəlməsi əmr be məruf və nəhy əz münkər etməklə qorunur .................................................
Əmr be məruf və nəhy əz münkərin şərtləri......................
Əmr be məruf və nəhy əz münkərin mərhələləri .............
İmam Hüseyn(ə) və əmr be məruf, nəhy əz münkər.........
**SƏKKİZİNCİ DƏRS .....................................................**
Aşura qadınlarının Kərbəlada bütün dünya qadınlarına öyrətdiyi dərslər.............................................................
Qadınlar da kişilər kimi mükəlləfdir ................................
Peyğəmbər(s) dövründə qadınların qəhrəmanlığı ............
Lübeynə............................................................................
Zinnirə .............................................................................
Nəhdiyyə .........................................................................
Ümmi Şərik Əsədi............................................................
Ümmi Vərəqə ..................................................................
Ümmi Ətiyyə...................................................................
Nəsibə..............................................................................
Ümmi Eymən ..................................................................

Söda ............................................................................
Süraqə .........................................................................
İmam Hüseyn(ə) nəyə görə qadınları özü ilə Kərbəlaya aparmışdı? ...........................................................
1-ci cavab .....................................................................
2-ci cavab .....................................................................
3-cü cavab.....................................................................
4-cü cavab.....................................................................
5-ci cavab .....................................................................
6-cı cavab .....................................................................
7-ci cavab .....................................................................
Kərbəlada iştirak edən qadınların bütün dünyaya öyrətdiyi dərslər .........................................................................
1. Dil və cihad ..............................................................
2. Zəmanənin Imamına(ə) itaət və Allah yolunda fədakarlıq...................................................................
3. İxlas və Allaha bəndəçilik.........................................
4. Hicab ...........................................................................
5. Haqqı müdafiə etmək .................................................
**DOQQUZUNCU DƏRS...............................................**
İxlas .............................................................................
**ONUNCU DƏRS .........................................................**
Qeyrət ...........................................................................
Qeyrətin əhəmiyyəti .....................................................
Qeyrətin mənası.............................................................
Hərəm və hərimin mənası ..............................................
Dinin qeyrətini çəkmək ..................................................
Vətənin qeyrətini çəkmək...............................................
Can və malın qeyrətini çəkmək.......................................
Namusun qeyrətini çəkmək.............................................
Allahın bütün peyğəmbərlərinin qeyrəti idi ....................
**ON BİRİNCİ DƏRS.....................................................**

Dünya mahiyyətinin izahı ...............................................
İnsan bu dünyada qonaqdır ...........................................
**ON İKİNCİ DƏRS ....................................................**
Vəfa ...........................................................................
Allahla əhd-peyman bağlamaq ........................................
Peyğəmbərlə(s) əhd-peyman bağlamaq ..........................
İnsanın özü ilə Allah arasında bağladığı əhd-peyman ......
İnsanlarla əhd-peyman bağlamaq ....................................
Aşura vəfadarları .........................................................
Səhabələrin sözləri ........................................................
**ON ÜÇÜNCÜ DƏRS ....................................................**
Fütuvvət və comərdlik ....................................................
Kərbəla qəhrəmanlarının comərdliyi ...............................
**ON DÖRDÜNCÜ DƏRS ...............................................**
Allahın razılığı və Allaha təslim ......................................
**ON BEŞINCİ DƏRS ....................................................**
İsar və fədakarlıq ............................................................
İsarın mənası ...................................................................
Müvasatla isarın fərqi ......................................................
**ON ALTINCI DƏRS ....................................................**
İzzət və azadlıq ...............................................................
Aşura iştirakçılarının hərəkətlərində izzətin nümunələri ...................................................................
İbn Ziyadın yazdığı məktub və İmam Hüseynin(ə) reaksiyası ......................................................................
Müslüm ibn Ovsəcənin həyat yoldaşı ..............................
Vəhəbin anası və həyat yoldaşı .......................................
**ON YEDDİNCİ DƏRS ................................................**
Dində zülm və azğınlığa qarşı mübarizənin zəruriliyi ......
İnsanın qiymətinin ölçüsü ...............................................
Allaha mərifət tapmağın yolları .......................................
Nəticə ..............................................................................

İmam Hüseyn(ə) kimdir? ..................................................
Bəni-Üməyyə kim idi? ......................................................
İmam Hüseynin(ə) nəzərində Müaviyənin kimliyi .............
İmam Hüseynin(ə) Minada oxuduğu xütbə.........................
İmam Hüseynin(ə) Müaviyəyə yazdığı mühüm bir
məktub ..........................................................................
Müaviyənin məclisində İmam Hüseynin(ə) xütbəsi ...........
Zülm və azğınlığa qarşı mübarizənin zəruriliyi ................